В статье говорится, что стратегическое мировоззрение, смелость и способность брать на себя огромную ответственность Гейдара Алиева, завоевавшего имидж вечной фигуры в истории, стали важным фактором в определении будущего нефти и подписании «Контракта века». На следующем этапе углеводородной эпопеи политическим преемником Гейдара Алиева стал президент Азербайджана Ильхам Алиев, обеспечивший практическую реализацию нефтяной стратегии. После 44-дневной Победоносной войны, Великое Возвращение и процветающий Азербайджан открывают новые перспективы и новые цели. Новая эпоха, современный цивилизованный лидер, результаты победы открывают нашему народу новую эпоху возрождения.

# "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN NEFT STRATEGİYASININ TƏNTƏNƏSİDİR

**Abdullayev Nofəl Mahmud oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt Azərbaycan, baş müəllim*
nofal.abdullayev@sdu.edu.az

***Açar sözlər:*** *Azərbaycan Respublikası, neft strategiyası, Cənubi Qafqaz, enerji təhlükəsizliyi, neft kəməri, müqavilə*

***Xülasə:*** *Əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan neft strategiyasını mərhələli şəkildə həyata keçirən Azərbaycan, regional inteqrasiya və əməkdaşlıq çərçivəsində xarici siyasət həyata keçirmişdir. Enerji sahəsində başlayan əməkdaşlıq Azərbaycanın Türkiyə və Gürcüstan kimi region ölkələri arasındakı iqtisadi, siyasi və hərbi münasibətlərin inkişafına də öz töhfəsini vermişdir. Region ölkələri arasında hərtərəfli münasibətlərin inkişafı Qafqaz regionundakı təhlükəsizlik problemlərinin həllində də mühüm rol oynayır.*

1993-cü il müstəqil Azərbaycan dövlətinin və dövlətçiliyinin tarixində həlledici mərhələnin başlanğıcı olmuşdur. Hakimiyyətə Ümummilli lider Heydər Əliyevin gəlişi Azərbaycanın həm dövləti varlığını xilas etmiş, həm də ölkəmizin dayanıqlı inkişaf magistralına çıxmasına şərait yaratmışdı. Zamanın tələblərinə adekvat cavab verən iqtisadi siyasətin ardıcıl surətdə və qətiyyətlə həyata keçirilməsi Heydər Əliyev rəhbərliyinin ilk öncə sistem böhranının xalq təsərrüfatındakı nəticələrini aradan qaldırmaq, daha sonra isə ölkəni dayanıqlı inkişaf yoluna çıxarmaq və rəqabətəqabil ölkələr sırasına yüksəltmək strategiyasının mündəricəsini təşkil edirdi.

Bəhs olunan dövrdə Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında "Əsrin kontraktının" praktiki realizasiyasının başlanılması ilə xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə cəlb etmək üçün fəal işlərə başlanılır. Bu məqsədlə 1993-cü il avqust ayının 17-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirilmiş görüş bu istiqamətdə həyata keçirilmiş ən mühüm tədbirlərdən biri idi [5, s. 60].

Bir çox ölkəyə mənsub transmilli şirkətlərin müqavilədə iştirak etməsi ilə "Əsrin müqaviləsi" beynəlxalq xarakter daşımışdır. Bu nöqteyi nəzərdən də bu müqavilə qlobal xarakterli olmaqla regional qazanc gətirəcək çox mühim strategiyanın bir məhsuludur. Bu müqavilə imzalandıqdan sonra Azərbaycanın neft sektoruna iri həcmli xarici investisiyaların qoyulması prosesi başlanmışdır. "Əsrin müqaviləsi"nin reallaşması təkcə Azərbaycan üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Qafqaz və Orta Asiya regionu ölkələri üçün strateji əhəmiyyət daşıyır [9, s. 100]. Saziş regionda digər qlobal layihələrin həyata keçməsinə şərait yaratmış, Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırmış, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə tamamilə yeni bir mərhələnin başlanğıcını qoymuşdur [1].

Bu yataqlarda 511 milyon ton neft [7, s. 137], 70 milyard kubmetr səmt qazı ehtiyatının olduğu güman edilirdi. Müqaviləyə görə 55 milyard kubmetr səmt qazı haqqı ödənilmədən Azərbaycana verilirdi [8, s. 81]. 90 milyard kubmetr həcmində qeyri-səmt qazının isə, şərtləşdirildiyinə görə yataqların qaz laylarının işlənməsi hökumətin icazəsinə əsasən həmin konsorsiumla bağlanmalı olan ayrıca sazişdə nəzərdə tutulurdu. Bu müqavilə Milli Məclis tərəfindən təsdiq olunandan sonra 30 illik bir dövrü əhatə edəcəkdir [4, s. 21].

Digər layihələr üçün bazıs rolunu oynayan bu müqavilə Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm hadisə olmaqla yanaşı xalqımızın sosial və maddi rifahının yüksəldilməsində son dərəcə mühüm rol oynamış [2, s. 58], milli maraqlarımızın təmin olunması üçün də güclü strateji əhəmiyyətə malik idi. "Əsrin müqaviləsi" Azərbaycanın müstəqilliyinin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın dünyada analoqu olmayan templə davamlı inkişafı üçün dərin zəmin yaratmışdır [3, s. 40]. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə istismarına dair xarici neft şirkətləri ilə bağlanmış müqavilələrin son dərəcə böyük əhəmiyyəti var [6, s. 18].

Beləliklə, Əsrin müqaviləsi kimi nəhəng layihənin həyata keçirilməsi istiqamətində işlərin aparıldığı 1990-cı illərin ikinci yarısı – 2000-ci illərin əvvəlləri Azərbaycanın sosial-iqtisadi həyatında mühüm hadisələrlə zəngin dövr oldu. Statistik rəqəmlər bu dövrdə Azərbaycanın tədricən böhranı dəf etməsindən və daxili həyatın bütün sahələrində ciddi irəliləyişə nail olduğunu bariz şəkildə göstərirdi.

## Ədəbiyyat


1. Abdullayev R. ARDNŞ Dünya Enerji Xəritəsində, Sent 20 2013, http://www.ikisahil.com/index.php/analitika/item/7562-ardn%C5%9F-d%C3%BCnya-enerji-x%C9%99rit%C9%99sind%C9%99.html
2. Hacızadə M., Abdullayev Z.S., Neft Təsərrüfatinin iqtisadi Strukturunun Modernizasiyasi, Bakı, Elm, 2003, s. 58, http://elshanhajizadeh.com/upload/File/NSISM%20VI.pdf
3. Hüseynov A., Müstəqil Azərbaycan - 20: İqtisadi inkişaf yolu, "Azərbaycan" nəşriyyatı, Bakı, 2011, s. 40. səh. 328.
4. Əliyev Heydər, Əsrin Müqaviləsi artıq reallıqdır, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasi, s. 21.
5. Əliyev Heydər, Müstəqilliyimiz Əbədidir, Birinci Kitab, iyun 1993 - may 1994, Azərnəşr, Bakı, 1997, s. 60.
6. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. — Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 s. , P. 18.
7. Əliyev İlham, Azərbaycanın neft diplomatiyası, http://files.preslib.az/site/oil/gl3.pdf, s. 137, sehife 190
8. Алиев Ильхам, Каспийская нефть Азербайджана, МОСКВА, Известия, 2003. -712 с с. 81,
9. Мирзаджанзаде А.Х., Султанов Ч.А. Этюды нефтяной концепции Азербайджана, Баку, 1994, 100 с

**SUMMARY**
**THE CONTRACT OF THE CENTURY IS THE TRIUMPH OF AZERBAIJAN'S OIL STRATEGY**
***Abdullayev N.M.***

**Key words:** Azerbaijan Republic, oil strategy, the South Caucasus, energy security, oil pipeline, contracts
Azerbaijan, gradually implementing the oil strategy laid down by the national leader of Azerbaijan Heydar Aliyev, is implementing a foreign policy within the framework of regional integration and cooperation. The cooperation that began in the energy sector contributed to the development of economic, political and military relations between Azerbaijan, Turkey and Georgia in the region. The development of comprehensive relations between the countries of the region plays an important role in solving security problems in the Caucasus region.

**РЕЗЮМЕ**
**"КОНТРАКТ ВЕКА" - ТОРЖЕСТВО НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА**
***Абдуллаев Н.М.***

**Ключевые слова:** Азербайджанская Республика, нефтяная стратегия, Южный Кавказ, энергетическая безопасность, нефтепровод, контракт
Азербайджан, постепенно реализующий нефтяную стратегию, заложенную общенациональным лидером Азербайджана Гейдаром Алиевым, реализует внешнюю политику в рамках региональной интеграции и сотрудничества. Сотрудничество, начавшееся в сфере энергетики, способствовало развитию экономических, политических и военных отношений между Азербайджаном, Турцией и Грузией в регионе. Развитие всесторонних отношений между странами региона играет важную роль в решении проблем безопасности в Кавказском регионе.

# “ƏSRİN MÜQAVİLƏSİ”NİN AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ ROLU

**Abbasova Reyhan Əziz qızı**
*Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan, müəllim*
reyhanabbasova1967@gmail.com

***Açar sözlər:*** *“Əsrin müqaviləsi”, Azərbaycan iiqtisadiyyatı, neft qaz hasilatı, “Azəri-Çıraq-Günəşli” yataqları, neft sazişləri, “Əsrin müqaviləsi”nin iqtisadi əhəmiyyəti.*

***Xülasə:*** *Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış “Əsrin müqaviləsi” -xalqımzın və dövlətimizin taleyində mühüm rol oynamışdır. 1994-cü ilin sentyabrınn 20-də Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri-Çıraq- Günəşli” yataqlarının birgə işlənməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və dünyanın səkkiz ölkəsinin 13 aparıcı neft şirkəti ilə məhsulun pay bölgüsü tipli müqavilə imzalandı. “Əsrin müqaviləsi”nə gedən yol müxtəlif maneələr və çətinliklərlə dolu olsa da, Ümmummilli lider, görkəmli dövlət xadimi, Prezident Heydər Əliyevin möhkəm dövlətçilik əzmi və qətiyyətli siyasəti nəticəsində reallaşdı.*

“Əsrin müqaviləsi”nin bağlanması ilə Azərbaycanın enerji siyasətinin yeni mərhələsinin əsası qoyuldu və bu müqavilə Azərbaycanda neft-qaz tarixinin ən mühüm sazişinə çevrildi. “Əsrin müqaviləsi” Azərbaycanın neft və qaz yataqlarının işlənməsi istiqamətində investisiya qoymağa dəvət edilmiş ən böyük saziş oldu. Həm Azərbaycan, həm də region və dünya dövlətləri üçün müqavilənin əhəmiyyətini nəzərə alaraq Ümummilli lider Heydər Əliyev sazişə “Əsrin müqaviləsi” adını verdi.

“Əsrin müqaviləsi”nin reallaşması ölkəmizdə neft və qaz sektorunun inkişafına səbəb olan müasir texnologiyanın tətbiq edilməsi, uğurlu dünya təcrübəsinin mənimsənilməsi, yeni nəsil peşəkar kadr və mütəxəsislərin hazırlanmasını sürətləndirdi. Qeyd etdiyimiz müsbət dəyişikliklər respublikamızınn dünyanın əsas enerji mərkəzlərinə çevrilməsi ilə nəticələndi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətin qarşısında duran əsas strateji məsələlərdən biri respublikanın gələcək inkişafı üçün lazım olan maliyyə vəsaitini, kapitalı əldə

etmək idi. Lakin Cənubi Qafqaz bölgəsində mövcud regional qarşıdurma, qeyri-sabit ictimai-siyasi vəziyyət şəraitində ölkəyə investisiya cəlb etmək o qədər də asan deyildi. Həmin dövrdə siyasi analitiklərin bir çoxu Azərbaycana məxsus neft-qaz layihələrinin beynəlxalq konsersiumun iştirak edəcəyini qeyri- mümkün hesab edirdilər.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə qayıdışından sonra qonşu dövlətlərlə siyasi münasibətlər nizama salındı, Azərbaycanın beynəlxalq münasibətləri özünün yeni dövrünə qədəm qoydu, ölkədə ictimai-siyasi sabitliyin bərpa olunması ilə xarici investorlara ciddi dövlət təminatı verildi. Ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində Qərbin böyük neft şirkətlərinin diqqəti yenidən Xəzər dənizindəki neft və qaz yataqlarına yönəldi. "Əsrin müqaviləsi"nin bağlanması ilə bölgədə iqtisadi-siyasi maraqlarını təmin edən bərabər əməkdaşlıq və tərəfdaşlıq mühiti yaradıldı. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası və dünya dövlətləri arasındakı nüfuzunun formalaşmasında müqavilənin mühüm rolu oldu. Belə ki, müstəqil Azərbaycanın beynəlxalq səviyyədə bağladığı bu ilk enerji müqaviləsi ölkəni əsas enerji təchizatçılarından birinə çevirdi [1]. Azərbaycanın neft və qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması məsələsi "Əsrin müqaviləsi" imzalandıqdan sonra əsas hədəflərdən birinə çevrildi. Müqavilə imzalanana qədər Xəzər hövzəsini beynəlxalq bazarlarla əlaqələndirən boru kəmərləri şəbəkəsi hələ mövcud deyildi. Bu da təbii olaraq neftin satışı və daşınması üçün problemlər yaradırdı və ixrac maşrutlarının yaradılması barədə məsələləri aktuallaşdırdı. "Bakı-Novorossyisk kəməri" və alternativ olaraq Bakı-Supsa kəməri istifadəyə verildi neft ehtiyatlarımız dünya bazarına çıxarıla bildi.

Əsrin müqaviləsi bağlandıqdan sonra öz gələcək iqtisadi inkişafı üçün kifayət qədər maliyyə vəsaiti və müasir qabaqcıl texnologiyalar əldə etdi. Bununla da Azərbaycan qlobal dünya iqtisadiyyatının tərkib hissəsində əsas aparıcı dövlətlərindən birinə çevrildi. Statistik göstəricilərə görə "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılabilən neft ehtiyatları 511 milyon ton göstərilmişdir. [3]. Sonraki illərdə isə yeni qiymətləndirmələr nəticəsində bu göstərici 1.072 milyard ton həcmində müəyyənləşdirildi. Təkcə 2017-ci ilə qədər "Azəri-Çıraq-Günəşli" yataqlarının neft qaz ehtiyatlarının işlənməsinə 33 milyard dollar sərmaye yatırılmışdır. Əsrin müqaviləsi bağlandıqdan bügünə qədər bu yataqlardan 3.2 milyard barrel neft hasilatı həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, "Azəri-Çıraq-Günəşli" yataqlarında hasilat prosesində 30 milyard kub səmt qazı Azərbaycan hökümətinə təhvil verilmişdir. [2]. Neft- qaz sazişlərinin həyata keçirildiyi ötən dövr ərzində 2001-ci ildən bəri Azərbaycan dövlət neft fonduna daxil olmalar sürətlə artmış bütovlükdə 155.3 milyard ABŞ dolları olmuşdur. Əldə olunan vəsaitin böyük bir hissəsi dövlət büdcəsinə transfert olunmuş, müəyyən hissələri infrastruktur və sosial lahiyələrə yönəldilmişdir.

Azərbaycan Respublikası boru kəmərləri vasitəsilə 2006-ci ildən başlayaraq enerji ixracını sürətləndirdi və bunun nəticəsində ölkəyə daxil olan böyük maliyyə resursları iqtisadi tərəqqiyə gətirib çıxartdı. Respublika həyatının bütün sahələrində yenilənmə prosesləri özünün ən məhsuldar dövrünə qədəm qoydu, müasir sosial-iqtisadi və mədəni infrastrukturun inkişafı ilə nəticələndi. Neft müqavilələrinin bağlanmasında sonra ölkənin əldə etdiyi gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə və eləcə də qeyri-neft sektorunun dinamik inkişafına yönəldildi. Beləliklə, Ümumilli liderin Heydər Əliyevin apardığı düzgün xarici siyasət nəticəsində Azərbaycan dünyanın həm siyasi, həm enerji xəritəsində öz layiqli və əbədi yerini tutdu. Beynəlxalq xarakterli neft sazişlərinin imzalanması təkcə enerji siyasətinin həyata keçirilməsi demək deyildi. Ötən 30 il ərzində neft qaaz sazişlərinin uğurlu icrası prosesində ölkəmizə ciddi şəkildə beynəlxalq təcrübə və innovasiyalar gətirildi [5].

Bununla da neft qaz hasilatı, əmək şəraiti, əməyin mühafizəsi, maliyyə standartları müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırıldı. Qeyd etmək lazımdır ki, əsrin müqaviləsi imzalanandıqdan bügünədək müqavilə üzərində həyata keçirilən fəaliyyətlər təkcə Azərbaycan respublikasının deyil, bütün regionun inkişafına öz müsbət təsirini göstərdi [4]. Dünyanın böyük neft -qaz şirkətlərinin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi" özündən sonra hasilatın pay bölgüsü istiqamətində 30-dan çox sazişin imzalanmasına şərait yaratdı.

Nəticə olaraq qeyd edə bilərik ki, "Əsrin müqaviləsi"nin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində əhəmiyyətli rol oynadı və respublikamısın beynəlxalq nüfuzunun artması ilə nəticələndi. Sonrakı illər ərzində Azərbaycan 10 böyük beynəlxalq layihə həyata keçirərək, nəqliyyat yollarının, beynəlxalq standartlara cavab verən dəniz limanı və dəmir yollarının, neft və qaz borularının tikintisini həyata keçirdi. Neft gəlirlərinin artması iqtisadiyyatın bütün sahələrinin və ümumilikdə isə ölkənin iqtisadi və siyasi güçünün artmasına gətirib çıxardı. "Əsrin müqaviləsi"nin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində əhəmiyyətli rolunu aşağıda qeyd etdiyimiz əsas müddəalar sübut edir:

- "Əsrin müqaviləsi"nin həyata keçirilməsi dayanıqlı iqtisadiyyatın yaranmasına və güclənməsinə töhfə verdi;
- Əldə edilən yeni əhəmiyyətli gəlir mənbəyi kimi neft gəlirləri Azərbaycan dövləti üçün yüksək iqtisadi artımı təmin etdi;
- Azərbaycan Respublikasının beynəlxalq arenada yeni yaranmış ticari-iqtisadi əlaqələrini möhkəmləndirdi;
- Dənizdə karbohidrogen hasilatı sektorunu yenidən canlandırdı və ətraf mühitə mənfi təsiri minimuma endirın neft ixracı sistemi yaradıldı;
- Azərbaycan neftini dünya bazarlarına birbaşa nəql edən "Bakı-Tbilisi-Ceyhan" neft-boru kəmərinin yaradılmasını labüd etdi;
- Xəzər dənizi sahillərində dünyanın ən müasir neft-qaz emalı müəssisəsinin yaranmasına səbəb oldu;
- Böyük "Şahdəniz" karbohidrogen yatağının işlənməsi və bu layihənin uğurlu şəkildə həyata keçirilməsi sərmayədarlarda inam hissini artırdı;
- İlk dəfə olaraq Azərbaycan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya ərazilərindən keçərək İtaliyaya qədər nəhəng qaz nəqletmə zənciri vasitəsilə Avropa bazarlarına çıxış əldə etdi;
- Müasir standartlara cavab verən beynəlxalq səviyyəli istehsal, təlim və təhsil infrastrukturlarının yaradılmasını təmin etdi, respublikada mütəxəssislərin peşə və bacarıq səviyyələrini gücləndirdi;
- Rəqabətə davamlı yerli təçhizat şəbəkəsi formalaşdırıldı;
- Beynəlxalq səviyyədə peşakar kadrların, mühəndislərin yetişdirilməsinə şərait yaradıldı;
- Müqavilələrdə nəzərdə tutulan prosesləri həyata keçirərkən yerli infrastrukturlarda və tikinti sektorlarında on minlərlə yeni iş yerləri yarandı;
- Regionların gəlirli yerli və xarici biznes imkanları inkişaf etdi və Azərbaycan Respublikası müsbət dəyişikliklərə sürətlə transformasiya edərək dinamik inkişaf yoluna yönəldi.

**Ədəbiyyat**

1. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev - 100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" Respublika elmi konfransının materialları: Mingəçevir, 4-5 may 2023-cü il / Ş. Bayramov, İ. M. İsmayılov, B. M. Mustafayev [et al.]; Mingəçevir Dövlət Universiteti.- Mingəçevir; Bakı: Poliqraf-2015, 2023.- 631 s.
2. Seyidova, Gülşən. Azərbaycan tarixi: dərslik / G. Seyidova; elmi red. C. Mustafayev; Milli Aviasiya Akademiyası.- Bakı: Şərq-Qərb, 2023.- 432 s.
3. Ramazanlı, Kamran Yolçu oğlu. Heydər Əliyevin enerji strategiyası və Gürcüstan / K. Y. Ramazanlı; red. heyəti: P. Mehdi [et al.]; tərc. A. Əliyeva; red. N. Veysəl; Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi.- Tbilisi: Universal, 2023.- 194 s.
4. Qasımlı, Musa Cəfər oğlu. Azərbaycan Respublikasının tarixi: 1991-2021: 2 cilddə / M. C. Qasımlı; elmi red. İ. X. Zeynalov; Bakı Dövlət Universiteti. I cild: 1991-2003.- Bakı: BDU nəşriyyatı, 2021.- 384 s.

5. Qonaqov, Rufiz Rəhim oğlu. Xəzər hövzəsi və enerji təhlükəsizliyi / R. R. Qonaqov; elmi red. Ə. M. Həsənov; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.- Bakı: Elm, 2018.- 200 s.

**SUMMARY**

**THE ROLE OF THE "CONTRACT OF THE CENTURY" IN STRENGTHENING THE STATE INDEPENDENCE OF THE REPUBLIC OF AZERBAIJAN**

***Abbasova R.A.***

***Key words:*** *"Contract of the Century", Azerbaijan economy, oil and gas production,"Azeri-Chirag-Guneshli" fields, oil agreements, the economic significance of the "Contract of the Century".*

The "Treaty of the Century" was written in golden letters in the history of Azerbaijan - an important role was played in the fate of our people and our state. On September 20, 1994, a production sharing agreement was signed with the State Oil Company of the Republic of Azerbaijan (SOCAR) and 13 leading oil companies from eight countries on the joint development of the "Azeri-Chirag-Gunashli" fields in the Azerbaijani sector of the Caspian Sea. Although the road to the "Contract of the Century" was full of progress and steps, the strong statesmanship policy of the National leader, outstanding statesman, President Heydar Aliyev was realized.

**РЕЗЮМЕ**

**РОЛЬ «КОНТРАКТА ВЕКА» В УКРЕПЛЕНИИ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***Аббасова Р.А.***

***Ключевые слова:*** *«Контракт века», экономика Азербайджана, добыча нефти и газа, месторождения «Азери-Чираг-Гюнешли», нефтяные соглашения, экономическое значение «Контракта века»*

«Договор века» вписан золотыми буквами в историю Азербайджана – сыграл важную роль в судьбе нашего народа и нашего государства. 20 сентября 1994 года было подписано соглашение о разделе продукции с Государственной Нефтяной Компанией Азербайджанской Республики (ГНКАР) и 13 ведущими нефтяными компаниями восьми стран о совместной разработке месторождений "Азери-Чираг-Гюнешли" в азербайджанском секторе Азербайджана. Каспийское море. Хотя путь к «Контракту века» был полон прогресса и шагов, сильная государственная политика общенационального лидера, выдающегося государственного деятеля, Президента Гейдара Алиева была реализована.

## AZƏRBAYCAN NEFT STRATEGİYASININ UĞURLARI HAQQINDA

**Baxşəliyev Fazil Eynulla oğlu**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
bfazil4444@mail.ru

***Açar sözlər:*** *neft, kontrakt, strategiya, iqtisadi, inkişaf, İlham Əliyev*

***Xülasə:*** *Azərbaycan müstəqillik dönəmindən bəri ərazisindəki bütün təbii sərvətlərinin əsl sahibi olduqdan sonra neft kimi qiymətli sərvətlərimizdən ölkəmizin mənafeyinə, xalqımızın, tərəfdaşlarımızın mənafeyi naminə tam şəkildə istifadə etmək imkanı qazanmış oldu. Azərbaycan 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi" adı ilə müasir tariximizin yeni inkişaf istiqamətinin başlanğıcı olan tarixi müqavilənin imzalanmasından sonra Xəzər dənizinin ən zəngin neft və qaz yataqlarının işlənməsinə xarici investisiyaları fəal şəkildə cəlb edərək, dövlətimizin iqtisadi tərəqqisi və əlverişli xarici siyasət fəaliyyəti imkanları əldə etmişdir.*

Azərbaycanın milli sərvətlərindən ən başlıcası olan neft tariximizin müxtəlif dönəmlərində fərqli rol oynamış, əksər hallarda, xüsusi ilə də sovet hakimiyyəti illərində onun istiqamətlərini müəyyənləşdirmişdir. Təəssüflə qeyd edilməlidir ki, sovet reiminin ilk illərindən qiymətli təbii sərvətimiz siyasi mübarizənin obyekti kimi mənfi hallar doğurmuşdur [8, c.401].

Yalnız müstəqillik dönəmindən bəri Azərbaycan ərazisindəki bütün təbii sərvətlərinin əsl sahibi olduqdan sonra neft kimi qiymətli sərvətlərimizdən ölkəmizin mənafeyinə, xalqımızın, tərəfdaşlarımızın mənafeyi naminə tam şəkildə istifadə etmək imkanı qazanmış olduq.

Xəzər regionunun geosiyasi mövqeyinin özəlliyi onun Avropadan Asiyaya gedən ənənəvi ticarət yollarının kəsişməsində yerləşməsidir.

Sovet İttifaqının dağılmasından sonra Xəzər dənizi təkcə beş sahilyanı ölkənin deyil, həm də Qərbi Avropanın, ABŞ-ın, bir çox aparıcı dövlətlərinin, eləcə də Yaxın Şərqin maraqlarının kəsişmə nöqtəsinə çevrilmişdi. Xəzər hövzəsində geosiyasi maraqlar həm zəngin resurslara, həm də Azərbaycana və Mərkəzi Asiya ölkələrinə verilən rola görə kəsişir. Təbii ki, bu tendensiya Xəzərin enerji ehtiyatlarına artan marağı diqqətlə təhlil edən böyük dövlətlərin regiondakı rolunun və istəklərinin diqqətindən yayınmamasını zəruri edir. Bu baxımdan Azərbaycanın bu şəraitdə müəyyənedici rol oynamasının aparıcı dövlətlər tərəfindən nəzərə alınması onların özləri üçün çox vacibdir.

Çünki bu gün Azərbaycan neftinin dünya bazarlarına çıxması karbohidrogenlərin dünya bazarlarına nəqlinin inkişafında yeni istiqamətin yaranmasına səbəb olmuşdur.

Azərbaycan 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi" adı ilə müasir tariximizin yeni inkişaf istiqamətinin başlanğıcı olan tarixi müqavilənin imzalanmasından sonra Xəzər dənizinin ən zəngin neft və qaz yataqlarının genişmiqyaslı işlənməsinə xarici investisiyaları fəal şəkildə cəlb edərək, dövlətimizin iqtisadi tərəqqisi və əlverişli xarici siyasət fəaliyyəti imkanları əldə etmişdir.

Xəzər şelfinin strateji karbohidrogen ehtiyatları trilyonlarla ABŞ dolları həcmində qiymətləndirilir. Bu ehtiyatlar XXI əsrdə sürətlə inkişaf edən regionların iqtisadiyyatlarının tələbatını ödəyə, onların mövcud inhisarçılardan asılılığını zəiflədə, həmçinin dünya neft bazarında tarazlığı tənzimləyə bilər. Tamamilə təbiidir ki, Xəzəryanı dövlətlərin hər biri neft kəmərlərinin çəkilməsi marşrutlarını planlaşdırarkən ilk növbədə öz maraqlarından - iqtisadi, siyasi, həm də geostrateji maraqlardan çıxış edirdilər. Bütün bunlar ixrac neft kəmərləri sistemlərinin seçilməsi və inkişafı problemlərinin, xüsusilə, Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz İxrac Qaz Boru Kəməri) və Rusiya-Türkiyə Mavi Axın kimi yeni ixrac qaz kəmərlərinin birgə yaşaması imkanları, həmçinin Transxəzər qaz kəmərinin perspektivlərinin nəzərə alınmasını aktual edir.

Bütün iqtisadi hesablamalar kommersiya gəlirliliyinin və Xəzər neftinin Aralıq dənizinin dərinsulu limanlarına çıxışının sabitliyinin üstünlüyünü göstərir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin investorları və sahibləri bu layihəni ən yüksək beynəlxalq standartlara uyğun həyata keçirmək və bütün tikinti işlərində tranzit ölkələrin hökumətləri ilə açıq və şəffaf şəkildə əməkdaşlıq etmək niyyətindədirlər.

Əlbəttə 30 illik bu cür şərəf və uğurla zəngin yolun addımları, mərhələləri həm zəngin, həm də ibrətamizdir. Bu yolda ilk mühüm addım 1994-cü ilin payızında dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" kimi tarixə düşən Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsinə dair müqavilənin imzalanması oldu [1, s.6-7]. Müqavilədə Azərbaycanla yanaşı, Böyük Britaniya, Rusiya, ABŞ və digər ölkələrin neft şirkətlərinin də tərəfdaş olması onun mühüm perspektivlərindən və tarixi əhəmiyyətindən xəbər verirdi. Bu illər ərzində Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi neft strategiyasının reallaşdırılması nəticəsində Azərbaycan XXI əsrin reallıqlarını nəzərə alaraq, onun əsasında öz geostrategiyasını və geosiyasətini quraraq, eyni zamanda yaşadığımız dünyada son dərəcə vacib olan milli və regional təhlükəsizliyimizi də möhkəmləndirə bimişdir.

Getdikcə dünya iqtisadiyyatına daha çox inteqrasiya edən ölkəmiz artıq dünyanın 15 ölkəsini təmsil edən 33 neft şirkəti ilə neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi üzrə 22 müqavilənin, eləcə də karbohidrogen ehtiyatlarının beynəlxalq bazarlara nəqlinə dair bir sıra əhəmiyyətli sazişlərin əsas tərəfdaşıdır [4, s.17].

Bütün bunlar respublikamızın regionda təbii karbohidrogenlərin işlənilməsi və ixracı üzrə yeni beynəlxalq mərkəzə çevrilməsinə, Qara dəniz-Xəzər hövzəsində əsas mövqe tutmasına, ən əsası isə, Xəzər dənizi hövzəsinin istismarına yol açmağa imkan vermişdir. İnamla deyə bilərik ki, yaxın vaxtlara qədər siyasətçilərin az qala guya ixtirası sayılan "Şərq-Qərb enerji dəhlizi"nin əsas, ən vacib marşrutu məhz Azərbaycan ərazisindən keçir.

Müqavilə respublikanın beynəlxalq aləmdə siyasi reytinqini də xeyli yüksəltmişdir. Azərbaycan dünya iqtisadiyyatına cəlb olunmaqla böyük dövlətlərdən möhkəm siyasi dəstək alırdı

və bu dəstək respublikanın malik olduğu və hələ də həll etməli olduğu, demək olar ki, bütün xarici iqtisadi məsələlərdə son dərəcə zəruri idi. Əlamətdar haldır ki, Qərb siyasi sabitliyi yeni investisiyalara yol açan bərabərhüquqlu tərəfdaş kimi dövlətimizə münasibətini nümayiş etdirdi.

Qeyd etməliyik ki, hələ Ulu öndər Heydər Əliyenin Azərbaycana rəhbərliyi illərində aparılmış tədqiqatlar həm quruda, həm də Xəzər dənizinin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının bütün kateqoriyalarının kifayət qədər etibarlı təsvirini və qiymətləndirilməsini verməyə imkan vermişdi [7, c.245].

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin uzaqgörənliyi onda oldu ki, o, Xəzərin statusunun müəyyənləşdirilməsi ilə bağlı uzun sürən mübahisələrin nəticəsini gözləmədən, xarici şirkətlərlə Xəzər dənizinin sektorunda yataqların birgə işlənməsi haqqında sənəd imzalamağa nail oldu.

Aydın olmuşdu ki, neft və qaz hasilatının əsas perspektivləri Cənubi Xəzər neft-qaz hövzəsi ilə bağlıdır, onun daxilində Abşeron və Bakı arxipelaqlarının neft və qaz yataqları, Xəzər dənizinin Cənub qərbində Azərbaycan sektorunun dərinsulu hissəsi, karbohidrogen xammalının böyük ehtiyatlarının cəmləşdiyi yerlərdə, eləcə də perspektiv strukturlardadır. Məhz bu enerji resursları XXI əsrdə Azərbaycan xalqına xidmət etməyə başladı [6].

Bu illərdə xarici şirkətlərlə əməkdaşlığın nəticələri bütün gözləntiləri üstələmiş oldu. Uğurlu neft siyasətinin Azərbaycan üçün nəticələri həddən artıqdır. Bunların yalnız bir neçəsinin göstərilməsi belə, bu fikrin sübutuna əlavə arqument tələb etmir. Belə ki, layihənin həyata keçirilməsi Azərbaycan neftinin Avropa bazarına çıxması imkanlarını açdı ki, bu da öz növbəsində daha əlverişli şərtlərlə və artıq qurulmuş mexanizmdən istifadə etməklə digər perspektivli sahələrin inkişafı üçün zəmin yaratdı.

Eyni zamanda Azərbaycan beynəlxalq investisiya və kredit təşkilatlarının nəzərində, məsələn, karbohidrogenlərin dünya bazarlarına nəqli üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri kimi strateji layihələrin həyata keçirilməsi baxımından artan nüfuz qazandı.

Bu illərdə neftlə əlaqəli sahələrə daha böyük kapital qoyuluşları üçün imkan yarandı.

Respublikada öz investisiya siyasətini həyata keçirə biləcək əhəmiyyətli dərəcədə valyuta ehtiyatları yaradıldı.

Daha bir uğur bu idi ki, Azərbaycanın dünya iqtisadi birliyinə inteqrasiya prosesi sürətləndi və ölkənin texnoloji inkişaf səviyyəsi yüksəldi.

Ən mühüm nəticələrdən biri də bu oldu ki, “Əsrin müqaviləsi”nin imzalanması ilə neft sənayesinin dirçəldilməsi və birbaşa iqtisadi səmərəsinin yüksəlməsi ilə yanaşı ondan sonrakı bağlanmış sazişlər maşınqayırma, kənd təsərrüfatı, telekommunikasiya, müştəri xidmətləri və digər sahələrdə investisiyalar üçün əlverişli şərait yaratdı. Konsorsiuma ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı şirkətlərinin daxil olması sayəsində ölkəmizin elmi və mədəni əlaqələri genişlənmişdir. Hazırda Azərbaycanda bir neçə min müştərək müəssisə, Amerika, Rusiya, İngiltərə, Fransa və digər ölkələrdə 25-dən çox Azərbaycan mədəniyyət mərkəzi fəaliyyət göstərir [9].

Lakin Azərbaycanın neft siyasətinə istər regionda, istərə də aparıcı dövlətlərin münasibətləri birmənalı olmamışdır. Bu baxımdan şimal qonşumuz Rusiya Federasiyası ilə münasibətlərin səviyyəsi mühüm əhmiyyətə malik olmuşdur.

2000-ci ildə Vladimir Putinin Rusiya prezidenti seçilməsi ilə Rusiyanın Xəzərlə bağlı siyasətində praqmatizm üstünlük təşkil etməyə başladı. Vladimir Putinin 2001-ci il yanvarın 9-10-da Bakıya səfəri zamanı Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq yeni keyfiyyət müstəvisi almışdır. Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında mühüm məqam bu səfər zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının “Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında” birgə bəyanatın imzalanması oldu [3, s.7]. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası ilə Xəzər dənizində əməkdaşlığa dair məsələləri müzakirə edərək, bu cür əməkdaşlığı mehriban qonşuluq, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət ruhunda inkişaf etdirməyə çalışaraq, Xəzər dənizinin iqtisadi inkişaf üçün həyati əhəmiyyətini qeyd edərək, sahilyanı dövlətlər arasında tərəflər Xəzər dənizindən yalnız dinc məqsədlərlə istifadəyə dair mövqelərini təsdiqləyiblər. Bu sənəd təsdiq etdi ki, Xəzərin yeni hüquqi statusunun işlənib hazırlanması

Xəzəryanı dövlətlərin özlərinin işidir və Xəzərin statusu yalnız onların ümumi razılığı əsasında hazırlana bilər. Tərəflər Xəzərin hüquqi statusuna dair Konvensiya üzrə beştərəfli danışıqlar prosesinin aktivləşdirilməsinə birgə kömək etməyə hazır olduqlarını da bildirmişdilər.

2003-cü ildən başlayaraq ölkəmizin yeni Neft strategiyasının hazırlanmasında və reallaşdırılmasında Azərbaycanın Respublikasının Prezidenti İlham Əliyevin müstəsna xidmətləri olmuşdur.

Müstəqil Azərbaycanın neft sənayesinin qarşısında duran mühüm vəzifələri düzgün müəyyənləşdirən Prezident İlham Əliyev bilirdi ki, karbohidrogen hasilatının əsr yarımdan artıq tarixinə baxmayaraq, ölkəmizin hələ də əhəmiyyətli, çıxarıla bilən neft və qaz ehtiyatları, xüsusi ilə də Xəzər dənizində mövcuddur və bu, perspektiv, proqnoz ehtiyatları bütövlükdə ölkənin yanacaq-energetika kompleksinin inkişafı üçün etibarlı əsasdır [5, s.11]. Belə ki, Azərbaycanda sübut edilmiş çıxarıla bilən və proqnozlaşdırılan neft ehtiyatları milyardlarla ton təşkil edir. Müvafiq olaraq, təbii qazın çıxarıla bilən və proqnozlaşdırılan ehtiyatları trilyonlarla kubmetrlə qiymətləndirilir.

Suveren Azərbaycanın neft siyasətinin inkişafı və hazırlanması məsələlərini yüksək peşəkar səviyyədə nəzərə alan Prezidenti İlham Əliyev bu illərdə Azərbaycanın neft və qaz yataqlarının xarici şirkətlərlə birgə işlənməsinin əsas siyasi və iqtisadi amillərinə xüsusi diqqət yetirmişdir. O, bir çox faktlara əsaslanaraq neft müqavilələrinin bağlanması prosesində yaranan çətinliklərin mahiyyətinə bələd olaraq, planlarımıza qarşı çıxan gizli və aşkar müxalifətin, Xəzərin neft ehtiyatları ətrafında gedən gərgin rəqabətin bütün mümkün nəticələrini nəzərə alaraq, üç onillik üçün yeni kursun düzgünlüyünü inandırıcı şəkildə sübut etməyə nail oldu.

"Əsrin müqaviləsi"nin xalqımız üçün çoxtərəfli əhəmiyyətini yüksək qiymətləndirən İlham Əlyev demişdir: "*Bu gün ulu öndər Heydər Əliyevin fəaliyyətini bir daha yüksək qiymətləndiririk. Məhz onun uzaqgörənliyi, cəsarəti, müdrikliyi sayəsində "Əsrin kontraktı" imzalanmışdır. Beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaranmışdır. Azərbaycana böyük həc mdə investisiyalar qoyulmağa başlanmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlandı. Azərbaycan öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq üçün imkan əldə etmişdir. Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin kontraktı"ndan başlandı. Yeni neft strategiyamız ölkəmiz üçün böyük fayda gətirib. Bu illər ərzində Azərbaycan öz imkanlarını ardıcıl şəkildə genişləndirib. İlk dəfə olaraq o illərdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə neft kəmərləri birləşdirdi"* [2, s.5-6].

İlham Əliyevin fəaliyyətində mühüm məqamlardan biri də Xəzər dənizində neft hasilatının intensivləşməsi kontekstində mümkün ekoloji problemlərin aradan qaldırılmasına diqqətin artmasıdır. Prezident İlham Əliyevin Azərbaycanın sahillərinə əsas diqqət yetirməklə dənizin ekoloji vəziyyətinin təhlillərini, bu prosesin ən aktual problemlərini ciddi nəzarətdə saxlamışdır [9].

Bundan əlavə, dənizin ekologiyası üçün real təhlükə neftin dünya qiymətlərinin aşağı olmasının sahilyanı dövlətlərin büdcələrinə neft gəlirlərinin axınını azalda, neft ixrac edən ölkələrin maliyyə potensialına ziyan vura bilər. Bu da öz növbəsində Xəzər dənizinin ekoloji şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərin maliyyələşdirilməsi imkanlarına mənfi təsir göstərə bilər.

## Ədəbiyyat


1.Abdullayev R. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyası milli iqtisadiyyatın dirçəlişinin əsasını təşkil edir // Səs. - 2010. - 13 mart. - s. 6-7.

2.Əliyev İlham. İnkişaf - məqsədimizdir: altmış beşinci kitab: sentyabr 2014-noyabr 2014. Azərnəşr, Bakı: - 2018. - 400 s.

3.Hacaliyev Elnur. Uğurlu tərəfdaşlıq modeli //Azərbaycan. - 2013. - 17 avqust. - s.7.

4.Mehdiyev Ə. B. Əsrin müqaviləsi: Azərbaycan neft strategiyasının təməl daşı. Turxan NPB, Bakı: 2014. - 248 s.

5.Yusifzadə Xoşbəxt. Heydər Əliyevin Neft strategiyasi // Respublika. - 2023. - 10 may. - s.11.

6.Osmanova Sevinc. Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası // https://hafta.az/heyder-eliyevin-esasini-qoydugu-neft-strategiyasi-342903-xeber.html

7.Алиев Гейдар. Азербаиджанская нефть в политике мира. Баку: - 1998. - 330 с.

8.Джаббаров Ф. Нефтяной фактор в отношениях Азербайджанской Республики и РСФСР // Вестник СПбГУ. История. 2022. Т. 67. Вып. 2. с.89-402.
9.Каспийская нефть Азербайджана служит региональному сотрудничеству / https://www.ng.ru/ideas/2003-07-01/11_azerbaijan.html

**SUMMARY**
**ABOUT THE SUCCESS OF AZERBAIJAN'S OIL STRATEGY**
***Bakhshaliev F.E.***

***Key words:*** *oil, contract, strategy, economy, development, Ilham Aliyev*
The article states that, having become the real owner of all natural resources on its territory since the period of independence, Azerbaijan has been able to fully use our precious resources, such as oil, for the benefit of our country, for the benefit of our people and friends. and partners. On September 20, 1994, after the signing of a historic agreement called the "Contract of the Century", which marked the beginning of a new direction of development in our modern history, Azerbaijan actively attracted foreign investment in the development of the richest oil and gas fields of the Caspian Sea, gaining opportunities for the economic progress of our state and favorable foreign policy activities.

**РЕЗЮМЕ**
**ОБ УСПЕХАХ НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА**
***Бахшалиев Ф.Э.***

***Ключевые слова:*** *нефть, контракт, стратегия, экономика, развитие, Ильхам Алиев*
В статье говорится, что, став реальным хозяином всех природных ресурсов на своей территории с периода независимости, Азербайджан получил возможность в полной мере использовать наши драгоценные ресурсы, такие как нефть, на благо нашей страны, на благо нашего народа, друзей. и партнеры. 20 сентября 1994 года, после подписания исторического соглашения, получившего название «Контракт века», положившего начало новому направлению развития в нашей новейшей истории, Азербайджан активно привлекал иностранные инвестиции в разработку богатейших нефтяных и газовые месторождения Каспийского моря, обретение возможностей для экономического прогресса нашего государства и благоприятной внешнеполитической деятельности.

# "ƏSRİN MÜQAVİLƏSİ" VƏ AZƏRBAYCANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI

**Ağayev Tahir Dövlət oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor*
*aqayev_tahir@mail.ru*

***Açar sözlər**: əsrin müqaviləsi,enerji təhlükəsizliyi, neft və qaz şirkətləri, Xəzər dənizi, boru kəmərləri*
***Xülasə.** Məqalədə "Əsrin müqaviləsi" və Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması məsələləri nəzərdən keçirilmişdir. Enerji strategiyası Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və sosial, iqtisadi və beynəlxalq məsələlərin həllində əhəmiyyətli rol oynayır. Böyük layihələr və regional transsərhəd neft və qaz kəmərlərinin birgə işlənməsi üçün beynəlxalq neft şirkətləri ilə fəal əməkdaşlıq edərək, Azərbaycan öz neftini və qazını regional və beynəlxalq bazarlara nəql etməkdə ən uğurlu ölkə olmuşdur. Bu sahədə ən mühim addımlardan biri "Əsrin Müqaviləsi"nin imzalanması olmuşdur.Qeyd edilir ki, ilk neft satışlarından gələn məbləğ Azərbaycanın enerji strategiyasında bir dəyişiklik anı kimi qiymətləndirildi. Hasilatın dərəcəli artımı neft sənayesinin böhranını sona çatdırıb dinamik inkişaf imkanı verdi.*

Enerji strategiyası Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və sosial, iqtisadi və beynəlxalq məsələlərin həllində əhəmiyyətli rol oynayır. Enerji siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş hal- hazırda prezident İlhan Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. XX əsrin birinci yarısında bağlanmış bir neçə ikitərəfli

müqavilələr vasitəsilə Xəzər dənizi şimaldan Sovet İttifaqı, cənubdan isə İran tərəfindən idarə olunurdu. Sovet İttifaqının süqutundan sonra suverenlik əldə edən Azərbaycan, Qazaxıstan və Türkmənistan qonşuları ilə nəqliyyat şəbəkələri qurmaq yolu ilə müstəqilliklərini təsdiq etməyə çalışırdılar. Onların hər biri Xəzərin neft yataqlarında paya sahib olmaq və onları öz nəqliyyat şəbəkələri vasitəsilə dənizin dibi boyunca sualtı boru kəmərləri ilə ixrac etmək hüququnu istəyirdi. Bununla belə, dövlətlər Xəzər sularının bölünməsinə imkan verəcək hüquqi statusla razılaşa bilməyirdilər. 2018-ci il avqustun 12-də iyirmi ildən artıq davam edən danışıqlardan sonra Xəzər dənizinə sahilyan beş dövlətin – Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın liderləri nəhayət ki, onun hüquqi statusunun müəyyən edilməsi üçün müqavilə imzaladılar. Konvensiya regionda sualtı boru kəmərlərinin çəkilməsi üçün yeni hüquqi nizam yaratdı.

Xəzər hövzəsinin dənizə və okeana çıxışı olmadığından istehlak bazarlarına çıxmaq üçün boru kəmərlərindən və qonşu dövlətlər vasitəsilə daşınmalardan asılıdır. Köhnə sovet boru kəmərlərinin təkmilləşdirilməsi və digərlərinin tikintisi regionun iqtisadi sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir. Bu, həm də yeni boru kəmərləri marşrutlarının əsas strateji planlaşdırılmasına imkan vermişdir. Böyük layihələr və regional transsərhəd neft və qaz kəmərlərinin birgə işlənməsi üçün beynəlxalq neft şirkətləri ilə fəal əməkdaşlıq edərək, Azərbaycan öz neftini və qazını regional və beynəlxalq bazarlara nəql etməkdə ən uğurlu ölkə olmuşdur. Bu sahədə ən mühim addımlardan biri "Əsrin Müqaviləsi"nin imzalanması olmuşdur. Bu saziş Xəzər dənizinin Azərbaycana məxsus su məkanında Gunəshli, Azəri və Çıraq neft yataqlarının birgə istifadəsini nəzərə alırdı [1,4]. Bakı, İstanbul və Houston'da kecirilən müzakirələrin nəticəsi olaraq ərsəyə gələn sazişin imzalanması 20 sentyabr 1994-cü ildə baş tutmuşdur. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi, cəsarəti və müdrikliyi sayəsində mövcud regional və geosiyasi gərgin bir dövrdə ölkə üçün əhəmiyyətli hidrokarbon yataqlarının birgə istifadəsini nəzərdə tutan saziş SOCAR və altı ölkənin on böyük şirkəti: Delta (Səudiyyə Ərəbistanı), Ramco, British Petroleum (Birləşmiş Krallıq), Statoil (Norveç), TPAO (Türkiyə), McDermott, Unocal, Amoco, Pennzoil (ABŞ), və Lukoil (Rusiya) arasında imzalandı. "Əsrin Müqaviləsi" iştirakçıların sayı, kapital investisiyaları və coğrafi mövqe baxımından böyük əhəmiyyət kəsb edərək, lider ölkələrdən böyük şirkətləri təmsil edirdi. Layihəyə ümumilikdə 10 milyard dollar məbləğində yatırım edilib, bunun 7,4 milyard dolları Qərb ölkələri tərəfindən təmin edilmişdir [8]. Bu müqavilə dövlətimizin inkişafı üçün yeni üfüqlər açdı və Xəzərdə beynəlxalq əməkdaşlıq prosesləri üçün ilk dəfə olaraq yeni umkanlar yarandı.

"Əsrlər Müqaviləsi" ilə təyin olunan sahələrdən neft hasilatı noyabr 1997-ci ildə başladı. İlk neft satışlarından gələn məbləğ Azərbaycanın enerji strategiyasında bir dəyişiklik anı kimi qiymətləndirildi. Hasilatın dərəcəli artımı neft sənayesinin böhranını sona çatdırıb dinamik inkişaf imkanı verdi. Azərbaycan Respublikası Dövlət Neft Fondu (SOFAZ), 1999-cu ilin dekabrın 29-də Heydər Əliyev tərəfindən 240 nömrəli Fərmanla təsis edildi və neft gəlirlərini cəmləyir [5]. SOFAZ'ın yaradılma fəlsəfəsi neft və qaz sənayesindən yaranan xarici valyuta və digər mali resursların növbələrin ərizəsiz paylanmasını təmin etməkdir. Məqsədi milli iqtisadiyyatı və sosial-əməkdaşlıq sahələrini sürətli inkişaf etdirməkdir.

1990-cı illərdə, Azərbaycan bir neçə beynəlxalq neft şirkətləri ilə birlikdə Azəri Çıraq-Günəşli neft yataqlarının işlənməsinə başladı. Daha sonra 2006-cı ildə Azərbaycan neftini Xəzərdən Aralıq dənizinə nəql etmək üçün Bakı-Tbilisi-Ceyhan (“BTC”) boru kəmərinin tikintisi başa çatdırıldı.

Qeyd etmək lazımdır ki, Azərbaycan enerji sektoruna ciddi yatırımlar etmişdir. Bu yatırımların əsas hissəsi neft və qazın hasilatı, nəqliyyatı və işlənməsi üçün sərf olunur. 2005-ci ildə fəaliyyətə başlayan BTC, Azərbaycanın Şahdəniz sahasından hasil olunan nefti Türkiyənin Ceyhan limanına nəql edir [2,3]. BTC-nin ümumi uzunluğu 1,768 kilometr olub, illik nəqliyyat qabiliyyəti 50 milyon ton neftdir. Bakı-Tbilisi-Ərzurum Boru Xətti (BTE) isə Azərbaycanın Şahdəniz sahasından hasil olunan qazı Türkiyədən Avropaya nəql etmək məqsədi ilə 2007-ci ildə fəaliyyətə başlamışdır. BTE-nin ümumi uzunluğu 980 kilometrdir və illik keçid kapasiteti 20 milyard kub metrdir. Azərbaycanın Xəzər dənizindəki Şahdəniz sahasının ikinci mərhələsi, Şahdəniz 2, 2018-ci

ildə fəaliyyətə başlamışdır. Şahdəniz 2 layihəsinin maliyyət məbləği 28 milyard dollar olub, illik hasilat kapasiteti 16 milyard kub metr təbii qazdır [6,7].

## Ədəbiyyat


1. Azimov, A. (2021). European Energy Policy And The Euazerbaijan Energy Cooperation. Journal of Comparative Politics, 14(1), 71-90.
2. Balat, M. (2006). Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inkişafı: Bir təhlil. Energy Sources, Part B, 1(2), 117-126
3. Gros, D. (2023). An EU price cap for natural gas: A bad idea made redundant by market forces. Intereconomics, 58(1), 27-31.
4. Hasanov, M. (2020). Azərbaycan neft sənayində reformalar və yaxşılaşmalar. Современные технологии управления персоналом, s. 111-119.
5. Ibrayeva, A., Sannikov, D. V., Kadyrov, M. A., Zapevalov, V. N., Hasanov, E. L., & Zuev, V. N. (2018). Importance of the Caspian countries for the European Union energy security. International Journal of Energy Economics and Policy, 8(3), 150-159.
6. Mohapatra, N. K. (2017). Energy security paradigm, structure of geopolitics and international relations theory: from global south perspectives. GeoJournal, 82, 683-700.
7. Rzayeva, G. (2015). Azərbaycan qaz təchizatlarının Avropaya baxışı. Oxford Enerji Tədqiqatları İnstitutu (OIES), Oxford, 88.
8. Suleymanov, E., Aras, O. N., & Hasanov, F. (2016). Economic and Strategic Expectations from Trans Anatolian Natural Gas Pipeline Project. Academic Journal of Economic Studies, 2(4), 23-37.


### SUMMARY

### "CONTRACT OF THE CENTURY" AND ENSURING ENERGY SECURITY OF AZERBAIJAN

***Aghayev T.D.***

***Keywords:*** *contract of the century, energy security, oil and gas companies, Caspian Sea, pipelines*

The article discussed the “Contract of the Century” and issues of energy security of Azerbaijan. The energy strategy is one of the main directions of Azerbaijan's domestic and foreign policy and plays an important role in solving social, economic and international issues. Azerbaijan is the most successful country in transporting oil and gas to regional and international markets, actively cooperating with international oil companies in the framework of large projects and joint development of regional cross-border oil and gas pipelines. One of the most important steps in this area was the signing of the “Contract of the Century”. It is noted that the amount from the first oil sale was regarded as a moment of change in Azerbaijan’s energy strategy. The gradual increase in production put an end to the crisis in the oil industry and provided an opportunity for dynamic development.

### РЕЗЮМЕ

### «ДОГОВОР ВЕКА» И ОБЕСПЕЧЕНИЕ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

***Агаев Т.Д.***

***Ключевые слова****: контракт века, энергетическая безопасность, нефтегазовые компании, Каспийское море, трубопроводы*

В статье были рассмотрены «Контракт века» и вопросы энергетической безопасности Азербайджана. Энергетическая стратегия является одним из основных направлений внутренней и внешней политики Азербайджана и играет важную роль в решении социальных, экономических и международных вопросов. Азербайджан является самой успешной страной в транспортировке нефти и газа на региональные и международные рынки, активно сотрудничая с международными нефтяными компаниями в рамках крупных проектов и совместного развития региональных трансграничных нефте- и газопроводов. Одним из важнейших шагов в этой области стало подписание «Контракта века». Отмечается, что сумма от первой продажи нефти была расценена как момент изменения энергетической стратегии Азербайджана. Постепенное увеличение добычи положило конец кризису нефтяной отрасли и дало возможность для динамичного развития.

# AZƏRBAYCANIN NEFT VƏ QAZ SƏNAYESİNDƏ İNVESTİSİYA MÜHİTİ ÜÇÜN QANUNVERİCİLİK BAZASININ FORMALAŞDIRILMASI

**Baxşəliyev Eynulla Fazil oğlu**
*Qərbi Kaspi Universiteti, Bakı, Azərbaycan*
baxshaliev81@mail.ru

***Açar sözlər:*** *neft, qaz, investisiya, qanun, Xəzər, dövlət*

***Xülasə.*** *Məqalədə bildirilir ki, ölkəmizdə yerin təkindən istifadə sahəsində, o cümlədən xarici kapitalın cəlb edilməsi sahəsində dövlət və özəl sahibkarlıq subyektlərinin qarşılıqlı fəaliyyətinin əsas prinsiplərini müəyyən edən mühüm qanunvericilik bazası formalaşdırılmışdır. Son vaxtlar ölkəmizdə neft-qaz sektorunun inkişafı məqsədilə investisiya fəaliyyətinin gücləndirilməsi modelinin uğurla həyata keçirilməsinə imkan verən qanunvericilik bazası formalaşdırılmışdır. İnvestorların maraqlarını və bağlanmış müqavilələrin şərtlərini qorumaq üçün mövcud qanunvericiliyə əlavə və dəyişikliklərdə zəruri dövlət təminatları tətbiq edilir. Neft-qaz sektorunda biznes mühitinin və investisiya fəallığının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.*

Müstəqilliyin ilk illərində ölkəmizdə yerin təkindən istifadə sahəsində, o cümlədən xarici kapitalın cəlb edilməsi sahəsində dövlət və özəl sahibkarlıq subyektlərinin qarşılıqlı fəaliyyətinin əsas prinsiplərini müəyyən edən mühüm qanunvericilik bazası formalaşdırılmışdır. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il fevralın 13-də qəbul edilmişdir. Yeddi fəsil və 48 maddədən ibarət bu qanuna əsasən, Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda yerin təkinin öyrənilməsi (axtarılması, kəşfiyyatı), onlardan səmərəli istifadə, mühafizəsi və işlərin təhlükəsizliyi ilə bağlı münasibətlər ölkəmizə məxsus olan ərazilərdə tənzimlənir, yerin təkindən istifadəçilərin və vətəndaşların mənafeləri qorunur [8].

"Yerin təki haqqında" Qanuna Azərbaycan Respublikası Konstitusiyasının, ölkəmizin digər qanunvericilik aktlarının və beynəlxalq müqavilələrin müvafiq maddələri daxildir. Yerin təkindən istifadə üzrə enerji ilə bağlı münasibətlər ölkəmizin müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi qaydalarla tənzimlənir. Eyni zamanda, bu Qanuna əsasən, Ələt Azad İqtisadi Zonasında yerin təkindən istifadə sahəsində münasibətlər "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

"Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda yer təkindən istifadənin əsasları (II fəsil), onlardan səmərəli istifadə və mühafizə (III fəsil), yer təkinin geoloji tədqiqi (IV fəsil), yer təkindən istifadə münasibətlərinin dövlət tənzimlənməsi (V fəsil) və onlardan istifadənin iqtisadi mexanizmi (VI fəsil), qanunun pozulmasına görə məsuliyyət (VII fəsil) öz əksini tapmışdır.

Bu fəsillərdə dövlət mülkiyyət hüququnu saxlamaqla, yerin təkindən istifadə hüququna görə ödənişlər təsvir edilir. O cümlədən: istifadəçinin yerin təkinin istismara verilməsi üçün lisenziya əsasında tam və ya qismən çıxarılan faydalı qazıntılardan istifadə etmək imkanı; antiinhisar tədbirlərinin tətbiqi, yerin təkindən istifadə hüquqlarının verilməsi üçün rəqabətli sxemlərin yaradılması və onların həyata keçirilməsinin təmin edilməsi; xarici investorların iş şəraitinin yaxşılaşdırılması üçün ilkin şərtlərin yaradılması kimi məsələlər öz əksini tapır. Yerin təkindən faydalı qazıntıların çıxarılmasına, faydalı qazıntıların hasilatı ilə bağlı olmayan yeraltı qurğuların istismarına yer təkinin istifadəçisinə icazə statusunun müəyyən edilməsi "Mədən Bölməsi"ndə verilir.

Azərbaycan Respublikasında yerli və xarici investorların investisiya fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edən yer təkindən istifadəyə dair normativ hüquqi bazanın inkişafında mühüm addım "Azərbaycan Respublikasında yerli və xarici investorların investisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının "Xarici İnvestisiyaların Müdafiəsi" Qanununun yeni redaksiyada qəbul edilməsi olmuşdur. Qanunun yeni redaksiyasında xarici investorlar üçün təminat

əhəmiyyətli dərəcədə genişləndirilir və xarici maddi və maliyyə resurslarının, qabaqcıl xarici texnika və texnologiyaların, milli iqtisadiyyatın idarə olunması təcrübəsinin və onlardan səmərəli istifadənin cəlb edilməsinə yönəlmişdir. Qanunun təkmilləşdirilmiş yeni redaksiyasına 2019-cu ilədək 27 əlavə və dəyişiklik edilmiş, xarici investorların hüquqlarının müdafiəsi əhəmiyyətli dərəcədə təmin edilmişdir[10].

Əgər hansısa səbəbdənsə ölkəmizin sonrakı qanunvericiliyi investisiya şərtlərini pisləşdirərsə, on il ərzində xarici investisiyaların qoyuluşu zamanı qüvvədə olan qanunvericilik tətbiq edilir. Bu müddəa ölkəmizin təhlükəsizlik, milli təhlükəsizlik, ictimai asayiş, kredit və maliyyə, ətraf mühitin mühafizəsi, əhalinin sağlamlığı haqqında qanunvericiliyində edilən dəyişikliklərə şamil edilmir.

Xarici investorların itkiləri "Xarici investisiyaların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq ödənilir və xarici investorların ölkəmizdə əldə etdikləri mənfəət eyni valyutada yenidən investisiya edilə bilər. Ölkəmizdə xarici investorlar və xarici sərmayəli müəssisələr üçün güzəştli rejimin müəyyən edildiyi ərazi azad iqtisadi zona hesab olunur. Onların yaradılması qaydası, xarici investorların və xarici investisiyalı müəssisələrin qeydiyyata alınması şərtləri, iqtisadi və digər fəaliyyət növləri azad iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Ölkəmizdə xarici investorlar və xarici sərmayəli müəssisələr üçün güzəştli rejimin müəyyən edildiyi ərazi azad iqtisadi zona hesab olunur. Onların yaradılması qaydası, xarici investorların və xarici investisiyalı müəssisələrin qeydiyyata alınması şərtləri, iqtisadi və digər fəaliyyət növləri azad iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Qanuna, eləcə də onun yeni redaksiyasına edilən dəyişiklik və əlavələrin şübhəsiz üstünlükləri ilə yanaşı, bəzi məqamların təkminləşdirilməsinə və ya yenidən baxılmasına ehtiyyac var. Bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, qəbul edilən qanunlar birbaşa akt olmalıdır. Eyni zamanda, qanunun yeni redaksiyasında bir sıra əlavə qanunvericilik və qanunvericilik aktlarının qəbulu tələb olunur.

Ümummilli lider Heydər Əliyevin 14 sentyabr 1994-cü il tarixli Fərmanına əsasən 6 ölkədən 11 xarici şirkətdən ibarət konsorsiumla aparılmış danışıqların nəticələrinə əsasən 1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri, Çıraq və Günəşli" yataqlarının dərinsulu hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilə" imzalandı [12]. Həmin dövrdə ölkəmizin qanunvericiliyi bu Müqavilələrin əhatə etdiyi məsələləri müasir tələblərə uyğun tam şəkildə tənzimləməmişdi və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi yox idi. Bununla bağlı "Dövlət Neft Şirkəti tərəfindən imzalanmış Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinsulu hissəsindən birgə işlənmə və hasilatın pay bölgüsü haqqında Müqavilənin qəbulu, təsdiqi və icrası sahəsində ilk addımlar atıldı.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətləri arasında 1994-cü ildə "Əsrin müqaviləsi" əsasında yaradılmış işgüzar əməkdaşlıq uğurlu nəticələr vermişdir [7, s.43]. Neft-qaz sənayesindən gözlənilən gəlirlərin ölkəmizin sosial-iqtisadi inkişafına yönəldilməsi dövlət siyasətinin əsas prioritetidir. Sərəncamla neftin satışından əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsi, bu vəsaitlərin qeyri-neft sektorunun inkişafına və prioritet sosial-iqtisadi layihələrin həyata keçirilməsinə yönəldilməsi məqsədilə Ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılmışdır [1]. Neft Fondunun yaradılmasının uğurlu və vaxtında olması həm də onunla bağlıdır ki, burada karbohidrogen ehtiyatlarının bərpa olunmaması amili nəzərə alınır.

Beləliklə, bu gün məhsulların satışından əldə olunan gəlirlər toplanmalı və ölkənin gələcək nəsilləri - əhali arasında bərabər bölüşdürülməlidir. Neft-qaz sənayesindən əldə olunan gəlirlər ölkənin ümumi gəlirinin 70-80 faizini təşkil edir. Bununla da, Neft Fondunda toplanan vəsait qeyri-neft sektorunun, regional biznesin, infrastrukturun geniş miqyaslı inkişafında, yoxsulluğun azaldılması tədbirlərinin həyata keçirilməsində, "insan kapitalının inkişafı"nda, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində əvəzsiz rol oynayır. Prezidentin 27 sentyabr 2004-cü il tarixli Fərmanı ilə Neft-qaz

sənayesi məhsullarının satışından əldə olunan gəlirlərin səmərəli idarə edilməsi, istifadəsi və qeyri-neft sektoruna yönəldilməsi yolu ilə tarazlaşdırılmış iqtisadi inkişaf məqsədi ilə "Neft və qaz gəlirlərinin idarə edilməsinin uzunmüddətli strategiyası" qəbul edilmişdir [9].

Neft-qaz sənayesində investisiya mühitinin formalaşmasına dair qanunvericiliyin mövcud vəziyyəti qənaətləndiricidir. 1995-ci il yanvarın 13-də ölkəmizdə investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyən edən "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [5]. Bu qanun ölkəmizdə biznes mühitini xeyli liberallaşdırdı və ümummilli liderin uzaqgörən siyasəti nəticəsində ölkəyə xarici investisiyaların axınına maraq nümayiş etdirdi. Bu qanun ölkəmizin milli iqtisadiyyatına investisiyaların cəlb edilməsində, onlardan ölkənin sosial-iqtisadi bazasının inkişafı üçün səmərəli istifadə olunmasında, eləcə də beynəlxalq iqtisadi əməkdaşlıq və inteqrasiyada böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, bu qanunvericilik bazasının formalaşdırılması mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər şəkildə qorunmasına təminat verir.

Son vaxtlar ölkəmizdə neft-qaz sektorunun inkişafı məqsədilə investisiya potensialından səmərəli istifadə və investisiya fəaliyyətinin gücləndirilməsi modelinin uğurla həyata keçirilməsinə imkan verən qanunvericilik bazası formalaşdırılmışdır. İnvestorların maraqlarını və bağlanmış müqavilələrin şərtlərini qorumaq üçün mövcud qanunvericiliyə əlavə və dəyişikliklərdə zəruri dövlət təminatları tətbiq edilir [13, c.28]. Neft-qaz sektorunda biznes mühitinin və investisiya fəallığının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sənaye istehsalının artırılması məqsədi ilə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesi ardıcıl həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası sənayesinin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar mexanizmin hazırlanması ilə bağlı Fərman imzalanmışdır [6].

Müasir iqtisadi şəraitdə ölkəmizdə mineral xammalın kəşfiyyatı, hasilatı və emalı sahəsində hüquqi rejim "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu və Hasilatın Pay Bölgüsü Müqavilələrinin şərtləri ilə tənzimlənir. "Yerin təki haqqında" Azərbaycan Respublikasının 2002-ci il 30 aprel tarixli Qanununa dəyişikliklər edildikdən sonra 13-cü maddəyə əsasən, yerin təkindən istifadə məqsədi ilə torpaq sahəsinin verilməsinə icazə müvafiq icra hakimiyyəti orqanının və ya torpaq sahibinin əvvəlcədən razılığı əsasında verilir. Yer təkindən istifadəçiyə yerin təkindən istifadə hüququ verildikdən sonra torpaq sahəsi ölkənin torpaq qanunvericiliyinə uyğun olaraq ayrılır.

Ölkə qanunvericiliyi neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi şərtlərini təfərrüatlı şəkildə müəyyən edir və bununla da Azərbaycan Respublikası ərazisində təbii sərvətlərin işlənməsi üçün hərtərəfli əsaslar təmin edir. Müqavilələrin bağlanması səlahiyyətlərinin səlahiyyətli orqana verilməsi ilə bağlı müddəanı aydınlaşdırmaq lazımdır. Bu, Azərbaycan hökumətinin müqavilə bağlamaq üçün həvalə etdiyi dövlət orqanına aiddir. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan hökuməti karbohidrogen ehtiyatlarından istifadə strategiyası, təkrar istehsalı və daha da genişləndirilməsi strategiyasını hazırlayır, həmçinin yerin təkindən istifadə və mühafizə qaydalarını müəyyən edir.

Neft-qaz sənayesində vergi münasibətlərinin tənzimlənməsi də vacib problemlərdən biridir. Belə ki, neft-qaz sənayesinə investisiyaların cəlb edilməsinə ciddi maneə olan vergi qanunvericiliyində tez-tez dəyişikliklərə xüsusi diqqət yetirilməlidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edildikdən sonra yer təkindən istifadəçilərin vergiyə cəlb edilməsi ilə bağlı qanunvericiliyə bir sıra əlavə və dəyişikliklər edilmişdir. Bu cür əlavə və dəyişikliklər ölkənin ümumi investisiya mühitinə ciddi təsir göstərməli idi. Ölkə ərazisində, o cümlədən Xəzər dənizinin ölkəmizə məxsus sektorunda faydalı qazıntıların hasilatı zamanı yer təkindən istifadəçilərin vergiyə cəlb edilməsi məsələləri Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir. Belə ki, xam neftin və yerin təkindən çıxarılan təbii qazın hasilatına görə vergi onların topdansatış qiymətlərinə tətbiq edilməklə, müvafiq olaraq 26 faiz və 20 faiz müəyyən edilir [2].

Hasilatın pay bölgüsü müqavilələrində Azərbaycan Respublikasının paylı iştirakından əldə edilən gəlirlər Azərbaycan Respublikasının Dövlət Neft Fondunda toplanır və zəruri hallarda müəyyən dövlət proqramlarının maliyyələşdirilməsi üçün dövlət büdcəsinə köçürülür.

Ölkəmizin beynəlxalq əməliyyatlara nəzarət edən vergi və gömrük orqanları səlahiyyətli dövlət orqanlarıdır. Monitorinqin nəticələrinə əsasən səlahiyyətli dövlət orqanları müqavilə qiymətinin məhsulun bazar qiymətindən kənara çıxmasını yoxlayır. Azərbaycan Respublikası hökuməti bazar qiymətləri haqqında rəsmi məlumat mənbələrinin siyahısını müəyyən etmişdir.

Azərbaycan Respublikasının neft-qaz sənayesinin inkişafının ən mühüm şərti neft-qaz kompleksinin strukturunun təkmilləşdirilməsi idi. Bu baxımdan ümummilli lider Heydər Əliyevin apardığı uğurlu islahatlar nəticəsində ölkəmizin neft-qaz sənayesinin idarəetmə strukturunda daha dəqiq dövlət tənzimlənməsi sisteminin yaradılmasına yönəlmiş əsaslı dəyişikliklər baş verdi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra həyata keçirilən iqtisadi siyasət nəticəsində neft və qaz yataqlarının kəşfiyyatı, istismarı və birgə müəssisələrin yaradılması sahəsində xarici investisiyaların cəlb edilməsinin hüquqi əsasları aşağıdakı qanunvericilik sənədləri ilə təmin edilir.

- Azərbaycan Respublikasının Konstitusiyası [3];
- “Xarici investisiyaların müdafiəsi haqqında” Azərbaycan Respublikasının15 yanvar 1992-ci il tarixli Qanunu [10];
- “Azəri”, “Çıraq” yataqlarının və Xəzər dənizinin Azərbaycan sektorunda, eləcə də “Günəşli” yatağının dərinsulu hissəsinin birgə işlənməsi haqqında 20 sentyabr 1994-cü il tarixli saziş (“Əsrin müqaviləsi”) [12];
- “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 13 yanvar 1995-ci il Qanunu [5];
- “Yerin təki haqqında” Azərbaycan Respublikasının13 fevral 1998-ci l tarixli Qanunu [8];
- “Azərbaycan Dövlət Neft Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il Fərmanı [1];
- “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli Qanunu [4];
- “Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafındakı dayaz suların kəşfiyyatı, işlənməsi və hasilatının bölünməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli Sərəncamı [11];
- “İnvestisiyaların həvəsləndirilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli Fərmanı [6].

Sonda bir daha qeyd edək ki, 1994-cü ildən bəri Azərbaycan Respublikasında neft-qaz sənayesində investisiya mühitinin yaxşılaşdırılması istiqamətində qanunvericilik mühitinin yaxşılaşdırılması üçün xeyli işlər görülmüşdür ki, bu da ölkə iqtisadiyyatının inkişafı üçün əlverişli mühit formalaşmışdır.

**Ədəbiyyat**


1. Azərbaycan Dövlət Neft Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il Fərmanı / https://e-qanun.az/framework/5261
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Hüquq Yayım evi, Bakı: - 2019. https://e-qanun.az/framework/46948
3. Azərbaycan Respublikasının Konstitusiyası. qəbul edilmiş əlavə və dəyişikliklərlə. Hüquq, Bakı: 2018. - 43 s.
4. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli Qanunu / https://e-qanun.az/ framework/26044
5. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/9367
6. “İnvestisiyaların həvəsləndirilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli Fərmanı / https://e-qanun.az/framework/31870

7. Mehdiyev, Ə. Əsrin müqaviləsi: Azərbaycanın neft strategiyasının təməl daşı. Turxan, Bakı: 2014. – 248 s.
8. “Yerin təki haqqında” Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanunu / https://e-qanun.az/framework/4273
9. Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004. 9, maddə 682.
10. “Xarici investisiyaların müdafiəsi haqqında” Azərbaycan Respublikasının15 yanvar 1992-ci il tarixli Qanunu / https://e-qanun.az/ framework/7000
11. “Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafındakı dayaz suların kəşfiyyatı, işlənməsi və hasilatının bölünməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli Sərəncamı / https://e-qanun.az/ framework/30884
12. Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a. s, LUKoyl SƏHMDAR ÇƏMİYYƏTİ, MakDERMOTT AZƏRBAYCAN İNK, PENNZOYL KASPİAN KORPOREYŞN, REMKO XƏZƏR ENERCİ LİMİTED, TÜRKİYE PETROLLERİ A. O., YUNOKAL XƏZƏR, LTD arasında Sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu / https://e-qanun.az/framework/909822.
13. Алиев, Натик. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Letterpress, Баку: - 2010. - 244 с.

**SUMMARY**
**FORMATION OF THE LEGISLATIVE FRAMEWORK FOR THE INVESTMENT ENVIRONMENT IN THE OIL AND GAS INDUSTRY OF AZERBAIJAN**

***Bakhshaliev E.F.***

***Key words:*** *oil, gas, investments, law, Caspian Sea, state*

The article states that an important legislative framework has been formed in our country, which defines the main principles of interaction between state and private business entities in the field of subsoil use, including in the field of attracting foreign capital. Recently, a legislative framework hasbeen formed in our country that allows for the successful implementation of the investment activitystrengthening model for the development of the oil and gas sector. In order to protect the interests of investors and the terms of concluded contracts, necessary state guarantees are applied in additions and changes to the existing legislation. Important work has been done to improve the business environment and investment activity in the oil and gas sector.

**ФОРМИРОВАНИЕ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ ИНВЕСТИЦИОННОЙ СРЕДЫ В НЕФТЕГАЗОВОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**

***Бахшалиев Э.Ф.***

***Ключевые слова:*** *нефть, газ, инвестиции, право, Каспий, государство*

В статье говорится, что в нашей стране сформирована важная законодательная база, определяющая основные принципы взаимодействия государства и субъектов частного предпринимательства в сфере недропользования, в том числе в сфере привлечения иностранного капитала. В последнее время в нашей стране сформирована законодательная база, позволяющая успешно реализовать модель усиления инвестиционной активности для развития нефтегазового сектора. В целях защиты интересов инвесторов и условий заключаемых договоров в дополнениях и изменениях действующего законодательства применяются необходимые государственные гарантии. Важная работа проделана по улучшению деловой среды и инвестиционной активности в нефтегазовом секторе.

# "ƏSRİN MÜQAVİLƏSİ": MÖHTƏŞƏM ZƏFƏRİN TƏMƏLİ

**Cəbrayılova Fəridə Səyədulla qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fəl.f.d., baş müəllim*
cebrayilova_fira@mail.ru

***Açar sözlər:*** *"Əsrin müqaviləsi", neft strategiyası, Tarixi Zəfər, Böyük Qələbə, müasir Azərbaycan*

***Xülasə.*** *Azərbaycanın taleyində möhtəşəm rol oynayan "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il keçir. Təqdim olunan məqalədə neft strategiyasının Azərbaycanın iqdisadi-siyasi, mədəni sahəsindəki rolu araşdırılır. Ən böyük transmilli müqavilənin Tarixi Zəfərimizin qazanılmasına təsiri şərh olunur.*

1994-cü il sentyabrın 20-də bağlanmış və Azərbaycanın sonrakı siyasi-iqtisadi, mədəni inişafını təmin edən "Əsrin müqaviləsi" ilə Qarabağda möhtəşəm Zəfərimizin təməli qoyuldu. Əslində "Əsrin müqaviləsi"nə gedən yol həmin ilin may ayında Qarabağda atəşkəsin imzalanmasından keçirdi. Məlum Bişkek protokolundan sonra verilən qərar və sərəncamlar Azərbaycanın gələcək tərəqqisinə zəmin yaradırdı. Bugünkü Böyük Qələbə, işğaldan azad olunan ərazilərin bərpası, güclü iqtisadiyyat, müasir ordu, sabit beynəlxalq mövqe – bütün bunların kökündə Ulu Öndərin uğurlu neft strategiyası dayanır.

Tarixə nəzər salsaq örərik ki, bəzən nəhəng bir neft yatağının kəşfi dövlətin taleyinə və onun təkamülünə bütün digər amillərin cəmindən daha çox təsir edir. Ötən əsrlər boyu, hətta bu gün də Qafqaz dünya proseslərinin episentrində olub və qalmaqda davam edir. Bu, ilk növbədə Abşeron yarımadasında, eləcə də Qroznı və Stavropol ərazilərində neft yataqlarının kəşfi və istismarı ilə bağlıdır (xatırladaq ki, 1901-ci ildə Azərbaycan dünya neft hasilatının yarıdan çoxunu təmin edirdi) [2].

Minilliyin qovşağında Xəzər regionu yenidən dünya siyasətinin mərkəzindədir: onilliklər ərzində Həştərxan, Tengiz, Kaşaqan, Şahdəniz, Azəri-Çıraq-Günəşli və daha sonra Mərkəzi Abşeron, Ümid, Şəfəq-Asiman, Çalus və s. kimi nəhəng yataqların kəşfi dünya səviyyəli karbohidrogenlərin böyük xammal bazasını müəyyən etdi.

Neft və qazın hasilatı, nəqli, emalı və marketinqi problemləri artıq geosiyasi xarakter alıb. Bölgənin uzunmüddətli inkişaf strategiyası nöqteyi-nəzərindən isə ən mühüm məsələ regionun ehtiyatlarının qiymətləndirilməsinə çevrilib.

Keçən əsrin 90-cı illərin sonunda ümumən Qafqaz, o cümlədən Azərbaycan barut çəlləyinə oxşayırdı: Ermənistan Azərbaycan ərazisinin 20%-ni qanunsuz işğal etmişdi, ölkədə bir milyona yaxın qaçqın var idi, qonşu Gürcüstanda Abxaziya və Cənubi Osetiya ilə hərbi münaqişələr kəskinləşirdi, Çeçenistan öz müstəqilliyi uğrunda mübarizə aparırdı, Azərbaycanda separatçı hərəkatlar güclənirdi.

O çətin vəziyyətdə ölkəni böhrandan kimin və necə çıxara biləcəyini təsəvvür etmək belə çətin idi. Ölkə rəhbərliyinə vəziyyəti siyasi cəhətdən anlayan, təkcə Azərbaycanda deyil, bütün keçmiş SSRİ-də böyük nüfuza malik şəxsin gətirilməsinə ehtiyac var idi. Belə bir şəxsiyyət Heydər Əliyev idi. Onun Azərbaycanda hakimiyyətə qayıdışı, dövləti qoruyub saxlamaq üçün nadir və yəqin ki, yeganə mümkün variantlardan biri idi.

Heydər Əliyevin strateji dünyagörüşü, cəsarəti və nəhəng məsuliyyəti öz üzərinə götürmək bacarığı neftin gələcəyini müəyyən edən "Əsrin müqaviləsi"nin imzalanmasında ən mühüm amilə çevrildi. Neft strategiyasının növbəti mərhələsində əsas fiqur Heydər Əliyevlə birlikdə Azərbayanın gələcək inkişafını təmin edən Prezident İlham Əliyev oldu [1]. Bunun nəticəsi olaraq bu gün Azərbaycanın müxtəlif ölkələrlə müxtəlif formatlarda birgə həyata keçirdiyi layihələrin uğur hekayəsi göz qabağındadır: Böyük qayıdış və yeni çiçəklənən Azərbayan!

Azərbaycanın ən zəngin təbii sərvətlərə, ilk növbədə neftə əsaslanan iqtisadi qüdrəti və səriştəli idarəetmə, 30 il bundan öncə imzalanmış "Əsrin müqaviləsi"nin həyata keçirilməsi

Azərbaycan dövlətinin dünyada tanınmasının və nüfuzunun artmasına, onun etibarlı tərəfdaşa çevrilməsinə səbəb oldu [3]. Məhz müstəqilliyimizin əsaslarından biri olan "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının inkişafı və ikinci Qarabağda - Vətən müharibəsində parlaq Qələbənin əldə edilməsi üçün mühüm maliyyə mənbəyinə çevrildi.

## Ədəbiyyat


1. Əsrin müqaviləsi – 10 il / Bakı.- 20024.- s.36
2. Heydər Əliyevin neft strategiyası /Respublika. - 2023.- 10 may. - № 96. - S. 11.
3. https://files.preslib.az/projects/centurycontract/earticles.pdf



**SUMMARY**

**"CONTRACT OF THE CENTURY": THE BASIS OF THE GREAT VICTORY**

***Jabrayilova F.S.***

***Keywords**: "Contract of the Century", oil strategy, Historical victory, Great Victory, modern Azerbaijan*

30 years have passed since the signing of the "Contract of the Century," which played a big role in the fate of Azerbaijan. The presented article examines the role of oil strategy in the economic, political and cultural spheres of Azerbaijan. The impact of the largest transnational agreement on achieving our Historical Victory is commented on.

**РЕЗЮМЕ**

**«КОНТРАКТ ВЕКА»: ОСНОВА ВЕЛИКОЙ ПОБЕДЫ**

***Джабраилова Ф.С.***

***Ключевые слова**: «Контракт века», нефтяная стратегия, Историческая победа, Великая Победа, современный Азербайджан*

Прошло 30 лет со дня подписания «Контракта века», сыгравшего большую роль в судьбе Азербайджана. В представленной статье рассматривается роль нефтяной стратегии в экономической, политической и культурной сферах Азербайджана. Комментируется влияние крупнейшего транснационального соглашения на достижение нашей Исторической Победы.


# HEYDƏR ƏLIYEV VƏ ƏSRİN MÜQAVİLƏSİNDƏ TƏHSİLİNİN İNKİŞAFI


**Həsənova Zəhra Rəşid qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, müəllim*

*hasanovazahra41@gmail.com*



***Açar sözlər:*** *Heydər Əliyev, əsrin müqaviləsi, təhsil, milli ideologiya, azərbaycançılıq, hərbi təlim.*



***Xülasə.*** *Ümummilli liderimiz Heydər Əliyevin nəzəri irsi təhsilimizin inkişafında zəngin bir xəzinədir. Onun təhsil haqqında müdrik fikirləri, qəbul etdiyi qərarlar, imzladağığı sərəncamlar, Təhsil haqqında İslahat Proqramı təhsilimizn inkişafında mühüm rol oynamışdır. Heydər Əliyev təhsilimizin həqiqi vəziyyətini yaxşı bilmiş və təhsilin bütün sahələri üzrə əhəmiyyətli qəralar qəbul etmişdir. Heydər Əliyevin nəzəri irsi, praktik fəaliyyəti geniş öyrənilməıli və bu zəngin xəzinədən daim istiafadə edilməlidir.*


Ulu öndər Heydər Heydər Əliyevin yetişən gənc nəslin təhsilin bütün pillərində və əsrin müqaviləsi dövründə müasir təhsilə, texnologiyaya, kompüter biliklərinə yiyələnmənin təmin edilməsini, ümumtəhsil və ali məktəblərimizdə verilən bütün fənlərin yaxşı mənimsənilməsini, gənclərin hərbi məktəblərə, hərbi təlimə, yeni peşələrə istiqamətləndirilməsini təhsil işçilərinin birinci dərəcəli vəzifəsi kimi qarşıya qoymuşdur. Çünki mükəmməl təhsil olmadan əsrin müqaviləsi də öz nəticəsini mükəmməl verə bilməz. "Təhsil millətin gələcəyidir" – ulu öndər Heydər Əliyevin müdrik fikri hər keçən gün daha aktual və daha əhəmiyyətli özünü göstərməkdədir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri irsi təhsilimizin inkişafında zəngin bir xəzinədir. Onun təhsil haqqında müdrik fikirləri özqnqn praktik fəaliyyəti ilə təhsilimizn inkilşafına

işıq tutmuş və aydın yol göstərmişdir. Heydər Əliyev təhsilimizin həqiqi vəziyyətini yaxşı bilmiş və təhsilin bütün sahələri ilə ciddi maraqlanmış, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi haqqında dəyərli fikirlər söyləmiş, mühüm əhəmiyyətli sərəncamlar imzalaməşdır.

Heydər Əliyevin hələ 1970-ci illərin əvvəllərində Bakıda orta ixtisas hərbi məktəbinin açılması haqqında göstərişlər verdi, sərəncamlar imkzaladı. Yaradılmış bu hərbi məktəbin məzunları sonrdan müxtəlif Ali Hərbi məktəblərdə təhsillələrini davam etdirdilər və ixtisaslı zabitlər kimi yetişdilər. Vətənimizin bir parçası olan Qarabağın və digər rayonlarımızn işğaldan azad oluynmasında, 44 günlük Vətən müharibəsində Zəfər qazanmağımızda həmin zabitlərin böyük rolu olmuş, vətənpərvər ruhlu gənclərimiz fədakarcasına vuruşaraq üç rəngli qalibiyyət bayrağımı Vətən torpağında ucaltmışılar.

Heydər Əliyevin 1970-1980-ci illərdə təhsilimizin milli zəmin üzərində qurulmasının, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə almalarının, təhsil ocaqlarımızın müasir maddi texniki bazasının möhkəmləndirilməsi və səriştəli müəllim kadrlarının yetişdirlməsinin təməllərini qoymuşdur.

Heydər Əliyevin göstərişi ilə 1980-ci illərin əvvəllərindən başlayaraq təhsilimzidə millilik, Azərbaycançılıq, milli ideoligiya xüsusi yer tutmağa başladı, Azərbaycan tarixi, ədərbiyyatı daha geniş tədris olunmağa başladı, Azərbaycan məktəbi və pedaqoji fikir tarixi, məktəbəqədər pedaqogika ali pedaqoji təhsil ocaqlarında xüsusi sahə kimi geniş tədris edilməyə başlandı.

Ulu öndər Heydər Əliyevin təhsil sahəsində xidmətləri və uzaqgörənliyi onun imzaladağıı çox saylı, mühüm və əhəmiyyətli Sərəncamlarda, dəyərli Fərmanlarda, Yeni Təhsil Proqramının və yeni Təhsil Qanunun qəbulu və həyata keçirilməsində, dəyərli tövsiyə və göstərişlərində özünü göstərirdi.

Heydər Əliyev müasir Azərbaycan təhsilinin məzmununu cəmiyyətin tələblərinə uyğun qurulmasını, xalqın mənəviyyatına müvafiq qurulmasını vacib sayırdı. Heydər Əliyev 1999-cu ilin 19 aprelində təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində demişdir: " ... təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sahəsinə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" (Heydər Əliyev).

Heydər Əliyev nəzəri irsində təhsilin, elmin, milli kadr hazırlığının inkişaf konsepsiyası həm siyasi, həm sosial-iqtisadi, həm əxlaqi-mənəvi dəyərlərə əsaslanmışdır ki, bütün bunlar da Təhsil haqqında Qanunda öz əksini tapmişdir (Təhsil haqqında Azərbaycan Respubliksaının Qanunu 2009). Təhsilimizin inkişafı sayəsində Heydər Əliyevin nəzəri irsi, praktik fəaliyyəti geniş öyrənilməili, tədqiq və təhlil edilməli və davamlı olaraq praktik fəaliyyətimizdə həyata keçirilməlidir.

Təhsilimizin sabahını düşünərkən deyə bilərik ki, Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetişdirmək deyil, həm də müstəqil, demokratik, açıq cəmiyyət quruculuğu işində fəal iştirak edən, Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək göstərən, yüksək mənəviyyatlı, əxlaqlı, əsl vətənpərvər vətəndaşlar, layiqli şəxsiyyətlər tərbiyə etməkdir.

Cəmiyyətdə təhsilin inkişafına və dövlət quruculuğuna bir sistem kimi yanaşan Heydər Əliyev burada təhsilin əsas yerini müəyyənləşdirərək vurğulayırdı ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla inkişaf etmək üçün müasir tələblərə uyğun təhsil sistemi yaradılmalıdır. Təhsilsiz heç bir insan irəli gedə bilməz və uğur qazana bilməz.

**Ədəbiyyat**

1.Heydər Əliyev. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, "Çaşıoğlu, 1999, 72 s.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, "Hüquq ədəbiyyatı", 2009, 80 s.

**SUMMARY**
**DEVELOPMENT OF EDUCATION IN HAYDAR ALIYEV AND THE AGREEMENT OF THE CENTURY**
***Hasanova Z.R.***

***Key words***: *Heydar Aliyev, the contract of the century, education, national ideology, Azerbaijaniism, military training.*

"Education is the future of the nation" - the wise opinion of the great leader Heydar Aliyev is becoming more relevant and important every day.

The theoretical legacy of our national leader Heydar Aliyev is a rich treasure in the development of our education. His wise ideas about education, the decisions he made, the decrees he signed, the Education Reform Program played an important role in the development of our education. Heydar Aliyev was well aware of the real state of our education and made important decisions in all areas of education. Heydar Aliyev's theoretical heritage and practical activities should be widely studied and this rich treasure should be used constantly.

**РЕЗЮМЕ**
**ГЕЙДАР АЛИЕВ И РАЗВИТИЕ ОБРАЗОВАНИЯ В «КОНТРАКТ ВЕКА»**
***Гасанова З.Р.***

***Ключевые слова***: *Гейдар Алиев, «Контракт века», образование, национальная идеология, азербайджанизм, военная подготовка*

«Образование – будущее нации» – мудрое мнение великого лидера Гейдара Алиева с каждым днем становится все более актуальным и важным.

Теоретическое наследие нашего общенационального лидера Гейдара Алиева является богатым сокровищем в развитии нашего образования. Его мудрые идеи об образовании, принятые им решения, подписанные им указы, Программа реформы образования сыграли важную роль в развитии нашего образования. Гейдар Алиев хорошо знал реальное состояние нашего образования и принимал важные решения во всех сферах образования. Теоретическое наследие и практическая деятельность Гейдара Алиева должны широко изучаться, и это богатое сокровище должно постоянно использоваться.
.

## HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI

**Mikayılova Fərİdə Mürşüd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı,*
*Ağcabədi, Azərbaycan, baş müəllim*

***Açar sözlər:*** *şirkət, əsrin müqaviləsi, sərmayə, texnologiya, COP-29, konvensiya*

***Xülasə:*** *Məqalədə göstərilir ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə yenidən qayıdışından sonra respublikanın neft sənayesinin bərpa və inkişafı ilə yaxından məşğul olmağa başladı. Heydər Əliyev ölkəmizin sosial-iqtisadi vəziyyətini nəzərə alaraq xarici neft şirkətlərini Azərbaycana dəvət etdi və birgə işləmək qərarına gəldi. Nəticədə "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə Azərbaycanın yeni neft strategiyasında əvəzolunmaz əhəmiyyətə malikdir. Məqalədə həmçinin Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin, hazırda uğurlu neft siyasətindən, 2024-cü ildə Azərbaycanın Cop-29-a ev sahibliyi etməsi məsələlərindən də bəhs edilir.*

Neft sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və yataqların mənimsənilməsi üçün ya 15-20 il ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin yaxşılaşmasını gözləməli, yada respublikanın sosial-iqtisadi durumunu nəzərə alaraq xarici neft şirkətləri ilə əməkdaşlıq etmək kimi iki variantdan birini seçmək lazım idi. Ümummilli Lider ölkəmizin sosial-iqtisadi vəziyyətini nəzərə alaraq xarici neft şirkətlərini Azərbaycana dəvət etmək və birgə fəaliyyət göstərmək variantına üstünlük verdi. Onu da qeyd etmək lazımdır ki, o zamanlar bəzi dövlətlər Azərbaycanın xarici şirkətlərlə birgə işləmək məsləsinə qısqanclıqla yanaşır, bu prosesə hər vasitə ilə mane olmağa çalışırdılar. Sonda Heydər Əliyevin dəmir iradəsi qələbə qazandı. 1994-cü il sentyabrın 20-də Cənab Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Dövlət Neft Şirkəti və dünyanın 8 ölkəsindən olan 11 neft şirkəti arasında sonradan "Əsrin müqaviləsi" adını almış, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işləməsi və hasilatın pay bölgüsü haqqında sazişin imzalanması

keçirildi. Bu sazişin mühüm iqtisadi faydasından başqa, başlıca əhəmiyyəti ondan ibarətdir ki, dünyanın aparıcı dövlət və şirkətləri Azərbaycanın müstəqil dövlət və etibarlı müttəfiq olduğunu tam əminliklə inandılar. Beləliklə, "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və sonradan dünyanın ən böyük neft şirkətlərinin ölkəmizə gəlişinə şərait yaratdı. Bununla da Azərbaycan öz qapılarını xarici sərmayələr üçün taybatay açdı.

Əsrin müqaviləsinin imzalanmasından 2003-cü ildək daha 22 neft sazişi imzalanmışdır. Digər sazişlər isə karbohidrogen yataqlarının aşkar edilməsi üçün axtarış-kəşfiyyat işlərin aparılması lazım olan prespektiv sahələr üzrə bağlanmışdır. Aparılan axtarış-kəşfiyyat işləri xarici şirkətlərin qoyduqları sərmayələr hesabına həyata keçirildi. Respublikamızın Prezidenti Cənab Heydər Əliyevin Türkiyə və Gürcüstan respuplikalarının prezidentlərinin iştirakı ilə Bakı-Tiblisi-Ceyhan əsas ixrac boru kəmərinin "təməl daşı"nın qoyulması mərasimi keçirildi və bu nəhəng lahiyənin həyata keçirilməsinə "Xeyir-dua" verildi. Artıq neçə illərdir ki, bu boru kəməri uğurla fəaliyyət göstərir. Beləliklə, Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha çox ixracını reallaşdırmaq üçün möhkəm əsas yaradıldı.

Bakı-Tiblisi-Ceyhan istiqamətinin seçilməsi Heydər Əliyevin böyük siyasi uzaqgörənliyinin və cəsarətinin nəticəsi idi. Qərbin Azərbaycana göstərdiyi yeni texnika və texnologiyalarının da "Əsrin müqaviləsi"nin həyata keçirilməsində rolu böyükdür. Xüsusilə tikintidə və yataqların işlədilməsində, qazmada və istismarda tətbiq olunan səviyyəli yeni texnika, texnologiyalar və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərmişdir.

Məlum olduğu kimi, Səngəçal terminalı dünya miqyasında ən iri neft terminallarından birinə çevrilir. Qeyd etmək lazımdır ki, bu terminala "Azəri" yatağından gələn 186 kilometrlik sualtı neft və 187 kilometrlik sualtı qaz kəmərləri daxil olur. Səngəçal terminalında bp şirkətinin tədris mərkəzinin açılması məlum hadisədir. Həmin tədris mərkəzində ildə 400-ə yaxın yerli fəhlə və qulluqçu yeni ixtisaslar üzrə hazırlıq keçirlər.

Azərbaycan hökuməti neft və satışından əldə olunan gəlirlərin səmərəli istifadəsini təmin etmək məqsədilə Dövlət Neft Fondu yaratmışdır. Həmin fonda yığılan vəsait investisiya şəklində Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna yönəldilir ki, bu da respublikanın əhalisinin sosial vəziyyətinin daha da yaxşılaşmasına, yeni iş açılmasına və ümumən iqtisadiyyat dinamik inkişafının təmin olunmasına xidmət edir. Ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərən şirkət və firmalarda, 17 mindən artıq Azərbaycan vətəndaşı işləyir ki, bunlardan da "Azəri-Çıraq-Günəşli" lahiyəsində bilavasitə çalışanların sayı 9500 nəfər təşkil edir. [2. Səh.318]

"Əsrin müqaviləsi" Azərbaycan neftinin yeni tarixinin başlanğıcını qoymuşdur. Azərbaycanda vacib lahiyələrin həyata keçirilməsi respublikamızın regionda strateji əhəmiyyətini xeyli artıraraq ölkəmizi yenidən dünyanın neft mərkəzinlərindən birinə və Avropa-Qafqaz-Asiya nəqliyyat marşrutlarının o cümlədən, boru kəmərləri sistemlərinin, bir növ birləşdirici arteriyasına çevrilmişdir.

Bakı-Tiblisi-Ceyhan neft, Bakı-Tiblisi-Ərzurum qaz kəmərləri təkcə iqtisadi deyil, siyasi strateji əhəmiyyət daşıyaraq Avroasiyanın geosiyasətini dəyişdirdi. [3.səh.234]

Ümummilli Liderimiz Heydər Əliyevin hazırladığı və indi möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni neft strategiyası bütövlükdə iqtisadiyyatımızın inkişafına təkan vermişdir. Azərbaycanda ənənəvi enerji ehtiyyatları ilə yanaşı, bərpa olunan enerji istehsalına da xüsusi diqqət yetirilir. Beləki, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyanın Tərəflər Konfransının 29-cu sessiyası - COP-29 2024-cü ilin noyabrında Azərbaycanda keçiriləcək. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP-29-a ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. [4]

## Ədəbiyyat


1. Xalqa bağışlanılan ömür. II kitab. Bakı. 2004.
2. Xalqa bağışlanılan ömür. VI kitab. Bakı. 2004.
3. Şəxsiyyətin qüdrətk. Bakı. 2012.
4. Azərbaycan qəzeti,12 dekabr 2023.

**SUMMARY**
**HEYDAR ALIYEV'S OIL STRATEGY**
***Mikailova F.M.***

***Keywords:*** *company, deal of the century, investment, technology, COP-29, convention*
The article shows that after his return to power, the Great Leader Heydar Aliyev began to deal closely with the restoration and development of the republic's oil industry. Taking into account the socio-economic situation of our country, Heydar Aliyev invited foreign oil companies to Azerbaijan and decided to work together. As a result, the "Contract of the Century" was signed. This agreement is of irreplaceable importance in Azerbaijan's new oil strategy. The article also talks about President Ilham Aliyev, the worthy follower of the Great Leader, currently successful oil policy, Azerbaijan's hosting of COP-29 in 2024.

**РЕЗЮМЕ**
**НЕФТЯНАЯ СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА**
***Микаилова Ф.М.***

***Ключевые слова:*** *компания, сделка века, инвестиции, технологии, COP-29, конвенция*
В статье показано, что после возвращения к власти Великий Лидер Гейдар Алиев стал вплотную заниматься восстановлением и развитием нефтяной промышленности республики. Учитывая социально-экономическое положение нашей страны, Гейдар Алиев пригласил иностранные нефтяные компании в Азербайджан и решил работать вместе. В результате был подписан «Контракт века». Это соглашение имеет незаменимое значение в новой нефтяной стратегии Азербайджана. В статье также говорится о президенте Ильхаме Алиеве, достойном последователе Великого лидера, успешной в настоящее время нефтяной политике, о проведении в Азербайджане COP-29 в 2024 году.

# ERMƏNİSTANIN "BÖYÜK ERMƏNİSTAN" FANTAZİYASI VƏ HEYDƏR ƏLİYEVİN "ƏSRİN MÜQAVİLƏSİ" STRATEGİYASI

**Məmmədov Nazim Rəhbər oğlu**
*A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan, b.e.i., t.e.d..*
*Mamedov-n@yahoo.com*

***Açar sözlər:*** *Azərbaycan, Ümummilli lider Heydər Əliyev, "Əsrin müqaviləsi", strategiya, iqtisadi inkişaf, "Böyük Ermənistan".*
***Xülasə:*** *Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra, onu güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olaraq neft strategiyasını planlaşdırdı. Heydər Əliyevin neft strategiyasının əsasını təşkil edən "Əsrin müqaviləsi" və onun Azərbaycanın sosial-iqtisadi inkişafına təsiri araşdırma obyekti kimi müasir tarixşünaslıqda mühüm əhəmiyyətə malikdir. "Əsrin müqaviləsi"nin Azərbaycanın həm iqtisadi-siyasi, həm beynəlxalq, həm də ordu quruculuğu sahəsində əhəmiyyətli rol oynaması faktlar və statistik göstəricilər əsasında araşdırılır. "Əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirən amillər, müqavilənin imzalanmasının strateji əhəmiyyəti əldə edilən mənfəətdən müasir standartlara cavab verən ordu quruculuğuna daha çox vəsait ayrılması məqalənin əsas tədqiqat obyektini təşkil etmişdir.*

**Giriş:** Son iki əsrdə dövlətlərin beynəlxalq münasibətlərə qoşulmaq və xarici siyasət strategiyalarını qurmaq baxımından əsas müəyyənedici amillərdən biri də enerji resursları və onların daşınmasıdır.

Sovet imperiyasının süqutundan sonra Azərbaycan Respublikası özünün geosiyasi vəziyyətinə və bol təbii sərvətlərinə görə dünyanın böyük dövlətləri, o cümlədən Avropa ölkələri üçün kəskin mübarizə və maraq obyektinə çevrilmişdi. Belə bir vəziyyətin yaranmasının əsas səbəblərindən biri Azərbaycan Respublikasının, ilk növbədə zəngin enerji resursları ehtiyatlarının olması idi. Yaxın keçmişimizi nəzərdən keçirərkən məlum olur ki, XIX əsrin ikinci yarısından Azərbaycanın "qara qızıl"ının əsl qiymətini bilən Avropa ölkələrinin maliyyə maqnatları artıq XX əsrin 80-ci illərinin

sonlarından başlayaraq Xəzər dənizindəki zəngin neft yataqlarının birgə işlənilməsi haqqında Azərbaycan SSR hökumətinə danışıqlara başlamaq təklifi ilə müraciət etmişdi [9].

**"Əsrin müqaviləsi"ni şərtləndirən amillər**: XX yüzilliyin 90-cı illərinin əvvəllərində Azərbaycanın çox ağır ictimai-siyasi böhran içində olmasına baxmayaraq Azərbaycanın Xəzər neftinə olan maraq çox böyük idi. SSRİ rəhbərliyinin bu böhranı yaratmaqda əsas məqsədlərindən biri ermənilərə reallaşması mümkün olmayan "Böyük Ermənistan" xülyasına ümid vermək istəyi idisə, burada əsas məqsəd Azərbaycanın Xəzər neftinə Qərb ölkələrinin işgüzar dairələrinin nümayəndələrini buraxmamaq olmuşdu. Qərb ölkələrinin işgüzar dairələrində belə bir fikir mövcud idi ki, "Xəzər dənizinin təkində 200 milyard barel neft ehtiyatı vardır və bu da təxminən 3 milyard tondan 27 milyard tona qədər neft edir". Bununla bağlı ABŞ senatoru Sem Brounbekin verdiyi məlumatda göstərilmişdi: "Xəzər dənizində 40 milyard ton neft var. Bu da təqribən 4 trilyondan 6 trilyon dollara qədər məbləği əhatə edir" [16]. Ona görə də, bu məlumat, istər ABŞ, istərsə də Avropa ölkələrinin neft və maliyyə maqnatlarının marağına səbəb olmuş və müasir dünya siyasətində müstəsna yeri olan bu qiymətli təbii sərvətə yiyələnmək niyyətinə düşmüşdülər.

*Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi və apardığı uğurlu xarici siyasət nəticəsində 1994-cü il mayın 12-də* Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs əldə edildi. Ordu quruculuğunu möhkəmləndirmək, beynəlxalq aləmdə ölkəyə inamı artırmaq məqsədilə vaxt qazanmaq və atəşkəs elan edilməsi taktiki gediş idi.

**"Əsrin müqaviləsi"nin imzalanması.** 1994-cü ilin sentyabrında Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edən Ümummilli lider Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanı diz çökdürmək üçün istifadə etdikləri "erməni kartı"na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı, "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktlarını imzaladı [13].

"Əsrin müqaviləsi"ndə 8 ölkənin 13 məşhur neft şirkəti iştirak edirdi [19]. Qeyd edək ki, Xarici neft şirkətləri Xəzər dənizinin hüquqi statusu məsələsi həll edilməyənə qədər neft müqavilələrini imzalamaqda maraqlı deyildilər. Lakin Heydər Əliyevin nüfuzu, layihədə onun imzası tam qarant idi, bu baxımdan xarici neft korporasiyaların rəhbərləri bu məsələdə tərəddüd etmədilər [18].

Ulu öndər Heydər Əliyev müsahibələrinin birində milli neft strategiyası işini belə qiymətləndirmişdi: Bilirdim ki, bizim bundan başqa yolumuz yoxdur" [4]. Məhz buna görə də, 1995-ci il oktyabrın 9-da müqavilə iştirakçılarının rəhbər komitəsinin iclasında iştirak edən Heydər Əliyev müqavilənin ölkəmiz üçün əhəmiyyətini belə qiymətləndirmişdi: Müqavilənin həyata keçirilməsi Azərbaycanın gələcək inkişaf perspektivi üçün çox əhəmiyyətlidir. [12].

Müqavilənin imzalanması Azərbaycanın həyata keçirtdiyi neft siyasətinin təməl nöqtəsidir və gələcək siyasi, iqtisadi inkişaf, eyni zamanda ölkənin beynəlxalq nüfuzunun artmasında, regionda və dünyada siyasi və iqtisadi əhəmiyyətinin möhkəmlənməsində mühüm rolunu oynadı.

"Əsrin müqaviləsi" strategiyasının ən başlıca məqsədləri Azərbaycanın zəngin neft-qaz ehtiyatlarını ən müasir üsullarla hasil etməkdən, xarici bazarlarda satmaqdan və əldə edilmiş gəlir hesabına respublika iqtisadiyyatının bütün sahələrini inkişaf etdirməkdən, əhalinin maddi rifahını yüksəltməkdən, ordunu yenidən qurmaqdan, onu yeni silahlarla təmin etməkdən, işğal altındakı torpaqlarımızı azad etməkdən ibarət idi. Bakı-Tiflis-Ceyhan əsas neft ixracı kəmərinin həmçinin Bakı-Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən Türk dünyası və Azərbaycan üçün nə demək olduğu 2016-cı il aprel döyüşlərində, 2020-ci il 44 günlük döyüşlərdə və 2023-cü il 23 saatlıq antiterror əməliyyatında özünü əyani şəkildə göstərdi.

**"Əsrin müqaviləsi" strategiyasının tarixi əhəmiyyəti:** Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış yeni neft strategiyası Azərbaycanın neft sənayesində köklü islahatların aparılması, güclü infrastruktur yaradılması, neft sənayesinə müasir texnologiyaların tətbiqi, idarəetmə təcrübəsinin cəlb edilməsi ilə nətcələndi. [5]. 1997-ci ildə "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. [6].

1999-cu ildə Gürcüstan istiqamətində Bakı-Supsa "Qərb neft kəməri" istifadəyə verildi. 1999-cu il noyabrın 18-də İstanbulda xam neftin Bakı-Tbilisi-Ceyhan əsas boru ixrac neft kəməri

vasitəsilə nəql edilməsi haqqında saziş imzalandı [7]. Ulu öndər Heydər Əliyev çıxışlarından birində demişdir: *Əslində, yüzilliyin son günlərində biz, "Əsrin müqaviləsi"nin, neft strategiyamızın uğurlu olduğunu bir daha şahidi olduq" [1].*

2001-ci il avqustun 30-da "Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı [11]. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi [15]. Heydər Əliyevin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu [17]. Dövlət Neft Fondunu yaratmaqda başlıca məqsəd mineral-xammal ehtiyatlarını təkrar istehsala yönələn maliyyə ehtiyatlarına çevirməkdir [3]. Dövlət Neft Fondunda yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmalıdır. [2]. Ondan əhalinin iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlanmışdı. Həmin dövrdə ARDNŞ-in I vitse Prezidenti İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından biri idi. Onun bütün fəaliyyətinin mərkəzində özünün də qeyd etdiyi belə bir möhkəm ideya dururdu. [10].

"Əsrin müqaviləsi" Azərbaycanda yüksək texnologiyalı sənayenin formalaşmasına şərait yaratmış, dövlətimizin dünya iqtisadiyyatına inteqrasiya olunması üçün beynəlxalq miqyaslı ilk uğurlu addımı idi. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq "Əsrin müqaviləsi" yeni iqtisadi münasibətlər sisteminin yaranmasına səbəb oldu və Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirən akta çevrildi [8]. "Əsrin müqaviləsi" əsasında əldə edilən mənfəətin xeyli hissəsi böyük layihələrə, yeni infrastrukturların yaradılmasına, urbanizasiya və müasir şəhər infrastrukturunun inkişaf etdirilməsinə əhalinin sosial rifahının yaxşılaşdırılmasına, elm və təhsilin inkişaf etdirilməsinə sərf olunmuşdur [14].

Bütün bunlarla yanaşı, "Əsrin müqaviləsi" kənd təsərrüfatı, maşınqayırma, telekommunikasiya və digər xidmət sahələrinə investisiya qoyuluşu üçün şərait yaratmışdı. Heydər Əliyevin rəhbərliyi ilə uğurla başlamış geniş miqyaslı iqtisadi islahatlar nəticəsində 1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzülün qarşısı alınmışdı. Ulu öndər Heydər Əliyevin neft strategiyasının qısa təhlili onu göstərir ki, onun dövründə rəsmi nəticə olaraq imzalanan "Əsrin müqaviləsi" sayəsində Azərbaycan iqtisadi uğur qazanan dövlət səviyyəsinə nail ola bilmişdir.

"Əsrin müqaviləsi"nin nəticəsi olaraq neftin əldə edilmiş gəlirlər hesabına Azərbaycanda ordunun gücünü artırmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Azərbaycan xalqının orduya yardımını tənzimləmək məqsədilə 2002-ci il avqustun 17-də Ümummilli lider Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu" təsis edildi. Azərbaycan dövləti, onun rəhbərliyi ölkənin və xalqın maraqlarını ardıcıllıqla qoruyaraq, neft müqavilələrinin imzalanmasına nail olmaqla ölkənin gələcək siyasi, iqtisadi və ən əsası isə hərbi qüdrətinin əsasını qoydu.

Azərbaycanın ərazi bütövlüyünün pozulması və torpaqlarımızın 20 faizinin təcavüzkar Ermənistan dövlətinin işğalı altında qalması dövlət büdcəsinin əhəmiyyətli bir hissəsini hərbi xərclərə yönəltməyə məcbur etmişdir. "Əsrin müqaviləsi"nin nəticəsi olaraq XXI əsrin ikinci onilliyində Azərbaycanın illik hərbi büdcəsi Ermənistan Respublikasının bütün büdcə xərclərindən çox oldu. Bu da, Milli Ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə imkan vermişdir. Neftdən əldə olunan gəlirlər hesabına Azərbaycan xaricdən ən müasir və yüksək döyüş qabiliyyətinə malik silah və hərbi texnika almaqla yanaşı, Milli Ordunun silah, sursat və hərbi texnika ilə təchizi sahəsində xarici dövlətlərdən asılılığını azaltmaq üçün milli hərbi sənayeni formalaşdırmağa başlamışdır. Bəhs olunan dövrdə ordu quruculuğunun Heydər Əliyevin təşkilatçılığı altında davamlı inkişafı Azərbaycan Ordusunu keyfiyyətcə yeni bir səviyyəyə qaldırdı.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin neft strategiyası və balanslaşdırılmış siyasəti nəticəsində regionda sabitlik təmin edilmiş, Azərbaycan Respublikasının hərtərəfli inkişafına şərait yaratmışdır.

***Nəticə:*** Neft strategiyasını mərhələli şəkildə uğurla həyata keçirən Azərbaycan Respublikası, regiona inteqrasiya və xüsusilə də Qafqaz regionunda əməkdaşlıq çərçivəsində uğurlu xarici siyasət kursu həyata keçirmişdir. Azərbaycan dövləti öz neftini vasitə olaraq istifadə edərək regionda

marağı olan ölkələr və beynəlxalq təşkilatlar üçün bölgəni diqqət mərkəzinə çevirmiş, Azərbaycan həqiqətlərini dünyaya çatdırmışdır. Bununla da, neft, Azərbaycan dövlətinin xarici siyasətinin əsas vasitəsinə çevrilərək strateji məhsul rolunu oynamışdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yol xalqımızı qısa zaman kəsiyində mühüm əhəmiyyətli tarixi hadisələrə şahid etdi: Azərbaycan neft strategiyasının banisi Heydər Əliyev müsahibələrinin birində "Əsrin müqaviləsi"nin və ondan sonrakı uğurlarımızın "dar və təhlükəli cığırla" keçərək ərsəyə gəldiyini bildirmişdir. Həmin cığırdan keçən Azərbaycan bu gün də davamlı inkişaf yolu keçməkdədir. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikasının neft strategiyası çərçivəsində həyata keçirilən regional və qlobal siyasət, daha sonra xalqın böyük dəstəyi ilə hakimiyyətə gələn İlham Əliyev dövründə də sürətlə və əzmkarlıqla davam etdirilmişdir. Bu özünü həm hüquqi və demokratik dövlət quruculuğunda, həm sosial-iqtisadi islahatların həyata keçirilməsində, həm də tarazlaşdırılmış və uzaqgörən xarici siyasətdə parlaq şəkildə göstərir. *Heydər Əliyevin möhtəşəm ideyalarının həyata keçirilməsi istiqamətində böyük nailiyyətlərə imza atılır ki, Qarabağ və Şərqi Zəngəzurda uğurlu dinc quruculuq və bərpa prosesi bütün bunların əyani sübutdur.*

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının tarixi. II c. Azərbaycan Respublikasının Heydər Əliyev epoxası. 1993-2003. Bakı: "Elm", 2022, s.140.
2. Azərbaycan tarixi. VII cild. Bakı: "Elm", 2003, 409 s.
3. "Azərbaycan" qəzeti, 9 yanvar 2003-cü il.
4. Azərbaycan Respublikasının tarixi. I cild. Bakı: "Elm", 2016, 301 s.
**РОЛЬ КОНТРАКТА ВЕКА В ФОРМИРОВАНИИ ПОЭТАПНОЙ ГОСУДАРСТВЕННОСТИ В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ**

***Гусейнов С.Э.***

***Ключевые слова**: экономика, фундаментальный, «Контракт века», Гейдар Алиев, концепция, подъем, постепенный, макро, микро*

«Контракт века», ставший одним из важнейших соглашений в концептуализации поэтапной государственности в независимом Азербайджане, является лишь одной из прогрессивных мудростей общенационального лидера Гейдара Алиева. Это соглашение внесло неоценимый вклад в государственный бюджет, экономический прогресс и нашу миссию развития. Нет сомнений в том, что соглашение открыло широкие возможности для создания новых маршрутов транспортировки нефти.


## AZƏRBAYCANIN NEFT STRATEGİYASININ ƏSASI – “ƏSRİN MÜQAVİLƏSİ”NƏ GEDƏN YOL


**Hacıyev Osman Yusif oğlu**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*

osman.haciyev@sdu.edu.az



***Açar sözlər:** Heydər Əliyev, neft strategiyası, konsorsium, dünya iqtisadiyyatı, investisiya*



***Xülasə.** “Əsrin Müqaviləsi” 20 sentyabr 1994-cü ildə Azərbaycan Respublikasının hökuməti ilə dünyanın böyük neft şirkətləri arasında imzalanmış neft müqaviləsidir. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” neft yataqlarının birgə işlənməsini nəzərdə tuturdu. Məqalədə bu müqavilənin Azərbaycanın müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadiyyatına xarici investisiyaların cəlb olunmasında mühüm rol oynamasından, eyni zamanda bu mühüm müqavilənin imzalanması ilə Azərbaycan neft sənayesində böyük inkişafın baş verməsindən və ölkəyə investisiya axınının başlanmasından bəhs olunur. “Əsrin Müqaviləsi” Azərbaycanın beynəlxalq arenada enerji siyasətinin əsasını qoymuş və ölkə üçün strateji əhəmiyyət daşıyır. Beləliklə, “Əsrin Müqaviləsi” Azərbaycanın iqtisadi müstəqilliyinin gücləndirilməsi və enerji sektorunda qlobal oyunçu kimi möhkəmlənməsində həlledici rol oynadı.*


1991-ci ildə müstəqillik əldə etdikdən sonra dövlətimiz hərbi təcavüz, vətəndaş qarşıdurmaları və iqtisadi çətinliklərlə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından az sonra sabitlik əldə olundu, ölkənin iqtisadi potensialının aktivləşdirilməsi, dövlətin təbii sərvətlərinin kəşfi və xarici investisiyaların cəlb edilməsi istiqamətində mühüm addımlar atıldı. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın iqtisadi və siyasi inkişafında neft ehtiyatları çox mühüm rol oynamışdır. Həmin dövrdə Azərbaycanda beynəlxalq neft şirkətlərinin olmasının əhəmiyyəti diqqətəlayiq idi [6, s.75].

Əslində gənc, müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Heydər Əliyev gələcək siyasi və iqtisadi islahatların köklü transformasiyasının əsasını təşkil edəcək neft strategiyasını müəyyən etmişdi. Yeni neft strategiyası Azərbaycanın neft yataqlarının işlənməsinə, xarici investorların cəlb edilməsinə, xam neftin nəqli marşrutlarının şaxələndirilməsinə, neft gəlirlərinin səmərəli idarə olunmasına və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan yaratmışdı. Bu işlərlə bağlı Azərbaycan Prezidenti 1994-cü il 4 fevral tarixli “Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında” qərar qəbul etmişdir.

Dövlət Neft Şirkətinin Azərbaycan Respublikasının Prezidentinə təqdim etdiyi hesabat əsasında hazırlanan saziş layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən əlverişli səciyyələndirilib. Yataqların işlənməsinə qoyulan sərmayələrin 80%-i konsorsium tərəfindən həyata keçiriləcək, saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində hasil ediləcək və boru kəmərinin tikintisi 54 ay ərzində tamamlanacaqdı. Bu prosesdə Azərbaycanın üç mənbədən gəlirinin əldə olunacağı nəzərdə tutulmuşdu: təbii sərvətlərə sahiblikdən əldə edilən gəlir, sahələrin inkişafında investisiya qoyuluşunda iştirakdan əldə edilən gəlir, konsorsium gəlirinin dörddə birini təşkil edən respublika büdcəsinə vergi ödənişlərindən əldə olunan gəlir. Bütün bunlar gəlirli neftin 80%-nin Azərbaycana çatdırılmasını təmin edəcəkdi. Konsorsium ərazisində 90 milyard kubmetr olaraq qiymətləndirilən təxmini qaz ehtiyatları yalnız Azərbaycan tərəfindən qorunur və bu, sazişin iqtisadi faydalarını daha da artırırdı [5, s.56].

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan Sarayı"nda "Əsrin müqaviləsi" imzalanmışdır. Dənizin dərinliklərində yerləşən Azəri, Çıraq və Günəşli yataqlarının işlənməsi və hasilatın pay bölgüsünə dair bu 400 səhifəlik müqavilə 4 dildə hazırlanmışdır. Müqaviləni 7 ölkədən (Azərbaycan, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı) 13 şirkət (SOCAR, Amoko, BP, McDermott, United, Lukoil, Statoil, Exxon, Turkish Petroleum, Penzoil, Remoko, Delta) imzalamışdı. Bu müqavilə daha sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə başqa 26 müqavilənin imzalanmasına səbəb olmuşdu.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra iştirakçılar tərəfindən Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Biznes Şirkəti və Məsləhət Şurasının orqanları yaradılmışdır. Bu strukturlar hüquqi səlahiyyət əldə etdikdən sonra, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidentinin xüsusi fərman imzalamasından sonra fəaliyyətə başlayıb. 1994-cü il dekabrın 12-də Azərbaycan parlamenti "Əsrin müqaviləsi"ni təsdiqlədi və "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın tarixində yeni bir milli neft strategiyası başladıldı. ABŞ Prezidenti, Böyük Britaniyanın Baş naziri, Türkiyə Respublikasının Prezidenti və digər ölkələrin dövlət və hökumət başçıları beynəlxalq neft sazişinin imzalanması münasibətilə Azərbaycan Respublikasının Prezidentinə təbrik məktubları göndəriblər [1, s.41].

"Əsrin sövdələşməsi"nin həyata keçirilməsindən sonra Azərbaycan iqtisadiyyatında dönüş dövrü başlayıb. İlk növbədə, 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun bərpa edilmiş, platformanın yuxarı modulu modernləşdirilmiş və daha çox yamac quyularının qazılması üçün yeni avadanlıqla təchiz edilmişdir. 1997-ci ildə Çıraqlı yatağından neft hasilatına başlanılıb. Bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artmış və ölkənin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan vermişdir. Müqavilənin imzalanması ilə xalqın öz sərvətlərinə sahiblik hüququ bir daha təsdiqləndi və eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıqlığı isbat olundu. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bir dövlət kimi tanınmasına, qlobal iqtisadi sistemdə iştirakına və beynəlxalq nüfuzunun möhkəmlənməsinə imkan verdi. Beynəlxalq neft müqavilələrinin imzalanması ilə neft müqavilələrində iştirak edən ölkələrlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaradılmış, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi üçün şərait yaradılmışdır [2, s.4].

Müqavilə üç dəniz neft yatağına 30 il ərzində ümumilikdə 7,4 milyard dollar investisiya tələb edirdi. Ehtiyatlar 4 milyard barel (511 milyon ton) olaraq qiymətləndirilib. Bu yataqlardan hasil edilən xam neft dünyanın ən yüngül neftlərindən hesab olunur. Razılaşmaya əsasən, hasilat 18 aydan sonra sutkada 40 min bareldən başlayacaq, ilk illərdə gündəlik 80 min barrelə, on-on beş ildən sonra isə gündəlik 700 min barrelə çatması nəzərdə tutulmuşdu. Hazırda Azərbaycanın neft hasilatı sutkada 160 min barel səviyyəsindədir. Bütün bu sahələrdə neft hasilatı işləri 48 ay ərzində tamamlanmalı idi. Müqaviləyə əsasən, Azərbaycan neft yataqlarının işlənməsinə nəzarət etmək və idarə etmək hüququnu özündə saxlamışdı. Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün ilk növbədə şimal istiqamətində Rusiyanın Qara dənizdəki Novorossiysk limanına, ikincisi isə qərb istiqamətində Bakıdan Gürcüstanın Qara dəniz limanına qədər neft kəmərlərinin çəkilməsinə böyük

əhəmiyyət verilmişdir. Bakı-Novorossiysk kəmərinin uzunluğu 1400 km, Bakı-Supsa kəmərinin uzunluğu 850 km, illik ötürmə qabiliyyəti 5 milyon ton idi. Azərbaycan neftinin dünya gündəminə gəldiyi günlərdə neftin nəqli üçün 7-8 xətt gündəmə gətirilsə də, Azərbaycan neftinin çıxarılması üçün yaradılmış Azərbaycan Beynəlxalq Neft Konsorsiumu tərəfindən hazırlanmış hesabatda Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan kimi xətlərin sayı 3-ə endirilmişdir [2, s.53].

Müqavilə imzalanarkən konsorsiuma daxil olmayan Yaponiya sonradan konsorsiuma qoşulub. Yapon şirkəti İtouchu, bütün səhmlərini satan McDermott İnternational-dan 2,45% pay alaraq konsorsiuma qoşuldu. Exxon (ABŞ) və Unocal (ABŞ) da Pennzoil-in səhmlərinin müvafiq olaraq 3,06 və 0,5 faizini satın almışdılar [2, s.44].

Azərbaycanın ümumi mənfəətinin ilkin hesablamalarına görə 30 il ərzində 81 milyard dollar olacağı proqnozlaşdırılırdı. Bundan əlavə, Azərbaycan hökuməti sazişin imzalanmasına görə Konsorsiumdan 300 milyon dollar dividend alıb. Bu məbləğin 80 milyon dolları əvvəlcədən ödənilib. Müqavilə Azərbaycan Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra əlavə 70 milyon dollar, hasilatın sutkada 40 min barrelə çatdığı zaman (18 ayda gözlənilir) əlavə 75 milyon dollar ödənilməsi qərara alınmışdı. “Əsrin müqaviləsi”nin həyata keçirilməsi sayəsində Azərbaycanda illik neft hasilatı 1994-cü ildəki 9,56 milyon tondan 2010-cu ildə 50,4 milyon tona yüksəlmişdir. Sonrakı illərdə illik istehsal 40 milyon civarında davam etmişdir [3].

“Əsrin müqaviləsi” çərçivəsində Azərbaycana investisiya axınının başlanması böyük əhəmiyyət kəsb edir. Bu saziş nəticəsində Azərbaycan iqtisadiyyatı, xüsusilə neft sektoru qoyulan investisiyalarla çox inkişaf etdi. Statistikalar göstərir ki, 1995-2005-ci illərdə əsas kapitala orta illik investisiya 2 milyard Azərbaycan manatı olmuşdur. Bu müqavilənin imzalanması ilə əlaqədar olaraq 1995-ci ildə iqtisadiyyata xarici investisiyalar 228 milyon dollar, 2000-ci ildə 967,8 milyon dollar, 2001-ci ildə 1,2 milyard dollar, 2002-ci ildə 2,2 milyard dollar, 2003-cü ildə 3,8 milyard dollar, 4,9 milyard dollar, 2004-cü ildə 4,9 milyard dollar, və 2005-ci ildə 5,8 milyard dollar olmuşdur və bu artım sonrakı illərdə də davam etmişdi [3].

14 sentyabr 2017-ci il tarixində Heydər Əliyev Mərkəzində Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün daha bir mühüm hadisə baş verdi.

Azərbaycan hökuməti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), BP, Chevron, INPEX, Statoil, Exxon Mobil, TP və ITOCHU şirkətləri ilə Azəri, Çıraqlı və Günəşli yataqlarında hasilatın pay bölgüsü sazişi imzalayıb. Bu müqavilə Əsrin sövdələşməsinin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutmuşdur. Sazişdə vurğulanırdı ki, 32 il ərzində bu neft yataqlarına 40 milyard dollardan çox investisiya qoyulmalı və beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Dövlət Neft Fonduna əlavə 3,6 milyard dollar ödənilməlidir. İlkin hesablamalara görə, yaxın 32 ildə bu yataqlardan 500 milyon tondan çox neft hasil ediləcəyi gözlənilir [4].

## Ədəbiyyat


1. A.Məsimov. BP – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Yaranması və Fəaliyyəti. Bakı, Elm və Təhsil Nəşriyyatı, 2018. S.256.
2. Aras Osman Nuri. Asrın Anlaşması ve Azerbaycan Ekonomisine Etkisi. Akademik Araştırmalar Dergisi. Sayı 30. S. 41 – 59.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/sour ce/balance_fuel/
4. "Azərbaycan" qəzeti, "Yeni əsrin müqaviləsi dayanıqlı iqtisadi inkişafın təminatıdır". http://unec.edu.az/yeni-esrin-muqavilesi-dayaniqli-iqtisadi-inkisafin-teminatidir/
5. M. Abbasov. Azərbaycanın Dünya İqtisadiyyatının İnteqrasiya Yolları. Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti. 2005. S. 171.
6. Quliyev S. Azərbaycan Respublikasının Neft Strategiyası və Qafqazda Təhlükəsizlik Problemləri. BMU Nəşriyyatı, 2018, s.236.

**SUMMARY**
**THE BASIS OF THE OIL STRATEGY OF AZERBAIJAN - THE WAY TO THE " CONTRACT OF THE CENTURY "**
***Hajiyev O.Y.***

***Key words:*** *Heydar Aliyev, oil strategy, consortium, world economy, investment.*
"Contract of the Century" is an oil contract signed on September 20, 1994 between the government of the Republic of Azerbaijan and the world's major oil companies. This agreement provided for the joint development of "Azeri", "Chirag" and "Guneshli" oil fields located in the Azerbaijani sector of the Caspian Sea. The article mentions that this agreement played an important role in attracting foreign investments to the country's economy after the independence of Azerbaijan, and at the same time, with the signing of this important agreement, great development took place in the oil industry of Azerbaijan and the beginning of investment flow to the country. The "Contract of the Century" is of strategic importance for Azerbaijan and laid the foundation of the country's energy policy in the international arena. Thus, the "Contract of the Century" became a decisive step in strengthening Azerbaijan's economic independence and positioning it as a global player in the energy sector.

**РЕЗЮМЕ**
**ОСНОВА НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА – ПУТЬ К "КОНТРАКТУ ВЕКА"**
***Гаджиев О.Ю.***

***Ключевые слова:*** *Гейдар Алиев, нефтяная стратегия, консорциум, мировая экономика, инвестиции.*
«Контракт века» - нефтяной контракт, подписанный 20 сентября 1994 года между правительством Азербайджанской Республики и крупнейшими нефтяными компаниями мира. Это соглашение предусматривало совместную разработку нефтяных месторождений «Азери», «Чираг» и «Гюнешли», расположенных в азербайджанском секторе Каспийского моря. В статье упоминается, что это соглашение сыграло важную роль в привлечении иностранных инвестиций в экономику страны после обретения Азербайджаном независимости, и в то же время с подписанием этого важного соглашения произошло большое развитие нефтяной промышленности Азербайджана и начало притока инвестиций в страну. «Контракт века» имеет стратегическое значение для Азербайджана и заложил основу энергетической политики страны на международной арене. Таким образом, «Контракт века» стала решающим шагом в укреплении экономической независимости Азербайджана и позиционировании его как глобального игрока в энергетическом секторе.

# AZƏRBAYCANIN İQTİSADİ HƏYATINDA NEFT SƏNAYESİNİN ROLU

**[1]Məhərrəmov Samir Qasım oğlu**
**[2]Fərhadova Jalə Famil qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1-tar.f.d., baş müəllim, 2- müəllim*
Meherremovsamir394@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, neft sənayesi, əsrin müqaviləsi, iqtisadiyyat, inkişaf*
***Xülasə.*** *Azərbaycan müstəqillik əldə etdikdən sonra daxili çəkişmələrin sona çatması və ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi sosial-iqtisadi və siyasi sahədə inkişafa səbəb oldu. "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan neft sənayesində inkişaf cəhətdən yeni bir mərhələyə daxil oldu. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni neft layihələri Azərbaycanın dünya miqyasında daha da tanınmasında xüsusi rol oynadı.*

Azərbaycan iqtisadiyyatında Sovet İttifaqının son dövrü və müstəqillik dövründə köklü dəyişiklik prosesi baş verdi. Sovet İttifaqı dağıldıqdan sonra onun nəqliyyat şəbəkələri, əlaqələri və bazarlarında ciddi problemlər üzə çıxdı. Ermənistan ilə aparılan müharibə, Rusiyanın embarqosu iqtisadiyyata ayrıca bir zərbə endirmiş, müstəqilliyin elan edildiyi 1991-1995-ci illər arasında Azərbaycan iqtisadiyyatı 60 faiz dəyərində kiçilməyə məruz qalmışdır. İki dövlət arasında atəşkəsin imzalanması iqtisadiyyatın geriləməsinin qarşısını almışdır. Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra iqtisadi və sosial sahələrdə geriliyin aradan qaldırılması sahəsində böyük planlar həyata keçirdi. Bu planlardan biri də Azərbaycanı dünya miqyasında tanıdacaq və gələcək inkişaf perspektivini daha da inkişaf etdirəcək Əsrin müqaviləsinin imzalanması oldu. Əsrin müqaviləsinin

imzalanması müharibədən yeni çıxmış və bütün iqtisadiyyatı alt-üst olmuş bir dövlətin gələcək inkişafının daha da sürətlənməsində xüsusi rol oynadı.

Əsrin müqaviləsi ulu öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcək inkişafı sahəsində həyata keçirdiyi tarixi xidmətlərdən biridir. 1998-ci ildən etibarən neft müqavilələrinin imzalanması Azərbaycan iqtisadiyyatının inkişaf perspektivi cəhətdən yeni mərhələyə daxil olmasına gətirib çıxarmışdır. XX əsrin sonlarından etibarən neft sənayesi getdikcə üstünlük qazanmağa başladı. Neft sənayesinin inkişafı Azərbaycan iqtisadiyyatının iki sahədə, enerji sahəsində və digər sahələrdə də güclənməsinə şərait yaratdı [3]. İqtisadi sahədə əldə edilmiş nəticələr araşdırıldığı zaman neftin bütün sahələrdə üstünlük əldə etdiyi və bu üstünlüyü uzun müddət öz əlində saxladığı açıq şəkildə görülməktədir. “Əsrin müqaviləsi” imzalandıqdan sonra ölkəmiz yeni inkişaf dövrünə qədəm qoymuşdur.

Neft hasilatının artması və ilkin neft marşrutlarının fəaliyyətə başlamasından sonra ixrac rəqəmləri daha da artmışdır. Neftin payı 1998-ci ildə 64.8 faiz olduğu halda bu proseslərdən sonra 2004-cü ildə 82 faizə qədər artmışdır. İdxal və ixrac arasında anlayışları bir-birindən tamamilə fərqlənməkdədir [1]. İdxal olunan məhsulların 1/3 hissəsi maşın və avadanlıqlardan ibarətdir. Azərbaycanın enerji sahəsinin inkişafı üçün lazım olan əsas vəsaitlər və təchizah xidmətləri idxal vasitəsilə həyata keçirilir. Bu səbəbdən enerji sahəsində fəaliyyətlər artdıqca cari hesab kəsiri də artmaqdadır. Ulu öndər Heydər Əliyev Əsrin müqaviləsi çərçivəsində yeni bir layihə olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi sahəsində gördüyü işlər bəzi şəxslər üçün kağız üstündə reallaşmayacaq işlər kimi qəbul olunsa da ulu öndər bu siyasəti tam sürətlə həyata keçirdi. Azərbaycanın ilk neft tankeri 1999-cu ildə dünya bazarına çıxarıldı. 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. Uzunmüddətli perspektivdə neft hasilatının və ixracının artması idxalın maliyələşdirilməsi və cari hesab kəsrinin nəzarət altında saxlanılmasında xüsusi rol oynayır. Müstəqilliyin ilk illərindən etibarən Azərbaycan neft sənayesinə qoyulan xarici investitsiya sonrakı dövrlərdə daha da artmışdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni neft layihələri Azərbaycanın dünya miqyasında daha da tanınmasına və yeni layihələrin həyata keçirilməsinə səbəb oldu. Prezident İlham Əliyev hakimiyyətinin ilk illərindən etibarən neft sənayesində daha böyük irəliləyişlər əldə etmək məqsədi ilə yeni layihələrin həyata keçirilməsinə başlanıldı. 2006-2007-ci illərdən etibarən neft sektorunda infrastruktur investitsiyaların böyük ölçüdə tamamlanacaq olması, idxalın azalmasına, cari balansın müsbət vəziyyətinə çevrilməsinə şərait yaradacaq. İlham Əliyev hakimiyyətdə olduğu müddətdə neft sənayesinin inkişafı ilə yanaşı regionların inkişaf perspektivlərinin inkişaf etdirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirmişdir. Neft sənayesinin Azərbaycan iqtisadi inkişaf dövründə neft amilini ön plana çıxarmış və bu sahədə xarici şirkətləri də neft sənayesinə cəlb edə bilmişdir. Bu gün cənab prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər planı nəticəsində Azərbaycan dünya miqyasında enerji mərkəzlərindən birinə çevrilmişdir. Yeni-yeni neft-qaz layihələrinin imzalanması Azərbaycana daxil olan maliyyə yükünün daha da artmasına səbəb olmuşdur. Bu maliyyə yükünün neft və qeyri-neft sektorlarına yönləndirilməsi Azərbaycanın hərtərəfli inkişafına səbəb olmuşdur [2]. Azərbaycan daxil olan maliyyə yükünün müəyyən hissəsinin hərbi sahəyə yönləndirilməsi Azərbaycanda ən son hərbi texnologiyaların alınmasına, hərb sənətinin daha da inkişaf etməsinə səbəb olmuşdur. Bütün bunlar bizim 30 il müddətində düşmən tapdağında olan torpaqlarımızın azad edilməsinə və milli qürür hissimizin yüksəlməsinə səbəb olmuşdur.

### Ədəbiyyat


1. Seyidov K. Bakü-Tiflis-Ceyhan petrol boru hattının Azerbaycan ve Türkiye ekonomilerine muhtemel etkileri, İstanbul-2006, 168 s.
2. https://www.asco.az/uploads_files/2020/10/12/647391602496542.pdf
3. https://yeniazerbaycan.com/SonXeber_e54366_az.html

**SUMMARY**
**THE ROLE OF THE OIL INDUSTRY IN THE ECONOMIC LIFE OF AZERBAIJAN**
***Maharramov S.G., Farkhadova J.F.***

***Keywords:*** *Azerbaijan, oil industry, contract of the century, economy, development*
The end of internal strife after Azerbaijan gained independence and the coming to power of the great leader Heydar Aliyev led to development in the socio-economic and political spheres. After signing the contract of the century, Azerbaijan entered a new stage of development in the oil industry. The new oil projects, founded by the great leader Heydar Aliyev and implemented today under the leadership of President Ilham Aliyev, played a special role in the further recognition of Azerbaijan on the world scale.

**РЕЗЮМЕ**
**РОЛЬ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ В ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНА**
***Магеррамов С.Г., Фархадова Ж.Ф.***

***Ключевые слова:*** *Азербайджан, нефтяная промышленность, контракт века, экономика, развитие.*
После обретения Азербайджаном независимости прекращение внутренних распрей и приход к власти великого лидера Гейдара Алиева привели к развитию в социально экономической и политической сферах. После подписания «Контракта века» Азербайджан вступил в новый этап развития нефтяной отрасли. Новые нефтяные проекты, заложенные великим лидером Гейдаром Алиевым и реализуемые сегодня под руководством президента Ильхама Алиева, сыграли особую роль в дальнейшем признании Азербайджана в мировом масштабе.

# ƏSRİN MÜQAVİLƏSİ- AZƏRBAYCANI İNKİŞAFA APARAN YOLUN BAŞLANĞICI KİMİ

**Muradova Qismət Şahin qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
muradovsahin2016.12@gmail.com

*"Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".*
***Heydər Əliyev***

***Açar sözlər:*** *Azərbaycan, neft, proqram, müqavilə*
***Xülasə.*** *Azərbaycan dünyada neftin tarixi vətənidir. Hələ orta əsrlərdə ərəb tarixçiləri , coğrafiya-şünasları və səyyahları Abşerondakı iqtisadi həyatın neftlə bağlı olduğunu qeyd edirdilər. Elə bu səbəbdən də tarix səhnəsində Əsrin müqaviləsinin çox böyük əhəmiyyəti olmuşdur. Əsrin müqaviləsinin əhəmiyyətini isə Heydər Əliyev ən yaxşı şəkildə ifadə etmişdir. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır.*

Azərbaycan dünyada neftin tarixi vətənidir. Hələ orta əsrlərdə ərəb tarixçiləri , coğrafiya-şünasları və səyyahları Abşerondakı iqtisadi həyatın neftlə bağlı olduğunu qeyd edirdilər. Elə bu səbəbdən də tarix səhnəsində Əsrin müqaviləsinin çox böyük əhəmiyyəti olmuşdur. Əsrin müqaviləsinin əhəmiyyətini isə Heydər Əliyev ən yaxşı ifadə etmişdir. Bu müqaviləni imzalamaqla biz bir daha dünyaya nümayiş etdirdik ki, Azərbaycan tam müstəqil dövlətdir və sərvətləri öz xalqı tərəfindən nəzarət altındadır. Heydər Əliyevin 1993-cü ildə xalqın təkid və çağırışı ilə hakimiyyətə geri dönməsi Azərbaycanın həm siyasi həm iqtisadi, həm də mədəni həyatında köklü dəyişikliyin başlanğıcını qoydu. "Əsrin müqaviləsi" nin imzalanması ilə nəyinki Azərbaycanın iqtisadi və enerji sektoru , eyni zamanda dünyanın enerji siyasətində əsaslı dönüş yarandı. Sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda, Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinliyində yerləşən hissəsinin birgə işlənməsi və neft şirkətləri arasında sazişin imzalanmasının 30-cu

ildönümü tamamdır. Azərbaycanın yeni neft strategiyası regionun mövqeyini həm Cənubi Qafqazda , həm də ki, Xəzər dənizində artırdı. Artıq yeni Azərbaycan dünyanın neft mərkəzlərindən biri olmaqla bərabər Qafqazdan, Asiyadan və Avropadan keçən axın zolağının əsas qayəasini təşkil etdi. Xarici investorlar öz enerji təhlükəsiziliyi problemini həll etmək, həmçinin regionun geostrateji üstünlüklərindən faydalanmaq üçün Azərbaycanın neft sənayesinə sərmayə qoydular. Qərb şirkətləri ilə danışıqlar demək olar ki, 1983-cü ilin iyununa qədər davam etdi. 1989-cu ildə Şotlandiya şirkəti ("Ramco Energy") nin prezidenti Stiv Rempin Azərbaycana gəlişi və mürəkkəb danışıqların əsas nəticəsi olaraq bu proses başladı. XX əsrin 90-ci illərində isə Azərbaycan tarixi üçün olduqca əhəmiyyətli bir hadisə baş verdi. Bu hadisə 1993-cü ilin may-iyun aylarında baş vermiş hakimiyyət dəyişikliyi idi. Nəticədə təcrübəli siyasətçi prezident seçildi- Heydər Əliyev.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Heydər Əliyev Azərbaycan Respublikasında neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında fərman verdi. Daha sonra 1994-cü ilin martında ilk öncə Bakıda daha sonra İstanbul və Hyustonda danışıqlar prosesi bərpa olundu. Layhiyə sazişi respublikanın ali orqanlarında müzakirə edilib və sentyabrın 24-də imzalandı. Bu müqaviləni imzalamaqla Azədbaycan dünyanın inkişaf etmiş ölkələri, eyni zamanda onların ən böyük neft şirkətləri ilə əlaqə yaratmaq imkanı qazanmışdı. Əsrin müqaviləsindən sonra dünyanın iri neft şirkətləri ilə müqavilələr imzalandı. Bakı-Tiblis-Ceyhan neft kəməri əfsanəsi gerçəkləşdi. 2010-cu ildə Azərbaycanda 52 mlm ton neft hasil edildi və buda bu kəmərlə dünya bazarına çıxarıldı.

Azərbaycan iqtisadiyyatına irihəcmli sərmaye yatırımlarının başlanması ilk növbədə ABŞ və Böyük Britaniya kimi ən böyük Qərb ölkələrinin simasında bizə inanan, bizim isə onlara inandığımız etibarlı strateji tərəfdaşlar qurmağımıza kömək etdi. Bununlada hər iki oyunçu udan tərəf oldu [1, s.206]

Azərbaycan neft diplomatiyası bu gündə uğurla və layiqincə davam etdirilir. Ən öndə prioritet enerji ixracını davamlı şəkildə şaxələndirmək və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkənin əhəmiyyətini hərtərəfli şəkildə artırmaqdır.

## Ədəbiyyat

1.Axundova. E.H. Şəxsiyyət və zaman (1993-2003) Hissə 6/1. Bakı:-2013- s.478

**SUMMARY**
**THE CONTRACT OF THE CENTURY - AS THE BEGINNING OF THE PATH LEADING AZERBAIJAN TO DEVELOPMENT**
***Muradova G.Sh.***

***Keywords:*** *Azerbaijan, oil, program, contract*

Arab historians, geographers and travelers noted that the economic life in Absheron was related to oil. It is for this reason that the Treaty of the Century was of great importance on the stage of history. Heydar Aliyev expressed the importance of the contract of the century in the best way. With the initiative and leadership of Heydar Aliyev, a special program for oil refining was developed and implemented in Azerbaijan for the first time.

**РЕЗЮМЕ**
**ДОГОВОР ВЕКА-КАК НАЧАЛО ПУТИ, ВЕДУЩЕГО АЗЕРБАЙДЖАН К РАЗВИТИЮ**
***Мурадова Г.Ш.***

***Ключевые слова:*** *Азербайджан, нефть, программа, контракт.*

Азербайджан является исторической родиной нефти в мире. Еще в средние века арабские историки, географы и путешественники отмечали, что экономическая жизнь на Апшероне была связана с нефтью. Именно по этой причине «Договор века» имел огромное значение на исторической сцене. Гейдар Алиев как нельзя лучше выразил важность «Контракта века». По инициативе и под руководством Гейдара Алиева в Азербайджане впервые была разработана и реализована специальная программа по нефтепереработке.

# “ƏSRİN MQÜAVİLƏSİ”NİN DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ ROLU

**Cəfərov Pərviz Tahir oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
parvizjafarov5@gmail.com

***Açar sözlər:*** *beynəlxalq siyasət, karbohidrogen ehtiyatları, investisiya, iqtisadi institutlar, tranzit ölkə*

***Xülasə.*** *Dövlətin güclü olmasının təməlində güclü iqtisadiyyat dayanır. Azərbaycana qarşı aparılan elan olunmamış müharibə ölkəmizin həyata keçirmək istədiyi qlobal iqtisadi layihələrin qarşısında duran əsas maneələrdən biri idi. Azərbaycanın yeni neft strategiyası ölkənin milli inkişafı üçün lazımi iqtisadi mexanizmlərin tətbiq edilməsi imkanlarını müəyyənləşdirdi. Azərbaycanın həyata keçirdiyi transmilli layihələr Xəzər bölgəsinin yeni qlobal güc mərkəzinə çevrilməsinin əsasını qoydu. Əsrin müqaviləsi”nin imzalanması ilə iqtisadiyyatın inkişafı istiqamətində yeni mərhələyə qədəm qoyuldu.*

Ümummilli lider Heydər Əliyevin müstəqillikdən sonrakı ilk illərdə baş verən siyasi təlatümlərin ağır nəticələrini ləğv etmək üçün yenidən ölkə idarəçiliyinə qayıtması Azərbaycanı düşmüş olduğu ağır iqtisadi və siyasi vəziyyətdən xilas etmiş, ölkəmizin işıqlı gələcəyinin əsasını qoymuşdur. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın milli inkişaf konsepsiyası onun hakimiyyətdə olduğu illər ərzində qətiyyətlə yerinə yetirildi, dövlətimizin müstəqilliyi daha da möhkəmləndirildi, iqtisadi müstəqilliyimizin gücləndirilməsi siyasi müstəqilliyimizin də güclənməsini əsaslandırdı. Dövlətin güclü olmasının təməlində güclü iqtisadiyyat dayanır. Güclü iqtisadiyyata malik ölkənin inkişafı onun beynəlxalq vəziyyəti ilə də üzvi şəkildə bağlılıq təşkil edərək onu beynəlxalq arenada əhəmiyyətli siyasi oyunçuya çevirir. Bəhs edilən dövrdə Azərbaycanın beynəlxalq vəziyyəti kifayət qədər mürəkkəb idi. Regionda marağı olan böyük güclər bütün mümkün siyasi mexanizmlərdən istifadə edərək Azərbaycana təzyiq etmək istəyirdilər. Təcavüzkar Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan elan olunmamış müharibə ölkəmizin həyata keçirmək istədiyi qlobal iqtisadi layihələrin qarşısında duran əsas maneələrdən biri idi. Regionda marağı olan böyük güclər bütün bu amillərdən öz mənafelərini həyata keçirmək üçün məharətlə istifadə etməyə çalışırdılar. Lakin onlar bir mühüm detalı nəzərə almamışdılar – şahmat lövhəsinin qarşı tərəfində dahi ustad qərarlaşmışdı. Heydər Əliyev qələbənin mümkün görünmədiyi siyasi oyunlarda belə mühüm gedişlər edərək vəziyyəti ölkəmizin xeyrinə dəyişə bilirdi.

Yeni dünya düzənində böyük dövlətlərin müəyyən etdiyi siyasi şərtlərin daxilində karbohidrogen ehtiyatları təyinedici faktora çevrilmişdi. Bu amilin ölkəmizin iqtisadi maraqlarına xidmət etməsi üçün Heydər Əliyev uzaqgörənliklə Azərbaycanın təbii sərvəti olan neftdən istifadənin xalqımızın, gələcək nəsillərin həyatına verəcəyi töhfəni nəzərə alaraq ölkənin gələcək inkişafında əsasını qoydu. “Azərbaycanın ən böyük problemi olan Qarabağ münaqişəsinin həlli siyasi sabitliyi təmin etməkdən, iqtisadi yüksəlişi hərəkətləndirməkdən keçirdi ki, bunun üçün neft amilindən istifadə etmək lazım idi” [2, s. 487].

Azərbaycanın yeni neft strategiyasının əsasını Heydər Əliyev qoymuşdur. Bu strategiya sayəsində ölkənin milli inkişafı təmin edilmiş, maddi resursların effektiv istifadəsi yolları müəyyənləşdirilmişdir. Neft strategiyasının çox uğurlu şəkildə tətbiq edilməsi ölkəmizin geosiyasi və geoiqtisadi əhəmiyyətini artırmışdır. Ümummilli liderin müəllifi və təminatçısı olduğu neft strategiyası ölkəmizin dünyaya inteqrasiyası prosesini sürətləndirdi. Neft strategiyası müstəqil dövlətçiliyimizi gücləndirdi. Azərbaycan yeni qlobal güc mərkəzinə çevrilən Xəzər bölgəsinin əsas siyasi mərkəzi oldu. Neft strategiyasının həyata keçirilməsi ilə ölkəmizin iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olundu. “Məhz neft strategiyası Azərbaycanın müstəqilliyinin, onun hərbi-siyasi və dövlət gücünün bazası ola bildi” [3].

Düzgün işlənmiş və həyata keçirilmiş neft strategiyası sayəsində ölkəmizin geosiyasi kursu müəyyənləşdirildi. Məhz Azərbaycanın həyata keçirdiyi transmilli layihələr bölgəmizin yeni güc mərkəzinə çevrilməsinin əsasını qoydu. Azərbaycan enerji resurslarını səmərəli şəkildə istifadə edərək, bu iqtisadi üstünlüyünü əlverişli geosiyasi imkanları ilə birləşdirdi. Azərbaycan sivilizasiyalarının qovşağında yerləşən Xəzər hövzəsinin əsas siyasi faktoruna çevrildi. Ölkəmiz regionda toqquşan böyük siyasi güclərin maraqları üzərində yüksək manevr texnologiyaları sərgiləyərək respublikamız üçün yeni imkanları açdı. Bu imkanlar maksimum dərəcədə milli dövlətçiliyin möhkəmləndirilməsinə yönəldildi. Neft strategiyasının həyata keşirilməsindən əldə olunan gəlirlər iqtisadiyyatın diversifikasiyalaşdırılması prosesini həyata keçirməyə imkan yaratdı. İqtisadi resursların dünya bazarına cəlb olunması, ölkəmizi dünya bazarının önəmli oyunçusuna çevirdi. "Əsrin müqaviləsi"ndən başlayaraq, Azərbaycan transmilli dünyanın və qlobal dünya iqtisadiyyatının bir hissəsinə çevrildi... Azərbaycan dövləti və vətəndaşları, ictimai-siyasi və iqtisadi institutlar dünya ölkələrinin iqtisadi, maliyyə və texnoloji imkanlarından istifadə etmək imkanını qazandılar" [4, s. 99].

Neft sənayesinə investisiya və yeni texnologiyalar cəlb etmək, respublikaya sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Dövlət Neft Şirkətinə (ADNŞ) tapşırıldı. [1, s. 305]. 1994-cü il sentyabrın 20-də Bakıda Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi haqqında hasilatın pay bölgüsü müqaviləsi imzalandı. Tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırılan bu müqavilədə dünyanın 8 ölkəsinin 13 böyük neft şirkəti iştirak etmişdir. Azərbaycanın neft strategiyası və doktrinası bu müqavilənin imzalanması ilə uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi"nin imzalanması ilə iqtisadiyyatın inkişafı istiqamətində yeni mərhələyə qədəm qoyuldu, bazar iqtisadiyyatına keçid üçün hüquqi və iqtisadi mexanizmlərin yaradılmasına başlandı. Əsrin müqaviləsi ilə Azərbaycan özünün enerji resurslarını dünya bazarlarına çıxararaq xarici neft şirkətlərini Xəzər dənizində işləməyə dəvət etdi. Bu gün Azərbaycan Türkiyə və Gürcüstan ilə birlikdə mühüm enerji layihələrini həyata keçirir. Günümüzdə Azərbaycan təkcə ölkəmizin neft resurslarının dünya bazarına çıxarılmasını deyil, həm də Xəzər dənizinin digər tərəfində hasil olunan neftin daşınması üçün də əsas tranzit ölkəyə çevrilmişdir.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. 7 cilddə, VII c. (1941-2002-ci illər) – Bakı: "Elm", - 2008. – 608 s.
2. Ağasiyev İ. K., Səlimov Ş. D. Azərbaycan tarixi. Bakı, 2017, 527 səh.
3. Əliyeva N. Heydər Əliyev ideyaları və XXI əsr. " Respublika" qəzeti, Bakı, 2010, 01 may.
4. Həsənov Ə. M. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, "Zərdabi LTD" MMC, 2015, 1056 s.



**SUMMARY**

**THE ROLE OF THE "CONTRACT OF THE CENTURY" IN STRENGTHENING STATE INDEPENDENCE**

***Jafarov P.T.***

***Keywords:*** *international politics, hydrocarbon resources, investment, economic institutions, transit country*

A strong economy is the basis of the state's strength. The undeclared war against Azerbaijan was one of the main obstacles facing the global economic projects that our country wants to implement. The new oil strategy of Azerbaijan defined the ways of obtaining and using the necessary material resources for the national development of the country. Transnational projects implemented by Azerbaijan laid the foundation for the transformation of the Caspian region into a new global power center. With the signing of the "Contract of the Century", a new stage was entered in the direction of economic development.



**РЕЗЮМЕ**

**РОЛЬ «КОНТРАКТА ВЕКА» В УКРЕПЛЕНИИ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ**

***Джафаров П.Т.***

***Ключевые слова:*** *международная политика, углеводородные ресурсы, инвестиции, экономические институты, транзитная страна*

Сильная экономика – основа силы государства. Необъявленная война против Азербайджана была одним из главных препятствий на пути реализации глобальных экономических проектов, которые хочет реализовать наша страна. Новая нефтяная стратегия Азербайджана определила пути получения и использования необходимых материальных ресурсов для национального развития страны. Транснациональные проекты, реализуемые Азербайджаном, заложили основу для превращения Каспийского региона в новый мировой центр силы. С подписанием «Контракта века» начался новый этап в направлении экономического развития.

## ƏSRİN MÜQAVİLƏSİNİN AZƏRBAYCAN TARİXİNDƏKİ ÖNƏMİ

**Qasımbəyli Ceyhun Qüdrət oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
Qasimbeyli.ceyhun@mail.ru

***Açar sözlər:*** *Neft, sənaye, müqavilə, neft şirkətləri, neft kəməri*

***Xülasə.*** *Azərbaycan neftinin dünya üçün önəmi hər zaman böyük olmuşdur. Hətta II Dünya müharibəsinin qazanılmasında demək olar ki əsas faktor Azərbaycan nefti olmuşdur. Azərbaycan müharibə illərində SSRİ neftinin 76%-ni verirdi. Azərbaycan neft sənayesinin inkişaf tarixi bir neçə mərhələyə bölünür ki, bunlarında hər birinin özünəməxsus nailiyyətləri olmuşdur. Əsrin müqaviləsi ilə başlayan yeni mərhələ ən önəmli mərhələlərdən biridir. Onu önəmli edən əsas faktorlardan biri müstəqillik dövründə imzalanmasıdır. 1994-cü ilin 20 sentyabrında imzalanmış müqavilə Heydər Əliyevin uzaqgörənliyinin, diplomatik bacarığının növbəti uğuru idi. Bu müqavilənin nəticəsidir ki, bu gün Azərbaycan iqtisadiyyatı yüksələn xəttlə inkişaf edir. Ən əsası Azərbaycan bu müqavilənin imzalanmasından keçən 30 il ərzində regionun sabitlik məskənidir.*

Azərbaycan dünyada neftin tarixi diyarlarından biridir desək yanılmarıq. Orta əsr ərəb tarixçiləri, səyyahları və coğrafiyaşünasları Azərbaycanda olan neftlə bağlı çox əhəmiyyətli məlumatlar vermişdilər. IX əsrdə yaşamış Əl-Bəlazuri Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu qeyd edirdi. X əsrdə yaşamış ərəb tarixçisi Məsudi , həmçinin Əbu İshaq əl İstəxri Bakının neftli torpağı, Abşeronun ağ və qara nefti barədə məlumatlar vermişdilər. İstəxri həmçinin qeyd edirdi ki, qədim zamanlardan Bakı sakinləri ağac və kömür əvəzinə neftdən istilik materialı kimi, ağ neftdən isə müalicəvi məqsədlər üçün istifadə etmişlər. XVIII əsrdə yaşamış məşhur italyan səyyah Marko Polo Azərbaycana (Qafqaz) səyahətində neft barədə qeyd edirdi ki, elə bir bulaqdır ki, gözündən çağlayan bol yağla yüz gəmini bir yerdə doldurmaq olar. Bu yağ yeməyə yaramır, amma yandırmaq üçün yararlıdır. Bu yağı daşımaq üçün uzaq yoldan insanlar gəlirlər. Alman səyyahı Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Səfəvilər dövlətinə təşrif buyurmuş və Abşeron yarımadasına gedərək – Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş, neftin buradan İrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını təsvir etmişdir. 1848-ci ildə dünyada ilk dəfə Bibiheybətdə mexaniki qazma – buruq üsulu ilə ilk neft istifadəyə verilmişdir. 1859-cu ildə rus kapitalistləri tərəfindən Bakıda (Suraxanı) ilk ağ neft zavodu inşa edildi. 1863-cü ildə isə Cavad Məlikov Bakıda ağ neft (kerosin) zavodu tikdirdi. Dünyada ilk dəfə neftayırma prosesində soyuduculardan istifadə etdi. Azərbaycan neft tarixinin zirvəsi hesab ediləcək hadisələrdən biri 1994-cü ilin 20 sentyabrında Gülüstan sarayında imzalanmış Əsrin müqaviləsidir. Əsrin müqaviləsini 8 ölkə - Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı imzalamışdır. Dünyaca məşhur 13 neft şirkəti bu müqavilənin reallaşmasında iştirak etmişdir. Həmin şirkətlər – Amoko, British Petroleum (BP), MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta şirkətləridir. Müqaviləyə əsasən Xəzərin Azərbaycan sektorundakı, "Azəri", "Çıraq", Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi nəzərdə tutulurdu. Müqavilə 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. Əsrin müqaviləsi həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biridir. 1995-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. 1996-cı ildə isə Xəzər Beynəlxalq

Neft Şirkəti yaradıldı. Əsrin müqaviləsi üzrə neftin ilk hasilatına 1997-ci ildə başlanıldı. Əsrin müqaviləsinin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında böyük və əhəmiyyətli dönüş yarandı. 1997-ci ildə "Şimal" Bakı Novorossiysk neft boru kəməri istifadəyə verildi. 1994-2001-ci illərdə Dövlət Neft Şirkəti 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzaladı. 1998-ci ildə Bakı – Supsa "Qərb Neft kəməri"nin tikintisi başa çatdırıldı. 1999-cu ildə Bakı – Supsa "Qərb Neft kəməri" istifadəyə verildi. 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondu yaradıldı. Fonddan əldə edilən vəsaitlərin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə yönəldilməsi nəzərdə tutulurdu. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in sammitində Bakı-Tbilisi-Ceyhan "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalandı. Müqaviləni Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ, Qazaxıstan və Türkmənistan prezidentləri imzaladı. 2006-cı ildə isə Bakı-Tbilisi-Ceyhan "Əsas İxrac Neft Kəməri"nin açılış mərasimi keçirildi. Əsrin müqaviləsinin imzalanması nəticəsində neft sayəsində baş vermiş bu mühüm dəyişikliklər Azərbaycan tarixi və iqtisadiyyatı üçün çox mühüm rola malikdir. Məhz bunun nəticəsində Azərbaycan regionda öz siyasəti və iqtisadiyyatı ilə digər dövlətlərdən müsbət yöndə xeyli fərqli üstünlüklər qazanmışdır. Müqavilənin imzalanması Heydər Əliyevin siyasi bacarığının və uzaqgörənliyinin bir nəticəsi idi. "H. Əliyev: Zənnimcə, müqavilənin həyata keçirilməsi üçün elə bir maneə yoxdur. Qarşıya çıxan xırda və cari məsələləri həll edəcəyik." [2] Qoy heç kəs elə güman etməsin ki, Azərbaycan parlamenti müqavilənin nəzərdən keçirilməsini uzadacaqdır Hal-hazırda dünyada neftlə zəngin bəzi ölkələr var ki, o ölkələrdə sosial-iqtisadi vəziyyət acınacaqlı vəziyyətdədir. Ölkə parçalanmaq və ya müharibə səbəbindən iqtisadiyyatı çökmüş vəziyyətdədir. Bəlkə də Əsrin müqaviləsi kimi çox önəmli və xüsusi əhəmiyyət malik müqavilələrin imzalanmaması bu ölkələrin neftlə bağlı problemlər yaşamasına gətirib çıxarmışdır. Heydər Əliyevin müstəqilliyimizin ilk illərində atdığı bu addımlar, verdiyi önəmli qərarlar dövlətçiliyimizin hər keçən gün daha da inkişafına və güclənməsinə kömək etmişdir. Son illərdə Azərbaycanda həm neft, həm də qeyri neft sektoru nikişaf etməkdədir. "Milli Neft Strategiyası reallaşdırılması kontekstində demək olar ki, daima yeni uğurlar qazanılmaqdadır. Nümunə üçün qeyd etmək lazımdır ki, 2020-ci ildə SOCAR və Norveçin "Equinor" (keçmiş "Statoyl") şirkətinin birgə qazma əməliyyatı vasitəsilə "Qarabağ" məhz neft yatağı kimi kəşf edildi. Yataq 60 milyon ton neft ehtiyatına malikdir." [3]

Azərbaycan neft sənayesi günü gündən daha da inkişaf edir. Digər dövlətlərlə neft sahəsində əməkdaşlıq müqavilələri imzalanır. Artıq Azərbaycan nefti dünyanın bir çox ölkəsində neft bazarının əsas iştirakçısıdır.

## Ədəbiyyat


1. Əsrin müqaviləsi sənədi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. 354 səh. Bakı 1994
2. Quliyeva Z. Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 16, 2021. 81-94
3. E.M.Hacızadə, T.Ə.Paşayev. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdirilmasi istiqamətlər. 192 Səh. Bakı – ELM – 2000,


**SUMMARY**

**THE IMPORTANCE OF THE CONTRACT OF THE CENTURY IN THE HISTORY OF AZERBAIJAN**


***Qasimbayli C.G.***



***Key words:*** *Oil, industry, contract, oil companies, oil pipeline*



The importance of Azerbaijani oil for the world has always been great. Azerbaijan's oil was almost the main factor in winning World War II. During the war, Azerbaijan provided 76% of the USSR's oil. The history of the development of the Azerbaijani oil industry is divided into several stages, each of which has its own achievements. The new phase that started with the contract of the century is one of the most important phases. One of the main factors that make it important is that it was signed during independence. The agreement signed on September 20, 1994 was the next success of Heydar Aliyev's foresight and diplomatic skills. As a result of this agreement, today the economy of Azerbaijan is developing in an upward direction. Most importantly, Azerbaijan has been the center of stability in the region for 30 years since the signing of this agreement.

**РЕЗЮМЕ**
**ЗНАЧЕНИЕ ДОГОВОРА ВЕКА В ИСТОРИИ АЗЕРБАЙДЖАНА**
***Гасымбейли Д.К.***

***Ключевые слова:*** *Нефть, промышленность, контракт, нефтяные компании, нефтепровод*

Значение азербайджанской нефти для мира всегда было велико. Нефть Азербайджана была едва ли не главным фактором победы во Второй мировой войне. Во время войны Азербайджан обеспечивал 76% нефти СССР. История развития нефтяной промышленности Азербайджана делится на несколько этапов, каждый из которых имеет свои достижения. Новый этап, начавшийся с «Контракта века», является одним из наиболее важных этапов. Одним из главных факторов, делающих его важным, является то, что он был подписан во время независимости. Соглашение, подписанное 20 сентября 1994 года, стало очередным успехом дальновидности и дипломатического мастерства Гейдара Алиева. В результате этого соглашения сегодня экономика Азербайджана развивается в восходящем направлении. Самое главное, что Азербайджан на протяжении 30 лет с момента подписания этого соглашения является центром стабильности в регионе.

# TƏHSİL SİSTEMİNİN İNKİŞAFINDA "ƏSRİN MÜQAVİLƏSİ"NİN ROLU

**Qədimov Mirdamət Famil oğlu**
*Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan, doktorant*
mirdamat@list.ru

***Açar sözlər:*** *"Əsrin müqaviləsi", iqtisadi inkişaf, təhsil xərcləri, dövlət büdcəsi, təhsil sahəsi, maliyyələşdirmə mənbələri.*

***Xülasə.*** *Ölkənin sosial-iqtisadi inkişafında "Əsrin müqaviləsi" mühüm rol oynamışdır. Bu müqavilə əsasında neftdən gələn gəlir qeyri-neft sektorunun inkişafına yönəldilmiş, xalqın sosial rifahının yaxşılaşmasına zəmin yaradıldı. İnkişaf edən sahələrdən biri də təhsil sistemi idi. Təhsil sahəsində köklü dəyişikliklər baş verdi. Beləliklə, maddi-texniki baza möhkəmləndi, əsaslı təmir-tikinti işlərinə başlanıldı və savadlı kadr potensialı formalaşmağa başladı. Bununla da, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də təməlli islahatlar paketinin əsası qoyuldu.*

Müstəqilliyin ilk illərində ölkəmizdə bütün sahələrdə olduğu kimi təhsil sahəsinin də maddi texniki bazasının və kadr potensialının tənəzzül dövrü yaşanırdı. Belə ki, uşaq baxçaları, orta və ali məktəblərin infrastrukturu köhnəlmiş və bərbad vəziyyətdə, tələbələrin təqaüdləri çox az məbləğdə və təhsilverənlərin əməkhaqqı isə ümumiyyətlə həmin dövrün istehlak səbətindən çox aşağı formalaşırdı. Eyni zamanda müstəqillik yeni əldə olunduğundan bu sahənin qanunvericilik bazası da tam milli tələblərə uyğun formalaşmamışdı. Sadalanan bu proseslərdən və ümumilikdə ölkəni iqtisadi, sosial, mədəni və hərbi tənzzüldən qurtarmaq üçün xalq öz liderini Ulu öndər Heydər Əliyevi növbəti dəfə təkidli tələblə ölkənin ali rəhbəri olmağa dəvət etdi. Ulu öndər də xalqın bu təkidli tələbini qəbul etdi, ölkəni və vətəndaşları bu ağır bəladan qurtarmağı öz üzərinə götürdü. Baxmayaraq ki, ölkəmiz 1991-ci ildə müstəqillik əldə etmişdir, fikrimizcə tam olaraq müstəqilliyi 1993-cü ilin iyun ayının 15-dən, Ulu öndərin növbəti dəfə hakimiyyətə gəlişi ilə qazandı. Ulu öndərin uğurlu sosial-iqtisadi siyasətinin ən başlıca göstəricilərindən biri məhz onun rəhbərliyi ilə Azərbaycanda neft yataqlarının işlənməsi və inkişaf etdirilməsi üçün 20 sentyabr 1994-cü ildə dünyanın 8 ölkəsinin və 13 aparıcı neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi"nin imzalanması olmuşdur. Məhz bu tarixi müqavilədən və dövrdən sonra ölkə iqtisadiyyatı sürətlə inkişaf etməyə başlamış və investisiya idxal edən ölkədən, digər dövlətlərə investisiya yönəldən ölkəyə çevrilmişdir.

Heç təsadüfü deyildir ki, təhsil sahəsinin də maddi texniki bazasının formalaşması, bu sahəyə əsaslı kapital qoyuluşları, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinin gücləndirilməsi, rifahının yaxşılaşdırılması, orta məktəb dərsliklərinin pulsuz paylanması və digər mütərəqqi addımlar məhz bu müqavilənin ölkəyə gətirdiyi dividentlər nəticəsində baş vermişdir.

Ölkənin ali qanunu olan Konstitusiyada təhsil almaq hər bir vətəndaşın əsas hüquqlarından biri kimi ifadə olunur. Eyni zamanda dövlətin də təhsil sahəsinə nəzarət etməsi və icbari tam orta

təhsilin pulsuz təşkil edilməsinə məsul olması vurğulanır [1]. Hesab edirik ki, təhsilin də əsl məzmununun qeyd olunması məqsədə müvafiq olardı. Belə ki, Təhsil haqqında Azərbaycan Respublikası qanununa görə təhsil-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi kimi başa düşülür (Maddə 1.0.44) [2]. Təhsil sahəsinin inkişaf etdirilməsində əsas bu sahəyə yönəldilən investisyaların həcmi və bu investisiyalardan səmərəli istifadə olunması təhlil olunmalıdır. Belə ki, ayrılmış vəsaitlər təyinatı üzrə xərclənmədikdə, yaxud səmərəli istifadə olunmadıqda təhsil sahəsinin inkişafından danışmaq olmaz.

Azərbaycanın iqtisadi qüdrətinin artması fonunda dövlət büdcəsinin də gəlirləri artan xətt üzrə inkişaf edir, buna paralel olaraq da büdcədən maliyyələşən sahələrin maliyyələşdirilməsinə ayrılan vəsaitlərin də hər il artmasına şahidlik edirik. Cədvəl-1 də təhsil sahəsinə ayrılan vəsaitlərin artım dinamikasına nəzər salaq.

***Cədvəl 1.***

*Dövlət büdcəsində təhsil sahəsin ayrılmış xərclər [3].*

| **İLLƏR** | **Dövlət büdcəsindən təhsil sahəsinə ayrılmış vəsait, mln.manat** | **Ayrılan vəsaitin dövlət büdcəsində xüsusi çəkisi (%-lə)** |
|---|---|---|
| 2021 | 3035,6 | 11,5 |
| 2022 | 3696,5 | 12,0 |
| 2023 | 4124,8 | 11,3 |
| 2024 proqnoz | 4549,9 | 12,4 |

*Mənbə: https://sai.gov.az/ saytında olan məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb*

Cədvəl-1-in məlumatlarının təhlili göstərir ki, təhsil sahəsinə dövlətin diqqət və qayğısı nəticəsində hər il dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlərin tərkibində nəzərəçarpacaq artımlar həyata keçirilir. Ümumiyyətlə dövlət büdcəsindən təhsil sahəsinə ayrılan bu vəsaitlər konkret sahələrin maliyyələşdirilməsini nəzərdə tutur. Belə ki, həmin sahələr sırasında müəllimlərin və texniki işçilərin əməkhaqlarının ödənilməsi, sosial sığorta ayırmaları, tibbi sığorta ayırmaları, balansda olan bina və qurğuların saxlanması, təmiri, yenidən qurulması, nəqliyyat vasitələrinin yanacaq və sürtkü materiallarına olan tələbatlarının ödənilməsi, mükafatlandırma və s. göstərmək olar. Qeyd olunan sahələr üzrə təhsil sistemində idarəetməni həyata keçirən Mərkəzi icra hakimiyyəti orqanı tərəfindən Maliyyə Nazirliyi ilə razılaşdırmaqla bölüşdürülən vəsaitdən yalnız təyinatı üzrə istifadə nəzərdə tutulur. Xüsusi ilə, təhlillər göstərir ki, təhsil xərclərinin tərkibində formalaşan sahələr üzrə xərclərin tərkibində təhsilverənlərə ödənilən əməkhaqları xüsusi yer tutur.

Dünya təcrübəsində təhsil sahəsinin xərclərini maliyyələşdirməkdən ötrü əsasən 3 istiqamət xüsusi ilə fərqlənir. Həmin istiqamətlərin sxematik təsvirini şəkildə daha aydın görmək olar [4].




*Mənbə: stat.gov.az saytında olan məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb.*

***Şəkil.*** *Təhsil üzrə xərclərin maliyyələşmə mənbələri*

Qeyd olunan istiqamətlərdən ölkəmizdə əsasən dövlətin maliyyələşdirməsi daha geniş yayılmışdır. Özəl maliyyələşdirmə mənbəyindən əsasən özəl təhsil sahələrinin maliyyələşdirilməsi üçün istifadə olunur. Bu istiqamətdə əsasən özəl təhsil müəssisəsinin təsisçisinin və səhmdarların vəsaitlərindən istifadə geniş yayılmışdır. Beynəlxalq maliyyələşdirmə isə özünü daha çox beynəlxalq qrant və yardım layihələri formasında göstərməkdədir. Bu istiqamət son 2-3 ildə daha çox inkişaf etməkdədir. Belə ki, artıq Azərbaycanda fəaliyyət göstərən Ali təhsil müəssisələrinin bir çoxu özünün maddi texniki bazası və yüksək ixtisaslı kadr ehtiyatları ilə dünya təhsil arenasında rəqabətədavamlı mövqe göstərərək bir çox beynəlxalq layihələri qazanır və ölkəmizi təmsil edir. Eyni zamanda bu prosesə digər yerli universitetləri də cəlb edirlər. Beləliklə təhsil sahəsində qarşılıqlı əlaqəli formada inkişaf gedir.

Ölkənin sürətli sosial-iqtisadi inkişafı fonunda təhsil müəssisələrinin yüksək ixtisaslı kadr potensialının formalaşması da əsas məslələrdən biridir. Eyni zamanda qeyd olunan kontingentə yüksək əməkhaqqının ödənilməsi və sosial müdafiəsi tədbirlərinin əsaslı təmin edilməsi prioritet istiqamətlərdəndir. Ümumiyyətlə ölkənin bütün sahələrdə güclü, savadlı, ağıllı, dünyagörüşü zəngin, bir sözlə müasir dövrün çağrışları ilə uyğunlaşa bilən kadr potensialına böyük ehtiyac vardır. Məhz bu ehtiyacların qarşılanması üçün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən gənclərin xaricdə təhsil almasını təmin edən bir sıra fərman və sərəncamları vardır ki, bunun sayəsində yüzlərlə Azərbaycanlı gənclər dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almaqla yanaşı, həmin ölkələr də iqtisadi, siyasi və digər sahələrdə dərin biliklərə yiyələnərək ölkəmizin bu günki inkişafında öz zəruri töhfələrini verməkdədirlər. Heç təsadüfi deyildir ki, Cənab Prezidentin illər əvvəl dediyi “Qara qızılı İnsan kapitalına çevirməliyik” fikri bu gün əyani şəkildə öz təsdiqini tapmaqdadır. Əvvəldə də qeyd etdiyimiz kimi, əsası Ulu öndər tərəfindən qoyulan, aparıcı dövlətlərlə imzalanan “Qara qızıl” yataqlarının işlənməsi, istismarı və ötürülməsi sahəsində bağlanan “Əsrin müqaviləsi” sayəsində ölkəyə güclü kapital axını formalaşdı ki, məhz bunun nəticəsində müasir dövrün çağrışları ilə ayaqlaşmağı zəruri hesab edərək Cənab prezident daxil olan gəlirlərdən səmərəli istifadə edərək ölkənin həm insan kapitalının formalaşmasını, həm iqtisadi, siyasi gücünün təmin edilməsini, hərbi potensialının gücləndirilməsini və digər mütərəqqi və düşünülmüş siyasi gedişlər edərək ölkəni sürətli inkişaf edən və dünyanın aparıcı dövlətləri ilə rəqabətə davamlı vəziyyətə gətirməyi bacardı.

İnsan kapitalının formalaşması bir başa güclü və iqtisadi cəhətdən dayanıqlı təhsil sistemindən aslıdır. Başqa sözlə ifadə etsək, təhsil insan kapitalının formalaşmasında əsas və zəruri yer tutur. Ölkənin surətli sosial-iqtisadi və digər sahələrindəki inkişaf təhsil sisteminin inkişafından aslıdır. Belə ki, bütün sahələrdə nə qədər ETT (Elmi Texniki Tərəqqi)-nin nailiyyətlərindən, süni intellektdən istifadə olunsa da yenə də insan əməyindən istifadə zərurəti yaranır. Hətta qeyd olunan intellektual sistemlərin özünü belə, insan zəkası kəşf edir, hazırlayır. Bu səbəblərdən insan kapitalının formalaşdırılması və bu sahəyə investisiyaların yönəldilməsi olduqca vacib və zəruridir. Beləliklə insanın və cəmiyyətin həyatındıka uğurların və inkişafın əsas elemeti dövrün tələblərinə cavab verən və innovativ yanaşma əsasında inkişaf etdirilən təhsil sistemidir. Heç təsadüfi deyildir, ki artan iqtisadiyyat fonunda bu gün ölkəmizin təhsil sistemi əsaslı inkişaf edir, həm təhsilalanların, həm də təhsilverənlərin sayında əsaslı artımlar müşahidə olunmaqdadır. Belə ki, dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin sayı 2022-2023-cü illərdə 15101 nəfər olmuşdur. Onlardan 1146 nəfər elmlər doktoru, 5775 nəfər isə fəlsəfə doktoru olmuşdur [5]. Həmçinin təhsil sisteminin inkişafını xarakterizə edən əsas göstəricilərdən biri də, ölkənin xaricdə təhsil alan tələbələrin sayıdır. Belə ki, həmin tələbələr ölkə Prezidentinin müvafiq fərman və sərəncamları ilə əsasən dövlət hesabına xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alıb, sonradan ölkəyə qayıdıb yiyələndikləri elm və təcrübələri aidiyyatı sahələrdə tətbiq edərək, ölkənin iqtisadi, siyasi, hərbi və digər sahələrdə gücünün artırılmasında yaxından iştirak edərək töhfələrini veririlər. Aşağıda cədvəl-2 də xaricdə təhsil alan tələbələrin illər üzrə həm sayındakı artıma həm də ölkələr üzrə bölgüsünə nəzər salaq.

*Cədvəl 2.*

*Xaricdə təhsil alan tələbələrin sayı, nəfər*

| Ölkələrin adı | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|
| **Cəmi** | 975 | 717 | 1004 |
| o cümlədən: | | | |
| **MDB ölkələrində** | 230 | 213 | 193 |
| **Digər ölkələrdə** *Bunlardan bəziləri:* | 745 | 504 | 811 |
| ABŞ-da | 3 | 4 | 3 |
| Birləşmiş Krallıqda | 12 | 12 | 1 |
| Çin Xalq Respublikası | 51 | 20 | 72 |
| Koreya Respublikasında | 3 | 3 | 5 |
| Latviyada | 15 | 8 | 11 |
| Macarıstanda | 370 | 145 | 327 |
| Rumıniyada | 7 | 3 | 10 |
| Türkiyədə | 260 | 300 | 379 |

Cədvəl-2-nin məlumatlarından göründüyü kimi, xaricdə təhsil alan tələbələrin sayı artan xətlə inkişaf edir. Bu isə ölkənin kadr bankının formalaşmasında əsas rol oynayır. Eyni zamanda qara qızılın insan kapitalına çevrilməsi prosesi uğurla gedir. Beləliklə, təhsil sahəsinin inkişafı istiqamətində sadalanan bütün müsbət və müasir dövrün çağırışlarına cavab verən fəaliyyətin əsasında ölkənin iqtisadi qüdrəti və düşünülmüş siyasəti dayanır. Qeyd olunan inkişaf dinamikasının formalaşmasında və bugünki özünün ən yüksək dərəcəsinə çatmasında Ulu öndərin səyi və şəxsən iştirakı ilə imzalanan "Əsrin müqaviləsi"nin rolu danılmazdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il Bakı şəhəri;
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu 2009-cu il, Bakı şəhəri;
3. https://sai.gov.az/
4. https://stat.gov.az/
5. https://president.az/



**SUMMARY**

**THE ROLE OF THE "CONTRACT OF THE CENTURY " IN THE DEVELOPMENT OF THE EDUCATION SYSTEM**

***Gadimov M.F.***

***Key words:*** *Contract of the Century, economic development, educational expenses, state budget, field of study, sources of financing.*

The "Contract of the Century" played an important role in the socio-economic development of the country. On the basis of this agreement, the income from oil was directed to the development of the non-oil sector and created the basis for the improvement of the social welfare of the people. One of the developing areas was the education system. Radical changes have taken place in the field of education. Thus, the material and technical base was strengthened, major repair and construction work began, and the potential of educated personnel began to form. With this, as in all fields, the foundation of the package of fundamental reforms was laid in the field of education.



**РЕЗЮМЕ**

**РОЛЬ «КОНТРАКТА ВЕКА» В РАЗВИТИИ СИСТЕМЫ ОБРАЗОВАНИЯ**

***Гадимов М.Ф.***

***Ключевые слова:*** Контракт века, экономическое развитие, расходы на образование, бюджет государства, область исследования, источники финансирования «Контракт века» сыграл важную роль в социально-экономическом развитии страны. На основании этого соглашения доходы от нефти направлялись на развитие ненефтяного сектора и создавали основу для улучшения социального благосостояния народа. Одной из развивающихся областей была система образования. В сфере образования начал происходить фундаментальный поворот. Таким образом, была укреплена материально-техническая база, начаты

капитальные ремонтно-строительные работы, начал формироваться потенциал образованных кадров. При этом, как и во всех сферах, в сфере образования была заложена основа пакета фундаментальных реформ.

## "ƏSRİN MÜQAVİLƏSİ"–AZƏRBAYCAN İQTİSADİYYATINDA DÖNÜŞ NÖQTƏSİ

**Yaqubova Nüşabə**
*Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan, k.e.i.*
nushabe_yaqubova1998@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, neft sənayesi, "Əsrin müqaviləsi", neft strategiyası, Bakı-Tbilisi-Ceyhan*

***Xülasə.*** *1994-cü il sentyabrın 20-də dünyanın aparıcı ölkələrinin neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın ilk böyük xarici iqtisadi və siyasi uğuruna imza atdı. Ümummilli lider Heydər Əliyevin neft strategiyası uğurla həyata keçirildi və Azərbaycan siyasi, iqtisadi böhrandan xilas oldu. Bu müqavilə Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün əlverişli zəmin yaratmaqla yanaşı, dövlətimizin bugünkü iqtisadi gücünü şərtləndirən başlıca amilə çevrildi.*

Hər hansı bir ölkənin ümumi inkişafı, təhlükəsizliyi və milli maraqlarının təmin edilməsinin əsas yollarından biri düşünülmüş xarici siyasət hesab olunur. 1993-cü ilin yazında, xalqımız üçün kifayət qədər çətin və ağır bir dövrdə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin xarici siyasətinin əsas prioritetləri, məqsədləri müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, müxtəlif təhdidlərin neytrallaşdırılması, Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiya edərək mövqelərinin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün təmin edilməsi və erməni təcavüzünün aradan qaldırılması olmuşdur. Heydər Əliyev tərəfindən balanslaşdırılmış xarici siyasət yanaşmasının tətbiqi ölkənin mövcud böhran vəziyyətindən çıxmasına əhəmiyyətli dərəcədə kömək etdi. Ermənistanın Azərbaycana qarşı apardığı müharibə ilə bağlı mürəkkəb geosiyasi vəziyyətə, çoxsaylı daxili problemlərə, digər güc mərkəzlərindən gələn əsas siyasi-ideoloji, hərbi və iqtisadi təhlükələrə baxmayaraq, Heydər Əliyevin uğurlu xarici siyasəti məntiqi olaraq ölkəmizin beynəlxalq münasibətlər sisteminin layiqli üzvü statusu almasına səbəb oldu.

Ümummilli lider Heydər Əliyev ictimai-siyasi inkişafa, ölkənin daxili iqtisadi böhrandan çıxarılmasına, ictimai-siyasi problemlərin, başlıca olaraq Qarabağ münaqişəsinin həllinə nail olmağa çalışırdı. Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın neft strategiyasınının əsası qoyulmuşdur. Artıq bu dövrdən başlayaraq iri dövlətlərin və neft şirkətlərinin Azərbaycana sərmayə qoymaqla bağlı maraqları artmışdır. [3]

Azərbaycanın neft sənayesi 130 illik inkişaf tarixinə malikdir. Neft hasilatı 4 əsas mərhələdən keçmişdir:

– birinci mərhələ qədim dövrlərdən-XIX əsrin ortalarına qədər. Təbii sərvət kimi neftə istehlakçı münasibət ondan gündəlik həyatda istifadə etməyə imkan verirdi;
– ikinci mərhələ neft hasilatına xaotik, sistemsiz yanaşma ilə səciyyələnən sənaye istehsalının başlanğıcının erkən mərhələsidir (XIX əsrin ortaları - 1920-ci illər);
– üçüncü mərhələ inzibati idarəetmə üsulları ilə planlı istehsala əsaslanan neft hasilatının inkişafı üçün elmi, texniki və texnoloji cəhətdən əsaslandırılmış proqramların kifayət qədər geniş tətbiqi ilə səciyyələnirdi (1920-ci ildən 1991-ci illər);
– dördüncü mərhələ ölkənin milli və geosiyasi maraqları nəzərə alınmaqla iqtisadiyyatın bazar prinsiplərinə uyğun olaraq, neft hasilatının intensiv inkişafının müasir dövrüdür. [1, s.13]

Heydər Əliyev neft və qaz ehtiyatlarına maraq göstərən, respublikanın iqtisadiyyatına sərmayə qoymaq istəyən, o cümlədən neft və qaz hasilatı üçün qabaqcıl texnologiyalara malik olan hər bir dövlətlə əməkdaşlıq etmək arzusunda olduğunu bəyan etdi. 1994-cü il sentyabrın 20-də

Gülüstan sarayında ölkəmizin iqtisadi inkişaf tarixində dönüş nöqtəsi olan "Əsrin müqaviləsi" adlı ilk transmilli saziş imzalandı. Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni bir mərhələnin başlanğıcı oldu. Bu tarixi sənəd 8 ölkənin 13 neft şirkəti (Amerika Birləşmiş Ştatları (Amoco, Unocal, McDermott, Exxon, Pennzoil), Böyük Britaniya (BP, Ramko), Norveç (Statoil), Rusiya (LUKOIL), Türkiyə (Turkish Petroleum), Yaponiya (Itochu) və Səudiyyə Ərəbistanı (Delta-Nimir)) ilə imzalanmışdı. Müqaviləyə görə ABŞ, Rusiya, Fransa, Türkiyə, Böyük Britaniya, Norveç kimi dünya ölkələrinin aparıcı şirkətləri 10 milyard ABŞ dolları məbləğində müştərək fondlar yaratmalı idi. Eləcə də Xəzər dənizinin Azərbaycan sektorundan 30 il ərzində 50 milyard dəyərində 511 milyon ton neft hasil edilməsi nəzərdə tutulmuşdu. Tərəfdaş şirkətlərlə əməkdaşlıq Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə əlverişli şərait yaratdı. "Əsrin müqaviləsi" imzalanana qədər qeyd olunan dövlətlərin Azərbaycan Respublikası ilə diplomatik əlaqələrinin mövcudluğuna baxmayaraq, bu böyük neft layihəsi əsasında vəziyyət xeyli dəyişdi. [2]

"Əsrin müqaviləsi" XXI əsrdə Azərbaycanın siyasi və iqtisadi sahədə ən böyük nailiyyətlərindən birinə çevrildi. Bu müqavilə sayəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq Xəzər dənizinin sərvətlərindən istifadə etmək hüququ qazandı. Azərbaycanda neft hasilatı ölkə tarixində ən aşağı səviyyədən – (1997-ci ildə 9 milyon tondan) 2010-cu ildə 51 milyon tona çatmışdır. Beləliklə, neft hasilatı 5,6 dəfə artmışdır. 1999-cu ildə Londonda Respublika öz neftini dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi üzrə beynəlxalq konsorsium haqqında müqavilə bağlanmışdır.

Aydındır ki, Azərbaycanın strateji mövqeyi Avropanın enerji təhlükəsizliyini təmin etmək üçün əhəmiyyətli bir vasitə hesab olunurdu. ABŞ-da "Stratfor" analitik mərkəzinin yaradıcısı və rəhbəri Corc Fridman "Növbəti 100 il" kitabında yazır: "...İrandakı vəziyyətə nəzarət etmək, o cümlədən Rusiyanın Avropaya təsirini azaltmaq baxımından Azərbaycanın mövqeyi ABŞ üçün strateji əhəmiyyət kəsb edir". [5, s.60]

Azərbaycan da öz növbəsində neft və qaz ehtiyatlarının ixracı məsələlərində prinsipial mövqe nümayiş etdirmişdir. 2006-cı il mayın 28-də "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan boru kəmərinə tədarük olunan xam neftin daşınması ilə daha bir böyük uğur əldə edildi. Bu hadisə müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxmaq, öz milli iqtisadi və strateji maraqlarını müdafiə etməklə bağlı Azərbaycanın qətiyyətini bir daha təsdiqlədi. [4]

Prezident Heydər Əliyev tərəfindən formalaşdırılan neft siyasəti rəsmi Bakının ABŞ və Avropada beynəlxalq nüfuzunun artmasına əhəmiyyətli töhfə verdi. Bu müqavilənin imzalanması yeni strateji müstəvidə Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrini gücləndirdi. Azərbaycan Cənubi Qafqazda sülhün, sabitliyin, iqtisadi tərəqqinin və inkişafın qarantına çevrildi."Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyini, sərbəst iqtisadi mexanizmlərdən istifadəni təmin etdi, yeni iş yerlərinin açılmasını, dünya iqtisadiyyatına dinamik inteqrasiyanı sürətləndirdi. Bu saziş dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, davamlı daxili sabitliyin, beynəlxalq arenada iqtisadi maraqların qorunması kimi ciddi elmi prinsiplərə söykənən sosial-iqtisadi inkişaf strategiyasının əsasını qoydu. Regionda digər qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsinə təkan verdi. Beləliklə, Heydər Əliyevin 1990-2000-ci illərdə həyata keçirdiyi uğurlu neft strategiyası sayəsində müstəqil Azərbaycanın Respublikasının beynəlxalq nüfuzu gücləndi. Dövlətin strateji maraqlarının qorunması üçün zəruri olan maliyyə resursları yaradıldı və Azərbaycan dünya ölkələri arasında öz layiqli yerini tutdu. [2]

## Ədəbiyyat


1. Алиев Н. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Баку, 2010, 244 с.
2. Ализаде И. «Контракт века» 1994 г. И его влияние на внешнюю политику Азербайджанской Республики. Современная научная мысль, № 2, 2019, s.180-188.

3. Ахундова А. Основные направления транснационализации нефтегазовой отрасли Азербайджана. Scientific collection, «İNTERCONF» № 113, s. 64-71.
4. Сеидов М. Нефтяная стратегия Азербайджана как важный фактор… Самарский научный вестник. 2013. № 2, s.54-56.
5. Фридман Дж. Следующие 100 лет: Прогноз событий XXI века. Москва, «Эксмо», 2010, 336 с.

**SUMMARY**
**"THE CONTRACT OF THE CENTURY" - A TURNING POINT IN THE ECONOMY OF AZERBAIJAN**
***Yagubova N.***

***Key words:*** *Azerbaijan, oil industry, "The Contract of the Century", oil strategy, Baku-Tbilisi-Ceyhan*

On September 20, 1994, with the signing of the "Contract of the Century" with oil companies of the world's leading countries, independent Azerbaijan achieved its first major foreign economic and political success. The oil strategy of national leader Heydar Aliyev was successfully implemented and Azerbaijan was saved from political and economic crisis. In addition to creating a favorable basis for the strengthening of the international positions of the Republic of Azerbaijan, this agreement became the main factor determining the current economic strength of our state.

**РЕЗЮМЕ**
**«КОНТРАКТ ВЕКА» – ПЕРЕВОРОТНЫЙ МОМЕНТ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА**
***Ягубова Н.***

***Ключевые слова:*** *Азербайджан, нефтяная промышленность, «Контракт века», нефтяная стратегия, Баку-Тбилиси-Джейхан*

20 сентября 1994 года, с подписанием «Контракта века» с нефтяными компаниями ведущих стран мира, независимый Азербайджан добился своего первого крупного внешнеэкономического и политического успеха. Нефтяная стратегия общенационального лидера Гейдара Алиева была успешно реализована, и Азербайджан был спасен от политического и экономического кризиса. Помимо создания благоприятной основы для укрепления международных позиций Азербайджанской Республики, это соглашение стало основным фактором, определяющим нынешнюю экономическую мощь нашего государства.

## AZƏRBAYCAN RESPUBLIKASININ MILLI NEFT STRATEGIYASININ TƏŞƏKKÜL TAPMASI

**Həsənov Vəkil Səfiyar oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan, tar.e.d., professor*
hasanovvakil@mail.ru

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Əsrin müqaviləsi, neft, strategiya, şirkətlər.*

***Xülasə.*** *Azərbaycan Respublikasının milli neft strategiyasının əsası 1994-cü il sentyabrın 20-də imzalanmış və tarixə "Əsrin müqaviləsi" kimi düşmüş sazişlə qoyulmuşdur. Müqavilənin hazırlanması çətin və mürəkkəb bir yol keçmişdir. Milli neft strategiyasının hazırlanması və imzalanmasında Prezident Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu müqavilə Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmlənməsi və beynəlxalq nüfuzunun artmasında mühüm rol oynadı. Milli neft strategiyasının həyata keçirilməsi Azərbaycanın tərəqqəsində, ərazi bütövlüyünün bərpasında, müstəqilliyin möhkəmləndirilməsində, əhalinin rifahının yaxşılaşdırılmasında mühüm tarixi əhəmiyyət kəsb etmişdir.*

Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi tərəqqisində neft amili mühüm yer tutur. 1991-ci ildə öz müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında milli neft strategiyasının təşəkkül tapması ölkədə sosial-iqtisadi və siyasi sabitliyin bərpa olunması, insanların sosial rifahının yaxşılaşdırılması, respublikanın siyasi müstəqilliyi və beynəlxalq mövqellərinin möhkəmləndirilməsi, yeni tipli güclü ordunun yaradılmasında mühüm rol oynadı.

Sovetlər birliyinin tərkibində olduğu dövrdə Azərbaycan neft sənayesi öz iqtisadi əhəmiyyətini qoruyub saxlaya bilmişdi. Sovet dövlətinin tənəzzülünün başladığı dövrdə Azərbaycan nefti yenidən Qərb ölkələrinin diqqətini cəlb etmişdi. Qərb ölklərində belə bir fikir formalaşmışdı ki, Azərbaycanın neft sərvətləri çoxdan tükənib. Lakin Azərbaycanlı mütəxəssislər Xəzər dənizində nəhəng neft ehtiyatlarının olduğunu əsaslandıra bilmişdilər. Qərb firmaları ilə Xəzər dənizindəki neft resusrlarının müştərək işlənməsi ilə bağlı danışıqların ilkin mərhələsinə 1991-ci ilin başlanğıcında yekun vuruldu. Neft sənayesinin inkişafı ilə bağlı danışıqlarda Amerika kompaniyaları üstün mövqe tutsa da, Böyük Britaniyanın, eləcə də Norveçin şirkətlərinə geniş yer verilirdi. Lakin müstəqilliyin bərpasının ilk illərində respublikada baş verən gərgin ictimai-siyasi proseslər xarici firmalarla aparılan danışıqları sona çatdırmağa imkan vermədi.

1992-ci ilin iyulunda xarici şirkətlərlə neft danışıqları yenidən aktuallaşdı. 1992-ci il sentyabrın 7-də Bakıda "BP" statoyl şirkəti ilə "Dostluq" blokunun və "Şahdəniz" strukturunun işlənməsi üzrə saziş imzalandı.

Azərbaycan Respublikasının Dövlet Neft Şirkəti (ARDNŞ) neft sənayesində əməkdaşlıqda maraqlı olan "Pennzoyl" kompaniyası (ABŞ) ilə də 1992-ci ilin oktyabrında saziş bağladı. Həmin sazişə görə, ABŞ şirkəti Xəzərdə neft ehtiyatları ilə seçilən "Günəşli" yatağında birgə işləmək hüququ qazanırdı. [1, s. 147-148].

Azərbaycanda gedən siyasi proseslər, 1993-cü ilin iyununda yenidən hakimiyyət dəyişikliyi neft müqaviləsinin hazırlanaraq başa çatdırılmasına imkan vermədi.

Hazırlanmış layihədə Azərbaycanın maraqlarına uyğun gəlməyən müddəaların olması, bəzi məsələlərin dəqiqləşdirilməsi zəruriliyi səbəbindən 1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini həyata keçirən Heydər Əliyev xarici şirkətlərlə aparılan danışıqların dayandırılması barədə göstəriş verdi.

Heydər Əliyevin tapşırığı ilə ARDNŞ problemi dərindən araşdırmaq məqsədilə ilə yerli mütəxəssislərdən ibarət işçi qrupu formalaşdırdı. Xarici şirkətlərlə danışıqlar daha intensiv xarakter aldı və əsas prinsiplər dəqiqləşdirildi. Dövlət Neft Şirkətinin yeni təklifləri qəbul olunduqdan sonra 1994-cü il fevralın 4-də "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında» Prezident sərəncamı imzalandı (2, s.8). Bundan sonra xarici şirkətlərlə danışıqlar prosesi yeni mərhələyə keçdi. Xarici şirkətlərlə danışıqlar sonrakı dövrdə Bakı və İstanbul şəhərlərində aparılmışdır. İstanbul danışıqları gərgin keçsə də, iştirakçıların müsbət yanaşması sayəsində 1994-cü ilin iyulunda uğurla yekunlaşdı. Tərəflər iyul ayında saziş mətninin hazırlanmasına dair sənədə imza atdılar [2, s.13-14].

Azərbaycan xarici investorların danışıqları ABŞ-ın Hyuston şəhərində davam etdirməklə bağlı təşəbbüsünə müsbət yanaşdı. İyulun 21-dən bu şəhərdə aparılan danışıqlar 45 gündən sonra başa çatdı. Hyustonda aparılmış müzakirələrlə dörd ildən çox aparılmış gərgin danışıqları başa vurmaq mükün oldu. Nümayəndə heyətləri əsas məsələlər barədə ortaq məxrəcə gələcək saziş layihəsini işləyib hazırladılar.

Prezident Heydər Əliyev ARDNŞ-in məlumatını əsas götürərək "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" 14 sentyabr 1994-cü il tarixli Fərman imzaladı. Sentyabrın 16-da brifinq keçirən Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev xarici şirkətlərlə neft sazişinin sentyabrın 20-də imzalanacağını bütün dünyaya elan etdi [2, s.14].

Azərbaycan hökuməti xarici şirkətlərlə neft sənayesində əməkdaşlıq məsələlərini müzakirə edərkən özünün iqtisadi-maliyyə maraqları ilə yanaşı, siyasi mənafelərini də əsas götürmüş, beynəlxalq əlaqələrini genişləndirməyə çalışmışdır. Layihədə ABŞ və Avropa dövlətləri ilə bərabər Türkiyə və Rusiyanı təmsil edən kompaniyaların iştirakı regionda müxtəlif geosiyasi maraqların uzlaşdırılması səylərinin təzahürüdür. Azərbaycan geniş xarici iqtisadi əlaqələrin qurulmasına çalışırdı. ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev 1994-cü il avqustun 10-da ABŞ-ın "Yunayted BMB Qrupp" kompaniyası ilə Azərbaycanın qurudakı neft yatağında əməkdaşlıq barədə sənəd imzalanmışdı [3]. İyirmi illik dövrü əhatə edən həmin saziş neft sahəsində ABŞ şirkətləri ilə Azərbaycanın bağladığı birinci müqavilə kimi tarixə düşdü.

Neft müqaviləsi ilə bağlı danışıqlar başa çatdıqdan sonra 1994-cü il sentyabrın 20-də ARDNŞ Bakıda dünyanın altı dövlətinin (ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Norveç Krallığı, Türkiyə Respublikası, Rusiya Federasiyası və Səudiyyə Ərəbistan Krallığı) "Yunokal", "Pennzoyl", "Amoko", "Makdermoff", "BP", "Remko", "Statoyl", "Türkiyə Petrolleri ("TPAO"), "Lukoyl" və "Delta-Nimir" kimi məşhur on neft kampaniyası ilə Xəzər dənizdəki "Azəri", "Çıraq" və dərinsulu "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsünə dair müqavilə imzaladı. Neft sazişi 1994-cü il dekabrın 12-də Milli Məclisdə təsdiq olundu. Beləliklə, müqavilənin yerinə yetirilməsi sahəsində gərgin fəaliyyət dövrü başladı.

"Əsrin müqaviləsi" adlanan sazişin imzalanması Azərbaycanın neft sənayesi sahəsində həyata keçirdiyi milli neft strategiyasının əsasını qoydu. Bu saziş ağır sosial-iqtisadi, hərbi-siyasi problemlərlə üzləşmiş ölkənin həyatında dərin dəyişikliklərə zəmin yaratması və beynəlxalq münasibətlərin inkişafına müsbət təsiri baxımından mühüm əhəmiyyətə malik idi. Heydər Əliyev 2000-ci il 6 noyabr tarixli ABŞ prezidentinə məktubunda " əsası bizim tərəfimizdən 1994-cü ilin sentyabrında Sizin "əsrin müqaviləsi" adlandırdığınız müqavilənin imzalanması ilə qoyulmuş müstəqil Azərbaycanın yeni neft strategiyasının" ifadəsinin işlətmişdir [4, s.13].

Azərbaycanın milli neft strategiyasının hazırlanmasında, respublikanın iqtisadi və geosiyasi maraqlarının həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ardıcıl siyasəti və dəmir iradəsi mühüm rol oynadı. "Əsrin müqaviləsi" ilə Azərbaycan Respublikasının milli neft strategiyasının əsası qoyuldu. Bu müqavilə Azərbaycan iqtisadiyyatında xüsusi çəkiyə malik olan neft-qaz sənayesinin yenidən qurulmasına və sürətli inkişafına şərait yaratdı.

## Ədəbiyyat


1. Алиев И. Каспийская нефтъ Азербайджана. М, 2003.
2. Əsrin müqaviləsi./tərtib edən H.Orucov/. Bakı, 1996.
3. Azərbaycan qəzeti, 1994, 17 avqust.
4. Heydər Əliyev. Müstəqiliyimiz əbədidir. (46 clddə) cild 31. Bakı, 2010.



**SUMMARY**

**FORMATION OF THE NATIONAL OIL STRATEGY OF THE REPUBLIC OF AZERBAIJAN**

***Hasanov V.S.***

***Keywords:*** *Republic of Azerbaijan, Contract of the Century, Oil, Strategy, kompany.*

The basis of the national oil strategy of the Republic of Azerbaijan was laid by the agreement signed on September 20, 1994, which went down in history as the "Contract of the Century". Drafting of the contract has been a difficult and complicated process. President Heydar Aliyev had exceptional services in the preparation and signing of the national oil strategy. This agreement played an important role in strengthening Azerbaijan's economic independence and increasing its international reputation. The implementation of the national oil strategy has been of great historical significance in the development of Azerbaijan, restoration of territorial integrity, strengthening of independence, and improvement of its well-being.



**РЕЗЮМЕ**

**ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОЙ НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***Гасанов В.С.***

***Ключевые слова:*** *Азербайджанская Республика, Контракт века, нефть, стратегия, компании.*

В основу национальной нефтяной стратегии Азербайджанской Республики было заложено соглашение, подписанное 20 сентября 1994 года, вошедшее в историю как «Контракт века». Составление контракта было трудным и сложным процессом. Президент Гейдар Алиев оказал исключительные услуги при подготовке и подписании национальной нефтяной стратегии. Это соглашение сыграло важную роль в укреплении экономической независимости Азербайджана и повышении его международного авторитета. Реализация национальной нефтяной стратегии имела большое историческое значение в развитии Азербайджана, восстановлении территориальной целостности, укреплении независимости и улучшении его благосостояния.

# ƏSRİN MÜQAVİLƏSİNİN İMZALANMASINA GEDƏN YOL

**Mirzəyeva Kəmalə Kamal qızı**
**Vəliyeva Dürdanə Mübariz qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
kamala.mirzayeva01@gmail.com

**Açar sözlər:** *Əsrin müqaviləsi, müstəqillik, neft yataqları, saziş, Xəzər dənizi*

***Xülasə.*** *Azərbaycan müstəqillik qazandıqdan sonra əsas məqsəd Azərbaycanı dünyaya tanıtmaq idi. Bunun reallaşdırılması üçün atılan addımlardan biri də xarici investorların Azərbaycana gəlməsi, iqtisadiyyatın müəyyən sahələrinə kapital axınının həyata keçirilməsi idi. Ulu öndər Heydər əliyev hakimiyyətə gəldikdən qısa müddət sonra "əsrin müqaviləsi"adlanan dünya siyasətini həyata keçirdi. Bunun sayəsində Azərbaycan inkişaf tempinə görə dünya ölkələri tərəfindən tanınmağa başladı.*

Sovet İttifaqının dağılması ilə müstəqilliyini əldə edən Azərbaycan yataqlarda neft ehtiyatlarının emalı ilə bağlı layihələri reallaşdırmaq üçün ölkəyə Qərb investisiyalarını cəlb etmək qərarına gəldi. Digər tərəfdən 1980-ci illərdə Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş neft yataqları ilə beynəlxalq şirkətlər də maraqlanırdı. Şirkətlər diqqətlərini ilk növbədə “Çıraq” və “Azəri” yataqlarının neft ehtiyatlarına yönəltməyə başladılar. Azərbaycan hökuməti 1991-ci ilin yanvar ayında layihələri tenderə çıxarmağa başladı. Bu layihə ilə maraqlanan BP, Statoil, Amoco, Unocal və digər şirkətlər bu layihəyə qoşuldular. 1991-ci ildə Amoco, BP, McDermott, Pennzoil, Ramco, Unocal, TPAO və bir qrup xarici şirkət, o cümlədən Statoil Azərbaycanla, eləcə də Xəzər dənizinin Azərbaycan sektorundakı “Çıraq” və “Günəşli” yataqlarının yaxşılaşdırılması ilə bağlı 3 il davam edəcək danışıqların təşəbbüskarı oldular. Ötən dövrdə iri neft yataqlarının birgə hasilatı ilə bağlı danışıqlar davam etdirildi [1. s.9-10].

1992-ci ildə Xəzərdəki neft yataqlarında fəaliyyət göstərmək istəyən şirkətlər konsorsiumda birləşib görüşlər keçirdilər. Azərbaycan Dövlət Neft Şirkəti Elçibəy administrasiyası ilə Azərbaycan Beynəlxalq Neft Konsorsiumu (ABƏŞ) arasında neft yataqlarının işlənməsinə dair saziş imzaladılar, bir şərtlə ki, layihənin 30%-ni (SOCAR) almalı idi. 1993-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istismarı ilə bağlı bəyannamə qəbul etdi. “Azəri”, “Çıraq”, “Günəşli” yataqları ilə bağlı 1993-cü ilin mayında 6 saziş memorandumu imzalandı. Razılaşmalara görə, danışıqlar 1993-cü ilin iyununda Londonda davam etdirilməli idi. Lakin 1993-cü ilin iyununda ölkədə siyasi mühit dəyişdi [3]. “Əsrin müqaviləsi”nin imzalanmasına bir il qalmış, iqtisadi və siyasi və hərbi qarışıqlıq hökm sürürdü. Azərbaycanda administrasiya dəyişdiyi üçün danışıqlar nəticəsiz qaldı. Surət Hüseynovun 1993-cü il iyunun 18-də hərbi çevriliş etməsi ilə Əbülfəz Elçibəy danışıqları həyata keçirə bilmədən devrildi. Həmin ildə Azərbaycanda yeni prezident seçilmiş Heydər Əliyevin səyi nəticəsində sözügedən neft müqaviləsi ləğv edildi. Ölkədə rəhbərlik edən şirkətlər prezident ulu öndər Heydər Əliyevlə görüşürdülər.. Ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə idi. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkədə ümumi vəziyyət normallaşmağa başladı.

1993-cü ilin ortalarında Xəzərin Azərbaycan sektorundakı yataqların birgə istismarı üçün xarici şirkətlərlə danışıqlar aparılarkən Bakıya təkcə Azərbaycan deyil, Qazaxıstan və Türkmənistan nefti də ötürüldü. Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azəri, Çıraq və Günəşli yataqlarının istifadəsi ilə bağlı danışıqlar 1994-cü il fevralın 4-də yenidən başladı. 1994-cü ilin aprelində SOCAR konsorsium tərəfdaşlarına Rusiyanın “Lukoyl” şirkətinin Azərbaycanın öz səhmlərinin 10%-ni alacağını rəsmən elan edib. Konsorsiumdakı şirkətlər Rusiyanın gələcəkdə tətbiq edə biləcəyi təzyiqləri nəzərə almışdılar. Çünki ruslar Volqa çayına nəzarət etdikləri üçün gələcəkdə ağır yük gəmilərinin keçməsinin qarşısını ala bilərdilər. Bakıda, İstanbulda və Hyustonda Davam edən bu danışıqlar nəticəsində Rusiyanın Konsorsiuma daxil edilməsi yolu ilə müqavilə yenidən nəzərdən keçirildi və SOCAR-ın səhmlərinin 10%-i Rusiyaya verildi.

Üç ilə yaxın davam edən danışıqların nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də Bakının Gülüstan sarayında SOCAR ilə Konsorsium arasında "Əsrin müqaviləsi" imzalandı. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri, Çıraq və Günəşli yataqlarında neftin birgə emalı və pay bölgüsü haqqında saziş" imzalandı və müvafiq rayonlarda neftin kəşfiyyatı və çıxarılması səlahiyyəti AIOC-ə verildi. Müqaviləni dünyanın 6 ölkəsi (ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanı), eləcə də 10 beynəlxalq neft şirkəti imzalamışdır. "Əsrin müqaviləsi"ni BP, Amoco, Lukoil, Pennzoil, Unocal, Statoil, MC kimi xarici şirkətlər imzalamışdır. Müvafiq saziş 1994-cü il dekabrın 2-də Azərbaycan Milli Məclisi tərəfindən imzalanıb təsdiq edildikdən sonra 12 dekabr 1994-cü ildə qüvvəyə minmişdir [2].

Azərbaycan neft və qaz yataqlarından istifadə üzərində nəzarət və idarəetməni qanunla öz əlindəsaxlamışdır. Müqavilənin şərtlərinə uyğun olaraq, Azərbaycan bu üç neft yatağı üzərində mülkiyyət hüququnu tam qoruyub saxlamaqdadır.Beləliklə, bir çox təzyiqlərə və reaksiyalara baxmayaraq, müqavilə imzalandı və Azərbaycan üçün mühüm addım atıldı. İstər ölkə daxilində, istərsə də xaricdə "Əsrin müqaviləsi"nin imzalanmasına qarşı çox ciddi müqavimət var idi. Lakin bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz istəyinə nail oldu. Bu, Azərbaycanın iqtisadi diplomatiyasının və ümumilikdə dövlətin uğuru idi.

## Ədəbiyyat


1. N. Aliyev - E. Şahbazov, Heydar Eliyev ve Azerbaycan Neft Sanayisinin İnkişafı, Azerbaycan İnternational Matbaası, Bakı 1998, 156 s.
2. http://www.525ci.com/2004/04/15/read.php?m=4&id=12 21
3. http://www.525ci.com/2004/09/22/read.php?m=4&id=3815



**SUMMARY**

**THE ROAD TO THE SIGNING OF THE AGREEMENT OF THE CENTURY**

***Mirzayeva K.K., Valiyeva D.M.***

***Key words:*** *Agreement of the century, independence, oil fields, agreement, Caspian Sea*

After Azerbaijan gained independence, the main goal was to introduce Azerbaijan to the world. One of the things done to realize this was the entry of foreign investors into Azerbaijan and the implementation of capital flow to certain areas of the economy. Shortly after coming to power, the great leader Heydar Aliyev implemented a world-wide policy called the Contract of the Century. With this, Azerbaijan began to be recognized by world countries for its development rate.



**РЕЗЮМЕ**

**ПУТЬ К ПОДПИСАНИЮ «КОНТРАКТА ВЕКА»**

***Мирзоева К.К., Велиева Д.М.***

***Ключевые слова:*** *«Контракт века», независимость, нефтяные месторождения, соглашение, Каспийское море.*

После обретения Азербайджаном независимости главной целью было представить Азербайджан миру. Одним из шагов, предпринятых для реализации этого, стал приход иностранных инвесторов в Азербайджан, осуществление притока капитала в определенные сферы экономики. Вскоре после прихода к власти великий лидер Гейдар Алиев реализовал всемирную политику, получившую название «Контракт века». Благодаря этому Азербайджан стал признаваться странами мира по темпам своего развития.


# ƏSRİN MÜQAVİLƏSİNİN REALLAŞMASINI ZƏRURİ EDƏN AMİLLƏR


**Qurbanova Lalə İsbat qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

lala.qurbanova@sdu.edu.az



***Açar sözlər:*** *neft, strategiya, Heydər Əliyev, iqtisadi inkişaf, şirkətlər*

***Xülasə.*** *90-cı illərin əvvəlləri Azərbaycan Respublikası üçün siyasi cəhətdən gərgin dövr idi. Buna baxmayaraq Ümummilli lider Heydər Əliyevin əzmi və qətiyyəti ilə iqtisadi inkişafa hədəflənən bir sıra taleyüklü qərarların qəbulu reallaşdı. Onlardan ən mühümü Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün dünyamiqyaslı neft şirkətlərinin təkliflərini nəzərə almaq və gələcəyə düzgün hesablanmış addımlar atmaq idi. Belə bir çətin dövrdə Azərbaycan xalqının mənafeyinə xidmət edəcək müqavilənin bir neçə mərhələdən ibarət olmaqla və uzun bir prosesin yekunu olaraq hazırlanması və nəhayət imzalanması yeni bir həlledici dövrün başlanması demək idi.*

Sovet İttifaqının süqutu ilə müstəqillik qazanmış Azərbaycan Respublikasının azadlığının ilk illərində yaranmış hərbi-siyasi böhran iyirmi faiz torpaqlarımızın Ermənistan hərbi qüvvələri tərəfindən işğalına səbəb oldu. Bu dövrdə mövcud siyasi kataklizmlər Azərbaycan siyasi dairələrində və cəmiyyətində çaşqınlığa və ümidsizliyə səbəb olmuşdu. Belə bir şəraitdə yeganə çıxış yolu Ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə Bakıya dəvət edilməsi, xaos və fəlakətin eşiyində olan ölkənin yenidən birlik olmasına və tarixində yeni başlanğıca yol açdı. Respublikanın siyasi və iqtisadi həyatında taleyüklü çətinliklərin aradan qaldırılması ilk növbədə möhkəm siyasi iradə və qərarlılıq tələb edirdi. Qətiyyəti və uzaqgörənliyi sayəsində Heydər Əliyev ölkənin iqtisadi yüksəlişini təmin etmək yolunda tədbirlər görməyə başladı.

Sovet İttifaqı tərkibində mövcud olmuş vahid siyasi-iqtisadi sistemin çökməsi digər respublikalar ilə sıx əlaqələri olan Azərbaycan Respublikasının öz istehsal sahələri üçün zəruri olan təchizat bazalarından məhrum olmasına gətirib çıxartmışdı. Müstəqil iqtisadi əlaqələrin də mövcud olmaması respublika üçün iqtisadi tənəzzülə və sosial vəziyyətin gərginləşməsinə səbəb olmuşdu. Ümumi daxili məhsulun ildən-ilə kəskin azalması əhalinin sosial vəziyyətində çətinliklərin artmasına səbəb olmuş, əsaslı kapital qoyuluşunun kəskin azalması isə iqtisadiyyatın bütün sahələrində olduğu kimi neft-qaz sənayesində də böhranın genişlənməsinə gətirib çıxartmışdı. Maliyyə ehtiyatlarının olmaması, texniki təchizat geriliyi bütün sahələrdə olduğu kimi neft-qaz sahəsində də 90-cı illərdə getdikcə vəziyyəti daha da ağırlaşdırırdı. Belə şəraitdə respublikanın müstəqilliyi üçün təhdidlər də günbəgün artmaqda idi. Müstəqilliyin qorunması və reügionda təhlükəsizliyimizin təmin olunması baxımından milli sərvətimiz olan neft-qaz ehtiyatlarına xarici sərmayə qoyuluşunu təmin etmək iqtisadiyyatın və dolayısı ilə digər sahələrin inkişafına gətirib çıxaracaqdı.

Neft sektoru ağır vəziyyətdə olmasına baxmayaraq xarici investorların diqqət mərkəzində idi. Transmilli neft şirkətləri ilə əməkdaşlıq hələ 80-ci illərin sonlarında aktuallıq qazanmışdı. O dönəmdə isə İttifaq tərkibində olan Azərbaycan hökumətinin xarici sərmayəçilər ilə sərbəst danışıqlar aparmaq və qərar qəbul etmək səlahiyyətləri yox idi. Ancaq dərinləşməkdə olan ümumi sosial-iqtisadi vəziyyətə uyğun olaraq Azərbaycan rəhbərliyi Moskva hakim dairələrinin icazəsini təmin edərək Qərb neft şirkətləri ilə danışıqlara başladı. Dünyanın nüfuzlu neft şirkətlərindən olan Böyük britaniyanın "British Petrolium", Norveçin "Statoyl", ABŞ-ın "Amoko" və "Yunokal" şirkətləri ilə Xəzərdə neft yataqlarının müştərək işlənilməsinə dair razılıqlar əldə edildi. Danışıqlar 1991-ci ilin əvvəllərində yekunlaşdı və "Azəri" yatağının işlənməsinə dair tender elan edildi. İyun ayında tenderin qalibi "Amoko" şirkəti olsa da digər şirkətlər də yatağın işlənilməsində əməkdaşlığa cəlb edildilər. Ancaq sonralar müstəqilliyin ilk illərində yaranmış siyasi böhran danışıqlar prosesində ləngimələrə gətirib çıxartdı. Buna baxmayaraq əməkdaşlığın həyata keçirilməsində tərəflərin maraqları böyük olduğundan durğunluq olsa da danışıqlara tamamilə son qoyulmadı. Artıq 1992-ci ilin sonlarına "Azəri", "Çıraq", "Şahdəniz", "Günəşli" yataqlarının birgə işlənməsi məsələsi aktual idi.

1993-cü ilin iyun ayında baş vermiş hakimiyyət dəyişikliyi bu sahədə müqavilənin yekun variantının hazırlanmasına və imzalanmasına mane oldu. Müqavilənin məzmununda bəzi çatışmazlıqların və mənafemizə cavab verməyən müddəaların mövcudluğu Heydər Əliyevin xarici neft şirkətləri ilə danışıqların dayandırılması qərarını verməsinə gətirib çıxardı. Onun 13 avqust 1993-cü il aparıcı neft şirkətlərinin nümayəndələri ilə görüşü zamanı çıxışında

səsləndirdiyi fikirləri bunu bir daha göstərmiş oldu: "Təəssüf ki, son dövrdə Azərbaycanın neft sənayesi səriştəsiz rəhbərlərin əlinə keçib və bu işlərdə dərin məsuliyyət duya bilməyən həmin adamların fəaliyyəti nəticəsində bəzi müqavilələrin hazırlanmasında səhvlərə yol verilib. Məhz buna görə də biz iyun ayının 24-də xarici şirkətlərlə demək olar ki, bağlanmaq ərəfəsində olan müqavilələrin müvəqqəti olaraq dayandırılması qərarını qəbul etdik. Bu heç də o demək deyil ki, biz, bu şirkətlərlə müqavilə bağlamaqdan imtina edirik, yaxud bu şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsinin qarşısını alırıq. Yox. Sadəcə olaraq, biz bu məsələləri daha dərindən araşdırmaq istəyirik" [2].

Eyni vaxtda Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına hərbi təcavüzü davam edirdi və Ümummilli lider Heydər Əliyev Qərb dövlətlərinin əsas diqqətini cəbhədə yaranmış vəziyyətə yönəltmək və təcavüzün qarşısının alınması üçün onlardan siyasi dəstək almağa çalışırdı. Ancaq Qərb dövlətləri danışıqların dayandırılmasını narahatlıqla qarşılayır və öz mənafelərini ön plana çəkirdilər. Bu qərarında qəti olduğunu bildirən Heydər Əliyev əslində əvvəlki hakimiyyətin səriştəsizliyinin nəticəsi olaraq belə bir addım atıldığını bir daha vurğulayır. ABŞ dövlət rəsmiləri səviyyəsində Azərbaycanda strateji maraqlarının olduğunu bəyan edir və bu cür məsələlərin həllində neft amilinin əhəmiyyətini bir daha qeyd edirdi. Heydər Əliyev də Azərbaycanın özünün strateji maraqlarının olduğunu bəyan edir, sosial-iqtisadi və siyasi mənafelərinin təmin olunmasında neft amilinin üstünlüklərindən yararlanmağa səy göstərirdi [1, s.31]. Danışıqlar prosesində Azərbaycanın rəhbərliyi ilə beynəlxalq ekspertlər qrupu təsis edildi və Qərb şirkətləri ilə hüquqi sənədlər imzalandı. Əldə olunmuş razılaşmaların şərtlərinə əsasən neftdən gələn gəlirlərin 80%-i Azərbaycanın, 20%-i isə neft şirkətləri konsorsiumunun payına düşürdü. Bu şərtrləri əks etdirəcək memorondumun imzalanması Heydər Əliyev tərəfindən qəbul edilmir, çünki layihənin London variantı Azərbaycanın maraqlarına uyğun hesab olunmurdu. Danışıqların şərtlərini və prinsipləri yerli neft mütəxəssisləri və alimlərindən təşkil olunmuş komissiya müəyyənləşdirərək təklifləri Heydər Əliyevə təqdim edir və 4 fevral 1994-cü il tarixində "Azərbaycan Respublikasında neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" sərəncam imzalanır. "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması region dövlətlərinin də maraq dairəsində idi. Həm Rusiya, həm də İran danışıqlar prosesinə qoşulmaqda və pay almaqda qərarlı idilər. İranın iştirakını ABŞ ilə gərgin münasibətləri müəyyən qədər məhdudlaşdırırdı. Azərbaycan hökuməti isə cənub qonşusu ilə normal münasibətlərdə maraqlı olduğu üçün növbəti müqavilələlərdə İranın maraqlarını nəzərdə saxlayacağını bildirdi.

Müqavilənin şərtlərinə əsasən ilkin götürüləcək gəlirlər Azərbaycan tərəfi qane etmirdi. Çünki həmin dövr üçün sosial-iqtisadi çətinliklər dərin olduğundan daha tez gəlir əldə etməyə böyük ehtiyac var idi. Üç ildən artıq davam edən danışıqların yekununda imzalanacaq yekun sənədin mətni üzərində 40 gündən artıq gərgin müzakirələr keçirildi. Müqavilə layihəsinin tərkibindən ARDNŞ-nin vitse-prezidenti İlham Əliyevin təşəbbüsü ilə hələ də həllini tapmayan Xəzərin hüquqi statusu məsələsi çıxarıldı. Bu məsələnin həllindəki çətinliklər müqavilənin kağız üzərində qalmasına səbəb ola bilərdi. Məhz bu baxımdan İlham Əliyevin o dövr üçün göstərdiyi səylər təqdirəlayiqdir. Layihə Azərbaycan üçün iqtisadi baxımdan böyük əhəmiyyətə malik idi. Neft müqaviləsinin hazırlanmasında nəinki siyasi və iqtisadi maraqlar düşünülmüşdür, həmçinin Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi də əsas yer tuturdu. Nəhayət 1994-cü ilin sentyabrın 20-də ölkənin sosial-iqtisadi həyatında mühüm hadisə hesab olunan sazişin "Gülüstan" sarayında imzalanması baş tutur. Dünya miqyaslı neft şirkətləri ilə Azərbaycan Respublikası arasında imzalanmış müqavilənin icrasından gələcəkdə əldə olunacaq mənfəət sosial rifahın yüksəldilməsi, iqtisadi problemlərin həlli və ərazi bütövlüyünün bərpasına hesablanmış olacaqdı.

Əldə olunacaq imkanların ölkənin sosial-iqtisadi inkişafında investisiyaya çevrilməsini təmin etmək məqsədilə fond yaradılması zəruri idi. Azərbaycan tərəfi "Azəri-Çıraq-Günəşli" üzrə müqavilə çərçivəsində həyata keçirilən "İlkin neft" layihəsindən ilk mənfəəti 1999-cu ilin dekabrında aldıqdan sonra bu məqsədlə Prezident Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) təsis olundu.

Hazırda institusional cəhətdən çox yüksək səviyyədə formalaşan, bununla bərabər, ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə tanınan və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin olunması baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir bir quruma çevrilən DNF faktiki olaraq "Əsrin müqaviləsi"nin yetirməsidir [1, s.137-138].

Azərbaycanın iqtisadi, sosial, siyasi həyatında ciddi dəyişikliklərə yol açılması və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından neft strategiyasının təməl daşını qoyan müqavilə mühüm əhəmiyyətə malik idi. Dünyanın bir sıra aparıcı dövlətlərinin nüfuzlu neft şirkətlərinin iştirakına, kapital qoyuluşunun böyük həcminə və bütövlükdə ciddi geosiyasi çəkisinə görə, layihə tezliklə beynəlxalq siyasi və iqtisadi dairələrdə "Əsrin müqaviləsi" adını aldı.

## Ədəbiyyat


1. Mehdiyev Ə.B. "Əsrin müqaviləsi": Azərbaycan neft strategiyasının təməl daşı. Bakı: «Turxan» NPB, 2014. – 248 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası
3. Yusifzadə Xoşbəxt. Heydər Əliyevin Neft strategiyasi // Respublika. - 2023. - 10 may. - s.11.
4. Azərbaycan Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il Fərmanı / https://e-qanun.az/framework/5261
5. Osmanova Sevinc. Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası // https://hafta.az/heyder-eliyevin-esasini-qoydugu-neft-strategiyasi-342903-xeber.html



**SUMMARY**

**FACTORS Enabling IMPLEMENTATION OF THE AGREEMENT OF THE CENTURY**

***Gurbanova L.I.***

***Key words:*** *oil, strategy, Heydar Aliyev, economic development, companies*

The beginning of the 90s was a politically tense period for the Republic of Azerbaijan. Despite this, thanks to the resolve and determination of national leader Heydar Aliyev, a number of fateful decisions were made aimed at economic development. The most important of them was to take into account the proposals of world oil companies and take thoughtful steps for the future to bring Azerbaijani oil to world markets. In such a difficult period, the preparation and finally signing of an agreement that will serve the interests of the Azerbaijani people, consisting of several stages and being the completion of a long process, meant the beginning of a new decisive period.

.

**РЕЗЮМЕ**

**ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ РЕАЛИЗАЦИИ СОГЛАШЕНИЯ ВЕКА**

***Гурбанова Л.И.***

***Ключевые слова:*** *нефть, стратегия, Гейдар Алиев, экономическое развитие, компании.*

Начало 90-х годов было политически напряженным периодом для Азербайджанской Республики. Несмотря на это, благодаря решимости и решимости общенационального лидера Гейдара Алиева был принят ряд судьбоносных решений, направленных на экономическое развитие. Важнейшим из них было принять во внимание предложения мировых нефтяных компаний и предпринять продуманные шаги на будущее для вывода азербайджанской нефти на мировые рынки. В столь трудный период подготовка и, наконец, подписание договора, который будет служить интересам азербайджанского народа, состоящего из нескольких этапов и являющегося завершением длительного процесса, означали начало нового решающего периода.


# ƏBƏDİYAŞAR LİDERİN DAHİYANƏ VƏ UZAQGÖRƏN NEFT STRATEGİYASI


**Yusifova Səbinə Nizami qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, c.f.d., baş müəllim*

namazova.sabina@gmail.com



***Açar sözlər:*** *informasiya, kommunikasiya, texnologiya, qeyri-neft sektoru, yüksək texnologiyalar, sənaye kompleksi.*



***Xülasə.*** *Dünyanın aparıcı şirkətləri və maliyyə institutları ilə 20 sentyabr 1994 - cü ildə Bakıda "Gülüstan" sarayında ölkənin gələcək inkişafında əvəzsiz rol oynamış "əsrin müqaviləsi" ilə*

*bağlanmış bu müqavilə Ulu Öndərin böyük siyasi uzaqgörənliyinin, eləcə də güclü siyasi iradəsinin və dərin düşüncəsinin qanunauyğun nəticəsi kimi formalaşmışdır. Bu müqavilənin icrasından sonra BP və dünyanın digər iri və tanınmış şirkətləri, Xəzər dənizinin Azərbaycan sektorunun dərin su qatlarında "Azəri", "Çıraq", "Günəşli" kimi neft yataqları ilə birgə istismar və ticarət mümkün olmuşdur. Bu müqavilənin real həyatda həyata keçirilməsinin başlaması ilə sənayenin qeyri-neft sektoruna, o cümlədən kənd təsərrüfatına, xüsusən də yüksək texnologiyaların, o cümlədən informasiya və kommunikasiya texnologiyalarının alınmasına yönəldilmiş neft gəlirlərinin kəskin artması baş verdi. "Əsrin müqaviləsi" ölkəmizin maliyyə və texnoloji potensialını artırmış, xarici tərəfdaş ölkələrin və beynəlxalq şirkətlərin Azərbaycan iqtisadiyyatına inamını artırmış, ölkələrimiz arasında tərəfdaşlığın yeni səviyyəyə qaldırılmasına gətirib çıxarmışdır.*

Vətənini, torpağını canından artıq sevən, onun dərdini öz dərdi hesab edən, milli mənafeyi şəxsi mənafeindən qat-qat üstün tutan, sözün əsil mənasında böyük vətənpərvər Heydər Əliyev 1990-cı ildə Azərbaycanın ağır, əzablar içində boğulduğu günlərdə vətənini tək qoymadı və Moskvadan Azərbaycana, onun döyünən ürəyi olan Naxçıvana qayıtdı. O, bununla bir daha qəlbinin daim milli mənafe, milli təəssübkeşliklə döyündüyünü, zəmanəsinin ən böyük azərbaycanlısı olduğunu sübut etmiş oldu. O, həmişə və hər yerdə öz ölkəsinin- Odlar yurdu Azərbaycanın vətəndaşı olduğunu böyük qürur hissi və fəxarətlə söyləyirdi. Azərbaycan xalqı da öz növbəsində titanik xidmətlərinə görə daim fəxr etdiyi və çox sevdiyi, qüdrətinə həmişə güvəndiyi öz ləyaqətli övladına, bu böyük şəxsiyyətə ümid yeri, Ulu Tanrı tərəfindən göndərilmiş xilaskarlıq missiyası kimi baxdı.

Həyatını daim təhlükəyə atan Ulu öndər həmişə öz taleyini deyil, Azərbaycanı, xalqının taleyini düşünürdü. Azərbaycan bir tərəfdən əvvəl A.Mütəllibov, sonra isə Ə.Elçibəy hakimiyyətlərinin səriştəsizliyi, AXC-Musavat cütlüyünün ölkə daxilində yaratdığı hərc-mərcliklər nəticəsində yaranan başıpozuqluq, iqtisadi tənəzzül, siyasi çaşqınlıq və gərginlik içində qıvrılanda, digər tərəfdən Ermənistanın ölkəmizə xain təcavüzü, Dağlıq Qarabağda erməni separatizminin alovlanması, dövlət ərazimizin durmadan davam edən işğalı Azərbaycan Respublikasının bir dövlət kimi süqutuna, tarix səhnəsindən silinməsinə real şərait yaratmışdı. Məhz belə bir taleyüklü zamanda, doğma Xalqının çağırışına heç vaxt biganə qalmayan o böyük qəlbli insan yenə də həmişəki kimi xalqının səsinə səs verdi və məhz xalqın təkidli tələbi 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi, Elə həmin ayın 15-də Milli Məclisin sessiyasında Ali Sovetin sədri, oktyabrda isə çox ağır və taleyüklü bir məqamda, demokratik şəraitdə ümumxalqsəsverməsi nəticəsində çox yüksək səs faizi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz bununla da Azərbaycan Respublikasının intibah dövrü başladı, dövlətin bütün sahələrində, o cümlədən neft strategiyasında gələcək sürətli inkişafının əsası qoyuldu. Onun yenidən ölkə rəhbərliyinə qayıdışı həm iqtisadi, həm də siyasi böhran içərisində boğulan Azərbaycanı sözün həqiqi mənasında böyük fəlakətlərdən xilas etdi, qanunçuluğun bütün ölkə ərazisində bərqarar olmasına, böyük iqtisadi yüksəlişə, dünya arenasında siyasi cəhətdən tanınmasına səbəb oldu. Bununlada o, öz xalqının itmiş inamını, sönməkdə olan ümidlərini özünə qaytardı, vətəndaş müharibəsi ilə üz-üzə qalan, dağılamaqda, parçalanmaqda olan, müvazinətini itirən bir ölkəni nəinki xilas etdi, hətta bütün dünyaya tanıtdı [3].

Ulu öndərin böyük siyasi uzaqörənliyinin, eyni zamanda möhkəm siyasi iradəsinin və dərin təfəkkürünün məntiqi nəticəsi kimi meydana gələn, dünyanın aparici şirkətləri və maliyyə qurumları ilə 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında bağlanan "Əsrin müqaviləsi"nın ölkənin sonrakı inkişafında əvəzsiz rolu oldu. Bu kontraktın icrasına başlandıqdan sonra "məhsulun pay bölgüsü"ndə iştirak edən BP və digər böyük və məşhur xarici neft şirkətləri ilə birgə Xəzərin Azərbaycan sektorunun dərin su qatlarındakı "Azəri", "Çıraq", "Günəşli" kimi neft yataqlarının birgə istismarı və ticarəti başlandı. Bu kontraktın real həyatda icrasının başlanması ilə neftdən gələn gəlirlərin kəskin artması, bu gəlirlərin sənayenin qeyri-neft sektoruna, o cümlədən kənd təsərrüfatına yönəldilməsi, xüsusilə xaricdən yüksək texnologiyaların satın alınaraq ölkəyə gətirilməsi və tətbiqi, informasiya və kommunikasiya texnologiyaları sahəsində sürətli inkişaf

ölkənin hərtərəfli, davamlı yüksəlişinə səbəb oldu və bu gün də səbəb olmaqdadır. Möhtərəm Prezidentimizin dediyi kimi neft kapitalımız insan kapitalına çevrilməkdədir. "Əsrin müqaviləsi" ölkəmizin maliyyə və texnoloji potensialını artırmaqla bərabər, həm də xarici tərəfdaş ölkə və beynəlxalq şirkətlərin Azərbaycan iqtisadiyyatına inamını daha da artırdı, ölkələrimiz arasında tərəfdaşlığın yeni səviyyəyə qaldırılmasına səbəb oldu [2].

Sonrakı illərdə həm "Əsrin müqaviləsi"nə uyğun olaraq "Azəri-Çıraq-Günəşli" yataqlarından neftlə birgə hasil edilən qazın, həm də "Şahdəniz", "Ümid", "Abşeron" kimi qaz yataqlarının istismara verilməsi çıxan qazın dünya bazarına çatdırmaqla bağlı sazişlərin bağlanmasına, ölkənin iqtisadi və siyasi qüdrətinin daha da yüksəlməsinə səbəb oldu. Bu həm də ölkəmizin hərbi sahədə inkişafına və hərbi qüdrətinin misilsiz dərəcədə yüksəlməsinə gətirib çıxardı ki, bunun da məntiqi nəticəsi olaraq Ulu öndər, Ümummilli liderimiz Heydər Əliyevin mənəvi varisi və layiqli davamçısı- Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ağıllı siyasi rəhbərliyi və qüdrətli hərbi strategiyası ilə Azərbaycanımızın əsgər və zabitlərinin fədakarlığı sayəsində 30 ilə yaxın düşmən tapdağında inləyən, ərazimizin 20%-dən çoxunu əhatə edən, dilbər guşəmiz- Qarabağımız öz azadlığına qovuşdu! Beləliklə də, bir sıra daxili və xarici mürtəce qüvvələrin yaratdığı siyasi və iqtisadi təzyiqlərə baxmayaraq imzalanması baş tutan "Əsrin müqaviləsi" sözün həqiqi mənasında Azərbaycanın iqtisadi və siyasi inkişafının təməlini qoymaqla bərabər, torpaqlarımızın işğaldan azad olunmasında da əvəzsiz rol oynadı [1].

"Əsrin müqaviləsi"nin 23-cü ildönümünə həsr olunmuş Bakı sammitində "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi ilə əlaqədar Hasilatın Pay Bölgüsünə düzəliş edilmiş və bu mühüm əhəmiyyət kəsb edən müqavilənin müddəti 2050-ci ilədək uzadılmışdır.

## Ədəbiyyat


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I–IX cildlərinin köməkçi aparatı).- Bakı, 2008.- 339 s.
2. Balamirzə Məmmədli. Heydər Əliyevin birinci prezidentliyi dövründə Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. Geostrategiya, № 6 (78), 2023, s.64–71
3. Алиев Н. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Баку, 2010, 244 с.


## SUMMARY

### THE INGENIOUS AND FAR-SIGHTED OIL STRATEGY OF THE ETERNAL LEADER


***Yusifova S.N.***



***Keywords:*** *information, communication, technologies, non-oil sector, high technologies, industrial complex.*



The Contract of the Century signed with the world's leading companies and financial institutions on September 20, 1994 at the Gulistan Palace in Baku - which played an invaluable role in the further development of the country, it was formed as a natural result of the great political foresight of the Great Leader, as well as his strong political will and deep thinking. After the execution of this contract, it was possible to jointly operate and trade with BP and other large and well-known companies of the world, such oil fields as Azeri, Chirag, Gunashli in the deep waters of the Azerbaijani sector of the Caspian Sea. Since the beginning of the implementation of this contract, there has been a sharp increase in oil revenues in real life, which is directed to the non-oil sector of industry, including agriculture, especially for the purchase of high technologies, including information and communication technologies. The Contract of the Century has increased the financial and technological potential of our country, increased the confidence of foreign partner countries and international companies in the economy of Azerbaijan, and led to the raising of partnership between our countries to a new level.


## РЕЗЮМЕ

### ГЕНИАЛЬНАЯ И ДАЛЬНОВИДНАЯ НЕФТЯНАЯ СТРАТЕГИЯ ВЕЧНОГО ЛИДЕРА


***Юсифова С.Н.***



***Ключевые слова:*** *информация, связь, технологии, ненефтяной сектор, высокие технологии, промышленный комплекс.*



Заключенным с ведущими мировыми компаниями и финансовыми институтами 20 сентября 1994 года во дворце «Гюлистан» в Баку «Контракт века»- сыгравшее неоценимую роль в дальнейшем развитии страны, оно сформировалось как закономерный результат большой политической дальновидности Великого лидера, а

также его сильной политической воли и глубокого мышления. После исполнения этого контракта возможна была совместная эксплуатация и торговля с BP и другими крупными и известными компаниями мира, такими нефтяными месторождениями, как «Азери», «Чираг», «Гюнешли» в глубоководных слоях азербайджанского сектора Каспийского моря. С началом реализации этого контракта в реальной жизни произошла резкое увеличение доходов от нефти, который направлен в ненефтяной сектор промышленности, в том числе в сельское хозяйство, особенно на закупку высоких технологий, в том числе информационных и коммуникационных технологий. «Контракт века» увеличил финансовый и технологический потенциал нашей страны, повысил доверие зарубежных стран-партнеров и международных компаний к экономике Азербайджана, привел к поднятию партнерства между нашими странами на новый уровень.

## AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN İNKİŞAF TARİXİNDƏN

**Kərimli Samir Səlim oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, tar.f.d., dosent*
samir-karimli@mail.ru

***Açar sözlər:****neft sənayesi, maqnat, Bakı nefti, hasilat, Xəzər dənizi.*

***Xülasə.*** *Qədim dövrlərdə yaşamış müəlliflərin əsərlərində neft ölkəsi kimi xatırlanan Azərbaycan öz təbii sərvətləri ilə məşhurlaşıb. Əvvəlcə insanlar neftdən hərbi məqsədlər üçün istifadə etdilər, lakin 19-cu əsrdən etibarən sənaye sahəsində də istifadə olunmağa başladı. Zəngin təbii sərvətlər Azərbaycanı, xüsusən Bakını XIX əsrin ikinci yarısında böyük dövlətlərin maraq mərkəzinə çevirmişdir. ABŞ, İngiltərə və Fransa kimi güclü imperialist Dövlətlər Bakı neftinin hasilatı, emalı və satışında mühüm rol oynamağa çalışdılar.*

Hələ qədim dövrlərdə yaşamış müəlliflərin əsərlərində neft ölkəsi kimi qeyd edilən Azərbaycan malik olduğu təbii sərvətləri ilə məşhur olmuşdur. İnsanlar ilk vaxtlarda neftdən hərbi məqsədlərlə faydalansalar da XIX əsrdən etibarən sənaye sahəsində də istifadə etməyə başlamışlar. Azərbyacanda neftin sənaye üsulu ilə çıxarılması isə ilk dəfə 1848-ci ilə təsadüf edir. Həmin dövrdən başlayaraq senayedə artan tələbata uyğun olaraq neft istehsalı zaman keçdikcə daha artmışdır. Malik olduğu zəngin təbii sərvətlər Azərbaycanı, xüsusilə də Bakını XIX əsrin ikinci yarısından iri dövlətlərinin maraq dairəsinə saldı. ABŞ, İngiltərə, Fransa kimi güclü imperialist dövlətlər Bakı neftinin istehsalında, emalında və satılmasında mühüm rol oynamağa çalışırdılar. Məhz bu dövrdə həmin dövlətlərin nəhəng maqnatları neft sənayesinə böyük həsmdə kapital qoyaraq söz sahibi olmaq üçün sanki yarışırdılar. Bu mənada İsveçdən Nobel qardaşları, Fransadan Rotşild və digər neft maqnatlarının adını çəkmək olar [1, s.605-606]. Bunlarla bərabər neft sənayesində Azərbaycanın yerli milyonçularının, o cümlədən H.Z.Tağıyev, M.Muxtarov, Ş.Əsədullayev, M.Nağıyev kimi neft sahibkarlarının adını çəkə bilərik.

Artıq XIX əsrin sonlarında Azərbaycan dünyada neft istehsalının yarısını həyata keçirirdi. Sənayenin bu növündə baş verən sürətli dəyişikliklər həm də təmərküzləşməyə səbəb olurdu. Əgər 1890-cı ildə Bakı şəhərində neft emalı ilə məşğul olan nüəssisələrin 148 idisə, 1901-ci ildə onların sayı 101-ə düşmüşdü, lakin buna baxmayaraq istehsalın həcmi yüksəlmişdi [2, s.352]. Neft sənayesinin inkişafı Bakının, o cümlədən Azərbaycanın şöhrətinin dünyada yayılmasına, ona olan marağın artmasına səbəb olurdu. Neft sənayesində baş verən inkişaf digər sənaye sahələrinin – metallurgiya, maşınqayırma saneyisinin də dirçəlməsinə səbəb olurdu.

Lakin 1914-1918-ci illərdə baş verən I Dünya müharibəsi digər sənaye sahələrində olduğu kimi neft sənayesinə də ağır zərbə vurdu. Müharibə ilə əlaqədar istehsalın həçmi aşağı düşdü, bir sıra müəssisələr fəaliyyətini dayandırdı, işçi qüvvəsi müharibəyə cəlb olundu. Bununla bərabər qeyd etmək lazımdır ki, müharibə iştirakçısı olan düvllətlərin hər birisinin planında Bakı və Bakı nefti xüsusi önəm daşıyırdı.

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft məsələsi böyük əhəmiyyətə malik idi. AXC rəhbərliyi neft amilindən həm iqtisadi durumu yaxşılaşdırmaq, həm də diplomatiya məqsədilə faydalanmağa çalışırdı.

1920-ci ildə AXC-nin süquta uğradılması və Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra neft sənayesi milləşdirildi. Bu, ilk vaxtlarda neftin çıxarılmasına mənfi təsir göstərdi. 1921-ci ildə hasilat azlaraq 2,4 milyon ton təşkil etmişdir [3]. Lakin sonrakı illərdə bolşevik hakimiyyətinin neftə olan tələbatı hasilatın yenidən yüksəldilməsinə səbəb oldu. Hətta 1941-ci ildə neftin çıxarılması 23,6 milyon ton təşkil etmişdir ki, bu da bütün Sovet İttifaqəndakı neft hasilatının 76%-i demək idi [3]. 1949-cu ildə Xəzər dənizində Nefd daşları adlı XX əsrin sənaye möcüzəsinin yaradılması böyük əks-səda yaradı [4]. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana I rəhbərlik dönəminin başlaması digər sahələrdə olduğu kimi neft sənayesində də böyük inkiaşafa səbəb oldu. 1970-ci ildə Xəzərdənizneft İstehsalat Birliyinin fəaliyyətə başlaması, həmçinin Xəzər dənizinin digər respublikalara aid sularında Azərbaycan neftçilərinin təcrübəsinin əsas götürülməsi məhz bu dövrdə əldə edilən uğurlara aiddir. 1975-ci ildə isə Azərbaycanda hasil olunan neft və qazın ümumi miqdarı 27,1 milyon ton təşkil etmişdir [3].

XX əsrdə 80-ci illərin sonu 90-cı illərin əvvələrində Sovet İttifaqında baş verən siyasi, ictimai və iqtisadi gərkinliklər neft sənayesinə də mənnfi təsir göstərdi. Baş verən çətinliklər neft hasilatının aşağı  düşməsinə, texniki avadlıqların sıradan çıxmasına səbəb oldu. Mövcud problemlər köhnə neft quyularının istismarına,, yeni neft quyularının isə qazılmasına imkan vermirdi. 1993-cü ildə xalqıın israrlı tələəbilə ikinci dəfə hakimiyyəətə qayıdan Ümummilli Lider Heydər Əliyev dünyanın aparıcı neft şirkətləri ilə danışıqlar apararaq neft sənayesinin yenidən canlandırılmasına nail olmağa çalışırdı. Gərdin keçən danışıqlar 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" adlanan sazişin imzalanması ilə nəticələndi [5]. Müqaviləni yeddi ölkədən olan 11 şirkət imzaladı. Sonrakı illərdə daha bir neçə müqavilələr imzalanmaqla neft sektorunun inkişafı daha sürətləndirildi. 12 noyabr 1997-ci il tarixində nəhayət ki, "Əsrin müqaviləsi" çərçivəsində ilk neftin hasilatı başladı [5].

Hazırda Azərbaycan neft sənayesinin inkişaf səviyyəsinə görə dünyada aparıcı mövqelərdən birinə sahibdir. Azərbaycan nefti bir neçə marşrut üzrə dünyanın müxtəlif ölkələrinə ixrac edilir.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Bakı-1994, Azərbaycan Dövlət Nəşriyyatı, 687 s.
2. Qasımov Ş. Azərbaycan tarixi (texniki ali məktəblər üçün dərslik). Bakı-2015, Qanun Nəşriyyatı, 608 s.
3. https://minenergy.gov.az/az/neft/neft-senayesinin-inkisaf-tarixi
4. file:///C:/Users/user/Downloads/Neft%20dissertasiya.pdf
5. file:///C:/Users/user/Downloads/Neft%20m%C9%99qal%C9%99.pdf


## SUMMARY

### FROM THE HISTORY OF THE DEVELOPMENT OF THE OIL INDUSTRY IN AZERBAIJAN


***Karimli S.S.***



***Key words****: oil industry, tycoon, Baku oil, production, Caspian Sea.*

Azerbaijan, which was mentioned as an oil country in the works of authors who lived in ancient times, became famous for its natural resources. At first, people benefited from oil for military purposes, but from the 19th century, they began to use it in the industrial field as well. Its rich natural resources made Azerbaijan, especially Baku, the center of interest of major powers from the second half of the 19th century. Strong imperialist states such as the USA, England, and France tried to play an important role in the production, processing, and sale of Baku oil.


## РЕЗЮМЕ

### ИЗ ИСТОРИИ РАЗВИТИЯ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА


***Керимли С.С.***



***Ключевые слова:*** нефтяная промышленность, магнат, бакинская нефть, добыча, Каспийское море.

Азербайджан, упоминавшийся как нефтяная страна в произведениях авторов, живших в древние времена, прославился своими природными ресурсами. Сначала люди использовали нефть в военных целях, но с 19 века ее начали использовать и в промышленной сфере. Богатые природные ресурсы сделали Азербайджан, особенно Баку, центром интересов крупных держав второй половины XIX века. Важную роль в добыче,

переработке и продаже бакинской нефти пытались сыграть сильные империалистические государства, такие как США, Англия и Франция.

# ƏSRİN MÜQAVİLƏSİ: AZƏRBAYCANIN ENERJİ SEKTORUNUN İNKİŞAFINDA BİR DÖNÜŞ NÖQTƏSİ

**İsmayılov Şahismayıl Namaz oğlu**
*Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan, tar.f.d., dosent*
ismayilovsahismayil@gamil.com

***Açar sözlər:*** *Əsrin Müqaviləsi, Əsrin Müqaviləsi, Neft hasilatı, Bakı-Tbilisi-Ceyhan, Beynəlxalq əməkdaşlıq.*

***Xülasə.*** *Əsrin Müqaviləsi, 20 sentyabr 1994-cü ildə imzalanmış və Azərbaycanın enerji sektorunun inkişafında tarixi bir dönüm nöqtəsi olmuşdur. Bu müqavilə, Azərbaycanın zəngin neft ehtiyatlarını beynəlxalq bazara çıxararaq, ölkənin iqtisadi inkişafını sürətləndirmək məqsədini güdmüşdür. Müqavilə, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə BP, Amoco, LUKoil və digər iri beynəlxalq neft şirkətləri arasında imzalanmışdır. Bu əməkdaşlıq, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının müasir texnologiyalarla işlənməsinə və nəticədə neft hasilatının artırılmasına imkan tanımışdır.*

*Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri layihəsi, bu müqavilənin bir hissəsi olaraq Azərbaycanın neftini Gürcüstan və Türkiyə üzərindən Avropaya daşımağa xidmət etmişdir. Müqavilənin icrası, Azərbaycanın iqtisadiyyatında milyardlarla dollar sərmayə cəlb etmiş, sosial infrastrukturun inkişafını dəstəkləmişdir. Nəticə etibarı ilə, Əsrin Müqaviləsi, Azərbaycanın beynəlxalq enerji bazarında mühüm bir oyunçuya çevrilməsinə və enerji təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olmuşdur.*

**Giriş.** 1994-cü il, müstəqil Azərbaycan Respublikası üçün tarixi bir dönüm nöqtəsi oldu. Bu il, ölkənin enerji siyasətinin və iqtisadiyyatının formalaşmasında əhəmiyyətli rol oynayan Əsrin Müqaviləsi imzalandı. Sovet İttifaqının dağılması ilə müstəqillik qazanan Azərbaycan, beynəlxalq aləmdə tanınan bir enerji istehsalçısı olmağa yönəlmişdir. Əsrin Müqaviləsi, Azərbaycanın zəngin neft və qaz ehtiyatlarını dünya bazarına çıxarmaq məqsədini güdərək imzalanmışdır. Bu müqavilə, həm də Azərbaycanın müstəqillik dövründə əldə etdiyi ilk böyük beynəlxalq enerji müqaviləsi kimi tarixə düşdü.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün alternativ marşrutların müəyyənləşdirilməsi üzrə çoxaylı ciddi müzakirələr aparılmışdır. Xam neftin dünya bazarlarına çıxarılması üçün bir neçə istiqamət müzakirə edilmişdir. Boru xətlərinin keçəcəyi yerlər regionun geosiyasi vəziyyətinə də dərin təsir göstərəckdi. Bu, həm də Azərbaycanın suverenliyini və müstəqilliyini yaxından maraqlandırırdı. Bu səbəbdən Azərbaycan neftini dünya bazarlarına çıxaracaq neft boru kəməri regiondakı geosiyasi oyunun bir parçası idi. Heyədr Əliyev Azərbaycanın xam neftini dünya bazarlarına çatdıracaq kəmərin mütləq Türkiyədən keçməsi üçün diplomatik səylər göstərmişdir. BTC-nin həyata keçirilməsinə qarşı həm neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətinə daxil olan bəzi şirkətlər, həm də Rusiya çıxış ediridi. BTC əvəzinə Bakı-Supsa xəttinin çəkilməsi təklif edilirdi. Supsadan neftin tankerlərlə boğazdan keçərək nəql olunması istənilirdi. Heydər Əliyev qətiyyət göstərərək məhz BTC marşrutunun üzərində dayandı və istəyinə nail oldu. [1, s.147]

## Müqavilənin İmzalanması və Tərəfləri

Əsrin Müqaviləsi, 20 sentyabr 1994-cü il tarixində Azərbaycanın paytaxtı Bakı şəhərində imzalanmışdır. Bu müqavilənin tərəfləri arasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və dünyanın ən iri neft şirkətləri olan BP, Amoco, McDermott, Unocal, LUKoil, Statoil, Exxon, TPAO, Pennzoil, İtochu və Ramco kimi şirkətlər idi. Dünyanın 72 ölkəsinin aparıcı şirkətləri konsorsiumun iştirakçıları sırasında idi. Müqavilənin müddəti 30 il olaraq müəyyən

edilmişdir, lakin sonradan bu müddət uzadılmışdır. Bu, Azərbaycanın enerji resurslarını daha uzun müddət ərzində istismar etməyə və investisiya cəlb etməyə imkan tanımışdır.

Hərtərəfli müzakirələrdən sonra müqavilə 1994-cü il, noyabrın 15-də Milli Məclis tərəfindən təsdiq edildi. Prezidentin fərmanı ilə 1994-cü il, dekabrın 2-də qüvvəyə mindi. Beləliklə aşağıdakı pay bölgüsü təsdiq edilmiş oldu:

1. ARDNŞ – 20%
2. Britiş Petrolium – 17,01%
3. AMOKO – 17,01%
4. Lukoil – 10%
5. Pennzoyl – 9,82%
6. Yunokol – 11,2%
7. Statoyl – 8,56%
8. Turkish Petrolium – 1,75%
9. Mak Dermott – 2,45%
10. Raleko Enerji – 2,08%
11. Delta Nimr Kaspian L. – 1,68%

Əsrin müqaviləsində Turkish Petroliumun payı ilkin mərhələdə 1,75% olmuş, daha sonra 1995-ci ildə Azərbaycan 5%lik payını TP-ə satması ilə bu rəqəm 6,75%-ə çatmışdır. Bundan başqa TP “Şahdəniz” layihəsində 9%, Kürdaşı-Araz-Kurqan yatağı çüqaviləsində 5% paya sahibdir. Türkiyənin Azərbaycanın neft yataqlarında sahib olduğu bu paylar ona illik 835 milyon dollar gəlir qazandırmışdır. 2.(səh 93)

**Maliyyə Həcmi və İqtisadi Təsirlər**

Əsrin Müqaviləsinin dəyəri 7.4 milyard dollar səviyyəsində qiymətləndirilmişdir. Bununla yanaşı, müqavilənin həyata keçirilməsi nəticəsində 20-30 milyard dollar arasında investisiyalar gözlənilirdi. Bu cür yüksək maliyyə həcmi, Azərbaycanın müstəqillik qazandıqdan sonra iqtisadiyyatının bərpası və enerji sektorunun inkişafı baxımından əhəmiyyətli bir addım olmuşdur. Beynəlxalq neft şirkətlərinin iştirakı, ölkəyə mühüm sərmayələr cəlb etmiş və müasir texnologiyaların tətbiqinə şərait yaratmışdır.

Müqavilənin iqtisadi təsirləri yalnız neft sektoruyla məhdudlaşmayıb. Bu sərmayələr, infrastruktur layihələrinin reallaşdırılmasına, yerli istehsalın artırılmasına və iş yerlərinin yaradılmasına imkan tanımışdır. Neft gəlirləri, dövlət büdcəsinə müsbət təsir edərək, sosial layihələrə, təhsilə və səhiyyəyə yönləndirilmişdir. Beləliklə, müstəqil Azərbaycanın iqtisadi müstəqilliyinin formalaşmasında Əsrin Müqaviləsi mühüm rol oynamışdır.

**Texniki və İnfrastruktur Layihələri**

Müqavilə çərçivəsində həyata keçirilən əhəmiyyətli texniki və infrastruktur layihələri arasında aşağıdakılar qeyd oluna bilər:

1. **Azeri-Çıraq-Günəşli (ACG) Neft Yataqları:** Bu yataqlar, Xəzər dənizinin ən iri neft yataqlarıdır. Burada genişmiqyaslı qazma işləri aparılmış, hasilat platformaları quraşdırılmış və neft hasilatını artırmaq üçün yeni texnologiyalar tətbiq olunmuşdur. ACG layihəsinin uğurlu icrası, Azərbaycanın enerji sektorunun güclənməsinə və beynəlxalq bazarda daha tanınmış bir oyunçu halına gəlməsinə səbəb olmuşdur.
2. **Bakı-Tbilisi-Ceyhan (BTC) Neft Boru Kəməri:** 2006-cı ildən fəaliyyət göstərən bu boru kəməri, Azərbaycan neftini Gürcüstan və Türkiyə vasitəsilə Aralıq dənizinə daşıyır. BTC, Azərbaycanın neftinin Avropa və dünya bazarlarına təhlükəsiz və səmərəli şəkildə çatdırılmasını təmin edir. Bu layihə, enerji təhlükəsizliyini artırmaqla yanaşı, regionda siyasi sabitliyə də dəstək olmuşdur.
3. **Bakı-Tbilisi-Ərzurum (BTE) Qaz Kəməri:** Bu kəmər, Azərbaycanın qazını beynəlxalq bazara daşımaqla yanaşı, enerji təhlükəsizliyini artırmağı hədəfləyir. BTE, Azərbaycanın enerji ixracını diversifikasiya edərək, ölkənin iqtisadi müstəqilliyini artırmışdır.

4. **Sosial İnfrastruktur Layihələri:** Neft gəlirlərinin idarə olunması, Azərbaycanın müxtəlif bölgələrində sosial infrastrukturun inkişafına imkan tanımışdır. Bu layihələr, təhsil, səhiyyə və sosial xidmətlərin keyfiyyətini artıraraq, yerli əhalinin həyat səviyyəsini yüksəltmişdir.

**Sosial və Ekoloji Təsirlər**

Müqavilənin sosial və ekoloji aspektləri də diqqət çəkir. Ekoloji standartların qorunması məqsədilə bir sıra tədbirlər görülmüşdür. Neft hasilatının ətraf mühitə təsirinin minimuma endirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, bu müqavilə nəticəsində yaradılan iş yerləri və sosial layihələr, Azərbaycanın müxtəlif bölgələrində iqtisadi inkişafı dəstəkləmişdir. Bu sosial layihələr, yerli əhalinin yaşam standartlarını yüksəltmək və iqtisadi aktivliyi artırmaq məqsədini güdür.

Ekoloji aspektlərə gəldikdə, neft hasilatının ətraf mühitə təsirini minimuma endirmək məqsədilə müasir texnologiyaların tətbiqi ön planda olmuşdur. Həmçinin, su resurslarının mühafizəsi və yerli ekosistemlərin qorunması istiqamətində konkret addımlar atılmışdır. Bu cür yanaşma, yalnız neft və qaz sektorunun inkişafını deyil, eyni zamanda ekoloji balansın qorunmasını da hədəfləyir.

**Strateji Əhəmiyyət**

Əsrin Müqaviləsi, Azərbaycanın enerji təhlükəsizliyi və beynəlxalq əlaqələr baxımından da mühim rol oynayır. Bu müqavilə sayəsində Azərbaycan, enerji resurslarının şaxələndirilməsi və nəql marşrutlarının müxtəlifləşdirilməsi strategiyasını həyata keçirmişdir. Bu da regional və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli bir töhfə vermişdir. Müqavilənin icrası, Azərbaycanın enerji resurslarını beynəlxalq müstəvidə daha etibarlı bir şəkildə təqdim etməyə imkan tanımışdır.

Müqavilənin strateji əhəmiyyəti, yalnız Azərbaycanın enerji tədarükçüsü kimi tanınması ilə bitmir. Bu, eyni zamanda, Azərbaycanın beynəlxalq siyasətdəki mövqeyini də gücləndirmişdir. Enerji resurslarının diversifikasiyası, ölkənin iqtisadi müstəqilliyinin və beynəlxalq aləmdəki təsirinin artmasına səbəb olmuşdur.

**Gələcək Perspektivlər**

Uzunmüddətli perspektivdə, Əsrin Müqaviləsi, Azərbaycanın enerji sektorunun inkişafına müsbət təsir etmişdir. Bu müqavilənin uğurlu icrası nəticəsində Azərbaycan, beynəlxalq neft və qaz bazarında etibarlı bir tərəfdaş kimi tanınmışdır. Gələcəkdə yeni neft və qaz yataqlarının kəşfi planlaşdırılır ki, bu da ölkənin enerji potensialını daha da artıracaq. Həmçinin, müasir enerji texnologiyalarının tətbiqi ilə Azərbaycanın enerji istehsalını daha səmərəli şəkildə həyata keçirməsi mümkün olacaq.

Müqavilənin gələcək perspektivlərinə gəldikdə, neft və qaz sektorunda innovativ yanaşmaların tətbiqi, ölkənin enerji istehsalını artırmağa imkan tanıyır. Bu da, həm müasir enerji tələblərinə cavab vermək, həm də ekoloji baxımdan daha dayanıqlı bir enerji istehsalı həyata keçirmək üçün əhəmiyyətlidir. Gələcəkdə, Azərbaycanın enerji sektorunun daha da genişlənməsi, yeni kəmər layihələri və müasir texnologiyaların tətbiqi ilə mümkün olacaq.

**Beynəlxalq Əlaqələr**

Müqavilə, Azərbaycanın beynəlxalq əlaqələrini gücləndirmiş və ölkənin xarici siyasətində əhəmiyyətli bir rol oynamışdır. Əsrin Müqaviləsi vasitəsilə Azərbaycan, Qərb ölkələri ilə strateji enerji tərəfdaşlığı qurmuşdur ki, bu da regionda sabitliyin təmin edilməsinə dəstək olmuşdur. Eyni zamanda, bu müqavilə Azərbaycanın beynəlxalq imicini artırmış, ölkəni enerji tədarükçüsü kimi daha tanınan bir mövqeyə gətirmişdir.

Bu müqavilənin nəticələri, Azərbaycanın regional və qlobal enerji bazarındakı iştirakını genişləndirmişdir. Belə ki, Əsrin Müqaviləsi ilə yanaşı, Azərbaycan, digər ölkələrlə enerji sahəsində müştərək layihələr həyata keçirmiş, beynəlxalq enerji bazarında etibarlı bir oyunçu halına gəlmişdir.

**Azərbaycan–Türkiyə münasibətlərində "Əsrin müqaviləsi"nin rolu**

Azərbaycan-Türkiyə münasibətlərində neft xüsusi yer tutur. Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra Türkiyənin Qafqaz siyasəti Bakı mərkəzli olmağa başladı.

Azərbaycan müstəqilliyini elan etdiyi dövrdə "soyuq müharibə" sona çatmış və Türkiyənin SSRİ-yə qarşı Qərb üçün bufer və regional oyunçu olaraq rolu azalmışdır. Türkiyə beynəlxalq

aləmdə strateji dəyərini yenidən artırmaq üçün müstəqilliyini yeni qazanmış ölkələrdə ortaq mənəvi dəyərlərini də istifadə edərək təsirini artırmalı idi. Bu çərçivədə Ankara türkdilli ölkələrdə çoxsaylı məktəblər, mədəni mərkəzlər, kütləvi informasiya vasitələri təsis etdi, yüzlərlə tələbəni ali təhsil üçün Türkiyəyə apardı. [3, s. 119]

Əlbəttə Bakı-Ankara münasibətlərinin başında enerji daşınmaları layihələri dururdu. Bu, hər iki ölkə üçün də önəmli idi.

Türkiyədən keçən neft kəmərinin əhəmiyyətini qeyd edən Türkiyə dövlət naziri Nəcməddin Cövhəri demişdir: "Türkiyə ərazisindən keçən neft kəməri yalnız Azərbaycan neftinin daşınması üçün deyil, o, həm də Qazaxstan neftinin daşınması üçün də əhəmiyyətlidir."

Azərbaycan üçün də enerji resursları problemi təhlükəsizlik və müstəqillik strategiyasının ən vacib elementlərindən biridir. Bu onunla izah olunur ki, bizim ölkənin bu gün dünya bazarlarına çıxara biləcəyi rəqabət qabiliyyətli az mallarından biri enerji məhsullarıdır. Eyni zamanda Türkiyə də Norveç, Rusiya və Əlcəzairdən sonra Aİ-nin dördüncü böyük enerji dəhlizi olmağı qarşısına məqsəd qoymuşdur. Regiondakı əksər boru xətlərinin Türkiyə ərazisindən keçməsi onun tranzit ölkə olma hədəfini reallaşdırır. Bu boru xətləri ilə Türkiyə sadəcə öz enerji ehtiyaclarını qarşılamır, həmçinin tranzit qazancı da əldə edir. Bu amil Türkiyənin strateji dəyərini artırır və enerji məsələləri ilə bağlı müzakirələrdə Türkiyəyə üstünlük qazandırır.

Azərbaycan üç cəhətdən Türkiyənin enerji strategiyasında əhəmiyyətli rol almışdır. Birincisi, Azərbaycan Türkiyənin enerji ehtiyaclarını qarşılayaraq, xüsusən təbii qaz ehtiyatları baxımından diversifikasiya rolunu oynamışdır. İkincisi, Türkiyə Azərbaycanın təbii qazını Avropaya sataraq tranzit ölkə ünvanına çevrilir. Üçüncüsü, Azərbaycan Mərkəzi Asiya ölkələrinin öz enerji ehtiyatlarını Türkiyə üzərindən satılması üçün tranzit ölkəyə çevrilmiş olur. [4, s. 46,47]

**Nəticə.** Nəticə etibarilə, Əsrin Müqaviləsi, Azərbaycanın müasir tarixində iqtisadi, siyasi və sosial baxımdan ən önəmli hadisələrdən biridir. Bu müqavilə, ölkənin enerji sektorunun inkişafını təmin etməklə yanaşı, müstəqilliyinin də güclənməsinə səbəb olmuşdur. Azərbaycan, bu müqavilə sayəsində beynəlxalq enerji bazarında əhəmiyyətli bir rol oynamış və enerji resurslarının idarə olunmasında müasir yanaşmaların tətbiqinə şərait yaratmışdır. Gələcəkdə də, Azərbaycanın enerji potensialının artırılması və beynəlxalq aləmdəki mövqeyinin daha da gücləndirilməsi üçün çalışmalara davam edilməsi planlaşdırılır. Beləliklə, Əsrin Müqaviləsi, Azərbaycanın inkişafı üçün strateji bir mənbə kimi fəaliyyətini davam etdirəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016. Bakı: Poliart MMC, s.147,
2. Cahangirli C.X. Müasir Dövrdə Azərbaycan Türkiyə Münasibətləri. Bakı, s. 93,
3. Davudoğlu A. Stratejik Derinlik. İstabul: Küre Yayınları, 2009, 34-cü nəşr, s.119
4.<Власть>, M., 1999, s.46,47.



**SUMMARY**

**CONTRACT OF THE CENTURY: A TURNING POINT IN THE DEVELOPMENT OF AZERBAIJAN'S ENERGY SECTOR**

***Ismayilov Sh.N.***

***Keywords:*** *Contract of the Century, oil production, Baku-Tbilisi-Ceyhan, international cooperation*

The Contract of the Century, signed on September 20, 1994, marked a historic turning point in the development of Azerbaijan's energy sector. This agreement aimed to accelerate the country's economic development by bringing Azerbaijan's rich oil reserves to the international market. The contract was signed between the State Oil Company of the Azerbaijan Republic (SOCAR) and major international oil companies such as BP, Amoco, and LUKoil. This collaboration enabled the modern technological exploitation of oil fields in the Azerbaijani sector of the Caspian Sea, ultimately leading to an increase in oil production.

The Baku-Tbilisi-Ceyhan (BTC) pipeline project, as part of this contract, facilitated the transportation of Azerbaijan's oil to Europe via Georgia and Turkey. The implementation of the contract attracted billions of dollars in investment into Azerbaijan's economy and supported the development of social infrastructure. As a result, the Contract

of the Century has led to Azerbaijan becoming a significant player in the international energy market and has strengthened its energy security


**РЕЗЮМЕ**

**КОНТРАКТ ВЕКА: ПОВОРОТНЫЙ МОМЕНТ В РАЗВИТИИ ЭНЕРГЕТИЧЕСКОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА**



***Исмаилов Ш.Н.***



*Ключевые слова: Контракт века, Контракт века, добыча нефти, Баку-Тбилиси-Джейхан, международное сотрудничество*.



Резюме. Договор века, подписанный 20 сентября 1994 года, стал исторической точкой в развитии энергетического сектора Азербайджана. Данное соглашение направлено на ускорение экономического развития страны путем вывода богатых нефтяных ресурсов Азербайджана на международный рынок. Соглашение подписано между государственной нефтяной компанией Азербайджанской Республики (SOCAR) и BP, Amoco, Лукойлом и другими крупными международными нефтяными компаниями. Это сотрудничество позволило современными технологиями разрабатывать нефтяные месторождения в азербайджанском секторе Каспийского моря и, в конечном итоге, увеличить добычу нефти.

Проект трубопровода Баку-Тбилиси-Джейхан (BTC) в рамках этого соглашения служил для транспортировки азербайджанской нефти в Европу через Грузию и Турцию. Реализация договора привлекла миллиарды долларов инвестиций в экономику Азербайджана, поддержала развитие социальной инфраструктуры. Следовательно, договор века привел к тому, что Азербайджан стал важным игроком на Международном энергетическом рынке и укрепил энергетическую безопасность


.

.

## II BÖLMƏ *** II СЕКЦИЯ *** II SECTION

## "ƏSRİN MÜQAVİLƏSİ": AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI

## КОНТРАКТ ВЕКА: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ И КУЛЬТУРНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА

## CONTRACT OF THE CENTURY": SOCIO-ECONOMIC AND CULTURAL DEVELOPMENT OF AZERBAIJAN

# "ƏSRİN MÜQAVİLƏSİ". AZƏRBAYCANIN SOSAİL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI: DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏMİN OLUNMASINDA BANK FƏALİYYƏTİNİN ROLU

**Ayvazlı Ayxan Nizami oğlu**
*Azərbaycan Milli Elmlər Akademiyası, Bakı, Azərbaycan.*
ayvazliphd@gmail.com

***Açar sözlər:*** *valyuta fondu, investisiya, banklar, pul tədavülü, iqtisadi inkişaf, pul siyasəti.*

***Xülasə.*** *Əvvəla, ölkənin pul sisteminin hansı elementlərdən asılı olduğunu və ölkənin pul siyasətinin hansı elementlərdən asılı olduğunu və investisiya bazarının məntiqi təbəqəsində olub olmadığını və riskli ərazilərin maliyyələşdirilməməsini müəyyənləşdirmək lazımdır. Mövcud iqtisadiyyata dövlət dəstəyi ilə kredit vermək, ixrac subsidiyalarını məhdudlaşdırmaq, xammal idxalı və ixracına ticarət maneələri, habelə hər hansı bir sərt üsulla dövlət büdcəsi kəsirinin azaldılması və formalaşdırılması kimi məhdudiyyətləri azaltmaq, inkişaf etmiş ölkələri xammal bazasına çevirmək niyyəti və keçid iqtisadiyyatı olan ölkələrdə hazır məhsul bazarı. Ölkəmizdə bank sektorunun təkmilləşdirilməsi Azərbaycanın milli iqtisadiyyatında aparılan islahatlar zamanı sürətlə inkişaf edən və bir çox dəyişikliklərə məruz qalan istiqamətlərdən biridir.*

Yaxın tarixə nəzər salsaq XX əsrin sonlarında, təxminən 90–cı illərdə inkişaf etmiş ölkələr iqtisadi çətinliklərlə rastlaşmışlar, həmçinin sosial təminat sahəsində, tibb-səhiyyə və elm sahəsində dövlət xərcləri nəzərə çarpacaq dərəcədə çoxalmışdı. Bu yalnız inkişaf etmiş ölkələr ətrafında yox, hazırda inkişaf etmək ərəfəsində olan ölkələrin də elm, səhiyyə və s. sahələrinə təsir etmişdi. Həmin ölkələrdə yaranan iqtisadi artım üzrə stimullaşdıran və müəyyən olunan dövlət siyasəti təyin etdiyi ikinci istiqamət qanunvericiliklə vergi və digər güzəştlər sahəsində tənzimlənib, fərqli sahələrin və regionların bilavasitə yaxud dolayı şəkildə büdcədən subsidiyalaşdırılması istehsalın rəqabət qabiliyyətini və optimal strukturunu dəstəkləyib.

Fərqli dövrlərdə inkişaf etmiş ölkələrin iqtisadi artımları stimullaşdırmaq barədə planları dövlət strategiyasına aid olmuşdur. Burada strategiyanın müxtəlif konsepsiyalardan əsaslanmış nəzəriyyələr üzrə tövsiyələrlə əlaqələndirmişlər. Misal olaraq, ABŞ-da 1929- cu ildən 1933-cü illərədək böyük depressiyalar dövrü dövlətin iqtisadi sistemində tənzimləmənin məcmu tələb üzrə pul vasitələrinin köməyi ilə idarə olunması əsas götürülmüşdür. Kapital qoyuluşu aşağı faizlərlə məhdudlaşdırılaraq yüksək faiz dərəcəsinin yaranmasına səbəb olmuşdur.

Mövcud iqtisadiyyatın dövlət dəstəyi ilə kreditləşdirilməsi, ixrac sahəsinin subsidiyalaşdırılması üzrə məhdudlaşdırılma, məhsulların idxalı və xammal ixracı ticarət maneələri kimi məhdudiyyətlərin azaldılması, habelə dövlət büdcəsində kəsirin istənilən növ sərt üsulla azaldılıb formalaşdırılması, keçid iqtisadiyyatı ölkələrində inkişaf etmiş ölkələrin xammal bazasına və hazır məhsulların satış bazarına çevirmək niyyəti ilə təşkil olunmasına xidmət edir. Bu prinsiplər

qəbul edilməz olsa da, keçid dövründə olan iqtisadiyyatda yaranan ciddi disbalansın aradan qaldırılmasına imkan vermir.

Dünya miqyasında ölkələr üzrə iqtisadi inkişaf yalnız iqtisadi və elmi-texniki tərəqqi ilə deyil, insanların həyat tərzi və yaşayış minimumu yer tutur. İqtisadi artım üçün əsas təsir edici rol dövlətin daxili və xarici siyasətinində üzərinə düşür. Ayrılıqda hər bir təşkilatın və ümumilikdə cəmiyyətin tələblərinə uyğun şəkildə vaxtlı-vaxtında aparılarsa iqtisadi artım aktivləşdirilə bilər. Bank sektorları qlobal miqyasda dünyada baş verən proseslər üzrə iqtisadi böhranlara məruz qalmış, bu təsirlərin nəticəsində bir çox ağır mərhələlərdən keçmiş və öz təsir izlərini qlobal miqyasda iqtisadiyyatın bir çox sahələrində büruzə vermişdir.

Ölkəmizdə bank sektorunun təkmilləşməsi Azərbaycanın milli iqtisadiyyatında aparılan islahatlar dövründə sürətlə inkişaf etmiş və bir çox dəyişikliklərə məruz qalmış sahələrindəndir.

Əhalinin əlində olan sərbəst vəsaitlərini banklara deposit şəklində, müddətli yığımlara yerləşdirməsi meyliliyi nə dərəcədə aktual olub-olmamasını operativ bank qiymətləndirilməsi ilə təhlil etmək mümkündür. Bu göstəricilər analitik təhlillərin reytinq hesablaşma göstəricisi sayılır, yaranan gəlirlərdə yığımların xüsusi çəkisini həm nominal dəyərlə, həm də faiz əmsalı üzrə ehtiva edir. O cümlədən retrospektiv analiz zamanı əhalidən cəlb olunmuş vəsaitlərin senariləri təhlil olunur, keçmiş illər üzrə oxşar dövrün göstəricilərində nə kimi dəyişikliyin baş verməsini xarkterizə edir.

Hər bir kommersiya bankının marketinq xidmətinin hazırladığı əsaslandırılmış rəyləri ilə konkret icra olunan əməliyyatın və xidmətin tələb-təklifə uyğun modifikasiyası barədə qərarlar qəbul edilməlidir. Xüsusi layihələr üzrə müəyyən dövrü və ya yaxın gələcəyi əks etdirən strateji biznes plan üzrə tədbirlər və təlimatlar işlənib hazırlanmalıdır. Hazırda Azərbaycan ərazisində fəaliyyət göstərən banklar tərəfindən hüquqi və fiziki şəxslərə bir çox çeşiddə geniş bank xidmətləri göstərilir.

Nəticədə kommersiya bankları beynəlxalq praktikada olduğu kimi öz qazanc və gəlirlərinin əsas hissəsini faiz gəlirləri hesabına deyil, qeyri –faiz əməliyyatları apararaq komisyon-vasitəçilik əməliyyatlarından əldə edilən gəlirlər və mənfəət hesabına formalaşdırırlar. Bu da onlara maliyyə imkanlarının genişləndirilməsi nəticəsində daha gəlirli yol açaraq böyük mənfəətlər əldə etmələrinə təkan olacaq.

Bankların fəaliyyət göstərdikləri spektrinin artırılması istiqamətində görülən islahatların nəticəsində yeni növ bank xidmətləri və əməliyyatlarının meydana gəlir.

Aparılan müxtəlif növ bank xidmətləri üzrə əməliyyatlarda hər bir icra olunan əməliyyatın özünə uyğun xüsusiyyətləri daim nəzərə alınmaqla, mənfəətlilik və rentabellik əmsallarına uyğun göstəricilərindən təhlillərdə istifadə edilməlidir. Kommersiya banklarının fəaliyyət təcrübəsində aşkarlanan sistemli əməliyyat risklərin azaldılması üçün hazırlanmış institutsional tədbirlərdən də istifadə olunmalıdır. Bu növ nəzarət və müşahidə metodları üzrə hazırlanmış tədbirlərdən biri müştərilərin, hüquai və fiziki şəxslərin monitorinqidir.

Bir çox mütəfəkkir və mütəxəssislərin fikrincə yaranmış iqtisadi konyukturun təhlili üzrə icra olunan monitorinqin məqsədi riskə məruz dəyərləri ölçmək, risk səviyyəsini azaltmaq, gələcəkdə yarana biləcək risk halının qarşısını vaxtında almaq və kommersiya banklarının maliyyə itkilərinin qarşısının alınması, bankın inkişaf strategiyasında yaranmış qeyri-müəyyənliyin araşdırılaraq aradan qaldırılması halları üçün zəruri xarakter daşıyır. Aparılan monitorinqlər bir qayda olaraq, gözlənilən riskləri vaxtında aşkarlamalı, baş verəcək dəyişikliklərdən bir neçə il əvvəl bu sahə üzrə preventiv, qabaqlayıcı tədbirlərə başlanmalıdır.

Maliyyə bazarlarını əsas tərkibini təşkil edən bankların həyata keçirdiyi xidmətlər müxtəlif şaxəli seqmentlər üzrə gəlir əldə etməkdir. Müştərilərin tələblərinə uyğun məhsullar təklif edərək öz aralarında rəqabət formalaşdıraraq göstərilən xidmətlərə uyğun qiymət amilinin təzahür etməsi, göstərilən xidmətlərlə yanaşı bankın nüfuzuna təsir edən müştəri münasibətlərinin mühüm elementini təşkil edir, nəticədə banklar maddi və qeyri-maddi aktivlərin artmasına böyük töhfə verir. Maliyyə institutları üzrə kommersiya bankları və bank olmayan kredit təşkilatlarının fəaliyyəti dövlətin iqtisadi potensialının gücləndirilməsinə xidmət edir.

Aparılan siyasət ilk öncə ölkənin pul sisteminin hansı ünsürlərdən asılı olduğu və müasir vəziyyətdə investisiya sahələrinin düzgün qiymətləndirilməsindən, riskli sahələrin maliyyələşdirilməməsindən ibarət olunduğunu müəyyən etmək lazımdır.

Hal-hazırda, xarici maliyyə institutları ilə bir çox iqtisadi əlaqələr qurulur, makroiqtisadi vəziyyətin sabitləşməsi ölkədə struktur islahatlarının təkmilləşməsinə xidmət göstərən özəl sektorun inkişafına təkan verir. Eləcə də neft sənayesindən əldə olan investisiyaların maliyyə mərkəzlərinin gücləndirilməsi istiqamətində yaradılan valyuta rezervlərinin təyinatları, prudensial normativlərin tələblərinə, o cümlədən açıq valyuta mövqeyinə riayət olunmasına yönəlir.

Bank xidmətlərinin sferasının tədqiqində kommersiya bankının iqtisadi potensialının müəyyənləşdirilməsi çox vacibdir ki, bunda məqsəd bankın inkişaf etdirilməsidir.

Bankın iqtisadi potensialı onun malik olduğu xüsusi resursların təkrar istehsalına, resurslardan istifadəni zamanı səmərəliliyin yüksəldilməsinə, balans üzrə passivlərinin sağlam və rentabelli aktivlərə çevrilməsidir, xidmət keyfiyyətinin və məhsuldarlığının yüksəldilməsinin təmin edilməsidir. Fikrimizcə, kommersiya bankının iqtisadi potensialının məzmununu aşağıdakı üç əsas funksiyanı yerinə yetirmək yolu ilə banka sərbəstlik, dayanıqlılıq və səmərəli fəaliyyət imkanı verən resursların məcmusu kimi müəyyən etmək olar.

AR Mərkəzi Bank ölkə üzrə tədiyyə balansının proqnozunun hazırlanmasında iştirak edir və tədiyyə balansı hesabatının tərtib olunmasına rəhbərlik edir. Tədiyyə balansı tərtib olunma zamanı keyfiyyət standartları qismində beynəlxalq maliyyə və kredit institutlarının mütəxəssis və ekspertləri tərəfindən müsbət rəy alındıqdan sonra hazırlanır.

Bütövlükdə Azərbaycanın tədiyyə balansının son illər ərzindəki yekunları, xarici dövlətlərin və xarici təşkilatların ölkəmizə olan etimadının artdığını göstərir. Hazırda ölkəmiz yüzdən çox xarici dövlətlə iqtisadi əlaqələr yaratmışdır. Makroiqtisadi vəziyyətin sabitləşməsi, özəl sektorun möhkəmləndirilməsinə yönəlmiş struktur islahatları, eləcə də iqtisadiyyatın neft sektorunun inkişaf etdirilməsi Azərbaycanın maliyyə mərkəzlərində yüksək investisiya reytinqi olması üçün geniş imkanlar yaradır.

## Ədəbiyyat


1. Ayvazlı, A.N. Azərbaycan Dövlət İqtisad Universitetinin/Elmi Xəbərləri jurnalı/Kommersiya banklarının fəaliyyətinin təkmilləşdirilməsi, aspektində nəzəri baxışlar/-2017, -Bakı:
2. Ayvazlı, A.N. Azərbaycan Universitetinin /Ipək yolu jurnalı/- N3.-2017/Türkiyə Cümhuriyyətində kommersiya banklarının fəaliyyət xüsusiyyətləri/ elmi məqalə /-2017, -Bakı:
3. Ayvazlı A.N.Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı/ Azərbaycanda fəaliyyət göstərən Kommersiya banklarının idarə edilməsi istiqamətində, informasiya texnologiyalarının rolu və innovativ əməliyyat sistemlərinin artırılması istiqamətləri/ -2018, -Bakı:
4. Ayvazlı A.N. İqtisadiyyat Qəzeti/ 43(938)/ Методологические основы совершенствования управления коммерческих банков/-2016, -Bakı:
5. Айвазлы А.Н. Журнал KANT/- №3(32) 09, -2019 (s.246-249), /Сравнительное исследование коммерческих банков в Турции и Азербайджана/-2019, -Ставрополь г.:
6. Айвазлы А.Н. Международный журнал /Scientific research on the improvement of commercial banks and application of innovations/ Айвазлы Айхан Низами. /ЕГИ-25(3)/ -Россия/-20.10 -2019



**SUMMARY**

**“CONTRACT OF THE CENTURY". SOSAIL-ECONOMIC AND CULTURAL DEVELOPMENT OF AZERBAIJAN: THE ROLE OF BANKING IN ENSURING SUSTAINABLE ECONOMIC DEVELOPMENT**

***Ayvazli A.N.***

***Keywords:*** *currency fund, investment, banks, money circulation, economic development, monetary policy*

First of all, it is necessary to determine what elements the country's monetary system depends on and what elements the country's monetary system is dependent on, and whether it consists of correct assessment of investment areas and non-financing of risky areas. Crediting of the current economy with state support, restrictions on export subsidies, reduction of restrictions such as trade barriers to import and export of raw materials, as well as reducing and

forming the deficit in the state budget by any kind of strict method, the intention to turn the developed countries into a raw material base and a market for the sale of finished products in transition economy countries. serves to organize with. The improvement of the banking sector in our country is one of the areas that developed rapidly and underwent many changes during the reforms carried out in the national economy of Azerbaijan.

**РЕЗЮМЕ**

**"КОНТРАКТ ВЕКА". СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ И КУЛЬТУРНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА: РОЛЬ БАНКОВСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

***Айвазлы А.Н.***

***Ключевые слова:*** *валютный фонд, инвестиции, банки, денежное обращение, экономическое развитие, денежно-кредитная политика.*

Прежде всего, необходимо определить, от каких элементов зависит денежная система страны и от каких элементов зависит денежная политика страны, и находится ли она в логическом слое инвестиционного рынка и не финансирования рискованных территорий. Кредитование действующей экономики с государственной поддержкой, ограничение экспортных субсидий, снижение таких ограничений, как торговые барьеры на импорт и экспорт сырья, а также сокращение и формирование дефицита государственного бюджета любым жестким методом, намерение превратить развитые страны в сырьевую базу и рынок сбыта готовой продукции в странах с переходной экономикой. Совершенствование банковского сектора в нашей стране является одним из направлений, которое быстро развивалось и претерпело множество изменений в ходе реформ, проводимых в национальной экономике Азербайджана.

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI; ƏSRİN MÜQAVİLƏSİNDƏN BU GÜNÜMÜZƏ QƏDƏR

**Adıgözəlova Günel Rüstəm qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
adigozelli.87@mail.ru

***Açar sözlər:*** *sosial dövlət, sosial rifah , istehsal resursları, sosial ədalət, hədəf, vətəndaş*

***Xülasə.*** *Azərbaycan Respublıikasının sosial təminat sistemi 90-cı illərdən qurulma proseslərinə başlasa da, sonrakı illərdə, xüsusilə cənab prezident İlham Əliyevin dönəmində qəbul olunan inkişaf proqramları nəticəsində yeni bir dönəmə başladı. Nəzərə alsaq ki, bu dönəmdə əsas üstünlük insan kapitalının, xüsusilə qeyri- neft sektorunun dirçəlməsinə yönəlmişdir, o zaman gələcəyə aid daha konkret nəticələrdən danışmaq olar.*

Hər bir dövlət öz müstəqilliyini bərpa edib suverenlik əldə etdikdən sonra ilk növbədə iqtisadi sahədəki fəaliyyətində nailiyyət qazanmağa səy göstərir. Təbii haldır ki, Azərbaycan Respublikası da 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca əsaslarını təşkil edən amillər: müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem,bazar iqtisadiyyatına keçid, dünya iqtisadiyyatına inteqrasiya

Azərbaycan Respublikası hələ bir neçə il öncə dünyada qlobal maliyyə böhranı yarandığı, eləcə də neftin qiymətinin kəskin ucuzlaşdığı dövrlərdə belə iqtisadi inkişafı öz davamlılığını və sabitliyini qorumağı bacarmışdır. Ölkəmiz bütün bu ağır vəziyyətlərin minimal ziyanla öhdəsindən gəlməyi bacarmışdır. Bu faktın arxasında təkcə bir amil dayanır ki, oda əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin yeni dövrə uyğunlaşdırılmış şəkildə davam etdirdiyi və strateji əhəmiyyətə malik iqtisadi siyasət kursun uğurla davam etdirilməsi Azərbaycanın çoxşaxəli və davamlı inkişafının əsas təməlidir.Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu

dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır. [1, səh45]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının inkişafında neft diplomatiyasının rolu müasir dövrümüzün ən əsas və aktual problemlərindən biridir.Ümummilli Liderimiz Heydər Əliyevin 1999-cu ildə imzaladığı Fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir.Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. 2, 10

Ümummilli Lider Heydər Əliyev belə bir fikir irəli sürmüşdür ki, “ İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir”. Və o bu sözünün arxasında duraraq Azərbaycanın iqtisadi inkişafı üçün durmadan çalışmış, uğurlu addımlar atmışdır. Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur. 3,23 səh

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət kursu Azərbaycanın müasir inkişafında xüsusi yer tutur. Bircə faktı nəzərə almaq gərəkir ki, cəmisi 2004-2018-ci illərdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Bu rəqəm olduqca böyük bir əhəmiyyət kəsb edir. Belə ki, digər post-sovet ölkələri ilə müqayisədə Azərbaycanın irqtisadi potensialının artması faktı açıq şəkildə ortaya çıxır. Nəzərə alınmalıdır ki, Azərbaycan bu cür yüksək nailiyyətlərə həm də müharibə şəraitində ola-ola imza atır. Qeyd edilməlidir ki, bir zamanlar Azərbaycan neft gəlirlərindən asılı idisə, artıq bu asıllıq aradan qaldırılır. Əgər, son 15 ildə əldə olunan iqtisadi artım qeyri-neft sektrunda 2,8 faiz təşkil edirsə, demək artıq ölkəmizdə qeyri-neft sektoru özünün yüksək inkişafı mərhələsinə qədəm qoyub. Azərbaycan artıq özünün neftdən asılılığını ciddi şəkildə aradan qaldırır. Qeyri-neft sektorunun bir sıra sahələrinin yüksək inkişafı qarşımızda gələcəkdə mühüm faydalar verə biləcək yollar açmaqdadır. Turizm, kənd təsərrüfatı, strateji xarakterli məhsulların yetişdirilməsi və becərilməsi, eləcə də sənayenin daha yüksək şəkildə inkişaf etdirilməsi üçün dövlət tərəfindən mühüm işlər görülür. Ən əsası isə bu işlərin böyük əksəriyyətinin regionlarda aparılması kompleks inkişafımızın təməl prinsipinə xidmət göstərir. 4, 17 səh

Konkret olaraq, bu fikirləri 2018-ci il üçün də demək mümkündür. Müqayisə üçün deyim ki, ötən il qeyri-neft sektorunun inkişafı 2,5 faiz təşkil etmişdi. Bu ilin birinci rübünün yekunlarına nəzər saldıqda isə, həmin rəqəm 3 faiz təşkil edir. eləcə də, birinci rübdə iqtisadiyyatımız 2,3 faiz artıb. Birinci rübdə kənd təsərrüfatının inkişafı 4,3 faiz təşkil edib. Bütün bunlar görülən tədbirlərin,

aparılan uğurlu siyasətin və islahatların nəticəsidir. Artıq bir neçə ildir ki, ölkə Prezidenti aqrar sahənin inkişafı istiqamətində mühüm tədbirlər görür, qanunvericiliyimizdə dəyişikliklər olunur və yerli fermerlərə, sahibkarlara yaxından köməkliklər göstərilir. Yaradılan aqroparklar, rayonlarda fəaliyyət göstərən aqrar təsərrüfatlar bu sahənin inkişafında əsaslı rol oynayır. Bu gün kəndlinin öz məhsulunu dünya bazarına çıxarması üçün şərait yaradılır. Azərbaycan dövləti öz brendini dünyaya təqdim edir. Vurğulamaq lazımdır ki, digər ölkələr Azərbaycandan kənd təsərrüfatı məhsulları almaqda maraqlıdırlar. Bunun ən əsas səbəblərindən biri Azərbaycan məhsullarının keyfiyyətidir və onların tam orqanik tərkibə malik olmasıdır. Bu gün bir sıra xarici ölkələrin şirkətləri məhz kənd təsərrüfatı sahəsinə sərmayə qoymaqda maraqlıdır. Bu isə bütövlükdə iqtisadi siyasətimizin doğru istiqamətinin göstəricisidir. Qeyd edim ki, aqrar sahənin inkişafı ilə bağlı qarşıdakı illərdə daha yüksək nəticələrin əldə olunacağını gözləyirik və inanırıq ki, Azərbaycanın kənd təsərrüfatı məhsulları dünyanın hər yerində daha yüksək şöhrətə malik olacaq. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin ölkəmizin idarə edilməsi və sosial-iqtisadi inkişafı ilə bağlı aydın və konkret baxışlara, siyasi iradəyə malik olması, dövlət başçısı tərəfindən bütün sahələr üzrə konkret dövlət proqramlarının təsdiqlənməsi və onların artıq icrasına başlanılması müəyyən edilmiş vəzifələrin reallaşmasına təminat verir. 5, 31 səh

Beləliklə, 2003-2024-cü illərdə Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Lakin milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan Respublikası müstəqil və gənc dövlət olaraq iqtisadi dayaqlarını daha da möhkəmləndirməli, yeni dövrün çağırışlarını özünün sosial-iqtisadi həyatında daha çevik nəzərə almalıdır. Azərbaycan xalqı bu vəzifələrin məhz İlham Əliyev tərəfindən daha uğurla həyata keçirilə biləcəyini nəzərə alıb öz seçimini bir qayda olaraq ONUNLA bağlayır, dövlətimizin idarə edilməsini tərəddüd etmədən ONA etibar edir...

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş 31 yanvar 2006-cı il tarixli iclasındakı nitqindən, "Azərbaycan" qəzeti, 1 fevral 2006-cı il.
2. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir", 3-cü kitab, Azərnəşr, Bakı 1997, səh. 336
3. Ümummilli lider Heydər Əliyevin "Literaturnaya qazeta"nın xüsusi müxbirləri ilə 12 avqust 2000-ci il tarixli müsahibəsindən, "Azərbaycan" qəzeti, 14 avqust 2000-ci il
4. İlham Əliyev "İqtibaslar və təhlil", Azərbaycan nəşriyyatı, Bakı 2006, səh. 97
5. İlham Əliyev "İnkişaf – məqsədimizdir", 1-ci kitab, Azərnəşr, Bakı 2008, səh. 44



**SUMMARY**

**SOCIAL AND MATERIAL WELL-BEING OF THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN: DETERMINING THE LEVEL OF UNEMPLOYMENT AND POVERTY**

***Adigozalova G.R.***

***Key words**: Social state, social welfare, production resources, social justice, goal, citizen*

Although the social security system of the Republic of Azerbaijan started its construction processes in the 90s, a new era began in the following years, especially as a result of the development programs adopted during the era of Mr. President Ilham Aliyev. If we take into account that the main priority in this period is focused on the revival of human capital, especially the non-oil sector, then we can talk about more concrete results for the future.

**РЕЗЮМЕ**

**СОЦИАЛЬНОЕ И МАТЕРИАЛЬНОЕ БЛАГОПОЛУЧИЕ РЕГИОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: ОПРЕДЕЛЕНИЕ УРОВНЯ БЕЗРАБОТИЦЫ И БЕДНОСТИ**

***Адыгозалова Г.Р.***

***Ключевые слова:** социальное государство, общественное благосостояние, производственные ресурсы, социальная справедливость, цель, гражданин.*

Хотя система социального обеспечения Азербайджанской Республики начала свое строительство еще в 90-е годы, в последующие годы началась новая эра, особенно в результате программ развития, принятых в эпоху господина Президента Ильхама Алиева. Если учесть, что основной приоритет в этот период ориентирован на возрождение человеческого капитала, особенно ненефтяного сектора, то можно говорить о более конкретных результатах на будущее.

# "ƏSRİN MÜQAVİLƏSİ"NİN İMZALANMASININ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDAKI ROLU

**Əhmədova Nərmin Mirzalı qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
narmin.ahmedova@sdu.edu.az

***Açar sözlər**: iqtisadiyyat, inteqrasiya, iqtisadi siyasət, neft-qaz hasilatı, layihə*

***Xülasə:** Müstəqillik illərinə qədəm qoyduqdan sonra ölkəmizin qarşılaşdığı əsas çətinlikləri həll etmək məqsədilə potensial ehtiyatı çox olan neft və qaz resurslarının hasilatını artırmaq oldu. Ölkənin maliyyə vəsaitinin məhdudluğu şəraitində neft sektorunun inkişafı üçün xarici şirkətləri sərmayə qoyuluşuna cəlb etmək vacib hesab olunurdu. Buna görə də "Əsrin Müqavilə"sinin imzalanması ölkə tarixində iqtisadiyyatın inkişafında dönüş nöqtəsi olaraqç Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının əsasını qoydu.*

Azərbaycanda sənayenin əsas sahələrinə neft-qaz hasilatı, maşınqayırma, yanacaq-energetika, kimya, tikinti, metallurgiya, qida və yeyinti senayesi daxildir. Qeyd etmək lazımdır ki, ölkəmiz dünyada neft-qaz ölkəsi kimi tanınır. Ölkəmizdə quruda və suda iri neft yataqları mövcuddur. Bu yataqlardan Xəzər dəniznin şelf zonasında "Azəri", "Çıraq", "Günəşli", "Dan Ulduzu", "Əşrəfi, "Alov", "İnam", "Oğuz", "Qarabağ", quruda isə "Bibiheybət", "Pirallahı", "Yasamal", "Qaraçala", hətta mezazoy yaşlı "Muradxanlı" və "Mollakənd" yataqları mövcuddur. [3] Qeyd edilən sənaye sahələrindən bəzilərinin inkişafı birbaşa neft-qaz sənayesi ilə əlaqədardır. Belə ki, respublikada qara metallurgiya , əsasən, neft-qaz sənayesinin tələbatını ödəmək məqsədi ilə yaradılmışdır. Təkcə metallurgiya sənayesi deyil, həmçinin kimya sənayesi, əzaçılıq sənayesi də birbaşa neft sənayesi ilə əlaqədar inkişaf etmişdir. Günümüzdə istehsal edilən neft-qaz ölkə iqtisadiyyatının güclənməsinə, əhalinin yaşam standartlarının yüksəlməsində böyük rol oynayır.

Dünyada ilk dəfə sənaye üsulu ilə neft çıxarılması Azərbaycanda 1846-cı ildə Bibi-Heybətdə həyata keçirilmişdir. Laki onu da qeyd etməliyik ki, Azərbaycan sənayesinin dünyaya inteqrasiyası birbaşa neft sektoru ilə bağlıdır. 1872-ci ildə isə ilk dəfə Nobel qardaşları Bakıda neft şirkəti yaratmışlar. Bununla da Azərbaycanda neft və neft məhsullarından istifadə etmək üçün xarici ölkələrin şirkətləri, xarici kapital axını başlamışdır. Lakin buna baxmayaraq, bu sahənin inkişafı XX əsrin əvvəllərinə dayanır. Ulu öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi strategiya hesabına ölkəmizin dinamik inkişafı təmin edilməsi, əhalinin rifahının yaxşılaşması, dünya təsərrüfatına inteqrasiya əlaqələrinin güclənməsi mümkün olmuşdur. 1994-cü ildə 20 sentyabrında Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Əsrin Müqavilə"si günümüzdə də iqtisadiyyatın davamlı inkişafını təmin edir. Azərbaycan Dövlət Neft Şirkəti ilə Dünyanın 12 böyük neft şirkəti arasında imzalanmış müqavilə əsasında Xəzər dənizinin şelf zonasındakı neft-qaz ehtiyatlarının çıxarılmasının və daşınmasının vahid sistemi yaradılmağa, nəqliyyat və kommunikasiya sistemlərindən birgə istifadə olunmağa başlanılmışdır. Bu müqaviləyə əsasən 30 il müddətində "Azəri", "Çıraq", "Günəşli" yatağından 511 mln. ton 55 mlrd. $m^3$ qaz çıxarılması nəzərdə tutulurdu. Neftin 253 mln. tonu, qazın isə hamısının ümumi gəliri 34 mlrd. ABŞ dollarına bərabər idi ki, bu da ölkə büdcəsi üçün böyük vəsait idi. Müqavilə bağlanan şirkətlərə ABŞ-ın "Amoco", Böyük Britaniyanın "British Petroleum", Rusiyanın "Lukoil", Norveçin "Statoil", Türkiyənin "Turkish Petrolium", Səudyyə Ərəbistanının "Delta", Yaponiyanın "İtochu Co" daxil idi. İmzalanmış sazişlər

sayəsində Azərbaycan nefti Qara və Aralıq dənizləri sahilinə çıxır və dünya ölkələrinə çatdırılırması nəzərdə tutulurdu. [1]

Növbəti müqavilə 1995-ci ildə "Qarabağ" yatağının işlənməsi üçün ABŞ, Rusiya və İtaliyanın şirkətləri ilə imzalandı. Üçüncü müqavilə isə 1996-cı ildə "Şahdəniz" yatağının istismarı ilə bağlı beş xarici şirkətlə imzalandı. Bu şirkətlər Böyük Britaniya, Türkiyə, Rusiya, Fransa və Norveçə məxsus idi. Qeyd etmək lazımdır ki, təkçə bu üç müqavilə üzrə göstərilən yataqlardan 760 mln. ton neft hasil ediləcəkdir ki, bu da 135 mlrd. ABŞ dolları həcmində hesablanmışdır. [2]

Bu müqavilələrin imzalanması ölkəmizdə boru kəməri nəqliyyatının inkişafını sürətləndirdi. Hazırda neft sənayesi hesabına boru kəmərləri Respublikanın beynəlxalq iqtisadi əlaqələrində mühüm rol almaqdadır. Şimala və Qərb istiqamətində uzanan kəmərlər iqtisadiyyatımızı xarici dövlətlərlə əlaqələndirir. Bakı-Supsa neft boru kəməri diametri 530 mm, uzunluğu 837 km olmaqla Səngəçal terminalından başlayaraq Gürcüstanın Qara dəniz sahilindəki Poti şəhərindəki Supsa terminalına qədər uzanır. 2015-ci ildə bu kəmər vasitəsilə 4,2 mln. ton neft daşınmışdır. Uzunluğuna görə ikinci yerdə duran Bakı-Novorassiysk neft-boru kəməri də Səngəçal terminalından rusiyanın Novorassiysk limanınadək 1330 km məsafədə uzanır. Bu kəmər vasitəsi ilə 2015-ci ildə 1,2 mln. ton neft daşınmışdır. Bu boru kəmərləri ilə neft daşınması Bakı-Tibilisi-Ceyhan kəmərinin reallaşmasını zəruri etdi. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu layihə də reallığa çevrildi. Belə ki, 2005-ci ilin 25 mayda kəmərin Azərbaycan, 12 oktyabrda isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 28 may 2006-cı ildə isə Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması ölkəmiz üçün əhəmiyyət daşıyan hadisəyə çevrildi. Nəhayət ki, 2006cı ilin 13 iyul tarixində türkiyənin Ceyhan terminalında hər üç ölkənin prezidentlərinin iştirakı ilə Bakı-tibilisi-ceyhan kəməri tam istismara verildi. Bu kəmərin uzunluğu 1767 km olmaqla, 1076 km-i Türkiyənin, 443 km-i Azərbaycanın, 248 km-i isə Gürcüstanın payına düşür. 2015-ci ildə bu kəmər vasitəsilə 26,9 mln. ton neft daşınmışdır. Bütün bu layihələr həyata keçirildikdən sonra növbəti TANAP layihəsi təklif edilmişdir. 2012-ci ildə Türkiyə ilə layihənin müqaviləsi imzalanmışdır. Qardaş ölkə Türkiyə və azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın göstəricilərindən biri olan Trans-Anadolu-Təbii Qaz Boru Kəməri layihəsi Cənubi Qafqazı birləşdirən Qaz dəhlizinin ən mühüm hissəsidir.

Bu beynəlxalq kəmərlərin çəkilməsinin və sonrakı istifadəsinin əhəmiyyəti təkcə ölkəmizin investisiya layihələrinə cəlbi deyil, həmçinin ondan ibarətdir ki, Respublika əhalisinin kəmərin keçdiyi regionlarda həyat səviyyəsinin, işlə təminatının, məşğulluğunun artmasına, o cümlədən sonrakı illərdə dünyada daimi gəlir gətirən potensial kimi ölkəmizin siyasi, iqtisadi təhlükəsizliyi üçün qlobal əhəmiyyət kəsb edir. Məhz bu layihə hesabına ayrı-ayrı ölkələrin də neft və qaz məhsullarını daşımağa şərait yaradır. Kemərlərin tam güclə işlədilməsi nəhəng şirkətlərə malik dövlətlərin Azərbaycana olan iqtisadi marağını artıracaq, onarın ölkəmizə maliyyə axınını sürətləndirəcək. TANAP Türkiyənin, Yaxın Şərqin və Avropanın ən uzun qaz kəməri olmaqla Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan qazı ilk olaraq Türkiyəyə, daha sonra Avropaya nəql etmək üçün tikilib. TANAP Türkiyə-Gürcüstan sərhəddində Ərdahan vilayətindən başlayaraq, Türkiyənin 20 vilayətindən keçməklə yunanıstan sərhəddinə çatır. Burada TANAP boru kəməri TAP kəmərinə qoşulur və nəticədə Azərbaycan ilə Avropa İttifaqı arasındakı siyasi-iqtisadi əməkdəşlığın inkişafına tövhə verir. [4]

Respublikamızda neftdən gələn gəlirin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsi, günümüzün prioritet məsələlərindəndir. Neft sənayesi ölkədə digər aparıcı sahələri inkişaf etdirmək üçün bir vasitədir ki, bunun la da iqtisadiyyatının çoxmərkəzli inkişafına nail olmaq mümkündür. Bunu «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın 2014-2018-ci illər təsdiq edilməsi haqqında» fərmanlarında da neftdən əldə olunan gəlirlərdən milli iqtisadiyyatın çoxqütblü inkişafı naminə səmərəli istifadə olunması məsələsinə mühüm yer ayrılmasında görə bilərik. Bu fərmanlar ölkədə sahibkarlığın inkişafını sürətləndirməyə, əmək ehtiyatlarından, təbii resurslardan səmərəli istifadə etməklə yeni iş yerlərinin yaradılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmağa xidmət edir. Neft sənayesi hesabına yaradılan infrastrukturlar yeni iş yerlərinin açılmasına, həmçinin ele neft sahəsində ölkəmizə işləməyə gələn

xarici vətəndaşların gəlirlərinin xərcləməsi hesabına müxtəlif xidmət sahələrinin inkişaf edib, genişlənir.

**Ədəbiyyat**


1. A.Şəkərəliyev, Q.Şəkərəliyev, "Azərbaycan İqtisadiyyati: realıqlar və respektivlər", Bakı: «Turxan» NPB, 2016. -536 s.
2. C.Abbasov, "Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası", Bakı: 2005, -156 s.
3. https://minenergy.gov.az/az/
4.https://www.tanap.com/en/tanap-project



**SUMMARY**
**THE ROLE OF THE SIGNING OF THE "CONTRACT OF THE CENTURY" IN THE DEVELOPMENT OF THE AZERBAIJANI ECONOMY**
***Ahmadova N.M.***

***Key words:*** *economics, integration, economic policy, oil and gas production, project*

In order of solve the main difficulties that our country faced after entering the years of independence, it was necessary to increase the production of oil and gas resources, which have potential reserves. It was considered important to attract foreign companies to invest in the development of the oil sector in conditions of limited financial resources of the country. Therefore, the signing of the "Contract of the Century" became a turning point in the economic development of the country and laid the foundation for the integration of the Azerbaijani economy into the world economy.



**РЕЗЮМЕ**
**РОЛЬ ПОДПИСАНИЯ «КОНТРАКТА ВЕКА» В РАЗВИТИИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА**
***Ахмедова Н.М.***

***Ключевые слова:*** *экономика, интеграция, экономическая политика, добычя нефти и газа, проект*

В целях решения основных трудностей, с котороми столкнулась наша страна после ступления в годы независимости, необходимо было увеличеть добычу нефтегозовых ресурсов, обладающих большими потенциальными запасами. Считалось важным превлечение иностранных компмний к инвестициям для развития нефтянова сектора в условиях ограниченности финансовых ресурсов страны.Поэтому подписание " Соглошения Века" стало поворотным моментом в економическом развии страны и заложило основу для интеграции экономики Азербайджана в мировою экономику.


# "ƏSRİN MÜQAVİLƏSİ ÇƏRÇİVƏSİ"NDƏ AZƏRBAYCAN NEFT SƏNAYESİNİN UĞURLARI (2003-2008-Cİ İLLƏR)


**[1]Səmədov Yaqub**
**[2]Quliyev Ədalət**
*[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı, Ağcabədi, Azərbaycan, t.f.d., dosent*
*[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, baş müəllim*
*yaqub.semedov63@ mail.ru ; quliyevedalet62@gmail.com*



***Açar sözlər:*** *Neft sənayesi, Əsrin müqaviləsi, neft yatağı, qazma-kəşfiyyat, hasilat, emal*



***Xülasə.*** *Məqalədə ilk növbədə, 2003-2008-ci illərdə "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycan neft sənayesinin vəziyyətinə toxunulmuş və konkret faktlarla bu istiqamətdə əldə olunan uğurlar obyektiv şəkildə təhlil edilmişdir. Xüsusilə də, bu yazıda neft sənayesinin qazma, kəşfiyyat qazması, hasilat və emalı sahələrində baş verən müsbət dəyişikliklərə daha geniş yer ayrılmışdır. Məqalədə həmçinin, məqsədyönlü siyasət nəticəsində Azərbaycan neft sənayesinə cəlb edilən xarici investiyaların bu mühüm sahənin inkişafındakı rolu da elmi baxımdan, əhəmiyyətli şəkildə dəyərləndirilmişdir.*

1994-cü il sentyabr ayının 20-də Ümumilli Lider Heydər Əliyev tərəfindən reallaşdırılan və Azərbaycan neft sənayesinin inkişafında mühüm amilə çevrilən "Əsrin müqaviləsi" (bu müqavilə təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır) onun layiqli davamşısı olan Prezident İlham Əliyevin dövründə özünün yeni mühüm inkişaf mərhələsinə qədəm qoydu. Xüsusilə də, "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" və "Günəşli" də hasilatı daha da yüksəltmək üçün ilk növbədə bu neft yataqlarında qazma- kəşfiyyat işləri daha da genişləndirildi. Bu istiqamətdə həyata keçirilən nəhəng quruculuq işləri tezliklə öz bəhrəsini verdi. Məsələn, 2004-cü ilin əvvəllərində "Çıraq" neft yatağında istismara cəlb edilən quyuların sayı artırılaraq 18-ə çatdırıldı ki, onların 15-i hasilat, 3-ü [1] isə suvurma quyusu kimi nəzərdə tutuldu. "Günəşli" neft yatağında da müxtəlif dövrlərdə qazılan 453 quyuda bərpa- quruculuq işləri həyata keçirildi və onlardan 423-ü [2] işlək vəziyyətə gətirildi.

2004-cü ilin ortalarında qəbul edilən və "Günəşl" neft yatağının daha dərin qatlarının işlənməsi üçün nəzərdə tutan layihə dəyərinin 4,7 milyard ABŞ dolları miqdarında müəyyənləndirlməsi və onun da müəyyən hissəsinin qazma və kəşfiyyat qazmasına sərf olunmasının nəzərdə tutulması [3] həqiqətən də bu sahədəki gələcək uğurlardan xəbər verirdi. Göpründüyü kimi, neft sənayesində həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2007-ci ildən başlayaraq "Azəri-Çıraq- Günəşli" layihəsinin üçüncü fazası çərçivəsində mühüm göstəricilərə imza atıldı.

Həyata keçirilən uğurlu neft siyasəti, xüsusilə də, ARDNŞ-i ilə dünyanın neft şirkətləri arasında bağlanan sayca 24-cü müqavilə (2004-cü ilin ortalarında) [2] də neft sənayesinin qazma-kəşfiyyat sahəsi kimi neft- qaz hasilatı sahəsinin də gələcək inkişafına böyük töhfə verdi. Xüsusilə də, neft -qaz hasilatına qoyulan sərmayələrinin həcminin daha da artırılması, hasilatda əldə olunan yüksək göstəricilər, neft sənayesinin dünya iqtisadi sisteminə inteqrasiyası – bütün bu amillər Azərbaycanın iqtisadi inkişaf sürətinə görə dünyada ən layiqli yerlərdən birinin tutmasına şərait yaratdı. Həmçinin, bu mühüm sənaye sahəsində güclü infrastrukturun formalaşmasına da səbəb oldu. Məsələn, "Azəri" neft yatağında hasilatın sabitliyini təmin etmək üçün Böyük Britaniyanın "Ameq", Türkiyənin "Tekfen" və azərbaycan – Türkiyə birgə müəssisəsi olan "Azfen" şirkəti ilə ARDNŞ arasında ümumu layihə dəyəri 62 milyon ABŞ dollar təşkil edən növbəti müqavilələr imzalandı [4] və bununla yanaşı "Qərbi və Şərqi Azəri" neft yataqlarının daha yüksək formada və kefiyyətlə işlənməsi üçün layihə dəyəri 5,2 milyard ABŞ dolları həcmində olan "Mark Dermot" (ABŞ) şirkəti ilə ilkin razılıq əldə olundu [5]. Bu bağlanan müqavilədə də vəsaitin müəyyən hissəsinin neft-qaz hasilatının artırılmasına sərf ediləcəyi nəzərdə tutulurdu. Bununla yanaşı, "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və "Araz - Alov - Şərq" layihələrinin tərəfdaşı olan Norveçin "Statoyl" şirkəti ilə ARDNŞ arasında da bu istiqamətdə bir sıra mühüm müqavilələr imzalandı.

Bir cəhəti də xüsusi qeyd etmək yerinə düşər ki, 2006-cı ilin avqustunda Prezident İlham Əliyevin təşəbbüsü ilə növbəti ay üçün "12" maddə proqrqmı irəli sürüldü və bu proqramda digər sahələrlə yanaşı dövlətin yeni neft investisiya siyasətinin davam etdirilməsinin vacibliyi bir daha diqqətə çatdırıldı. Döğurdan da, qəbul edilən bu proqram da xarci investisiyaların ölkəyə axınında yeni mühüm mərhələnin əsasını qoydu və nəhəng layihələrin reallaşdırılmasını sürətləndirdi, neft -qaz hasilatı sahəsində davamlı, sabit iqtisadi inkişafın təmin edilməsində müstəsna rol oynadı. Qısa müddət ərzində Xəzərin Azərbaycan sektorunda neft-qaz hasilatı sahəsində həyata keçirilən yeni layihələrə Fransanın "Total" şirkətinin də cəlb olunmasına əlverişli şərait yaratdı. Ümumilikdə, bağlanan bütün müqavilələr üzrə Azərbaycan neft sənayesinə yönəldilən xarici sərmayələrin həcmi 60 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 12 miyard dollardan çoxu neft-qaz hasilatı sahələrinə yönəldilmişdi.

Neft- qaz hasilatı kimi neft emalı sahəsində də bu dövrdə böyük uğurlara imza atıldı. Neft emalında mühüm rol oynayan zavodların fəaliyyətindən bəhs edərkən, ilk növbədə istehsal gücünə görə seçilən H.Əliyev adına Bakı Neft Emalı Zavodunun əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Ölkəmizdə hasil olunan neft məhsullarının 20 növündən 15-i bu müəssisədə istehsal olunurdu. Mühərrik yanacağına olan tələbat ölkə daxilində tam ödənildikdən sonra emal məhsulunun 36%-ə qədəri xaricə ixrac edilirdi.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində 2003-2005-ci illərdə zavodda 1.5 milyon ton mazut təkrarən, digər tərəfdən isə, 318 min ton yüksək oktanlı benzin, 150 min ton dizel yanacağı, 77 min ton maye qa istehsal olundu [6].

Ulu Öndər H.Ə. Əliyevin Bakı Neft Emalı Zavodundakı abidəsinin təntənəli açılış mərasimində Prezident İlham Əliyev həmçinin vurğulamışdır ki, "Əgər 1999-cu ildə bu zavodda avtomobil benzinlərinin həcmi 350 min ton təşkil edirdisə, bu il (2006-cı ilin I yarısı üçün) bu rəqəm 700 min tona çatdırılmışdır. 2005- ci ildən isə avtomobil benzinlərinin istehsalı artıq 900 min ton həddini aşmışdır" [6].

Beləliklə, yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, "Əsrin müqaviləsi" çərcivəsuində ARDNŞ tərəfindən 2003-cü ildə 8 milyon ton neft hasil edilmişdirsə, bu rəqəm 2005-ci ildə 22.5 mln. ton, 2006-cı ildə 32,3 mln. ton, 2007-ci ildə isə 42,6 mln. ton təşkil etmişdir [8]. Buna müvafiq olaraq neft emalı zavodları da məsələn, təkcə 2007- ci ildə 7 milyon 504 min ton neft emal etmişdir ki, bu da 2006- cı illə müqayisədə 0,7 faiz, yəni 534 min ton çox olmuşdur [7]. 2008-ci ildə də tədqiq edilən neft sənayesi sahələrində yüksək göstəricilərə imza atılmışdı.

## Ədəbiyyat


1."Azərbaycan" qəzeti, 11mart 2004-cü il
2."Azərbaycan" qəzeti, 19 noyabr 2004-cü il.
3."Azərbaycan" qəzeti, 12 oktyabr 2004-cü il.
4. "Azərbaycan" qəzeti 21 iyun, 2005-ci il.
5. "Azərbaycan" qəzeti 16 yanvar, 2005-ci il.
6. "Azərbaycan" qəzeti, 04 may 2006-cı il.
7. "Azərbaycan" qəzeti, 02 fevral 2008-ci il.
8. Orucov S. "Əsrin müqaviləsi" haqqında qısa arayış. https//yeniazerbaycan/com/Siyasete8784az/html.22.09.201


**SUMMARY**

**THE SUCCESSES OF THE AZERBAIJANI OIL INDUSTRY WITHIN THE FRAMEWORK OF THE "CONTRACT OF THE CENTURY" (2003-2008)**


***Samedov Y., Guliyev A.***



***Keywords:*** *oil industry, Contract of the century, oil field, drilling-exploration, production, processing*



In the article, first of all, the situation of the Azerbaijani oil industry within the framework of the "Contract of the Century" in 2003-2008 was touched upon and the successes achieved in this direction were objectively analyzed with concrete facts. In particular, in this article, a larger space is devoted to the positive changes occurring in the fields of drilling, exploratory drilling, production and processing of the oil industry. In the article, the role of foreign investments attracted to Azerbaijan's oil industry as a result of purposeful policy in the development of this important field is also significantly evaluated from a scientific point of view.


**РЕЗЮМЕ**

**УСПЕХИ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ В РАМКАХ «КОНТРАКТА ВЕКА» (2003-2008 ГОДЫ)**


***Самедов Я, Гулиев А.***



***Ключевые слова:*** *нефтяная промышленность, Контракт века, нефтяное месторождение, бурение-разведка, добыча, переработка*



В статье, прежде всего, было затронуто положение нефтяной промышленности Азербайджана в рамках «Контракта века» в 2003-2008 годах и объективно проанализированы с конкретными фактами успехи, достигнутые в этом направлении. В частности, в данной статье большее место отведено положительным изменениям, происходящим в сферах бурения, разведочного бурения, добычи и переработки нефти. В статье также значимо оценена с научной точки зрения роль иностранных инвестиций, привлеченных в нефтяную промышленность Азербайджана в результате целенаправленной политики в развитии этой важной отрасли.

# ƏSRİN MÜQAVİLƏSİ VƏ ONUN AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ-SOSİAL İNKİŞAFINA TƏSİRİ

**İsayev Əmirxan İsmayıl oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*
isayev.amirxan@sdu.edu.az

***Açar sözlər:*** *müstəqillik, iqtisadiyyat, yeni neft strategiyası, "Əsrin Müqaviləsi", Xəzərin statusu, "Azəri-Çıraq-Günəşli"*

***Xülasə.*** *Məqalədə ilk öncə yenicə müstəqillik əldə etmiş, dirçəlməyə çalışan Azərbaycanın iqtisadi cəhətdən çətin bir vəziyyətdə olması və bu kimi problemlərin Ulu Öndər Heydər Əliyev tərəfindən məharətlə qarşısının alınması, ən əsası Azərbaycan iqtisadiyyatı üçün yeni bir dönəm başladan yeni neft strategiyasının əsasının qoyulması haqqında məlumat verilir. Heydər Əliyev tərəfindən əsası qoyulan yeni neft strategiyasının özəyini təşkil edən "Əsrin müqaviləsi", bu müqavilənin bağlanmasına qarşı qoyulan maneələr, Xəzər statusu məsələsi, müqavilənin nəticəsi olaraq Çıraq-1 platformasında ilkin neft hasilatınım başlanılması məsələsi mövzunun əsas hissəsini təşkil edir.*

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun qarşısında mühüm vəzifələr dururdu. Yeni dövrün tələblərinə uyğun iqtisadi siyasətin yürüdülməsi bu vəzifələrdən biri idi.

Müstəqilliyimizi bərpa etdikdən, xüsusən də Heydər Əliyev yenidən ölkəyə rəhbərlik etdikdən sonra (1993-cü ildən) Azərbaycanın neft sektorunun dirçəlişinin mühüm dövrü başlandı və biz təbii sərvətlərimizdən milli maraqlarımız, xalqımızın sosial rifahı naminə istifadə edib bəhrələnmək imkanına malik olduq. Beləliklə, 1993-cü ilin iyul ayından Ulu Öndərin yanacaq-energetika kompleksinin inkişafı siyasətinin tərkib hissəsi olan islahatların, tədbirlərin və proqramların əsas mərhələsi başlandı. Müstəqilliyimizin ilk illərində, müəyyən problemlər ortaya çıxdı, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan "açıq qapı" siyasəti həyata keçirdi və bununla da Xəzər dənizinin zəngin neft-qaz yataqlarının ekstensiv işlənməsinə xarici investisiyaların cəlb edilməsinə nail oldu.

Xalqımızın əzmkarlığı və tələbkarlığı nəticəsində hakimiyyətə gələn Heydər Əliyev belə bir dövrdə yaranmış ağır iqtisadi və siyasi böhrandan çıxış yollarının axtarılması ilə bağlı yeni strategiya irəli sürdü. Hansı ki, bu strategiyada iqtisadi-sosial istiqamət kimi neft-qaz sənayesinin yeni inkişaf konsepsiyası xüsusi incəlik və dərinliklə düşünülmüşdü. Bu strategiyanın əsasını uzun illər ərzində ölkəmizin neft sənayesində formalaşmış elmi-texniki və kadr potensialından səmərəli istifadə etməklə yanaşı, müasir beynəlxalq təcrübənin və xarici neft şirkətlərinin maliyyə resurslarının cəlb edilməsi və bunun sayəsində , yeni yataqların kəşfi və hasil edilən neft və qazın dünya bazalarına nəqlinin inkişafı təşkil edirdi. Dövlətimizin iqtisadi-sosial əsaslarının möhkəmlənməsində ölkənin təbii sərvətlərindən səmərəli formada istifadəsi vacib rola malikdir.

Aparılan siyasət mövcud infrastrukturun müasirləşdirilməsini, yeni konseptual məsələlərin həllini, yeni obyektlərin və qurğuların tikintisini tələb edən bu strateji planın həyata keçirilməsi Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün zəmin yaradır. Həmçinin ölkəmizin məhşur neft diyarı kimi tanınması, siyasi tərəfdən isə Cənubi Qafqazdan müstəqil Azərbaycan Respublikasının həlledici rolunu nümayiş etdirməkdən və bununla da, dövlətimizi dünyanın aparıcı dövlətlərinin maraq dairəsinə cəlb etməkdən ibarət idi.

"Əsrin müqaviləsi" təkcə iqtisadi səmərəsinə görə deyil, həm də coğrafi və tarixi məzmununa görə Azərbaycan üçün son dərəcə əhəmiyyətlidir. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq",yataqlarının və "Günəşli"yatağının dərinlikdə yerləşən hissəsinin birgə kəşfiyyatı,işlənməsi və hasilatın bölgüsü üzrə dünyanın tanınmış neft şirkətlərinin birləşdiyi konsorsiumla (Böyük Britaniyanın bp, "Ramko", Norveçin "Statoyl", Rusiyanın "LUKoyl", ABŞ-ın "Amoko", "Yunokal", "Pennzoyl",Türkiyənin "Türk Petrolları",Səudiyyə Ərəbistanın "Delta") imzalanmış tarixi saziş, Heydər Əliyevin bu ideyanı həyata keçirmək üçün

göstərdiyi prinsiplər və qətiyyət sayəsində ölkəmizi dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevirdi.

Ölkəmiz bu tarixi sazişə əsaslanaraq ona nikbin mövqedən baxır. Birincisi, ən mühüm məqam ondan ibarətdir ki, Azərbaycanın yeni neft strategiyası real siyasi şəraiti nəzərə alan mükəmməl konsepsiya əsasında həyata keçirilir.

İkincisi, qalan iştirakçı dövlətlər də Xəzər dənizində neft və qaz yataqlarının işlənilməsi ilə bağlı layihələrin həyata keçirilməsində Azərbaycan qədər maraqlıdırlar. Təbii ki, bu ölkələrin hər birinin şəxsi iqtisadi maraqları birləşir, lakin bu ölkələrin siyasi gözləntiləri də var.

Üçüncüsü, Ulu Öndərin layihələrin həyata keçirilməsində qətiyyətli mövqe nümayiş etdirməsi, ortaya çıxan problemləri qətiyyətlə həll etməsi ilə öz sözünü demişdir. Çünki bu, Ulu Öndərimizin müəyyən etdiyi siyasi strategiyanın tərkib hissəsidir. Həmçinin ayrı-ayrı dövlətlərin, beynəlxalq şirkətlərin nümayəndələri dəfələrlə bəyan ediblər ki, əgər Heydər Əliyev hər hansı məsələyə xeyir-dua verirsə, o zaman bu məsələnin perspektivinə şübhə etməyə əsas yoxdur.

Çıxarılan neft ehtiyyatları əvvəlcə 511 milyon ton hesablanmış, quyuların qiymətləndirilməsinin nəticələrinə əsasən bu ehtiyyatlar 730 milyon tona çatdırılmış və bu halda yatağın işlənməsi üçün tələb olunan investisiya dəyəri 11,5 milyard ABŞ dolları nəzərdə tutulmuşdur. 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində “Çıraq 1” özülü Qərb standartlarına uyğun təmir edilmiş və bu nüvənin yuxarı modulu iri maili quyuların qazılması məqsədilə modernləşdirilmiş və yeni qazma avadanlığı ilə təchiz edilmişdir. “Əsrin müqaviləsi”nin ölkə iqtisadiyyatı üçün yaratdığı imkanlar aşağıdakılardır:

1. Neft hasilatının daim artırılması və ölkənin Cənubi Qafqaz iqtisadiyyatında lider mövqeyi;
2. Kəşfiyyat və qazma işlərinin həcminin kəskin artması;
3. Respublikanın dövlət büdcəsinə xarici valyutanın daxil olmasını təmin etmək;
4. Magistral neft və qaz kəmərlərinin tikintisinin geniş miqyasda həyata keçirilməsi.

1994-cü ilin sentyabrında dünyanın ən nüfuzlu şirkətləri ilə imzalanmış və “Əsrin müqaviləsi” kimi tanınan tarixi əhəmiyyətli müqavilələr Azərbaycanda “Azəri”, “Çıraqlı” və “Günəşli” neft yataqlarının işlənilməsi istiqamətində mühüm və həlledici ilk addım oldu. Ona görə də Azərbaycanla birlikdə Rusiya, İngiltərə, ABŞ və digər ölkələrin neft şirkətləri də Xəzər dənizinin neft və qaz ehtiyatlarının işlənməsində iştirak etmək imkanı əldə edirlər. Müqavilənin dəyəri 7,4 milyard dollar təşkil edir və "mənfəət bölgüsü" tiplidir. Sonrakı illərdə bu neft sazişlərini imzalayıb müqaviləyə qoşulan şirkətlərin sayı artdı və bu, neft sənayesi infrastrukturunun yenidən qurulmasına, nəqliyyat və xidmət sahələrinin inkişafına, peşəkar milli kadrların hazırlanmasına, minlərlə mütəxəssisin yaradılmasına geniş imkanlar yaratdı. Bu müqavilə 1994-cü il dekabrın 12-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir. Azərbaycanın yeni neft strategiyasını müəyyən edən bu saziş onun iqtisadi maraqlarını 21-ci əsrin reallıqları ilə uzlaşdırır. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycanın neftə olan tələbatı dildə ödənilərsə, xarici şirkətlər öz neftinin 10 faizini respublikaya sata bilərlər.

Modernləşdirilmiş qazma maşınlarının köməyi ilə “Azəri-Çıraq-Günəşli” yatağında əməkdaşlıq nəticəsində 6 kəşfiyyat quyusu qazılmış, onların yataqlarında neft ehtiyatları 30 faizdən çox artmışdır. Qurğu 1996-cı ildə yaradılmış “Caspian Drilling Company” birgə müəssisəsinin tərkibində “Şahdəniz” və “Azəri-Çıraq-Günəşli” yataqlarında öz işini uğurla davam etdirir. Xarici şirkətlər tərəfindən Azərbaycan üçün tikilən və Heydər Əliyevin adını daşıyan “Lider” obyektinin köməyi ilə texnologiya sahəsində böyük irəliləyiş əldə olundu. Dünyanın aparıcı neft şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi bu şirkətlərin yerləşdiyi ölkələrlə siyasi və mədəni əməkdaşlığın genişləndirilməsinə imkan yaradır.

“Əsrin müqaviləsi” üzrə Çıraq-1 platformasında 1997-ci 12 noyabr tarixində ilkin neftin hasilatının başlanması münasibəti ilə təntənəli şəkildə mərasim keçirildi.

“Çıraq” yatağından bügünə kimi böyük həcmdə neft və qaz hasil olunmuşdur ki, bu da hasilatın uğurlu şəkildə həyata keçməsini əks etdirir. Azərbaycanın ümumi neft hasilatının vəziyyəti dəyişdi, neft hasilatının səviyyəsi 1993-cü ildən 2003-cü ilə qədər olan dövr ərzində 10 milyon

tondan 15 milyon tona kimi yüksəlmişdir. "İlkin neft" layihəsi çərçivəsində "Azəri-Çıraq –Günəşli" yataqlarında mühüm işlər görülmüşdür. Bunun nəticəsidir ki, ilkin neft və qazın sahilə nəqli üçün sualtı boru kəmərləri çəkilmiş, və davamı olaraq, Səngəçalda yeni müasir terminal kompleksi inşa edilmişdir.

Prezident sarayında ümumilli liderimiz Heydər Əliyevin iştirakı ilə 2001-ci il 30 avqust tarixində "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsinin I mərhələsinin qətnaməsinin imzalanması mərasimi keçirildi. Qazma və yaşayış platformasının tikintisi, quraşdırılması, ona birləşdiriləcək olan qaz-kompressor və suvurma platformasının tikintisi, quraşdırılması, Səngəçal terminalının genişləndirilməsi, dənizdəki platformadan Səngəlçaladək neft boru kəmərinin çəkilməsi "Faza-1" müqaviləsinin əsas hissəsini əhatə edir.

Ölkəmizin təkcə regionun deyil, dünyanın ən böyük neft və qaz ixrac edən ölkəsinə çevrilməsi neft və qaz ixracının sürətlə artmasının nəticəsi idi. Həyata keçirilən siyasət nəticəsində 2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri istifadəyə verilib.

Azərbaycan qazının Türkiyə üzərindən Yunanıstana və digər Avropa ölkələrinə nəqlinə, Gürcüstan və Türkiyənin təbii qaza olan tələbatını ödəməyə imkan verən Bakı-Tbilisi-Ərzurum qaz kəməri 2007-ci ildə istifadəyə verilib. Dünyanın ən böyük və mühüm neft müqavilələrindən biri olan bu qaz kəməri hasil olunacaq karbohidrogen ehtiyatlarına və investisiyaların həcminə, öz tarixi əhəmiyyətinə görə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən heç də geri qalmır. Sözügedən qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qaz hasilatı nəticəsində bu gün ölkəmiz təkcə neft ixracatçısına deyil, həm də qaz ixracatçısına çevrilib.

Azərərbaycan üçün böyük tarixi əhəmiyyəti ilə seçilən "Əsrin müqaviləsi" ölkəmizdə aparılan düzgün neft strategiyasının bəhrəsi olaraq tanındı eləcə də beynəlxalq aləmdə də nə qədər önəmli rola sahib olduğunu sübut etdi. Həyata keçirilən bu uğurlu neft strategiyasının nətisi olaraq növbəti illərdə əlavə müqavilələr də imzalandı. Ardıcıl olaraq yerinə yetirilən, dünyanın böyük neft şirkətlərinə sahiblik edən 14 ölkəsi ilə 25 müqavilə bağlandı. Dövlət başçısı xüsusi olaraq qeyd etmişdir ki, artıq öz müsbət nəticələrini vermiş Azərbaycan dövlətinin neft strategiyası Azərbaycanı bütün dünya qarşısında müstəqil, azad inkişaf edən dövlət kimi tanıyıb.

## Ədəbiyyat


1. Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan –XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı,2019, "Elm və Təhsil nəşriyyatı,499 səh
2. Ələsgərov B.İ.,Y.A " Əsrin müqaviləsi" çərçivəsində Azərbaycanda neft məsullarının daşınması istiqamətində əldə olunan uğurlar (1994-2008-ci illər)
3. Əliyev V.H Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişində Azərbaycan tarix və mədəniyyət abidələrinin öyrənilməsi
4. Hacızadə E.M., Paşayev T.Ə. "Neft-qaz" sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri". Bakı 2000.

6. Arif Şəkərəliyev, "Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi", Bakı 2011

7. Rafael Cəbrayılov, " Əsrin müqaviləsi"- Yüksəliş yolunun uğurlu təməli", Azərbaycan, 2009, 24 sentyabr



**SUMMARU**

**THE CONTRACT OF THE CENTURY AND ITS IMPACT ON THE ECONOMIC AND SOCIAL DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN**

***Isayev A.I.***

***Keywords:*** *independence, economy, new oil strategy, Contract of the Century, Caspian status, "Azeri-Chirag-Gunashli"*

First of all, the article provides information on the fact that Azerbaijan, which has just gained independence and is trying to recover, is in a difficult economic situation, and such problems were skillfully prevented by Great Leader Heydar Aliyev, and most importantly, the foundation of a new oil strategy that started a new era for the economy of Azerbaijan is given. The main part of the topic is the "Contract of the Century", which is the core of the new oil strategy founded by Heydar Aliyev, the obstacles to the conclusion of this contract, the issue of the status of the Caspian Sea, and the start of initial oil production on the Chirag-1 platform as a result of the contract.

**РЕЗЮМЕ**
**«КОНТРАКТ ВЕКА» И ЕГО ВЛИЯНИЕ НА ЭКОНОМИЧЕСКОЕ И СОЦИАЛЬНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
***Исаев А.И.***

***Ключевые слова:*** *независимость, экономика, новая нефтяная стратегия, Контракт века, статус Каспия, «Азери-Чираг-Гюнешли»*

Прежде всего, в статье представлена информация о том, что Азербайджан, только что обретший независимость и пытающийся восстановиться, находится в тяжелом экономическом положении, и подобные проблемы были умело предотвращены Великим Лидером Гейдаром Алиевым, а главное, фондом новой нефтяной стратегии, положившей начало новой эре в экономике Азербайджана. Основная часть темы – «Контракт века», являющийся стержнем новой нефтяной стратегии, заложенной Гейдаром Алиевым, препятствия на пути к заключению этого контракта, вопрос о статусе Каспийского моря, начало начальной добычи нефти на платформе «Чираг-1» в результате контракта.

# “ƏSRİN MÜQAVİLƏSİ”NİN SUMQAYIT KİMYA SƏNAYESİNƏ TƏSİRİ

**Səmədov Fərman Famil oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
Sarvan.74@mail.ru

***Açar sözlər:*** *Heydər Əliyev, Əsrin müqaviləsi, kimya sənayesi, Sumqayıt, müstəqillik dövrü*

***Xülasə.*** *Məqalədə Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində XX əsrin 90-cı illərinin əvvəllərində baş vermiş iqtisadi böhran və onun nəticələri, Heydər əliyevin siyasi hakimiyyətə qayıdışından sonra "əsrin müqaviləsi" nin imzalanması yer alıb. "Əsrin müqaviləsi" nin imzalanmasının Sumqayıtın xarici investisiyalarının və kimya sənayesinin artmasına təsiri araşdırılıb*

Uzun müddət Azərbaycanı müstəmləkədə saxlayan Sovet rejiminin XX əsrin 90-cı illərinin əvvəllərində dağılması və Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra iqtisadi böhran baş vermişdir. Ona görə də Azərbaycan Respublikasının iqtisadiyyatının əsas istiqamətlərindən birini təşkil edən kimya sənayesi də ciddi şəkildə böhrana məruz qalmışdır. Bunun əsas səbəblərindən biri sovet rejiminin hakimiyyəti dövründə keçmi ittifaqa daxil olan respublikaların iqtisadi cəhətdən məqsədli şəkildə bir-biri ilə bağlanması idi. Məqsəd ondan ibarət olmuşdur ki, nə zamansa müstəqillik əldə etməyə cəhd edilərsə müttəfiq respublikaların iqtisadiyyatı çöksün və müstəqilliyinin qoruyub saxlaya bilməsin. Azərbaycanda kimya sənayesi bir sıra problemlərinə baxmayaraq xeyli dərəcədə inkişaf etmişdir. Ancaq xammal və satış bazarları cəhətdən digər respubliklardan asılılıq var idi. Müstəqillik əldə edildikdən sonra həmni rüspublikalarla əlaqələr kəsilmişdir ki, bu da Sumqayıt kimya sənayesində böhranın yaranmasına səbəb olmuşdur. XX əsrin 90-cı illərinin ilk illərində Sumqayıt kimya sənayesində baş vermiş böhranın aradan qaldırılması istiqamətində cəhdlər göstərilsədə buna nail olmaq mümkün olmamışdır. Çünki eyni tipli böhran keçmiş ittifaqın digər respublikalarda da yaradılmışdır. Digər tərəfdən isə müstəqlliyi yenicə əldə etmiş Azərbaycanda ciddi maliyyə böhranı yaşandığı üçün kimya sənayesinin dirçəldilməsi üçün kapital qoyuluşu mümkün deyildi. Bubunla yanaşı kimya sənayesində köhnə texnologiyanın istehsalı olan kimya məhsulları keyfiyyət baxımından xarici bazarlarda rəqabətə tab gətirə bilmirdi.

Lakin Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda və eləcə də Sumqayıt kimya sənayesində baş vermiş iqtisadi böhranın aradan qaldırılması istiqamətində mühüm qərarlar qəbul edilməyə başladı. Heydər Əliyev Sumqayıt kimya sənayesində baş vermiş böhranın aradan qaldırılması üçün keçmiş təcrübəsindən və əlaqələrindən istifadə edərək təkcə keçmiş İttifaq Respublikaları ilə deyil, eyni zamanda dünyanın inkişaf etmiş kimya sənayesinə malik olan xarici dövlətləri ilə əlaqələr qurmağa və onların diqqətini Sumqayıt kimya sənayesinə yönəltməyə nail ola bildi. “Əsrin müqavilə”sinin imzalanmasından sonra neftdən gələn

gəlirlə həm Azərbaycanın özünün maliyyə imkanları tədricən artmağa başladı, həm də xarici investitsiyaların cəlb edilməsi üçün münbit şərait yarandı. Bununla yanaşı Azərbaycan Sumqayıt kimya sənayesində vaxtı keçmiş və köhnəlmiş texnologiyadan imtina edərək yeni texnologiyanın tətbiq edilməsi üçün geniş imkanlar əldə etdi. "Əsrin müqaviləˮsinin imzalanmasından sonra kimya sənayesi ilə bağlı dünyanın nəhəng şirkətləri Sumqayıt kimya sənayesinə həvəslə kapital qoymağa başladı. Mövcud böhranın aradan qaldırılması məqsədilə "Azərkimyaˮ dövlət şirkəti çox çətin və mürəkkəb bir dövrdə yaradılmışdır. Müasir dünyanın ən qüdrətli ölkələrinin iqtisadiyyatının inkişaf istiqamətlərinə nəzər salsaq görərik ki, özünəməxsus bir sıra üstünlüklərə, ən başlıcası tükənməz imkan və ehtiyat mənbələrinə görə kimya sənayesi başqa sənaye sahələrindən əhəmiyyətinə görə kəskin şəkildə fərqlənir. Çünki xalq təsərrüfatının aparıcı qüvvəsi hesab olunan kimya sənayesi eyni bir adda təbii xammaldan yüzlərlə növ müxtəlif məhsullar almaq imkanına malikdir. Respublikamızın təbii imkanları nəzərə alınmaqla 50-ci illərdən çox sürətlə inkişaf etməyə başlayan 250 adda məhsul istehsal etməyə imkan verən 1,2 milyard ABŞ dolları həcmində əsaslı fonda malik olan kimya kompleksinin çox geniş potensiala malik olduğunu nəzərə almalı onu müasir texnoloji tələblər baxımından dünya standartları səviyyəsinə çatdırılması istiqamətində çox ciddi tədbirlərin həyata keçirilməsiinə ehtiyac vardır.

XX əsrin ortalarında yaranan Sumqayıt qısa bir müddət ərzində nəhəng sənaye mərkəzinə çevrilib. Bu müddət ərzində Sumqayıtda onlarla kimya istehsalatı istifadəyə verilib. "Azərikimyaˮ Dövlət şirkətinin yaradılması, kimya kompleksinin vahid bir təşkilata tabe etdirilməsi iqtisadi baxımdan özünü doğrultmuşdur. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın kimiya sənayesinin gələcəyi naminə prespektivli, məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri və xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr kimya və neft-kimya müssisələrinin aydın strukturunun müəyyənləşdirilməsinə onun xammal bazası əsasında inkişaf etdirilməsinə geniş imkan vermişdir.

1996-cı ilin iyun ayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Sumqayıta səfəri zamanı çıxış edərək qeyd etmişdir ki, *...iki ildən bəri işlənib hazırlanan və artıq başa çatan sənəd Sumqayıt şəhəri sənaye komleksinin inkişaf etdirilməsi, bu şəhərin azad iqtisadi zonaya cevrilməsi proqramı müzakirə ediləcək və bu münasibətlə lazımi sənədlərin, hazırlanmış kitabın təqdimatı olacaqdır. Bu proqrqmları hazırlamaq üçün bizə yaxından kömək edən, bizə dəstək verən, bizimlə bərabər işləyən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rəhbəri Cənab Spet və onunla bərabər BMT-nin nümayəndə heyəti buraya gəlibdir.*

*Demək istəyirəm ki bu gün Sumqayıtın həyatında yeni bir mərhələ açılır. Bu gün biz bu proqramı burada müzakirə edəcəyik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu proqram uğurlu olacaqdır. Sumqayıtın həyatında açılan yeni mərhələ bu şəhəri böyük gələcəyə apracaqdır. Sumqayıt günü-gündən inkişaf edəcək, gözəlləşəcək, yüksələcəkdir. Bunlar hamısı birinci növbədə insanlar üçün, Azərbaycan xalqı, vətəndaşları üçündür, əziz bacılar və qardaşlar, əziz Sumqayıtlılar, sizin üçündür. Biz də sizin üçün calışırıq. Bu proqram da sizin döğma proqramınızdır. Biz bunları müzakirə edəcəyik və mən bu münasibətlə buraya gəlmişəmˮ.* [1,s.2]

2002-ci ilin 10 ayı ərzində faktiki qiymətlərlə 44300 milyon manatlıq əvəzinə 45242 milyon manatlıq əmtəəlik məhsul istehsal olunmuş, tapşırıq təmin edilmişdir. Istehsal ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,8 faiz artmışdır. İlin əvvəlindən 18970 ton maye kaustik soda, 3771 ton quru kaustik soda, 6599 ton maye xlor, 10205 ton dixloretan istehsalına nail olunmuşdur. Dixloretana tələbatın çoxaldığından istehsalın həcmi 2,2 dəfə artmışdır. İlin 10 ayı ərzində alıcılara 36 milyard 481 milyon manatlıq məhsul göndərilmişdir. Bu məhsulun 60,3 faizi və yaxud 20,2 milyard manatlığı respublika müəssisələrinə göndərilmişdir. 16,1 faizi MDB ölkələrinin, qalan 23,6 faizi isə uzaq xarici ölkələrin payına düşür.

*Bu ilin 9 ayı ərzində faktiki buraxılışa görə məhsulun maya dəyəri 38798 milyon manat nəzərdə tutulduğu halda faktiki olaraq 749 milyon manat ucuzlaşaraq 38049 miyon manata endirilmişdir. Maya dəyərin xərc elementlərinə görə təhlilindən görünür ki, əsas xammal və köməkçi materiallar üzrə 171 milyon manat, enerji daşıyıcıları üzrə isə 151 milyon manat qənaət*

*əldə edilmişdir. Əmtəəlik məhsulun buraxılışında planlaşdırılmış 2406 milyon manat əvəzinə 3155 milyon manat mənfəət əldə olunmuşdur[3,s.2]*

1993-2003-cü illərdə Sumqayıt kimya sənayesi Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin nəticəsi olaraq böhran həddindən çıxarılmış və mühüm inkişaf səviyyəsinə qədəm qoymuşdur. Bu dövr ərzində xarici ölkələrlə qarşılıqlı əlaqələr qurulmuş, kimya sənayesi sahəsində təcrübəsi olan və inkişaf etmiş ölkələrdən investisiya cəlb edilmiş və bunların nəticəsi olaraq Sumqayıtda kimya sənayesinin bir sıra yeni və müasir sahələri işə salınmış, yeni texnologiyanın tətbiqinə başlanılmışdır ki, bu da kimya sənayesinin inkişafına müsbət təsir göstərmişdir.

Azərbaycan Republikasının iqtisadiyyatında kimya kompleksi güclü potensiala malik bir emal sahəsi kimi mühüm əhəmiyyət kəsb edir. Hazırda bu kompeksin əsas potensialı ölkənin sənaye mərkəzi olan Sumqayıtda cəmlənmişdir. Bu baxımdan Sumqayıt sənaye komleksinin mövcud potensialında kimya kompleksinin imkanlarını elmi-texniki əsaslandırmaqla ciddi şəkildə qiymətləndirilməsi və bu potensialın əsasında sahənin mövcud imkanlarından səmərəli istifadə edilməsi məsələləri diqqəti cəlb edir[2,s.141]

Aparılımış tədqiqatların nəticəsi olaraq belə bir qənaətə gəlmək olar ki, müasir dövrdə Azərbaycanda qeyri neft sektorunun inkişaf etdirilməsində sənayenin ən mühümm sahəsini təşkil edən kimya sənayesi son dərəcə mühüm rol oynayır. Kimya sənayesinin inkişaf etdirlməsində həm ölkə daxilində bu tipli məhsullara olan təlabatın ödənilməsi, həm də istehsal olunmuş məhsulların xaricə ixrac olunması ilə ölkəmizə valyuta axınını təmin etməklə iqtisadiyyatın inkişaf etdirilməsinə nail ola bilərik. Digər tərəfdən isə yeni iş yerlərinin açılması ilə ən mühüm problemlərdən biri olan işsizlik probleminin aradan qaldırılması istiqamətində səmərəli addımların atılmasına, əhalinin maddi rifah halının yüksəldilməsinə gətirib çıxarardı.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" Sumqayıt şəhəri üzrə yerinə yetirilməsi ilə bağlı şəhər icra hakimiyyətinin başçısının sərancamı ilə yaradılmış komissiyanın hesabatı. Sumqayıt. 2006, 18 yanvar. –s.1.
2. Əliyev, Ş.T. Azərbaycanda sənaye sahələrinin gücləndirilməsi məsələləri // –Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələr. –2009. №6, –s.144 (s.139-149)
3. Quluyev, S. "Üzvi sintez" zavodunda yeniləşmə prosesi davam edir // Sumqayıt. –2007, 30 iyun. –s.3.



**SUMMARY**

**THE IMPACT OF THE CONTRACT OF THE CENTURY ON THE CHEMICAL INDUSTRY OF SUMGAYIT**

***Samadov F.F.***

***Key words:*** Heydar Aliyev, the contract of the century, chemical industry, Sumgait, period of independence

In the article, the economic crisis that occurred in the first years of the independence of the Republic of Azerbaijan in the early 90s of the 20th century and its consequences, the signing of the "Contract of the Century" after Heydar Aliyev's return to political power, the impact of the signing of the "Contract of the Century" on the increase of foreign investments and the Sumgait chemical industry has been investigated.



**РЕЗЮМЕ**

**ВЛИЯНИЕ КОНТРАКТА ВЕКА НА ХИМИЧЕСКУЮ ПРОМЫШЛЕННОСТЬ СУМГАИТА**

***Самедов Ф.Ф.***

***Ключевые слова:*** *Гейдар Алиев, Контракт века, химическая промышленность, Сумгаит, период независимости*

В статье экономический кризис, произошедший в первые годы независимости Азербайджанской Республики в начале 90-х годов XX века и его последствия, подписание «Контракта века» после возвращения Гейдара Алиева к политической власти. Исследовано влияние подписания «Контракта века» на увеличение иностранных инвестиций и химической промышленности Сумгаита.

# “ƏSRİN MÜQAVİLƏSİ”. AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI

**Hüseynova Nuranə Əhliman qızı**
*Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan*
nuranehuseynova143@gmail.com

***Açar sözlər***: *neft, sənaye, sərvət, istehsal, inkişaf*

***Xülasə.*** *Azərbaycan Neft sənayesi 150 il ərzində böyük inkişaf yolu keçmişdir. Orta əsrlərin bütün dövrü ərzində Bakı nefti təkcə səyyahları deyil, bir çox Avropa dövlətlərinin diqqətini və maraqlarını cəlb edirdi. Neft sənayesinin bütün inkişaf yolunu hər birinə xas olan nailiyyətlərlə bir neçə mərhələyə bölmək olar. Neft sənayesinin inkişafının ən mühüm, şərəfli yolu ümummilli liderimiz Heydər əliyevin adı ilə bağlıdır. "Neft milli sərvətdir"! Bu şüar altında ümummilli liderimizin neft sənayesinin bərpasına və intensiv inkişafına yönəlmiş çıxışı olmuşdur. Neft strategiyası işlənib hazırlanmış və həyata keçirilmiş və 20 sentyabr 1994-cü ildə bütün dünyada "əsrin müqaviləsi"kimi tanınan müqavilə bağlanmışdır*

Tarixi olduqca qədim olan Azərbaycan nefti XX əsrin hər iki dünya müharibəsində də strateji rol oynadı. Belə ki, Qafqaz neft sahələrinin mühafizəsi müttəfiqlərin ən vacib vəzifələri oldu. Sovetlər Birliyi zamanında isə Azərbaycan, öz sərvətlərindən məhrum qalacaq şəkildə, Birliyin neft ehtiyacının böyük bir hissəsini öz üzərinə götürmüşdü.

SSRİ-nin dağılmasından sonra demək olar ki, bütün dünyanın diqqəti, başda Azərbaycan olmaqla, müstəqillik qazanan Türk Cümhuriyyətlərinə yönəlmişdi. Ancaq zəngin neft və təbii qaz yataqlarına sahip olan Türk Cümhuriyyətləri, həmin ehtiyatları emal etmək üçün maddi və texniki imkanlara malik deyildilər.

1993-cü ilin ortalarında Xəzər dənizinin Azərbaycan sektorunda yer alan yataqların ortaq istifadəsi üçün xarici şirkətlərlə görüşlər keçirilərkən, sadəcə Azərbaycan deyil, eyni zamanda Qazaxıstan və Türkmənistan neftinin də Bakı vasitəsilə Türkiyə ərazisinə çıxarılması gündəmdə idi.1993-cü ilin martında SOCAR ilə Türkiyə Neft Şirkəti (TPAO) arasında neftin dünya bazarına çıxarılması haqqında razlaşma əldə olundu. 4 fevral 1994-cü ildə Azəri, Çıraq, Günəşli yataqlarının istismarı ilə bağlı danışıqlar yenidən başladı. Təxminən 3 il davam edən danışıqlar nəticəsində, Müqavilə dünyanın 8 ölkəsindən ( Azərbaycan, ABŞ, İngiltərə, Norveç, Türkiyə, Rusiya, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 beynəlxalq neft şirkəti ilə imzalandı. [5, 42]. Bununla da “Yeni neft strategiyas” və doktrinasının uğurlu şəkildə həyata keçirilməsi mərhələsi başlamışdır.

İlk hesablamalara görə çıxarılacaq neft ehtiyatı 511 milyon ton olmuş, sonrakı hesablamaların nəticəsində isə bu ehtiyatlar 730 milyon tona çıxarılmışdır. Müqaviləyə görə, ümumi gəlirlərin 80% - i Azərbaycanın, 20% - i isə investisiya şirkətlərinindir. Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra öz xarici iqtisadi siyasətini gücləndirməklə birlikdə eyni zamanda beynəlxalq maliyyə krediti dəstəyi almış və iqtisadi təşkilatlarla əməkdaşlıq edərək, əlaqələri gücləndirməyə başlamışdı. Bu gün Azərbaycan Respublikası dünya iqtisadiyyatının inkişafında önəmli rol oynayan 33 beynəlxalq təşkilatın üzvüdür. Azərbaycan iqtisadiyyatının inkişafında dünyanın aparıcı bankı olan “Dünya Bankı”nın da töhfəsi böyük olmuşdur. Belə ki, Dünya bankı Azərbaycana 51 layihə üçün 3,6 milyard dollar kredit ayırmışdı. Bundan əlavə 2014-cü ildə Dünya bankı 2015-ci ilin birinci yarısını əhatə edəcək yeni əməkdaşlıq strategiyasını təsdiq etmişdi.

Bu gün Azərbaycan dünyanın 140-dan çox dövləti ilə qarşılıqlı və səmərəli iqtisadi əməkdaşlıq etməkdədir. Azərbaycanın mövcud iqtisadi potensialı, təbii resurs ehtiyatları, təbii mühiti, iqtisadiyyatı və coğrafi şəraiti dünya dövlətləri ilə məhsuldar əməkdaşlağın inkişafı üçün zəmin yaradır.

Həmin anları Azərbaycan prezidenti İlham Əliyev belə xatırlayır: “Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. [7].

Belə ki, 2001-2011-ci illər ərzində Neft Fondunun ümumilikdə 56,5 milyard ABŞ dolları daxil olmuşdur ki, bu vəsaitin 30,4 milyard ABŞ dolları və yaxud 53,8 % -i yığıma yönəldilmişdir.[6]. Azərbaycan MDB-yə daxil olan ölkələrlə xarici ticarət əlaqələrini həyata keçirməkdə və bu əlaqələri hər il genişləndirməkdədir. 2010-cu ildə du dövlətlərlə idxalın həcmi 2051,1 milyon dollar, ixracı isə1983,9 milyon dollar olarkən, 2018-ci ildə bu rəqəmlər idxal 2862,1 milyon dollar, ixrac 1138,2 milyon dollar olmuşdur [1,48].

## Ədəbiyyat


1. Alekberov, A.H. Uluslararası Ekonomik İlişkiler, Çaşıoğlu, Bakü,2010
2. Məmmədov, E. "Əsrin Müqaviləsi Azərbaycan neft sənayesinin inkişafında mühüm mərhələdir". Bakı, 1997
3. Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi naminə Azərbaycan Respublikasının prezidentinin katibliyi. Bak, 2001.
4. Əliyev İ. Azərbaycanın neft diplomatiyası. Bakı, 2009
5. Osman Nuri Aras, "Asrın Anlaşması" və Azərbaycan ekonomisine etkisi, Akademik araştırmalar dergisi, 2006
6. www.preslip.az
7. www.publika.az



**SUMMARY**

**THE CONTRACT OF THE CENTURY. SOCIO-ECONOMIC AND CULTURAL DEVELOPMENT OF AZERBAIJAN**

***Huseynova N.A.***

***Key words**: oil, industry, resource, production, development*

The oil industry of Azerbaijan has made significant progress over its 150-year history. In medieval times, Azeri oil attracted not only travelers but also drew the attention of European countries. The historical development of Azeri oil industry is divided into several stages, each with its own peculiarities. The most successful period of Azeri oil industry is associated with the name of Great Leader Heydar Aliyev. Under the motto that, "Oil is the national resource of Azerbaijan!" Great Leader Heydar Aliyev was always focused on the reconstruction and development of Azeri oil industry. The signing and implementation of the contract known as the "Contract of the Century" demonstrated the brilliant realization of the oil strategy, a plan developed by the prominent politician Heydar Aliyev.



**РЕЗЮМЕ**

**"КОНТРАКТ ВЕКА". СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ И КУЛЬТУРНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА**

***Гусейнова Н.А.***

***Ключевые слова**: нефть, промышленности, достаяние, производство, разработка*

Азербайджанская нефтяная промыщленность прошла за 150 лет огромный путь развития. За весь период средневековья бакинская нефть привлекала, не только путешественников, но внимание и интересы многих европейских государств. Весь путь развития нефтяной промышленности можно разделить на несколько этапов, с присущими каждому из них, достижениями.

Значительный славный путь развития нефтяной промышленности связан с именем нашего национального лидера Гейдара Алиева. «Нефть - наше национальное достояние!» Под этим девизом прошло выступление Общенационального лидера, направленное на востановление и интенсивное развитие нефтяной промышленности. Была выработана и проведена в жизнь нефтяная стратегия и заключен 20 сентября 1994 года договр, известный во всем мире как «контракт века»

# NEFT GƏLİRLƏRİNİN AZƏRBAYCANIN İQTİSADİ TƏRƏQQİSİ VƏ ƏHALİNİN MADDİ RİFAHI ÜÇÜN ƏHƏMİYYƏTİ

**Kərimova Ellada Abdulla qızı**
*Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan, doktorant*
ellada64.karimova@gmail.com

***Açar sözlər:*** *SOKAR, neft, iqtisadi, enerji, investisiya, layihələr, inkişaf*

***Xülasə.*** *Məqalədə bildirilir ki, neft gəlirləri ənənəvi olaraq iqtisadiyyatımızın inkişafı ilə bağlı əksər problemlərin həllində mühüm əhəmiyyətə malik olmuşdur. ARDNF tərəfindən Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının ardıcıl həyata keçirilməsi dövlətimizdə daxili siyasi sabitliyin əldə edilməsinə yardım edən sabit və dinamik iqtisadi inkişafına nail olunmasına, inkişaf etmiş ölkə kimi tanınmasına mühüm xidmətlər göstərmişdir. Dövlət Neft Fondunun maliyyə imkanları müxtəlif iqtisadi inkişaf proqramlarının uğurla icrasına mühüm yardım etmişdir.*

Azrbaycanın başlıca təbii sərvəti sayılan neft ehtiyatları və ondan əldə edilən gəlirlə bağlı müxtəlif problemlər daim həm ictimaiyyətin diqqət mərkəzində olmuş, həm də müxtəlif elm sahələrini təmsil edən tədqiqatçıları maraqlandırmışdır.

İstər sovet dönəmində, istərsə də hökumətin illik hesabatlarında heftdən əldə edilən gəlir və onların xərclənməsi barədə illik hesabatlar bu sahədə vəziyyət barədə aydın təsəvvür əldə etməyə kömək edir. Sahə ilə əlaqədar başlıca struktur sayılan Azərbaycan Dövlət Neft Fondu (ARDNF) fəaliyyətinin ilk günlərindən iqtisadiyyatımızın tərəqqisi üçün mühüm töhfələr vermişdir.

ARDNF qeyri-neft sektorlarına investisiya yatırmaqla və uzunmüddətli artımı stimullaşdırmaqla iqtisadiyyatın diversifikasiyasında fəal rol oynayır. Nəzərə almaq vacibdir ki, neft gəlirlərindən asılılığın ləğv edilməsi üçün iqtisadiyyatın digər sahələrinin, yəni qeyri-neft sektorunun inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi qalır.

Əksər iqtisadçılar və digər mütəxəssislər hesab edirlər ki, ARDNF-ni neft gəlirlərindən necə səmərəli istifadə olunması, yaxud əksinə, ölkə üçün xeyirə, yoxsa yükə çevrilməsi onun resurslarının düzgün idarə olunmasından asılıdır.

Həqiqətən, neft təkcə resurs deyil, iqtisadi inkişafın əsas bazası olaraq keçən onilliklər ərzində Azərbaycanın əldə etdiyi uğurların digər sənaye sahələrinin dirçəldilməsi üçün müəyyənedici rol oynamışdır (5, c.15).

Müstəqillik əldə etdikdən sonra dövlətiizin və bütövlükdə iqtisadiyyatımızın qarşılaşdığı ağır böhran şəraitində neft gəlirlərindən səmərəli istifadə bütün bu çətinliklərin öhdəsindən gəlməyin əsas vasitəsinə çevrildi [6, c.22].

1993-cü ilin 15 iyunundan sonra Azərbaycan üçün tək iqtisadi sahədə deyil, milli və regional təhlükəsizliyin təmin edilməsində müstəsna əhəmiyyəti olmuş yeni neft strategiyası işlənilib hazırlandı. Azərbaycan heftinin dünya bazarlarına daşınmasını təmin etmək məqsədi ilə baparıcı neft şirkətləri ilə əməkdaşlığın əsasını qoymuş olan "Əsrin müqaviləsi" imzalandı (4). Bu, sadəcə razılaşma deyil, ölkəni düşdüyü iqtisadi, həm də siyasi böhrandan çıxara biləcək, bəlkə də yeganə düzgün addım idi. Nəticədə neft və qazın satışından əldə olunan gəlirlər Azərbaycan iqtisadiyyatına bir növ yeni yeni nəfəs vermiş oldu. Müqavilənin imzalanmasından qazanılan siyasi dividentlər isə o qədər əhəmiyyətli idi. Bu müqavilə tək iqtisadi əhəmiyyət daşımaqla kifayətlənməyərək xarici siyasət əlaqələrində dövlətimizin rol və imkanlarını da genişləndirdi. Müaqvilənin imzalanmasında bir sıra ölkə prezidentləri və ya hökumət nümayəndələri iştirak etməsi həqiqətən dövlətimizin siyasi imicinin artması göstəricilərindən biri demək idi (3, s.120). Bunu çox vaxt haqlı olaraq 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi qələbəmizə aparan şərfəli yolun başlanğıcı da adlandırırlar.

Beləliklə, müqavilə sadəcə xammal neft-qazın satışından qazanılan gəlirlər deyil, həm də gələcəyə dövlətimizin iqtisai qüdrətini və beynəlxalq nüfuzunu yüksəldəcək sərmayə imkanlarının yaradılması demək idi.

1999-cu ildə Ümummilli lider Heydər Əliyevin fərmanı ilə təsis edilən Azərbaycan Dövlət Neft Fondu neft sərvətlərinin iqtisadiyyatımızın, bütövlükdə xalqımızın yeni uğurlarının qazanılması istiqamətində vacib addımların biri oldu [1]. ARDNF (indiki SOKAR) indiyədək makroiqtisadi sabitliyin təmin olunmasına, neft gəlirlərindən ölkəni mümkün xarici təzyiq və təhlükələrdən qorumağa zəmin yaratmağa, bununla da Azərbaycan iqtisadiyyatının inkişafının yeni daha sürətli mərhələsinə keçməsinə öz töhfələrini vermişdir. Bu həm də o deməkdir ki, ARDNF özünü təkcə neft sektoru ilə məhdudlaşdırmayaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun mövqelərinin möhkəmləndirilməsi məqsədi ilə digər iqsidai sektorlara sərmayə qoymuş, onların artımını stimullaşdırmış və on minlərlə yeni iş yerləri yaratmışdır.

Məlumdur ki, son vaxtlar ardıcıl olaraq insan kapitalını inkişaf etdirilməsində tez-tez söhbət açılır. Bu baxımdan Fondun müxtəlif illərdə yüksək intellektual kadr potensialının formalaşdırılmasına diqqəti artırması ayrıca qeyd edilməlidir. Bu illər ərzində səhiyyə, təhsil, elm və digər mədəniyyət sahələrinə Fondan verilən dəstək Azərbaycanın yaxın və uzaq perspektivdə ciddi uğurlarımıza istiqamətlənmişdir.

Son illərdə Fondun maliyyələşdirilən çoxsaylı sosial proqramlar aztəminatlı vətəndaşlara müxtəlif növ sosial yardım xidmətlərinin göstərilməsinə, onların maddi təminatını yaxşılaşdırmağa, bununlada yoxsulluq səviyyəsinin azaldılmasına təsirli kömək etmişdir.

Genişmiqyaslı infrastruktur layihələrinin - yolların, körpülərin, enerji obyektlərinin inşasının həyata keçirilməsi bütün bunlar müasir Azərbaycanın simasının ayrılmaz hissəsidir və onların istifadəyə verilməsində ARDNF mühüm rol oynamışdır.

ARDNF Heydər Əliyevin müəllifi olduğu neft strategiyasını ardıcıl həyata keçirərək Azərbaycanın iqtisadiyyatı dinamik inkişaf edən, gələcəyə inamla addımlayan sabit ölkəyə çevrilməsində mühüm xidmətlər göstərmişdir.

ARDNF-in daha bir vacib funksiyası enerji daşıyıcıları dünya bazarlarına daşınmasından əldə olunan gəlirlərindən istifadənin səmərəli şaxələndirilməsinə nail olmaqdır. Fondun xarici kompaniyalarla bir çox əlverişli sazişlərin verdiyi imkanların əhəmiyyəti olduqca mühümdür [5, s.194].

İnvestisiya yatırımlarından daha çox ehtiyacın zəruri olduğu istiqamətlərə yönəldilməsinə xüsusi diqqət yetirilmişdir.

Azərbaycanın xarici ticarət balansının formalaşmasında neft və qaz ixracından əldə olunan gəlirlər mühüm rol oynaması ayrıca olaraq qeyd edilməlidir. Fondun fəaliyyətinin təhlili göstərir ki, onun göstərdiyi maliyyə yardımları gəlir dərəcələrinin artırılmasında əsaslı rol oynamışdır.

İndiyədək, daha dəqiq desək, 2024-cü il iyulun 1-nə fondun gəlirlərindən 189 milyard ABŞ dolları təkcə neft-qaz müqavilələrinin reallaşdırılmasının payına düşmüşdür [9].

Nəzərə almaq lazımdır ki, Fond bu müddətdə öz gəlirinin müəyyən qismini daha çox gəlir gətirəcəyi və vacib sahələrin müasir tələblərə cavab verəcək dərəcədə yenidən qurulmasına istiqamətləndirmiş, bunun səmərəli nəticələri az müddətdə müsbət nəticələr vermişdir. Fondun büdcəmizə ardıcıl transferləri bütövlükdə iqtisadiyyatımızın əksər sahələrində yüksək səmərəli nəticələrə dəstək olmuşdur. 2024-cü il iyulun 1-nə onların məbləği 128,9 milyard dollar təşkil etmişdir [9].

Bu vəsaitlər ölkənin nəqliyyat, energetika və sosial infrastrukturunun müasirləşdirilməsinə töhfə verən mühüm layihələrin maliyyələşdirilməsinə imkan vermişdir. Belə resursların olması həm də ona görə əhəmiyyətlidir ki, Azərbaycana öz vəsaiti hesabına Zəfər Savaşında azad edilmiş ərazilərimizdə geniş miqyaslı bərpa-quruculuq layihələrini reallaşdırmağa kömək edir.

Bununla belə, ölkənin əsas məqsədlərindən biri kimi növbəti illərdə dövlət büdcəsinin neft gəlirlərindən və nəticə etibarilə ARDNF-dən transfer ödənişlərindən asılılığının azaldılması barədə də düşünmək zəruridir.

Fondun bu günədək fəaliyyəti təkcə iqtisadiyyatın müxtəlif sahələrinə maliyyə dəstəyi ilə bitməmişdir. Belə ki, fond istedadlı gənclərin təhsilinə sərmayə yönəltmişdir. Bu da öz növbəsində ölkənin yüksək ixtisaslı gənc kadrlarla təmin lunmasına ciddi dəstək deməkdir. "Fond fəaliyyət

göstərdiyi illər ərzində üç dövlət proqramının maliyyələşdirilməsinə 295,3 milyon ABŞ dolları vəsait ayırmışdır" [9].

ARDNF "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı" çərçivəsində təhsilə investisiya yatırmaqda davam edir. Bu proqram çərçivəsində fond artıq 233 doktorantın dünyanın aparıcı universitetlərində təhsilini maliyyələşdirmişdir. Hazırda gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinə dair 2022-2026-cı illər üçün Dövlət Proqramının icrası davam etdirilir [9].

Fondun fəaliyyətinin digər əsas istiqaməti də sosial yardımların göstərilməsi ilə bağlı olmuşdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu günədək "Fondun xətti ilə məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədlərinə 2 milyard 786,6 milyon ABŞ dolları ayrılmışdır" [9].

Qeyd edilməlidir ki, ARDNŞ Yunanıstan, İtaliya və bir sıra Balkan ölkələrinin ixrac tədarükü ilə maraqlanan şirkət rəhbərləri və rəsmi şəxsləri ilə apardığı danışıqların nəticələri deməyə əsas verir ki, "Cənubi Qafqaz İxrac Qaz Kəməri" adlandırılan qaz kəməri ilə qaz Türkiyəyə, oradan da Avropa ölkələrinə Xəzərin mavi yanacağını ixrac edəcək [8].

Beləliklə, ARDNF-nin bəhs edilən istiqamətdə fəaliyyətinin nəticələrindən məlum oldu ki, həm hazırkı rifahı, həm də davamlı gələcəyi təmin etməklə neft gəlirlərini ağıllı şəkildə idarə etmək mümkündür. 31 dekabr 2023-cü il tarixinə bəzi maliyyə göstəricilərinin təhlili də bu qənaəti bir daha təsdiq edir. Məsələn, "Fondun səhmlərə investisiyalardan gəlirləri 3,5 milyard manat, istiqrazlar üzrə gəlirləri 3,04 milyard manat, məzənnə fərqindən əldə olunan xalis gəlir isə 109,3 milyon manat təşkil etmişdir" [9].

Məlum həqiqətdir ki, hazırda az ölkələr tapılar ki, onun müxtəlif beynəlxalq maliyyə təşkilatlarına bopcu olmasın. Bu baxımdan dövlətimiz Azərbaycan təsirli maliyyə ehtiyatları ilə öyünür. Bu gün iqtisadi problemlərin vaxtında həllinin mühüm ünvanlarından biri olan olan *"Dövlət Neft Fondunun aktivləri birbaşa dövlət borcundan beş dəfə çoxdur"* [7, c.7]. Bütün bunlar da öz növbəsində 44 günlük Vətən müharibəsində erməni işğalından azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin gedişinə öz qiymətli köməyini etməyə imkan verir.

Hazırda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti neft-qaz hasilatı, nəqli və emalı ilə məşğul olan müəssisədən transmilli şirkətə çevrilərək, iştirakçısı olduğu beynəlxalq layihələrdə Azərbaycan Respublikasını uğurla təmsil edir, ölkənin iqtisadi potensialının güclənməsinə, sosial-iqtisadi tərəqqisinə, eləcə də milli maraqlarımızın həyata keçirilməsinə mühüm töhfə verir [2].

Beləliklə, hazırkı siyasi təlatümlər və iqtisadi böhranının ağır nəticələrinin qaldığ bir şəraitdə Neft Fondunun iqtisadiyyatımıza maliyyə dəstəyi imkanları sabit iqtisadi tərəqqimiz üçün etibarlı təminat deməkdir.

## Ədəbiyyat


1.Azərbaycan Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il Fərmanı / https://e-qanun.az/framework/5261

2.Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 23 yanvar 2021 / https://president.az/az/articles/view/50344

Əliyev İlham. İnkişaf - məqsədimizdir: qırx üçüncü kitab: oktyabr 2010-dekabr 2010. Azərnəşr, Bakı: - 2017. - 400 s.

3.Mehdiyev Ə. B. Əsrin müqaviləsi: Azərbaycan neft strategiyasının təməl daşı. Turxan NPB, Bakı: 2014. - 248 s.

4.Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a. s, LUKoyl SƏHMDAR ÇƏMİYYƏTİ, MakDERMOTT AZƏRBAYCAN İNK, PENNZOYL KASPİAN KORPOREYŞN, REMKO XƏZƏR ENERCİ

LİMİTED, TÜRKİYE PETROLLERİ A. O., YUNOKAL XƏZƏR, LTD arasında Sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu / https://e-qanun.az/framework/909822.
5.Алиев, Натик. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Letterpress, Баку: - 2010. - 244 с.
6.Алиев Гейдар. Азербаиджанская нефть в политике мира. Кн. 4-я. Баку: - 1997. - 471 с.
7.Гулиев, И. От «Контракта века» до Великой Победы // Бакинский рабочий. 31 октября. 2023. - с.7
8.Каспийская нефть Азербайджана служит региональному сотрудничеству / https://www.ng.ru/ideas/2003-07-01/11_azerbaijan.html
9.Фактор стабильности: Госнефтефонд как залог устойчивого развития Азербайджана / https://media.az/economy/faktor-stabilnosti-gosneftefond-kak-zalog-ustojchivogo-razvitiya-azerbajdzhana

**SUMMARY**
**THE SIGNIFICANCE OF OIL INCOME FOR THE ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN AND THE FINANCIAL WELL-BEING OF THE POPULATION**
***Karimova E.A.***

***Keywords:*** *SOCAR, oil, economy, energy, investments, projects, development.*
The article states that oil revenues have traditionally played an important role in solving most of the problems associated with the development of our economy. Hello m has provided services that serve to achieve internal political stability in our country and recognize it as a developed country. The financial resources of the State Oil Fund have made an important contribution to the successful implementation of various economic development programs

**РЕЗЮМЕ**
**ЗНАЧЕНИЕ НЕФТЯНЫХ ДОХОДОВ ДЛЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА И БЛАГОСОСТОЯНИЯ НАСЕЛЕНИЯ**
***Керимова Э.А.***

***Ключевые слова:*** *СОКАР, нефть, экономика, энергетика, инвестиции, проекты, развитие.*
В статье говорится, что нефтяные доходы традиционно играли важную роль в решении большинства проблем, связанных с развитием нашей экономики. Последовательная реализация ГНФАР нефтяной стратегии, автором которой является Гейдар Алиев, оказала важные услуги для достижения стабильного и динамичного экономического развития, что помогает добиться внутриполитической стабильности в нашей стране и признания ее как развитой страны. Финансовые ресурсы Государственного нефтяного фонда в значительной степени способствовали успешной реализации различных программ экономического развития.

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCAN NEFTİNİN YENİ TARİXİNİN BAŞLANĞICIDIR

**Hüseynov Məhəmməd Allahverdi oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı*
*Ağcabədi, Azərbaycan, t.ü.f.d., dosent*

***Açar sözlər:*** *Yanacaq-energetika, inteqrasiya, "Əsrin müqaviləsi", strategiya, region.*

***Xülasə:*** *Məqalədə göstərilir ki, Ümummilli Liderimiz Heydər Əliyevin 90-cı illərin ortalarında apardığı məqsədyönlü iqtisadi siyasət nəticəsində "Əsrin müqaviləsi" imzalanmış, bununla da ölkəmizdə yeni neft strategiyası uğurla həyata keçirilməyə başlanmışdır. Bu müqavilənin imzalanması neft sənayesinin yeni dirçəlişinə təkan verməklə yanaşı, iqtisadiyyatın başqa sahələrinə də böyük həcmdə investisiya qoyuluşuna gətirib çıxarmışdır.*

*Məqalə də həmçinin möhtərəm Prezident İlham Əliyevin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının müasir dövrdə uğurla davam etdirməsindən də bəhs edilir.*

Azərbaycan nefti iqtisadiyyatımızın əsas bazası kimi yanacaq-energetika sahəsinin bir başa inkişafına təsir edən çox mühüm amildir. Hələ uzun illər bu amil müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafına, xalqın rifah halının yüksəldilməsində və sosial-iqtisadi həyatının yaxşılaşdırılmasında, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasında əsaslı rol oynayacaqdır.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin respublika rəhbərliyinə başlaması ilə ölkənin iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yanacaq-energetika sahəsində də yeni inkişaf dövrünün təməli qoyuldu.

Məhz 70-ci illərdə və 80-ci illərin birinci yarısında yaradılmış bu güclü potensial Xəzər dənizinədə "Günəşli", "Çıraq", "Azəri" və "Kəpəz" kimi yeni neft yataqlarının açılmasını təmin etdi ki, buda müasir Azərbaycan dövlətinin banisi, Ümumilli Liderimiz Heydər Əliyevin yaradıcısı olduğu yeni neft strategiyasının həyata keçirilməsində yekun mərhələsinin əsasını qoydu.

1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan cənab Heydər Əliyev elə ilk gündən neft qaz sənayesinə nəzarəti gücləndirdi və ən asası xarici neft şirkətləri ilə Xəzər dənizinədə yerləşən neft-qaz yataqlarının birgə işləməsi barədə aparılan danışıqları yeni məcraya yönəltmək və sürətləndirmək üçün ciddi addımlar atdı. Məhz belə bir dövrdə Azərbaycanın neft ehtiyatlarının mövcudluğunu nəzərə alan Ümummilli Lider ilk vaxtlardan başlayaraq danışıqlar prosesinə ARDNŞ-ın vitse-prezidenti, millət vəkili İlham Əliyevi cəlb etdi. Beləliklə, cənab İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün dəfələrlə vurğuladığı kimi bir ideya durardı: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həmdə başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir." [2, s.271]

Məhz Cənab Heydər Əliyevin apardığı məqsədyönlü iqtisadi siyasət nəticəsində danışıqların uğurla başa çatdırılması və neft sazişinin imzalanması öz məntiqi nəticəsini tapmış oldu.

20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı ki, bununla da ölkəmizdə yeni neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Bağlanmış müqavilə Azərbaycan Respublikasının Milli məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. Öz mahiyyətinə görə bu saziş "Əsrin müqaviləsi" adlandırıldı. [1, s.321]

"Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin neft qaz sənayesi özünün yeni inkişaf dövrünə qədəm qoydu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu dövrdə yeritdiyi uzaqgörən daxili və xarici siyasət, xarici sərmayələrin cəlb edilməsi üçün yaradılmış hüquqi baza və normal, işgüzar şərait çox qısa zamanda dünyanın 15 dövlətini təmsil edən 33 şirkətlə 23 neft sazişi imzalanmasını təmin etdi. Bu sazişlər çərçivəsində nəzərdə tutulan sərmayələrin həcmi 60 milyard dollara yaxın dəyərləndirilir. [1, s.321]

"Əsrin müqaviləsi" və sonra imzalanmış neft sazişləri respublikamızın neft sənayesinin yeni dirçəlişinə təkan verməklə yanaşı, iqtisadiyyatın başqa sahələrinə böyük həcmdə investisiya axınına əlverişli şərait yaratdı.

ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, Kanada, İtaliya, Yaponiya, Səudiyyə Ərəbistan, Çin, İran və digər dövlətlərin tanınmış şirkətlərinin respublikamızda fəaliyyəti neft sənayesinə yeni texnologiyaların cəlb edilməsi ilə yanaşı kiçik və orta sahibkarlığın inkişafına, həmçinin bu ölkələrlə elmi və digər əlaqələrin genişləndirilməsinə də imkan yaratmışdır. Eyni zamanda "Əsrin müqaviləsi"nin gerçəkləşməsi Azərbaycanın dünya birliyində qısa zamanda layiqli yer tutmasına, nəticə etibarilə respublikamızın regionun aparıcı dövlətlərindən birinə çevrilməsinə geniş imkanlar yaratdı.

"Əsrin müqaviləsi" imzalandıqdan və həyata keçirilməyə başladıqdan sonra Azərbaycan neftinin ixracı məsələsi də ciddi problem olaraq qalırdı. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin bu dövrdə seçdiyi düzgün siyasət və taktiki gedişindən sonra xam neftin ixracı ilə bağlı

süni surətdə yaradılan maneələr dəf edildi və böyük həcmdə Azərbaycan neftinin dünya bazarına ixrac olunmasının strateji proqramının hazırlanması üçün zəmin yarandı.

Azərbaycan hökuməti neft və qaz satışından əldə olunan gəlirlərin səmərəli istifadəsini təmin etmək məqsədilə Dövlət Neft Fondu yaratmışdır. Həmin fonda yığılan vəsait investisiya şəklində Azərbaycan iqtisadiyyatının neftlə bağlı olmayan sahələrinə yönəldilir ki, bu da respublikanın əhalisinin sosial vəziyyətinin daha da yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına və ümumən iqtisadiyyatımızın dinamik inkişafının təmin olunmasına xidmət edir.

Ümummilli Liderimiz Heydər Əliyevin hazırladığı və indi möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə böyük surətlə həyata keçirilən yeni neft strategiyası bütövlükdə iqtisadiyyatımızın inkişafına təkan verir. Ölkə başçısının əzmlə həyata keçirdiyi siyasət Azərbaycanı Cənabi Qafqaz regionunun ən güclü dövlətinə çevirmiş, vətənimiz iqtisadi inkişaf tempinə görə bütün dünyada rekord göstəricilərə sahib olmuşdur.

## Ədəbiyyat:


1. Xalqa bağışlanılan ömür. VI. Kitab. Bakı. 2004.
2. Müdriklik zirvəsi. Bakı. 2011.
3. Şəxsiyyətin qüdrətli, Bakı. 2012.



**SUMMARY**

**"CONTRACT OF THE CENTURY" - THE BEGINNING OF A NEW HISTORY OF AZERBAIJANI OIL**

***Huseynov M.A.***

***Key words:*** *Fuel and energy, integration, "Contract of the Century", strategy, region.*

The article shows that the "Contract of the Century" was signed as a result of the purposeful economic policy of our National Leader Heydar Aliyev in the mid-1990s, and thus the new oil strategy was successfully implemented in our country. The signing of this agreement not only stimulated the new revival of the oil industry, but also led to a large amount of investment in other areas of the economy.

The article also talks about the successful continuation of the oil strategy established by the Great Leader Heydar Aliyev in modern times.



**РЕЗЮМЕ**

**"КОНТРАКТ ВЕКА" - НАЧАЛО НОВОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ**

***Гусейнов М.А.***

***Ключевые слова:*** *ТЭК, интеграция, «Контракт века», стратегия, регион.*

В статье показано, что «Контракт века» был подписан в результате целенаправленной экономической политики нашего общенационального лидера Гейдара Алиева в середине 1990-х годов и, таким образом, новая нефтяная стратегия была успешно реализована в нашей стране. Подписание этого соглашения не только стимулировало новое возрождение нефтяной промышленности, но и привело к большому объему инвестиций в другие сферы экономики.

В статье также говорится об успешном продолжении нефтяной стратегии, заложенной великим лидером Гейдаром Алиевым, в наше время.


# ƏSRİN MÜQAVİLƏSİ AZƏRBAYCANI DAVAMLI SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ YÜKSƏLİŞƏ APARAN YOLDUR


**Qasımova Nailə Zaman qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt. Azərbaycan, müəllim*

kulturoloq1@gmail.com



***Açar sözlər:*** *Ulu Öndər, Əsrin müqaviləsi, neft strategiyası, neft sənayesi, neft diplomatiyası, layihə, resurs, iqtisadiyyat, sosial rifah, mədəni inkişaf*



***Xülasə.*** *XXI yüzillik bəşəriyyətə qloballaşma əsri olaraq daxil olub. Azərbaycan artıq müasir dünyada öz demokratik inkişaf yolu ilə seçilən və tarixi nailiyyətlərə imza atan bir ölkəyə çevrilmişdir. Dövlətimiz bütün sahələrdə əsaslı islahatlara qədəm qoyaraq yeni dövrün nüfuzlu*

*dövlətləri sırasında yer alıb. Belə bir dövr Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu üzə çıxararaq "Əsrin müqaviləsinin" təməlini yaratdı. Ulu Öndər Heydər Əliyev bu möhtəşəm müqavilə ilə Azərbaycanın strateji inkişaf konsepsiyasının əsasını qoymuş oldu. Milli neft strategiyasının uğurla reallaşması ölkəmizi iqtisadi inkişaf tempinə görə dünyada tanıtdı. Azərbaycan beynəlxalq münasibətlər müstəvisində olduqca əhəmiyyətli sazişlərə imza ataraq yüksək gəlirli iqtisadi gücə nail olmuşdur.*

Yaşadığımız müasir dövr qloballaşmaya, qlobal iqtisadiyyata, siyasi və mədəni aspektlərə malikdir. Bütün dünya ölkələrini əhatə edən qlobal iqtisadiyyat vahid istehsal, istehlak və ticarət mexanizmləri tam iqtisadi strukturu ifadə edir. Tarixən dünya ölkələri iqtisadi, siyasi, sosial və mədəni ehtiyaclarını qarşılıqlı münasibətlərdə görmüşlər. Müasir dünya düzənində iqtisadi qloballaşma Azərbaycan iqtisadiyyatına təsir edərək ölkənin inkişafına böyük təkan verdi. Belə ki, Azərbaycan dövləti özünün yeni iqtisadi gücünə sahib oldu.

Ölkəmiz müstəqillik qazandıqdan sonra bir sıra çətinliklərlə üz-üzə qaldı. Bu tarixi prosesin çətinlikləri özünü hər bir sahədə göstərmiş oldu. Çətinliklərlə qarşılaşmış azərbaycan xalqı öz tələb və istəkləri ilə Heydər Əliyevi özlərinə xilaskar seçdi. Rəhbərliyə ikinci dəfə qayıdan Ulu Öndər Heydər Əliyev ilk öncə milli sərvətimiz olan neft sənayesinin dirçəldilməsi prosesinə başladı. Neft sənayesinin yenidən bərpası və inkişafı uğrunda mübarizə aparmış oldu. Heydər Əliyevin neft strategiyasının təməli 1994-cü ildən başlandı. Sözsüz ki, bu müasir Azərbaycan taruxində yeni eranın başlanması demək idi.

Qeyd etmək lazımdır ki, bir çox qərb ölkələrinin tanınmış neft şirkətləri ilə danışıqlar aparıldı. İlk danışıqlar Xəzər dənizinin ölkəmizə aid olan hissəsində Azəri, Çıraq və Günəşli yataqlarının işlənilməsi prosesləri olmuşdur. Məhz milli iqtisadiyyatımızın başlanğıcının əsası bu yataqların inkişaf etdirilməsi məsələsinə yönəlmişdi. Qeyd etdiyim kimi, müqavilənin imzalanması bir neçə qərb ölkələri ilə beynəlxalq münasibətdə Azərbaycanın iqtisadi nüfuzunu artırmış oldu. Bu müqavilə 1994-cü ilin sentyabr ayında baş tutaraq "Əsrin müqaviləsi" kimi tarixə düşdü. Belə ki, 1997-ci ildə Azərbaycan ilk neftinin hasilatına uğurla başladı. Ölkəmiz neft strategiyasının sayəsində neft-kimya sənayesinin və neft emalının əsaslı strukturunu yaratmış oldu. Bəli "Əsrin müqaviləsi" ilə başlanan Azərbaycan neft strategiyasının reallaşdırılması yeni bir tarixi dövrə qədəm qoydu. Bu neft strategiyası ölkəmizə dünyada özünə etibarlı siyasi və iqtisadi tərəfdaşlar qazandırdı. Dünyanın bir çox nüfuzlu ölkələri sırasında olan Türkiyə, Rusiya, ABŞ, İngiltərə, Norveç, İtaliya kimi dövlətlər Azərbaycan ilə neft-qaz layihələri yaratmış oldular. [ 1, 92 ]

Artıq 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin davamlı səyləri nəticəsində "Əsrin müqaviləsi" ilə gerçəkləşən və qlobal əhəmiyyət daşıyan Bakı-Tblisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. Bu təməlin nəticəsi kimi 2006-cı ildə Türkiyənin Ceyhan limanından birbaşa Azərbaycan neftinin nəqlinə nail olundu. Həmçinin Bakı-Tblisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi dünya neft hasilatı tarixində də böyük bir hadisəyə çevrildi. Təbii ki, regional və qlobal əhəmiyyət daşıyan kəmər ölkəmizin enerji dəhlizinə çevrilməsində böyük imkanlar yaratdı. Demək olar ki, Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarına çıxarılmasında Bakı-Tblisi-Ceyhanla yanaşı, Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin də rolu böyük olmuşdur. Bunlar əsas ixrac neft kəmərləridir. Beynəlxalq bazarlarda Azərbaycan neftinin iştirakı, onun genişləndirilməsi ölkəmizin nüfuz və qüdrətini artırır. Qeyd etdiyimiz neft kəmərlərinin mövcudluğu ölkəmizin dünya iqtisadiyyatında tanınmasında əvəzsiz rola malik oldu. Bununla da Azərbaycan zəngin enerji resurslarına sahib oldu. [ 2, s.74 ]

İqtisadi yüksəlişlərə nail olaraq 2020-ci ildə "Qarabağ" neft yatağı kəşf edildi və Azərbaycanın neft tarixinə adını yazdırdı. Bu ad həm də Qarabağ adlı vətən torpağımızın ünvanına adlandırılan neft səltənətimizdir. Bəli, ölkəmizin iqtisadi qüdrəti artdıqca xalqın da rifahı yaxşılığa doğru dəyişməkdədir. Artıq "Əsrin müqaviləsindən 30 ilə yaxın bir vaxt keçir. Bu illər ərzində Azərbaycan dövləti sosial-iqtisadi inkişaf tempinə görə dünyanın bir çox ölkələrini belə qabaqlaya bilmişdir. Qeyd etmək lazımdır ki, tarixən Azərbaycanın intibah və tərəqqisində neft sənayesinin rolu danılmazdır. Tarixən millətlərin və dövlətlərin dirçəliş yolunda müəyyən hadisələr baş

vermişdir. Azərbaycanın taleyinə də belə tarixi hadisələr çox düşmüşdür. Yuxarıda qeyd etdiyim kimi, 90- cı illər Azərbaycanın tarixi dönəmində böyük bir sıçrayışlar yaratdı. Müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri çox olmuşdur. Lakin bu dönəmdə bütün əzablara, əziyyətlərə baxmayaraq Ulu Öndər Heydər Əliyev "Əsrin müqavilə"sinin reallaşmasına nail oldu. Ölkəmizdə sosial-iqtisadi inkişafı dərindən təhlil etsək görərik ki, məhz "Əsrin müqavilə"sinin bazasında bu gün xalqımızın həyat rifahında köklü bir dönüş yaranmışdır. Bu gün müasir dünyanın nizamını quran əsas istiqamətlərdən biri də iqtisadiyyatın mədəni qoludur. Necə deyəllər mədəniyyətin iqtisadiyyatı müasir dünya dövlətləri arasında güclü inteqrasiya yaradır. [ 3, 92 ]

Cəmiyyət həyatının bir çox sahələri kimi iqtisadi sahələr iqtisadi mədəniyyətin həlledici əhəmiyyət kəsb etdiyinə əsaslanır. Bu gün dünya dövlətləri istənilən bir sahəyə iqtisadi mədəniyyət prizmasından baxır. Müasir Azərbaycan da bu prizmadan geri qala bilməz. Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il Aərbaycan-2030, sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər istiqamətində imzaladığı sərəncamda məhz yüksək rifah cəmiyyətinin əsasında iqtisadiyyat dayanır. Dövlətimiz sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu seçərək, təhlükəsiz, müasir həyat səviyyəsini təmin edən bir ölkə kimi durmadan addımlayır. Belə ki, Azərbaycan dünya bazarına çıxardığı neft və qazın məhsuldarlığının artırılması istiqamətində yeni-yeni layihələr, sxemlər hazırlayır. İstənilən bir ölkənin enerji ehtiyatları onun siyasi müstəqilliyinə güclü təsir edir. Hələ ilk müstəqillik illərimizdə Heydər Əliyev Qərb dövlətlərinin Azərbaycana xüsusən də neft sahəsinə güclü maraqlarının olmasını öz uzaqgörən siyasəti ilə müəyyənləşdirmişdir. Ulu Öndər Azərbaycan xalqının milli və əsl sərvətini dünya bazarına çıxarılması istiqamətində böyük əminliklə çalışırdı. [ 4, 28 ]

Təbii ki, Azərbaycan öz taleyinin, öz sərvətinin sahibi idi. Ulu Öndər həmişə inanırdı, inanırdı ki, xalqın milli sərvəti dünya iqtisadi birliyində tanınacaq və layiqli yerini tutacaqdır. Sonrakı illərdə də ölkəmizin gələcək rifahında, xalqımızın həyat yüksəlişində əvəzsiz rolu olacaqdı. Ən məşhur şirkətləri ölkəmizə iri həcimli investisiya qoymağa təşviq etdərək, əsrin ən böyük layihəsinin reallaşdırılması Ulu Öndərin siyasətinin uğru kimi tarixin səhifəsinə köçdü. Bu Azərbaycan üçün, xalqımız üçün çox böyük tarixi əhəmiyyətli bir müqavilə oldu. Tarixən bir ölkəni, bir xalqı mədəni yüksəlişə aparan yol onun sərişdəli, müdrik və uzaqgörən siyasi liderinin yoludur. Ölkəmizin və xalqımızın tənəzzüldən yüksəlişə doğru addımlaması Ulu Öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Çünki, Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın yeni tarixi mərhələsinin əsasını təşkil etdi. Sosial-iqtisadi və mədəni yüksəliş xəttini seçən Ulu Öndər məhz "Əsrin müqaviləsi" ilə bu yolu başladı. Bu böyük epos Azərbaycanın təkcə iqtisadi tərəfdən deyil, siyasi müstəqilliyini də təmin etmiş oldu. Ölkəmizin mövqeyini möhkəmləndirərək əməkdaşlığın coğrafiyasının regional çərçivədən çıxararaq dünya müstəvisinə yol almasına böyük imkan yaratdı. Azərbaycan bu gün öz təbii resurslarından məsuliyyətlə və qənaətcil istifadə edir. Çünki yaşıl dünya naminə ətraf mühit və təbii ehtiyatlara qarşı qəsbkar münasibət olmamalıdır. Məhz bu baxımdan daha məsuliyyətli və dayanıqlı iqtisadiyyatın bir hissəsi olaraq yaşıl iqtisadiyyatın gücləndirilməsinə nail olmaqdır. Ümumiyyətlə yaşadığımız cəmiyyətin hər bir üzvü belə bir vacib məsələnin həlli yollarında bərabər çalışmalıdır. Baxmayaraq ki, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılması mümkün olan neft və qaz ehtiyatları nə qədər çox olsa da, ölkəmiz gələcək ehtiyatları saxlamaqdadır. [ 5, 83 ]

Bu gün Azərbaycanın qazandığı uğurlarda neft strategiyasının müstəsna rolunu Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 30-cu ildönümündə bir daha dəyərləndirdi. Əlbətdə ölkəmizin gələcəyi naminə davamlı inkişaf və tərəqqi konsepsiyasına onun təməl daşına çevrilmiş "Əsrin müqviləsi" artıq otuzuncu ildönümündədir. Ölkəmiz Cənubi Qafqaz regionunun güclü məmləkətinə çevrilərək, həmçinin Avropa ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrdə əhəmiyyət kəsb edən bir ölkədir. Prezident İlham Əliyev söylədiyi nitqlərdə qazandığımız tarixi zəfərimizin əldə olunmasının başlanğıcında da məhz əsrin bu böyük kontraktının izi olduğunu vurğulamışdı. Azərbaycanın neft tarixində əvəzsiz rolu olan bu müqavilənin hələ neçə belə uğurlara sahib olacağı zamanlar var. Çünki, bu Azərbaycan dövlətini davamlı tərəqqiyə və mədəni yüksəlişə aparan yoldur.

## Ədəbiyyat

1. A.S. İsayev. Neft və qaz sənayesinin iqtisadiyyati, ADNA (Dərslik) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Bakı-2008-ci il, Nəşriyyat-"Azərnəşr", 299 səh
2. E.M. Hacızadə, T.Ə, Paşayev: neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdirilmasi istiqamətləri. (Əsrin müqaviləsinə dair), Bakı-2000-ci il, AMEA, "ELM" Nəşriyyatı, 200 səh
3. E.M.Hacızadə. Neftçixarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı-2002-ci il, "ELM" Nəşriyyatı, 472səh
4. Ə.B. Mehdiyev: "Əsrin Müqaviləsi" -Azərbaycan neft strategiyasının təməl daşı. Bakı-2014, Nəşriyyat-Turxan NPB, İSBN; 978-9952-8212-2-2, 248 səh
5. İlham Şabanov (Şaban): "Azəri-Çiraq-Günəşli", Əsrin müqaviləsi, 1994-2022. Faktlar, sənədlər və rəqəmlər toplusu. TEAS-Press Nəşriyyat evi, Bakı-2023-cü il, İSBN-978-9952-563-153. 236 s.



**SUMMARY**

**THE AGREEMENT OF THE CENTURY IS THE WAY TO CONTINUOUS SOCIO-ECONOMIC AND CULTURAL PROGRESS AZERBAIJAN.**

***Gasimova N.Z***

***Key words:*** *Great Leader, contract of the century, oil strategy, oil industry, oil diplomacy, project, resource, economy, social welfare, cultural development*

The 21st century entered humanity as the century of globalization. Azerbaijan has already become a country that stands out in the modern world through its democratic development and has achieved historical achievements. Our state has entered into the ranks of the influential states of the new era by making fundamental reforms in all fields. Such a period revealed the existence of Azerbaijan's rich oil reserves and created the foundation of the «Contract of the Century». Great Leader Heydar Aliyev laid the foundation of Azerbaijan's strategic development concept with this great agreement. The successful implementation of the national oil strategy made our country known in the world for its economic development rate. Azerbaijan has achieved a highly profitable economic power by signing very important agreements at the level of level of international relations.



**РЕЗЮМЕ**

**СОГЛАШЕНИЕ ВЕКА ПУТЬ К НЕПРЕРЫВНОМУ СОЦИАЛЬНО–ЭКОНОМИЧЕСКОМУ И КУЛЬТУРНОМУ ПРОГРЕССУ АЗЕРБАЙДЖАНА.**

***Касумова Н.З***

***Ключевые слова:*** *Великий Лидер, Контракт века, нефтяная стратегия, нефтяная промышленность, нефтяная дипломатия, проект, ресурс, экономика, социальное обеспечение, культурное развитие*

XXI век вошел для человечества как век глобализации. Азербайджан уже стал страной, выделяющейся в современном мире своим демократическим развитием и достигшей исторических достижений. Наше государство вошло в ряды влиятельных государств новой эпохи, проведя фундаментальные реформы во всех областях. Такой период выявил существование богатых запасов нефти в Азербайджане и заложил основу «Контракта века». Этим великим соглашением великий лидер Гейдар Алиев заложил основу концепции стратегического развития Азербайджана. Успешная реализация национальной нефтяной стратегии прославила нашу страну в мире своими темпами экономического развития. Азербайджан добился высокодоходной экономической мощи, подписав очень важные соглашения на уровне международных отношений.


# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA SOSİAL İNFRASRUKTUR SAHƏLƏRİNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASI


**Səfərova Fidan**

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan, i.f.d.*

ehmedovafidan@mail.ru



***Açar sözlər:*** *sosial infostruktur, həyat səviyyəsi, sosial iqtisadi inkişaf.*



***Xülasə.*** *İstənilən ölkədə sosial infrastrukturun inkişafı mühüm iqtisadi istiqamətlərdən biri hesab olunur. Sosial infrastruktur əhalinin həyat səviyyəsinin müxtəlif aspektlərini əhatə edir, eyni*

*zamanda ölkə iqtisadiyyatının əmək ehtiyatları ilə təmin olunmasında mühüm rol oynayır. Lakin sosial infrastrukturun inkişafı çox uzunmüddətli mürəkkəb prosesdir və onun təmin edilməsi üçün müxtəlif təsərrüfat subyektlərinin resurslarının olması zəruridir. Azərbaycanın sosial inkişaf modelinin ən xarakterik cəhəti dövlətin güclü dəstəyi ilə ölkəmizdə sosial, iqtisadi və bazar infrastrukturunun yaradılmasıdır. Çünki müstəqilliyin ilk illərində sıradan çıxmış infrastrukturları bərpa etmədən və inkişaf etdirmədən milli iqtisadiyyatın dinamik və davamlı inkişafına nail olmaq mümkün deyil.*

**Giriş.** Dünyada sürətlənən qloballaşma nəticəsində hər bir dövlət öz idarəçilik sisteminə daha çox diqqət yetirmiş, bir sıra digər ölkələrlə əlaqələri genişləndirmişdir. Əvvəlki dövrlərdən fərqli olaraq, artıq XXI əsr bu baxımdan yeni tendensiyalarla, dinamik dəyişikliklərlə xarakterizə olunur. Bu tendensiyalar ənənəvi cəmiyyətdən yeni rəqəmsal informasiya cəmiyyətinə keçidlə əlaqəlidir. Ona görə də dövlətlər bu dəyişikliklər çərçivəsində dünyada öz mövqeyini müəyyənləşdirməyə, milli sərhədlərini və maraqlarını qorumağa, iqtisadi-sosial siyasətini təkmilləşdirməyə çalışırlar. Bütün qeyd olunan amillər Azərbaycana da aid edilir. Azərbaycan Respublikası Cənubi Qafqazda yerləşən orta gəlirli ölkədir və olduqca yüksək strateji əhəmiyyətə malikdir. Buna baxmayaraq, dövlət tərəfindən qlobal çağırışlara cavab istiqamətində yeni hədəflər təyin olunmalı, inkişaf strategiyaları hazırlanmalıdır [19].

Məlum məsələdir ki, dövlətin inkişafının təmin edilməsi istiqamətində hüquqi-normativ tənzimləmələrin həyata keçirilməsi üzrə təkmilləşdirilmələr aparılmalı, mülki-hüquqi sfera genişləndirilməlidir. Bu, əsasən, müasir hüquq mexanizminin getdikcə mürəkkəbləşməsi ilə əlaqələndirilə bilər.

Sosial infrastrukturun dövlət tərəfindən tənzimlənməsi ölkədə bir çox sahələrdə baş verən transformasiyalar nəticəsində formalaşmış prioritetlər, tənzimləyici mexanizmlər kimi amillərlə bağlı olaraq spesifik xüsusiyyətlərə malikdir. Ancaq təəssüf ki, ölkəmizdə sosial infrastruktur sahəsində normaların yaradılması, hüquqi tənzimləmələrin aparılması nisbətən daha ləng inkişaf edir, hətta demək olar ki, bazar münasibətlərinin inkişafından xeyli geridə qalır. Bu, əslində Azərbaycan üçün gözlənilən sayıla bilər. Azərbaycanın yeni müstəqillik əldə etməsi, işğal olunmuş torpaqları geri qaytarmaq üzrə mübarizə aparması və bu kimi digər amillər çərçivəsində sosial xidmətlər nisbətən daha ləng inkişaf etmişdir. Bu, sosial xidmətlərin vətəndaş hüquqlarının müstəqil obyekti kimi olduqca gec, demək olar ki, 2000-ci illərdən sonra ortaya çıxması ilə bağlı ola bilər. Ona görə də sosial siyasət sahəsində sistemlilik müşahidə olunmur, bir çox xidmət növləri innovativ texnologiyalara əsasən yeni normalarla idarə olunmur, bəzi sosial xidmət sahələrində isə ümumiyyətlə tənzimləmələr aparılmır. Bütün qeyd olunan çatışmazlıqların aradan qaldırılması üçün dövlətin öhdəlikləri ilə bağlı hüquqi tənzimləmə sistemində effektiv dəyişikliklər edilir, sosial xidmət keyfiyyətinin artırılması üzrə müxtəlif qanunlar qəbul olunur, layihələr həyata keçirilir [30].

Azərbaycan Respublikası inkişaf etməkdə olan əksər ölkələr kimi, iqtisadi inkişafın innovativ tipinə əsaslanır. Buna görə də köhnəlmiş xüsusiyyətlərə malik sənaye cəmiyyətindən postindustrial cəmiyyətə keçid üçün bir sıra islahatlar müvəffəqiyyətlə həyata keçirilir. Cəmiyyətin bu forması elmi nailiyyətlərə əsaslanır və burada innovativ siyasət hər şeydən üstün tutulur. Dövlətimizin innovasiya siyasəti yeni bilik və texnologiyaların inkişafını və onların tətbiqi istiqamətində əsas şərtlərin təmin edilməsini nəzərdə tutur. Burada ənənəvi inzibati və bürokratik üsulların yeni texnologiyalarla əvəzlənməsi, sosial siyasətə dair bütün imkanların təmin edilməsi əsas götürülür.

İlk olaraq, bu istiqamətdə Azərbaycanın sosial infrasruktur sahələrinin tənzimlənməsi sahəsində konkret vəzifələr müəyyənləşdirilmişdir:

- ilk olaraq, əhalinin yoxsul təbəqələrinin vəziyyətinin yaxşılaşdırılması üzrə qanunvericiliyin təkmilləşdirilməsi;
- sosial infrastrukturun ümumi inkişafı, sosial müdafiənin təşkili üçün təkmilləşdirilmiş hüquqi-normativ bazanın işlənməsi;
- sosial infrastruktur obyektlərinin tənzimlənməsi üzrə fəaliyyət göstərən dövlət orqanlarının

əsas səlahiyyətlərinin dəqiqləşdirilməsi;

- qanunvericilik bazasının hazırlanmasında beynəlxalq normaların da nəzərdən keçirilməsi və müəyyən hallarda tətbiqi;
- qanunvericiliyin müasir vəziyyətə uyğun müasirləşdirilməsi və s. [32].

Yuxarıda qeyd olunan amillər əslində istənilən dövlət üçün zəruridir və bu zəruriyyətlər əsasında Azərbaycanın Prezidenti İlham Əliyev 29 dekabr 2012-ci il tarixində 2011-2020-ci illəri əhatə edən yeni və olduqca mühüm əhəmiyyətə malik sərəncamı təsdiqləmişdi. Bu, Azərbaycanda sosial infrastrukturun təkmilləşdirilməsi üzrə əsas hüquqi-normativ sənədlər sırasında aparıcı mövqeyə malik Azərbaycan - 2020: gələcəyə baxış konsepsiyasını qeyd etmək olar. Bu konsepsiya çərçivəsində ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı əsas məqsədlər müəyyən edilmiş, innovativ cəmiyyətin qurulması üzrə tədbirlər planı nəzərdə tutulmuşdu. Konsepsiyada ilk növbədə, iqtisadi aspektlər nəzərdən keçirilmiş, ənənəvi iqtisadiyyatdan innovativ həllərə əsaslanan iqtisadiyyata keçidin şərtləri müəyyənləşdirilmişdir. Təbii ki, insan kapitalının optimal inkişafını, o cümlədən, təkmilləşdirilmiş regional siyasətin həyata keçirilməsi, regionlar üzrə balanslılığın təmin olunması da zəruridir [37].

Eyni zamanda konsepsiyaya sosial-iqtisadi inkişaf üzrə müsbət nəticələrin əldə edilməsi, innovasiya yönümlü sosial siyasətin həyata keçirilməsi, ölkə əhalisinin daha yüksək səviyyəli texnologiyalara əsaslanan xidmətlərin təqdim edilməsi, elektron xidmətlərin formalaşdırılması, onlardan istifadənin səmərəliliyinin artırılması, mövcud bütün fəaliyyət sahələri idarə edilməsində demokratik prinsiplərin tətbiqi, şəffaflığın gücləndirilməsi, ölkənin beynəlxalq səviyyədə tanınmasının artırılması və milli maraqların qorunması və s. daxildir. Ümumilikdə, bu konsepsiya normativ baza kimi innovativ siyasətin əsas istiqamətlərini, məqsəd və hədəflərini müəyyən etməyə imkan verir.

Sosial innovasiya siyasəti ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, sosial infrastrukturun yenilənməsinə istiqamətləndirilmişdir və bu çərçivədə müxtəlif strategiyaları, konsepsiyaları əhatə edir. Bu zaman tədbirlərin aşağıdakı ardıcıllıqla həyata keçirilməsi lazımdır:

- əlverişli sosial mühitin analizinin aparılması;
- innovativ xarakterli proqramların, konsepsiyaların və strategiyaların işlənməsi;
- nəzərdə tutulan layihə və proqramların həyata keçirilməsi;
- əldə edilən yekun nəticələrin dəyərləndirilməsi.

Azərbaycan 2020: gələcəyə baxış konsepsiyası su təsərrüfatı, nəqliyyat, rabitə, sənaye, energetika, təhsil, səhiyyə kimi infrastruktur sahələrini əhatə etmiş və aşağıdakı məqsədləri birləşdirmişdir:

- təhsil, səhiyyə sahələrində inkişafa diqqətin artırılması, savadlı kadrların formalaşdırılması, qlobal üstünlükləri birləşdirən inkişaf modelinə keçid;
- bərpa olunan və alternativ enerji mənbələrindən istifadə dərəcəsinin yüksəldilməsi;
- su təchizatının yaxşılaşdırılması, suyun keyfiyyətinə nəzarətin gücləndirilməsi, sutəmizləyici qurğuların tətbiqinin genişləndirilməsi;
- tranzit və nəqliyyat xidmətlərinin inkişafı, logistik mərkəzlərin formalaşdırılması;
- regional inkişaf prioritetləri nəzərə alınmaqla, infrastruktur və investisiya siyasətinin və biznesin investisiya strategiyalarının uyğunlaşdırılması;
- ölkənin iqtisadi rayonları arasında əhalinin həyat səviyyəsi və yaşayış keyfiyyəti üzrə yaranmış bərabərsizliyin aradan qaldırılması;
- hava limanlarının müasirləşdirilməsi, daha müasir texnologiyalarla tətbiqi;
- tikinti sahəsinin inkişafı;
- neft-kimya sektorlarının müasirləşdirilməsi;
- yoxsul təbəqənin yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial xidmətlərin təkmilləşdirilməsi;
- mümkün qədər əhalinin orta təbəqəsinin çoxaldılması;
- aztəminatlı ailələrin, qocaların lazımi səviyyədə sosial təminatla təmin edilməsi, onların

sosial müdafiəsinin təşkili [45].

Hazırda bütün dünya üzrə bərpa olunan və alternativ enerji sektorunun genişmiqyaslı və sürətli inkişafı davam edir, hətta demək olar ki, bu tədbirlər ənənəvi enerjinin artırılması üzrə layihələri belə üstələmişdir. Bu, davamlı inkişaf modelinin ekoloji aspekti ilə bağlıdır. Son zamanlar insanların artıq ekoloji probemlərə olan diqqətinin artırılması bağlı bu məsələ olduqca aktual hala gəldi.

Bununla əlaqədar olaraq, Parisdə 2015-ci ildə imzalanan iqlim sazişini xüsusi qeyd etmək olar. Sazişdə əsas məqsəd karbon emissiyalarının azaldılması, alternativ enerjiyə keçidin təmin edilməsi bağlı idi. Paris İqlim Sazişində yer alan proqnozlarına görə, 2050-ci ilə qədər karbon qazı emissiyaları tükənməyən enerji mənbələri vasitəsilə 70 %-ə qədər azaldılmalı idi [6].

Bu baxımdan Prezident İlham Əliyevin rolunu xüsusi qeyd etmək lazımdır, onun fəaliyyəti nəticəsində ölkəmiz də yeni dünya iqtisadi əlaqələrinin formalaşmasına cəlb edilmişdir.

Bu baxımdan Azərbaycan xalqının Qarabağ müharibəsindəki qələbəsi də mühüm rol oynamışdır. Son onilliklər ərzində Xəzər dənizində boru kəməri layihələrinin genişləndirilməsi, bir sıra enerji dəhlizlərinin yaradılması, regionda enerji resurslarının təchizatı üçün genişmiqyaslı nəqliyyat və logistika sisteminin yaradılmasına töhfə verir [42].

Məlum məsələdir ki, enerji ixracından əldə olunan gəlirlər ölkənin dövlət büdcəsinin mühüm hissəsini təşkil edir. Ona görə də hazırda ölkəmizdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir, iqtisadiyyatın inkişafı üçün enerji balansında bərpa olunan enerjinin payının yüksəldilməsi üzrə əlverişli investisiya mühitinin yaradılması nəzərdə tutulur.

## Ədəbiyyat

**Azərbaycan dilində**

1. Ağayev R., Mehtiyev A. (2021). Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik problemi. Demokratik Təşəbbüslər İnstitutu (IDI). s. 7
2. Ağayev A. (2022). Yuxarı Qarabağ iqtisadi rayonu və kiçik biznesin inkişaf meyllərinin nəzəri-metodoloji əsasları. ISCEMR. s. 51
3. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi haqqında Sərəncam. 2022
4. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Fərman. Bakı şəhəri. 2012
5. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında fərman. 2019
6. Babayev C. (2022). Azərbaycanın bərpa olunan enerji sahəsinin inkişafında investisiyaların rolu. Məqalə. s. 175
7. Feyziyev C. (2021). Böyük qayıdış Qarabağa əbədi xoşbəxtlik gətirəcək. Xalq qəzeti. s. 4
8. Hacıyeva A. (2022). İşğaldan azad olunmuş ərazilərimizdə yeni iqtisadiyyat quruculuğu və logistikanın strateji əhəmiyyəti. ISCEMR. s. 105
9. Hacızadə E. (2006). Sosiallaşan iqtisadiyyat. Bakı. Elm. s. 50
10. Qasımova D. (2022). Qarabağ regionunun kənd təsərrüfatı potensialının qiymətləndirilməsi. IV Beynəlxalq Elmi konfrans. 224
11. Qasımov E., Ələkbərov E. (2022). İqtisadi inkişafda nəqliyyat dəhlizlərinin rolu. s. 311
12. Rəhmanov F. (2004). Sosial infrastrukturun tənzimlənməsi problemləri. Gənclik nəşriyyatı. s. 23

**Türk dilində**

13. Mustafayeva R., Gambarova R., Abbasova Y. (2020). Azerbaycan Cumhuriyetinin bölgesel kalkınmasının ekonomik değerlendirmesi ve devletin bölgesel politikasının ana yönleri. Azerbaycan Devlet Tarım Üniversitesi, Ekonomi Bölümü, Gence, s. 22, 23

**İngilis dilində**

14. Albino V., Berardi U., Dangelico R. (2015) Smart Cities: definitions, dimensions, performance initiatives. Journal of urban technology, p. 8
15. Dameri R.P. (2017) Smart city implementation. Springer, Heidelberg, p. 59

16. Hosrov G. (2022). The green economy transition: The challenges pf technologica change for sustainsbility. ISCEMR. p. 449
17. Goldsmith H. (2015). Actors and innovations in the evolution of infrastructure services. The Economics of Infrastructure Provisioning, p. 23
18. Mises L., (2007). Human Action: A Treatise on Economics. Indianapolis. p. 57

**Rus dilində**

19. Алиев Т.Н. (2020). Оценка институциональных преобразований в экономике Азербайджана. The scientific heritage No 49. с. 8
20. Быковская И. (2010). Формирование и развитие социальной инфраструктура региона. Ставрополь. с. 12
21. Бородатова Л. Ю. (2013). Развитие социальной инфраструктуры в экономическом пространстве: теоретический аспект. Современные проблемы науки и образования. с. 12, 14
22. Гасанов А.М. (2014). Политика национального развития и безопасности Азербайджанской Республики. Баку. с. 672
23. Николаевич А.И. (2011). Социальная инфраструктура общества условиях рыночной экономики. Казан. с. 13-14
24. Лаврук Л. Г. (2016). Сущность и род социального развития организации у современных условиях. Донецкая академия управления и государственной службы. с. 217
25. Рамазанова Д. (2022). Умные города на освобождённых территориях - новый шаг в развитии инфраструктуры Азербайджана. ISCEMR. С. 228
26. Стратегическая Дорожная Карта по перспективам национальной экономики Азербайджанской Республики. Баку. 2016. с. 125
27. Зверев А.В. (2011). Систематизация и классификация социальной инфраструктуры

**İnternet resursları**

28. https://www.azerbaijans.com/content_1034_ru.html
29. https://www.trend.az/azerbaijan/politics/3653477.html
30. https://president.az/az/articles/view/50474
31. http://www3.weforum.org/docs/GCR2017-2018/05FullReport/TheGlobalCompetitivenessReport2017%E2%80%932018.pdf
32. https://bakuresearchinstitute.org/azerbaijan-2030-a-vision-of-the-future-2/
33. https://www.oecd.org/eurasia/competitiveness-programme/PromotingEnterpriseDigitalisationAzerbaijanAZE%20.pdf
34. https://www.oecd-ilibrary.org/sites/fe46753c-ru/index.html?itemId=/content/component/fe46753c-ru
35. https://ru.president.az/articles/31521.
36. http://www.mincom.gov.az/ru/view/structure/
37. https://president.az/files/future_ru.pdf.
38. https://www2.deloitte.com/content/dam/Deloitte/ru/Documents/research-center/business-outlook-in-Azerbaijan-2017.pdf.
39. https://spravochnick.ru/gosudarstvennoe_i_municipalnoe_upravlenie/vidy_socialnoy_infrastruktury/
40. https://science-education.ru/ru/article/view?id=8810
41. https://president.az/az/articles/view/7022
42. https://www2.deloitte.com/content/dam/Deloitte/ru/Documents/research-center/business-outlook-in-Azerbaijan-2017.pdf.

**SUMMARU**

**THE LEGISLATIVE BASE OF THE STATE REGULATION OF THE DEVELOPMENT OF SOCIAL INFRASTRUCTURE IN AZERBAIJAN IN THE MODERN PERIOD**

***Safarova F.***

***Keywords****: social infrastructure, standard of living, socio-economic development.*

The development of social infrastructure in any country is considered one of the important economic

directions. Social infrastructure covers various aspects of the standard of living of the population, and also plays an important role in providing the country's economy with labor resources. The development of social infrastructure is a very long and complex process, and it requires the availability of resources from various business entities to ensure it. The most characteristic aspect of Azerbaijan's social development model is the creation of social, economic and market infrastructure in our country with strong state support. Because without the restoration and development of the infrastructure that failed in the first years of independence, it is impossible to achieve dynamic and sustainable development of the national economy.

**РЕЗЮМЕ**
**ЗАКОНОДАТЕЛЬНАЯ БАЗА ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ РАЗВИТИЯ СФЕР СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В АЗЕРБАЙДЖАНЕ В СОВРЕМЕННЫЙ ПЕРИОД**
***Сафарова Ф.***

***Ключевые слова**: социальная инфраструктура, уровень жизни, социально-экономическое развитие.*
Развитие социальной инфраструктуры в любой стране считается одним из важных экономических направлений. Социальная инфраструктура охватывает различные аспекты уровня жизни населения, а также играет важную роль в обеспечении экономики страны трудовыми ресурсами. Но развитие социальной инфраструктуры-очень длительный сложный процесс, и для ее обеспечения необходимо наличие ресурсов различных хозяйствующих субъектов. Наиболее характерным аспектом модели социального развития Азербайджана является создание социальной, экономической и рыночной инфраструктуры в нашей стране при сильной поддержке государства. Потому что без восстановления и развития инфраструктуры, вышедшей из строя в первые годы независимости, невозможно добиться динамичного и устойчивого развития национальной экономики.

# COĞRAFİYA DƏRSLİKLƏRİNDƏ "ƏSRİN MÜQAVİLƏSİ"- İLƏ ƏLAQƏLİ MÖVZULARIN KOMPLEKS İNTEQRATİV TƏHLİLİ

**Ağaməmmədov Namiq Tahir oğlu**
*Azərbaycan Respublikası Təhsil İnstitutu, Bakı, Azərbaycan, c.f.d.*
naqamemmedov@mail.ru

***Açar sözlər:** "Əsrin müqaviləsi", kənd təsərrüfatı, aqroturizm, coğrafi şərait, inkişaf səviyyəsi, "yaşıl inqilab"*

***Xülasə.** Fənn kurikulumlarının IX, X siniflər üçün nəzərdə tutulmuş dərs vəsaitlərində "Azərbaycanın iqtisadi inkişafı" mövzusu əsasən 1993-cü il sentyabrın 20-də bağlanmış "Əsrin Müqavilə" sinin Azərbaycanın sosial-iqtisadi inkişafında rolundan bəhs edir. Əldə olunan neft gəlirləri iqtisadiyyatın diversifikasiyasına və sosial sahələrin dinamik inkişafına səbəb olmuşdur. Məqalədə "Əsrin Müqavilə" sinin Azərbaycanda kənd təsərrüfatının və turizmin formalaşmasına təsirləri təhlil olunur.*

Sosial-iqtisadi layihələrin həyata keçirilməsi, təhsil sahəsində islahatların aparılması, yeni fənn kurikulumlarının hazırlanması üçün ölkənin maliyyə resursları mühüm əhəmiyyətə malikdir. Çünki müasir innovasiyaların tətbiqi zamanı informasiya-kommunikasiya texnologiyarından istifadə zərurəti əmələ gəlir. Qeyd olunan avadanlıqların alınması üçün isə iqtidadi resurslara ehtiyac vardır. Azərbaycan Respublikası müstəqillik qazandığı (18 oktyabr 1991-ci il) ilk dövrlərdə iqtisadiyyatın tənəzzülə uğraması, istehsalat sahələri arasında olan uyğunsuzluqlara görə mürəkkəb vəziyyətə düçar olmuşdu. Çatışmazlıqlar elm və təhsil sahəsində də özünü açıq şəkildə biruzə vermişdir. Belə ki, təhsil müəssisələrinin zəif maddi-texniki bazası, müəllimlərin aşağı əmək haqqı davamlı və dayanıqlı inkişafı ləngitmişdir. Ona görə də Azərbaycan dövləti tərəfindən müxtəlif maliyyə mənbələrinin axtarılması və ölkəyə investisiya cəlb olunması üçün cəhdlər təşkil olunmuşdur. Lakin nəzərə almaq lazımdır ki, xarici investorlar (donorlar) o zaman maliyyə yatırımı həyata keçirirlər ki, ölkədə sabit iqtisadi və siyasi şərait olsun. Müstəqilliyin ilk illərində isə belə bir şəraitdən söhbət gedə bilməzdi. İlkin varianta "Dünya Bankı" nın vəsaitlərindən istifadə qərara alındı. Əlbəttə ki, bu tam həll variantı deyildi, çünki xarici borclanma artırdı.

1993-cü il iyun ayının 15-də ümummilli lider Heydər Əliyev siyasi hakiməyyətə gəldikdən sonra daxili resursların səmərəli istifadəsi üçün istiqamətlər müəyyən etdi. İstiqamətlərdən biri kimi karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması, xarici investorların ilkin mərhələdə neft-qaz sektoruna maliyyə yönləndirməsinə nail olmaq idi. Nəticə olaraq 1994-cü ilin 20 sentyabr tarixində Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi üçün 6 ölkəyə məxsus 10 ən məşhur neft şirkəti ilə müqavilə imzalandı [7]. Əldə olunan gəlirlərdən məqsədyönlü istifadə üçün vəsaitlər Azərbaycan Dövlət Neft Fonduna transfer olundu. Çıxarılan neft və qazın dünya bazrına nəqli üçün ETİ dövrünə məxsus üsullardan biri olan boru-kəmər nəqliyyatı layihələri uğurla icra olunmağa başladı. Bakı-Tbilisi-Ceyhan (2006), Bakı-Ərzurum (2007) qaz kəmərləri daha çox diqqəti cəlb edir. Azərbaycan Dövlət Neft Fonduna transfer olunan vəsaitin səmərəli istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (ilk Proqram 2004-2008-ci illər) hazırlandı və 2004-cü ildən etibarən həyata keçirilməyə başlandı. Eyni zamanda sosial-iqtisadi sahələrin diversifikasiyası həyata keçirildi ki, bu da öz növbəsində qeyd olunan sferada keyfiyyət dəyişikliklərinə səbəb oldu. Təhsil sahəsində fənn kurikulumlarının yenidən hazırlanması, məktəb tikintisi, İKT-nin tətbiqi sahəsində görülən işlər xeyli sürətləndi. "Əsrin Müqavilə" si ilə mövzular müxtəlif fənn kurikulumlarının tərkibinə daxil edildi. Bu fənlərdən biri də coğrafiyadır. IX, X siniflər üçün nəzərdə tutulmuş dərs vəsaitlərində "Azərbaycanın iqtisadi inkişafı" mövzusu daxilində "Əsrin müqavilə" si ilə bağlı məlumatlar verilməklə, şagirdlərə müxtəlif tapşırıqlar təklif olunur. Həmin mövzular iqtisadi coğrafiya ilə sıx əlaqəlidir.

Coğrafiya elmi iki əsas sahədən ibarətdir-fiziki, iqtisadi və sosial . Hər iki sahə bir-biri ilə vəhdət təşkil edir. Fiziki və iqtisadi coğrafiya öz növbəsində tərkibində ənənəvi və yeni sahələr olmaqla müxtəlif qolları birləşdirir (Şəkil 1).




***Şəkil 1**. Coğrafiyanın sahələri*

IX sinif dərs vəsaitində "Azərbaycanın iqtisadi inkişafı" mövzusunda qeyd olunur ki, "Əsrin müqavilə" si iqtisadiyyatda dönüş yaratdı və qeyri-neft sektorunun (nəqliyyat, aqrar, turizm, ticarət və s.) inkişafına səbəb oldu [1, səh.196-198]. Biz məqaləmizdə məhz bu konteksti əsas götürərək inteqrativlik yanaşmasını əsas götürdük və coğrafiyanın məzmun standartlarına uyğun olaraq "Əsrin müqavilə"sinin kənd təsərrüfatı, rekreasiya, nəqliyyat coğrafiyası sahələrinə təsir imkanlarını tədqiq etmişik. Məhz "Əsrin müqavilə" si bağlandıqdan sonra Azərbaycanda qeyd olunan sahələrə ciddi maliyyə transferləri olmuşdur. Əldə olunan neft qaz gəlirləri düzgün olaraq kənd təsərrüfatı, rekreasiya və nəqliyyat sahərinə də yönləndirilmişdir. Tədqiqatda rekreasiya istiqamətinin

aqroturizm sektorundan bəhs olunur.

Müqavilənin imzalanması Bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addım hesab etmək olar [5, s.3].

Müasir dövrdə dünya əhalisinin sürətlə artması onun ərzaq məhsulları ilə təminatını aktuallaşdırır. Ölkələr idxaldan asılılığı azaltmaq üçün müxtəlif tədbirlər həyata keçirir. Burada iki istiqamət fərqlənir: intensiv və ekstensiv. İntensiv yol aqrotexniki üsullarla məhsuldarlığın artırılmasını nəzərdə tutur. Əsas məqsəd keyfiyyət dəyişikliyinə nail olmaqdır. İntensiv kənd təsərrüfatı inkişaf səviyyəsi yüksək olan ölkələr üçün, ekstensiv kənd təsərrüfatı isə zəif iqtisadiyyata malik ölkələr səciyyəvidir. Hazırda bəzi inkişaf etməkdə olan ölkələrdə "yaşıl inqilab" baş verməkdədir. "Yaşıl inqilab"-ın mahiyyəti müasir aqrotexniki üsullardan istifadəni nəzərdə tutur. Artıq bu üsulların tətbiqi nəticəsində Türkiyə, Malayziya, Argentina və s. mühüm göstəricilər əldə etmişlər. Azərbaycanda kənd təsərrüfatının bəzi sahələrində intensiv metodun tətbiqi məhsuldarlığı artırmışdır. Əkinçilikdə-üzümçülük, badam bağları, taxılçılıq qismən, heyvandarlıqda quşçuluq, qismən iri buynuzlu heyvandarlıqda irəliləyiş əldə olunur. Suvarmada damçı üsulundan istifadə, kimyəvi preparatlardan istifadə, yüksək məhsuldarlıqlı bitki sortlarının ölkəyə gətirilməsi müsbət qiymətləndirilməlidir. Getdikcə ölkədə Aqrar-sənaye kompleksi formalaşmaqdadır. Azərbaycanda torpaq islahatı zamanı özəlləşmə getdiyi üçün əsas kənd təsərrüfatı müəssisələri özəl sektorun nəzarətindədir. Bu sahədə əsas paya malik şirkətlər (sırf kənd təsərrüfatı və Aqrar-sənaye kompleksi)-"AZƏRSUN", "GİLAN", "AZZA AQRO", "SƏBA", "MƏRCAN BROYLER", "SİYƏZƏN BROYLER", "Az-Granata", "AZNAR", "VEYSƏLOĞLU" şirkətlər qrupunu və s. qeyd etmək olar (Şəkil 2).



***Şəkil 2**. "Az-Granata" MMC, Ağsu rayonu*

Aqrar inkişaf perspektivli dağlıq və düzənlik ərazilərdə kənd təsərrüfatı sahələrinin sahələrinin inkişafında təbii-coğrafi amillərin rolunun öyrənilməsi, yeni şəbəkələrinin yaradılması üçün əlverişli imkan və istiqamətlərin müəyyənləşdirilməsi müvafiq elmi-praktiki təkliflərin hazırlanması əsas iqtisadi-coğrafi problemlərdir.

Aqroturizm fermalarda, təsərrüfatda istirahəti nəzərdə tutur, bu zaman turist kənd təsərrüfatı istehsalı ilə tanış olaraq prosesdə iştirak edə bilər. Regionda aqrar sektorun inkişafını yalnız hansısa bir göstərici ilə qiymətləndirmək mümkün deyildir. Kənd əhalisi üçün istehsal infrastrukturunun yetərsizliyi və müəssisələrin şəraitsiz olması, yaşayış məntəqələrinin avtomobillə təminatının zəif olması ərazidə ƏİK-lərin kompleks formalaşmasına imkan vermir. Aqroturizmdə turistlərə müxtəlif modelli xidmət modelləri təklif olunur. Artıq xidmət paketləri bir-biri ilə əvəz olunur. SSS ("Sea-Sun-Sand"-"Dəniz-Günəş-Çimərlik") modelinin LLL ("Lore-Landscape-Leasure"- "Bilik-Landşaft-Asudə vaxt") əvəz olunur [2, s.8]

"Bir çox regionlarda sosial infrastrukturun, rekreasiya təsərrüfatının dayanıqlı inkişaf səviyyəsinə nail olmaq üçün onun maddi-texniki bazasını yaxşılaşdırmaq, kadr təchizatını təkmilləşdirmə istiqamətli kompleks tövsiyələrdən səmərəli istifadə olunmamışdır" [3, s. 12].




***Şəkil 3**. Azərbaycanın ixrac boru kəmərləri.*
*Mənbə: XI sinif üçün coğrafiya dərs vəsaiti səh.138*

"Əsrin müqaviləsi" icra olunmağa başladıqdan sonra dinamik inkişafı daha nəzərəçarpan sahələrdən biri də boru kəmər nəqliyyatıdır [Şəkil 1]. Mövzu XI sinfin coğrafiya kitabında "Azərbaycanın nəqliyyatı və iqtisadi əlaqələri" adı altında şagirdlərə təqdim olunur. Boru kəmər nəqliyyatı ETİ dövründə xüsusi ilə karbohidrogen yüklərin uzaq məsafələrə daşınmasını təmin edir [6, 198]. Çıxarılan neft və qazın dünya bazarına ixracı üçün Bakı-Tbilisi-Ceyhan (1767 km) boru xətti çəkildi, Bakı-Supsa (837 km) və Bakı-Novorossiysk (1330 km) xətlərində daşınma artdı. "Şahdəniz" qazının daşınması üçün isə Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəməri (971 km) çəkildi. Dərslikdəki məlumatlarda 2021-ci ildə boru kəmərləri vasitəsi ilə 60,2 milyon ton yük daşındığı qeyd olunur (76,6% neft, 23,4 % qaz) [4, s.138]. Təhsilverən mövzunu izah edərkən coğrafiya ilə fizika və kimyanı inteqrasiya edə bilər. Yəni karbohidrogenlərin geoloji quruluşla əlaqəli yayılması (mezazoy və kaynazoy yaşlı süxurlarda), onların fiziki-kimyəvi xüsusiyyətlərini izah etməklə, boru kəməri ilə daşınması mümkünlüyünü izah edə bilər ki, bu da təhsilalanlarda motivasiyanı artırar.Aparılan araşdırmanın nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, "Əsrin müqavuləsi" ölkədə bütün sektorların, o cümlədən təhsilin dirçəlməsinə səbəb olmuşdur. Azərbaycanın beynəlxalq arenada mövqeyi güclənmiş, xarici investorların iqtisadiyyata sərmayə qoyuluşu artmışdır. Dərsin izahı zamanı inteqrativ meyillər coğrafiyanın mövzu üzrə kimya və fizika fənləri ilə assosiasiyasını labüd edir. İqtisadi-coğrafi təhlillər göstərir ki, neft-qaz gəlirləri iqtisadi və sosial sferanın modernləşməsinə və diversifikasiyasına səbəb olmuşdur.

## Ədəbiyyat


1. Əlizadə, E.K. Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün coğrafiyadan vəsait. Dərslik. / E.K. Əlizadə, N.S. Seyfullayeva, [və b.] -Bakı: Bakı,-2020.-204 s.
2. Gülalıyev G. Azərbaycanda aqroturizmin inkişafı üçün böyük potensial var// Mədəniyyət.-2011.- 12 yanvar.- S. 8.
3. Mahmudov, M.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. / M.M Mahmudov, İ.M.Mahmudova-Bakı: İqtisad Universiteti, -2011.- 370 s.
4. Seyfullayeva, N.S. Ümumi təhsil müəssisələrinin 11-ci sinifləri üçün coğrafiyadan vəsait. Dərslik. / N.S. Seyfullayeva, Z.T. İmrani, Y.Ə. Şabanova-Bakı: Bakınəşr,-2023.-208 s.
5. Səmədzadə Z. "Əsrin müqaviləsi" Müstəqil Azərbaycanın tarixində yeni mərhələdir// Respublika-2019.-20 sentyabr.-S.2-3.
6. Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün coğrafiyadan dərslik: Y.Q. Qəribov, O.K. Alxasov, Ş.H. Hüseyinli [və b.] -Bakı: Bakı,-2022.-208 s.
7. https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi

**SUMMARY**
**“CONTRACT OF THE CENTURY” IN GEOGRAPHY TEXTBOOKS - A COMPLEX INTEGRATIVE ANALYSIS OF TOPICS RELATED TO**
***Agamammadov N.T.***

***Keywords: “****Contract of the century”, agriculture, agrotourism, geographical conditions, level of development, "green revolution"*

In the textbooks for the IX and X classes of the subject curricula, the topic "Economic development of Azerbaijan" mainly talks about the role of the "Treaty of the Century" concluded on September 20, 1993 in the socio-economic development of Azerbaijan. The obtained oil revenues have led to the diversification of the economy and the dynamic development of social sectors. The article analyzes the effects of the "Contract of the Century" on the formation of agriculture and tourism in Azerbaijan.

**РЕЗЮМЕ**
**“КОНТРАКТ ВЕКА” В УЧЕБНИКАХ ГЕОГРАФИИ - КОМПЛЕКСНЫЙ ИНТЕГРАТИВНЫЙ АНАЛИЗ СМЕЖНЫХ ТЕМ**
***Агамамедов Н.Т.***

***Ключевые слова:*** *“Контракт века”, сельское хозяйство, агротуризм, географические условия, уровень развития, "зеленая революция"*

В учебниках для IX и X классов предметных программ тема «Экономическое развитие Азербайджана» в основном говорит о роли «Договора века», заключенного 20 сентября 1993 года, в социально-экономическом развитии Азербайджана. Полученные нефтяные доходы привели к диверсификации экономики и динамичному развитию социальных отраслей. В статье анализируется влияние «Контракта века» на формирование сельского хозяйства и туризма в Азербайджане.

# “ƏSRİN MÜQAVİLƏSİ”NİN NƏTİCƏLƏRİNİN ÖLKƏNİN İCTİMAİ-SİYASİ HƏYATNA TƏSİRİ

**Şamilova Aysel Məhəmməd qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, doktorant*
aysel.yaqubova5@mail.ru

***Açar sözlər:*** *ictimai, siyasi, proses, hüquq, demokratik, İlham Əliyev*

***Xülasə.*** *2003-cü ildən başlayaraq İlham Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə respublikada yeni, demokratik siyasi sistemin formalaşmasına, sivil cəmiyyət quruculuğunun sürətlənməsinə və sabit, davamlı inkişafa nail olunması üçün geniş hüquqi də digər islahatlar keçirildi. İslahatlar əsas insan hüquq və azadlıqlarının müdafiəsi və təmin edilməsində yeni keyfiyyət mərhələsinə yüksəlmiş, vətəndaş özünüidarəetmə cəmiyyətinin qurulması istiqamətində səmərəli nəticələrin əldə olunmasına, vətəndaşların dövlət idarəçiliyində iştirak səviyyəsinin yüksəldilməsinə şərait yaratmışdır. Bütün bunlar cəmiyyətdə ictimai-siyasi proseslətin məzmununada müsbət nəticələr yaratmışdır.*

1994-cü il 20 sentyabrda “Əsrin müqaviləsi”nin imzalanmasından keçən illər dövlətimizin tarixində böyük uğurların baş verdiyi xüsusi dövr kimi qiymətləndirilməlidir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci mərhələsinin əvvəlindən başlayaraq güclü dövlət, güclü iqtisadiyyat yaradılması üçün ardıcıl islahatlar kursu başlandı. Bütün bunlar dövlət müstəqilliyimizə qarşı yönəlmiş bütün təhdidlərə qarşə ciddi təminat yaratmış oldu. Vətəndaş həmrəyliyi cəmiyyətinin yaradılması sahəsində ilk addımlar atılmağa başlandı.

Bu uğurların ardınca 2003-cü ildən başlayaraq İlham Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə respublikada yeni, dinamik iqtisadi və demokratik siyasi sistemin formalaşması və sivil cəmiyyət quruculuğunun sürətlənməsinə və sabit, davamlı inkişafa, mənəvi dəyərlərin zənginləşməsinə, vətəndaş həmrəyliyinə əlverişli şərait yaranmış oldu.

XX əsrin iki onilliyində Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş bütün proseslərin yeni fərqli nəticələri cəmiyyət daxilində siyasi sabitliyi həmişə olduğundan daha çox möhləmləndirmiş, Azərbaycan dövlətinin, onun lideri İlham Əliyevin adının dünyanın aparıcı dövlətləri və onların başçılarının adları ilə bir sırada dayanmasını təmin etmişdir.

2003-ci ildən başlayaraq Azərbaycan dövləti öz intibahının yeni daha yüksək mərhələsinə qədəm qoydu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ardıcıl həyata keçirilən islahatlar çoxşaxəli olaraq respublikamızın regionun aparıcı və qüdrətli dövlətə çevrilməsinə şərait yaratdı.

Azərbaycanda sosial problemlərin həllində region ölkələri ilə müqayisədə mühüm işlər görülmüş, əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli dərəcədə yaxşı nəticələr qazanılmışdır.

2003-2023-cü illərdə Azərbaycanda hüquqi demokratik və vətəndaş həmrəyliyinə nail olunması dövlətin siyasi kursunda başlıca istiqamətlərdən birinə çevrilmiş oldu. Ölkədə söz azadlığının və digər vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülmüş işlər ilk nəticələrini göstərmişdir. Siyasi partiyaların sərbəst fəaliyyəti üçün hər cür şrait yaradılmış, onların fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün qanunvericilik bazası təkmilləşdirilmişdir.

Görülmüş işlərin ilk və ən əsas nəticəsi bu olmuşdur ki, hazırda siyasi həyatda müxtəlif ictimai hərəkat, cəmiyyət və partiyaların iştirakında fəallıq səviyyəsi dəyişmişdir. Digər tərəfdən, əvvəlki illərlə müqayisədə bu qüvvələrin təmsilçilərinin müxtəlif idarəçilik struturlarında da iştirakı vəziyyətində də müsbət dəyişiklər çoxdur. Bununla da, bu təşkilat və partiyaların ölkədə siyasi sisteminin qurulması və vətəndaş cəmiyyətinin formalaşmasında rolunun yüksəlməsi dövlətimizin beynəlxalq imicini də artırmışdır.

Demokratik dəyərlərin get-gedə güclənməsi, fərqli ictimai münasibətlərin yaranması yolu ilə vətəndaşların bütün kateqoriyalarının təmsilçilərinin ictimai-siyasi həyatda daha da artmışdır.

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə hazırlanmış “Azərbaycan –2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının respublada ictimai-siyasi proseslərin gedişi və məzmununa mühüm təsir göstərmiş ayrıca qeyd etmək lazımdır [3]. Əslində Konsepsiyanın meydana gəlməsi bu vaxta qədər görülmüş işlərin, qazanılmış nailiyyətlərin davamı olaraq yeni quruculuq vəzifələrinin, perspektiv hədlərin müəyyən edilməsi baxımından Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymas zərurətindən irəli gəlirdi. Beynəlxalq dairələrdə bizim bəzi əleyhdarlarımızın bədbin münasibətinə baxmayaraq bu mühüm dövlət sənədində əksini tapmış vəzifələrin reallaşdırılması dövlətimizin iqtisadi inkişaf səviyyəsi və beynəlxalq imicini xeyli artırmışdır.

Bu illərdə görülmüş işlərin labüd nəticəsi olaraq dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam şəkildə təmin olunması və vətəndaş cəmiyyətinin formalaşmasının yüksək səviyyəsi, bir sözlə, ölkənin siyasi həyatında əhəmiyyətli inkişafa nail olunmuşdur [1, s.184].

Nüfuzlu beynəlxalq təşkilatların son illərə aid məlumatlarına və digər statistik göstəricilərə əsasən Azərbaycanda qeyri-neft sektorunun ümumi iqtisadiyyatdakı xüsusi çəkisinin ilbəil artması, milli gəlirin çoxalması, insanların maddi rifah vəziyyətinin yüksəlməsi qazanılmış uğurların bir hissəsidir. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatların hesabatlarında da təsdiq edilir [6, s.4].

2003-cü ildən bəri innovasiya yönümlü fəaliyyətinin genişləndirilməsi ardıcıl iqtisadi inkişafa nail olmaq, elmi-texniki nailiyyətlərin son nəticələrinə əsaslanan iqtisadiyyatının formalaşdırılması və sürətləndirilməsi başlıca fəaliyyət istiqamətlərindən biri olmuşdur. Bu məqsədlə, elmin inkişafı onun ölkəmizdəki tarixinə və dünyada gedən meyllərə əsasən prioritetləşdiriləşdirilmiş və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesi davam etdirilmişdir.

Respublikada sosial müdafiə qanunvericiliyinin təkmilləşdirilməsi və bütövlükdə sisteminin təkmilləşdirilməsi, əhalinin müxtəlif təbəqələrinin etibarlı sosial müdafiəsinin təşkili məqsədilə həyata keçirilən islahatların səmərəsinin daha da yüksəldilməsi məqsədilə 2014–2020-ci illər üçün yeni Dövlət Proqramı hazırlanmış və nəzərdə tutulmuş vəzifələrin icrası təmin edilmişdir [10].

Azərbaycan Respublikasının müasir inkişaf strategiyasının əsas istiqamətləri baxımından vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi ən aktual məsələlər sırasında olmuşdur. Bu gün mövcud vəziyyət belədir ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və milli maraqlarının təmin olunması nəticəsində demokratiya daha da möhkəmlənmiş, vətəndaş cəmiyyətinin inkişafının əsas göstəricilərindən biri olaraq dövlət orqanları ilə siyasi partiyalar, ictimai təşkilatlar münasibətlərində əməkdaşlıq formalarının daha da təkmilləşdirilərək bu əlaqələrin fəaliyyət dairəsi daha da genişlənmişdir.

2003-cü ildən başlamış dövlətçiliyimizin yeni inkişaf mərhələsinin məzmununda əvvəlki illərlə müqayisədə fərqli cəhətlər çox olmuşdur. Bu sırada ilk növbədə cəmiyyət həyatının bütün sahələrində islahatlar xüsusi ilə genişlənərək son 20 ildə Azərbaycan xalqının qazandığı uğurların kökündə dayanmışdır. Həyata keçirilmiş islahatların başlıca yekunlarından, bəlkə də ən əsası budur ki, bu gün Azərbaycan əsas insan hüquq və azadlıqlarının müdafiəsi və təmin edilməsində yeni keyfiyyət dəyişikliklərinə nail ola bilmiş, vətəndaş özünüidarəetmə cəmiyyətinin qurulması üçün müsbət nəticələr əldə olunmuş, vətəndaşların dövlət idarəçiliyində iştirak səviyyəsinin yüksəldilməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hüquqi-demokratik islahatların həyata keçirilməsi zamanı bu məqamı xüsusilə vurğulamışdır ki, ölkədə islahatlar həm siyasi, həm də iqtisadi sahədə cəsarətlə aparılır. Dövlət başçısının mövqeyi tam əsaslandırılır ki, *"siyasi və iqtisadi islahatlar, iqtisadi artım və demokratikləşmə prosesləri paralel olaraq, bir-birini tamamlayaraq aparılmalıdır. Əks halda, iqtisadi vəziyyət yaxşılaşmasa, iqtisadi planlarımız həyata keçirilməsə, təbii ki, Azərbaycanda tam demokratik cəmiyyətin yaradılmasından söhbət gedə bilməz"* [8, s.1].

Ümumiyyətlə, XXI əsrin ilk illərindən başlanan sürətli inkişaf yolu ictimai həyatın bütün sahələrində demokratik islahatların gücləndirilməsi, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasının sürətləndirilməsi, dövlətçiliyin inkişafının sürətləndirilməsi, dövlət idarəçiliyini və həyatın sosial-iqtisadi sahələrini müasirləşdirən islahatlarla yadda qalmışdır.

Bu illərdə dövlətimizin uzun illər stabil inkişafını təmin etmək, müstəqil demokratik inkişaf yolunda yeni hədəfləri müəyyən etmək, müstəqilliyimizi qoruyub saxlamaq üçün görülmüş işlərin, reallaşdırılmış hüquqi islahatların ən mühüm istiqamətlərindən biri kimi, Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əhəmiyyətini ayrıca qeyd etmək lazımdır. *"Onların əsas nəticələri cəmiyyətdə mövcud sabitliyin və təhlükəsizliyin daha da möhkəmləndirilməsi olmuşdur"* [2, s.152].

Hüquqi demokratik islahatların aparıldığı və artıq müəyyən uğurların əldə olunduğu sahələrlə müqayisədə idarəetmə sahəsində struktur dəyişikliklərinin nəticələri deməyə əsas verir ki, onlar dövlət idarəçiliyində gələcək nailiyyətlərimizin asanlaşdırılması baxımından çox mühüm və aktualdır.

Bu islahatlarının ilk nəticələrinin təhlilindən aydın olur ki, idarəçilik strukturlarındakı səmərəsiz, vaxtı keçmiş formalarının optimallaşdırılması və bununla da qənaət edilən vəsaitlərin regionların inkişafına yönəldilməsi ilə əhəmiyyətli dövlət vəsaitlərinə qənaət etməyə və inkişaf perspektivlərinin daha sürətlə seçilməsinə imkan verir.

Eyni zamanda, əsas insan hüquq və azadlıqlarının müdafiəsi və təmin edilməsi sahəsində beynəlxalq təcrübə və dünya standartları əsasında yeni qanunlar və digər sənədlər hazırlanmışdır.

Hüquqi demokratik islahatların həyata keçirilməsi istiqamətində görülmüş işlərin başlıca nəticələrindən biri budur ki, bu illərdə dövlətimiz fundamental insan hüquq və azadlıqlarının təmini sahəsində yüksək nailiyyətlər əldə etmiş və qısa müddət ərzində əsrlər boyu dünyanın aparıcı dövlətlərinin əldə etdiyi nəticələrə nail ola bilmişdir.

Bunlara cəmiyyət həyatının demokratkləşdirilməsində hüquqi islahatların dərinləşməsi, gender bərabərliyinin və ya qadınların cəmiyyətdə rolunun yüksəldilməsi, ictimai-siyasi həyatda gənclərin və onalrın təmsil olunduğu ictimai təşkilatların fəaliyyətinin güclənməsi, vətəndaş həmrəyliyinin təmin olunmasına xidmət edən bütün mümkün vasitələrdən istifadə edilməsi və s. göstərə bilərik.

Azərbaycan cəmiyyətində gedən ictimai-siyasi proseslərdə siyasi partiyalar mövcud demokratik qanunvericiliyin norma və prinsiplərinə uyğun olaraq fəaliyyət göstərməsi də diqqəti

cəlb edir. Azərbaycan Respublikasında bütün siyasi partiyalar qanun qarşısında bərabər olaraq, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili, dövlət orqanlarına seçdikləri təmsilçiləri vasitəsilə hakimiyyət strukturlarının fəaliyyətində iştirak etmək imkanı əldə edirlər.

Bu illərdə keçirilmiş hüquqi islahatlar vətəndaşların, xüsusi ilə də siyasi partiyaların ictimai-siyasi fəallığının genişlənməsi imkanlarını daha da artırmışdır. Siyasi partiyaların ictimai-siyasi fəallığının bu cür artması Azərbaycan cəmiyyətinin müasir dünya siyasi sisteminə inteqrasiyasının daha bir göstəricisi olmuşdur.

2020-ci ilə qədər ərazi bütövlüyümüzün bərpa edilməsi, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin başlıca istiqamətlərindən biri olmuşdur. Bu problemin həlli, demək olar ki, bir çox baxımdan ibrətamizdir. Zəfər müharibəsinə qədər olan müddətdə siyasi baxışından, harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların Dağlıq Qarabağ məsələsində həmrəylik nümayiş etdirmələri fəxarətlə qeyd edilməlidir.

İlham Əliyevin hakimiyyəti illərində, milli hislərin ideyaların təkamülünü bir sıra mühüm əlamətlər şərtləndirmişdir ki, onlardan biri, həmin ideologiyanın tarixinə elmi, ictimai-siyasi və mədəni marağın indiyə qədər görünməmiş bir şəkildə artmasıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın cəmiyyət həyatının bütün sahələrində ciddi uğurlar qazanması dövlətimizin beynəlxalq nüfuzunun və siyasi imicinin artmasına mühüm yardım göstərmişdir.

Keçən illər ərzində əldə edilmi uğurların digər bir mühüm sahəsi dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, dövlətin hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarının möhkəmləndirilməsi olmuşdur. Bu gün dünyada milli-dini-irqi müxtəlifliyə münasibətdə müşahidə edilən belə kədərli mənzərə ilə müqayisədə Azərbaycandakı vəziyyət tamam fərqlidir. Ölkəmizdə multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir [9, s.8].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Sərəncamında qarşıya qoyulmuş məqsədlərə nail olunması cəmiyyətimizdə bu problemin inkişafına necə böyük əhəmiyyət verildiyinin səviyyəsini əyani şəkildə göstərir [12, s.1].

XX əsrin ortalarından başlayaraq bu günədək ictimai – siyasi həyatda keçilmiş yolun təhlili bir daha göstərir ki, qadınların siyasi həyatda iştirakının artırılması vacibdir [4].

Qeyd etmək lazımdır ki, son onillilərdə gender bərabərliyinin təmin edilməsi və qadın hüquqlarının qorunması üzrə qlobal miqyasda görülmüş işlərin miqyası və bu işlərin şəffaflıq dərəcəsi daha yüksəkdir [5]. Xüsusi olaraq bu istiqamətdə informasiya təminatının artması, təbliğat işlərinin miqyasının gücləndirilməsi görülmüş işlərin səmərəlilik dərəcəsinin daha da artmasına xidmət etmişdir.

Bu illərdə respublikada qadınların problemlərinin həlli üçün əlaqədar strukturların fəaliyyətinin bir istiqamətə yönəldilməsi və səfərbər edilməsi bu sahədə fəaliyyətin əsas istiqamətlərindən biri olmuşdur [4].

Ölkə Prezidenti bununla bağlı dövlət orqanlarında, rəhbər vəzifələrdə çalışan qadınların sayının artmasına, o cümlədən qadınların qeyri-hökumət təşkilatlarının rəhbərləri olmalarını xüsusi diqqət mərkəzində saxlamışdır [11].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev18 oktyabr 2023-cü ildə keçirilmiş Azərbaycan qadınlarının VI qurultayına ünvanladığı təbrikdə demişdir ki, *“qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar eyni zamanda maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş*

*meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir*” [7, s.202-203]

Beləliklə, Prezident İlham Əliyevin ölkəmizdə vətəndaş cəmiyyəti qurulmasının təmin edilməsinə istiqamətlənmiş məqsədyönlü fəaliyyəti Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilməsini təmin etmişdir. Bu illərin uğurları sırasında xalqımız vahid məqsədlərin reallaşdırılması istiqamətində daha sıx birləşə bilməsini, zamanın çağırışlarına uyğun olaraq müasir intellektual əsaslarda yeni demokratik modern cəmiyyət kimi tanınmağa nail ola bilməsini ilk olaraq qeyd etmək vacibdir.

## Ədəbiyyat


1.Abbaszadə Nigar. Azərbaycanın güclü rifah dövlətinə çevrilməsi // Bakı: Tarix və onun problemləri, - 2021. №2, - s.181-186.
2.Abbaszadə Nigar. Azərbaycan Respublikasında Konstitusiya islahatları və dövlətçiliyin möhkəmləndirilməsində onların rolu // Bakı: Tarix və onun problemləri, - 2019. №1, - s.150-154.
3.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası: [Elekrton resurs] / URL: http://agdam-ih.gov.az/az/azerbaycan-2020-geleceye-baxis-inkisaf-konsepsiyasi.html
4.Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına: [Elekrton resurs] / URL: // https://president.az/az/articles/view/61755
5.Azərbaycan Respublikasının Milli Məclisi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin çıxışı: https://meclis.gov.az/documents/27.12.2021.pdf
6.Anar Turan. Azərbaycanın onillik inkişaf konsepsiyası // Xalq. - 2021, - 14 fevral. - s.4.
7.Əliyev İlham. İnkişaf - məqsədimizdir: yüz otuz birinci kitab: sentyabr 2013-noyabr 2013. Azərnəşr, Bakı: - 2023. - 392 s.
8.Həsənov, Ə.M. Möhtəşəm zəfər salnaməsi: Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq // Azərbaycan. - 2018, 13 oktyabr. s.1-2.
9.Muradov, Fuad. Yeni ildə soydaşlarımız azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşəcəklər // Xalq. - 2019, - 31 dekabr. - s. 8.
10.“2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası”nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [Elekrton resurs] / URL: https://e-qanun.az/framework/28572
11.Азербайджанские женщины активно участвуют в социально-экономической жизни страны [Elekrton resurs] / URL: // https://report.az/ru/vnutrennyaya-politika/rol-azerbajdzhanskih-zhenshin-v-socialno-ekonomicheskoj-i-v-obshestvenno-politicheskoj-zhizni-strany/
12.“2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. 12 mart 2016. s.1.


## SUMMARY
## THE IMPACT OF THE RESULTS OF THE ”TREATY OF THE CENTURY" ON THE SOCIO-POLITICAL LIFE OF THE COUNTRY

***Shamilova A.M.***

***Key words:*** *social, political, process, law, democratic, Ilham Aliyev*

Starting from 2003, under the leadership of Ilham Aliyev, extensive legal and other reforms were carried out in the republic in order to form a new, democratic political system, accelerate the construction of a civilized society, and achieve stable, sustainable development. The reforms have reached a new level of quality in the protection and provision of basic human rights and freedoms, have created conditions for achieving effective results in the direction of building a civil self-management society, and raising the level of citizens' participation in state administration. All this has created positive results in the content of the socio-political process in the society.

**РЕЗЮМЕ**
**ВЛИЯНИЕ РЕЗУЛЬТАТОВ «КОНТРАКТА ВЕКА»**
**НА ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКУЮ ЖИЗНЬ СТРАНЫ**
***Шамилова А.М.***

***Ключевые слова:*** *социальный, политический, процесс, закон, демократический, Ильхам Алиев*

Начиная с 2003 года под руководством Ильхама Алиева в республике были проведены обширные правовые и другие реформы в целях формирования новой, демократической политической системы, ускорения строительства цивилизованного общества, достижения стабильного, устойчивого развития. Реформы вышли на новый качественный уровень защиты и обеспечения основных прав и свобод человека, создали условия для достижения эффективных результатов в направлении построения гражданского самоуправляющегося общества, повышения уровня участия граждан в государственной жизни. администрация. Все это создало положительные результаты в содержании общественно-политического процесса в обществе.

# "ƏSRİN MÜQAVİLƏSİ"SİNİN SUMQAYIT ŞƏHƏRİNDƏ SOSİAL PROBLEMLƏRİN HƏLL EDİLMƏSİNƏ TƏSİRİ

**İbrahimli Mehin Bayram qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
Mehin.m.96@mail.ru

***Açar sözlər:*** *Sumqayıt, sosial problemlər, sosial təminat, aztəminatlı ailələr, dövlət qayğısı, mühribə veteranları, həyat səviyyəsi*

*Təqdim olunan məqalədə Sumqayıt şəhərində yoxsulluğun azaldılması və əhalinin məşğulluğunun artırılması, infrastruktur layihələrinin icrasının uğurla davam etdirilməsi, bütün sahələrdə insanların rifahının daha da yüksəldilməsi istiqamətində görülən tədbirlər həyata keçirilib. Şəhər həyatının şəraiti, əhalinin aztəminatlı təbəqələrinə dövlət büdcəsindən ödənilən ünvanlı dövlət yardımı, o cümlədən xüsusi kateqoriyadan olan vətəndaşlara sosial müavinətlərin verilməsi, müharibə iştirakçılarına dövlət yardımının göstərilməsi, xidmət sahələri təhlil edilmiş və araşdırılmışdır*

Sumqayıt şəhərində yoxsulluğun azaldılması və əhalinin məşğulluğunun artırılması istiqamətində görülən tədbirlər insanların rifah halının yüksəlməsinə səbəb olmuşdur. 2003-cü ildən etibarən şəhər iqtisadiyyatının genişləndirilməsi əhalinin sosial təminatının və rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər yola saldığımız ildə (2009-cu il) də davam etmişdir. 2009-cu ilin yekunlarına görə Sumqayıt şəhərində ümumməhsul buraxılışının həcmi 392 milyon manat təşkil etmişdir. Son 6 il (2003-2009-cu illər) ərzində şəhər üzrə məhsul buraxılışı və sənaye xarakterli xidmətlərin həcmi 2 milyard 440 milyon manat olmuşdur. Bütün sahələrdə çalışan işçilərin orta aylıq əmək haqqı 2009-cu ildə ötən illə müqayisədə 10 fazi artaraq 260 manat həddini ötmüş, son 6 il ərzində bu göstərici şəhər üzrə 4 dəfə artmışdır... Ayrı-ayrı sahələrin inkişafına 150 milyon manat dəyərində sərmayə cəlb edilmişdir. [2, s.2]

2009-cu ilin yanvar-dekabr aylarında şəhərin sosial-iqtisadi nəticələrinin təhlili göstərdi ki, dünyada baş verən iqtisadi böhrana baxmayaraq şəhərin qeyri-dövlət sektorunda məhsul istehsalı artmış, xidmət sahələrinin fəaliyyəti genişlənmiş, əhalinin həyat səviyyəsi əks etdirən gəlirlər və əmək haqqı yüksəlmişdir. Yanvar-dekabr aylarında iri və orta sənaye müəssələrində çalışan işçilərin orta siyahısı 11,8 min nəfər təşkil etmişdir. Hər bir işçiyə hesablanan orta aylıq əmək haqqı 258,6 manat olmuşdur. [1, s.2]

Son illərdə özünün sabit plana uyğun yüksək inkişaf səviyyəsini qoruyub saxlayan və daha da genişləndirən Sumqayıtda cari ilin I rübü ərzində şəhər həyatının bütün sahələrində insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldilmiş infrastruktur layihələrin, abadlıq və quruculuq işlərinin həyata keçirilməsi uğurla davam etdirilmişdir. Hesabat dövründə şəhərdə sosial-iqtisadi sahədə çalışan işçilərin orta aylıq əmək haqqı 260 min manat təşkil etmiş və son 7 il ərzində 4 dəfə artmışdır. Şəhərdə bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafına 20 milyon

manat, 2003-cü ildən etibarən isə ümumilikdə 1 milyard 525 milyon manatdan çox investisiya yönəldilmişdir. [4, s.2]

Şəhər rəhbərliyi həm Sumqayıtın mövcud xarici partnyor şəhərləri, həm də Avropanın ayrı-ayrı şəhər birlikləri ilə qarşılıqlı səmərəli münasibətlər çərçivəsində ekologiya və energetikanın idarə edilməsi üzrə intensiv təcrübə mübadiləsi aparmışlar. Almaniyanın Lüdviqshafen şəhəri ilə birlikdə Sumqayıt şəhərində tullantıların idarə edilməsi konsepsiya və çirklənmiş ərazilərin kadastrı hazırlanmışdır. Avropa Birliyinin ən aktual layihəsi olan və yerli idraəetmə orqanlarının dəstəyi ilə 2020-ci ilədək zərərli qazların həcmini 20 faiz azaltmağı, enerji səmərəliliyini 20 faiz artırmağı nəzərdə tutan "Merlər" sazişi təşəbbüsünə ilk reaksiya verən region şəhərlərindən biri də Sumqayıt olmuşdur. Hazırda Merlər sazişinə hazırlıq məqsədi ilə Avropa ekspertləri tərəfindən Sumqayıtın davamlı energetika üzrə inkişaf planı üzərində iş yekunlaşmaq üzrədir. Sumqayıtın ekoloji təmizliyi sənaye müəssisələrindən atmosferə buraxılan qazların Xəzər hövzəsinə axıdılan çirkab suların qarşısının alınması şəhərdə turizmin inkişafı üçün yeni imkanlar açır. [18, s.4]

Hesabat dövründə kiçik sənaye müəssisələrində istehsalın həcmi 4661,4 min manat təşkil etmişdir ki, bu ötən ilə nisbətən 32, 4 faiz artıqdır. İri və orta sənaye müəssiələrində çalışan işçilərin orta sayı 11,4 min nəfər təşkil etmişdir. Hər bir işçiyə hesablanan orta aylıq əmək haqqı 260 manat olmuşdur. [3, s.2]

Ölkəmizin dinamik inkişafı həyatımızın bütün sahələrində uğurla aparılan irimiqyaslı islahatlar, qazanılan müvəffəqiyyətlər Sumqayıt şəhərində hərtərəfli və dinamik inkişafına geniş imkanlar yaratmış, onun inkişafı yeni, müasir istehsalatların yaradılması, şəhərin ən yüksək səviyyədə abadlaşdırılması, burada yaşayan insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldilmiş layihələr məhz ölkə prezidentinin Sumqayıta olan xüsusi diqqət və qayğısı nəticəsində öz həllini tapmış və bu istiqamətdə işlər uğurla davam etdirilmişdir. 2012-ci il ərzində Sumqayıt şəhərində keçirilən əmək yarmarkalarında 12 dövlət, 23 qeyri dövlət və 10 fiziki şəxs tərəfindən 509 boş iş yeri təqdim olunmuşdur. 680-nə yaxın işsiz və işaxtaran vətəndaşın iştirak etdiyi yarmarkada 334 nəfər iş axtaran vətəndaşa göndəriş verilmiş, bundan əlavə 110 nəfər peşə hazırlığı kursuna və 50 nəfər isə ictimai işlərə cəlb olunmuşdur. [17, s.1]

İl ərzində şəhərdə həyata keçirilən tədbirlər nəticəsində hamısı daimi olmaqla 2915 yeni iş yeri yaradılmışdır. Dövlət sosial müdafiə fondunun Sumqayıt şəhər şöbəsində 18737 fiziki, 4176 hüquqi şəxs uçota alınmışdır ki, bu da ötən ilin yeni dövrü ilə müqayisədə müvafiq olaraq 27 və 68,5 faiz çoxdur. Ödənilən təqaüdlərin bir nəfər düşən orta aylıq məbləği 156 manat təşkil edir ki, buda əvvəlki illə müqayisədə 6 faiz artım deməkdir. Əhalinin sosial müdafiəsi mərkəzində hesabat dövründə 5754 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir. 2010-ci ildə aparılmış təyinatların məbləği 816,5 min manat, bir ailəyə düşən orta məbləğ 142 manat olmuşdur ki, bu da əvvəlki ilə müqayisədə 11,5 faiz çoxdur. [17, s.1]

Bugün ölkəmizdə sosial müdafiənin diqqət çəkən mühüm tərəflərindən biri az təminatlı insanlara dövlət büdcəsi hesabına ödənilən ünvanlı dövlət yardımının, o cümlədən xüsusi kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin verilməsidir. Bunun nəticəsində az təminatlı təbəqə, xüsüsu ilə də müharibə iştirakçıları dövlət qayğısını öz üzərində hiss edir... Sumqayıt şəhərində ümumilikdə minə yaxın müharibə əlili və şəhid ailəsi yaşayır... Müharibə veteranlarının və əlillərinin, şəhid ailələrinin sosial məişət problemlərinin həli istiqamətində əməli işlər görülür. Buna misal olaraq onların dövlət tərəfindən pulsuz mənzillərlə və "Lifan" markalı maşınlarla təmin olunmalarını göstərmək olar. 1999-cu ildən bəri Sumqayıt şəhərində imtiyazlı şəxslər üçün 9 bina inşa edilmişdir. Nəticədə dövlət tərəfindən pulsuz olaraq 379 ailə 17 min kvadrat metrdən çox yaşayış sahəsinə malik olan mənzillərlə təmin olunmuşdur. Bunlardan 278-i Qarabağ müharibəsi, 78-i şəhid, 23-ü Çernobil əlili ailəsidir. [7, s.2]

Cari ilin I rübü ərzində Sumqayıtda şəhər həyatının bütün sahələrində nəzərə çarpacaq uğurlar əldə olunmuş, insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldilmiş bir sıra infrastruktur layihələr, abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Sosial-iqtisadi sahədə çalışan işçilərin orta aylıq əmək haqqı 410 manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 28,5 faiz artmışdır. Kimya sənyesi və metallurgiyada məhsul istehsalı 2 dəfə, yüngül sənayedə isə

1,4 dəfə artmışdır. Əhaliyə elektrik enerjisi, təbii qaz su və digər komunal xidmətlərin göstərilməsi sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, ayrı-ayrı avadanlıqlar yeniləri ilə əvəz olunmuş, əlavə xətlər çəkilmiş, müasir sayğaclar quraşdırılmışdır. Ümumilikdə güzəştsiz əhali üzrə komunal xidmətlərin ödənişi ötən ilin I rübü ilə müqayisədə artmışdır. [14, s.2]

Artıq Sumqayıtda böyük telekomunikasiya sahələri fəaliyyət göstərir. Elektron tipli ATS-lərin sayı durmadan artır. Hazırda (2013-cü il) şəhər əhalisinə bir neçə ATS xidmət edir ki, bunların hamsı elektron ATS-dir. Şəhərdə hündür mərtəbəli yaşayış binalarının inşası davam etdirilir ki, bunların hamısı özəl bölmənin qüvvəsi ilə görülür. Bu binalardakı mənzillərdə də sakinlərin rahatlığı üçün nə lazımdırsa edilir. [13, s.5]

Ümumilikdə son 2 ilin reallıqları göstərir ki, möhtərəm prezidentimiz Sumqayıt şəhərinin məhz Bakı şəhərinin standartları əsasında inkişafına çalışır. Və bunu qarşıda mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Dövlət başçısı 2011-ci ilin iyulunda Sumqayıtda səfərdə olarkən bunula bağlı demişdir: "Sumqayıtla Bakı demək olar ki, artıq birləşir. Çünki ölkəmizdə inkişaf o qədər sürətlə gedir və bu yol boyu tikintiklər yeni binalar, sənaye müəssisələri ona gətirib çıxaracaqdır ki, Bakıda yaşayanlarda gəlib Sumqayıtda işləyəcəklər. Ona görə də Sumqayıt Bakı standartlarına tam şəkildə uyğunlaşdırılmalıdır. Mənim məqsədim bundan ibarətdir və bunu etmək üçün artıq biz konkret layihələrə başlamışıq." [9, s.4]

Cari ilin 6 ayında ölkə qarşısında duran bütün iqtisadi və sosial məsələlər uğurla həll olunmuşdur. Ümumidaxili məhsul 5 faiz artmışdır. İlin birinci yarısında ölkə iqtisadiyyatına 12,6 miyard dollar sərmayə qoyulmuşdur. Sosial məsələlərin həlli diqqət mərkəzində saxlanılmışdır. Orta aylıq əmək haqqı 520 dollar, orta pensiya 200 dollar səviyyəsində olmuşdur. İşsizliyin səviyyəsi 5 faiz enmişdir. Bütün bölgələr dinamik inkişaf etmişdir. İlin birinci yarısında şəhər həyatının bütün sahələrində uğurlar qazanılmışdır. Şəhər üzrə ümumi məhsul buraxılışının həcmi 370 milyon manat, ötən ilin müvafiq dövrü ilə müqayisədə 120,7 faiz təşkil etmişdir. [16, s.1]

Ölkə iqtisadiyyatında son illərdə baş vermiş tərəqqi nəticəsində sahibkarlığı inkişafında aparılan islahatlar özəl sektorun ticarət, xidmət və turizm sahəsində özünü göstərirdi. Şəhər əhalisinə 345017,9 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 24,8 faiz istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz artaraq 253243,1 min manat olmuşdur. Şəhərin iaşə şəbəkələrində əhaliyə 9874,8 min manatlıq və hesabat dövrü ilə müqayisədə 26,5 faiz çox iaşə xidmətləri göstərilmişdir. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 81900 min manat olmuşdur ki, ötən ilin hesabat dövrünə nisbətən 35,9 faiz artmışdır. Göstərilən məişət xidmətləri isə 8665,2 min manat təşkil etmişdir ki, ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz artmışdır.

2013-cü ilin yanvar-iyun ayları ərzində 3147 yeni iş yeri açılmışdır. Yeni işə salınan müsəssiə və təşkilatlarda 66 nəfərlik, mövcud müəssiə və təşkilatda 1755 nəfərlik, fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda 95 nəfərlik, fiziki şəxslərdə 1231 nəfərlik iş yeri açılmışdır. [5, s.3]

Əhaliyə 9,5 milyon manatlıq nəqliyyat, 5 milyon manatlıq rabitə xidmətləri göstərilmiş, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Həyata keçirilmiş tədbirlər nəticəsində hamısı daimi olmaqla 3758 yeni iş yer yaradılmışdır. Sumqayıt Dövlət Universitetində 2 dəfə "Karyerada ilk addım" devizi altında əmək yarmarkaları keçirilmişdir. Bu yarmarkalarda 5-i dövlət və 35-i qeyri dövlət olmaqla 43 müəssisə tərəfindən 300-dən çox ştat vahidi olan iş yeri təqdim edilmişdir. 780 tələbə və məzunun iştirak etdiyi yarmarkalarda 36 nəfər daimi işlə təmin olunmuş, 39 nəfər peşə hazırlığı kurslarına cəlb edilmişdir... Hesabat dövründə əhaliyə elektrik enerjisi, təbii qaz, su və digər kommunal xidmətlərin göstərilməsinin daha da yaxşılaşdırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, ayrı-ayrı avadanlıqlar yeniləri ilə əvəz olunmuş, əlavə ötürücü xətlər çəkilmiş, müasir sayğaclar quraşdırılmışdır. [12, s.2]

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası ilə əlaqədar Sumqayıt şəhərində kimya və metallurgiya sənayesinin müasir texnologiya əsasında inkişafı, texnologiya parkının yaranması, toxuculuq sənayesinin bərpası, istilik elektrik stansiyasının inşası, yeni sənaye şəhərciyinin salınması, su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, eləcə də sosial

məsələlərin həlli istiqamətində ciddi addımlar atılmışdır. 9 ayda 4089 nəfər yeni işə qəbul edilmişdir. Yeni işə salınan müəssisə və təşkilatlarda 95 nəfərlik, mövcud müəssisə və təşkilatlarda 2112 nəfərlik, fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda 95 nəfərlik, fiziki şəxslərdə 1777 nəfərlik iş yeri açılmışdır.

Ölkə iqtisadiyyatında son illərdə baş vermiş tərəqqi nəticəsidə sahibkarlığın inkişafında aparılan islahatlar özəl sektorun ticarət xidməti və turizm sahəsində özünü göstərir. Şəhər əhalisinə 502736,7 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 13,1 faiz çox istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. [8,s 3]

Azərbaycanın hazırki sosial-iqtisadi uğurları- tikinti quruculuq, abadlıq və yenidənqurma işlərinin geniş vüsət alması yeyinti, qida, tibb sənayelərinin inkişafı, habelə elmi texniki tərəqqi sahəsindəki nailiyyətlər şüşə sənayesinin böhrandan çıxarılmasını aktual və təxirəsalınmaz məsələ kimi gündəmə gətirmişdir. [10, s.4]

2013-cü il noyabrın 25-dən dekabr ayının 1-dək ənənəvi olaraq keçirilmiş “Azərbaycanda yerli demokratiya həftəsi” çərçivəsində Sumqayıt bələdiyyəsi tərəfindən ümumilikdə 3 min vətəndaşın iştirakı ilə bir çox işgüzar tədbirlər təşkil edilmiş və həftə ərzində bələdiyyə rəhbərliyi tərəfindən 210 nəfər vətəndaş qəbul edilmişdir. Həmin müddətdə bələdiyyəyə vətəndaşların 42 müraciəti daxil olmuş və onlara operativ olaraq baxılmışdır. [11, s.1]

Sumqayıt müasir sənaye şəhəri kimi bugün ölkəmizin sənaye potesialının inkişafında mühüm rol oynayır. Demək olar ki, işsizlik aradan qaldırılmışdır. Sumqayıtda sosial infrastrukturun yaradılmasına diqqət göstərilir. İnfrastruktur layihələri icra edilir, şəhər abadlaşır, yeni xiyabanlar salınır, binalar bərpa edilir... Əlbəttə ki, sənayenin inkişafı sosial sahənin inkişafı ilə də birbaşa bağlı olmalıdır. Ətraf mühitin qorunmasına mühüm diqqət göstərilir. Bugün Sumqayıtda fəaliyyətə başlayan bütün sənaye müəssisələri ən yüksək ekoloji standartlara cavab verməlidir. [6, s.3]

Əhalinin pul gəliri 8 faiz artmışdır. Ölkədə infilyasiyanın səviyyəsi cəmi 2,4 faiz olmuşdur ki, bu da əhalinin pul gəlirləri infilyasiyanı 3 dəfədən çox üstələmişdir. Vətəndaşların rifah halı yaxşılaşır və müsbət dinamika buradada özünü göstərir. Ölkəmizin dinamik inkişafı həyatımızın bütün sahələrində aparılan irimiqyaslı islahat, qazanılan müvəffəqiyyətlər, Sumqayıt şəhərinin də hərtərəfli dinamik inkişafına geniş imkanlar yaratmış, yeni müasir istehsalatların yaradılması, şəhərin yüksək səviyyədə abadlaşdırılması, burada yaşayan insanların rifah halını daha da yaxşılaşdırılmasına yönəldilmiş layihələr məhz ölkə prezidentinin Sumqayıta olan xüsusi diqqət və qayğı nəticəsində öz həllini tapmışdır. [15, s.5]

## Ədəbiyyat


1. 2009-cu ildə Sumqayıt şəhərinin sosial-iqtisadi vəziyyəti haqqında. Şəhər Statistika İdarəsinin məlumatı. 13 fevral 2010, s.2
2. 2009-cu ildə Sumqayıt şəhərinin sopsialiqtisadi inkişafının yekunları. 2010-cu ildə qarşıda duran vəzifələr haqqında Şəhər İcra Hakimiyyətinin hesabatı. 10 fevral 2010-cu il, s.2
3. 2010-cu iiln yanvar-iyun aylarında Sumqayıt şəhrinin sosial-iqtisadi vəziyyəti haqqında . Şəhər statistika İdarəsinin məlumatı. 14 avust 2010-cu il, s.2
4. 2010-cu ilin I rübündə Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafıının yekunları haqqında Şəhər İcra hakimiyyəti başçısı Vaqif Əliyevin hesabatı. 24 aprel, 2010-cu il, s. 2
5. 2013-cü ilin I yarısı ərzində şəhərin sosiql-iqtisadi inkişafı haqqında. Sumqayıt qəzeti, Şəhər Statistika İdarəsi, 27 avqust 2013-cü il, s. 3
6. Azərsun Sənaye Parkı”nda yaradılmış Sumqayıt Yağ fabriki istifdəyə verilmişdir. 1 mart 2014-cü il, s.3
7. Hacızadə T. Heydər Əliyev-90: uğurlu modernləşmə xətti. Azərbaycan qəzeti. 12 aprel 2013-cü il, s. 2
8. İlin 9 ayı ərzində şəhərin sosial-iqtsadi göstəriciləri. Sumqayıt Şəhər Statistika İdarəsi. 16 noyabr 2013-cü il, s.3
9. Kərimov Q. Milli iqtidadi inkişaf konsepsiyasının banisi. Sumqayıt qəzeti, 20 iyul 2013-cü il, s.4

10. Kərimov Q. Sənaye potensialının bərpası və genişləndirilməsi uzun müddətli sabit inkişafa təminatdır. 1 fevral 2014-cü il, s. 4
11. Quliyev S. Sumqayıt bələdiyyəsi hesabat verdi. Sumqayıt qəzeti, 15 fevral 2014-ü il, s.1
12. Məlikov Q. Bütün sahələrdə inkişaf gedir. Sumqayıt qəzeti. 26 oktyabr 2013-cü il, s.2
13. Məlikov Q. Heydər Əliyevin Sumqayıta diqqəti, qayğısı və arzularının bəhrəsi. Sumqayıt qəzeti, 4 may 2013-cü il, s.5
14. Məlikov Q. İlin ilk 3 ayının uğurları ürəkaçandır. Sumqayıt qəzeti, 27 aprel 2013-cü il. s. 2
15. Məlikov Q. Sumqayıt sabaha inamla addımlayır. Sumqayıt qəzeti, 1 mart 2014-cü il, s.5
16. Məlikov Q. Uğurlu addımlar davam edir. Sumqyıt qəzeti, 27 iyul 2013-cü il, s.1
17. Sumqayıt Bakının standartlarına yaxınlaşdır. Sumqayıt qəzeti. 2 mart 2013-cü il, s.1
18. Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri" adlı elmi-praktiki konfransda Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyevin çılxışı. 26 may, 2010-cu il, s.4

**SUMMARY**

**THE EFFECT OF THE "CONTRACT OF THE CENTURY" ON SOLVING SOCIAL PROBLEMS IN THE CITY OF SUMGAYIT**

***Ibrahimli M.B.***

***Key words:*** *Sumgayit, social problems, social security, low-income families, state care, war veterans, standard of living*

In the presented article, the measures taken in the direction of reducing poverty and increasing the population's employment in the city of Sumgayit, the successful continuation of the implementation of infrastructure projects, improvement and construction works aimed at further improving the welfare of people in all areas of urban life, targeted state aid paid from the state budget to low-income people, including providing social benefits to citizens from special categories, providing state care to war participants, and service areas were analyzed and investigated.

**РЕЗЮМЕ**

**ВЛИЯНИЕ «КОНТРАКТА ВЕКА» НА РЕШЕНИЕ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ В ГОРОДЕ СУМГАИТ**

***Ибрагимли М.Б.***

***Ключевые слова:*** *Сумгаит, социальные проблемы, социальное обеспечение, малообеспеченные семьи, государственная забота, ветераны войны, уровень жизни.*

В представленной статье принятые меры в направлении сокращения бедности и повышения занятости населения в городе Сумгайыт, успешного продолжения реализации инфраструктурных проектов, благоустройство и строительных работ, направленных на дальнейшее повышение благосостояния людей во всех сферах. Проанализированы и исследованы условия городской жизни, адресная государственная помощь, выплачиваемая из государственного бюджета малообеспеченным слоям населения, в том числе предоставление социальных льгот гражданам из особых категорий, оказание государственной помощи участникам войны, сферы обслуживания.

## AZƏRBAYCAN İQTİSADİYYATINDA NEFTİN YERİ VƏ ROLU

**Xəlilov Elmar Şirinbala oğlu**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*

elmar.xelilov@sdu.edu.az

***Açar sözlər:*** *Azərbaycan, müstəqillik, neft sənayesi, siyasət, Xəzər dənizi*

***Xülasə.*** *Azərbaycan müstəqillik qazandıqdan sonra görülən ilk tədbirlərdən biri güclü və mərkəzləşmiş bir dövlətin formalaşması idi. Lakin daxildə olan çəkişmələr, ayrı-ayrı qüvvələrin hakimiyyət üstündə mübarizəsi istənilən siyasəti həyata keçirməyə imkan vermədi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə daxili çəkişmələrə son qoyuldu və ölkə yeni bir siyasi mövqeyə sahib oldu. Güclü dövlətlərlə yaxınlaşma prinsipi həyata keçirildi. Ulu öndərin hakimiyyəti dövründə yeraltı və yerüstü sərvətlərindən lazımi səviyyədə istifadə Azərbaycanın dünya miqyasında tanınmasına səbəb oldu.*

Enerji resursları yüksək əlavə dəyərli, kapital tutumlu, xarici balansa əhəmiyyətli təsir göstərir və bu, dövlət gəlirlərinin böyük hissəsini təşkil edən sahədir. Əsas İnvestisiyaların həcminə və istismara verilməsi müddətinə görə daxilolmalardan biri olan enerji sektoru dəyişikliklərə son dərəcə həssasdır. Enerji istehlakının tarixi inkişafında neft, kömürdən, mayenin bərk hala çevrilməsindən üstün oldu. İstilik mənbəyi kimi neftin kömürdən daha üstünlüklü olması, nəqliyyat, elektrik enerjisi istehsalı, sənaye istifadəsi, xüsusilə neft-kimya sənayesində neftin əhəmiyyəti onun xammal kimi keyfiyyətləri nəzərə alındıqda aydın olur. Bir tərəfdən Sənayeləşmə səbəbi ilə neft istehlakının sürətlə artması, digər tərəfdən neftə alternativ olan enerji mənbəyinin hələ də tapılmaması neftin əhəmiyyətini daha da artırmaqdadır.

Neft sənayesi ağır sənaye xüsusiyyətlərinə malikdir; neft və qaz yataqlarının kəşfi, quyuların qazılması neft və neft qazı (neftlə ayrılan qaz) hasilatı, neft qazı istehsalı, neft borularla daşınması kimi fəaliyyətlər daxildir. Neft sənayesi və ticarətinin istər istehsal və istehlak, habelə kapital baxımından beynəlxalq xarakter daşıması, ölkələrarası siyasətin də əsasını təşkil etmişdir. Qlobal neft bazarlarında qeyri-müəyyənlik və qeyri-sabitlik enerji təchizatında təbii qazın payının mütəmadi olaraq artmasına səbəb olub [3]. Bundan əlavə, cəmiyyətlərin ekoloji maarifləndirilməsi təbii qazın digər qalıq yanacaqlara nisbətən daha təmiz bir enerji olması, havanın çox çirkli olduğu ölkələrdə insanların təbii qaza üstünlük vermələrinə səbəb olur. Azərbaycan iqtisadiyyatı uzun illər SSRİ-dən asılı olduğu üçün müstəqillik əldə edildiyi dövrün başlanğıcında neft və təbii qaz hasilatının köhnə texnologiya vasitəsi ilə çıxarılması, avadanlıq cəhətdən çatışmazlıqlar səbəbi ilə müəssisələrin aşağı güclə istehsal həyata keçirməkləri görülməkdədir.

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqilliyini elan etdikdən sonra keçid iqtisadiyyatı çərçivəsində Sərbəst bazar nizamına keçid üçün bir çox islahatlar həyata keçirmişdir. Ən mühüm enerji ehtiyatlarının yerləşdiyi Xəzər regionunda, neft və təbii qaz ehtiyatlarından istifadə edilməsi Azərbaycanın iqtisadi cəhətdən inkişaf etdirilməsində xüsusi rol oynamışdır. Enerji ehtiyatlarının istehsalı və dünyaya satışı ilə bağlı çoxlu müqavilələr imzalanmışdır. mühüm layihələr həyata keçirilib. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) rəhbərliyi ilə beynəlxalq neft konsorsiumları və hasilatın pay bölgüsü sazişləri ilə neft hasilatı və ixrac əhəmiyyətli dərəcədə artmışdır [4].

Azərbaycanda neft sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi üçün zəruri addımlar atılmışdır. Qlobal neft şirkətləri ilə daha çox Xəzər Dənizdəki ehtiyatlarla bağlı müxtəlif müqavilələr imzalanmışdır. Quruda ehtiyatları da daxil olmaqla 1994-cü ildən indiyədək 19 ölkədən 36 şirkətin iştirakı ilə 23 beynəlxalq neft müqaviləsi bağlanmışdır. Bu növ Məhsul Paylaşım Sazişləri Müqavilələr 25-30 illik müddəti əhatə edir [2]. Bu razılaşmalara əsasən 60 milyard dollarlıq sərmayə qoyulmasına nail olunması hədəflənmişdir. Müqavilələrin ən mühümü 1994-cü il sentyabrında imzalanmış, keçmiş SSRİ dövründə tənəzzülə uğrayan neft sektorunu canlandırmaq məqsədi daşıyan, iqtisadi inkişafı reallaşdıracaq "Əsrin müqaviləsidir"dir. Əsrin müqaviləsi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir [1, s.126]. Deməkolar ki, bu müqaviləyə qədər olan dövrdə Azərbaycan dünyanın güclü dövlətləri tərəfindən sıradan bir ölkə olaraq tanınmaqda idi. Lakin ulu öndərin bu sahədə gördüyü işlər bir çox dövlətlərin Azərbaycan ilə yaxınlaşmasına və enerji sektorunda münasibətlərin qurulmasına gətirib çıxardı. Əsrin müqaviləsi Azərbaycanda yalnız neft sektorunun deyil, iqtisadiyyatın digər sahələrinin də inkişafına səbəb oldu, belə ki, ölkə büdcəsinə daxil olan milyonlarla pul digər sahələrin də inkişafına yönləndirildi. Sonda qeyd eytmək istərdim ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan neft müqavilələri hazırda hakimiyyətdə olan ali baş komandan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməkdədir. İllərin müqaviləsi sayılan Əsrin müqaviləsindən bu günə qədər gələn gəlirin bütün sahələrə, xüsusən də hərbi sahəyə ayrılması Azərbaycanın 44 günlük II Qarabağ müharibəsində düşməni döyüş meydanında məhv etməsinə və işğalda olan torpaqlarımızın azad edilməsinə səbəb oldu.

**Ədəbiyyat**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: Bakı, 2008.- 339 səh.
2. http://e-kitab.ameanb.nmr.az/Qezet Sekilleri/xalq.pdf

3. https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
4. https://www.elibrary.az/docs/QAZET/qzt2010_2757.pdf

**SUMMARY**
**THE PLACE AND ROLE OF OIL IN THE ECONOMY OF AZERBAIJAN**
***Xalilov E.Sh.***

***Key words:*** *Azerbaijan, independence, oil industry, politics, Caspian Sea.*

One of the first measures taken after Azerbaijan gained independence was the formation of a strong and centralized state. However, internal strife, the struggle of separate forces for power did not allow the implementation of any desired policy. With the coming to power of the great leader Heydar Aliyev, the internal strife ended and the country acquired a new political position. The principle of rapprochement with powerful states was implemented. During the reign of the great leader, the proper use of underground and surface resources led to the recognition of Azerbaijan on a world scale.

**РЕЗЮМЕ**
**МЕСТО И РОЛЬ НЕФТИ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА**
***Халилов Э.Ш.***

***Ключевые слова****: Азербайджан, независимость, нефтяная промышленность, политика, Каспийское море*

Одной из первых мер, предпринятых после обретения Азербайджаном независимости, было создание сильного и централизованного государства. Однако внутренние раздоры, борьба отдельных сил за власть не позволили осуществить какую-либо желаемую политику. С приходом к власти великого лидера Гейдара Алиева внутренние распри закончились, и страна приобрела новое политическое положение. Был реализован принцип сближения с могущественными государствами. В годы правления великого лидера правильное использование подземных и наземных ресурсов привело к признанию Азербайджана в мировом масштабе.

# "ƏSRİN MÜQAVİLƏSİ" VƏ ONUN AZƏRBAYCAN ÜÇÜN SİYASİ-İQTİSADİ ƏHƏMİYYƏTİ

**Musayeva Mətanət Ağayar qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
matanat.musaeva@sdu.edu.az

***Açar sözlər:*** *Azərbaycan, "Əsrin müqaviləsi", Dünya Bankı, enerji şirkətləri, Dövlət Neft Fondu, Neftçilər Günü, Xəzərin statusu, Enerji daşıyıcıları, milli valyuta, Xəzər hövzəsi*

***Xülasə.*** *Məqalədə qeyd olunduğu kimi, "Əsrin müqaviləsi" resurs millətçiliyi strategiyasını Azərbaycanın siyasi və iqtisadi zəminində həyata keçirmək üçün unikal cəhd idi. Çətin siyasi və iqtisadi böhran şəraitində "Əsrin müqaviləsi" Azərbaycana bir növ maliyyə yastığı yaratmağa imkan verdi ki, onun köməyi ilə Bakı əvvəlki dövrlə müqayisədə öz vətəndaşları üçün kifayət qədər yüksək həyat səviyyəsini təmin edə bildi.*

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan, xalqımızın və dövlətimizin taleyində mühüm rol oynayan "Əsrin müqaviləsi"nin imzalanması yeni müstəqillik qazanmış Azərbaycanın gələcək inkişafında, dünya birliyi ilə tərəfdaşlıq əlaqələrində ən həlledici amil oldu.

"Əsrin müqaviləsi" Heydər Əliyevin qətiyyətli və ardıcıl siyasəti hesabına dövlətçiliyi möhkəmləndirmək üçün dəmir iradəsi və əzmkarlığı sayəsində reallaşıb. Prezident Heydər Əliyevin uzaqgörən və qətiyyətli siyasəti hesabına Xəzərin statusu ilə bağlı mövcud problemi önə çəkməklə "Əsrin müqaviləsi"nin bağlanmasına mane olmağa çalışan bəzi qonşu və beynəlxalq dairələrin siyasi oyunlarını alt-üst etməklə yanaşı, ölkəmizin xarici neft şirkətləri ilə imzalamalı olduğu bütün neft-qaz müqavilələrinin şərtlərini milli maraqlarımıza maksimum uyğunluğunu təmin etməklə aparılmışdır.

20.09.1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycan iqtisadiyyatının dirçəldilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün yeni geriyə sayım başladı. Məhz bu arqumentlər ümummilli lider Heydər Əliyevi 2001-ci il avqustun 16-da respublikanın ən mühüm peşə bayramlarından biri sayılmaq hüququ qazanmış Neftçilər Gününün təsis edilməsi haqqında sərəncam imzalamağa vadar etdi.

"Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlər ölkənin qeyri-sabit iqtisadi və siyasi vəziyyətinə baxmayaraq, 1994-cü ildə Azərbaycanla əməkdaşlığa başlayıb. Nəticədə Azərbaycanla birlikdə böyük neft-qaz layihələri həyata keçirdilər. Bu, beynəlxalq səviyyədə, o cümlədən Rusiyada Azərbaycana lazımi inam yaratdı. Sonrakı illərdə Azərbaycanda ardıcıl iqtisadi islahatlar aparılmış, eyni zamanda, dünyanın aparıcı ölkələrindən dəstək almaqla, ölkənin imicini yaxşılaşdırmağa nail olmuşdular. Məhz bu uğurların nəticəsi idi ki, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı kimi beynəlxalq təşkilatlar bu islahatları dəstəkləmək üçün Azərbaycana ciddi maliyyə yardımı göstərməyə başladılar. 1995-ci ildən başlayaraq Azərbaycanda dərin iqtisadi tənəzzül dövrü (1991-1995) dərin iqtisadi islahatlar dövrü ilə əvəz olundu. 1995-2003-cü illəri əhatə edən keçid və yenidənqurma dövrü ölkənin yüksələn xətlə inkişafına imkan verdi.

Dünyanın ən böyük enerji şirkətləri ilə əlaqələr sayəsində H.Əliyev ölkəni postsovet əyalətlərindən birindən dünyanın əsas güc mərkəzlərinin diqqət obyektinə çevirməyə çalışdı. Ağır siyasi və iqtisadi böhran şəraitində "Əsrin müqaviləsi" Azərbaycana bir növ maliyyə yastığı yaratmağa imkan verdi ki, onun köməyi ilə Bakı digər ölkələrlə müqayisədə öz vətəndaşları üçün kifayət qədər yüksək həyat səviyyəsini təmin edə bildi.

Lakin son illərdə (xüsusilə, 2014-2015) regionda və dünyada enerji siyasətində ciddi dəyişikliklər baş vermişdir. Enerji daşıyıcılarının qiymətlərində xeyli ucuzlaşma baş vermişdir ki, bu da digər ölkələrdə olduğu kimi Azərbaycanın da milli valyutasının müəyyən dərəcədə devalvasiyasına səbəb olmuşdur.

"Əsrin müqaviləsi" Azərbaycan dövlətinə, ölkənin ictimai-siyasi və iqtisadi qurumlarına xarici ölkələrin maliyyə və texnoloji resurslarından geniş istifadə etməyə imkan verdi. Bu saziş çərçivəsində həyata keçirilən transmilli layihələr Cənubi Qafqazın və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə Azərbaycanın beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi əhəmiyyətini artırmış, xarici ölkələrlə dərinləşən tərəfdaşlıq əlaqələrinin inkişafına mühüm təsir göstərmişdir.

2001-ci ildən bəri neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxilolmalar 148,3 milyard ABŞ dolları təşkil etmişdir. Bu vəsaitin 95,61 milyard dolları dövlət büdcəsinə köçürülüb, 9,3 milyard dolları strateji infrastruktur və sosial layihələrə və s. yönəldilib.

"Əsrin müqaviləsi"ni iqtisadi siyasət nöqteyi-nəzərindən götürsək, onun Azərbaycanda milli səciyyə daşıyan resurs millətçiliyi modelinin bir növ qurulması cəhdi olduğu tamamilə açıq-aydın görünür. Məlum olduğu kimi, resurs millətçiliyi iki prinsipə əsaslanır: karbohidrogen ehtiyatlarına dövlət nəzarəti və xarici kapitalın resurs bazasına çıxışının məhdudlaşdırılması.

"Əsrin müqaviləsi"nin əhəmiyyətini ümumiləşdirsək, o, aşağıdakı vəzifələri yerinə yetirmişdir:

- Azərbaycan iqtisadiyyatına nağd pul və investisiya axını verdi;
- regionun digər ölkələri ilə müqayisədə yüksək səviyyədə yaratmağa imkan verdi;
- əhalinin kütləvi miqrasiyasına imkan verməyəcək həyat səviyyəsi və s.
- Torpaqlarımızı işğal edən Ermənistanla hərbi qarşıdurmada hərbi revanş hazırlamaq üçün vəsait tapmağa imkan verdi.

### Ədəbiyyat

1.Агакишиев И. 2012. История бакинской нефтяной промышленности – 53 // https://vestikavkaza.ru/articles/İstoriya-bakinskoy-neftyanoy-promyshlennosti-53. html, дата обращения 01.11.2020.

2.Гасанов А. 2019. «Контракт века» - проект, превративший Азербайджан в неотъемлемую часть глобальной мировой экономики // https://news.day.az/ politics/1157819.html, дата обращения 01.11.2020.
3.Маркедонов С.М. 2012. «Контракт века» - фундамент азербайджанской внешней политики // http://politkom.ru/14546.html, дата обращения 01.11.2020.
4.«Контракт века» - 25 лет!// http://az.sputniknews.ru/infographics/20190918/ 421766190/azerbaijan-kontrakt-veka-razrabotka-mestorozhdenij-dohody.html, дата обращения 01.11.2020.

**SUMMARY**
**THE "CONTRACT OF THE CENTURY" AND ITS POLITICAL AND ECONOMIC SIGNIFICANCE FOR AZERBAIJAN**
***Musayeva M.A.***

***Key words:*** *Azerbaijan, "Contract of the Century", World Bank, energy companies, State Oil Fund, Oil Workers' Day, status of the Caspian Sea, Energy resources, national currency, Caspian basin.*

As noted in the article, the "Contract of the Century" was a unique attempt to implement the strategy of resource nationalism on the political and economic grounds of Azerbaijan. In the conditions of the most severe political and economic crisis, the "Contract of the Century" allowed Azerbaijan to create a kind of financial cushion, with the help of which Baku was able to ensure a fairly high standard of living for its citizens compared to the previous year.

**РЕЗЮМЕ**
**«КОНТРАКТ ВЕКА» И ЕГО ПОЛИТИКО-ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ ДЛЯ АЗЕРБАЙДЖАНА**
***Мусаева М.А.***

***Ключевые слова:*** *Азербайджан, «Контракт века», Всемирный банк, энергетические компании, Государственный нефтяной фонд, День нефтяника, статус Каспийского моря, Энергоресурсы, национальная валюта, Каспийский бассейн.*

Как отмечается в статье, «Контракт века» стал уникальной попыткой реализации стратегии ресурсного национализма на политической и экономической почве Азербайджана. В условиях жесточайшего политического и экономического кризиса «Контракт века» позволил Азербайджану создать своеобразную финансовую подушку, с помощью которой Баку смог обеспечить достаточно высокий уровень жизни своих граждан по сравнению с предыдущим годом.

# THE AGREEMENT OF THE CENTURY IN THE FRAMEWORK OF ECONOMIC AND POLITICAL RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN

**Mammadova Samira İsgandar**
*Sumgait State University, Sumgait, Azerbaijan, PhD*
*Samire.mammadova@sdu.edu.az*

***Key words:*** *Azerbaijan, Heydar Aliyev, contract of the century, oil, gas*

***Summary.*** *The basis of the oil strategy of Azerbaijan-"contract of the century", 1994, on September 20, the first oil contract between the state oil company of the Republic of Azerbaijan and the consortium of foreign oil companies was signed at the "Gulustan" Palace. This treaty went down in history under the name "contract of the century" as one of the most significant events of the twentieth century. These contracts signed as a result of great and hard work of national leader Heydar Aliyev form the basis of Azerbaijan's oil strategy. Azerbaijan's foreign economic relations are not limited to the oil industry; otherwise, the Republic of Azerbaijan would remain an oil-producing country in the South Caucasus and would not be recognized as strong as the infrastructure State. In conclusion, it can be summarized that the nature of economic relations between Azerbaijan and the countries that signed the contract of the century has made them the main partner countries, and the treaty serves the interests of each of them. The analysis method was used in the study. Applied importance: it can be used in lectures and seminars in higher educational institutions. The date is useful for those interested in the field of international relevance.*

**Introduction.** The "Contract of the Century", which is the basis of Azerbaijan's oil strategy, was signed on September 20, 1994 in the "Gulustan" palace between the State Oil Company of the Republic of Azerbaijan and a consortium of foreign oil companies. This contract went down in history as one of the most important events of the 20th century under the name "Contract of the Century". These contracts, signed as a result of the great and hard work of national leader Heydar Aliyev, form the basis of Azerbaijan's oil strategy.

In the "Contract of the Century" 13 most famous oil companies of the world (Azerbaijan, USA, Great Britain, Russia, Turkey, Norway, Japan and Saudi Arabia) (Amoco, BP, McDermott, Unocal, SOCAR, LUKoil", "Statoil", "Exxon", "Turkey Petrolleri", "Pennzoil", "Itochu", "Remco", "Delta") participated. Thus, the foundation of the oil strategy and doctrine of our independent state was implemented. This global project showed Azerbaijan's determination to own its natural resources as a sovereign state, defend its national interests, economic and strategic interests to the whole world, and became an important guarantee of state independence. It should be recalled that the first oil was obtained from the "Chirag" field on November 7, 1997. The "Contract of the Century" led to a large increase in oil production in the republic. When the agreement was signed in 1994, oil production, which was at the lowest level in the history of Azerbaijan - 9.5 million tons, increased more than 5 times in 2010 and reached 51 million tons. Azerbaijan's oil production has increased more than 4 times in the last 27 years. With the implementation of the new oil strategy, a large amount of foreign investment was attracted to the exploitation of the oil reserves of our republic. Since then, approximately 35 billion dollars have been invested in the development of the Azeri-Chirag-Gunashli (AChG) field. After the "Contract of the Century", 34 more agreements were signed with foreign companies. The agreement has been successfully implemented over the past 27 years. Until now, the oil produced from the ACG was mainly transported to the world market through the Baku-Tbilisi-Ceyhan (BTC) and Western Route Export Pipelines. By the way, when the agreement was signed in 1994, the estimated oil reserves were determined at 511 million tons. At present, there are approximately 500 million tons of unproduced oil reserves in AChG. But this is not the final number yet. Deposits are likely to increase, and this figure is predicted to increase further during the implementation of the new agreement to extend the "Contract of the Century" until 2050. It should be noted that there are large reserves in the ACG field. When the agreement was signed in 1994, the estimated oil reserves were determined at 511 million tons. Today, "Azeri-Chirag-Gunashli" has about 500 million tons of unproduced oil reserves. According to experts, this is not the last number. In the first half of the current year, 846 million dollars of capital expenditures were spent on ACG activities. Stable production from the AChG has continued safely and reliably for half a year, with total production averaging 468,000 barrels per day, or a total of approximately 85 million barrels, or 11 million tons. By the end of June, 131 oil production wells, 44 water and 8 gas injection wells were in operation in ACG. In January-June, 6 oil production and 3 irrigation wells were drilled in the block. In the first half of the year, "BP Azerbaijan" company supplied an average of 9.1 million cubic meters of natural gas per day, and a total of 1.6 billion cubic meters of natural gas, from the "Azeri-Chirag-Guneshli" field block to SOCAR through the Sangachal terminal, as well as through the facility at "Neft Dashlari". handed over. From the beginning of 2001 to August 1 of this year, the State Oil Fund received a total of about 153 billion dollars in the framework of the implementation of the development project of the "Azeri-Chirag-Gunashli" oil and gas field block. In January-August of this year, 3 billion 488.5 million dollars were received by the State Oil Fund within the framework of the ACG project. In particular, in the 8 months of this year, the revenues of the Oil Fund from the sale of condensate on the "Shahdeniz" field amounted to 57 million 131 thousand dollars. Since 2007, this number has exceeded 3.7 billion dollars. During the past period, our republic has implemented a successful cooperation format with leading foreign oil companies. The revision of the "Agreement of the Century" at the initiative of the partners and the extension of the agreement until 2050 is a clear manifestation of this [2].

It should be noted that since 2006, the large financial resources that have entered Azerbaijan as a result of energy exports have been directed to rapid economic progress, the creation of modern socio-economic and cultural infrastructures, the renewal of all areas of the republic's life, the diversification of the economy and the dynamic development of the non-oil sector. As a result of the successful implementation of the oil strategy, all deep-rooted problems in the regions have been solved, modern infrastructure has been formed, and the employment level of the population has been raised.

Systematic measures implemented in the agrarian field, including the development of separate areas of agriculture in recent years, have raised the level of self-sufficiency in food products of our country and expanded the export potential. Over the past years, a modern transport infrastructure has been formed in Azerbaijan. New airports were built, thousands of kilometers of modern roads were built. The Baku International Sea Trade Port and the Baku-Tbilisi-Kars railway line, which are an important contribution to the development of foreign trade relations and the expansion of transit opportunities of our country, have been built and put into use. Azerbaijan has become an active participant in the "East-West" and "North-South" international transport corridors, and also joined China's "One Belt, One Road" initiative, which plays an important role in increasing the potential of our country in the field of transit transportation. The incomes obtained from Azerbaijan's energy resources also enabled the implementation of consistent state policy, adoption and implementation of revolutionary decisions in the direction of strengthening the social protection of the population and raising the welfare of the people. Social packages covering all categories of the population and providing for a significant increase in salaries, pensions, and pensions have been implemented.

While conducting the research, I considered both articles published abroad and student graduation works.

When I review the studies and articles in the economic field, we see the importance of the contract of the century. Associate Professor Aynura Yahyayeva's article "INCREASING THE EFFICIENCY OF INVESTMENTS IN AZERBAIJAN" published in Grani magazine of Ukraine can be a good example. It says: "increasing foreign investments in the republic and its regulation by the state, ensuring the necessary proportions in the development of separate areas of the economy are of great scientific and practical importance.

Here, on the one hand, it is intended to increase the export potential of the country based on the attraction of foreign investments, and on the other hand, to further expand foreign economic relations. From this point of view, the "Contract of the Century" signed on September 20, 1994 has great socio-economic significance. The conclusion of this agreement, which received the name "Contract of the Century" in the international world, is considered a historical event in the life of the independent Republic of Azerbaijan" [4, p.58].

Shahbazli Reyhan, in his dissertation on "Great Britain's Attitude to the Second Karabakh War", mentions: "Great Britain is among the countries that defended Azerbaijan in the Second Karabakh War." The relationship between these two countries did not start recently, but intensified since the 90s of the 20th centuries. In 1993, an agreement was signed to establish economic relations. The main reason for these relations was that Azerbaijan is located on a convenient trade route, economically strategic, and famous for its rich oil fields. After the "Deal of the Century" in 1994, British attention increased. There are more than 500 British-funded companies in Azerbaijan, and through these companies, Great Britain invests millions of dollars in Azerbaijan. Doubtless, these relations are based on mutual interests. At that time, Azerbaijan was recognized as an independent state by major powers, it had superior economic and political power, strengthened its development, and most importantly, showed the world the acts of arbitrariness and terrorism that occurred in Nagorno-Karabakh. During the first Karabakh war, Great Britain made three statements in 1993 and said in these statements that Nagorno-Karabakh is the land of Azerbaijan, and that they want the issue to end peacefully" [2, p. 25]. It is clear from this idea that the contract of the century was not only an economic but also a politically successful idea.

Professor Irada Huseynova's book "Heydar Aliyev - the path from a political leader to a national leader" writes: "On December 2, 1994, the "Contract of the Century" Parliament of the Republic of Azerbaijan approved this contract and gave permission for its implementation. From this time, the contract and document entered into legal force [3, p. 222]. This was the important factor that made Azerbaijan interesting for the other party in the development of economic relations. The successful implementation of the first stage of the Treaty of the Century led to an increase in Azerbaijan's reputation abroad, increased confidence in its great future [3, p. 224].

Azerbaijan's foreign economic relations are not limited only to the oil industry; otherwise, the Republic of Azerbaijan would remain an oil-producing country in the South Caucasus and would not be recognized as a strong infrastructure state. For example, if we look at the issue from the point of view of Germany, German businessmen are not interested in capital investments at the first stage, so they were very careful in investing in our economy, but after political stability, democratic, legal and economic reforms, an agreement was signed that created confidence. The "Deal of the Century" with the world's largest companies encouraged the Federal Republic of Germany to invest in its investments at the modern stage with the Republic of Azerbaijan.

**Conclusion.** In the end, it can be concluded that the nature of economic relations between Azerbaijan and the countries that signed the Treaty of the Century has made them the main partner countries and the treaty serves the interests of each of them.

## References


**In Azerbaijani**

1. Şahbazlı R. "Böyük Britaniiyanın II Qarabağ müharibəsinə münasibəti" buraxılış işi. – 40s.
2. "Xalq qəzeti" "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının şanlı səhifəsidir. 2021.- 21 sentyabr.- S.4.

**In Russian**

3. Гусейнова И. Гейдар Алиев-от политическрго руководителя к общенациональному лидеру / Баку: "Тахсил", 2005, 504 с.

**In English**

4. Yahyayeva A. Internal Policy of Azerbaijan: Increasing the Efficiency of Investments. Politology, GRANI 26 (4) 2023. P.171, DOI: https://doi.org/10.15421/172375.



**XÜLASƏ**

**"ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ VƏ SİYASİ MÜNASİBƏTLƏRİ ÇƏRÇİVƏSİNDƏ**

***Məmmədova S.İ.***

***Açar sozləri:*** *Azərbaycan, Heydər Əliyev, Əsrin müqaviləsi, neft, qaz*

Azərbaycanın neft strategiyasının əsası olan "Əsrin müqaviləsi" 1994-cü il sentyabr ayının 20-də "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumu arasında ilk neft müqaviləsi imzalandı. Bu müqavilə XX əsrin ən əhəmiyyətli hadisələrindən biri kimi "Əsrin müqaviləsi" adı ilə tarixə düşdü. Ümummilli lider Heydər Əliyevin böyük və gərgin zəhməti nəticəsində imzalanan bu müqavilələr Azərbaycanın neft strategiyasının əsasını təşkil edir. Azərbaycanın xarici iqtisadi əlaqələri təkcə neft sənayesi ilə məhdudlaşmır; əks halda Azərbaycan Respublikası Cənubi Qafqazda neft hasil edən ölkə kimi qalacaq və infrastruktur dövləti qədər güclü tanınmayacaqdı.

Sonda belə bir ümumiləşdirmə etmək olar ki, Azərbaycan ilə Əsrin müqaviləsini imzalayan ölkələr arasında iqtisadi əlaqələrin xarakteri onları əsas tərəfdaş ölkələrə çevirib və müqavilə onların hər birinin maraqlarına xidmət edir.

Tədqiqatda təhlil metodundan istifadə edilmişdir.

Tətbiqi əhəmiyyəti: Ali təhsil müəssisələrində mühazirə və seminarlarda istifadə oluna bilər. Tarix, beynəlxalq münasibəltər sahəsi ilə maraqlananlar üçün faydalıdır.



**РЕЗЮМЕ**

**«КОНТРАКТ ВЕКА» В РАМКАХ ЭКОНОМИЧЕСКИХ И ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***Мамедова С.И.***

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, контракт века, нефть, газ.*

«Контракт века», являющийся основой нефтяной стратегии Азербайджана, был подписан 20 сентября 1994 года во дворце «Гюлистан» между Государственной нефтяной компанией Азербайджанской Республики и консорциумом иностранных нефтяных компаний. Этот контракт вошел в историю как одно из важнейших событий XX века под названием «Контракт века». Эти контракты, подписанные в результате большого и упорного труда общенационального лидера Гейдара Алиева, составляют основу нефтяной стратегии Азербайджана. Внешнеэкономические связи Азербайджана не ограничиваются только нефтяной промышленностью; в противном случае Азербайджанская Республика осталась бы нефтедобывающей страной на Южном Кавказе и не была бы признана сильным инфраструктурным государством.

В итоге можно сделать вывод, что характер экономических отношений между Азербайджаном и странами, подписавшими «Договор века», сделал их основными странами-партнерами, и договор служит интересам каждой из них.

В исследовании использовался метод анализа.

Важность применения: Может использоваться на лекциях и семинарах в высших учебных заведениях. История полезна для тех, кто интересуется областью международных отношений.

# AZƏRBAYCANDA NEFT KƏMƏRLƏRİNİN ÇƏKİLİŞİ ZAMANI AŞKAR EDİLƏN ARXEOLOJİ ABİDƏLƏR

**Əsədova Aytən Vaqif qızı**
*Sumqayit Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
ayten.esedova@sdu.edu.az

***Açar sözlər**: Neft, boru, iqtisadiyyat, arxeoloji qazıntı, abidə, tarix*

***Xülasə.** Bu mövzuda Azərbaycanda neft və qaz boru kəmərlərinin çəkilişi zamanı aşkar edilən arxeoloji abidələr və onların tədqiqindən bəhs edilir. 1994-cü il 20 sentyabr tarixində "Əsrin Müqaviləsi" bağlanması ilə Azərbaycan özünün iqtisadiyyat, neft sahəsində yeni bir tarixini yazdı. "Əsrin Müqaviləsi çərçivəsində xarici şirkətlərin Azərbaycana cəlb edilməsi ilə Azərbaycan neftinin və qazının dünyaya çıxarılmasında yeni layihələr həyata keçirildi. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin və Cənubi Qafqaz qaz kəmərinin çəkilişdə görülən işlər zamanı boru xətləri keçən ərazilərdə arxeoloji abidələr aşkar edilmişdir. Yerli və xarici arxeoloqların tədqiqata cəlb edilməsi ilə Azərbaycanın qədim dövrünə aid bir çox yaşayış məskənləri, qəbir abidələri üzərində geniş tədqiqatlatr aparılmışdır. Bu tədqiqatlar Azərbaycan arxeologiyasına yeni imkanlar gətirmişdir.*

**"Əsrin Müqaviləsi"**. Azərbaycan 90-cı illərin əvvəllərində həm siyasi, həmdə iqtisadi cəhətdən olduqca ağır zaman keçidində idi. Sovet hakimiyyətinin dağılması ilə müstəqilliyini qazanan ölkəmiz ( 199-ci il) Ermənistanın işğalçı siyasətinə ( 1992-1993-cü illər) məruz qalmışdır. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, iqtisadiyyatına ciddi ziyan dəymişdir. Ərazilərinin dörddə bir hissəsində döyüş əməliyyatları gedən ölkəmizin kənd təsərrufatıda zəifləmişdir. Yeni müstəqillik qazanan ölkədə yüzlərlə sənaye müəssisəsi zavod və fabriklərdə dağılmışdır. Ermənistan tərəfindən işğal olan ərazilərlə 200 dən çox faydalı qazıntı yataqları, 250000 hektar meşə sahəsi düşmənin əlinə keçmiş, 60000-dən çox təsərrufat sahəsi məhv olmuşdur [1, s.367]. 1994-1995-ci illərdə Rusiya Azərbaycanla quru və su yollarını bağlamış, İran İslam Respublikası Azərbaycana gətirilən bir çox məhsulların ixracına qadağa qoymuşdu. Çox sayda həm daxili, həmdə xarici problemlərin olduğu bir dövrdə Heydər Əliyev (1993-cü il) Azərbaycanın dadına yetdi. İlk olaraq dahi şəxsiyyət ölkə daxili sabitliyi nizama saldı [2]. Daxili nizamı nəzarətə alan H.Əliyev iqtisadi böhranın qarşısını almaq üçün bir çox işlər görüb fərmanlar verdi. Dahi şəxsiyyətin iqtisadi tənəzzüldən çıxmaq üçün gördüyü işləri sadalamaqla bitməz. Ən əsası bu araşdırdığımız mövzuda neft siyasəti haqqında bəhs edilir. Ölkədə maliyyə problemini, iqtisadi problemləri həll etmək üçün xarici investisiyaların cəlb edilməsini vacib sayan H.Əliyev xarici investorları beynəlxalq konfranslardan Azərbaycana dəvət etdi. Qərb ölkələrinin neft şirkətləri ilə Bakıda 1994-cü ilin martında danışıqlar başladı. Danışıqlar daha sonra İstanbulda davam etdirildi. Danışıqların əsas həlledici mərhələsi Amerikada Hyuston şəhərində davam etdirildi. 45 gün ərzində aparılan danışıqlar ciddi nəticə verdi. Nəhayət, 1994-cü ildə sentyabrın 20-

də Azəri-Çıraqlı-Günəşli yataqlarının işlənməsi üzrə 7 ölkənin 11 neft şirkəti ilə ”Əsrin Müqaviləsi” adlanan müqavilə imzalandı [3, s.3]. Bununlada Azərbaycanın iqtisadi inkişafına təkan verən yeni bir dövr başladı. Bütün bu siyasətin nəticəsində 2000-ci illərin əvvəllərində ölkədə xarici şirkət və firmaların mindən çox nümayəndəsi fəaliyyət göstərirdi. Əsrin Müqaviləsi bağlandıqdan sonra əsas ilk əldə edilən saziş Xəzərdən Aralıq dənizinə qədər uzanan, ildə 50 milyon ton neft nəql edilməsi və ən əsası 1760 km olacaq iri diametrli Bakı-Tbilisi-Ceyhan –BTC əsas neft ixrac kəmərinin tikintisi haqqında saziş idi [1, s.378]. 2002 ci il avqust ayında BTCKO şirkəti təsis edildi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanıldı. Kəmərin 443 km Azərbaycan ərazisindən keçirdi.

Azərbaycanın iqtisadi inkişafına yol açan neft müqavilələrinin həyata keçirilməsində və əsas neft kəməri olan BTCNK-nin çəkilişi zamanı bir çox arxeoloji abidələrdə aşkar edilmişdir. Boru kəmərlərinin çəkilişi zamanı 2003-2005-ci illərdə bir çox arxeoloji abidələr öyrənilmişdir. Abidələrin aşkar edilməsi zamanı AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu əməkdaşlıq edilmiş, arxeoloqlar qazıntı sahəsinə ekspedisiya təşkil etmişdirlər. Neft borularının çəkilişi zamanı Goranboy rayonunun Faxralı, Samux rayonunun lll Hacıalılı, Şəmkir rayonunun Daşbulaq, Ağstafa rayonunun Qıraq Kəsəmən orta əsr yaşayış yerlərində tədqiqatlar aparılmışdır [ 4, s.28 ]. Aparılan arxeoloji tədqiqatlar nəticəsində ilk dəfə olaraq Gəncə-Qazax bölgəsinin orta əsr kənd tipli yaşayış məskənlərinin səciyyəvi xüsusiyyətlərinin öyrənilməsi üçün geniş imkanlar yaranmışdır. 2004-2005-ci illərdə Bakı-Tibilisi-Ceyhan neft və Cənubi Qaz kəmərinin çəkilişi zamanı Azərbaycanın qərb bölgəsində Leylatəpə mədəniyyətinə aid Böyük Kəsik, Poylu yaşayış yerləri və Soyuqbulaq kurqanları aşkar edilmişdir [9, s.4]. Kəmərin çəkilişi zamanı aşkar edilən abidələirin öyrənilməsi üçün AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstutunun arxeoloqları geniş tədqiqatlar aparmışdır. Əsrin Müqaviləsi ilə reallaşan BTC neft və CQ qaz kəmərinin çəkilişi zamanı aşkar edilən abidələrdə paralel olaraq (Qazax, Ağstafa rayonları ərazisində 2002-2005-ci illərdə) arxeoloji tədqiqatlar aparılmışdır. Tədqiqatlara N.Museyibli rəhbərlik edirdi. Neft və qaz kəmərinin çəkilişi zamanı 40 dan çox müxtəlif dövrlərə aid yaşayış məskəni, qəbir abidəsi aşkar edilərək öyrənilmişdir. Təkcə Ağstafa rayonu ərazisində 9 qədim yaşayış məskəni aşkar edilərək öyrənilmişdir.

2003-cü il BTC neft kəmərinin çəkilişi zamanı kəmərin Şəmkir rayonunun Zəyəmçay ərazisində (BTC neft kəmərinin 356-cı km-də) maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Kəmərin çəkilişi ilə paralel olaraq aşkar edilər qədim tapıntılar tədqiqata cəlb edilmişdir. Arxeoloq N.Museyibli tərəfindən həmin ərazidə Zəyəmçay nekropolunda arxeoloji tədqiqatlar aparılmışdır. Arxeoloji tədqiqat nəticəsində 130 qəbir abidəsi tədqiq edilmişdir. Tədqiqatlar nəticəsində dağılmış torpaq qəbirdən xırda parçalara ayrılmış tunc kəmər aşkar edilmişdir. Kəmərin üzərində onu dəri üzərinə tikmək üçün ilgəklərə rast gəlinir [10]. Zəyəmçay nekropolunun tədqiqatına BTC neft kəmərinin çəkilişi zamanı şirkər tərəfindən dəvət edilən Böyük Britaniya arxeoloqlarıda iştrak etmişdir. Zəyəmçay nekropolunda aparılan tədqiqatlar nəticəsində (son tunc, ilk dəmir dövrünə aid-e.ə ll minilliyin ikinci yarısı-l minilliyin əıvvəli) üç tib qəbir abidəsi aşkar edilmişdir. Qazıntılar zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid dəfn adətlərinə də rast gəlinir. 2016-2017 ci illərdə CQBKG ( SCPX) qaz kəmərinin çəkilişi ilə əlaqədar Şəmkir rayonu ərazisində, Zəyəm çayın hər iki sahilində yeni kurqanlar aşkar edilmişdir. Kurqanlar daş örtüklü idilər [11, s.15].

2004-2005-ci illərdə BTC neft kəmərinin və Cənubi Qafqaz qaz kəmərinin çəkilişi zamanı Yevlax rayonu ərazisinda geniş miqyaslı arxeoloji tədqiqatlar aparılmışdır. Qazıntılar nəticəsində müxtəlif tipli arxeoloji abidələr aşkar edilmişdir. Yevlax rayonunun Yəldili və Ağdaş rayonunun Əmirxan kəndləri yaxınlığında küp qəbir nekropolları aşkar edilmişdir [5, s.237]. Abidələrlə bu ərazilərin antik və orta əsrlər dövrünə aid mühüm məlumatlar əldə edilmişdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin (BTC), Cənubi Qafqaz qaz (CQBK) çəkilməsi və Cənubi Qafqaz qaz kəmərinin genişləndirilməsi layihəsi zamanı (Şahdəniz-ll-CQBKG) ilə əlaqədar Tovuzçay nekropolunun tədqiqinə yenidən başlanılmışdır [6, s.11]. Qeyd etmək lazımdırki bu dövrə qədər, əsasəndə Sovet dövründə (1981-ci il) Girzan SES tikintisi ilə əlaqədar bu ərazilərdə kiçik miqyaslı tədqiqatlar aparılmışdır. Bu ərazilərdə torpaq qəbirlər aşkar edilmişdir. BTC neft

kəmərinin çəkilişinə qədər Tovuzçay hövzəsində aparılan arxeoloji tədqiqatlarda yalnız son Tunc və Dəmir dövrünə aid çox az tapıntılar tədqiqata cəlb edilmişdir. Neft kəmərinin çəkilişi zamanı aparılan arxeoloji tədqiqatlar isə son yüz ilin ən böyük arxeoloji tədqiqatları idi. Eyni zamanda BTC, CQBK, CQBKG, marşurutlarının reallaşdırılması ilə bağlı Tovuzşay hövzəsi ilə bərabər Axıncaçay hövzəsində də arxeoloji tədqiqatlar aparılmışdır. Xəzər neftinin Aralıq dənizinə çatdıran marşurutların çəkilişi zamanı aşkar ediləmn arxeoloji abidələrin tədqiqi neft kəmərinin çəkilişi ilə paralel aparılırdı. 2004-2005-ci illərdə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstutunun arxeoloqları əraziya cəlb edilmişdir və geniş tədqiqat işləri aparılmışdır. Tovuz rayonunun Bozalqanlı və Əlimərdanlı kəndləri arasında (BTC-378-ci km) alçaq təpələrdə yerləşən nekropollarda arxeoloji tədqiqat işləri aparılmışdır. Neft kəmərinin çəkilişi zamanı tədqiqata cəlb edilən ərazidən yüzə yaxın qəbir abidəsi aşkar edilmişdir. 2014-2016-cı illərdə CQBKG qaz kəmərinin inşası ilə əlaqədar Tovuzçay nekropolunda təkrar qazıntılar aparılmış, ərazidən 104 daş örtüklü qəbir və bir ibadətgah aşkar edilmişdir [6, s.13]. Aşkar edilən abidələr son Tunc, ilk Dəmir dövrünə aid olub həmin dövrün dəfn adətləri barədə geniş məlumat verir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi zamanı Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində Kür çayına bir kilimetrdən artıq aralı ərazidə Tavatəpə abidəsi aşkar edilmişdir. Aşkar edilən abidənin tədqiqatına arxeoloqlar cəlb edilmişdir. Təşkil edilən arxeoloji ekspedisiyaya Azərbayca və İtaliya alimlərindən ibarət idi. Arxeoloji ekpedisiyaya arxeoloq Bəxtiyar Cəlilov rəhbərlik etmişdir. Florensiya mütəxəssislərinin də iştrak etdiyi beynəlxalq arxeoloji ekspedisiyanın apardığı geniş miqyaslı arxeoloji tədqiqatlar nəticəsində aşkar edilən abidənin 3500 il yaşı olduğu müəyyən edilmişdir. Kür çayına yaxın olan abidə qədim insanların yaşaması üçün strateji əhəmiyyət kəsp edirdi. Öyrənililən qazıntı sahəsindən, tapılan materiallar əsasında məlum olmuşdur ki, Tavatəpə abidəsi Qafqazda bıyük bir ərazini əhatə edən ibadətgahdır. Əcnəbi arxeoloqlarda bu abidənin böyük bir yeməkxananı xatırlatmasını və unikallığı ilə seçilməsini qeyd etmişdirlər. Rutualların həyata keçirildiyi abidədə məlum olmuşdur ki, Qafqazın hər yerindən gəlirdilər-əvvəl qidalanıb sonra rituallar həyata keçirirdilər [7]. Tavatəpə ərazisində aparılan arxeoloji qazıntılar zamanı ərzaq quyuları, ocaq yerləri, dən üyütmək üçün alətlər, bişmiş gil , saxsı qablar və gil naxış möhürləri aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, Tavatəpə abidəsi son Tunc, ilk Dəmir dövrünə aid abidədir. Burada Xocalı-Gədəbəy mədəniyyətinə məxsus tayfaların məskunlaşdığı ərazi olub. Aşkar edilən abidə Azərbaycanın qərb hissəsinin Kür çayı boyunca qədim yaşayış yerlərinin öyrənilməsində böyük əhəmiyyət kəsp edir.

2006-cı il Ağstafa rayonunun Böyük Kəsik kəndi ərazisində Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin keçdiyi ərazilərdə aparılan qazıntılar zamanı arxeoloji abidələr aşkar edilmişdir. Əraziya cəlb edilən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları abidəyə baxış keçirmiş və bu ərazinin Eneolit dövrünə aid yaşayış məskəni olduğunu bildirmişdirlər. Aşkar edilmiş maddi mədəniyyət nümunələri ilə bu ərazilərin (Azərbaycanın qərb bölgəsi) Mesopotomiya ilə sıx mədəni əlaqələrin olmasını təsdiq edir, Leylatəpə abidəsi (Qarabağ-Ağdam) ilə oxşarlıq təşkil edən Ağstafanın Böyük Kəsik, Soyuqbulaq abidələri Mesopotomiya ilə (Xalaf-Übeyt mədəniyyəti) əlaqələrin və bu ərazilərə köçüb gələnlərə məxsus tapıntıların olduğunu təsdiq edir [8, s.7].

Ölkəmizdə nəinki BTC neft kəmərinin, Cənubi Qafqaz qaz kəmərlərinin çəkilişi zamanı arxeoloji abidələr aşkar edilmişdir, eyni zamanda Şahdəniz-ll infrastruktur layihəsi ilə bağlı Səngəçal terminalının genişləndiriləcəyi ərazilərdə də arxeoloji abidələr aşkar edilmişdir. 2013-2014-cü illərdə yeni tikinti sahəsində arxeoloqlar (Q.Qoşqarlı, ŞNəcəfov, V.Əsədov, A.Ağalarzadə, T.Babayeva, Ə.Əbdürəhmanov ) tədqiqat işləri aparmışdırlar [12, s.320]. Ərazidə ilk olaraq AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ilə BP, URS və AzFEN şirkətinin birgə tərəfdaşlığı ilə Şahdəniz llinfrastruktur layihəsinin həyata keçiriləcəyi sahədə arxeoloji monitorinqlər aparılmışdır. Sənqəçal ərazisində tədqiqatlar aparılmış ərazidən orta əsrlərə aid şirli qab, saxsı nümunələri, Xlll-XlV əsrə aid Orta Asiya, İran və Fars körfəzindən gətirilmiş yüksək keyfiyyətli saxsı qablar aşkar edilmişdir. Tədqiq edilən ərazilərin XV-XVl əsr ticarət yolları

üzərində yerləşməsi Səngəçal Qaraçı karvansarası üzərində qalan kitabələrin tədqiqi orta əsrlərdə Şirvan və Abşeronun ticarət əlaqələri öyrənilməsi baxımından böyük əhəmiyyət kəsp edir.

**Nəticə.** Azərbaycanda nefti, qaz kəmərlərinin çəkilişi zamanı aşkar edilən arxeoloji abidələrin öyrənilməsi böyek əhəmiyyət kəsp edir. Xüsusi ilə Azərbaycanın qərb bölgəsində geniş miqyaslı arxeoloji tədqiqatların aparılması 2003-cü ildən BTC neft və CQBK qaz boru kəmərinin çəkilməsi layihələrinin reallaşması ilə genişlənmişdir. Xəzər neftinin və qazının üç ölkə-Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçməklə Aralıq dənizindən Avropaya çıxarılması zamanı boru xətlərinin çəkilməsi üçün qazıntıların aparılması arxeoloji tədqiqatların genişlənməsinə də təkan vermişdir. Aparılan boru çəkilişləri zamanı abidələrin öyrənilməsi, təxirə salınmadan paralel aparılmışdır. Arxeoloji tədqiqatlara yerli arxeoloqlarla yanaşı əcnəbi arxeoloqlarda cəlb edilmişdir. Hər qarışında tarix yatan Vətənimiz-Azərbaycan " Əsrin Müqaviləsi" ilə iqtisadi cəhətdən inkişaf etməklə yanaşı, digər sahələrin də inkişafına nail olmuşdur.

## Ədəbiyyat


1.Azərbaycan tarixi. Yeddi cillddə-Vll cild ( 1941-2002). Bakı –Elm.2008.s.608, 80 səh. İllustrasiya

2.Heydər Əliyev Azərbaycanda Dövlər quruculuğunun banisidir.Bakı-2017.s.160

3.Xoşbəxt Y. Heydər Əliyevin Neft Strategiyası.Respublika-2023-10 may-N-96-s11.

4.Azərbaycan Arxeologiyası. Altı cilddə-Vl cild. Red.Tarix Dostiyev. Şərq-Qərb-Bakı-2008.s.632

5. Taleh Ə. Əlicançay hövzəsinin Alban dövrü qəbir abidələri. Tarix və onun problemləri, N-4 .2012.s.256-260

6.Şamil N.,Anar A., Vaqif Ə. Qazıqulu abidələri .Bakı-2017.s.232

7. Ağstafada 3500 il əvvələ aid Qafqazda ilk ritual ibadətgah yeri tapılıb. Azərtac.03.07.2024.

8. Babayev İ. Cəfərov H.Cəfərova D. Qarabağın arxeoloji abidələri ən qədim zamanlardan bşe.lV əsrinə qədər. Azərbaycan MEA-nın Xəbərləri. İçtimai Elmlər seriyası.N-3.Bakı-2017.s.4-19

9. Museyibli N.Ön Asiya-Qafqaz Xalkolitində Leylatəpə mədəniyyəti. Aftoreferat. AMEA-Tarix İnstitutu-Bakı-2015.s.47

10. Museyibli N. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası-2004.N-2.s58-74

11. Museyibli N., Nəcəfov Ş.Zəyəmçay nekropolu. Elm və təhsil-Bakı-2019.s.421

12. 2013-2014-cü illərdə yeni tikinti sahələrində aparılmış arxeoloji tədqiqatlar. Q.Qoşqarlı, Ş.Nəcəfov, V.Əsədov, A.Ağalarzadə, T.Babayeva, Ə.Əbdürəhmanov. Azərbaycanda Arxeoloji tədqiqatlar-2011. Xəzər Unuversitetinin nəşriyyatı.s.402.



**SUMMARY**

**ARCHAEOLOGICAL MONUMENTS DISCOVERED DURING THE CONSTRUCTION OF OIL PIPELINES IN AZERBAIJAN**

***Asadova A.V.***

***Key words:*** *oil, pipeline, economy, archeological excavation, monument, history*

In this topic, the archaeological monuments discovered during the construction of oil and gas pipelines in Azerbaijan and their research are discussed. With the conclusion of the "Contract of the Century" on September 20, 1994, Azerbaijan wrote a new history in the field of economy and oil. "With the involvement of foreign companies in Azerbaijan within the framework of the Agreement of the Century, new projects were implemented in the export of Azerbaijani oil and gas to the world. During the construction of the Baku-Tbilisi-Ceyhan oil pipeline and the South Caucasus gas pipeline, archaeological monuments were discovered in the areas where the pipelines pass. With the involvement of local and foreign archaeologists in the research, extensive research was conducted on many settlements and grave monuments belonging to the ancient period of Azerbaijan. These studies have brought new opportunities to the archeology of Azerbaijan.

**РЕЗЮМЕ**

**АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ, ОБНАРУЖЕННЫЕ ПРИ СТРОИТЕЛЬСТВЕ НЕФТЕПРОВОДОВ В АЗЕРБАЙДЖАНЕ**

***Асадова А.В.***

***Ключевые слова:*** *Нефть, трубопровод, экономика, археологические раскопки, памятник, история.*

В этой теме обсуждаются археологические памятники, обнаруженные при строительстве нефте- и газопроводов в Азербайджане, и их исследования. С заключением «Контракта века» 20 сентября 1994 года Азербайджан написал новую историю в области экономики и нефти. "С привлечением иностранных компаний в Азербайджане в рамках Соглашения века были реализованы новые проекты по экспорту азербайджанской нефти и газа в мир. При строительстве нефтепровода Баку-Тбилиси-Джейхан и Южно-Кавказского газопровода на участках прохождения трубопроводов были обнаружены археологические памятники. С привлечением к исследованиям местных и зарубежных археологов были проведены обширные исследования многих поселений и могильных памятников, относящихся к древнему периоду Азербайджана. Эти исследования открыли новые возможности для археологии Азербайджана.

## THE CONTRACT OF THE CENTURY: ANALYZING THE SOCIO-ECONOMIC AND CULTURAL IMPACTS OF THE CONTRACT ON AZERBAIJAN

**Fatullayeva Sadagat Abdul**
*Sumqayıt State University, Sumqayıt, Azerbaijan*
sedaqet.fatullayeva@sdu.edu.az

***Keywords:*** *oil, reform, Contract of the century, economic growth, industrialization*
***Summary****. Over the past three decades, oil-rich Azerbaijan has transformed from a struggling new independent state into an important regional energy player. Before discussing the outcome of the Production Sharing Agreement (PSA), known as the "Contract of the Century", an important page in the history of modern Azerbaijan, it is necessary to consider the political climate in Azerbaijan at that time. The Contract of the Century has made it possible to attract significant foreign investments to Azerbaijan, especially in the oil and gas industry. The article examines how it is possible to build oil refineries, pipelines and transport networks with an influx of funds. The main purpose of this article is to analyze the impact of the "Contract of the Century" on the socio–economic and cultural development of Azerbaijan. The methodology includes analysis of historical documents, economic data and cultural research, including interviews with key stakeholders and experts.*

Oil-rich Azerbaijan has transformed from a struggling newly independent state to a significant player in the regional energy player over the past three decades. The political climate in Azerbaijan during that historical era must be considered before discussing the consequences of the historic Production Sharing Agreement (PSA), known as the “Contract of the Century” which is a significant chapter in modern Azerbaijani history.

National Leader Heydar Aliyev developed the oil strategy to make Azerbaijan a strong, modern state with sustainable economic growth. This tactic, which is essential to the fundamental overhaul of upcoming political and economic reforms, made it easier for international investors to become involved in the development of Azerbaijan's oil reserves. It also included shifting the ways that crude oil was transported, managing oil profits effectively, and bringing Azerbaijan into a new era of growth.

One of the most important agreements in the political, economic, and strategic history of Azerbaijan in the 20th century was made under the direction of National Leader Heydar Aliyev: the Agreement on the Joint Development and Production Sharing for the "Azeri" and "Chirag" Fields and the "Gunashli" Field in the Azerbaijani Sector of the signed on September 20, 1994, and became known as "The Contract of the Century" of the Caspian Sea. As contracting parties, 11 multinational oil corporations representing seven nations (Azerbaijan, USA, UK, Russia, Türkiye, Norway, and Saudi Arabia) participated in the $7.4 billion agreement. These businesses included AMOCO, BP, McDermott, UNOCAL, SOCAR, Lukoil, Statoil, TPAO, Pennzoil, Ramco, and Delta. The Azerbaijan International Operating Company (AIOC), the Advisory Council, and the Steering Committee were among the first operational institutions they set up. The Azerbaijani Parliament ratified "The Contract of the Century" on December 12, 1994.

Initial assessments indicated that the "Azeri," "Chirag," and a deep-water portion of the "Gunashli" field had 511 million tons of crude oil; however, subsequent assessments determined that the oil reserves amounted to one billion tons.

The historic Contract for the cooperative development of the deep water deposits of the Azeri, Chirag, and Guneshli oil fields was known as the "Contract of the Century," and it was signed on September 20, 1994, in the Gulestan Palace in Baku. The significant effects of this agreement on the socioeconomic and cultural advancement of Azerbaijan are examined in this thesis. Through an analysis of historical background, economic advancements, social upheavals, and cultural shifts, this paper shows how the Contract of the Century shaped Azerbaijan's post-Soviet trajectory by acting as a catalyst for important changes.

The 1994 signing of the Contract of the Century signaled a sea change in Azerbaijani history. It was a turning point in the post-Soviet history of the nation, indicating a move toward global cooperation and economic modernization. This thesis presents the agreement's historical relevance and delineates the argument's extent.

**Objective and Methodology:**

The primary objective of this paper is to analyze the impact of Contract of the Century on Azerbaijan's socio-economic and cultural development. The methodology includes a review of historical documents, economic data, and cultural studies, complemented by interviews with key stakeholders and experts.

An outline of Azerbaijan's political and economic circumstances before the Contract of the Century is given in this chapter. It discusses the nation's economic struggles, the shift away from Soviet domination, and the geopolitical factors that shaped the Contract of Century's negotiations.

A review of the main players in the negotiations, the significance of the Contract of Century strategically, and the global politics surrounding oil. The signing ceremony at Gulestan Palace and its immediate political ramifications.

Development and Economic Growth

Significant foreign investment in Azerbaijan was facilitated by the Contract of Century, especially in the oil and gas industry. This chapter examines how the construction of refineries, pipelines, and transportation networks was made possible by the inflow of cash.

Employment and Industrialization

Economic diversification resulted from the expansion of the oil sector, which fueled industrialization and produced job possibilities. The chapter examines how changes in job trends, income distribution, and overall economic impact on Azerbaijan are analyzed.

When discussing the Social Changes brought about by this amazing historical event, it is important to emphasize two main points: Urbanization, Changing Demographics, and Raising Living Standards

The Contract of Century's economic boom accelerated urbanization and demographic changes, resulting in Baku and other cities ndergoing significant transformations in housing, healthcare, and education. Living standards rose as a result of higher oil export earnings. There is no denying the impact on social welfare programs, poverty alleviation, and the general standard of living of Azerbaijani inhabitants.

This Contract has an impact on socioeconomic growth, but it also has an impact on globalization, the Cultural Renaissance, art and literature, cultural identity, and heritage. In Azerbaijan, the economic boom brought about by the Contract of Century encouraged a cultural rebirth.

Azerbaijani cultural heritage preservation and promotion initiatives were spurred by the Contract of Century, even as globalization brought in new cultural influences. Because of the Contract of Century's success, Azerbaijanis' sense of pride in their country was bolstered, and national narratives and their collective consciousness were impacted. Issues including social inequality, environmental issues, and economic reliance on oil are all addressed by the Contract's long-term sustainability of its cultural and economic effects.

The "Contract of the Century" profoundly altered the socioeconomic and cultural environment of Azerbaijan, making it a pivotal moment in the country's history. This thesis has shown that the Contract reinforced national identity, promoted a cultural renaissance, and stimulated economic growth and development. The lessons learned from the Contract's impact will be helpful as Azerbaijan moves forward in addressing upcoming possibilities and difficulties.

As for the significance of 'the Contract of the Century', Heydar Aliyev best expressed its value: "In signing this contract we once more demonstrated to the world that Azerbaijan is a fully independent state and that its people control their wealth. In signing this contract we created relations with the developed countries of the world, with their biggest oil companies, and the basis for integrating Azerbaijan into the global economy and establishing a free market economy. In signing this contract, we demonstrated once more to the world that the independent Republic of Azerbaijan is a legal and democratic state".

## References


1. Aliyev, M. (2021). *Urban Transformation in Baku: The Impact of Oil Revenue on Social Development*. Baku University Press.
2. Baker, C. (2018). *Economic Diversification in Azerbaijan: Opportunities and Challenges*. Journal of Eurasian Studies, 9(2), 114-127.
3. Cornell, S. (2012). *Azerbaijan Since Independence: A Political and Economic Overview*. Central Asian Survey, 31(4), 445-461.
4. Davis, C. (2020). *The Oil Boom in Azerbaijan: Implications for Economic Policy and Development*. Energy Policy, 139, 111245.
5. Finkel, E. (2015). *Leadership and Political Strategy in Post-Soviet Azerbaijan*. Post-Soviet Affairs, 31(3), 245-264.
6. Guliyev, F. (2018). *National Identity and the Oil Narrative in Azerbaijan*. Journal of Nationalism and Ethnic Politics, 24(3), 350-367.
7. Mammadov, R. (2020). *Cultural Shifts in Oil-Rich Societies: The Case of Azerbaijan*. Central Asian Affairs, 7(1), 37-56.
8. Mogilevskii, R. (2009). *Oil Reserves and Economic Growth in Azerbaijan*. Eurasian Geography and Economics, 50(6), 688-701.
9. Pashayev, S. (2016). *The Socio-Cultural Impact of Oil in Azerbaijan*. Baku Review of Social Sciences, 5(2), 101-119.
10. Yalçın, A. (2019). *Resource Management and Economic Policy in Azerbaijan: Analyzing the Dutch Disease*. Journal of Economic Policy Research, 15(1), 75-92.
11. Zanotti, J. (2014). *Azerbaijan: A Political and Economic Overview*. Congressional Research Service Report.



**XÜLASƏ**

**"ƏSRİN MÜQAVİLƏSİ": SOSİAL-İQTİSADİ TƏHLİL VƏ MÜQAVİLƏNİN AZƏRBAYCANA MƏDƏNİ TƏSİRLƏRİ**

***Fətullayeva S.A.***

***Açar sözlər:*** *neft, islahat, Əsrin Müqaviləsi, iqtisadi artım, sənayeləşmə*

Neftlə zəngin Azərbaycan son üç onillikdə mübarizə aparan yeni müstəqil dövlətdən mühüm regional enerji iştirakçısınıa çevrilib. Müasir Azərbaycan tarixində mühüm səhifə olan "Əsrin Müqaviləsi" kimi tanınan Hasilatın Pay Bölgüsü Sazişinin (PSA) nəticələrini müzakirə etməzdən əvvəl həmin dövrdə Azərbaycandakı siyasi ab-hava nəzərə alınmalıdır.

"Əsrin Müqaviləsi" Azərbaycana, xüsusilə neft-qaz sənayesinə əhəmiyyətli xarici sərmayənin qoyulmasına şərait yaratdı. Məqalədə neft emalı zavodlarının, boru kəmərlərinin və nəqliyyat şəbəkələrinin tikintisinin pul vəsaitlərinin daxil olması ilə necə mümkün olduğu araşdırılır. Bu məqalənin əsas məqsədi "Əsrin müqaviləsi"nin Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına təsirini təhlil etməkdir. Əsas maraqlı tərəflər və ekspertlərlə müsahibələrin əks olunduğu tarixi sənədlərin, iqtisadi məlumatların və mədəniyyət tədqiqatlarının təhlili metodologiyasından istifadə olunmuşdur.

**РЕЗЮМЕ**

**«КОНТРАКТ ВЕКА»: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ АНАЛИЗ И КУЛЬТУРНЫЕ ПОСЛЕДСТВИЯ СОГЛАШЕНИЯ ДЛЯ АЗЕРБАЙДЖАНА**

***Фатуллаева С.А.***

***Ключевые слова**: нефть, реформа, Контракт века, экономический рост, индустриализация*

За последние три десятилетия богатый нефтью Азербайджан превратился из переживающего трудности нового независимого государства в важного регионального энергетического игрока. Прежде чем обсуждать итоги Соглашения о разделе продукции (СРП), известного как «Контракт века», важной страницы в истории современного Азербайджана, следует рассмотреть политический климат в Азербайджане того времени.

«Контракт века» позволила привлечь в Азербайджан значительные иностранные инвестиции, особенно в нефтегазовую отрасль. В статье рассматривается, как возможно строительство нефтеперерабатывающих заводов, трубопроводов и транспортных сетей с притоком денежных средств. Основная цель данной статьи – проанализировать влияние «Контракта века» на социально-экономическое и культурное развитие Азербайджана. Методика включает в себя анализ исторических документов, экономических данных и культурных исследований, включая интервью с ключевыми заинтересованными сторонами и экспертами.

# III BÖLMƏ *** III СЕКЦИЯ *** III SECTION

# "ƏSRİN MÜQAVİLƏSİ"NİN AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏKİ MÖVQEYİNƏ TƏSİRİ

# ВЛИЯНИЕ «КОНТРАКТА ВЕКА» НА ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ.

# THE IMPACT OF THE "CONTRACT OF THE CENTURY" ON THE POSITION OF AZERBAIJAN IN INTERNATIONAL RELATIONS

## DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ ATƏT-in MİNSK QRUPUNUN FƏALİYYƏTİ VƏ FƏLİYYƏTSİZLİYİ HAQQINDA

**Abbaszadə Nigar Mütəllim qızı**
*Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan*
abbaszade1988@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, Dağlıq Qarabağ, münaqişə, Minsk qrupu, səmərəsiz*

***Xülasə.*** *Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq təşkilatların fəaliyyəti illərlə səmərəsiz olmuşdur. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupunun fəaliyyəti də belə idi. 2016-cı il döyüşləri, 2018-ci il erməni narıncı inqilabı və 2020-ci il 44 günlük hərbi əməliyyatlar Minsk qrupunun fəaliyyətsizliyinin növbəti sübutları oldu.*

*44 günlük Zəfər müharibəsindən sonra Ermənistan tərəfdarlarının Minsk qrupunun fəaliyyətini bərpa cəhdlərinə baxmayaraq Azərbaycan Respublkasının Prezidenti İlham Əliyev əvvəlki mövqeyində israrlıdır. Prezidentin qrupun artıq tarixə çevrilməsini dəfələrlə bəyan etməsi bir daha onun 28 illik fəaliyyətinin gözlənilən, dəqiq desək, səmərəsizliyinin labüd nəticəsi deməkdir.*

Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq təşkilatların fəaliyyəti haqqında birmənalı fikirlər demək çox çətindir. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə də eyni sözləri demək olar [1].

Qeyd edilməlidir ki, Qarabağ hərəkatının ilkin məqsədi "miatsum" idi və Dağlıq Qarabağın Sovet Azərbaycanından alınaraq Sovet Ermənistanına birləşdirilməsi məqsədini güdürdü. Sovet İttifaqının dağılmasından sonra bu aydın şəkildə ifadə edilmiş məqsəd, Ermənistanla birləşmək istəyi qalmasına baxmayaraq, Azərbaycandan ayrılıb müstəqil olmaq tələbi ilə əvəz olundu. 1988-ci ildə başlayan və 1992-ci ilə qədər genişmiqyaslı hərbi əməliyyatlara çevrilən döyüşlərdə erməni silahlı dəstələri Ermənistan hərbi hissələri və "üçüncü tərəf"in muzdlu nizami hərbi hissələrinin həlledici iştirakından sonra qalib gəldi. Ermənilər Azərbaycanın, demək olar, adi silahlarla silahlanmış yerli özünü müdafiə qüvvələrini Dağlıq Qarabağdan kənarlaşdırdılar, əsrlər boyu Azərbaycan üçün Qarabağ həlledici strateji əhəmiyyətli dayaq nöqtəsi olmuş Şuşanı tutdular, "təhlükəsizlik kəməri" yaratmaq bəhanəsi ilə bölgəyə bitişik bufer zonanı zəbt etdilər, sakinlərini isə qovdular.

Ardınca, o vaxtkı sovet dövlət başçısı M.Qorbaçovun başladığı çirkin siyasi oyunun ilk mərhələsini yekunlaşaraq, Dağlıq Qarabağ faktiki olaraq Azərbaycandan ayrı düşmüş oldu. BMT və digər beynəlxalq təşkilatların tələbləri nəticəsiz qaldı. Tərəflər arasında 1994-cü ildə əldə olunan atəşkəs (Bişkek protokolu) məsələnin siyasi həllinə gətirib çıxarmadı. Yalnız BMT Təhlükəsizlik

Şurasının məlum qətnamələrində Qarabağın Azərbaycanın bir hissəsi hesab olunması, bəlkə də, xalqlmlzln məsələyə münasibətdə nikbin olması üçün ciddi əsaslardan biri demək idi [2, s.19].

Həmin vaxtdan 2020-ci il Vətən Müharibəsinə qədər istər diplomatik, istərsə də təmas xəttindən o tərəfə çox hadisələr, əksər vaxtlarda ziddiyyətli baş vermişdir. Erməni qüvvələri tərəfindən ələ keçirilən Qarabağ ətrafındakı ərazilərin işğalı eyni vaxtda baş vermədi.

20 faizə yaxın ərazimizin ermənilər tərəfindən 30 illik işğalı mərhələlərlə həyata keçirilmşdi. Bu məsələdə o vatkı Azərbaycan rəhbərliyinin məsuliyyətsizliyi, Ulu öndər Heydər Əliyev kimi dünya miqyaslı siyasətçinin kömək və məsləhətlərindən istifadə edilməməsi, əksinə, onu hər vasitə ilə xalqdan təcrid etməyə yönəlmiş cinayətkar xarakterli digər əməllər Ermənistanın 1992-ci ilin mayında Şuşanın alınmasının ardınca keçmiş Dağlıq Qarabağ ərazisinə tam nəzarətə nail olduqdan sonra, ardınca vilayətin inzibati sərhədləri ilə öz arasında qalan Laçın və Kəlbəcər rayonlarının işğalına start verdi. 1993-cü ilin aprel ayında Kəlbəcər, may ayında isə Laçın rayonları işğal edildi [10]. Çünki Ermənistan bu əraziləri həyati əhəmiyyətə malik hesab edirdilər və bununla da Dağlıq Qarabağla öz aralarında quru nəqliyyat əlaqəsini təmin etməyə nail olundu.

Növbəti hədəf Dağlıq Qarabağ və İran arasındakı ərazilər müəyyən edildi. Həmin vaxt Kəlbəcərin süqutu nəticəsində Azərbaycanda baş verən siyasi hadisələr, vətəndaş müharibəsi təhlükəsi düşmənin işini bir az da asanlaşdırdı. 1993-cü ilin yayında erməni qoşunları hücuma keçərək Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını da ələ keçirdi. Qarabağdan cənubda İranla həmsərhəd olan Araz çayına qədər yerləşən strateji əhəmiyyət kəsb edən bölgəyə tam nəzarət əldə edildi.

Erməni təcavünün növbəti mərhələsi Dağlıq Qarabağın şərqində yerləşən ərazilərin, 1993-cü ilin iyulunda strateji əhəmiyyətli Ağdam şəhərinin, sentyabrda isə Füzuli rayonunun işğal edilməsi oldu [9, s.15].

Erməni tərəfinin məqsədi mümkün qədər çox ərazi ələ keçirərək, Azərbaycanla sülh danışıqlarında daha çox üstün mövqe və ya təsir vasitəsi əldə etmək idi. Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyanla həm Dağlıq Qarabağda, həm də Ermənistanda sərt xətt tərəfdarları arasında strategiya ilə bağlı fikir ayrılığı yaranmışdı. Ter-Petrosyan və tərəfdarları hesab edirdilər ki, Azərbaycanın maliyyə və hərbi potensialının artması perspektivini nəzərə alaraq, yalnız Ermənistanın işğal etdiyi ərazilərin bir hissəsini Dağlıq Qarabağın təhlükəsizliyini və statusunu təmin edəcək gələcəkdə sülh sazişi ilə dəyişdirməklə uğur əldə etmək olar [11]. Sərt xətt tərəfdarları hesab edirdilər ki, Ermənistan güzəştə getməməlidir və onun vəzifəsi status-kvonu saxlamaq, eyni zamanda beynəlxalq ictimaiyyət və Azərbaycanın Dağlıq Qarabağın müstəqilliyini tanıyana qədər danışıqlar prosesini ləngitməkdir.

Bu daxili parçalanma Ermənistan rəhbərliyinin Azərbaycanla danışıqlar aparmasını çətinləşdiridi. Əhalinin əhəmiyyətli bir hissəsi sərt xətt tərəfdarlarını dəstəklədi və kompromislərə qarşı çıxdı. Sui-qəsd və zorakılıq hədələri kompromisə doğru irəliləyişə mane oldu və iki dövlət liderləri arasında əldə edilmiş razılaşmaların pozulmasına səbəb oldu [10].

1999-cu ildə silahlı şəxslər parlamentə basqın edərək bir qrup ölkə rəhbərini və bir qrup dedutatı öldürərək sülh planının iflasını təmin etdilər [9, s.15]. Bundan sonra Ermənistan liderləri beynəlxalq ictimaiyyətin sonda faktiki vəziyyətlə, de-yure razılaşacağına ümid edərək danışıqlarda vaxt uzatmağa üstünlk verdilər.

Beləliklə, Ermənistan faktiki vəziyyətin de-yure tanınmasına qədər danışıqları uzatmağa çalışsa da, Azərbaycan vəziyyəti dəyişdirməyə və mövcud vəziyyətin heç vaxt beynəlxalq səviyyədə tanınmamasını təmin etməyə çalışırdı.

Tarix dəfələrlə sübut etmişdir ki, bu vəziyyəti dəyişməyin ən təsirli yolu güclü iqtisadiyyat, güclü ordu yaratmağa nail olmaqdır. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycan bu işə nail oldu. Beləki Azərbaycan nefti hesabına ölkənin valyuta ehtiyyatlarının gündən-günə artması nəticəsində bir tərəfdən əhalinin sosiyal müdafiəsi məsələləri həll olunurdusa, digər tərəfdən də silahlı qüvvələrin maddi və silah-sursat təminatı da bu gəlirlər hesabına həll olunurdu. Əsrin müqaviləsinin bağlanmasında iştirak edən böyük neft şirkətlərini təmsil edən dövlətlərin də ölkəmizdə sabitliyin qorunub saxlanması istiqamətində müəyyən

maraqları var idi. Digər tərəfdən, başqa bir strategiyaya uyğun hərəkət edilərək Ermənistanı danışıqlar zamanı güzəştə getməyə məcbur etmək üçün ona beynəlxalq təzyiqləri səfərbər edilirdi.

Lakin bu müddətdə öz neft və qaz ehtiyatlarının Qərb şirkətləri ilə Avropa bazarlarına ixrac edilməsi ilə Qərbin, konkret olaraq ABŞ və Fransanın Ermənistana təzyiq göstərməyə məcbur edəcəkləri gözləntiləri uğursuz oldu. Azərbaycan rəhbərliyinin ermənilərə yalnız Rusiyanın təsir edə biləcəyi qənaəti də əbəs deyildi.

Münaqşənin həlli üçün əsas beynəlxalq təşkilatların, xüsusi olaraq da 1992-ci ildə təsis edilmiş ATƏT-in Minsk qrupunun fəaliyyətindən, əksər hallarda isə fəaliyyətsizliyi səbəblərindən bəhs etmək zəruridir. Bu müddətdə qrupun fəaliyyəti də dəyişkən, ancaq sonda səmərəsiz olmuşdur.

Qrupun fəaliyyətinin 1992-1998-ci illəri əhatə edən ilk mərhələsi Moskvanın ATƏT-dən yan keçmək və Qərb dövlətlərinin Rusiyanı cilovlamasına mane olmaq istəyi ilə fərqlənirdi. Rusiya 1994-cü il atəşkəs barədə sazişə qədər Minsk Qrupunda Qərb vasitəçiləri olmadan Müstəqil Dövlətlər Birliyinin (MDB) Bişkekdə keçirilən toplantısında atəşkəslə bağlı danışıqlara başladı. Qərbin gözlənilən etirazlarına baxmayaraq Rusiya bölgədə öz sülhməramlı qüvvələrinin yerləşdirilməsində israrlı idi. Lakin Azərbaycanın bundan imtina etməsi nəticəsində heç bir sülhməramlı mexanizmin yaradılmasını nəzərdə tutmayan atəşkəs sənədi imzalandı [8, s.15].

1997-ci ildə Fransa və ABŞ Minsk Qrupunun həmsədrləri kimi Rusiyaya qoşuldular və həmsədrlər birgə sülh nizamlanması layihəsini hazırladılar. Burada müvəqqəti həllər və Qarabağın yekun statusu bir-birindən ayrı nəzərdən keçirilirdi (buna görə də adı - "mərhələli nizamlanma" planı adlanırdı) [9, s.15]. Ermənistan və Azərbaycan prezidentləri Ter-Petrosyan və Heydər Əliyev 1997-ci ilin iyulunda təqdim edilmiş bu planı qəbul etdilər. Lakin, statusla bağlı tam razılığın əldə olunmaması və eləcə də digər bəzi məqamlar sonradan öz sözünü dedi.

Lakin daxili müxalifətlə üzləşən Ter-Petrosyan 1997-ci ilin martında Dağlıq Qarabağın lideri Robert Köçəryanı Ermənistanın baş naziri təyin etməyə məcbur oldu. Ter-Petrosyanın güc strukturlarına nəzarət edən sonuncunun tərəfdarı, müdafiə naziri Serj Sarkisyan mərhələli nizamlanma planı ilə razılaşmayaraq Ter-Petrosyandan üz çevirdilər. 1998-ci ilin yanvarında o vaxta qədər bütün güc strukturlarına nəzarət edən sərt xətt tərəfdarları Ter-Petrosyanı istefaya getməyə məcbur etdilər. Köçəryan prezident, Sarkisyan isə baş nazir oldu, hər ikisi ATƏT-in təklif etdiyi nizamlanma planını rədd etdi [3].

1998-2002-ci illərdə R.Köçəryanla Heydər Əliyev arasında bir neçə dəfə danışıqlar aparıldı. Onlar 1999-cu ildə şifahi olaraq ərazi mübadiləsi barədə öz planlarını razılaşdırdılar və 1999-cu ilin payızında Minsk qrupunun həmsədrlərinə bu plan barədə məlumat verərək, onlardan bunu yazılı şəkildə təqdim etməyi xahiş etdilər. Cəmi bir neçə həftə sonra, 1999-cu il oktyabrın 27-də ekstremist yaraqlılar Ermənistan parlamentini ələ keçirərək, baş nazir V.Sarkisyan və parlament sədri K. Dəmirçyan da daxil olmaqla bir neçə yüksək rütbəli hökumət siyasətçisini qətlə yetirdilər [3]. Nəticədə R.Köçəryan Minsk Qrupunun əldə etdiyi razılaşmadan imtina etdiyini bildirdi.

Bu vəziyyətdə Minsk qrupu Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı bəndi saxlayaraq, əraziləri dəyişdirmək əvəzinə, Azərbaycana Naxçıvanı onunla birləşdirəcək nəqliyyat dəhlizi ayırmağı təklif etdi. Amma belə bir dəyişiklik Azərbaycan üçün qəbuledilməz idi və Heydər Əliyev 2001-ci ildə Ki-Uestdə danışıqlarda bu planı rədd etdi [9, s.15].

Minsk Qrupunun 2005-ci ildən 44 günlük Vətən Müharibəsinə qədər bölgədən kənarda çoxsaylı görüşləri baş tutsa da, konkret nəticələr olmadı. 2007-ci ilin sonunda Madriddə əvvəlki təmaslarda razılşdırılmış sənədlərdə rəsmiləşdirilmiş mərhələli nizamlanmanın qısaldılmış variantının müzakirələrinin nəticəsi olaraq tərəflərə yeni sənəd təqdim edildi. Danışıqlar prosesini xilas etməyi qarşısına məqsəd qoyan Minsk Qrupu Madrid Prinsiplərində bəzi işğal olunmuş ərazilərin geri qaytarılması, Dağlıq Qarabağın Azərbaycanın hərbi əməliyyatlarından təhlükəsizliyinə müvəqqəti təminat verilməsi və son nəticədə yekun statusun müəyyənləşəcəyi ilə bağlı çox qeyri-müəyyən müddəaları nəzərdə tuturdu.

2008-2012-ci illərdə Dmitri Medvedev Rusiya prezidenti olarkən erməni və azərbaycanlı həmkarları S.Sarkisyan və İlham Əliyev arasında vasitəçilik etmək üçün çox səylər göstərdi.

Danışıqlar prosesinə belə yüksək siyasi səviyyədə müdaxiləyə hazır olmayan ABŞ və Fransanın razılığı ilə Rusiya danışıqlar prosesində müəyyən qədər aparacı rol oynamağa başladı.

2011-ci ildə Kazan sammiti öncəsi Rusiyanın nikbinliyinə baxmayaraq, prezidentləri ən azı bir neçə prinsip üzrə saziş imzalamağa inandırmağa çalışanda nəticə yenə də alınmadı [6].

"Madrid Prinsipləri"nin ən son, çox qısaldılmış versiyasını xatırladan "Kazan prinsipləri"nin, bəzi fərdi müddəalarının aktual qalmasına baxmayaraq, taleyi də heç nə ilə fərqlənmədi [7].

2016-cı ildə milli ordumuzun uğurlu hücum əməliyyatı, 2018-ci il erməni inqilabı və 2020-ci il hərbi əməliyyatları Minsk Qrupunun fəaliyyətsizliyinin növbəti sübutları oldu.

44 günlük Zəfər müharibəsindən sonra Ermənistan tərəfdarlarının Minsk qrupununun fəaliyyətini bərpa etmək cəhdlərinə baxmayaraq Azərbaycan Respublkası Prezidenti İlham Əliyev əvvəlki mövqeyində israr edərək qətiyyətlə bəyan etmişdir ki, qrupun varlığına ehtiyac qalmamış və demişdir: "Mən son 17 il ərzində aparılan danışıqlarda iştirak etmişdim. Müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir" [4, s.283]. Qrupun artıq tarixə çevrilməsinin dəfələrlə bəyan edilməsi bir daha onun 28 illik fəaliyyətinin gözlənilən, dəqiq desək, səmərəsizliyinin labüd nəticəsi deməkdir.

2024-cü il 20-22 iyulda Prezident İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda çıxış edərkən [5] Ermənistanla gözlənilən sülh müqaviləsinin vacib şərtlərindən biri kimi bir daha ATƏT-in Minsk qrupunun buraxılması haqqında iki ölkənin birgə bəyanat verməsi tələbini qoymuşdur.

.

**Ədəbiyyat**


1. ATƏT-in Minsk Qrupu / https://www.wikimedia.az-az.nina.az/AT%C6%8FT-in_Minsk_Qrupu.html
2. Dadaşova Ramilə. BMT Təhlükəsizlik Şurasının "Dağlıq Qarabağ münaqişəsinə dair" qətnamələrinin Azərbaycan Respublikası Tərəfindən İcra Edilməsi və Nəticələri // Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 11, 1 (2022): s.17-38.
3.Hüseynov Hüseyn. Ermənistan-Azərbaycan münaqişəsinin həllində ATƏT-in və Minsk qrupunun fəaliyyətinə dair / https://www.anl.az/el/q/qarabag_2/q-20.htm
4.Əliyev İlham. İnkişaf - məqsədimizdir: yüz yeddinci kitab: oktyabr 2020-noyabr 2020. Azərnəşr, Bakı: - 2021. - 392 s.
5.İlham Əliyev Şuşada II Qlobal Media Forumunda çıxış etdi / https://teleqraf.com/news/siyaset/425749.html
6.Qarabağ münaqişəsinin həllində Kazan prinsipləri / https://yenixeber.org/siyaset/22096-qarabag-munaqishesinin-hellinde-kazan-prinsipleri.html
7.Qurbanqızı, Zümrüd. Madrid prinsipləri: siyasi naşılıq, yoxsa.../ https://respublika-news.az/az/news/madrid-prinsipleri-siyasi-nasiliq-yoxsa
8.Öմərov Vahid. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in fəaliyyəti // Səs. - 2013. - 19 iyul. s.15.
9.Ömərov Vahid. Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında Saziş (Mərhələli həll). Səs. - 2013. - 9 iyun. s.15.
10.Минская группа ОБСЕ: уроки прошлого и задачи на будущее. https://www.researchgate.net/publication/351033883_Minskaa_gruppa_OBSE_uroki_proslogo_i_zadaci_na_buduseе
11.https://www.researchgate.net/publication/351033883_Minskaa_gruppa_OBSE_uroki_proslogo_i_zadaci_na_budusee/.

**SUMMARY**
**ON THE ACTIVITIES OF THE OSCE MINSK GROUP TOWARDS THE RESOLUTION OF THE NAGORNO-KARABAKH CONFLICT**
***Abbaszadeh N.M.***

***Key words:*** *Azerbaijan, Nagorno-Karabakh, conflict, Minsk Group, ineffective*

The activities of international organizations for the settlement of the Nagorno-Karabakh conflict have been ineffective. Such was the activity of the OSCE Minsk group for the resolution of the conflict. The 2016 Azerbaijani attack, the 2018 Armenian revolution, and the 2020 military operations were further proofs of the inactivity of the Minsk Group.

After the 44-day Victory War, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, insists on his previous position, despite the efforts of supporters of Armenia to restore the activities of the Minsk Group. The repeated declaration that the group has already become history means once again the inevitable result of its 28 years of activity, to be precise, its ineffectiveness.

**РЕЗЮМЕ**
**О ДЕЯТЕЛЬНОСТИ МИНСКОЙ ГРУППЫ ОБСЕ В НАПРАВЛЕНИИ РАЗРЕШЕНИЯ НАГОРНО КАРАБАХСКОГО КОНФЛИКТА**
***Аббасзаде Н.М.***

***Ключевые слова:*** *Азербайджан, Нагорный Карабах, конфликт, Минская группа, неэффективно*

Деятельность международных организаций по урегулированию нагорно-карабахского конфликта оказалась не эффективной. Такова была деятельность Минской группы ОБСЕ по разрешению конфликта. Нападение в Азербайджана 2016 году, армянская бархатная революция 2018 года и 44 дневные военные операции 2020 года стали еще одним доказательством бездействия Минской группы.

После 44-дневной Победоносной войны президент Азербайджанской Республики Ильхам Алиев настаивает на своей прежней позиции, несмотря на усилия сторонников Армении по восстановлению деятельности Минской группы. Неоднократное заявление Президента о том, что группа уже ушла в историю, еще раз означает неизбежный результат ее 28-летней деятельности, а точнее, ее неэффективность.

# ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜNÜN ARADAN QALDIRILMASINDA BÖYÜK BRİTANİYA İLƏ ƏMƏKDAŞLIĞIN ƏHƏMİYYƏTİ

**Ağalarova Ramila Ramiz qızı**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
alr.aghalarova@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, Böyük Britaniya, erməni təcavüzü, bəyanat, ərazi*

***Xülasə.*** *Ermənistan kənardan yardım alaraq 1992-ci ilin əvvəlindən Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatlara başladı. Böyük Britaniya Azərbaycan sərhədlərinin toxunulmazlığı ilə bağlı ATƏM-in 28 fevral 1992-ci ildə qəbul edilmiş Bəyannaməsini tam dəstəkləmişdir. BMT-nin 5 daimi üzvündən biri olan Birləşmiş Krallıq eyni zamanda, BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrin qəbulu zamanı Azərbaycanın ədalətli mövqeyini müdafiə etmişdir. 44 günlük müharibədə qələbəmizdə, ərazi bütövlüyümüzün bərpasında iki ölkə arasında normal və hərtərəfli əlaqələrin olması müəyyən rol oynamışdır.*

Məlum olduğu kimi, Ermənistan XX əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürərək, ölkənin daxili işlərinə qarışmağa başlamışdı. Nəticədə Dağlıq Qarabağ münaqişəsi meydana çıxdı və bu münaqişə zamanı azərbaycanlılar öz doğma yurdlarından və Ermənistandan zorla qovuldular.

Münaqişənin vaxtında həlli beynəlxalq təşkilatların, ən çox da böyük dövlətlrin mövqelərindən çox asılı idi. Təbii ki, həmin vaxt Britaniya hökuməti bölgədə baş verən hadisələri diqqətlə izləyirdi. Böyük Britaniyanın Azərbaycanla bağlı siyasətinin kursunu müəyyən etmək baxımından Azərbaycanda baş verən hadisələrin öyrənilməsi mühüm əhəmiyyət kəsb edirdi. O,

həmçinin dünyanın aparıcı dövlətlərindən biri olmaqla beynəlxalq münasibətlərin ən mühüm problemlərinin həllində, öz dövlətinə təsir gücündə xüsusi imtiyaz sahibi olmuş, dünya siyasətinin müəyyənləşdirilməsində iştirak etmişdir.

SSRİ-nin dağılmasından və daxili çəkişmələr nəticəsində Azərbaycanda hökm sürən ictimai-siyasi qeyri-sabitlikdən istifadə edən Ermənistan kənardan yardım alaraq 1992-ci ilin əvvəlindən Azərbaycan Respublikasına qarşı qanlı hərbi əməliyyatlara başladı. Ermənistanın təcavüzünü dayandırmaq üçün Azərbaycan rəhbərliyi beynəlxalq yardıma müraciət etməli oldu.

1992-ci il yanvarın 13-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Böyük Britaniya parlamentinə müraciətində Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazilərinin bir hissəsini işğal etmək məqsədi ilə başlatdığı hərbi təcavüzün hər iki xalqın əziyyət çəkdiyi saysız-hesabsız bəlalara səbəb olduğu və təcavüzün daha da genişlənməsinin bütün xalqlar üçün real təhlükəyə çevrilə biləcəyi qeyd edilmişdi [8, c.239].

Bu müddətdə Böyük Britaniya Azərbaycan sərhədlərinin toxunulmazlığı və insan hüquqlarının müdafiəsi ilə bağlı ATƏM-in 28 fevral 1992-ci ildə qəbul edilmiş Bəyannaməsini tam dəstəkləyirdi [8, c.242]. Böyük Britaniya ATƏM-in Minsk qrupunun (sonradan ATƏT) üzvü olmasa da, daim münaqişənin ədalətli həlli mövqeyindən çıxış edirdi. Britaniya mediası da rəsmi strukturların mövqeyi ilə bir vaxtda münaqişə ilə bağlı obyektiv məlumatlar yayır, Ermənistanın xoşagəlməz əməllərini işıqlandıran yazılar dərc edirdi.

1992-ci ilin fevralında Ermənistan tərəfindən Xocalı soyqırımı törədildikdən sonra İngiltərənin "Tayms" qəzetinin əməkdaşının Azərbaycana səfəri gedişində topladığı materiallar əsasında qəzetdə təsirli məqalə dərc etdirmişdi və ermənilərin törətdiyi soyqırımı ilə bağlı bütün həqiqətləri çatdırmışdı [9]. Toplanmış materiallar əsasında 1993-cü ilin martından başlayaraq qəzet Qarabağ faciəsi ilə bağlı yazılar dərc etməyə başladı.

Kəlbəcər rayonunun işğalından sonra Böyük Britaniya hökuməti 1993-cü il aprelin 14-də Ermənistanın hərbi təcavüzünün genişlənməsi nəticəsində Ermənistanın təcavüzünü kəskin şəkildə pisləyən bəyanatla çıxış etmişdi. Həmin vaxt BMT Təhlükəsizlik Şurasının sədri olan Britaniya nümayəndəsi bu təcavüzü kəskin pisləyərək öz hökumətinin Azərbaycanın sərhədlərinin toxunulmazlığını tanıdığını bəyan etmişdi [5].

BMT-nin 5 daimi üzvündən biri olan Birləşmiş Krallıq eyni zamanda, BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrin qəbulu zamanı həmişə Azərbaycanın ədalətli mövqeyini müdafiə etmişdi.

Böyük Britaniya hökuməti 1993-cü il iyulun 27-də, yəni Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 4 gün sonra, bu təcavüzə də öz kəskin etirazını bildirmişdi. Bundan iki gün sonra Böyük Britaniyanın sədrliyi ilə Təhlükəsizlik Şurasında keçirilən müzakirələrdə BMT-nin bu ölkədəki daimi nümayəndəsinin israrlı təkidlərindən sonra təşkilatın məlum 853 saylı qətnamə qəbul edilmişdi [4, s.43-44]. Ekspertlər bildirirlər ki, Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalını pisləyən qətnamə yalnız Böyük Britaniyanın dəstəyi nəticəsində qəbul edilmişdi.

Böyük Britaniya dünya birliyinin yardımı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar çıxan mövqe sərgiləmiş və bu zaman Dağlıq Qarabağ regionuna muxtariyyət verilməsinin mümkünlüyünü prinsipcə qəbul etsə də, belə bir şərtlə irəli sürürdü ki, onun hansı formada veriləcəyinə qərar vermək hüququ yalnız Azərbaycan Respublikası hökumətinin mövqeyi əsas olmalıdır. Böyük Britaniyanın mövqeyinə görə, bu münaqişənin həllinə kənar dövlətin qarışması ilə həlli yolverilməz sayılırdı.

1993-cü ilin oktyabrında Böyük Britaniyanın xarici işlər naziri Heydər Əliyevlə görüşü zamanı bir daha təsdiqləmişdi ki, onun hökuməti Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu yanaşma Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə töhfə vermək demək idi.

Qeyd edək ki, Böyük Britaniya hökuməti Azərbaycanın işğalını və Ermənistanın hərbi təcavüzünü pisləsə də, faktiki olaraq münaqişənin həlli üçün qətiyyətli tədbirlər görməmişdi. Birləşmiş Krallıq BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi 822, 853, 874, 884 saylı

qətnamələrin icrası istiqamətində əməli addımlar atılmasını sözlə desə də , ancaq əməli olaraq bu qətnamələrin icrası üçün konkret tədbirlərdə iştirak etməmişdi [4, s.44].

1994-cü ildə atəşkəs əldə edildikdən sonra ATƏT-in vasitəçiliyi ilə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində sülh danışıqlarına başlanılsa da, bu danışıqlar zamanı Azərbaycanın və Ermənistanın milli maraqlarını təmin edən qərarların qəbulu istiqamətində müəyyən işlər görülsə də, ancaq konkret nəticələr əldə edilməmişdi.

Böyük Britaniyanın Azərbaycana qarşı belə tərəddüdlü mövqeyi, rəsmi Londonun qərəzsiz münasibəti münaqişənin həll olunmamasına müəyyən təsir göstərməli idi. Nəticədə Ermənistanın işğalçı silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması istiqamətində ciddi addımlar atılmadı.

Halbuki Azərbaycan Respublikası münaqişənin həllində Böyük Britaniyanın dəstəyinə ümid edirdi. Bu məsələ 1995-ci il mayın 6-7-də Ümummilli lider Heydər Əliyevin İkinci Dünya Müharibəsinin başa çatmasının 50 illik yubileyində iştirak etmək üçün Londona səfəri gedişində müzakirə olundu [7, c.39].

Münaqişənin həlli yollarının müzakirəsinin növbəti mərhələsi 2004-cü ilin dekabrında Prezident İlham Əliyevin krallığa ilk səfəri zamanı başladı. Britaniya parlamentinin Xarici Əlaqələr və Müdafiə Komitəsinin üzvləri ilə görüşdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılmışdı. Heydər Əliyev münaqişənin regional əməkdaşlıq yolunda yaratdığı maneələr, münaqişənin həlli üçün görülə biləcək tədbirlər, ölkəmizin beynəlxalq əlaqələri, qonşu dövlətlərlə münasibətləri barədə sualları ətraflı cavablandırmışdı [1, s.4].

2008-ci il martın 14-də BMT Baş Assambleyasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyan qətnamənin qəbulu zamanı Böyük Britaniyanın mövqeyi müsbət qiymətləndirilə bilər [2].

Böyük Britaniya siyasətçiləri və deputatları digər beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı həmişə öz aydın və ədalətli mövqelərini nümayiş etdirmişlər. Belə ki, 2009-cu ildə Avropa Parlamentinin qəbul etdiyi “Avropa İttifaqının Cənubi Qafqaz Strategiyası” adlı 2216 saylı qətnamədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktı bir daha pislənilmişdi [8, c.248]. Qətnamədə Ermənistan qoşunlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən çıxarılması, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi və beynəlxalq təhlükəsizliyin təminatı ilə Dağlıq Qarabağ bölgəsinə müvəqqəti statusun verilməsi məsələsinin həlli tövsiyə edilmişdi.

Böyük Britaniya 2020-ci il sentyabrın 27-də Azərbaycanın işğal olunmuş ərazilərini azad etmək üçün 44 günlük Vətən müharibəsinə başladığı gündən bu məsələdə ədalətli mövqe nümayiş etdirmişdir. Böyük Britaniyanın ənənəvi olaraq Bakı ilə münasibətlərinə böyük önəm verdiyini nəzərə alsaq, bu gözlənilən idi.

Böyük Britaniyanın xarici işlər nazirinin müharibənin gedişində, oktyabrın 20-də Britaniya-Türkiyə münasibətlərinin strateji xarakterini vurğulayaraq, Ankaranı “müttəfiq və dost” adlandırması müəyyən mənada bəzi Avropa ölkələrinin Qərbin Türkiyə ilə bağlı mövqeyini yenidən qiymətləndirmək cəhdlərinə tutarlı cavab demək idi [8, c.250].

Bəzi politoloqlar bildirirlər Azərbaycana diqqət, şübhəsiz ki, Britaniyanın neft və qaz sənayesi ilə sıx bağlıdır BP uzun müddətdir ki, Azərbaycanda faktiki Qərbin ən böyük operatorudur. Bu amil İngiltərənin regionun sabitliyini və təhlükəsizliyini qoruyub saxlamağa marağına səbəb olmasında qəribə nəsə ola bilməz. Əslində, Böyük Britaniyada erməni lobbisi heç vaxt siyasi təsirə malik olmamışdır və ona görə də bəzi Qərb ölkələrindən və ya Rusiyadan fərqli olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sırf praqmatik mövqe tuta bilmişdir.

Böyük Britaniya hökuməti həmişə Azərbaycanın ərazi bütövlüyünü rəsmi şəkildə dəstəkləmiş və bu mövqeyi təsdiqləmək üçün müəyyən konkret addımlar da atmışdır. Bu addımlar sırasına 44 günlük müharibə zamanı Böyük Britaniya parlamentində irəli sürülən qanunvericilik təşəbbüsləri, parlamentlərarası dostluq qrupunun Azərbaycan Respublikasının Prezidentinə göndərdiyi dəstəyi ifadə edən çoxsaylı məktublar da daxildir [8, c.252].

Təbii ki, Britaniya parlamentinin nümayəndələri arasında Ermənistanın maraqlarını müdafiə edərək Azərbaycana qarşı çıxanlar da olmuşdur. Lakin bütün bu cəhdlər nəticəsiz qalmışdır.

Tamamilə aydındır ki, Azərbaycanın tarixi qələbəsi müxtəlif səviyyələrdə Britaniyanın maraqlarına uyğun gəlmişdir. Böyük Britaniyanın münaqişədə qərəzsiz münasibətinə baxmayaraq, ümumilikdə o, həmişə Azərbaycan Respublikasının ədalətli mövqeyini müdafiə etmişdir. İngiltərənin bu mövqeyi qoruyub saxlamasında iki dövlət arasında yaranmış tarixi münasibətlər və neft əməkdaşlığı mühüm rol oynamışdır.

İki dövlət arasında münasibətlərdə Avropanın enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq məsələləri də xüsusi yer tutur. Bundan əlavə, hər iki ölkənin beynəlxalq səviyyədə ümumi maraqları var. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanandan bəri BP iki dövlət arasında münasibətlərin inkişafında aparıcı rol oynamışdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi və layihənin BP tərəfindən həyata keçirilməsi Böyük Britaniya tərəfindən təkcə iqtisadi faydaları çərçivəsində deyil, həm də bütün Avro-Atlantik regionun təhlükəsizliyi prizmasından nəzərdən keçirilmsi də deməkdir.

Azərbaycan üçün bütün dünyada azad ticarətin sütunu kimi tanınan Böyük Britaniya ilə enerji, ticarət və sənaye sahələrində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 2011-ci ildə Böyük Britaniya 501 milyon ABŞ dolları həcmində ticarət dövriyyəsi nəticəsində Azərbaycanın dünyada 15-ci, Avropada isə 4-cü ən böyük tərəfdaşı olmuşdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2012-ci ildə Böyük Britaniya investisiyaları Azərbaycanın xarici investisiyalarının 51,7 faizini təşkil etmişdir [6].

Prezident İlham Əliyevin 2004, 2009, 2012 və 2018-ci illərdəki krallığa rəsmi səfərləri iki ölkə arasında əməkdaşlığın davam etdirilməsində mühüm rol oynamışdır. Prezidentin 2004-cü ildə səfəri zamanı qəbul edilən Birgə Kommunike 1994-cü ilin fevralında uğurla qurulan ənənənin sübutu demək idi [3]. İlham Əliyevin səfərləri Azərbaycanın Avroatlantik məkanda mövqelərinin möhkəmləndirilməsində mühüm addım olmuşdur. İkitərəfli münasibətlərin ümumi maraqlara əsaslanan inkişafını davam etdirmək məqsədilə xarici işlər nazirlikləri arasında görüşlər, səfərlər, bəzən məsləhətləşmələr də əhəmiyyətli rol oynamışdır.

Böyük Britaniya dəfələrlə, münaqişənin regionda sabitlik və tərəqqiyə maneələr yaratdığını və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində ədalətlə həllini müdafiə etmişdir. Böyük Britaniyanın problemin iki beynəlxalq prinsip əsasında - dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipi çərçivəsində həllinin tərəfdarı olması dövlətimizin milli maraqlarına uyğun olmuşdur.

Sözsüz ki, 44 günlük müharibədə qələbəmizin əldə olunmasında da, ərazi bütövlüyümüzün tam bərpasında da iki ölkə arasında normal və hərtərəfli əlaqələrin olması müəyyən rol oynamışdır.

## Ədəbiyyat


1.Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya parlamentinin xarici əlaqələr və müdafiə komitələrinin üzvləri ilə görüşm üşdür // Xalq qəzeti. – 2004, 14 dekabr. - s. 4.

2.Baş Assambleya Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyən, Ermənistanın bütün qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul etdi [Electronic resource] / United Nations. – March, 2008. URL: https://www.un.org/press/en/2008/ga10693.doc.htm

3.9.BP-nin regional prezidenti Baş Nazir Əli Əsədova məktub ünvan layıb: [Elektron resurs] / – 19 oktyabr, 2020 URL:https://nk.gov.az/az/senedler/mektublar/bp-nin-regional-prezidentibas-nazir-ali-asadova-maktub-unvanlayib-4858

4.Qasımov, M. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələl əri) / M.Qasımov. Mütərcim, - Bakı: - 1997. - 200 s.

5.Rəsizadə, A. 822 saylı qətnamə diplomatiyanın qələbəsi olmasa da, irəliyə doğru mühüm addımdır // Azərbaycan. - 1993, 22 may. - s. 5.

6.Исмаилов, О. В Лондоне состоялся форум на тему «Формирование политической повестки дня: британско-азербайджанские отношения в европейском контексте»: [Электронный ресурс]

https://azertag.az/ru/xeber/v_londone_sostoyalsya_forum_na_temu_formirovanie_politicheskoi_povestki_dnya_britansko_azerbaidzhanskie_otnosheniya_v_evropeiskom_kontekste-103306
7.Гасымлы, М. Внешняя политика Азербайджана (1993-2003): [в 2 томах] / М.Гасымлы. – Инсан, Москва: - т.2. - 2016. - 704 с.
8.Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании (1991-2022 гг.). Aspoliqraf, Баку: - 2023. - 312 с.
9.Ходжалы: хроника геноцида / Под ред. Э.Ахундова. Азернешр, - Баку: - 1993. - 100 с.

**SUMMARY**
**THE IMPORTANCE OF COOPERATION WITH GREAT BRITAIN IN ENDING ARMENIA'S MILITARY AGGRESSION**
***Aghalarova R.R.***

***Key words:*** *Azerbaijan, Great Britain, Armenian aggression, statement, territory*

Armenia began military action against the Republic of Azerbaijan in early 1992, receiving external assistance, and the Nagorno-Karabakh conflict arose. Great Britain fully supported the CSCE Declaration on the Inviolability of Azerbaijan's Borders, adopted on February 28, 1992. At the same time, Great Britain, one of the 5 permanent members of the UN, defended Azerbaijan's fair position when adopting resolutions on the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict in the UN Security Council. Normal and comprehensive relations between the two countries played a role in our victory in the 44-day war and the restoration of our territorial integrity.

**РЕЗЮМЕ**
**ЗНАЧЕНИЕ СОТРУДНИЧЕСТВА С ВЕЛИКОБРИТАНИЕЙ В ПРЕКРАЩЕНИИ ВОЕННОЙ АГРЕССИИ АРМЕНИИ**
***Агаларова Р.Р.***

***Ключевые слова:*** *Азербайджан, Великобритания, Армянская агрессия, заявление, территория*

Армения начала военные действия против Азербайджанской Республики в начале 1992 года, получив помощь извне, и возник Нагорно-Карабахский конфликт. Великобритания полностью поддержала Декларацию СБСЕ о нерушимости границ Азербайджана, принятую 28 февраля 1992 года. В то же время Великобритания, один из 5 постоянных членов ООН, отстояла справедливую позицию Азербайджана при принятии резолюций по армяно-азербайджанскому, нагорно-карабахскому конфликту в Совете Безопасности ООН. Нормальные и всеобъемлющие отношения между двумя странами сыграли определенную роль в нашей победе в 44-дневной войне и восстановлении нашей территориальной целостности.

## AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN ALTERNATİVSİZ ENERJİ SİYASƏTİ

**Həsənov Yusifəli Lətif oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, tar.f.d., dosent*
yusifeli.hesenov@sdu.edu.az

***Acar sözlər:*** *Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Bakı-Tiflis-Ceyhan, TANAP, müqavilə*

***Xülasə.*** *Azərbaycan ilə Türkiyə arasında iqtisadi sahədə əməkdaşlıq çoxvektorludur. Enerji sahəsində əməkdaşlıq iki ölkə arasında iqtisadi münasibətlərin mühüm sahəsidir. İndiyə qədər Azərbaycan və Türkiyənin birgə səyləri nəticəsində bir neçə nəqliyyat marşrutunun yaradılması iki ölkə arasında enerji sahəsində fəal əməkdaşlığın göstəricisidir.*

Qloballaşma prosesi özlüyündə yeni ehtiyaclar yaradaraq dövlətləri tərəfdaşlarının sayını artırmağa, öz mövqelərini qorumağa və yeni formalaşan münasibətlər sistemindən kənarda qalmamağa sövq etməkdədir. Xüsusilə iqtisadi və enerji sahəsində dövlətlərin bir-birindən asılılığı yeni problemlər yaratmaqdadır. Bu baxımdan dünya dövlətləri mövcud problemlərdən çıxış yolları axtarmaqdadır. Problemlər isə zəncirvari bir birinə bağlı, yaxud əlaqəlidir. Ümumən enerji, qida və xammal çatışmazlığı dünyanı narahat edən başlıca problemlərdəndir. Problemləri, yaxud böhranları yaradan əsas səbəblər konfliktlər və müharibələr, dövlətlərarası qarşıdurmaların daşınmaya mənfi

təsiri, bununla əlaqədar olaraq xammal tədarükündə kəsintilərin yaranmasıdır. Bu problemlərin həllində isə tarazılaşdırılmış doğru siyasət, şaxələnmiş iqtisadiyyat, güclü hərbi potensiyala sahib olmaq əsas və həlledici rol oynamaqdadır. Bu baxımdan 1993-cü ildən sonra hökumətimizin, Türkiyədə isə R.T.Ərdoğan iqtidarının müəyyən etdiyi uzaqgörən neft strategiyası Avropanın enerji təchizatında hərəkət istiqamətini kökündən dəyişib. Bakı-Tiflis-Ceyhan və TANAP xətlərinin sitifadəyə verilməsi ilə Avropaya xam neft və təbii qaz ixracı kontinentə çatdırılıb. Bu xətlərin ötürücülük qabiliyyəti dünya iqtisadiyyatında həlledici payı olan Avropanın tələbatını tam ödəməsə də Rusiya-Ukrayna müharibəsi bu istiqamətin alternativinin olmaması faktını ortaya qoymuşdur. Elə qələmə almış olduğumuz mövzumuz da məhz bu barədədir. Türkiyə və Azərbaycandakı hökumətlərin müəyyən etdiyi bu strategiyanın prezident İlham Əliyev tərəfindən uğurla yürüdülməsi Azərbaycanın enerji siyasətini şaxələndirmiş və yeni iqtisadi-siyasi üstünlüklər qazandırmışdır. Həmcinin qeyd etmək lazımdır ki, günümüzdə dünyada enerji təchizatında sürətlə dərinləşən böhranların qarşısının alınması Anadolu və Qafqazda sülhün və sabitliyin qorunması və uzunmüddətli sülh təminatı ilə sıx bağlıdır.

Digət tərəfdən Bakı-Tiflis-Ceyhan, TANAP kimi enerji, Petkim kimi sənaye layihələri qardaş Türkiyənin təkcə iqtisadi inkişafında deyil, eyni zamanda, təhlükəsizliyinin qorunmasında da mühüm gücə çevriləcəyi şübhəsizdir. İkinci dünya müharibəsindən və ondan sonra regiondakı digər münaqişələrdən kənarda durmağı bacaran müdrik türk diplomatiyası hal-hazırda enerji və yerləşmiş olduğu coğrafiyasındakı zənginliyinin gücü ilə öz şərtlərini bütün dünyaya diktə etmək kimi üstün bir mövqe qazanmışdır. Hal-hazırda Türkiyə Cümhuriyyəti müxtəlif enerji növlərinin inkişafı üçün mühüm strategiyalar həyata keçirməkdədir. Bu siyasətin ən uğurlu nəticəsi olaraq enerjinin çevrilməsindəki itkilərin qarşısının alınmasını göstərmək olar. Müqayisə üçün qeyd etmək lazımdır ki, XX əsrin sonlarında xarici valyuta ilə aldığı təbii qaz, yaxud mazutla istehsal etdiyi elektrik enerjisini məcburi qaydada qızdırıcı işlərə sərf etməklə böyük itkilərlə qarşılaşan qardaş Türkiyə hazırda aldığı enerji növlərini təyinatı üzrə sərf etməyi qarşısına məqsəd qoymuşdur. Bu baxımdan mövcud Türkiyə hökumətinin ardıcıl olaraq atdığı addımların nəticəsində ölkənin ilk milli, tamamən elektriklə işləyən avtomobili "Togg"-un (Togg-Türkiyənin Otomobil Girişim Grubu) istehsalına başlanılmasını görülən işlərin məntiqi sonluğu hesab etmək olar.

Bu istiqamətdə başqa bir alternativ nüvə elektrik stansiyasının inşasıdır ki, Türkiyənin artan iqtisadi potensialını qarşılayacaq, ekoloji baxımdan daha uyğun stansiyanın inşası prosesidir. Mərsin şəhərində Rusiya tərəfindən inşa olunan bu stansiya Türkiyənin ən iri enerji layihələrindəndir. İki qardaş dövlətin aparmış olduğu yuxarıda vurğuladığımız düşünülmüş siyasəti bu ölkələri enerjidə müstəqil, etibarlı tərəfdaş etməklə yanaşı, həm də müxtəlif enerji növlərinin ötürülməsində körpü rolunu oynamasına yönəldilmişdir. Azərbaycan və Türkiyənin enerji və geosiyasi mərkəzə çevrilməsi təkcə bu ölkələrin daxili siyasəti üçün deyil, eyni zamanda Avropanın enerji, qida və xammal təhlükəsizliyi üçün mühüm əhəmiyyətə malik olmaqdadır. Qardaş Türkiyə Cümhuriyyəti elektrik enerjisi sahəsində istehsalı və itki risklərini azaltmaqla doğru olaraq TANAP kəməri ilə qəbul etdiyi qaz ehtiyatlarından daha çox həcmdə Avropaya nəql etməyi planlamışdır. Qeyd etmək lazımdır ki, aparılan doğru siyasətin nəticəsidir ki, TANAP-ın daşıyıcılıq gücü hesabına neft və qaz tədarükçüsü olan ərəb ölkələri Türkiyəyə daha ucuz qiymətə enerji məhsulları satmaq üçün rəqabət aparmaqdadırlar.

Yuxarıda vurğuladığımız uğurla gerçəkləşən layihələr əsaslanaraq deyə bilərik ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etməsi nəticəsində Zəngəzur dəhlizinin də yaxın gələcəkdə Avrasiyada yeni alternativ enerji layihələrinin gerçəkləşməsi üçün geniş imkanlar açacağı şübhəsizdir. Nəzərə alsaq ki, ölkəmiz zəngn neft və qaz ölkəsi olmaqla bərabər həlledici tranzit imkanlara malikdir. O cümlədən respublikamızın böyük elektrik enerjisi ixracı imkanları vardır. Bu isə o deməkdir ki, sənayedə və məişətdə enerjiyə olan gündəlik tələbat artdıqca tranzit və çoxnövlü enerji resurslarına sahib tərəflərin imkanlarına ehtiyac da bir o qədər artacaqdır.

Məqaləmizin sonunda xüsusi vurgulamaq istəyirik ki, hal-hazırda baş verən münaqişə və müharibələr, qütbləşmə və qarşıdurmalar enerji, qida və xammal çatışmazlığı böhran həddinə yaxınlaşmaqdadır. Bu böhranların aradan qaldırılmasında isə sülh və sabitlikdən sonra enerji sahəsi

yer alır. Buna görə də Azərbaycan və Türkiyənin enerji siyasəti Avrasiya üçün alternativsizdir. Bu son dərəcə dəqiq və uzaqgörən siyasət isə Azərbaycan və Türkiyə dövlət başçılarının birgə gərgin və məhsuldar əməyinin nəticəsində mümküm olmuşdur.

## Ədəbiyyat


1. Azərbaycan Prezidenti İlham Əliyev XXIII Beynəlxalq "Xəzər neft və Qaz - 2016" sərgi və konfransının açılışında iştirak edib. /01.06.2016/ https://president.az/articles/20081
2. Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, Zərdabi LTD, MMC, 2016,ictimai - siyasi, elmi - nəzəri jurnal 296 s.
3. Ömür Kerim İşık. Enerji təhlükəsizliyi sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığını şərtləndirən zəruri amillər. Geostrategiya ictimai-siyasi, elmi-nəzəri jurnal, iyul-avqust 2019 №04 (52) 49-52 s.
4. https://www.trt.net.tr/azerbaycan/iqtisadiyyat/2022/08/07/az-rbaycan-v-turkiy-nin-enerji-siyas-ti-avrasiya-ucun-alternativsizdir-1864678 5.
5. https://www.yeniazerbaycan.com/Arxiv_e64344_az.html
6. https://www.yeniazerbaycan.com/Arxiv_e64344_az.html



**SUMMARY**

**ALTERNATIVE ENERGY POLICY OF AZERBAIJAN AND TURKEY**

***Hasanov Y.L.***

***Keywords:*** *Republic of Azerbaijan, Republic of Turkey, Baku-Tbilisi-Ceyhan, TANAP, contract*

Cooperation between Azerbaijan and Turkey in the economic field is multi-vector. Cooperation in the energy sector is an important branch of economic relations between the two countries. Until now, thanks to the joint efforts of Azerbaijan and Turkey, the establishment of several transportation routes is an indication of active cooperation in the energy sector between the two countries.

**РЕЗЮМЕ**

**БЕЗАЛЬТЕРНАТИВНАЯ ЭНЕРГЕТИЧЕСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА И ТУРЦИИ**

***Гасанов Ю.Л.***

***Ключевые слова****: Азербайджанская Республика, Турецкая Республика, Баку-Тбилиси-Джейхан, TANAP, контракт*

Сотрудничество между Азербайджаном и Турцией в экономической сфере является многовекторным. Сотрудничество в энергетической сфере является важной отраслью экономических отношений между двумя странами. До сих пор, благодаря совместным усилиям Азербайджана и Турции, создание нескольких транспортных маршрутов является показателем активного сотрудничества в энергетической сфере между двумя странами.


# "BAKI-TİFLİS-CEYHAN" BEYNƏLXALQ NEFT KƏMƏRİNİN KADASTR SİSTEMİ VƏ TORPAQ-YERQURULUŞU QİYMƏTLƏNDİRİLMƏSİ


**Ağbabalı Akif**

**Yunusoğlu Qismət**

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

aghbabali@bsu.edu.az



***Açar sözlər:*** *beynəlxalq-ixrac neft kəməri, elekton-kadastr və yerquruluşu xəritələri, dəniz akvatoriyası və şelf zonası, vahid kadastr sistemi, hüquqi qanunvericilik aktları.*



***Xülasə.*** *Azərbaycan Respublikasının Xəzər dənizi akvatoriyasına aid məhəlli şelf hissəsində yerləşən "Azəri", "Günəşli", "Çıraq" və "Şahdəniz" yataqlarının zəngin karbohidrogen ehtiyatlarının kəşfi, istismarı və nəqli istiqamətində vahid kadastr məlumatlarının, yerquruluşu xəritələrinin işlənilməsi bir sıra müvafiq hüquqi-normativ aktlar (Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (24 iyun 1999-cu il tarixli, 27 iyul 2010-cu il tarixli Fərmanla təsdiq edilmiş*

*"Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları"...), o cümlədən, 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sisteminin inkişafı üzrə Tədbirlər Planı" və "2014–2018-ci illərdə Azərbaycan Respublikasında daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və kadastr sisteminin inkişafına dair" Dövlət Proqrami ilə tənzimlənir.*

Daşınmaz əmlakın vahid kadastr bazası (fondu) özündə həm də dövlətin iqtisadi siyasətinə uyğun olaraq mülkiyyət növlərindən asılı olmayaraq təbii ehtiyatların səmərəli istifadəçiliyi və mühafizəsi (məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq) ilə bağlı kompleks kadastr-yerquruluşu sistemini birləşdirir. Belə ki, Xəzər dənizi akvatoriyasının karbohidrogen mənşəli yataqlarının sənaye potensialı və iqtisadi dəyəri, coğrafi mövqeyi, daşınmaz və daşınar əmlak üzərində hüquqların qeydiyyatı, beynəlxalq bazar iqtisadiyatı şəraitində istifadə hüququnun yaranması və digər vacib kompleks kadastr bazası nəzərə alınmaqla vahid bir sistem (Coğrafi İnformasiya və Rəqəmsal Elektron Kadastr) yaradılmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasımda daşınmaz əmlak üzərində rəqəmsal-elektron kadastr xəritələrinin işlənilməsi və bu sahədə Milli Məkan üzrə Coğrafi İnformasiya Sisteminin yaranması və təkmilləşdirilməsi (həm dəniz hövzəsində, həm də torpad fondunda) bu mərhələdə həyata keçirilmişdir.

Mühüm beynəlxalq iqtisadi əhəmiyyət kəsb edən bu İxrac Neft Kəmərinin çəkilişi üçün (yataqların və torpaq sahələrinin ayrılması məqsədi ilə) hüquqi baza rolunu (normativ təməl prisipi kimi 29 oktyabr 1998-ci il tarixdə bağlanılmış Ankara Bəyannaməsi olub) 18 noyabr 1999-cu il tarixdə İstanbul şəhərində imzalanmış ATƏT-in VI Zirvə sammitinin Bəyannaməsi oynamışdır [4].

İqtisadi əhəmiyyətli təbii ehtiyatların səmərəli istifadəçiliyi və bu sahədə daşınmaz əmlakın texniki-mühəndis təchizatı sisteminin, nəqliyyat infrastrukturu, texniki və ekoloji təhlükəsizlik bazasının yaradılması Bakı-Tiflis-Ceyhan İxrac Neft Kəmərunin çəkilişində ən əsas torpaqayırma və yerquruluşu tədbirlərindən olmuşdur.

Bu baxımdan, beynəlxalq strateji əhəmiyyətli faydalı qazıntı yataqlarının ("Azəri","Çıraq" və "Günəşli" yatağının bir hissəsi) kəşfi, istehsal texnologiyasının tətbiqi, anbar-nəql qurğularının tikintisi ilə yanaşı, həm də ehtiyatların sənaye potensialının (texniki, iqtisadi, kommersiya və maliyyə cəhətdən qiymətləndirilməsi baxımından) müəyyən edilmnəsi və iqtisadi qiymətləndirilməsi də əsas kadastr tədbirləri sırasına aid edilir.

Eləcə də, ölkə iqtisadiyyatında 1990-cı illərdən sonra baş verən beynəlxalq-iqtisadi inteqrasiya istiqamətindəki xammal ixracının və nəqliyyat dəhlizlərinin yaradılması vahid kadastr bazasında yeni mərhələ kimi istisnalıq təşkil etməmişdir (bu nəqliyyat dəhlizinin layihə-smeta dəyəri 7,4 milyard ABŞ dolları həcmindədir), dövlət mülkiyyətçisi kimi Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti çıxış etmişdir.

Beynəlxalq İxrac Neft Kəmərinin ümumi uzunluğunun (1768 km) Azərbaycan Respublikası inzibati-ərazi vahidləri sərhədlərindən keçən 443 km-lik hissəsinin çəkiliş təməli 2002-ci ilin sentyabr ayənən 18-də qoyulmuş, 2003-cü ilin fevral ayında Qaradağ rayonu, Səngəçal qəsəbəsi ərazisindən ("Səngəçal Terminalı") başlanılmışdır [3].

1997-ci ildən sonra aparılan torpaq islahatı nəticəsində üç mülkiyyət növünə görə ayrılan vahid torpaq fondunun Kəmər tikintisi altında daimi istifadəyə (dövlət mülkiyyətinə) verilən torpaq sahələri ilə bağlı görülən irimiqyaslı yerquruluşu-layihə tədbirləri aşağıdakı (torpaq-kadastr tərkibli) istiqamətlər üzrə olmuşdur [2, 3]:

-ilk növbədə 1999-cu il 24 iyun tarixdə qəbul edilmiş Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 3-cü, 5-ci, 41-ci,55-ci,57-ci,63-cü, 70-ci və 73-cü maddələrinin tələblərinə uyğun olaraq dövlət ehtiyacları üçün torpaq sahələrinin ayrılmasını təmin edilməsi;

-torpaq sahələrinin dövlət ehtiyacları üçün ayrılması ilə bağlı yerquruluşu aktlarının işlənilib hazırlanmasında innovativ-proqram təminatının tətbiq edilməsi;

-yaşyış məntəqləri və kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin hüquqi əsaslarının müəyyən edilməsi, Torpaq Fondu (Kadastr bazası) yerquruluşu sənədlərinə əsasən coğrafi məkan məlumatlarının dəqiqləşdirilməsi;

-beynəlxalq iqtisadi inteqrativ münasibətlər zəmnində torpaq münasibətlərinin tənzimlənməsi, torpaqların alqı-satqı sisteminin təşəkkülü və torpaq bazarının regional miqyas kəsb etməsi.

Bu baxımdan Azərbaycan Respublikasının Vahid daşınmaz əmlak sisteminə daxil olan Xəzər dənizi hövzəsində yerləşən və beynəlxalq iqtisadi inteqrasiya məqsədi ilə istifadə olunan neft-qaz yataqlarının kadastr sisteminin işlənilməsi 1994-cü ildən başlayaraq ("Əsrin müqaviləsi" bağlandıqdan sonra) yeni mərhələyə keçmişdir. Sərhəd hüdudlarının dəniz akvatoriyasının şelfində karbohidrogen mənşəli yanacaq növləri yataqlarının ("Azəri", "Günəşli", "Çıraq", "Abşeron", "Şahdəniz"...) istismarının kadastr qiymətləndirilməsinin hüquqi bazası kimi Ölkə Prezidentinin 04 fevral 1994-cü il tarixli "Azərbaycan Respublikasının dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Sərəncamı və "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" Fərmanı (14 sentyabr 1994-cü il) qeyd etmək olar. Bu hüquqi aktlar həmin ilin sentyabr ayının 20-də bağlanılan "Əsrin müqaviləsi" üçün hüquqi-kadastr bazası rolunu oynamış, bir sıra iqtisadi rayonların (Bakı, Abşeron, Aran, Gəncə-Qazax), 13 inzibati-ərazi vahidlərinin (Bakı şəhərinin Qaradağ rayonu, eləcə də, Hacıqabul, Kürdəmir, Göyçay, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa, Qazax) və kadastr rayonlarının (Abşeron-Qobustan, Aran Şirvan, Gəncə-Qazax) əsas (vahid) kadastr sisteminin (iri miqyaslı yerquruluşu planlar və kadastr xəritələri əlavə edilməklə) işlənilməsinə, normativ baza reqlamentlərinin yaranmasına səbəb olmuşdur [1, 2, 3].

Kadastr bazasının kəmiyyət və keyfiyyət göstəricilərinə əsasən məlumdur ki, Xəzər dənizi akvatoriyasının su fondu torpaqlarına aid hissəsində yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının ehtiyatının 1 milyard tondan çox olduğu təsdiq edilmiş (neftçi-geoloq, akademik X.B.Yusifzadə (1930-2013) tərəfindən) və onların illik orta hasilat gücü (1,6 milyon barel) təşkil edir ki, dünya bazarına artıq 500 milyon tondan çox xam neft çıxarılmışdır.

1994-cü ildən bu günədək Beynəlxalq neft İxrac Kəmərinin işlənilməsinə ümumilikdə 42 milyard ABŞ dolları həcmində investisiya yatırımı qoyulmuşdur, yataqların istisamarı 2050-ci ilədək nəzərdə tutulur.Azərbaycan Respublikasına çatacaq mənfəət neftinin səviyyəsi 75 % təşkil edir (2017-ci ildən sonra) ki, nəticədə tərəfdaş şirkətlər Dövlət Neft Fonduna 3,6 milyard ABŞ dolları həcmində bonus ödəyəcəklər.

Göründüyü kimi, beynəlxalq nəqliyyat-boru kəmər nəqliyyatı dəhlizi kimi həm də strateji iqtisadi əhəmiyyət kəsb edən H.Əliyev adına Bakı-Tiflis-Ceyhan neft kəməri keçən ərazilərin-torpaq sahələrinin vahid kadastr sisteminin tərkib hissələrinin Coğrafi İnfirmasiya Sistemi və Kadastr Təminatı bir sıra sahəvi kadastr bazasının (Torpaq, Su, Yerin təki, Nəqliyyat İnfrastruktur və s.) inkişaf etdirilməsini zəruri etmişdir.

Bu sahələr arasında əlaqələndirmə prinsipi isə öncə ekoloji və yerquruluşu tədbirlərinin həyata keçirilməsi, torpaq ehtiyatlarının səmərəli istifadəçiliyi və ətraf mühitin mühafizəsi ilə sıx bağlıdır.

**Nəticə**

1. H.Əliyev adına Bakı-Tiflis-Ceyhan beynəlxalq ixrac neft kəmərinin ümumi uzunluğunun (1768 km) Azərbaycan Respublikası sərhədləri hüdudunda olan hissəsinə (443 km) aid vahid kadastr sisteminin işlənilməsi makroiqtisadi təsərrüfatın əsas iqtisadi qiymətləndirilməsi və yerquruluşu/kadastr xəritələşdirilməsi kimi tərkib hissəsidir;

2. Xəzər dənizinin akvatoriyası və Qaradağ rayonu, Sanqaçal terminalından başlayaraq Qazax rayonunun İkinci Şıxlı kəndinə qədər uzanan bu hissənin vahid kadastr bazasının tərkibi haqqında kadastr məlumatları müvafiq daşınar və daşınmaz əmlakın məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq həm də iqtisadi-statistik təhlili və iri miqyaslı kadastr xəritələrini əhatə edir;

3. Bakı-Tiflis-Ceyhan neft kəmərinin başlanğıc hissəsinin vahid kadastr sisteminin tərkib hissəsi kimi hüquqi baza, iqtisadi qiymətləndirmə, Coğrafi İnformasiya Sistemi, mühəndis-texniki təchizat və mühafizə göstəriciləri, əsas və cari kadastr məlumatları...qəbul edilir;

4. Beynəlxalq Neft İxrac Boru kəmərinin iqtisadi-kadstr qiymətləndirilməsi beynəlxalq niqtisadi inteqrasiya baxımından iki vacib təməl üzərində inkişaf etdirilir-Dünya Bazarına çıxışın təmin edilməsi və Beynəlxalq Nəqliyyat dəhlizinin yaradılması, təşəkkülü və inkişafı;

5. Azərbaycan Respublikası ərazisində Bakı-Tiflis-Ceyhan neft kəmərinin vahid kadastr sisteminin tərkib hissələrinin hüquqi və iqtisadi qiymətləndirilməsi ilk növbədə beynəlxalq hüququn və dövlətlərarası iqtsadi münasibətlərin reqlamentləri əsasında tənzimlənir;

## Ədəbiyyat


1. “Azərbaycan Respublikasının dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 04 fevral 1994-cü il tarixli Sərəncamı;
2. “Xəzərin Azərbayc an sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1994-cü il Fərmanı;
3. "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI.
4. ATƏT-in İstanbul Bəyannaməsi (18 noyabr 1999-cu il tarixli)


### SUMMARY

### CADASTRAL SYSTEM OF "BAKU-TBILISI-CEYHAN" INTERNATIONAL OIL PIPELINE AND SOIL STRUCTURE ASSESSMENT


***Aghbabali A., Yunusoghlu G.***



***Key words**: international-export oil pipeline, electronic-cadastral and topography maps, sea water area and shelf zone, unified cadastral system, legal legislation*



Development of single cadastral data and topographical maps in the direction of discovery, exploitation and transportation of rich hydrocarbon resources of "Azeri", "Gunashli", "Chirag" and "Shahdeniz" fields located in the local shelf part of the Caspian Sea water area of the Republic of Azerbaijan, are regualted based on number of relevant legal and normative acts: (The Land Code of the Republic of Azerbaijan (the "Rules for Compiling and Conducting the Unified State Cadastre of Real Estate in the Republic of Azerbaijan" approved by the Decree dated June 24, 1999, July 27, 2010...), including the "Action Plan for the Development of the State Registration System of Rights to Real Estate in the Republic of Azerbaijan" and the STATE PROGRAM on "The Development of the Cadastre System and Registration of Rights to Real Estate in the Republic of Azerbaijan in 2014-2018" adopted in 2006.


### РЕЗЮМЕ

### КАДАСТРОВЫЙ СИСТЕМ И ПОЧВЕННО-ЗЕМЛЕУСТРОСТВЕННАЯ ОТЦЕНКА МУЖДУНАРОДНОГО НЕФТЯНОГО ПОЯСА «БАКУ-ТБИЛИСИ-ДЖЕЙХАН»


***Агбабалы А., Юнусоглы Г.***



***Ключевые слова:** международный нефтепровод, електронно-кадастровая и землеустройственная карта, морская акватория и шельфная зона, кадастровый систем, юридические-правовые акты*



Использования карбогидрогенных запасов месторождениях «Азери», «Гюнешли», «Чыраг» и «Шахдениз», также составления кадастровых систем и карт землеустройсвенных урегулируется соответствующие законами-нормативными актами Азербайджанской Республики (Земельный Кодекс Азербайджанской Республики, «Правила проведения и составления кадастровых систем неподвижных имуществ в Азербайджанской Республике» от 2010-го года…), а также Государственных Программой «Азербайджанской Республике в период 2014-2018 годах регистрация юридических прав на неподвижных имущест и улучшения кадастровых систем».

# AZƏRBAYCANIN ƏSAS İXRAC KƏMƏRLƏRİ DÜNYA ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİNDƏ

**Musayev Etibar Adil oğlu**
*Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan, tar.f.d., dosent,*
etibaradiloglu@mail.ru

***Açar sözlər:*** *Neft, kəmər, strategiya, ixrac,müzakirə, konsesus*

***Xülasə.*** *Məqalədə XX əsrin sonlarına döğru Azərbaycan nefti uğrunda dünya dövlətlərinin apardıqları mübarizə təhlil olunur. Azərbaycan karbohidrogen ehtiyatlarının hasili və onun dünya bazarlarına çıxarılması istiqamətində aparılan danışıqlar prosesi və eyni zamanda dünyanın aparıcı dövlətlərinin əsas ixrac kəmərlərinin çəkilməsi istiqamətində yürütdükləri siyasət analiz edilir. İxrac kəmərlərinin çəkilməsinin hası coğrafiyalardan keçəcəyi məsələsinin dövlətlərin xarici siyasətində mühüm məsələ olaraq qaldığı məqalədə geniş və ətraflı şəkildə təhlil süzgəcindən keçirilir. Məqalədə Heydər Əliyevin enerji siyasətin əsas mahiyyəti və tarazlaşdırılmış enerji siyasəti, şaxələndirilmiş ixrac kəmərləri faktlarla təhlil olunur.*

XX əsrin 90-cı illərində Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının kəşf edilməsi və hasilatında, müxtəlif marşrutlarla dünya bazarlarına nəql edilməsində, bütövlükdə geosiyasi əhəmiyyətinin artmasında ən əhəmiyyətli rol Azərbaycana məxsus olmuşdur. 1990-cı illərin ortalarından başlayaraq Xəzər neftinin ixracı yolları ətrafında müzakirələrin güclənməsi neft kəmərlərinin Xəzəryanı bölgənin siyasətinə təsir göstərmək üçün ən effektli rıçaq olması ilə izah edilməlidir. Bu vasitəni əldə etmək uğrunda mübarizə aparan tərəflər içərisində bölgə dövlətləri, ABŞ və Rusiya ilə yanaşı İran, Türkiyə, Çin və Avropa İttifaqına daxil olan dövlətlər də olmuşdur. Azərbaycan karbohidrogen ehtiyyatlarının dünya bazarlarına ixracı ilə bağlı fərqli mövqelər və müxtəlif təkliflər ortaya çıxmağa başlamışdır. Hələ kəmərlərlə bağlı ilkin müzakirələrdə və məsləhətləşmələrdə, neftlə qazın Avropaya ixracının Aralıq dənizi vasitəsi ilə həyata keçirilməsi barədə uzlaşma mövcud idi. 1991-1992-ci illərdə JP- Kenni mühəndis şirkəti, “AMOCO”, “BP”, “Penzoil”, “UNOCAL”, “Oman” neft şirkətləri tərəfindən bu istiqamətlərdə bir sıra tədqiqatlar aparılmışdır. “ARDNŞ”in xarici neft şirkətləri ilə ( AMOKO, BP, Penzoil) 1992-ci il noyabrın 9-da imzaladığı 6 memorandumda əsas ixrac kəmərlərinin Aralıq dənizinə çıxmaqla çəkilməsi nəzərdə tutulurdu. Son məntəqə qismində Qara dəniz limanlarının (Novorossiysk, Poti və Xora), Aralıq dənizindəki Ceyhan terminalının və Fars körfəzindəki İran terminalının üzərində dayandılar. 1993-cü ilin yazında Rusiya və Qazaxıstanın yanacaq energetika nazirləri də BTC layihəsində gələcək konsersiumun üzvləri qismində iştirak etmək barədə alternativ marşrutlar üzrə maraq və razılıqlarını ifadə etmişdilər. Tədqiqatın ilkin mərhələsində aşağıdakı alternativ marşrutlar nəzərdə tutulurdu:

1.Bakı-Supsa(Gürcüstan), 2.BTC (Bakı-Tblisi-Ceyhan), 3.Bakı-Novorossiysk(Rusiya), 4.Bakı-Astara-Təbriz-Xark(İran), 5.Samsun-Kırıkkala-Ceyhan (Türkiyə), 6.AMB (Albaniya-Makedoniya-Bolqarıstan), 7.İzmitdən keçməklə(Türkiyə), 8.Bolqarıstan-Yunanıstan, 9.Bakıdan Bəndər-Ənzəliyə dəniz nəqliyyatı ilə.

Heydər Əliyev ölkənin yeni enerji strategiyası tərkibində ilk gündən karbohidrogen ehtiyatlarının dünya bazarlarına şaxələndirilmiş və çoxvariantlı enerji dəhlizləri marşrutları ilə ixracı məsələsinə xüsusi önəm verirdi. Çoxvektorlu enerji marşrutları içərisində nəzərdə tutulan əsas marşrutlar aşağıdakılar hesab edilirdi:

1.Şimal marşrutu (Rusiya ərazisindən keçməklə Qara dəniz, çıxan Bakı-Qrozmy-Tixoretsk-Novorossiysk yolu, ötürmə gücü ildə 5 milyon ton)

2.Qərb marşrutu (Gürcüstan ərazisindən keçməklə Qara dənizə çıxan Bakı- Supsa yolu, ötürmə gücü ildə 5 milyon ton )

3.Cənub-Qərb marşrutu (əsasən Türkiyə ərazisindən keçməklə Aralıq dənizinə çıxan BTC yolu, ötürmə gücü ildə 50 milyon ton)

“Əsrin Müqaviləsi” imzalandıqdan sonra ən böyük müzakirələr neftin hansı marşrutlar

vasitəsiylə dünya bazarlarına nəql olunacağı mövzusunda meydana gəldi. Marşrutların müəyyən edilməsi müzakirələrində və müvafiq marşrutun təsbit edilməsində maliyyə və strateji amillər əsas rol oynayırdı. "Əsrin Müqaviləsi"nin iştirakçılarının konsessusa dair 1995-ci il oktyabrın 5-də olan protokoluna əsasən İlkin neftin "Qərb" ( Bakı-Supsa ) və "Şimal" (Bakı- Novorossiysk) marşrutlar ilə ixracı razılaşdırıldı [1]. "İlkin" neftin Bakıdan Rusiyanın Novorossiysk və Gürcüstanın Supsa limanlarına çatdırılmaqla, yəni Qara dəniz vasitəsi ilə Bosfor və Dardanel boğazlarından tankerlərlə keçməklə Aralıq dənizinə çıxarılması mümkün sayıldı [2, 11.10.1995; 12. s.15].

Bakı-Qroznı-Novorossiysk marşrut kəmərinin hüquqi statusunun təsbit edilməsi 1996-cı ildə Heydər Əliyevin Moskvaya səfəri zamanı reallaşdırıldı. 1996-cı ilin yanvarın 18-də Rusiya Federasiyasının hökumət evində Azərbaycanın "Azəri", "Çıraq", "Günəşli" dəniz yataqlarından çıxarılacaq "İlkin neftin Rusiya ərazisi vasitəsi ilə nəql edilməsi" haqqında Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Federasiyası baş naziri Viktor Çernomırdin saziş imzaladılar[3, s. 114; 14, s.426]. Azərbaycanın Rusiya ilə neft ixracına dair bağladığı bu müqavilə Xəzərdə həyata keçirilən transmilli layihələr ətrafında konsesus yaratmaq, bölgədəki bir qədər gərgin dövlətlər arası münasibətləri yumşaltmaq istəyindən irəli gəlirdi. Burada diqqət çəkən məqam neftin nəqlinin Şimal və ya Cənub variantının daha səmərəli olmas, barədə Viktor Çernomırdinin fikirləridir: "Şimal variantı etibarlı, çoxillik təcrübə ilə sınaqdan çıxarılmış yoldur və onu inkişaf etdirməyə imkan var. O ki, qaldı başqa variantların olmasına, burada pis nə var ki? Vaxt gələcək, hər şey ondan asılı olacaqdır kı, bız nə qədər neft istehsal edirik. Burada hansı yolla getmək lazım olduğunu iqtisadi səmərə göstərəcəkdir. Daşınma tarifləri Rusiya ərazisində 1 ton neft üçün 15,67 dollar müəyyən edilmişdir [15 s. 426].

Rusiyada Çeçenistan probleminin olması bu xəttin zəruri inkişafı üçün əsas maneələrdən sayılırdı. Bu səbəbdən Rusiya boru xəttinin Çeçenistandan keçməsinə görə təhlükəsizliklə bağlı Çeçenistanla danışıqlara girmiş, onun rəsmi neft şirkəti "YUMKO"' ilə təhlükəsiz daşınma tarifinə dair saziş imzalamışdır [13, s.90]. Daşıma üzrə hər tona 43 sent müəyyən edildi. Məhz bundan sonra Azərbaycan, Rusiya, Çeçenistan arasında Bak-Qroznı-Tsioretsk-Novorossiysk boru xətti ilə bağlı üç tərəfli razılaşma imzalandı. 1996-cı il fevralın 16 da Bakı-Qroznı-Novorossiysk xətti ilə erkən neftin ixracı haqqında razılaşma imzalandı. Bu razılaşmanı 1994-cü ilin sentyabr ayında imzalanmış neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi üçün atılan addım kimi qiymətləndirmək olar. ARDNŞ-ilə "LYUKOİL" arasında qarşılıqlı anlaşma sənədinə əsasən Rusiya şirkəti "Şahdəniz" perspektivli qaz kondensatı strukturunun kəşfiyyatı və işlənməsi barədə danışıqlara qoşuldu [3, s. 119].

Diqqətçəkən mühüm məqam ondan ibarətdir ki, Rusiya ilkin neftin Novorossiysk xətti ilə dünya bazarına çıxarmasını gerçəkləşdirməklə yalnız iqtisadi nailiyyət deyil, eyni zamanda Azərbaycan və Qazaxıstanı da öz təsir dairəsinə salmaq niyyətini həyata keçirtmək istəyirdi. Qeyd etmək yerinə düşərdi ki, Rusiya Orta Asiya neftinin də buradan dünyaya ixrac edilməsini istəyir. Orta Asiya neftinin Avropa bazarlarına digər marşrutlarla böyük miqdarda girməsi, dünya birjalarında qiymətləri aşağı sala bilər ki, bu da rus şirkətlərinə ziyan vura bilər. Neftin Novorossiyskdən yüklənməsində isə Rusiya özü qiymətləri müəyyən edəcəkdir.

Azərbaycan nefti 1997-ci ilin fevralında Rusiya sərhədinə çatdı. Lakin Rusiya tərəfi nefti qəbul etməyə hazır olmadığından Azərbaycan neftinin ixracı may ayına qədər təxirə salındı. Bunun səbəbi kəmərin Çeçenistan ərazisindən keçən hissənin təmiri ilə bağlı Rusiyanın öhdəliyinə götürdüyü işləri yerinə yetirməməsi idi [4, s. 176-177]. Çeçenistanla Rusiya arasında tranzit tarifləri barədə kəskin fikir ayrılığı və onlar arasında 1994-cü ildən bəri davam edən müharibə Bakı-Novorossiysk boru kəmərini Çeçenistandan keçən hissəsinin bərpa işlərini həyata keçirilməsinə mane olurdu. Bu da "Əsrin müqaviləsi" imzalanarkən ilkin neftin 18 ay ərzində çıxarılması nəzərdə tutulsa da boru kəməri marşrutunun seçilməsi haqqında qərarın gec qəbul olunması və Rusiya ilə tranzit müqavilənin bir ildən çox vaxt keçdikdən sonra imzalanması ABƏŞ-i ilkin neftin çıxarılması vaxtını 1996-cı ilin ikinci yarısından 1997-ci ilin üçüncü rübünə keçməyə məcbur etdi. 1997-ci ildə Rusiya ilə Çeçenistan arasında "Sülh və Əməkdaşlığa dair" saziş imzalandı[16, s.36]. 1997-ci il iyul ayında ARDNŞ "Transneft və Yunko" arasında müqavilə imzalandıqdan sonra Moskvanın həmin

ərazidən nəql olunan hər ton neft üçün Çeçenistana ayırdığı tarif 0.43 dollar müəyyən edildi. Lakin mübahisələr bununla bitmədi və il yarımdan sonra Moskva Çeçenistana ayrılan tarifi 3,158 dollara qaldırdı [6, 27aprel-4may.1999].

1997-ci il noyabrın 12-də "Çıraq-1" platformasında "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına başlandı. Heydər Əliyevin bu sahədə gördüyü misilsiz xidmətlər sayəsində "Çıraq" neft yatağında böyük bir platforma yaradılmış və bu platformada ilk neft fontan vurmuş, bu platformadan gün ərzində 10 min ton neft və bir milyon kub metr qaz hasil edilmişdir. 1997-ci il noyabrın 12-də Xəzər dənizinin təkindən dünya bazarlarına ilkin Azərbaycan nefti axıdılmağa başlandı [5, s.305]. ABƏŞ-in "Çıraq-1" neft yatağından hasil etdiyi Səngəçal terminalından Rusiya ilə sərhəddə yerləşən Şirvanovkayadək 223 km-lik boru xətti ilə ötürülmüş ilk xam neft 1998-ci il füvralın 28-də Azərbaycan-Rusiya sərhəddini keçmişdir.

Azərbaycan neftinin nəqli məsələsi neftin çıxarılması qədər vacib iqtisadi və siyasi cəhətdən əhəmiyyətli bir məsələdir. Lakin Çeçenistan ərazisində meydana çıxan müxtəlif problemlə yanaşı və 1998-ci ilin yazında qiymətlərin aşağı düşməsi xam neftin satışının sərfəli olmadığını əsas gətirən ARDNŞ ixracı dayandıraraq Şimal boru kəmərini tamamilə ABƏŞ-in ixtiyarına Verdi. Şimal boru kəmərində baş verən boş dayanmalar ABƏŞ-ə neft ixracını özünün istehsal gücünə uyğun olaraq həyata keçirməyə imkan vermirdi. Ona görə də Bakı-Supsa neft kəmərinin istismara verilməsi ilə Azərbaycan neft ixracındakı çətinliklər aradan qaldıra bilərdi.

Heydər Əliyevin gərgin əməyi nəticəsində ilkin neftin ixracı üçün ikinci boru kəməri Bakı-Supsa xətti seçilmişdir. Heydər Əliyev və E.Şevardnadzenin iştirakı ilə 8 mart 1996-cı ildə Tiflisdə "İlkin Azərbaycan neftinin Gürcüstana nəqlini qərarlaşdıran müqavilə" Gürcüstan hökuməti və ARDNŞ arasında imzalandı [7, s.91]. Müqavilədə əsasən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından çıxarılan neftin dünya bazarına çıxarılması müəyyənləşdirildi. Bakı-Supsa xəttinin uzunluğu 830 km, ötürmə gücü ildə 5-7 milyon ton, dəyəri isə 565 milyon dollar həcmində qiymətləndirilir [8, s.686]. Statistik göstəriciyə görə, 2005-ci ilə qədər bu xətt ilə 18.6 milyon ton İlkin Azərbaycan nefti ixrac olunmuşdur [9, s.562]. ABƏŞ-in məlumatına görə layihənin həyata keçirilməsi üçün 315 milyon dollar dəyərində büdcə ayırılmışdır [10, 17.04.1997]. Sonralar isə yeni boruların çəkilməsi zəruliliyi əsas götürülərək büdcənin 590 milyon dollar qədər qaldırılması haqqında qərar qəbul edilmişdir . Kəməri tikən işçilərin 4 min nəfərindən 70%-i Azərbaycan və Gürcüstan vətəndaşları olmuşdur [12,20.04.1999].

Qərb neft ixrac boru kəmərinin istifadəyə verilməsi Xəzər dənizi regionunda neft yataqlarının kəşfiyyatı və mənimsənilməsi işlərinin xeyli artmasına, nəticədə bölgəyə sərmayə axınının güclənməsinə, yeni iş yerlərinin açılmasına infrastruktrun bərpasına geniş imkanlar açması ilə yanaşı həm də Avropanın enerji təhlükəsizliyinə bir töhvə oldu.

## Ədəbiyyat


1. «Azərbaycan qəzeti» 10 oktyabr 1995
2. Xalq qəzeti, 11 oktyabr 1995;
3. Heydər Əliyevin neft strategiyası:Azərbaycan xalqının rifahı naminə.2 hissədə, I hissə.Azərbaycan Respublikası prezidentinin Katibliyi.Bakı: 2001,491s.
4. Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində: 5kitabda. IV kitab.BakuAzərbaycan, 1997,480s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On üçüncü kitab: Oktyabr 1997-Oktyabr 1997/Bur. Məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr,2004,520 s.
6. Mülkiyyət qəzeti, 27aprel-4may.1999
7. Tağıyev C.O.Dünya neft siyasəti, ziddiyyətlər və perspektivlər. Bakı: Nurlan 2003, 116s.
8. Həsənov Ə.M. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərsi ik.Bakı: Azərbaycan,2005,752s.s.686
9. Müstəqil Azərbaycan-20. Bakı : Azərbaycan Dövlət Statistika Komitəsi, 2011, 640s,
10. Xalq Qəzeti. 17 aprel, 1997-ci il

11. Xalq Qəzeti. 20 aprel, 1999-cu il
12. Heydər Əliyevin neft strategiyası:Azərbaycan xalqının rifahı naminə.2 hissədə, I hissə.Azərbaycan Respublikası prezidentinin Katibliyi.Bakı: 2001,491s.
13. Aras O.N " Azerbeycan Hazar ekonomi ve stratejisi". İstanbul : Dergi yayınları.2001, 299 s.
14. Алиев И. Каспийская нефть Азербайджана.Москва: Известия, 2003, 712с
15. Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. Москва, «Международные отношения»,2003, с.280.
16. Binay M.The New world discorder in Transcaucasia/ Ed. Tutuncu M. Caucasus:iiar and peace.Hearlem:SOTA,1998,224p

**SUMMARY**

**MAIN EXPORT BELTS OF AZERBAIJAN IN WORLD ENERGY SECURITY POLICY**

***Musaev E.A.***

***Key words:*** *oil, pipeline, strategy, export, discussion, consensus*

The article analyzes the struggle of world powers for Azerbaijani oil at the end of the 20th century. The negotiation process for the extraction of Azerbaijan's hydrocarbon reserves and its export to the world markets is analyzed, as well as the policy of the world's leading countries in the direction of laying the main export pipelines. The issue of the construction of export pipelines through which geographies remains an important issue in the foreign policy of the states is analyzed in a wide and detailed manner in the article. In the article, the main essence of Heydar Aliyev's energy policy and balanced energy policy, diversified export pipelines are analyzed with facts.

**РЕЗЮМЕ**

**ОСНОВНЫЕ ЭКСПОРТНЫЕ ПОЯСЫ АЗЕРБАЙДЖАНА В МИРОВОЙ ПОЛИТИКЕ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ**

***Мусаев Э.А.***

***Ключевые слова:*** *нефть, трубопровод, стратегия, экспорт, дискуссия, консенсус*

В статье анализируется борьба мировых держав за азербайджанскую нефть в конце XX века. Анализируется переговорный процесс по добыче углеводородных запасов Азербайджана и их экспорту на мировые рынки, а также политика ведущих стран мира в направлении прокладки основных экспортных трубопроводов. В статье широко и подробно анализируется вопрос строительства экспортных трубопроводов, благодаря которым география остается важным вопросом внешней политики государств. В статье на фактах анализируется основная суть энергетической политики Гейдара Алиева и сбалансированной энергетической политики, диверсификации экспортных трубопроводов.

# BÖYÜK DÖVLƏTLƏRİN AZƏRBAYCANDA ENERJİ MARAQLARI

**Əliyeva Leyla Elxan qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, tar.f.d., baş müəllim*

*leyla.aliyeva@sdu.edu.az*

***Açar sözlər:*** *Azərbaycan, neft, iqtisadi, dinamikalar, dövlətlər, siyasi*

***Xülasə.*** *Məqalə dünyanın aparıcı dövlətlərinin Azərbaycandakı neft sektoruna olan maraqlarını təhlil edir. Məqalə tarixi perspektivdən başlayaraq, müasir dövrə qədər böyük güclərin neft sahəsindəki strateji hədəflərini və onların Azərbaycan iqtisadiyyatına təsirlərini əhatə edir. Həmçinin, regionun geosiyasi əhəmiyyətinin bu maraqlar üzərindəki rolunu və Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki yerini araşdırır. Məqalə neftin siyasi və iqtisadi dinamikalarına təsirini dərk etmək istəyən tədqiqatçılar üçün nəzərdə tutulub.*

**Giriş.** Azərbaycanın enerji sektorunun inkişafı, ölkənin müstəqilliyini əldə etdiyi 1991-ci ildən bəri beynəlxalq siyasi və iqtisadi arenada mühüm bir rol oynayır. Xüsusilə neft sənayesi, Azərbaycan iqtisadiyyatının lokomotivi kimi fəaliyyət göstərərək, dünya dövlətlərinin diqqət mərkəzində yer alıb. Bu tədqiqat dünyanın aparıcı dövlətlərinin—ABŞ, Rusiya, Çin və Avropa

Birliyi kimi güclərin Azərbaycanda neft sahəsindəki maraqlarını və bu maraqların ölkənin siyasi və iqtisadi inkişafına necə təsir etdiyini araşdırır.

İlk olaraq, Azərbaycanın strateji coğrafi mövqeyi və zəngin neft ehtiyatlarına sahib olması, onu qlobal enerji təhlükəsizliyi məsələlərində mühüm bir oyunçu halına gətirib. İkinci Dünya müharibəsi zamanı və sonrasında SSRİ-nin neft tədarük mənbəyi kimi önəmi artan Azərbaycan, müstəqillik əldə etdikdən sonra da bu strateji rolunu qoruyub saxlayıb. Müstəqil dövlət kimi, Azərbaycan neftinin dünya bazarlarına inteqrasiyası, ölkənin siyasi müstəqilliyini və iqtisadi inkişafını daha da gücləndirib.

Böyük dövlətlərin Azərbaycanda neft maraqları həm iqtisadi, həm də siyasi baxımdan çox ölçülüdür. Enerji resurslarına olan tələbatın artması ilə bu güclər arasında Azərbaycanın neft ehtiyatlarına çıxış mübarizəsi daha da kəskinləşib. Məqalə bu kəskin rəqabətin təfərrüatlarına dərin bir baxış təqdim edərək, Azərbaycanın qlobal enerji təhlükəsizliyi və geosiyasi stabillikdə oynadığı rolu vurğulayır.

Bu rəqabət Azərbaycanın siyasi ittifaqlarını və xarici siyasət strategiyalarını şəkilləndirməkdə mühüm rol oynamışdır. Ölkə enerji sektorunu diversifikasiya etmək və yeni bazarlar tapmaq məqsədi ilə bir sıra regional və qlobal enerji layihələrinin başlamasına rəhbərlik etmişdir. Bunlar arasında, Qərb dövlətlərinin dəstəklədiyi "Cənub Qaz Dəhlizi" kimi layihələr xüsusi önəm kəsb edir. Bu layihələr, Azərbaycanın Avropa bazarlarına neft və qaz ixracını asanlaşdıraraq, ölkənin enerji təhlükəsizliyindəki rolunu daha da gücləndirib. Eyni zamanda, Azərbaycanın enerji siyasəti, həm daxili, həm də xarici təhdidlərə qarşı ölkənin mövqeyini möhkəmləndirmək üçün bir vasitə olaraq işlənir. Neft gəlirləri ölkənin infrastrukturunu və sosial xidmətlərini inkişaf etdirmək, həmçinin xarici sərmayə cəlbində mühüm rol oynayır. Bu sərmayələr Azərbaycanın iqtisadi müstəqilliyini artırmaqda və həyat səviyyəsini yüksəltməkdə kritik əhəmiyyət kəsb edir [9].

Tədqiqatda Azərbaycanın neft sektorunun inkişafı və böyük dövlətlərin bu sektorda necə rol oynadığı təhlil ediləcəkdir. Azərbaycanın neft maraqları ətrafında formalaşan qlobal və regional siyasi mənzərəyə dərin bir baxış təqdim ediləcək, bu isə ölkənin geosiyasi və iqtisadi gələcəyini anlamaq üçün zəruri məlumatları ortaya qoyacaq.

**Dünya güclərinin Azərbaycanda neftə maraq göstərməsinin tarixi kökləri**

Azərbaycanın zəngin neft yataqları tarixi dövrlərdən bəri böyük dövlətlərin iqtisadi və strateji maraqlarını cəlb etmişdir. XIX əsrin sonlarından başlayaraq Azərbaycan nefti qlobal enerji bazarında mühüm bir yer tutmuş və bölgədəki siyasi münasibətləri dərin şəkildə təsir etmişdir.

XIX əsrin sonlarına doğru Azərbaycan nefti dünya bazarlarında önəmli rol oynamağa başladı. Bu dövrə qədər, yerli əhali sadəcə məişət və tibbi məqsədlər üçün neftdən istifadə edirdi. Ancaq, texnoloji irəliləyişlər və sənaye inqilabının tələbləri ilə, neftin ticarət potensialı açıq şəkildə ortaya çıxdı. Dövrün böyük sənaye mərkəzlərindən biri olan Bakı, tez bir zamanda "Dünyanın neft paytaxtı" kimi tanındı. Rotşild və Nobel kimi Avropa kapitalistləri böyük məbləğdə investisiya yatıraraq, bu sərvətdən yararlanmağa çalışdılar.

XX əsrin əvvəllərində isə, Azərbaycan nefti daha da strateji əhəmiyyət qazandı. Birinci dünya müharibəsi və sonrasında neftin hərbi və iqtisadi əhəmiyyəti daha da artmışdı. Bu dönəmdə Azərbaycanın neft yataqları Rusiya imperiyasının enerji tələbatının əsas hissəsini təmin edirdi. Neftin əhəmiyyətinin artması ilə, dövlət neft sənayesinə daha çox müdaxilə etməyə başladı və nəticədə neft yataqlarının idarə edilməsi mərkəzləşdirildi [4].

Müstəqillik əldə etdikdən sonra, Azərbaycan öz neft sərvətlərini daha effektiv idarə etməyə və dünya bazarlarına inteqrasiya etməyə çalışdı. Bu yeni dövrdə böyük dövlətlərin Azərbaycandakı neft maraqları, yeni geosiyasi və iqtisadi dinamikalar yaratdı. ABŞ, Avropa Birliyi və digər qüvvələr, regionda enerji təhlükəsizliyini təmin etmək məqsədi ilə Azərbaycanla müxtəlif ikitərəfli və çoxtərəfli layihələrə imza atdılar.

Azərbaycanın dünya enerji bazarlarındakı mövqeyi, həmçinin yerli iqtisadi inkişaf üçün neftin rolu, müstəqil dövlət kimi ölkənin siyasi və iqtisadi müstəqilliyini gücləndirməkdə mühüm

rol oynamışdır. Bu proses, Azərbaycanın dünya səhnəsindəki rolunu və neftin qlobal enerji təhlükəsizliyindəki yerini daha da möhkəmləndirmişdir.

**Azərbaycanın geosiyasi mövqeyi və qlobal enerji bazarlarına təsiri**

Azərbaycan geosiyasi mövqeyi baxımından Şərqi Avropa ilə Orta Asiya arasında strateji bir körpü rolunu oynayır. Xəzər dənizi sahilində yerləşməsi, zəngin neft və qaz ehtiyatlarına malik olması, bu ölkəni qlobal enerji təhlükəsizliyi kontekstində mühüm bir oyunçu edir. Azərbaycanın enerji resurslarının dünya bazarlarına inteqrasiyası ölkənin həm iqtisadi, həm də siyasi müstəqilliyini gücləndirən bir amil kimi qarşıya çıxır.

Azərbaycan enerji zəngini bir region olan Qafqazda mərkəzi bir yer tutur. Bu coğrafiya, Avropa, Orta Şərq və Orta Asiya arasında enerji daşınması üçün strateji bir marşrut təklif edir. Ölkə, Rusiya və İran kimi enerji zəngini qonşuları ilə yanaşı, Avropa və Asiya arasında bir körpü rolunu oynayır. Bu, Azərbaycanın xarici siyasətində və enerji diplomatiyasında müstəqil və aktiv bir rolu gücləndirir [2].

Azərbaycan enerji resurslarını Qərb bazarlarına çatdırmaq üçün iri boru kəməri layihələri inkişaf etdirmişdir. Bunlar arasında Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri və Cənub Qaz Dəhlizi layihəsi kimi strateji infrastrukturlar var. BTC kəməri Azərbaycan neftini Xəzər dənizindən Gürcüstan və Türkiyə üzərindən Ceyhan limanına daşıyır, buradan da dünya bazarlarına nəql edilir. Cənub Qaz Dəhlizi isə Azərbaycan qazını Avropa bazarlarına tədarük edərək, Avropanın Rusiya qazına olan asılılığını azaltmaq məqsədi daşıyır.

Azərbaycanın zəngin neft və qaz ehtiyatları, qlobal enerji təhlükəsizliyinə mühüm təsir göstərir. Ölkə, Avropa üçün alternativ enerji mənbəyi kimi xidmət edərək, enerji təchizatında müxtəliflik yaratmağa kömək edir. Bu, həm enerji qiymətlərinin stabilliyinə, həm də siyasi və iqtisadi təhlükəsizliyə yardım edir.

Azərbaycanın qlobal enerji bazarlarına təsiri, həmçinin, enerji siyasətindəki müstəqilliyi ilə də əlaqədardır. Ölkə qlobal enerji siyasəti müzakirələrində aktiv rol alaraq, həm regional, həm də qlobal səviyyədə enerji təhlükəsizliyi məsələlərində söz sahibi olmağa çalışır. Azərbaycanın bu aktiv siyasəti, onun qlobal enerji təhlükəsizliyi və iqtisadi inkişaf kontekstində strateji önəmini daha da artırır. Nəticədə, Azərbaycanın geosiyasi mövqeyi və enerji resursları, qlobal enerji bazarlarında və siyasətində mühüm rol oynamasını təmin edir. Bu, həm ölkənin iqtisadi inkişafına, həm də qlobal enerji təhlükəsizliyinə töhfə verən faktorlar sırasında qərarlaşır [3].

Azərbaycanın strateji coğrafi mövqeyi onu enerji daşımaları üçün mərkəzi bir qovşaq halına gətirmişdir. Xüsusilə, Cənub Qaz Dəhlizi (CQD), bu qovşağın ən mühüm elementlərindən biridir. CQD, Avropanın enerji təchizatında müxtəliflik yaratmaq və regionun enerji asılılığını azaltmaq məqsədi daşıyan strateji bir layihədir.

CQD-in əsas məqsədi, Azərbaycanın "Şahdəniz" qaz-kondensat yatağının ikinci mərhələsinin istismarını təmin etməkdir. Bu mərhələdə istehsal ediləcək təbii qaz, müxtəlif boru kəmərləri vasitəsilə ilk növbədə Türkiyəyə, ardınca isə Cənubi Avropaya nəql edilir. Layihənin əsas komponentləri aşağıdakılardır [7]:

➢ Şahdəniz yatağının ikinci mərhələsi, yatağın daha dərin və daha çətin hissələrindən qazın çıxarılmasını əhatə edir. İkinci mərhələnin istismara verilməsi ilə yataqdan illik əlavə 16 milyard kubmetr qaz çıxarılma qabiliyyəti məqsəd qoyulmuşdur.

➢ Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) mövcud boru kəmərinin ötürmə qabiliyyətini ildə 6,6 milyard kub metrdən 16 milyard kub metrə çatdırmaq üçün nəzərdə tutulmuşdur.

➢ Trans-Anadolu Boru Kəməri (TANAP) Cənubi Qafqaz Boru Kəmərini Türkiyənin Qars şəhərindən başlayaraq, Yunanıstan sərhədinə qədər uzanır. Bu kəmər vasitəsilə Azərbaycan qazının Avropa bazarlarına nəqli təmin edilir.

➢ Trans-Adriatik Boru Kəməri (TAP) və TANAP-ı Yunanıstandan İtaliyaya qədər uzanan bir marşrutla tamamlayır. Bu kəmər, Azərbaycan qazının Avropanın daha geniş bazarlarına inteqrasiyasını təmin edir.

CQD layihəsi, Azərbaycanın enerji ixracatçısı kimi dünya səviyyəsində rolunu gücləndirir. Avropa üçün alternativ qaz mənbəyi təmin edərək, qitənin Rusiya qazına olan asılılığını azaltmaqda mühüm rol oynayır. Enerji təchizatında müxtəliflik həm enerji təhlükəsizliyi həm də siyasi müstəqillik baxımından Avropa üçün strateji bir əhəmiyyət kəsb edir. CQD-in inkişafı, eyni zamanda, Azərbaycan iqtisadiyyatına əlavə investisiya axınını cəlb edərək, ölkənin enerji sektorunu daha da genişləndirir. Bu kəmərlər, həmçinin, regionda enerji əməkdaşlığını və iqtisadi inteqrasiyanı təşviq edir, yeni iş yerləri yaradır və texnoloji transferə yol açır [6].

Nəticədə, Cənub Qaz Dəhlizi layihəsi, Azərbaycanın qlobal enerji siyasətindəki rolunu gücləndirir və ölkəni enerji təchizatında dünya üzrə etibarlı bir tərəfdaş kimi qurur. Bu layihələr regional və qlobal səviyyədə enerji təhlükəsizliyi və iqtisadi inkişaf üçün yeni imkanlar açır.

**Böyük dövlətlərin siyasətləri və Azərbaycandakı neft sektotuna investisiyaları**

Azərbaycanın zəngin neft və qaz ehtiyatları, dünyanın aparıcı dövlətlərinin iqtisadi və strateji maraqlarını cəlb etmişdir. Böyük güclərin, xüsusilə ABŞ, Rusiya, və Çin kimi dövlətlərin enerji siyasətləri və Azərbaycan neft sektoruna investisiyaları ölkənin iqtisadi inkişafında və xarici siyasətində mühüm rol oynamışdır.

ABŞ Azərbaycanın enerji sektoruna ən iri investisiya edən ölkələrdən biridir. 1990-cı illərdən başlayaraq, ABŞ şirkətləri böyük məbləğdə sərmayə yatırımı ilə yerli neft və qaz layihələrində fəal iştirak etmişlər. Bu investisiyalar, xüsusilə "Əsrin Müqaviləsi" kimi tanınan və 1994-cü ildə Qərbin neft şirkətləri ilə imzalanan sazişlə başlanan layihələr, Azərbaycanın neft sektorunun qlobal bazarlarda mövqeyini gücləndirməyə kömək etmişdir [8]. ABŞ şirkətləri, həmçinin regionun enerji təhlükəsizliyini artırmaq və Rusiyanın regional enerji bazarlarındakı dominantlığını azaltmaq məqsədi ilə Azərbaycanla əməkdaşlıq etmişlər.

Rusiya Azərbaycanın ən yaxın qonşularından biri olaraq, hər zaman ölkənin enerji sektorunda mühüm bir rol oynamışdır. Sovet dövründən qalan infrastrukturlar və münasibətlər çərçivəsində, Rusiya şirkətləri və hökuməti, Azərbaycan neft və qaz sənayesində aktiv iştirak etmişlər. Lakin, müstəqillik əldə edildikdən sonra Azərbaycan, enerji siyasətini çeşidləndirmək və daha çox Qərb şirkətləri ilə işbirliyi qurmağa çalışmışdır. Bununla birlikdə, Rusiya ilə enerji məsələləri üzrə əməkdaşlıq davam etməkdədir, özəlliklə qaz sektorunda [5].

Çinin qlobal enerji siyasətində Azərbaycan, "Bir Kəmər, Bir Yol" inisiativinin bir hissəsi kimi önəmli bir yerdə durur. Çin, öz inkişaf edən iqtisadiyyatını dəstəkləmək üçün enerji resurslarına böyük ehtiyac duyur və bu kontekstdə Azərbaycanla enerji sahəsində əməkdaşlığı genişləndirməyə çalışır. Çin şirkətləri Azərbaycanın neft və qaz infrastrukturunun inkişafına investisiya yatırmaqla yanaşı, regionda enerji nəqli və daşınması layihələrində də fəal iştirak edirlər.

Avropa Birliyi (AB) öz enerji təhlükəsizliyini gücləndirmək məqsədilə, Rusiya qazına olan asılılığını azaltmağa çalışır. Bu kontekstdə, Azərbaycan kimi alternativ enerji mənbələri, Avropa üçün strateji əhəmiyyət kəsb edir. Avropa İttifaqı özünün enerji diversifikasiya siyasəti çərçivəsində, Azərbaycanla bir sıra enerji layihələrində əməkdaşlıq edir. Bu layihələr arasında, xüsusilə Cənub Qaz Dəhlizi kimi infrastruktur layihələri, AB-in enerji tədarük mənbələrini çeşidləndirmək və enerji bazarını daha rəqabətli hala gətirmək məqsədini daşıyır [1].

Böyük dövlətlərin Azərbaycan neft sektoruna investisiyaları ölkənin iqtisadi inkişafına təkan verir. Bu investisiyalar sayəsində Azərbaycan dünya enerji bazarında daha mühüm rol oynamağa başlayır. Eyni zamanda, bu sərmayələr ölkənin infrastrukturunun modernizasiyasına və neft sənayesində işləyən işçilərin peşəkarlıq səviyyəsinin artmasına səbəb olur. Ancaq, böyük dövlətlərin enerji siyasətləri həm də müəyyən risklər yaradır. Müxtəlif dövlətlərin siyasi və iqtisadi məqsədləri arasında balans qurmaq, Azərbaycan üçün daimi bir diplomatik və idarəetmə çağırışıdır. Ölkə, enerji siyasətini diversifikasiya etməklə və müxtəlif dövlətlərlə əməkdaşlıq edərək, həm iqtisadi, həm də siyasi müstəqilliyini qorumağa çalışır.

Nəticə olaraq, Azərbaycanın enerji siyasəti və böyük dövlətlərin investisiyalar, kompleks bir qarşılıqlı əlaqə şəbəkəsi yaradır. Bu şəbəkə, qlobal enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın rolunu artırmaqda və ölkənin iqtisadi tərəqqisində mühüm rol oynamaqda davam edəcəkdir.

## Nəticə

Azərbaycanın neft sektorunun inkişafı, qlobal enerji bazarlarında və siyasi arena məsələlərində ölkənin rolunu əhəmiyyətli şəkildə artırmışdır. Böyük dövlətlərin Azərbaycanın enerji resurslarına olan artan marağı iqtisadi və siyasi perspektivlərdən ölkənin strateji əhəmiyyətini göstərmiştir. Enerji sektoru ölkənin iqtisadiyyatının əsas sütunu kimi fəaliyyət göstərməklə yanaşı, Azərbaycanı qlobal enerji təhlükəsizliyi məsələlərində mühüm bir aktor halına gətirib.

Böyük güclərin, xüsusilə ABŞ, Avropa Birliyi, Rusiya və Çin kimi dövlətlərin Azərbaycan neft sektoruna investisiyaları, bu dövlətlərin iqtisadi-siyasi gündəmlərini əks etdirir. Bu investisiyalar Azərbaycanın iqtisadi inkişafını təşviq etməklə yanaşı, ölkənin enerji mənbələrini daha da çeşidləndirməyə və enerji təchizatı məsələlərində daha müstəqil qərarlar qəbul etməyə imkan verəcəkdir.

Azərbaycanın qlobal enerji siyasətindəki artan rolu, ölkənin daxili siyasətlərinə və xarici diplomatik münasibətlərinə də təsir göstərir. Enerji diplomatiyası, Azərbaycanın dünya səviyyəsindəki münasibətlərini forma və məzmun baxımından zənginləşdirir və qlobal enerji təhlükəsizliyi kontekstində ölkənin söz sahibi olmasını təmin edir.

Nəticədə Azərbaycanın enerji sektoruna investisiyalar həm regional, həm də qlobal miqyasda enerji təhlükəsizliyi və iqtisadi sabitlik üçün mühüm əhəmiyyət kəsb edir. Zəngin enerji ehtiyatlarını səmərəli idarə etməklə Azərbaycan iqtisadi və siyasi müstəqilliyini möhkəmləndirməkdə davam edir və qlobal enerji bazarlarında fəal ölkə olaraq qalır. Bu kontekstdə Azərbaycanın enerji siyasəti və strategiyaları təkcə öz milli maraqlarını deyil, həm də geniş coğrafiyada enerji təchizatı və təhlükəsizlik məsələlərini formalaşdırır.

## Ədəbiyyat


1. Cəfərli R., (17 Fevral, 2015) "Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini dəyişəcək", Azərbaycan qəzeti, səh.3.
2. Əliyeva Y., (23 Aprel, 2010)"Azərbaycanın neft-qaz layihələrinə maraq daha da artır", İki Sahil qəzeti, səh.4.
3. Köçərli Ş., "XXI əsrdə Azərbaycanda neft-qaz geoloji tədqiqatları: indiki vəziyyət və pesrpektivlər", Azərbaycanda geofizika yenilikləri, 2021, №1-2, səh.55-59.
4. Ömərov V.A. (6 May, 2015), "Hüquqi dövlətin enerji təhlükəsizliyi", Səs qəzeti, səh.13.
5. Qarayev B., "Azərbaycanda neft-qaz seysmik kəşfiyyatının inkişafı və təkmilləşdirilməsi", Azərbaycanda geofizika yenilikləri, 2020, №1-2, səh.16-21.
6. https://azerbaijan.az/related-information/267, 2024
7. https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196 , 2024
8. https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi, 2020
9. https://president.az/az/pages/view/azerbaijan/contract, 2024


**SUMMARY**

**ENERGY INTERESTS OF THE GREAT POWERS IN AZERBAIJAN**

***Aliyeva L.E.***

***Keywords:*** *Azerbaijan, oil, economic, dynamics, states, political*

This article explores the global interest in Azerbaijan's oil sector, tracing historical influences and strategic objectives of major powers in the region. It discusses the impact of these interests on Azerbaijan's economy, the geopolitical significance of the area, and Azerbaijan's role in worldwide energy security. Targeting researchers and policymakers, it aims to elucidate the oil industry's influence on political and economic trends.

**РЕЗЮМЕ**

**ЭНЕРГЕТИЧЕСКИЕ ИНТЕРЕСЫ КРУПНЫХ ГОСУДАРСТВ В АЗЕРБАЙДЖАНЕ**

***Алиева Л.Э.***

***Ключевые слова:*** *Азербайджан, нефть, экономика, динамика, государства, политика*

В данной статье анализируются интересы основных стран мира в нефтяном секторе Азербайджана. Начиная с исторической перспективы, в статье рассматриваются стратегические цели великих держав в

нефтяной сфере и их влияние на экономику Азербайджана. В нем также рассматривается роль геополитического значения региона в этих интересах и место Азербайджана в глобальной энергетической безопасности. Статья предназначена для исследователей, которые хотят понять влияние нефти на политическую и экономическую динамику.

# ƏSRİN MÜQAVİLƏSİNDƏN BU GÜNƏ: AZƏRBAYCANIN DÜNYAYA İNTEQRASİYASI

**İmanlı Sevinc Salman qızı**
*Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan*
*imanli_sevinc@mail.ru*

***Açar sözlər:*** *əsrin müqaviləsi, Cənub Qaz Dəhlizi, ümummilli lider Heydər Əliyev, prezident İlham Əliyev, dünya birliyinə inteqrasiya*

***Xülasə.*** *Müstəqil Azərbaycanın ötən əsrin 90-cı illərin əvvəllərindən etibarən ardıcıllıqla həyata keçirdiyi uğurlu enerji siyasəti, transmilli şirkətlərlə birlikdə reallaşdırdığı irimiqyaslı layihələr dövlətə regional və qlobal miqyasda böyük nüfüz qazandırmışdır. "Əsrin müqaviləsi"nin imzalanması, neft strategiyasının formalaşması sabiq ölkə başçısı, ümumilli lider Heydər Əliyevin əməli fəaliyyətinin məntiqi nəticəsi kimi dəyərləndirilir. Bu gün isə bu görkəmli layihənin davamı prezident İlham Əliyevin "Cənub Qaz Dəhlizi" layihəsi vasitəsi ilə uğurla davam etdirilir və Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da möhkəmləndirir.*

Bu il XX əsrin ən qlobal enerji layihəsinin imzalanmasından 30 il keçir. Ümummilli liderimiz Heydər Əliyev bir şəxsiyyət və ictimai xadim kimi bu önəmli layihənin təşəbbüskarı və müəllifi olmuşdu. 1993-cü il iyunun 15-də təkrar hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında yaranan sabitlik irimiqyaslı layihələrin həyata keçirilməsinə əlverişli şərait yaratmışdı.

1994-cü ildə atəşkəsin əldə olunmasından sonra Azərbaycanın beynəlxalq nüfüzu daha da artdı. Dünya ölkələrinin Azərbaycana marağı əsasən, təbii sərvətlərimizin istismarı, həmçinin Azərbaycanın beynəlxalq magistral yolun qovşağında yerləşməsindən irəli gəlirdi. Həmçinin neft amili həlledici siyasi və iqtisadi çəkiyə malik olmuşdu. Azərbaycan Respulikası iqtisadiyyatının inkişafı üçün neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması çox mühüm əhəmiyyət kəsb edirdi. Bu sahəyə Respublika prezidenti H.Əliyev xüsusi diqqət göstərdi. H.Əliyev ölkənin iqtisadi potensialını artırmaq üçün öz strategiyasını hazırladı. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafına nəzər saldıqda, onun Heydər Əliyevin konseptual, iqtisadi-sosial siyasətinin nəticəsi olduğu aydın görünür. Onun dövlətçilik strategiyasında iqtisadi potensialı yüksək olan dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi əsas yer tuturdu. Xarici kapitalı ölkəyə cəlb etmək üçün "açıq qapı" siyasəti yeridilməyə başlandı. 1994-cü ilin fevralın 4-də prezident H.Əliyev "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında" qərar verdi. Bu istiqamətdə fəaliyyətin genişləndirilməsi zəminində 1994-cü ilin sentyabrın 20-də Bakıda Gülüstan sarayında "Xəzər dənizinin Azərbaycana sektoruna daxil olan "Azəri", "Çıraq" və "Günəşli" yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında" beynəlxalq müqavilə imzalandı. Müqavilə öz əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı. Təxminən 400 səhifə və 4 dildə olan "Əsrin müqaviləsi"nin əsas göstəriciləri belədir:

-Kapital qoyuluşunun həcmi – 7,4 milyard dollar, istismar xərclərinin həcmi – 5,9 milyard dollar, müqavilənin müddəti 30 il nəzərdə tutulurdu. Müqaviləyə daxil olan ərazi – 432,4 km$^2$, neft hasilatının nəzərdə tutulan miqdarı – 510 milyon ton, əldə edilən səmt qaz ehtiyatı – 70 milyard m$^3$

-Azərbaycan 80%, digər şirkətlər 20% gəlir əldə edəcəkdilər.

İmzalanmış müqavilə 1994-cü dekabrın 12-də respublika parlamenti tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə mindi. Ümumiyyətlə, yekun olaraq bu müqavilədə 8 dövləti təmsil edən (Azərbaycan, ABŞ, Büyük Britaniya, Norveç, Yaponiya, Rusiya, Türkiyə və Səudiyyə Ərabistan ) 12 şirkət iştirak etdi. Bir sözlə müqavilə "AMOKO", "Yunokal", "Penzoyl" (ABŞ) "Britist

Petrolium” (Böyük Britaniya) “Lukoyl” (Rusiya), “Statoyl” (Norveç), “Delta” (Səudiyyə Ərabistan), “İtoçi” (Yaponiya) kimi şirkələrin nümayəndələri tərəfindən imzalandı. Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin 80%-ni təşkil etməli idi. Müqavilə imzalandıqdan sonra Heydər Əliyev öz çıxışında bildirdi: “Mən xoşbəxtəm ki, bu müqaviləsinin hazırlanmasında və imzalanmasında iştirak etmişəm. Mən əminəm ki, gələcək nəsillər bu tarixi hadisəni yüksək dəyətləndirəcəklər”.

Bu müqavilə bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı ki, bu da sonradan dünyanın ən böyük və tanınmış neft şirkətlərinin Azərbaycana axınına şərait yaratdı. Bununla da Azərbaycan öz qapılarını xarici investisiyalar üçün açdı. 1997-ci il noyabrın 27-də “Əsrin müqaviləsi” üzrə ilkin neftin hasilatına başlanıldı. Hasil olunan neft boru kəməri vasitəsilə Səngəçal terminalına, ondan da şimal marşrutu ilə Novorossiysk terminalına ötürüldü.

Əsrin müqaviləsinin həyata keçirilməsi fonunda Bakı-Tblisi-Ceyhan neft, Bakı-Tblisi-Ərzurum qaz kəmərləri çəkildi. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verdi. “Əsrin müqavilə”si Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazışlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı əməkdaşlığın inkişafı üçün təməl quruldu, ölkənin siyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çox variantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk  və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyalı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyevin müəllifi olduğu Bakı-Tblisi-Ceyhan neft, Bakı-Tblisi-Ərzurum qaz ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi idi. Xəzər dənizi və Aralıq dənzini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara daşınması, Azərbaycan, Gürcüstan və Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verdi. Eyni zamanda ölkənin nəqliyyat infrastrukturunun modernləşməsi üçün də tədbirlər həyata keçirildi və bu layihələrdən biri olan Bakı-Tblisi-Qars  yeni dəmir yolunun inşası Azərbaycanın Qafqazda siyasi nüfuzunu güclənməsinə təkan verməklə bərabər, həm də qərbə doğru inteqrasiyasına şərait yaratdı. Bakı-Tblisi-Qars dəmir yolu regional əhəmiyyətə malik olmaqla bərabər Asiya və Avropanı birləşdirən nəqliyyat dəhlizinə çevrilməsi nəzərdə tutulmuşdur.

“Əsrin müqaviləsi” ilə əsası qoyulmuş neft siyasəti bu gündə uğurla davam etdirilir və Azərbaycan artıq Qafqazın lider dövləti olmaqla yanaşı, regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınıb.

Son bir neçə ildə uğurla reallaşdırılan “Cənub Qaz Dəhlizi” layihəsi deyilənlərə yaxşı nümunədir. Mütəxəssislərin yekdil qənaəti belədir ki, “Şahdəniz” yatağının ehtiyatlarının işlənməsi və Azərbaycan qazının “Cənub Qaz Dəhlizi” vasitəsilə Avropaya çatdırılması ilə ölkənin qitənin enerji təhlükəsizliyinin təmin olunmasında rolu daha da artmışdı.

“Cənub Qaz Dəhlizi”nin əsas məqsədi “Şahdəniz” qaz-kondensat yatağının istismarı zamanı hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Bu plan üzrə əldə olunan təbii qazın Azərbaycan, Türkiyə, Gürcüstan, Albaniya, Yunanıstan, Bolqarıstan hüdudlarından, həmçinin Adriatik dənizinin dərinliklərindən keçərək İtaliyayadək 4000 km-ə yaxın uzanmış boru kəmərlərinin köməyilə çatdırılması nəzərdə tutulur. “Şahdəniz” layihəsi Azərbaycan qazının Avropa və Türkiyəyə çatdıran nəhəng bir layihə olmaqla yanaşı, “Cənub Qaz Dəhlizi” vasitəsilə Avropa bazarlarına qaz təchiz etməklə, qazın təchiz edildiyi region və ölkələrin enerji təhükəsizliyini təmin edir.

2011-ci il tarixində Azərbaycan ilə Avropa Şurası arasında Xəzər-Avropa arası qaz mübadiləsi edən nəqliyyatların təşkil edilməsi məqsədilə Birgə Bəyanət imzalanmışdır. Bu Bəyanət

TAP və TANAP boru kəmərlərinin inşası və dövlətlər arasında uzunmüddətli qaz ixracını nəzərdə tutan sazişlərindən ibarətdir. "Cənub Qaz Dəhlizi"nin bünövrəsi isə 2014-cü il sentyabrın 20-də qoyuldu. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətində TANAP-ın əsasının qoyulması məqsədilə tədbir keçirildi və boru kəməri inşa olunmağa başlandı. TAP-ın təməlinin qoyulması məqsədilə 2016-ci il may ayının 17-də Yunanıstanın Saloniki şəhərində tədbir keçiriləcək, kəmərin inşasına başlanıldı. 2018-ci il mayın 29-da Bakıda, iyunun 12-də isə Əskişəhərdə dəhlizin əsasını təşkil edən Trans-Anadolu (TANAP) qaz boru kəməri istifadəyə verildi. 2018-ci il iyunun 30-da ilk kommersiya qazı TANAP vasitəsilə Türkiyəyə nəql edilməyə başlanıldı. 2020-ci il dekabrın 31-də Azərbaycan təbii qazı TAP boru kəməri ilə Avropa bazarlarına ixrac edilməyə başlandı.

Beləliklə, XX əsrin 90-cı illərində Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" XXI əsrdə onun davamçısı prezident İlham Əliyevin irəli sürdüyü "Cənub Qaz Dəhlizi" layihəsi vasitəsilə uğurla davam etdirildi və Azərbaycanın dünya enerji bazarında etibarlı tərəfdaş olduğunu bir daha sübuta yetirdi və Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da möhkəmləndirdi.

## Ədəbiyyat


1. Mehdiyev.Ə. "Əsrin müqaviləsi": Azərbaycan neft strategiyasının təməl daşı. Bakı, 2014. 245 s.
2. İlham Şaban. "Cənub Qaz Dəhlizi" Azərbaycanın XXI əsrdəki meqa layihəsi, 2007-2022 (faktlar,sənədlər və rəqəmlər toplusu). Bakı, 2023. 244 s.



**SUMMARY**

**FROM THE TREATY OF THE CENTURY TO THE PRESENT DAY: AZERBAIJAN'S INTEGRATION INTO THE WORLD**

***İmanlı S.S.***

***Key words:*** *agreement of the century, Southern Gas Corridor, national leader Heydar Aliyev, President Ilham Aliyev, integration into the world community*

The successful energy policy of independent Azerbaijan since the beginning of the 90s of the last century, and the large-scale projects implemented together with multinational companies have given the state great influence on a regional and global scale. The signing of the "Contract of the Century" and the formation of the oil strategy are evaluated as the logical result of the practical activities of the former head of state, national leader Heydar Aliyev. Today, the continuation of this outstanding project is successfully continued through the "Southern Gas Corridor" project of President Ilham Aliyev, and the integration of Azerbaijan into the world community is further strengthened.

**РЕЗЮМЕ**

**ОТ КОНТРАКТА ВЕКА К НАСТОЯЩЕМУ: ИНТЕГРАЦИЯ АЗЕРБАЙДЖАНА В МИР**

***Иманлы С.С.***

***Ключевые слова****: Контракт века, Южный газовый коридор, общенациональный лидер Гейдар Алиев, Президент Ильхам Алиев, интеграция в мировое сообщество.*

Успешная энергетическая политика независимого Азербайджана с начала 90-х годов прошлого века и масштабные проекты, реализуемые совместно с транснациональными компаниями, дали государству большое влияние в региональном и глобальном масштабе. Подписание «Контракта века» и формирование нефтяной стратегии оцениваются как закономерный результат практической деятельности бывшего главы государства, общенационального лидера Гейдара Алиева. Сегодня продолжение этого выдающегося проекта успешно продолжается посредством проекта президента Ильхама Алиева «Южный газовый коридор», и интеграция Азербайджана в мировое сообщество еще больше укрепляется.


# «КОНТРАКТ ВЕКА» И ВЛИЯНИЕ ЕГО НА ВНЕШНИЮ ПОЛИТИКУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ


**Гасанова Амина Агамоглан гызы**

*Сумгаитский государственный университет, Сумгаит, Азербайджан, доцент*

amina.hasanova@sdu.edu.az



***Ключевые слова:*** *внешняя политика, нефть, международные отношения, нефтяная политика, экономика Азербайджана, внешнеэкономические отношения.*

***Резюме.*** *Подписание 20 сентября 1994 года «Контракта века» с нефтяными компаниями зарубежных стран явилось первым крупным внешнеэкономическим и политическим успехом независимого Азербайджана. Сотрудничество с ведущими нефтяными компаниями мира создало благоприятные условия для укрепления международных позиций Азербайджанской Республики. Укрепляя свою независимость и государственность, Азербайджан в очень короткие исторические сроки занял достойное место на международной арене. В статье рассматриваются аспекты влияния сотрудничества Азербайджана с партнерами в сфере нефтяной политики, а также на укрепление его международного авторитета.*

20 сентября 1994 года представителями иностранных крупных нефтяных компаний было подписано Соглашение о разведке, разработке и долевом разделе добычи на азербайджанских нефтяных месторождениях «Азери», «Чираг», «Гюнешли», вошедшее в историю как «Контракт века». Это событие стало первым международным успехом независимого Азербайджанского государства. Сотрудничество с компаниями-партнерами создало благоприятные условия для укрепления его международных позиций.

Влиятельные иностранные нефтяные компании издавна проявляли интерес к природным ресурсам Каспийского моря. Следует отметить, что основной причиной, по которой Азербайджан входил в круг интересов великих держав в этот период, была Бакинская нефть. После распада Советского Союза российские границы были отодвинуты на север. В этом контексте особенно большее значение приобретал Азербайджан, имеющий ряд геополитических преимуществ, в частности, обладающий большими энергоресурсами на Каспии.

С этой точки зрения уже до подписания «Контракта века», в 1993 г. зримые очертания приобрел проект строительства магистрального экспортного нефтепровода Баку-Тбилиси-Джейхан (BTC), в последующем дополненный проектом Южно- Кавказского газопровода (SCP) – Баку-Тбилиси-Эрзерум.

Очевидно, что стратегическое положение Азербайджана обеспечило большой интерес Соединенных Штатов к республике, как в плане доступа к нефти и газу Каспия, так и в плане создания альтернативных энергетических маршрутов за пределами России, рассматривавшихся как инструмент обеспечения энергетической безопасности Европы. В свою очередь, Азербайджан занял принципиальную позицию в вопросах добычи нефтегазовых ресурсов и их доставки в Средиземное море по основному экспортному нефтепроводу (а затем газопроводу) через территории Грузии и Турции.

Западные нефтяные компании, прежде всего, BP и американские компании, занимали лидирующие позиции в «Контракте века». А это все дало Азербайджанскому правительству возможности развить экономическое сотрудничество с компаниями. Внешняя политика страны стала фактически строиться на основе нефтяной дипломатии.

BP и американские компании–партнеры, придавая серьезное значение позиции Азербайджанского государства, оказали всестороннюю поддержку в реализации его внешней политики. Они проявили особую активность в привлечении влиятельных компаний для инвестирования и заключения новых нефтяных контрактов с Азербайджаном.

Содействие в привлечении инвестиций в Азербайджан и создание благоприятных условий для компаний, которые инвестируют в экономику страны, стали основными задачами Совета [1, с. 409]. Результатом активной позиции BP, играющей важную роль в нефтяном секторе Азербайджана, стало то, что правительство Великобритании все больше усиливало свою поддержку экономике Азербайджана, демонстрируя всему миру свое доверие и уверенность в экономическом курсе правительства Азербайджанской Республики.

10 мая 1996 года в Баку состоялось открытие компании AzEvroTel, созданной еще в 1995 году как Азербайджано-британское совместное предприятие. Учредителями дочерней компании «LUKOİL Europe LTD» стали британский капитал компании LUKOİL и

Министерство связи Азербайджанской Республики [2, с. 404].

Анализируя проблемы нефтяной политики Азербайджана, нельзя не видеть, что они оказались тесно взаимосвязаны с внешнеполитической деятельности государства в целом.

Вне всякого сомнения, подписание «Контракта века» оказало благотворное воздействие и на отношения Азербайджана с США. 1994-1995 годы можно рассматривать как переходный период в политике Соединенных Штатов в отношении Азербайджана. Подписание «Контракта века», а также значительные усилия президента Гейдара Алиева способствовали развитию отношений с этой страной, заложили основу для нового этапа в азербайджано-американских отношениях. Соглашения с США о разработке и экспорте энергоресурсов Каспийского моря на мировые рынки стали основой для поддержки США Азербайджана в решении многих проблем. Американские компании-партнеры по нефтяному консорциуму в своей стране много сделали для развития азербайджано-американских отношений [3, с. 13].

Торговая палата объединила в своих рядах более 50 американских компаний и, в конечном счете, добилась привлечения больших инвестиций в нефтяной и не нефтяной сектор экономики Азербайджана.

В первые годы своего существования Американо-Азербайджанская торговая палата пыталась реализовать в основном экономические интересы Азербайджана. Однако тщательно изучив ситуацию в сфере азербайджано-американского сотрудничества, она стала придавать большое значение, прежде всего, устранению политических препятствий на пути развития деловых отношений между странами.

Таким образом, в результате правильного использования энергетической дипломатии во внешней политике Азербайджана, Соединенные Штаты и Азербайджан смогли продвинуться от начальной стадии налаживания отношений к стадии стратегического партнерства. Благодаря успешному проведению внутренней и внешней политики, правильному использованию нефтяного фактора, поддержке BP и нефтяных американских компаний - партнеров нефтяной дипломатии Азербайджана, отношения республики с ведущими мировыми державами, особенно с Великобританией и США, фактически вышли на уровень союзнических.

Проводя последовательную политику по укреплению международного авторитета, Азербайджанская Республика, как независимое государство, стала членом нескольких международных организаций, в том числе таких организаций как ОБСЕ, Совет Европы, Организация Исламская конференция и Содружество Независимых Государств. Для защиты национальных интересов Азербайджан присоединился к Хельсинкскому Заключительному Акту (1992 год), Парижской Хартии и Европейской Хартии (1999 год), расширял сотрудничество с Европейским Союзом, с ЮНЕСКО, ЮНИСЕФ и другими специализированными организациями, участвовал в региональных инициативах в качестве одного из учредителей региональной группы ГУАМ и т.д.

Наряду с этим, Азербайджан развивал отношения с Европейским Союзом в рамках программ TASIS.СНГ), TRACECA (транспортный коридор Европа-Кавказ-Азия) и др.

Компании–участники «Контракта века» в 1994 г. начали сотрудничать с Азербайджаном, несмотря на нестабильное экономическое и политическое положение страны. В итоге, совместно с Азербайджаном, они реализовали крупные нефтегазовые проекты. Это создало необходимое доверие к Азербайджану на международном уровне, в том числе в России . Азербайджан проводил последовательные экономические реформы. При этом они находили поддержку ведущих стран мира, также способствуя улучшению имиджа страны. Именно в результате этих успехов такие международные организации, как Международный валютный фонд (МВФ) и Всемирный банк (ВБ) начали оказывать Азербайджану в целях поддержки этих реформ серьезную финансовую помощь.

После «Контракта века», начиная с 1995 года, Азербайджаном были подписаны новые нефтяные договора. За счет привлечения известных компаний Франции, России, Ирана,

Японии и Италии к разведке и добыче азербайджанской нефти ускорился рост инвестиций в нефтяную промышленность. Стали поступать доходы от добычи нефти, газа и конденсата с месторождения «Азери-Чираг-Гюнешли», «Шах Дениз», от экспорта нефти и газа по трубопроводам BTC и SCP, строительство которых было завершено. Все эти факторы оказали позитивное влияние на экономические показатели Азербайджана.

Доходы от «Контракта века» и других нефтегазовых проектов, разработанных совместно с BP и другими иностранными компаниями, дали Азербайджану возможность выступить с новыми инициативами в области транспорта-логистики для интеграции в мировую экономику. Строительство железной дороги Баку-Астара-Рашт, соединяющей Северную Европу с Юго-Восточной Азией; завершение строительства железной дороги Баку-Тбилиси-Карс; запуск международного морского порта Алат на Каспии превратили Азербайджан в важный транзитный узел для перевозки грузов между Азией и Европой. Азербайджан участвовал в перевозке грузов в направлениях Север-Юг и Восток-Запад по кратчайшему пути и самой низкой цене. Важное значение имело укрепление связей Азербайджана с ЕС.

В целом, с подписанием «Контракта века» на основе сотрудничества с международными компаниями была реализована нефтяная стратегия Гейдара Алиева. В свою очередь, реализация политики, основанная на этой стратегии, обеспечивало укрепление международных позиций независимой Азербайджанской Республики. Азербайджанское государство, эффективно используя энергоресурсы Каспия, за очень короткое историческое время добилось социально-экономического возрождения страны. Реализуя проекты международного значения, она стала страной, способствующей энергетической безопасности Европы. Благодаря политической воле и финансовым средствам Азербайджана и Турции, был реализован проект Южного газового коридора. Все это стало показателем влияния Азербайджанского государства на международной арене. [4,с.460] Таким образом, благодаря избранной Гейдаром Алиевым нефтяной стратегии, международный авторитет независимой Азербайджанской Республики укрепился. Азербайджан расширил политическое и экономическое сотрудничество со странами мира. Экономика республики уверенно развивалась, были созданы финансовые ресурсы, необходимые для защиты стратегических интересов. Азербайджан стал полноправным членом семьи ООН. Республика заняла достойное место среди стран мира.

## Литература


1. Azərbaycan-Böyük Britaniya: Əməkdaşlıq və tərəfdaşlıq (1999-2001). - Bakı, Əbilov, Zeynalov və oğulları, 2001. - 449 s.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). - Bakı, “Poliart” MMC, 2017. - 904 s.
3. Алескеров В. Каспий – море сотрудничества. - Баку: Каспианэнержи, 1999. №2.
4. Əliyev İ.Ə., Həsənov H.Ə., MuradvediyevA.Ş. Azərbaycan nefti dünya siyasətində. 5 cilddə. lV cild. -Bakı: Azərbaycan, 1997.478 s.



## XÜLASƏ
## "ƏSRİN MÜQAVİLƏSİ" VƏ AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNƏ TƏSİRİ

***Həsənova Ə.A***

***Açar sözlər:*** *xarici siyasət, neft, beynəlxalq münasibətlər, neft siyasəti, Azərbaycan iqtisadiyyatı, xarici iqtisadi münasibətlər.*

20 sentyabr 1994-cü ildə xarici ölkələrin neft şirkətləri ilə "əsrin müqaviləsi" nin imzalanması müstəqil Azərbaycanın ilk böyük xarici iqtisadi və siyasi uğuru oldu. Dünyanın aparıcı neft şirkətləri ilə əməkdaşlıq Azərbaycan Respublikasının beynəlxalq mövqeylərinin möhkəmləndirilməsi üçün əlverişli şərait yaratmışdır. Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək çox qısa tarixi müddətdə beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Məqalədə Azərbaycanın neft siyasəti sahəsində tərəfdaşlarla əməkdaşlığının, eləcə də onun beynəlxalq nüfuzunun möhkəmlənməsinə təsirinin aspektləri müzakirə olunur.

**SUMMARY**
**"CONTRACT OF THE CENTURY" AND ITS IMPACT ON THE FOREIGN POLICY OF THE AZERBAIJAN REPUBLIC**
***Hasanova A.A***

***Keywords:*** *foreign policy, oil, international relations, oil policy, Azerbaijani economy, foreign economic relations.*

The signing of the "Contract of the Century" with oil companies of foreign countries on September 20, 1994 was the first major foreign economic and political success of independent Azerbaijan. Cooperation with the world's leading oil companies has created favorable conditions for strengthening the international position of the Republic of Azerbaijan. By strengthening its independence and statehood, Azerbaijan has taken a worthy place in the international arena in a very short historical period. The article examines the aspects of the impact of Azerbaijan's cooperation with partners in the field of oil policy, as well as on strengthening its international authority.

# AZƏRBAYCANIN LIDERLIK NÜMUNƏSI –"CƏNUB QAZ DƏHLIZI LAYIHƏSI"

**Mədədzadə Könül Mahir qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*
konul.madadzada@sdu.edu.az

***Açar sözlər:*** *təbii qaz, layihə,konsorsium,strategiya*

***Xülasə.*** *Tədqiqat işində Azərbaycanın təbii qaz layihələri barədə məlumat verilir. Qeyd olunur ki, Azərbaycanın neft siyasəti ilə yeni təbii qaz strategiyası ölkənin Cənubi Qafqaz və Xəzər regionunda geosiyasi statusunu yüksəltdi. Yeni Azərbaycan indi dünyanın neft mərkəzlərindən biri və Asiya, Qafqaz və Avropadan keçən axın zolağında bir arteriya kimi qurulmuşdur.*

Dünyanın ən böyük qaz yataqlarından biri - "Şahdəniz" ötən əsrin ortalarında Azərbaycan geoloqları tərəfindən kəşf edilmişdir. Lakin lazımi texnologiya olmadığına görə yatağın istismarı dayandırılmış, potensialı müəyyən edilməmişdir. 1996-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və beynəlxalq neft şirkətləri tərəfindən yaradılmış konsorsium qaz yatağında böyük ehtiyatlar aşkar etmiş və nəticə gözləntiləri üstələmişdir. Yatağın 1 trilyon kubmetr qaz ehtiyatına malik olduğu təxmin edilir və o, dünyada bir neçə nəhəng qaz yataqlarından biri hesab olunur. Sonrakı illərdə "Ümid" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz yataqlarına malik olduğunu təsdiqlədi. Azərbaycanın təbii sərvətləri tarixində yeni səhifə açdı.2011-ci ildə Azərbaycan və Avropa Komissiyası arasında "Cənub Qaz Dəhlizi" layihəsi üzrə Birgə Bəyannamə imzalanıb və bu, layihənin ilkin mərhələsi olub. [1]

"Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsinə başlamaq üçün konsorsiumun üzvləri 2013-cü il dekabrın 17-də Bakıda daha bir tarixi qərar qəbul etmişlər. Heydər Əliyev Mərkəzində bir sıra ölkələrin rəsmi nümayəndələrinin iştirakı ilə imzalanma mərasimi keçirildi. 2023-cü ilin üçüncü rübünün sonunadək "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsinin həyata keçirilməsinə yekun investisiya qərarından əvvəl çəkilmiş xərclər də daxil olmaqla, təxminən 22 milyard dollar xərclənmişdir.

"Cənub Qaz Dəhlizi" ideyası Azərbaycanın qətiyyəti və liderliyi sayəsində reallığa çevrildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 oktyabr 2013-cü il tarixdə "Cənub Qaz Dəhlizi" layihəsində Azərbaycanın maraqlarının müdafiəsi və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam imzalamışdır.

2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə - dövlət və hökumət başçılarının, Cənub-Şərqi Avropa ölkələrinin nazirlərinin, dövlət başçılarının, beynəlxalq şirkətlərin iştirakı ilə Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimi Səngəçalda keçirilmişdir. Azərbaycan strateji əhəmiyyətli Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı, səhmdarı və ev sahibi ölkəyə çevrilmişdir. Təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan qoşulmuş, daha sonra onları İtaliya,

Yunanıstan, Bolqarıstan və Albaniya izləmişdir. Azərbaycan artıq öz qazını qonşu ölkələrə ixrac edir və onun Avropa bazarına ixracına başlamaq üçün yeni boru kəmərləri tikilmişdir.

Tarixi ardıcıllığa nəzər salaq:

- 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz Qaz Boru Kəməri) istismara verilib və Şahdəniz layihəsinin birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilir;

- 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və sonra Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə Azərbaycan və Türkiyə TANAP (Trans-Anadolu Təbii Qaz Boru Kəməri) layihəsini imzaladılar;

-2013-cü ildə "Şahdəniz" konsorsiumu Azərbaycan qazını Avropa bazarlarına çatdırmaq üçün Türkiyə sərhədini İtaliyanın cənubu ilə birləşdirəcək TAP (Trans-Adriatik Boru Kəməri) layihəsini seçdi, kəmərin tikintisi 2020-ci ildə başa çatdırıldı.[3]

Bu layihələr "Şahdəniz" qaz yatağının İtaliyanın cənubu ilə birləşdirilərək Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə imkan verir. 29 may 2018-ci il tarixində Səngəçal terminalında rəsmi açılışı olan Cənub Qaz Dəhlizinin mühüm tərkib hissəsi olan TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzsiz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin kritik komponentlərindən biri olan Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsinin tamamlanmasından sonra "Şahdəniz-2" çərçivəsində kommersiya qazının Türkiyəyə nəqlinə 30 iyun 2018-ci il tarixində başlanıldı. 12 iyun 2018-ci il tarixində Türkiyənin Eskişehir şəhərində TANAP, Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə möhtəşəm mərasim keçirilib. 30 noyabr 2019-cu il tarixində Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində tikintisinin başa çatması münasibətilə TANAP-Avropa bağlantısının rəsmi açılışı olmuşdur.2015-ci ildən etibarən Cənub Qaz Dəhlizi Məşvərət Şurasına üzv ölkələrin nazirlərinin illik iclası keçirilir. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP boru kəməri ilə 31 dekabr 2020-ci il tarixindən etibarən kommersiya təbii qazının nəqlinə başlanılıb. Beləliklə, Azərbaycanın zəngin qaz ehtiyatları şaxələndirilmiş, qısa və təhlükəsiz yollarla Türkiyə və Avropa bazarlarına çatdırılır.[4]

Trans-Adriatik Boru Kəmərinin (TAP) istifadəyə verilməsi ilə artıq Gürcüstan və Türkiyəyə çatan Azərbaycan qazı Bolqarıstan, Yunanıstan və İtaliyaya nəql edilməyə başlandı.2022-ci il iyulun 18-də "Avropa Komissiyası və Azərbaycan Respublikası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Memorandumda qeyd olunan əməkdaşlığın əsas istiqamətlərindən biri də enerji sahəsində əməkdaşlığın ikiqat artırılması və Azərbaycandan Avropaya nəql olunan təbii qazın həcmidir.

25 aprel 2023-cü il tarixində SOCAR ilə Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qaz nəqli operatorları arasında əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu imzalandı. "Həmrəylik halqası" adlanan bu təşəbbüs Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın Avropaya təkmilləşdirilmiş qaz nəqli sistemləri vasitəsilə əlavə qaz tədarükünün artırılması sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır".[2]

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr, təxmini ehtiyatları isə təqribən 3 trilyon kubmetr təşkil edir. Təkcə diqqətəlayiq "Ümid" yatağı 200 milyard kubmetrə yaxın potensiala malikdir və Azərbaycanı növbəti əsrdə karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı kimi yerləşdirir. "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" layihələrinin operatoru BP ilə birlikdə "ACG Future Gas" layihəsinin və "Şəfəq-Asiman" qaz yatağının işlənməsi üzrə işlər aparılır. 2023-cü ilin iyul ayından etibarən qaz potensialı 300 milyard kubmetrdən çox olan "Abşeron" yatağından ilk qaz və kondensat hasil edilib. Bu layihə Xəzər dənizində ilk məsafədən idarə olunan platforma kimi tarixə düşmüşdür. 2023-cü ilin avqustunda "Abşeron" qaz-kondensat yatağındakı 30% payın Birləşmiş Ərəb Əmirliklərinin ADNOC şirkətinə satışına dair müqavilə imzalanıb. Bu, şirkətin öz hüdudlarından kənarda həyata keçirdiyi yuxarı layihəyə ilk investisiyasıdır.2023-cü ilin avqustunda "Şahdəniz" yatağından 200 milyardıncı kubmetr qaz hasil edilib. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə İğdır-Naxçıvan qaz

kəmərinin təməlqoyma mərasimi keçirilmiş, 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulan bu kəmər Naxçıvanın qaz təminatına öz töhfəsini verəcək.[1]

Bu da Azərbaycanın enerji sahəsində məqsədyönlü fəaliyyətinin ölkəni regional enerji qovşağına çevirməsi deməkdir.

## Ədəbiyyat


1. https://president.az/en/pages/view/azerbaijan/contract
2. Azərbaycan Respublikası Energertika Nazirliyi https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196
3. https://www.sgc.az/az/layihe/tap
4. https://www.socarmidstream.az/az/project/tanap/



**SUMMARY**

**EXAMPLE OF AZERBAIJAN'S LEADERSHIP - " SOUTHERN GAS PROJECT"**

***Madadzadeh K.M.***

***Keywords:*** *natural gas, project, consortium, strategy*

The research work provides information about Azerbaijan's natural gas projects. It is noted that Azerbaijan's oil policy and new natural gas strategy raised the country's geopolitical status in the South Caucasus and Caspian region. Modern Azerbaijan is now established as one of the oil centers of the world and an artery in the flow belt through Asia, the Caucasus and Europe.



**РЕЗЮМЕ**

**ПРИМЕР ЛИДЕРСТВА АЗЕРБАЙДЖАНА-ПРОЕКТ"ЮЖНЫЙ ГАЗОВЫЙ КОРИДОР"**

***Мададзаде К.М.***

***Ключевые слова:*** *природный газ, проект,консорциум,стратегия*

В статье представлена информация о газовых проектах Азербайджана. Отмечается, что новая газовая стратегия с нефтяной политикой Азербайджана повысила геополитический статус страны на Южном Кавказе и в Каспийском регионе. Новый Азербайджан сейчас строится как один из мировых нефтяных центров и артерия в полосе потока через Азию, Кавказ и Европу.


# "ƏSRİN MÜQAVİLƏSİ"NİN AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ


**Həbibbəyli Samirə İlham qızı**

*Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan*

samira.habibbayli@gmail.com



***Açar sözlər:*** *Azərbaycan Respublikası, Gürcüstan, "Əsrin müqaviləsi", enerji layihələri, Bakı-Tbilisi-Ceyhan.*



***Xülasə.*** *Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən etibarən Azərbaycanın inkişafının açarı olan neft strategiyasını müəyyənləşdirdi və karbohidrogen ehtiyatları dövlətin milli maraqlarına uyğun şərtlərlə dünya bazarlarına çıxaracaq "Əsrin Müqaviləsi"nin imzalanmasına nail oldu.*

*Müqavilənin imzalanmasından sonra nəql üçün ən uyğun marşrutun seçilməsi uğrunda gərgin mübarizə başladı. Azərbaycanın siyasi və milli maraqlarına cavab verən marşrut kimi Azərbaycan – Gürcüstan-Türkiyə marşrutu seçildi.*

*"Əsrin müqaviləsi"nin imzalanmasından sonra həyata keçirilən enerji layihələri Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq münasibətlərinə yüksəlməsində həlledici rol oynadı.*


Məlum olduğu kimi Azərbaycan Respublikası müstəqilliyin ilk illəri çətin və keşməkeşli daxili və xarici vəziyyətlə sınanmaqdaydı. SSRİ-nin süqutu və Ermənistanın hərbi təcavüzü

iqtisadiyyatın tənəzzülə uğramasına səbəb olmuşdu. Ayaz Mütəllibov iqtidarı ilə Azərbaycan Xalq Cəbhəsi arasındakı qarşıdurma hakimiyyət mübarizəsinə çevrilmişdi. Sadalanan səbəblər dövlətin daxili və xarici siyasi fəaliyyətinin effektiv təşkilinə mane olurdu.

Xalqın tələbi ilə 1993-cü ilin iyunun 15-də yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev dövlət müstəqilliyininin xilaskarı oldu. Aktiv döyüşlər dayandırıldı, atəşkəs elan edildi, daxili və xarici siyasətin nizama salınması, sabitlik və əmin-amanlığın bərpası üçün əhəmiyyətli addımlar atıldı. O, Ali Sovetin Sədri seçildikdən sonra verdiyi ilk bəyanatda Azərbaycanın gələcək inkişafı üçün müəyyənləşdirdiyi strategiyanı açıqladı, iqtisadi inkişafa nail olmaq üçün planlaşdırdığı yol xəritəsinin konturlarını bu sözlərlə cızmış oldu:

*"Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam edəcəkdir.*[8 c.1, s.10]

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən etibarən Azərbaycanın inkişafının açarı olan neft strategiyasını müəyyənləşdirdi və onun həyata keçirilməsi yolunda xüsusi əzmkarlıqla mübarizə apararaq karbohidrogen ehtiyatları dövlətin milli maraqlarına uyğun şərtlərlə dünya bazarlarına çıxaracaq "Əsrin Müqaviləsi"nin 1994-cü ildə imzalanmasına nail oldu. [12]

Danışıqlar prosesi boyunca Heydər Əliyevin bütün fəaliyyətinin mərkəzində ümdə bir məqsəd dururdu və o, amalını bu sözlərlə ifadə edirdi :

*"Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir". [12]*

1994-cü il sentyabr ayının 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə 6 ölkədən olan 10 şirkət arasında Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında müqavilə imzalandı. [12]

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra həll edilməli olan ən mühüm məsələ tranzit xətti üçün ən uyğun marşrutun müəyyən edilməsi idi. Gürcüstan-Abxaziya və Cənubi Osetiya münaqişələri səbəbindən bəzi problemlərin yaranma ehtimalına baxmayaraq, Gürcüstan marşrut olaraq Azərbaycan üçün ən uyğun seçim kimi görünürdü. Gürcüstanın tranzit ölkə kimi seçilməsinin səbəbləri bunlar idi:

- Hələ çar Rusiyası dövründə Azərbaycan neftinin daşınması Gürcüstan üzərindən həyata keçirilirdi.
- Qərb şirkətləri "Əsrin Müqaviləsi"nin tranzit ölkə kimi Gürcüstanın seçilməsinə maraq göstərirdilər.
- Boru kəmərinin Gürcüstan tranzit olmaqla Azərbaycan və Türkiyəni birləşdirəcək olması dövlətin siyasi və milli maraqlarına uyğun idi.

Tranzit ölkələrin müəyyənləşdirilməsinin ardından "əfsanənin reallığa çevrilməsi" üçün hüquqi bazanın formalaştırılmasına start verildi. Bu məqsədlə Heydər Əliyev 1996-cı ilin martında Gürcüstana səfər etdi. Səfərin gündəliyindəki əsas məsələ Gürcüstandan keçəcək ilkin neft boru kəməri barədə razılıq əldə edilməsi idi. [9, c.5, s.204] Martın 8-də ABƏŞ, Gürcüstan Beynəlxalq Neft Korporasiyası və ARDNŞ arasında hələ Azərbaycan Demokratik Respublikası dövründə fəaliyyət göstərmiş "Bakı – Batum boru kəmərinin tikintisi və istismarı, Batumdan Supsa limanına neft kəmərinin tikintisinə dair Saziş" imzalandı. Bu razılaşma Azərbaycan neftinin Qərbə doğru axmasına imkan yaradacaqdı.

Sazişin bağlanması Azərbaycanın və Gürcüstanın təzyiqlərə, hətta təhdidlərə baxmayaraq müstəqil siyasət yeritdiklərini və azad qərarlar verə bildiklərini də təsdiq etmiş oldu. Sənədin imzalanması ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və genişləndirilməsində böyük rol oynadı. 833 km uzunluğa malik olan xətdə 1997-ci ildə bərpa-tikinti işlərinə başlanıldı. [17] Bakı-Supsa ilkin neft ixrac boru kəməri barədə razılaşmanın əldə edilməsi ilə dərinləşən münasibətlər məşğulluğun təmin edilməsi, əhalinin rifah halının yüksəldilməsi, infrastrukturun müasirləşdirilməsi və yenilənməsi istiqamətində əhəmiyyətli işlərin görülməsinə imkan yaratdı. 1998-ci ildə tutumu 400 000 ton olan Supsa terminalı tikildi. [16]

Bakı-Supsa boru kəməri 1999-cu ilin aprelində fəaliyyətə başladı. Həmin gün Supsa terminalının da açılışı baş tutdu. Açılışlar münasibətilə Gürcüstanda 1999-ci il aprelin 17-də təntənəli tədbirlər keçirildi. [1, s.7] Azərbaycan və Gürcüstan prezidentləri ilə yanaşı Ukrayna Prezidenti Leonid Kuçma da açılış mərasimlərində iştirak edirdi.

İlkin ixrac marşrutları barədə razılıqların əldə edilməsinin ardından əsas marşruta dair müzakirələr intensivləşdi. 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri arasında Türkiyə Cümhuriyyətinin Trabzon şəhərində keçirilmiş görüşdə əsas ixrac neft kəmərinin məhz Bakı – Tbilisi – Ceyhan kəməri olması barədə razılığı gəlindi. [5] 1998-ci il oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisində Xəzər regionunun karbohidrogen ehtiyatlarının, ələlxüsus Azərbaycan neftinin daşınması üçün Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinə dair qərarlılığı ortaya qoyan "Ankara Bəyannaməsi"nin imzalanması layihəyə dair sual işarələrinin üzərindən xətt çəkdi, dövlətlərin qətiyyətini ortaya qoydu. [13]

2000-ci ilin fevralında İstanbulda Azərbaycan, Türkiyə, Gürcüstan və ABŞ nümayəndələri arasında danışıqların növbəti mərhələsi keçirildi. Bu görüş Gürcüstanla sərmayəçilər arasında müqavilənin mətninin razılaşdırılması ilə başa çatdı. Ancaq tranzit statusu almış Gürcüstan, əvvəlcədən müəyyənləşdirilmiş tranzit tariflərinin yetərli olmadığını səbəb göstərərək yekun sazişə imza atmadı. Bu problem Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasi iradəsi hesabına həllini tapdı. Belə ki, 2000-ci il martın 22-23-də prezidentin Gürcüstana rəsmi səfəri gedişatı müsbət istiqamətdə dəyişdi. Dövlət başçıları arasında keçirilmiş təkbətək və geniş tərkibli görüşlərdə razılaşma əldə olundu, Azərbaycan tərəfinin tranzit tarifi haqlarında Gürcüstan tərəfinə güzəştə getməsilə danışıqlar yenidən bərpa edildi.

Gürcüstan istəyinə nail olduqdan sonra proseslər sürətləndi. ABŞ Dövlət Departametində 2000-ci il aprelin 28-də Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndələri arasında layihəyə dair yekun sənəd imzalandı. [15, c.1, s.343]

Layihənin Azərbaycan hissəsinin açılışı 2005-ci il mayın 25-də baş tutdu, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin doldurulmasına başlandı. [3, s.258] Kəmərin Gürcüstan hissəsinin rəsmi açılışı isə 2005-ci il oktyabrın 12-də bu ölkənin Qardabani rayonu ərazisində gerçəkləşdi. [4 ]

2006-cı il mayın 28-də Azərbaycan tarixinin müasir dövrünün ən mühüm hadisələrindən biri olan Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri tamamlanaraq istifadəyə verildi, əsas ixrac neft boru kəməri ilə axan neft Ceyhan limanına çatdı. [6] Beləliklə, "Əfsanə" reallığa çevrildi və neft kəməri Xəzər dənizi ilə Aralıq dənizini birləşdirmiş oldu. [18]

Layihədə tranzit ölkə kimi çıxış edən Gürcüstan böyük iqtisadi və siyasi mənfəət qazandı. Təsadüfi deyil ki, Mixael Saakaşvili verdiyi müsahibələrin birində Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərini Gürcüstan üçün "həyat yolu" adlandırmışdı. [1, s.19]

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərin açılmasının Gürcüstan üçün bir sıra əhəmiyyətli nəticələri oldu. [14, s.663]

Mənbəyinin "Əsrin müqaviləsi" olduğu enerji sahəsində Azərbaycan – Gürcüstan əməkdaşlığının ən əhəmiyyətli qollarından biri Bakı – Tbilisi – Ərzurum qaz kəməri layihəsidir. Bu yatağın xarici şirkətlərlə birlikdə istismarını nəzərdə tutan hasilatın bölgüsünə dair razılaşma 1996-cı il iyunun 4-də Bakıda imzalanmışdı. [2, s.775-776] Gürcüstan Prezidenti Eduard Şevardnadze 2001-ci il sentyabrın 29-da Bakıda rəsmi səfərdə olarkən "Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından hasil edilən qazın Bakı–Tbilisi–Ərzurum marşrutu ilə nəqlinə dair Saziş" imzalandı. [10, c.36, s.90]

2004-cü il oktyabrın 16-da Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirildiyi gün Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisinə başlanıldı. [19] Tikintisi iki il ərzində həyata keçirilən qaz kəməri ilə Gürcüstana 2006-cı ildən, Türkiyəyə isə 2007-ci ildən qaz ixracına başlanıldı. [20]

Şahdəniz Mərhələ 2" çərçivəsində hasil edilən qazı Avropaya çatdıran 3500 km. uzunluğundakı Cənub Qaz Dəhlizi layihəsi Azərbaycan Respublikası – Gürcüstan enerji əməkdaşlığının sütunlarından hesab edilə bilər. [7]

Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq münasibətlərinə yüksəlməsindəki əsas rol "Əsrin müqaviləsi"nin imzalanmasından sonra həyata keçirilən enerji layihələrinə məxsusdur.

## Ədəbiyyat


1. Arıxov, C. Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığında neft amili / C.Arıxov. – Bakı: Qanun, – 2008. – 25 s.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri(1991-2016) (məqalələr toplusu) / –Bakı: Poliart MMC, – 2017. –904 s.
3. Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi, 2005 [Birinci hissə] / Bakı: Garisma MMC, – 2009. – 648 s.
4. Azərbaycanın neft və qazının dünya bazarlarına nəqli [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. – ist.tar. Oktyabr 15, 2020. URL:https://files.preslib.az/projects/centurycontract/gl3.pdf
5. Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri Heydər Əliyev diplomatiyasının və yeni neft strategiyasının mühüm qələbəsi idi. [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi. – İyul 12, 2012. URL:https://azertag.az/xeber/Baki_Tbilisi_Ceyhan_esas_ixrac_boru_kemeri_Heyder_Aliyev_diplomatiyasinin_ve_yeni_neft_strategiyasinin_muhum_qelebesi_idi-179726-
6. Bakı-Tbilisi-Ceyhan (BTC) ixrac boru kəməri: xronika (sentyabr 1994-iyul 2006) [Elektron resurs] / Azərbaycan neftinin dünya bazarlarına nəqli. – 393 s., s.34. URL: https://files.preslib.az/site/10il/gl3.pdf
7. Blank, S. Azerbaijan's Security and U.S. İnteresrs:Time for a Reassessment / S.Blank. Singapore: Central Asia-Caucasus Institute & Silk Road Studies Program, – 2013. – 71 p.
8. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. – 1997. – 608 s.
9. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.5. – 1998. – 500 s.
10. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.36. – 2011. –512 s.
11. Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [111 cilddə] / İ.Əliyev. – Bakı: Azərnəşr, –c.10. – 2012. – 408 s.
12. Əsrin müqaviləsi [Elektron resurs] / Azərbaycan Respublikası Energetika Nazirliyi– Yanvar 31, 2020. URL: https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
13. Hekimoğlu, M.M. Bakü – Tiflis – Ceyhan Boru hattı projesinin hukuki boyutları // – Bilig, – 2012. №63, – s.77-92
14. Həsənov, Ə. Azərbaycanın geosiyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD MMC, –2015. – 1056 s. 153
15. Qasımlı, M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003):[2 hissədə. I hissə] / M.Qasımlı. – Bakı: Mütərcim, – 2015. – 648 s.
16. Qərb marşrutu. [Elektron resurs] / Azərbaycan neftinin dünya bazarlarına nəqli . s.14. URL: http://files.preslib.az/site/10il/gl3.pdf
17. Nəql Bakı-Supsa QİBK [Elektron resurs] / SOCAR. – İst.tar. Aprel 26, 2021. URL: http://www.socar.az/socar/az/activities/ transportation/ baku-supsa-western-export-pipeline
18. The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West / ed. S. F. Starr, S.E.Cornell – Sweden: – 2005. – 152 p.
19. Tsereteli, M. Azerbaijan and Georgia:Strategic Partnership for stability in a volatile region / M.Testereli, Central Asia-Caucasus İnstitute and Silk Road Studies Progrm, –2013. – 61 p.
20. Yaqubzadə, M. "Şahdəniz-2" layihəsi Azərbaycanın ixrac imkanlarını xeyli artıracaq [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. – 393s., s.345-347. – URL:https://files.preslib.az/site/10il/gl3.pdf

**SUMMARY**
**THE IMPACT OF THE ”TREATY OF THE CENTURY" ON AZERBAIJANI-GEORGIAN RELATIONS**
***Gabibbeyli S.I.***

***Keywords:*** *Republic of Azerbaijan, Georgia, “Contract of the Century”, energy projects, Baku-Tbilisi-Ceyhan.*

From the first days of his return to power, Heydar Aliyev defined the oil strategy as the key to Azerbaijan's development and succeeded in signing the "Contract of the Century," which aimed to bring the country's hydrocarbon resources to world markets under conditions aligned with the nation's interests.

After the signing of the contract, an intense struggle began to select the most suitable route for transportation. The route that best served Azerbaijan's political and national interests was chosen Azerbaijan-Georgia-Türkiye.

The energy projects implemented after the signing of the "Contract of the Century" played a decisive role in elevating the Azerbaijan-Georgia relationship to a strategic partnership.

**РЕЗЮМЕ**
**ВЛИЯНИЕ”ДОГОВОРА ВЕКА " НА АЗЕРБАЙДЖАНО-ГРУЗИНСКИЕ ОТНОШЕНИЯ**
***Габиббейли С.И.***

***Ключевые слова:*** *Азербайджанская Республика, Грузия, “Контракт века”, энергетические проекты, Баку-Тбилиси-Джейхан.*

С первых дней своего возвращения к власти Гейдар Алиев определил нефтяную стратегию, которая является ключом к развитию Азербайджана, и добился подписания “договора века”, который выведет запасы углеводородов на мировые рынки на условиях, отвечающих национальным интересам государства. После подписания договора началась напряженная борьба за выбор наиболее подходящего маршрута для перевозок. В качестве маршрута, отвечающего политическим и национальным интересам Азербайджана, был выбран маршрут Азербайджан – Грузия-Турция. Энергетические проекты, реализованные после подписания”договора века", сыграли решающую роль в превращении азербайджано – грузинских отношений в отношения стратегического партнерства.

# ƏSRİN MÜQAVİLƏSİNİN AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏKİ MÖVQEYİNDƏKİ ROLU

**Muradova Könül Vaqif qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
konul.muradova.73@mail.ru

***Açar sözlər:*** *enerji siyasəti, beynəlxalq, status, müqavilə*

***Xülasə.*** *Konfrans materialında Azərbaycanın enerji siyasəti, onun beynəlxalq sahədə rolu və mövqeyi qeyd olunmuşdur. Bildirilir ki,Azərbaycanın beynəlxalq münasibətlərdə mövqeyi Xəzərin statusu məsələsi, erməni lobbiçiliyinin ölkəmizə qarşı fəaliyyətlərinin qarşısının alınması və 30 ilə yaxın bir zamanda ölkə ərazisinin bütövlüyünün qorunması, yəni, Dağlıq Qarabağ məsələsi olmuşdur. Adları çəkilən hər bir məsələnin həll olunmasında əsası Əsrin Müqaviləsi ilə qoyulan ölkəmizin enerji siyasətinin rolunun olması tədqiqat işində vurğulanmışdır.*

Giriş. Məlum olduğu kimi Azərbaycan Xalq Cümhuriyyətinin varisçisi sayılan Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdi və müstəqilliyini möhkəmləndirdi. O, dərhal tanınması üçün diplomatik təşəbbüslərə başladı. Azərbaycan dövlət olaraq BMT-yə üzv olmuş, ölkəyə ərazi bütövlüyü üzrə xaricilərin dəstəklədiyi separatçı hərəkatlar tərəfindən təhdid formalaşmışdı. Daxili qeyri-sabitlik və separatçı hərəkatların olması ölkənin zəngin enerji ehtiyatları ilə bağlı idi. [2.s.36-49.]Azərbaycan neft və təbii qaz ehtiyatlarının idarə olunması üzrə mümkün qədər tez qərarlar verməli, düzgün siyasət yetirməli idi. Ölkədə daxili sabitliyi təmin etmək üçün xarici dövlətlərə məxsus şirkətlərin dəstəyin təmin edilməsi Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyinin güclənməsi üzrə əsas məqsəd idi. Bu enerji siyasətinə - neft ehtiyatlarının bölüşdürülməsi və resursların beynəlxalq bazara çıxarılması, boru kəmərlərinin marşrutunun müəyyən edilməsində qonşuların təzyiqi ilə bağlı görüşlər həyata keçirildi.Neft müqavilələri imzalandıqdan sonra neft Azərbaycanın xarici bazarlarına çıxarıldı. Siyasi problemlərin həlli yollarının axtarışında mühüm

rol oynadı. Azərbaycanın müttəfiq ölkələrlə siyasi əlaqələri,iqtisadi və hərbi əlaqələrin inkişafına imkan verən enerji də siyasət sahəsində müəyyən problemlərin yaranmasına,eyni zamanda həllinə yol açırdı. Xüsusilə "Əsrin müqaviləsi" ilə yeni proses başlamış və günümüzdə də bu proses davam etməsinin şahidiyik.[1.s. 28-34]

Daha sonra Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyini təhlil edək. Birinci olaraq, Xəzərin statusu məsələsi vurğulanmalıdır. Xəzər 423.300 km2 sahəsi ilə dünyanın ən böyük daxili su örtüyüdür. Suyun həcmi 80 000 m3, suyun səviyyəsi -28 m-dir. Uzunluğu 1050 km, eni 196-435km. Ən dərin hissəsi 1098 m, orta dərinliyi isə 180 m-dir. Çox az su duzludur. Duzluluq dərəcəsi 0,13% təşkil edir. Xəzər dənizinə 130-a yaxın irili-xırdalı çay və çay axır. Volqa, Kür, Terek, Ural, Emba, Atrek, Quqan çayları ilə qidalanır. Xəzər dənizinə qarışan bu çayın suyunun 80%-i Volqa çayının suyudur. Xəzərdə 50 ada olsa da, son 30 ildə dəniz səviyyəsi 2,5-2,6 metr qalxıb. Su axınının artması səbəbindən adaların çoxu su altında qalmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici siyasətin mühüm məsələsindən biri Xəzərin statusunun müəyyənləşdirilməsi idi. ən önəmli razılıqlardan biri olan Azərbaycan və Rusiya arasında dəniz dibinin bölünməsi ilə bağlı 23-sentyabrın 2002-ci idə müqavilə imzalanmışdır:

• Azərbaycan və Qazaxıstan arasında dəniz dibi 29 noyabr 2001-ci il bölünmə haqqında saziş və 27 fevral 2003-cü il əlavə protokol.

• Azərbaycan-Qazaxıstan-Rusiya arasında dəniz dibi 14 may 2003-cü il bölünməsi haqqında saziş.

• Xəzər dənizinin ətraf mühitinin qorunmasına dair: Noyabr 2003-cü il Tehran Çərçivə Konvensiyası.[3. s.20.]

2002-ci il mayın 13-də Moskvada dövlət başçıları səviyyəsində Xəzər dənizin şimal hissəsinin dibi yeraltı sulara hakim olmaq hüququna malik olması məqsədi ilə sərhədlərin ayrılması haqqında 1998-ci il Rusiya-Qazaxıstan müqaviləsinə protokol əlavə edərək imzalamışlar. Rusiya və Qazaxıstanın yeraltı suları zonasında protokolla müəyyən edilmiş demarkasiya ilə həmin ərazinin ortasında qurulan neft-qaz strukturlarının 50 ilə 50 nisbəti ilə orta xəttin keçidi təyin olunmuşdur. Tərəfdaşlığın qəbulu üçün şərtlər müəyyən edilmiş və müqavilə tərəflər tərəfindən təsdiq edilmiş və 2003-cü ilin may ayında qüvvəyə minmişdir. Azərbaycan, Qazaxıstan və Rusiya arasında üçtərəfli və ikitərəfli sazişlər imzalanmış, Xəzərin Şimal hissəsinin dibi ortaq oldu və bu problem aradan qaldırıldı.[3.s.109]

Ölkəmizin beynəlxalq arenada növbəti mövqeyi olaraq ərazi bütövlüyünün həlli istiqamətində baş verən bütün prosesləri –Vətən müharibəsini vurğulamalıyıq. Sözsüz ki, 30 ilə yaxın işğal altında olan torpaqlarının azadlığa çıxarılmasında ölkənin xarici siyasətinin mühüm , prioritet məsələsi olan enerji siyasəti də durmaqdadır.

Nəticə. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" daha sonra ATƏT-in İstanbulda keçirilən Zirvə toplantısında 1999-cu ildə imzalanmış BTC Sazişi, 2006-cı ildə imzalanmış Rusiyanın təbii qazdan siyasi alət kimi istifadə etməsi, Azərbaycan enerji siyasətlərində dönüş nöqtəsi hesab oluna bilər. Əsrin müqaviləsi ilə dünyaca məşhur neft şirkətləri və eləcə də dövlətlərin maraqları ölkəyə cəlb olundu, eyni zamanda BTC Sazişi və onun açılışı ilə həll olundu. Azərbaycan nefti dünya bazarına təsir etmək iqtidarında olmuş, Rusiyanın təbii qazdan siyasi alət kimi istifadə etməsi, Avropa ölkələrində ikinci "1971 Neft Böhranı Şoku" yaratmış və Azərbaycan təbii qazını Avropaya daşıyan enerji layihələri müstəqillik əldə etdikdən sonra Azərbaycanın iqtisadiyyat və siyasətin birləşdiyi coğrafiyaya çevrilməsindən xəbər verir.

### Ədəbiyyat


1. Mollazadə, Ceyhun. "Azerbaijan and The Caspian Basin: pipelines and Geopolitics" The Journal Of Post Soviet Demokratization. Volume, 6, Number. Winter 1998
2. Musabəyov, Rasim. "Müstegillik Şeraitinde Azerbaycan Elitasının Transformasiyası ve Bakı. Siyasi Partiyaların Teşekkülü". Müstegilliyimizin On İlliyi. Azerbaycan Namine İctimai Forum. 2003.
3. Nəsibli, Nəsib. "Doğu Batı Ekseninde Azerbaycan", Stratejik Analiz, 2001.

**SUMMARY**
**THE ROLE OF THE CONTRACT OF THE CENTURY IN AZERBAIJAN'S POSITION IN INTERNATIONAL RELATIONS**
***Muradova K.V.***

***Key words:*** *energy policy, international, status, agreement***.**

The energy policy of Azerbaijan, its role and position in the international field were mentioned in the conference material. It is reported that Azerbaijan's position in international relations has been the issue of the status of the Caspian Sea, the prevention of Armenian lobbying activities against our country, and the protection of the integrity of the country's territory, that is, the issue of Nagorno-Karabakh. The role of our country's energy policy, which is based on the Contract of the Century, has been emphasized in the research.

**РЕЗЮМЕ**
**РОЛЬ СОГЛАШЕНИЯ ВЕКА В ПОЗИЦИИ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ**
***Мурадова К.В.***

***Ключевые слова:*** *энергетическая политика, международный статус, соглашение***.**

В материалах конференции была упомянута энергетическая политика Азербайджана, ее роль и положение на международной арене. Сообщается, что позицией Азербайджана в международных отношениях являются вопросы статуса Каспийского моря, предотвращения лоббистской деятельности Армении против нашей страны, защиты целостности территории страны, то есть вопрос Нагорного Карабаха. Карабах. В исследовании подчеркнута роль энергетической политики нашей страны, основанной на «Контракте века».

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏT STRATEGİYASI

**Quliyeva Cahan Niftalı qızı-** müəllim,
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan*
cahan.quliyeva0901@mail.ru

***Açar sözlər:*** *strategiya, region, beynəlxalq, neft, maliyyə, sahibkarlıq*

***Xülasə.*** *Heydər Əliyev ölkənin müstəqillik dövründə xarici siyasətində mühüm rol oynamışdır. Onun xarici strategiyası bir neçə əsas prinsiplər və istiqamətlər üzərində qurulmuşdur. Əliyev Azərbaycanın müstəqilliyinin qorunması və gücləndirilməsi üçün çalışmışdır. O, bu məqsədlə beynəlxalq arenada Azərbaycanın tanınmasını və dəstək əldə etməsini təmin etməyə çalışırdı. Qarabağ münaqişəsinin ədalətli həlli və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Əliyevin xarici siyasətinin əsas prioritetlərindən biri idi. Bu istiqamətdə o, müxtəlif beynəlxalq təşkilatlar və ölkələrlə iş birliyi aparırdı. H.Əliyev Azərbaycanın iqtisadi inkişafı üçün xarici investisiyaların cəlb olunmasına və beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi.*

**Giriş.** Heydər Əliyevin xarici strategiyası, Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirməyə və müstəqil dövlət kimi inkişafını təmin etməyə yönəlmişdi. Onun rəhbərliyi dövründə Azərbaycan beynəlxalq münasibətlər sistemində öz yerini tutmağa və tanınmağa başladı. 1993-cü ildə Heydər Əliyevin xarici strategiyası Azərbaycanın iqtisadiyyatında əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. O dövrdə Əliyevin əsas məqsədi Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək və beynəlxalq arenada mövqelərini gücləndirmək idi. Onun strategiyasının səmərəliyini göstərən əsas amillərdən bəziləri aşağıdakılardır:

Heydər Əliyev 1994-cü ildə "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsini imzaladı. Bu müqavilə xarici neft şirkətləri ilə əməkdaşlıq qurmaqla Azərbaycanın neft sektoruna milyardlarla dollar sərmayə cəlb etdi və ölkənin neft hasilatının artmasına şərait yaratdı. Heydər Əliyev Azərbaycana xarici investisiyaların cəlb olunmasına xüsusi diqqət yetirdi. Heydər Əliyev 1993-cü ildə Azərbaycanın prezidenti vəzifəsinə gəldikdən sonra ölkənin iqtisadi inkişafı və sabitliyi üçün xarici investisiyaların cəlb edilməsinə böyük önəm verdi. Əliyev, əsasən, neft və qaz sektoruna xarici sərmayələrin cəlb edilməsinə fokuslandı. Bu məqsədlə, o, "Əsrin müqaviləsi" kimi tanınan

neft müqaviləsini imzalayaraq, Azərbaycanın böyük neft yataqlarının işlənməsinə və beynəlxalq enerji şirkətlərinin ölkəyə gəlməsinə şərait yaratdı. Bu investisiyalar ölkənin infrastrukturunun inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına töhfə verdi.Bu strategiya Azərbaycanın iqtisadi inkişafına təkan verdi və ölkəyə milyardlarla dollar məbləğində xarici investisiya cəlb olundu. Əliyevin rəhbərliyi altında, ölkə iqtisadiyyatı stabilləşdi, yeni iş yerləri yaradıldı və Azərbaycanın beynəlxalq arenada mövqeyi gücləndi. Onun bu sahədəki fəaliyyətləri nəticəsində, Azərbaycan regionda strateji əhəmiyyət kəsb edən enerji mərkəzinə çevrildi. [1]

Əliyevin xarici siyasəti Azərbaycanın beynəlxalq aləmdə tanınmasını və siyasi əlaqələrinin genişlənməsini təmin etdi. Bu, ölkənin iqtisadi əlaqələrinin də genişlənməsinə, yeni ticarət tərəfdaşlarının cəlb olunmasına və xarici bazarlara çıxış imkanlarının artmasına səbəb oldu. H.Əliyev Azərbaycanın müstəqilliyini təmin etmək və beynəlxalq arenada mövqeyini gücləndirmək məqsədi ilə çoxsahəli diplomatik fəaliyyətdə olmuşdur. Aşağıda onun dövründə beynəlxalq əlaqələrin gücləndirilməsi sahəsində həyata keçirilən əsas istiqamətlər və nailiyyətləri nəzərdən keçirək:

- ✓ Azərbaycanın müstəqilliyinin dünya ölkələri tərəfindən tanınmasını təmin etmək məqsədilə Heydər Əliyev geniş diplomatik fəaliyyət göstərmişdir.
- ✓ 1992-ci ildə Azərbaycan BMT-yə üzv olmuş və digər beynəlxalq təşkilatlara (ATƏT, İKT, MDB və s.) qoşulmuşdur.
- ✓ Əliyev müxtəlif ölkələrlə ikitərəfli münasibətlərin inkişafına önəm vermiş, bu məqsədlə dövlət və hökumət başçıları ilə bir sıra ikitərəfli görüşlər keçirmişdir.
- ✓ ABŞ, Avropa İttifaqı, Türkiyə, Rusiya, İran və digər dövlətlərlə siyasi, iqtisadi və hərbi sahələrdə əməkdaşlıq müqavilələri imzalanmışdır.
- ✓ Azərbaycan neft və qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün böyük layihələr həyata keçirilmişdir. Bunlardan ən əhəmiyyətlisi 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"dir.
- ✓ Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi beynəlxalq enerji layihələri Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirmişdir.
- ✓ Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində bir sıra diplomatik təşəbbüslər irəli sürmüş, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak etmişdir.
- ✓ Əliyev Azərbaycanın mədəni irsinin və multikulturalizm ənənələrinin beynəlxalq arenada tanıdılması istiqamətində fəaliyyət göstərmişdir.
- ✓ Azərbaycan mədəniyyətinin dünyada təbliği üçün bir sıra beynəlxalq tədbirlər və konfranslar təşkil olunmuşdur.

Heydər Əliyevin beynəlxalq əlaqələrin gücləndirilməsi sahəsində həyata keçirdiyi bu və digər tədbirlər Azərbaycanın dünya arenasında müstəqil, nüfuzlu və etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. [2]

Heydər Əliyev iqtisadiyyatın liberallaşdırılması və bazar iqtisadiyyatına keçid istiqamətində islahatlar həyata keçirdi. Bu islahatlar iqtisadiyyatın müxtəlif sahələrində özəl sektorun inkişafını və rəqabətliliyin artmasını təmin etdi. Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olaraq, ölkənin iqtisadi islahatlar yolunda mühüm addımlar atmışdır. Onun liderliyi altında həyata keçirilən islahatların bəzi əsas məqamlarını aşağıda qeyd etmək olar: Özəlləşdirmə və bazar iqtisadiyyatına keçid: Əliyev dövründə dövlətə məxsus müəssisələrin özəlləşdirilməsi və bazar iqtisadiyyatına keçidə böyük diqqət yetirilmişdir. Bu, iqtisadiyyatın liberallaşmasını və sahibkarlıq fəaliyyətinin genişlənməsini təmin etmişdir. Enerji sektorunun inkişafı: Heydər Əliyev dövründə Azərbaycan neft və qaz sektorunda mühüm layihələrə imza atmışdır. 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” bu sahədə dönüş nöqtəsi olmuş və ölkənin iqtisadiyyatına böyük sərmayələr cəlb etmişdir. Xarici investisiyaların cəlb edilməsi: İqtisadi islahatlar çərçivəsində xarici investorların Azərbaycana marağı artırılmış, investisiya mühiti yaxşılaşdırılmışdır. Bu, xüsusilə enerji sektorunda nəzərəçarpacaq dərəcədə olmuşdur. Maliyyə və

bank sektorunda islahatlar: Heydər Əliyev dövründə maliyyə və bank sektorunun gücləndirilməsi, yeni bankların açılması və maliyyə xidmətlərinin inkişafı istiqamətində tədbirlər görülmüşdür. İnfrastrukturun inkişafı: İnfrastruktur layihələrinə böyük sərmayələr qoyulmuş, yollar, kommunikasiyalar və digər infrastruktur obyektləri yenidən qurulmuşdur. Qanunvericilik islahatları: İqtisadi islahatların hüquqi bazasının möhkəmləndirilməsi məqsədi ilə yeni qanunlar qəbul edilmiş, sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar təkmilləşdirilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu islahatlar Azərbaycan iqtisadiyyatının davamlı inkişafına təkan vermiş, ölkənin beynəlxalq arenada mövqeyini gücləndirmişdir. Regional Layihələrdə İştirak: Azərbaycan regionda bir sıra mühüm layihələrdə iştirak etməyə başladı. Məsələn, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin tikintisi Azərbaycanın regional enerji bazarında strateji əhəmiyyətini artırdı və ölkəyə əlavə gəlirlər gətirdi. Heydər Əliyevin bu strategiyaları nəticəsində Azərbaycan iqtisadiyyatı mühüm inkişaf mərhələsi keçmiş, ölkənin iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmış və Azərbaycan beynəlxalq arenada mühüm tərəfdaş kimi tanınmışdır.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xarici siyasət strategiyası, ölkənin beynəlxalq arenada mövqeyini gücləndirmək və təhlükəsizliyini təmin etmək məqsədinə yönəlmişdir. Heydər Əliyev Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla və dünya dövlətləri ilə əlaqələrini genişləndirmək üçün fəal çalışmışdır. Onun dövründə Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlıq etməyə başlamışdır. Azərbaycanın bu təşkilatlarda fəal iştirakı, ölkənin beynəlxalq nüfuzunu artırdı. Heydər Əliyev, Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması və inkişafında böyük rol oynadı. Onun rəhbərliyi altında ölkə, beynəlxalq səviyyədə etibarlı və aktiv bir tərəfdaş halına gəldi. Əliyevin enerji diplomatiyası, multikulturalizm siyasəti və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsindəki fəaliyyəti, Azərbaycanın müasir dünya arenasında mühüm yer tutmasına şərait yaratdı. Heydər Əliyev Azərbaycanın multikultural dəyərlərini və dini tolerantlığını dünya ictimaiyyətinə çatdırmaq üçün xüsusi diqqət yetirmişdir. Bu siyasət, Azərbaycanın müxtəlif mədəniyyətlər və dinlər arasında körpü rolunu oynamasını təmin etmişdir. [3]

Ulu öndər qonşu dövlətlərlə və region ölkələri ilə əməkdaşlıq münasibətlərini inkişaf etdirmək üçün çalışmışdır. Onun səyləri nəticəsində, Azərbaycan Gürcüstan, Türkiyə, Rusiya və digər region ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyəti dövründə qonşu dövlətlərlə və region ölkələri ilə əməkdaşlığı geniş və hərtərəfli olmuşdur. O, ölkənin xarici siyasətində balanslaşdırılmış və çoxvektorlu yanaşma nümayiş etdirmişdir. Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan və Rusiya arasında münasibətlər sabitləşdirilmiş və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq inkişaf etdirilmişdir. Əliyev, Rusiya ilə iqtisadi, enerji və təhlükəsizlik sahələrində bir sıra müqavilələr imzalamış və ikitərəfli əlaqələrin möhkəmlənməsinə nail olmuşdur. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq və strateji tərəfdaşlıq əlaqələri Heydər Əliyev dövründə daha da inkişaf etmişdir. O, iki ölkə arasında iqtisadi, mədəni və hərbi sahələrdə əməkdaşlığı dərinləşdirən bir çox layihələrə imza atmışdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri bu əməkdaşlığın mühüm nəticələrindən biridir. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan və İran arasında qonşuluq və dostluq münasibətləri qorunmuşdur. O, iqtisadi və enerji sahələrində İran ilə əməkdaşlıq etmiş, iki ölkə arasında sərhəd problemlərinin həlli və regional sabitliyin təmin edilməsi istiqamətində səylər göstərmişdir. Azərbaycan və Gürcüstan arasında münasibətlər Heydər Əliyevin prezidentliyi dövründə strateji səviyyəyə qaldırılmışdır. Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin tikintisi bu əməkdaşlığın mühüm nümunələridir. Əliyev həmçinin Gürcüstanın iqtisadi və enerji təhlükəsizliyinə dəstək vermişdir. Heydər Əliyev Azərbaycanın Avropa və ABŞ ilə əlaqələrini inkişaf etdirməyə çalışmışdır. O, ölkənin neft və qaz sektorunda xarici investisiyaları cəlb etmək üçün müxtəlif beynəlxalq şirkətlərlə müqavilələr imzalamışdır. ABŞ və Avropa ölkələri ilə siyasi və iqtisadi əməkdaşlıq layihələrində fəal iştirak etmişdir. Heydər Əliyevin qonşu dövlətlər və region ölkələri ilə əməkdaşlıq siyasəti Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi inkişafın təmin edilməsi və regional sabitliyin qorunmasına yönəlmişdir. Onun strateji baxışları və

diplomatik səyləri nəticəsində Azərbaycan regionda mühüm rola malik olmuşdur. Heydər Əliyevin xarici siyasət strategiyası Azərbaycan Respublikasının beynəlxalq arenada güclənməsinə və regional sabitliyinin təmin edilməsinə xidmət etmişdir. Onun diplomatik bacarıqları və uzaqgörən siyasəti sayəsində Azərbaycan, müstəqilliyinin ilk illərində bir çox çətinliklərin öhdəsindən gələrək möhkəmlənmişdir. O, xüsusilə enerji sektorunda xarici şirkətlərlə əməkdaşlıq əlaqələrinin qurulmasına çalışırdı. Əliyev Azərbaycanın regional güc mərkəzləri (Rusiya, Türkiyə, İran) ilə balanslı və konstruktiv münasibətlər qurmağa çalışmışdır. Bu siyasət Azərbaycanın təhlükəsizliyini və regional sabitliyini təmin etmək məqsədi daşıyırdı.

Heydər Əliyev siyasətinin nəticələri bir sıra sahələrdə Azərbaycanın inkişafında mühüm rol oynamışdır. Bu siyasətlərin bəzi əsas nəticələrinə nəzər salaq:

- ✓ Dövlət idarəetmə sistemi gücləndirildi, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirildi.
- ✓ Qarabağ münaqişəsi ilə bağlı münaqişələrin sülh yolu ilə həlli istiqamətində fəaliyyət göstərildi.
- ✓ Təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə islahatlar həyata keçirildi.
- ✓ Yeni məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikildi və mövcud olanlar təmir edildi.
- ✓ Azərbaycanın beynəlxalq aləmdə mövqeyi gücləndirildi, müxtəlif ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirildi.
- ✓ Regional əməkdaşlıq layihələri, o cümlədən enerji və nəqliyyat layihələri həyata keçirildi.
- ✓ Milli maraqların qorunması və milli kimliyin möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı.
- ✓ Kənd təsərrüfatı sektorunun inkişafı üçün müxtəlif təşəbbüslər və islahatlar həyata keçirildi. Dövlətin dəstəyi ilə kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı artırıldı.
- ✓ Bank sektorunun inkişafı və maliyyə bazarlarının formalaşması istiqamətində islahatlar aparıldı. Mərkəzi Bankın rolu gücləndirildi və yeni banklar yaradıldı.
- ✓ İqtisadiyyatın bazar prinsiplərinə uyğun olaraq islahatlara başladı. Özəlləşdirmə proqramları həyata keçirildi, bunun nəticəsində dövlət müəssisələrinin əksəriyyəti özəlləşdirildi və rəqabət qabiliyyətinin artırılması məqsədilə bazar iqtisadiyyatı prinsipləri tətbiq edildi.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasətlərin nəticəsində Azərbaycan müstəqil, sabit və inkişaf edən bir dövlətə çevrildi. Bu siyasətlər Azərbaycanın davamlı inkişafına və regional liderliyinə mühüm töhfələr verdi. Azərbaycanın ulu öndəri Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi iqtisadi strategiya əsasən ölkənin iqtisadiyyatının sabitləşdirilməsi, inkişaf etdirilməsi yönəlmişdi. Bu strategiyalar Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməyə və dünya iqtisadiyyatına inteqrasiya etməyə yönəlmişdi. Onun iqtisadi strategiyası ölkənin müstəqillikdən sonra sabit və dinamik inkişaf yoluna çıxmasına böyük töhfə verdi. [4]

## Ədəbiyyat

1. Əliyev T. "Azərbaycanı dünyaya tanıdan Böyük İnsan" Bakı , 2013
2.Əhmədova S. "Heydər Əliyev və ədəbi-tarixi proses", Bakı, 2013
3.Əhmədova S. "Heydər Əliyevin dil siyasəti", Bakı , 2010
4.Əliyev Q. "Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu". Bakı, 2006

**SUMMARY**

**HEYDAR ALIYEV AND AZERBAIJAN'S FOREIGN POLICY STRATEGY**

***Guliyeva J.N.***

***Key words:*** *strategy, region, international, oil, finance, entrepreneurship*

Heydar Aliyev played an important role in the country`s foreign policy during the period of independence. Its foregin strategy is based on several main principles and directions. Aliyev worked to protect and strengthen the independence of Azerbaijan. For this purpose, he tried to ensure the recognition and support of Azerbaijan in the international arena. A fair settlement of the Karabakh conflict and restoration of the territorial integrity of Azerbaijan

was one of the main priorities of Aliye`s foreign policy. In this direction, he cooperated with various international organizations and countries. H.Aliyev paid special attention to attracting foregin investments and expanding international economic relations for the economic development of Azerbaijan.


**РЕЗЮМЕ**
**ГЕЙДАР АЛИЕВ И ВНЕШНЕПОЛИТИЧЕСКАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНА**
***Гулиева Дж.Н.***

***Ключевые слова:*** *стратегия, регион, международный, нефтъ, финансы, предпринимателъство*

Гейдар Алиев сыграл важную ролъ во внешней политике страны в период независимости. Ее внешняя стратегия базируется на несколъких основных принципиах и направлениях. Алиев работал над зашитой и укреплением независимости Азербайджана. С этой целъю он старался обеспечитъ признание и поддержку Азербайджана на международной арена. Справедливое урегулирование карабахского конфликта и восстановление территориалъной целостности Азербайджана было одним из главных приоритетов внешней политики Алиева. В этом направлении он сотрудничал с различными международными организациями и странами. Г. Алиев уделил особое внимание привлечению иностранных инвестиций и расширению международных экономических связей для экономического развития Азербайджана.


# YAPONİYANIN AZƏRBAYCANDA NEFT MARAQLARI


**Şadiyeva Aytac**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, doktorant*
shinetomydarkness@gmail.com



***Açar sözlər:*** *Azərbaycan, neft, Yaponiya, "İtoçu", Heydər Əliyev, İlham Əliyev*



***Xülasə.*** *Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri ilə müxtəlif sferalarda münasibətlər qurmuşdur. Bu ölkələr içərisində Yaponiya xüsusi yer tutur. Yaponiya ilə Azərbaycan Respublikası arasında iqtisadi münasibətlər xüsusi yer tutur. Azərbaycan neft ölkəsi olduğu üçün Yaponiya ilə neft sektorunda əməkdaşlıq gündən-günə genişlənməkdədir. Məqalədə Yaponiya ilə Azərbaycan Respublikası arasında neft sahəsində olan əməkdaşlıqdan bəhs ediləcəkdir.*


**Giriş.** 1993-cü il 3 oktyabr tarixində Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın prezidenti seçildikdən sonra bütün sahələrdə dirçəliş başlayır və Azərbaycan iqtisadiyyatı böyük sürətlə inkişaf etməyə başlayır. Bu baxımdan, Yaponiya ilə olan iqtisadi əməkdaşlıq da, məhz Ulu Öndər Heydər Əliyevin prezident seçilməsindən sonra surətlə inkişaf etməyə başlamışdır. Yaponiya öz iqtisadi inkişafı baxımından Şərqi Asiya regionunun hegemon dövləti hesab olunur. Onun Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayemizə olan marağı təsadüfi deyildir. Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan Respublikası Yaponiya üçün etibarlı strateji tərəfdaş hesab olunmaqdadır. Yaponiya ilə Azərbaycan arasında neft sahəsində əməkdaşlıqdan danışarkən, ilk növbədə bu əlaqələrin təməlini qoymuş "Əsrin müqaviləsi"ndən və onun davamı kimi 2017-ci ildə imzalanmış "Yeni Əsrin müqaviləsi"ndən bəhs etmək lazımdır. 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 8 ölkəsindən tanınmış 13 neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı və 12 dekabr 1994cü ildə qüvvəyə mindi. Bu saziş tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırılmışdır [6] Bu müqavilə ilk dəfə Yaponiyanın "İtoçu" neft şirkəti Azərbaycanla neft sektorunda əməkdaşlıq qurmuşdur [6]. Daha sonra 1996-cı ildə "Əsrin müqaviləsi" üzrə dördüncü saziş imzalanmışdır. "İtoçu" dördüncü neft müqaviləsində ilk gündən daha böyük- 20 %-lik payla iştirak edirdi [1, səh 67]. ABŞ-ın "Mak Dermont" şirkəti yataqların istismarındakı payının bir hissəsini 1996-cı ilin mart ayında Yaponiyanın "İtoçu Korporeyşn" şirkətinə satmışdır [2, səh 134]. Həmin ildə "İtoçu" neft şirkəti daha bir neft müqaviləsinin- "Əşrəfi" və "Dan Ulduzu" neft yataqlarının kəşfiyyat və istismarı

müqaviləsinin iştirakçısına çevrilmişdir [4]. Bu da Yaponiya hökuməti və "İtoçu" neft şirkətinin Azərbaycan neft sənayesinə olan güclü marağından xəbər verir.

Yaponiya ilə neft sektorunda genişlənən əlaqələrin sübutu kimi onu göstərə bilərik ki, Yaponiyadan "İtoçu" şirkətindən əlavə "İnpeks" neft şirkəti də "Əsrin müqaviləsi"nin iştirakçılarındandır [5]. Azərbaycanla Yaponiya arasında genişlənən əlaqələr fonunda 1998-ci il dekabrın 25-də "Əsrin müqaviləsi" üzrə əməkdaşlığın davamı məqsədilə Xəzər dənizinin Azərbaycan sektorunda 3 dəniz perspektivinin işlənməsi üçün SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə 4 Yaponiya neft şirkəti arasında müqavilə bağlandı. Konsorsiuma Japan Petroleum Exploration Corporation (JAPEX), Teikoku Oil Company, İndonesia Petroleum (İNPEX) və İtoçu Corporation şirkətləri daxil idi. Bu müqavilə ümumilikdə sahəsi 510 kvadrat kilometr olan və özündə 75-90 milyon ton həcmində hesablanmış neft ehtiyatlarını birləşdirən Yanan Tava, Atəşgah və Muğan Dəniz yataqlarının istismarı üçün imzalanmışdır. 2,3 milyon dollar dəyərində kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında olan bu sazişlə ilk dəfədir ki, yapon neft hasilatçıları Xəzər dənizində neft konsorsiumundan kənarda neft kəşfiyyatı aparmışlar. Hazırda Yaponiyanın daha bir neft şirkəti-Mitsui neft şirkəti isə Xəzər dənizində Kürdaşı proyektinin üzvüdür. Bu müqavilə "Əsrin müqaviləsi" çərçivəsində Yapon neft şirkətləri ilə bağlanan 16-cı müqavilə hesab olunur [3]. Daha öncəki bütün müqavilələrin çoxu Qərbin beynəlxalq neft şirkətləri ilə bağlandığından Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, bu hadisə Azərbaycanın neft tarixində yeni bir səhifə açdı və Azərbaycan-Yaponiya iqtisadi əməkdaşlığının genişləndirilməsində xüsusi rol oynayacaq. Yaponiya hökuməti adından çıxış edən Yaponiyanın Azərbaycan və Rusiyadakı səfiri Takihiro Toqo Yaponiyanın Azərbaycan-Yaponiya iqtisadi əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verdiyini və Azərbaycanı mühüm iqtisadi müttəfiq hesab etdiyini bildirmişdir [3]. Ümummilli lider Heydər Əliyev Yaponiyaya etmiş olduğu səfərində də hər zaman iki ölkə arasında iqtisadi sahədə, xüsusilə də neft sənayesində genişlənən əməkdaşlığın perspektivlərini müzakirə etmişdir.

XXI əsrin əvvəllərində Cənab Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi ilə istər ölkə daxilində, istərsə də beynəlxalq formatda bütün sahələrdə, o cümlədən nə iqtisadi sahədə çiçəklənmə daha da artmışdır. 2011-ci ildə 17 oktyabr tarixində Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə "Kyodo News" İnformasiya Agentliyində olub. Səfir Azərbaycanın Yaponiyaya neft və qaz satmağa hazır olduğunu bildirmişdir [8]. Azərbaycan tarixində ikinci belə "Əsrin müqaviləsi"ni Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Cənab Prezident İlham Əliyev imzalamışdır. 2017-ci il sentyabrın 14-də Bakıda Prezident İlham Əliyevin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda AÇG yataqlar blokunun və "Günəşli" yatağının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsini nəzərdə tutan və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanma mərasimi keçirilmişdir. Bu müqavilə prezident İlham Əliyev tərəfindən "Yeni əsrin müqaviləsi" adlandırılıb. Bu müqaviləni "SOCAR", "BP", "Chevron", "İnpex", "Equinor" (əvvəlki "Statoyl"), "Exxon Mobil", "TP", "İtochu" və "ONGC Videsh" şirkətləri tərəfindən imzalanıb [7]. Göründüyü kimi, bu müqavilədə də Yaponiya neft şirkətləri tərəfindən xüsusi fəallıq nümayiş etdirilmişdir. "Yeni Əsrin müqaviləsi"ndə Yaponiyanın "İnpex" şirkətinin payı 9,31 %, "İtochu" şirkətinin payı isə 3,65 % təşkil edir. Yeni saziş ilə AÇG neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılıb [7]. Bu fakt da Azərbaycan Respublikası ilə Yaponiya arasında neft sektorunda əməkdaşlığın daha uzun müddət davam edəcəyini təsdiq edir.

2019-cu il iyulun 10-da SOCAR-ın prezidenti Rövnəq Abdullayev Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin həmsədri, "İtoçu" Korporasiyasının prezidenti Keita İşinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. R.Abdullayev SOCAR ilə "İtoçu"-nun uzunmüddətli əməkdaşlıq əlaqələrindən danışmış, bu əlaqələrin daha da inkişafı üçün geniş imkanlar olduğunu vurğulamışdır [9]. Xatırlatmaq yerinə düşər ki, "İtoçu" neft şirkəti "Əsrin müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" neft-qaz yatağının işlənməsi, daha sonra 1999-cu ildə tikintisinə başlanılan Bakı-Tblisi-Ceyhan neft kəməri layihəsində və SOCAR-ın Türkiyədə inşa etdiyi STAR neft emalı zavodunun tikintisində iştirak etmişdir [9]. Yaponiya Azərbaycanla həmçinin "Böyük İpək Yolu"

çərçivəsində də fəal əməkdaşlıq etməkdədir [10]. Bu ölkənin 40 il müddətinə, çox aşağı faizlə ayırmış olduğu kreditlər Azərbaycan neft sənayesini çox inkişaf etdirmişdir.

## Ədəbiyyat


1. "Əsrin müqaviləsi" Azərbaycan neft strategiyasının təməl daşı, Bakı:"Turxan" 2014. -248 s.
2. K.Əzizova."Əsrin müqaviləsi" Heydər Əliyevin yeni neft strategiyasıdır, Azərbaycanın neft müqavilələri: məzmunu və əhəmiyyəti, Respublika elmi konfransının materialları, Sumqayıt: 2014. -226 s

**İnternet resursları:**

3. Yanan Tava, Atashgah and Mugan Daniz.https://azer.com/aiweb/categories/magazine/64_folder/64_articles/64_socar_japex.html [Müraciət tarixi: 06.06.2024]
4. Azerbaijan's SOCAR, Japan's Itochu ink co-op MoU (PHOTO). https://en.trend.az/business/energy/2724420.html [ Müraciət tarixi: 06.06.2024]
5. "Əsrin müqaviləsi (Bakı, 20 sentyabr 1994-cü il) mövzusunda ümumi tarixi arayış." https://lib.aliyev-heritage.org/az/917277.html [ Müraciət tarixi: 06.06.2024 ]
6. "Əsrin müqaviləsi" haqqında qısa tarixi arayış. https://yeniazerbaycan.com/SonXeber_e54353_az.html [ Müraciət tarixi: 06.06.2024]
7. "Əsrin müqaviləsi"nin bağlanmasından 26 il ötür. https://qafqazinfo.az/news/detail/esrin-muqavilesinin-baglanmasindan-26-il-otur-298872 [ Müraciət tarixi: 06.06.2024]
8. Yaponiya saytı "Əsrin müqaviləsi"nin növbəti ildönümü ilə bağlı məqalə yayıb. https://azertag.az/xeber/yaponiya_sayti_esrin_muqavilesinin_novbeti_ildonumu_ile_bagli_meqale_yayib-1882183 [ Müraciət tarixi: 06.06.2024]
9. Sənaye və energetika. https://apa.az/energy-and-industry/yaponiyanin-itochu-sirketi-socar-la-butun-istiqametlerde-emekdasliq-etmeye-maraqlidi-542067[Müraciət tarixi: 06.06.2024]
10. Azərbaycan-Yaponiya münasibətləri.Tarixi imkanlar və perspektivlər. https://1news.az/az/news/20170620053855096-Azerbaycan-Yaponiya-munasibetleri-Tarixi-imkanlar-ve-perspektivler[ Müraciət tarixi: 06.06.2024]



**SUMMARY**

**JAPAN'S OIL INTERESTS IN AZERBAIJAN**

***Shadiyeva A.***

***Keywords:*** *Azerbaijan, oil, Japan, "Itochu", Heydar Aliyev, Ilham Aliyev*

After regaining its independence in 1991, the Republic of Azerbaijan has established relations with the countries of the world in various spheres. Among these countries, Japan occupies a special place. Economic relations between Japan and the Republic of Azerbaijan occupy a special place. As Azerbaijan is an oil country, cooperation with Japan in the oil sector is expanding day by day. The article will talk about the cooperation between Japan and the Republic of Azerbaijan in the field of oil.



**РЕЗЮМЕ**

**НЕФТЯНЫЕ ИНТЕРЕСЫ ЯПОНИИ В АЗЕРБАЙДЖАНЕ**

***Шадыева А.***

***Ключевые слова:*** *Азербайджан, нефть, Япония, «Иточу», Гейдар Алиев, Ильхам Алиев*

После восстановления независимости в 1991 году Азербайджанская Республика наладила отношения со странами мира в различных сферах. Среди этих стран Япония занимает особое место. Экономические отношения между Японией и Азербайджанской Республикой занимают особое место. Поскольку Азербайджан является нефтяной страной, сотрудничество с Японией в нефтяной сфере расширяется с каждым днем. В статье пойдет речь о сотрудничестве Японии и Азербайджанской Республики в сфере нефти.

# AZƏRBAYCAN NEFTİNİN NƏQLİ BÖYÜK GÜC MƏRKƏZLƏRİNİN VƏ REGİON DÖVLƏTLƏRİNİN MARAQLARINDA

**Süleymanov Nizami Məmməd oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan, tar.e.d., professor*
nizamisuleymanovunec@gmail.com

***Açar sözlər**: Azərbaycan, Xəzər hövzəsi, karbohidrogenlər, borular, enerji, neft, qaz.*

***Xülasə.** Təqdim olunan məqalədə enerji mənbələri və enerji bazarları uğrunda dünyada gedən mübarizə, dünya enerji ehtiyatlarında Xəzər hövzəsinin potensialı, ölkənin strateji və iqtisadi məsələlərində enerji ehtiyatların dünya bazarlarına çıxarılmasının mühüm rol oynaması qeyd edilir. Həmçinin böyük güc mərkəzləri olan ABŞ, Aİ və Rusiyanın Xəzər hövzəsindəki zəngin enerji ehtiyatlarının Avropaya nəql edilməsi sahəsində iqtisadi maraqları və bu istiqamətdə həyata keçirdikləri siyasətləri, region dövlət olan Türkiyə üçün Azərbaycanın geostrateji önəm daşıması, neftin Qərbə nəqlinə öz enerji təhlükəsizliyinin təmin olunması kimi baxması, Gürcüstan Respublikasının Qərb marşurutu layihələrinin reallaşmasında maraqlı olması təhlil olunur.*

Enerji təhlükəsizliyinin təmin olunması üçün ilk növbədə enerji mənbəyindən tələb olunan yerə qədər təhlükəsizlik tədbirlərinin görülməsi zəruridir. Dünyanın böyük dövlətləri öz enerji təhlükəsizliyini təmin etmək üçün müxtəlif siyasi, iqtisadi və hətta hərbi vasitələrdən istifadə edirlər.

SSRİ-nin süqutundan sonra Azərbaycanın daxili və xarici siyasətini müəyyən edən əsas amillər Dağlıq Qarabağ probleminin həlli və enerji resurslarının beynəlxalq bazarlara nəqli idi [7, s.55]. Enerji ehtiyatlarının daşınması və marşurutun seçilməsi isə çətin geosiyasi proseslərə qoşulmağı qaçılmaz edirdi.

**Böyük güc mərkəzlərinin regionda geoiqtisadi maraqları.**

1994-cü ildə B.Klinton administrasiyası Xəzər siyasətini həyata keçirmək üçün beynəlxalq işçi qrupu yaratdı. Qərbin bu regionda yeganə marağı Xəzər hövzəsində nəhəng enerji daşıyıcılarının olmasıdır[11, s.27].

Görkəmli amerikan sovetoloqu Zbiqnev Bjezinski 1995-ci ildə Azərbaycana səfərində Prezident Heydər Əliyevlə görüşündə ABŞ-ın Azərbaycanın geosiyasi potensialını, Qafqaz və Mərkəzi Asiya regionunun “aparıcı elementi” olmaq mümkünlüyünü xüsusi vurğuladı[2, s.62].

ABŞ Xəzər regionunda sabitliyin bərqərar olunmasına, Avropa ilə Asiya arasında ticarət və nəqliyyat dəhlizinin açılmasına, ABŞ və Avropa ölkələrinə neft və qaz ehtiyatlarının çıxışının təmin edilməsinə mühüm əhəmiyyət verirdi. 1997-ci ildə B.Klinton qeyd edirdi ki, Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistan ABŞ üçün siyasi və iqtisadi əhəmiyyət daşıyır [5,s.181].

1998-2001-ci illərdə ABŞ-ın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Stiven Mən açıq şəkildə bildirmişdi ki, ABŞ administrasiyası Bakı-Ceyhan layihəsini həyata keçirəcəkdir [13, s.121]. Məhz Vaşinqton Xəzər neftinin Avropa bazarlarına ixrac edilməsində həlledici rol oynamışdır [3, s.64].

ABŞ-dan fərqli olaraq, Aİ-nin bölgədə siyasəti ilk vaxtlar Cənubi Qafqazdakı keçmiş Sovet respublikalarına texniki və hümanitar yardımlar göstərməklə məhdudlaşırdı. Aİ 1991-ci ilin fevralında beynəlxalq enerji bazarının funksionallaşdırılması üçün Avropada Enerji Xartiyasının bağlanması təklifini irəli sürdü və həmin prinsiplər əsasında 1994-cü il dekabrın 17-də Lissabonda Enerji Xartiyası Müqaviləsi bağlandı. İnvestisiya, ticarət, tranzit və enerji effektivliyini əhatə edən müqaviləni Avropa və Asiyanın 52 dövləti, o cümlədən Azərbaycan da imzaladı. Enerji sahəsindəki gələcək fəaliyyətimizi bu çərçivələrdə aparacağıq [8, s.52].

Aİ enerjiyə olan marağının artması Qafqazla daha yaxın əməkdaşlığa cəlb etdi. [4, s.11]. Eyni zamanda Mərkəzi Asiya enerji ehtiyyatlarının rahat daşınması üçün Azərbaycan və Gürcüstan Qara və Xəzər dənizlərini birləşdirməklə əlverişli nəqliyyat keçidini təmin edir [12, s.86].

Aİ-nın regiona maraqları və onların həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası ilə nəqliyyat və enerji sahəsində həyata keçirdiyi tədbirlər, Aİ ilə Azərbaycan arasında əməkdaşlığı baxımından əhəmiyyətinin səviyyəsi aydın olur.

Cənubi Qafqazda maraqları və iddaları olan dövlətlərdən biri də Rusiya Federasiyasıdır. Rusiya Xəzər və Qafqaz regionunda öz təsir dairəsini möhkəmləndirmək üçün hər cür siyasi, iqtisadi və hərbi vasitələrdən istifadə edirdi.

Rusiyanın böhran vəziyyətində olması ona Rusiya xaricində reallaşan layihələrə investisiya qoymaq imkanı vermirdi.

**Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlində region dövlərlərinin maraqları.**

Azərbaycanın müstəqillik əldə etməsi Türkiyə üçün tarixi bir fürsət yaratdı. Türkiyə dövləti region uğrunda gedən "nəhəng geosiyasi oyunların" birbaşa iştirakçısına çevrildi.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 1997-ci ilin may ayında imzalanmış "Strateji Ortaqlıq və İşbirliyi Bəyannəməsi" həmçinin Xəzər neftinin xarici bazarlara Türkiyə üzərindən çatdırılmasını özündə ehtiva edirdi. 29 oktyabr 1998-ci ildə imzalanmış Ankara Bəyannaməsi isə enerji məsələsini ikitərəfli münasibətlərin mərkəzinə yerləşdirmiş və BTC (Bakı-Tiblisi-Ceyhan) layihəsi kontekstində enerji işbirliyini regional işbirliyi layihəsinə çevirmişdi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Cənubi Qafqazda klassik və transmilli risklərin hələ də mövcud olması səbəbindən Azərbaycan neftinin istismarı və Qərbə daşınması prosesinə Türkiyə öz enerji təhlükəsizliyinin təmin olunmasının mühüm hissəsi kimi baxırdı [10, s.93].

ƏİBK (Əsas İxrac Boru Kəməri)-nin də Avropa – Qafqaz – Asiya nəqliyyat xəttinin üzərində inşa edilməsini həyata keçirilən Strategiya – Şərq – Qərb enerji və nəqliyyat dəhlizinin inkişaf etdirilməsi tarixi zərurətdən irəli gəlirdi.

"Azərbaycan dövləti, başda xalqımızın lideri Heydər Əliyev olmaqla, ölkəmizin iqtisadi inkişafını, Qərbə inteqrasiyasını, Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və dünya bazarına çıxarılmasını, Bakı-Tiblisi-Ceyhan neft və Bakı-Tiblisi-Ərzurum (BTƏ), qaz-boru kəmərinin reallaşmasını, böyük "İpək yolu" adlandırılan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bərpası və işə salınmasını, regionda geniş enerji mübadiləsi yaradılmasını və s. böyük layihələri bütün çətinliklərə və maneçiliklərə baxmayaraq, Türkiyə ilə bağlanmış və onun iştirakı ilə reallaşdırılmışdır [9, s.156]. 18 noyabr 1999-cu ildə İstanbulda "Xam neftin...nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikaları arasında..."Hökumətlərarası Bəyannamə" imzalandı [3, s.91].

Regionda Azərbaycan, Türkiyə və Gürcüstandan ibarət strateji üçlüyün yaranması, Şərq-Qərb enerji dəhlizinin ilk qolu olan Bakı-Supsa, daha sonra BTC və gələcəkdə siyasi və iqtisadi proseslərin təbii nəticəsi kimi BTƏ qaz kəməri, BTQ (Bakı – Tblisi – Qars) dəmiryolu magistralalrı reallaşdı [6, s.279].

Regional və qlobal güclərin regiona, onun təbii sərvətlərinə maraq göstərməsi, yeni beynəlxalq nəqliyyat yollarının yaradılması, həyata keçirilən layihələr İİR (İran İslam Respublikası)-nın da marağına səbəb olurdu. İranın Xəzərin karbohidrogen ehtiyyatlarının mənimsənilməsi prosesi başlayarkən gərginlik yaratması, həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələrlə regionun inkişaf edib dünyaya inteqrasiya olunmasına qısqanclıq, bölgədə gedən proseslərə müdaxiləsi Azərbaycanın enerji siyasətinə qarşı istiqamətləndirilmiş addımları idi.

Qərbin neft şirkətləri ilə Xəzərdə həyata keçirilən layihələrə kölgə salmaq, Azərbaycanın əsas tərəfdaşı olan Türkiyənin mövqeyini minumuma endirmək kimi hədəfləri olan İranın Ermənistanla əməkdaşlığını bölgədəki istəklərinə çatmaq yolunda vasitə kimi qiymətləndirmək olar [1, s.238]. Həmçinin Şərq – Qərb enerji layihələrinin reallaşması ilə ABŞ-ın Cənubi Qafqazda mövqeyinin möhkəmlənməsi İranı narahat edirdi.

Beləliklə Azərbaycan Respublikasının enerji ehtiyatlarının nəql olunması dünya güclərinin və region dövlətlərinin maraq dairəsində olmuşdur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (məqalələr toplusu). (2017). Bakı: Poliart MMC.
2. Бжезинский, З. (1999). Великая шахматная доска. Москва: Международные отношения.
3. Camalov, Y. (2004). Heydər Əliyevin neft strategiyası davam edir. Bakı: "Qismət".
4. Cohen, A.Europes strategic dependence on Russian energy. Backrouder: The Heritage Foundation, № 2083, 5 November 2007, p.1-13: [Electronic resource], URL:http://www.policyarchive.org/handle/10207/bitstreams/13043.pdf
5. Чумалов, М.Ю. (2000). Каспийская нефть и международные отношения. Москва: РАН. Центр по изучения межнациональных отношений.
6. Demirağ, Y. (2007). Türkiye-Gürcüstan İlikileri. Türkiye`nin Avrasya Macerası. 1989-2006 (Avrasya Üçlemesi II). Ankara: Nobel Yayım Dağıtım.
7. Erhan,Ç-editör (2013). Kafkasya`nın yükselen yıldızı İlham Alıyev döneminde Azerbaycan. Ankara: Atatürk araşdırmaları Mərkəzi yayınları.
8. Əliyev, İ.H. (2015). İnkişaf-məqsədimizdir. Bakı: Azərnəşr.
9. Əliyev, İ.H. (2009). İnkişaf məqsədimizdir: [107 cilddə, c.2] Bakı:Azərnəşr.
10. İman, K. (1997). Dış politika. İstanbul: Timaş yayımları.
11. Гарашова, С. (2014, том 8, выпуск 3-4). Тренды геополитики США в Прикаспийском регионе. Баку: Кавказ & глобализация.
12. Winrow, G.M.Energy security in the Black sea-Caspian region// Perceptions, Autumn 2005, p.85-98: [Electronic resource] /URL: http://www.sam.gov.tr/wpcontent/uploads/2012/01/Winrow.pdf
13. Жильцов, С.С. (2007). Геополитика Каспийского региона. Москва: Международные отношения.

**SUMMARU**

**TRANSPORTATION OF AZERBAIJANI OIL IN THE INTERESTS OF THE MAJOR POWERS AND STATES OF THE REGION**

***Suleymanov N.M.***

***Keywords:*** *Azerbaijan, Caspian basin, hydrocarbons, pipes, energy, oil, gas.*

Resume. The article notes the ongoing struggle for energy resources and energy markets in the world, the potential of the Caspian basin in world energy resources, and the export of energy resources to world markets plays an important role in the country's strategic and economic issues. The economic interests of the United States, the EU and Russia in the field of transporting the rich energy resources of the Caspian basin to Europe and their policies in this direction, the geostrategic importance of Azerbaijan for Turkey, which is a state of the region, as ensuring its own energy security when transporting oil to the West, the interest of the Republic of Georgia in the implementation of western route projects are also analyzed.

**РЕЗЮМЕ**

**ТРАНСПОРТИРОВКА АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ В ИНТЕРЕСАХ КРУПНЫХ ДЕРЖАВ И ГОСУДАРСТВ РЕГИОНА**

***Сулейманов Н.М.***

*Ключевые слова: Азербайджан, Каспийский бассейн, углеводороды, трубы, энергия, нефть, газ.*

В представленной статье отмечается ведущаяся в мире борьба за энергоресурсы и энергетические рынки, потенциал Каспийского бассейна в мировых энергоресурсах, важную роль в стратегических и экономических вопросах страны играет экспорт энергоресурсов на мировые рынки. Также анализируются экономические интересы США, ЕС и России в области транспортировки богатых энергоресурсов Каспийского бассейна в Европу и проводимая ими политика в этом направлении, геостратегическое значение Азербайджана для Турции, являющейся государством региона, как обеспечения собственной энергетической безопасности при транспортировке нефти на Запад, заинтересованность Республики Грузия в реализации проектов западного маршрута.

# “ƏSRİN MÜQAVİLƏSİ” VƏ AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARINA ÇIXARILMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**[1]Səlimov Şirxan Dadaş oğlu**
**[2]Kərimova Samirə Əkbər qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1-professor, 2-müəllim*
salimov.shirxan@sdu.edu.az

***Açar sözlər:*** *“Əsrin müaqaviləsi”, Azərbaycan nefti, neft şirkətləri, dünya bazarı, İstanbul bəyannaməsi, Bakı-Supsa neft kəməri, bakı-Novorasiyski, Bakı-Tbilisi-Ceyhan*

***Xülasə.*** *Təqdim olunan məqalədə “Əsrin müqaviləsi”nin imzalanmasından sonra Azərbaycan neftinin dünya bazarına çıxarılması məsələsi ən mühüm məsələlərdən biri kimi araşdırılmışdır. Tədqiqat zamanı Azərbaycan neftinin dünya bazarına nəqlinin müxtəlif üsulları, həm səmərəliliyi, həm də böyük dövlətlərin mövqeyi, eləcə də bu layihənin həyata keçirilməsində bəzi dövlətlərin üzləşdiyi problemlərin həllində ayrı-ayrı dövlət başçılarının görüşləri təhlil edilib, Heydər əliyevin apardığı danışıqlar, əldə edilmiş razılaşmalar, bağlanmış müqavilələr və imzalanmış bəyannamələr nəzərdən keçirilib. Eyni zamanda, ABŞ, Türkiyə, İngiltərə və s.Azərbaycan neftinin dünya bazarına çıxarılmasında iştirak edirlər. O, dövlətlər tərəfindən Azərbaycana göstərilən maliyyə və siyasi dəstəyi şərh edib.*

Azərbaycan nefti tarixən böyük güc mərkəzlərinin diqqət mərkəzində olmuşdur. XIX əsrin birinci yarısından Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Azərbaycan nefti çar rusiyasının nəzarətinə keçmişdir. XIX əsrin sonlarında ABŞ və Avropanın bir sıra dövlətləri bir çox şirkətlərin timsalında Azərbaycan neftinə maraq göstərsələr də Rusiya bu nəzarəti əldən vermək istəmirdi. Birinci Dünya müharibəsi zamanı böyük dövlətlərin Azərbaycan nefti uğrunda mübarizəsi şirkətlərarası mübarizədən şıxaraq dövlətlərarası mübarizə səviyyəsinə qalxmaqla daha da kəskinləşdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının nəticəsi olaraq qısa bir zamanda olsada Azərbaycan nefti üzərində nəzarət milli hökumətin nəzarətinə keçdi. Bu zaman Rusiya Azərbaycan nefti üzərində nəzarətdən imtina etmək fikirində deyildi. Bununla yanaşı böyük dövlətlərin Azərbaycanda neft maraqları davam etməkdə idi. Lakin Rusiyada bolşeviklərin hakimiyyət başına gəlməsindən sonra Azərbaycan neftinin yenidən ələ keçirilməsi istiqamətində fəaliyyətə başladı.1920-ci ilin aprel ayında Şimali Azərbaycanın Rusiya tərəfindən yenidən işğal edilməsindən sonra milliləşdirmə adı altında həyata keçirilən tədbirlərin nəticəsiində Azərbaycan nefti tamamilə Rusiyanın nəzarətinə keçdi. Sovet rejiminin müstəmləkəçiliyinin ilk illərində xarici neft şirkətlərinin fəliyyəti kəskin şəkildə məhdudlaşdırıldı və Azərbaycan neftindən gələn gəlir SSRİ-nin maraqlarına xidmət etdirildi. Bir sıra dövlət və siyasi xadimlərin eləcədə tarixçilərin də gəldiyi qənaətə görə İkinci Dünya müharibəsi zamanı SSRİ və onun müttəfiqlərinin qələbəsində ən mühüm amillərdən biri Azərbaycan nefti idi. Sovet rejiminin dağılamsı və Azərbaycanın öz müstəqilliyini bərpa etməsi onun öz milli sərvəti olan neft üzərində qərar verməsinə imkan yaratdı. Buna baxmayaraq özünü sovet rejiminin varisi hesab edən Rusiya müstəqilliyin ilk illərində Azərbaycan neftinin onun nəzarətindən çıxması ilə barışmaq fikirində deyildi. Xüsusilə də bu zaman Azərbaycan hökumətinin qərbyönümlü siyasət yeritməsi Rusiyanı daha çox narahat edirdi.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra Rusiya ilə münasibətlərin yumuşaldılması istiqamətində bir sıra addımlar atılmasına baxmayaraq Rusiya Azərbaycan neftinin Avropaya nəqlinin qarşısının alınması üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Bu zaman Rusiya tərəfindən Xəzərin statusu məsələsi siyasi gündəmə gətirildi. Bununla yanaşı Azərbaycanın neft ehtiyatlarının qeyd edildiyindən kəskin şəkildə az olmasını iddia edərək xarici neft şirkətləri və böyük dövlətləri “Əsrin müqavilə”sini imzalamaqdan çəkindirməyə çalışırdı. Lakin Heydər Əliyevin Qərb dövlətləri ilə danışıqlar apararaq Azərbaycanda kifayət qədər neft ehtiyatlarının

olmasına inandıra bildi. Bununla yanaşı Heydər Əliyev Rusiyanın özünün də "Əsrin müqavilə"sində iştirakına razılıq verməsinə çalışdı və buna nail ola bildi. Nəticədə Rusyanın "Əsrin müqavilə"sinin imzalanmasının qarşısının alınması istiqamətində fəliyyətini zərərsizləşdirdi. Azərbaycan neftinin ixracı istiqamətində gedən danışıqlar son dərəcə mürəkgəb şəraitdə gedirdi. Bu zaman Azərbaycan neftinin dünya bazarına ixracı üçün bir neçə istiqamət nəzərdə tutulmuşdur. Mahiyyət baxımından iqtisadi xarakter daşısa da eyni zamanda siyasi əhəmiyyət kəsb edən neft marşurutu iştirakçı dövlətlər arasında fikir ayrılığına səbəb olurdu. İqtisadi baxımdan daha çöx səmərəli olmasına baxmayaraq Azərbaycan neftinin İran ərazisindən Türkiyəyə oradan da Avropa bazarına daşınması təklifi bəzi Qərb dövlətlərinin ciddi narazlığına səbəb oldu və bu maşrutdan imtina edildi. İkinci variant Ermənistan ərazisindən keçməsi təklif edilirdi. Lakin Azərbaycan torpaqlarının 20 faizindən çoxunun Ermənistan tərəfindən işğal edilməsi səbəbindən Azərbaycan dövləti bu təklifə etiraz etdi. Nəhayət uzun müzakirədən sonra daha çox maliyyə xərcləri tələb etməsinə baxmayaraq Azərbaycan neftinin Gürcüstan ərazisindən keçməklə Türkiyəyə, oradan da Avropa bazarına nəql edilməsi razılaşdırıldı.

"Əsrin Müqaviləsi"nin imzalanması zamanı və ondan sonra Azərbaycan neftinin Avropa bazarına çıxarılması üçün bir neçə marşurut nəzərdə tutulmuşdur. Birinci istiqamət Rusiyanın təsir dairəsində olan Bakı-Novorossiysk kəməri, ikinci Bakı-Supsa, üçüncü istiqamət isə Bakı-Tbilisi-Ceyhan marşrutu olmalı idi.

Müqavilənin reallaşması naminə Rusiyanın da maraqları nəzərə alınaraq Azərbaycan neftinin Novorasiyski maşrutundan da ixrac edilməsinə qərar verilmişdir. Bu məqsədlə 1996-cı il fevralın 6-da Azərbaycan neftinin Rusiya ərazisindən keçməsi ilə əlaqədar mərasim keçirilmişdir. Mərasim zamanı "Əsrin müqavilə"si haqqında məlumat verən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qeyd etmişdir: *1995-ci il oktyabrın 9-da qəbul olunan qərar əsasən neft kəmərlərinin biri Rusiya ərazisindən Novorossiysk limanına, ikincisi isə Gürcüstan ərazisi ilə Qara dənizdəki Supsa limanına çəkilməlidir*. [1]

Danışıqlara görə Bakı-Novorossiyski kəməri İçkeriya Çeçen Respublikasının ərazisindən keçməli idi. O zaman Rusiyada siyasi vəziyyət bir qədər fərqli idi. Ona görə də razılıq əldə edilməsi üçün İçkeriya Çeçen Respublikasının prezidenti Aslan Məshədov Azərbaycana səfər etmiş, Azərbaycan hökuməti ilə danışıqlar aparılmış və razılıq əldə edilmişdir. Bu razılaşma ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qeyd etmişdir: *Azərbaycan öz neftini və fövqəlmilli nüft şirkətləri konsorsumunun çıxaracağı nefti ixrac etməkdən ötrü bu neftin Şimal maşrutu ilə Qara dəniz sahillərindəki Novorossiysk limanınadək nəqli haqqında Rusiya ilə razılaşma əldə edibdir. Bu maşrut İçkeriya Çeçen Respublikasının ərazisindən keçir. Neftin nəqlinə dair əldə etdiyimiz razılaşmaların əməli surətdə reallaşdırılmasına başlaya bilmək üçün Rusiya, Azərbaycan və İçkeriya Çeçen Respublikası arasında üçtərəfli saziş imzalanmasının zəruriliyi haqqında razılığa gəldik*. [6,s.373]

Nəzərdə tutulmuş kəmərlərdən biri də Bakı-Supsa kəməridir. Səngəçal neft terminalında əsası qoyulan və Supsa terminalına qədər davam edən Bakı-Supsa neft kəməri Azərbaycan neftinin Avropa bazarlarına daşınmasında mühüm rol oynayır. Bu kəmərin tikilməsi və istismarında Azərbaycan və Gürcüstan dövlətləri arasında danışıqlar getmiş və razılaşmalar əldə edilmişdir. Bakı-Supsa kəmərinin Azərbaycan tərəfi üçün üstünlüyü ondan ibarətdir ki, öz sərvətini xarici bazara çıxarılması və ondan gələn gəlirlərdən sosial-iqtisadi baxımdan istifadə edilməsi imkanları yaranırdı. Bakı-Supsa kəməri Gürcüstanın da dövləti maraqlarına cavab verir. Gürcüstanın ərazisindən keçən kəmərdən Gürcüstanın dövlət büdcəsinə kifayət qədər gəlir daxil olurdu. Bununla yanaşı kəmərin Gürcüstan üçün siyasi baxımdan da əhəmiyyəti vardır. Avropanın enerji təhlükəsizliyinin təminatındakı iştirakına görə beynəlxalq münasibətlərdəki mövqeyi xeyli dərəcədə yüksəlir.

Heydər Əliyev qeyd etmişdir ki, *Rusiya Federasiyası ilə Azərbaycan arasında imzalanmış müqavilə əsasında xüsusi olaraq... biz hələ onda, neftin dünya bazarlarına ixracı marşrutlarını planlaşdırdığımız vaxtlarda qərb marşrutu üzrə alternativ neft kəmərinə malik olmağı lazım bildik. Açığını deyim ki, bu, bəzi dairələrdə, bəzi ölkələrdə böyük narazılıqla, etirazla qarşılandı. Amma*

*biz öz istədiyimizə nail olduq.* [4,s.15] "Əsrin müqavilə"sinin imzalanmasında Azərbaycanla yanaşı bir sıra maraqlı dövlətlər də var idi. Bir sıra Avropa dövlətləri və ABŞ-ın Azərbaycan nefti ilə bağlı siyasətində əsas iki məqam var idi. Bunlardan biri Avropanın enerji təhlükəsizliyini təmin etmək, ikincisi isə Azərbaycan (gələcəkdə isə Mərkəzi Asiyanı da cəlb etmək) neftini Rusiyadan yan keçməklə Avropaya çatdırmaq. Bu Azərbaycanın da tam olaraq maraqlarına uyğun idi. Çünki Azərbaycan şaxələndirilmiş enerji nəqliyyatında maraqlı idi. Əsas ixrac kəməri olan Bakı-Tbilisi-Ceyhan xəttinin razılaşdırılmasında iqtisadi marala yanaşı siyasi maraqlar da özünü büruzə verdi. İştirakçı dövlətlər arasında gedən gərgin fikir mübadiləsinin nəticəsində neft kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçməklə dünya bazarına çatdırılması razılaşdırılmışdır.

Nəzərdə tutulmuş neft kəmərləri arasında daha böyük əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti hətta Qazaxstanın "Tengiz" yatağından çıxarılan neftin Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Avropa bazalarına çıxarılması planlaşdırılmışdır. Qazaxstanın neft ehtiyatlarının zəngin olması və onun dövləti maraqlarına cavab verməsi Aktay limanından Bakı limanı arasında boru kəmərinin tikilməsi ideyasının meydana gəlməsinə səbəb olmuşdur. Azərbaycan neftinin boru kəməri vasitəsilə daşınması məsələsində ortaq mövqedən çıxış edən Azərbaycan, Türkiyə, Qazaxstan, Gürcüstan və Özbəkistan dövlət başçıları Ankara bəyannaməsini imzalamaqla iqtisadi baxımdan öz ölkələrinin dövləti maraqlarını təmin etmiş oldular. Türkiyə və Gürcüstan tranzit ölkə olaraq həm iqtisadi, həm də siyasi maraqlarının təmin edilməsi baxımından maraqlı idi. Zəngin neft ehtiyatlarına malik olan Qazaxstan bu Bəyannaməyə qoşulmaqla Avropa bazarına çıxış əldə etmiş olurdu.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 18 noyabr 1999-cu ildə Türkiyənin «Çırağan sarayı»ında Azərbaycan neftinin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan, Gürcüstan və Türkiyə arasında Saziş"in imzalanması mərasimində çıxışı zamanı qeyd etmişdir. *1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış «Əsrin müqaviləsi» adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər...həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı–Tbilisi–Ceyhan neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.* [5, s.148-149]

Azərbaycanın neft strategiyası dövlətimizin daxili və xarici siyasətində mühüm rola malikdir. Bəzi xarici güc mərkəzləri tərəfindən ciddi maneələrə baxmayaraq Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin ciddi səyi nəticəsində müqavilənin reallaşması Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyinin güclənməsinə, xarici ölkələrdən sərmayə qoyuluşunun kəskin şəkildə artmasına və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynadı. Bu da Azərbaycanın dövlət müstəqilliyinin güclənməsi, əhalinin sosial-iqtisadi və maddi rifah halının yaxşılaşdırılması üçün münbit şərait yaradırdı.

Aparılan danışıqların və əldə edilmiş razılaşmaların nəticəsi olaraq Azərbaycan öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq üçün imkan əldə etmişdir. Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin kontraktı"ndan başlamışdır. [2 s.1]

**Nəticə**

- ✓ -Əsrin müqaviləsinin bağlanmasının nəticəsi olaraq Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyi ciddi şəkildə möhkəmləndi;
- ✓ -neftin ixracından gələn gəlir Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsir göstərdi;
- ✓ -böyük dövlətlər və şirkətlər tərəfindən Azərbaycana investitisiya qöyulişu kəskin şəkildə artdı;
- ✓ -"Əsrin müqavilə"si Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafında mühüm rol oynadı;
- ✓ -bütün təzyiq və çətinliklərə baxmayaraq Azərbaycan Avropanın Rusiyadan yan keçməklə enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadı ki, bu da

Rusiyanın Avropaya qarşı neftdən siyasi təzyiq vasitəsi olaraq istifadə etməsini xeyli dərəcədə məhdudlaşdırdı;

- ✓ -Azərbaycan enerji baxımından həm ixrac, həm də tranzit ölkəyə çevrildi

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin respublikamızda çıxarılacaq ilkin neftin Rusiya ərazisi vasitəsilə nəqlinə dair sənədlərin imzalanması mərasimində çıxışı. 16 fevral 1996-cı il https://files.preslib.az/projects/centurycontract/gl3.pdf
2. Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilib (20 sentyabr 2014-cü il) . Xalq qəzeti.-2014.- 21 sentyabr.- № 206.-s.1-4.
3. Bakı-Tblisi-Ceyhan (BTC)ixrac boru kəməri Xronika (sentyabr 1994 – iyul 2006) . Respublika.- 2006.-13 iyul.
4. Əliyev H. Ə. Bakı–Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. Supsa 17 aprel 1999-cu il Müstəqilliyimiz əbədidir: 20-ci kitab. Bakı: Azərnəşr, 2007.- S. 15-17. https://files.preslib.az/projects/centurycontract/gl3.pdf
5. Əliyev H. Ə. "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Saziş"in imzalanması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin*nitqi İstanbul, «Çırağan sarayı» 18 noyabr 1999-cu il . Müstəqilliyimiz əbədidir: 23-cü kitab. Bakı: Azərnəşr, 2008.- 480 s.
6. Əliyev, H Ə. Azərbaycan neftinin Bakı-Qroznı-Tixoretsk-Novorossiysk kəməri ilə nəql olunması haqqında Azərbaycan-Rusiya-İçkeriya Çeçen Respublikası arasında saziş imzalandıqdan sonra Rusiya Federasiyasının nümayəndə heyətini qəbul edərkən Azərbaycan Prezidenti Heydər Əliyevin çıxış Prezident sarayı 11 iyul 1997-ci il. Müstəqilliyimiz əbədidir: 10-cu kitab. Bakı: Azərnəşr, 2002,472 s.



**SUMMARY**

**"THE CONTRACT OF THE CENTURY" AND THE ROLE OF HAYDER ALIYEV IN PUSHING AZERBAIJAN OIL TO THE WORLD MARKET**

***Salimov Sh.D., Karimova S.Ə.***

***Keywords:*** *"Deal of the Century", Azerbaijan oil, oil companies, world market, Istanbul declaration, Baku-Supsa oil pipeline, Baku-Novorasiyski, Baku-Tbilisi-Ceyhan*

In the presented article, after the signing of the "Contract of the Century", the issue of the release of Azerbaijani oil to the world market was investigated as one of the most important issues. During the research, various ways of transporting Azerbaijani oil to the world market were analyzed, both efficiency and the position of major powers, as well as in solving the problems caused by some states in the implementation of this project, the meetings of individual heads of state, negotiations conducted by Heydar Aliyev, agreements reached, concluded contracts and signed declarations were examined. At the same time, USA, Turkey, England, etc. are involved in selling Azerbaijani oil to the world market. He commented on the financial and political support given to Azerbaijan by the states.



**РЕЗЮМЕ**

**«КОНТРАКТ ВЕКА» И РОЛЬ ГАЙДЕРА АЛИЕВА В ПРОДВИЖЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ НА МИРОВОЙ РЫНОК**

***Салимов Ш.Д., Керимова С.А.***

***Ключевые слова:*** *«Контракт века», азербайджанская нефть, нефтяные компании, мировой рынок, Стамбульская декларация, нефтепровод Баку-Супса, Баку-Новорасийский, Баку-Тбилиси-Джейхан*

В представленной статье после подписания «Контракта века» вопрос выхода азербайджанской нефти на мировой рынок был исследован как один из важнейших вопросов. В ходе исследования были проанализированы различные способы транспортировки азербайджанской нефти на мировой рынок, как эффективность, так и позиция крупных держав, а также в решении проблем, возникающих у некоторых государств при реализации этого проекта, встречи отдельных глав государства, были рассмотрены переговоры,

проведенные Гейдаром Алиевым, достигнутые соглашения, заключенные контракты и подписанные декларации. В то же время США, Турция, Англия и др. участвуют в продаже азербайджанской нефти на мировой рынок. Он прокомментировал финансовую и политическую поддержку, оказываемую Азербайджану со стороны государств.

## "ƏSRİN MÜQAVİLƏSİ": BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ TÖHFƏ

**Zamanova Gülnar Çingiz qızı**
*Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan*
Zamanovagulnar@myrambler.ru

***Açar sözlər:*** *neft qaz boru kəməri, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi, Qərb*

*"Əsrin müqaviləsi" nin əsas töhfələrindən biri Azərbaycanın beynəlxalq və regional enerji layihələrində əsas oyunçuya çevrilməsi olub. Bu gün Azərbaycanı Qərb üçün vacib edən təkcə İsrailin enerji təhlükəsizliyinə deyil, həm də transatlantik məkana verdiyi töhfədir. Xüsusilə, Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan Avropa ölkələrinin enerji təchizatı üçün Alternativ enerji idxal mənbələri arasında mühüm yer tutur. Əvvəllər Rusiya Avropaya karbohidrogen ehtiyatlarının əsas tədarükçüsü sayılırdı, lakin bu gün Rusiyanın payı dolayı yolla çox azdır. Bu gün Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənub Qaz Dəhlizi kimi layihələr Azərbaycan ilə Qərb arasında iqtisadi münasibətlərin əsasını təşkil edir. Azərbaycan Avropanın enerji tələbatını ödəməklə yanaşı, neft və qaz təchizatını genişləndirməyə və "Orta dəhliz"layihəsində əsas oyunçu olmağa çalışır.*

"Əsrin müqaviləsi" Azərbaycan ilə Qərb arasında iqtisadi münasibətlərdə yeni mərhələnin əsasını qoymuşdur. Bu müqavilənin Azərbaycan üçün ən böyük uğuru Bakının Gülüstan sarayında imzalanması və Azərbaycanın "Azəri", "Günəşli" və "Çıraq" yataqlarının istifadəyə verilməsi idi. Müqaviləni ilk olaraq Azərbaycan və ABŞ daxil olmaqla 8 ölkə və 13 (Amoco, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) şirkət imzalasa da, daha 41 neft şirkəti də bu müqaviləyə qoşulmuşdur [2, 84].

"Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafına böyük təkan verməklə yanaşı, Azərbaycanda milli valyutanın, qiymətlərin sabitliyinə və işsizliyin azalmasına da səbəb olmuşdur. Eyni zamanda, Azərbaycan hökuməti xarici valyuta ehtiyatları yaradaraq öz bank sistemini də möhkəmləndirməyə nail olmuşdur.

Bu gün Azərbaycan Ümummilli lideri Heydər Əliyevin neft diplomatiyasını Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Uğurla həyata keçirilən neft strategiyasının əsas istiqamətləri bunlardır:

- ✓ Azərbaycanın dünyanın enerji daşıyıcıları bazarına çıxışını təmin etmək;
- ✓ Azərbaycanın karbohidrogen resurslarının dünya bazarına sürətli və sərbəst çıxışını təmin etmək üçün boru kəmərləri sisteminin yaradılması;
- ✓ Neftdən gələn gəlirləri gələcək nəsillər üçün toplayaraq artırmaq;
- ✓ Qərbin qabaqcıl texnologiyasının Azərbaycana gətirilməsi [1].

"Əsrin müqaviləsi"nin əsas töhfələrindən biri də Azərbaycanın beynəlxalq və regional enerji layihələrinin əsas oyunçusuna çevrilməsi oldu. Bu gün Azərbaycanı Qərb üçün önəmli edən ölkənin nəinki, Trans-Atlantik məkanın həmçinin, İsrailin enerji təhlükəsizliyinə verdiyi töhfələrdir. Xüsusilə, Rusiya-Ukrayna müharibəsindən sonra Avropa ölkələrinin enerji təminatı üçün alternativ enerji idxalı mənbələri arasında Azərbaycan mühüm yer tutur.

Qərbin Cənubi Qafqazda enerji siyasətinin əsasını neft və qazın nəqli üçün nəzərdə tutulmuş yeni nəqliyyat dəhlizlərinin əsasını təşkil edən boru kəmərləri inşa etmək təşkil edir. Bu nəqliyyat dəhlizləri təkcə Cənubi Qafqazın iqtisadi inkişafını canlandırmaq deyil, həmçinin, Xəzərin enerji resurslarının ixracı üzərində Moskvanın inhisar nəzarətini aradan qaldırmaq məqsədi daşıyır.

Xəzərin enerji resurslarının beynəlxalq bazarlara çıxması ABŞ-nin enerji təhlükəsizliyini gücləndirməyi və Avropa ölkələrinin Rusiyanın enerji ixracından asılılığını azaltmağı vəd edir [5].

Bu günkü gün Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənub Qaz Dəhlizi kimi layihələr Azərbaycan və Qərb arasında iqtisadi əlaqələrin əsasını təşkil edir. Bakı-Tbilisi-Ceyhan Avropa, Azərbaycan, Türkiyə və Gürcüstan üçün iqtisadi və enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb etməklə yanaşı, Qara dəniz boğazlarının işini də yüngülləşdirir. BTC boru kəməri həm də vaxtında çatdırılma baxımından da çox əhəmiyyətli layihədir. Həmçinin, Bakı-Tbilisi-Ceyhan Şərq-Qərb enerji, eləcə də, telekommunikasiya və nəqliyyat dəhlizlərinin də inkişafına təkan vermiş oldu. Bakıdan Ceyhana qədər uzanan bu kəmər, nefti kənara dağılmadan daşımaqla yanaşı, dağıldığı halda belə aşağı xərc hesabına həyata keçirir. Bir sözlə, Bakı-Tbilisi-Ceyhan Dünya Bankı daxil olmaqla digər beynəlxalq təşkilatların ətraf mühit tələblərinə cavab verərək dəstək almış bir kəmərdir. Yarandığı dövrdə layihənin dəyəri $2,95 milyard idisə, neftin qiyməti və daşıyıcıların qiymətinin qalxması ilə tikinti xidmətinin də qiyməti artmış və nəticədə, onun dəyəri 5 milyard dolları keçmişdir [4, 63].

Azərbaycan Prezidenti İlham Əliyevin neft diplomatiyası istiqamətində həyata keçirdiyi uğurlu addımlardan biri də 2017-ci il sentyabrın 14-də "Əsrin müqaviləsi" nin davamı olan "Yeni Əsrin müqaviləsi"nin imzalanması oldu. Sazişin Azərbaycan iqtisadiyyatının gələcək inkişafında böyük əhəmiyyəti vardır. Beləliklə, Azərbaycanın "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının istifadəsi və pay bölgüsünün iştirakçılar arasında dəyişdirilməsilə bağlı SOCAR, BP, İnpex, Chevron, Statoil, ExxonMobil, TP, İtochu, ONGC Videsh kimi dünyanın aparıcı şirkətləri arasında yeni saziş imzalandı. Nəticədə, "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə müddəti 2050-ci ilədək uzadılır ki, bu da Azərbaycan hökümətinin ən böyük uğuru idi [3].

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan dövlətlərdəndir. Azərbaycan və Türkiyənin Avropa ilə birgə həyata keçirdiyi ən böyük qaz layihəsi "Cənub Qaz Dəhlizi" layihəsidir. 2011-ci ildə bu layihəynən bağlı Avropa İttifaqı və Azərbaycan arasında "Anlaşma memorandumu" imzalansa da, investisiyayla bağlı problemlər onun həyata keçirilməsini müəyyən qədər ləngitmişdi. Yalnız 2013-cü ildə "Şahdəniz-2" layihəsinə sərmayə qoyulması ilə bağlı qərar verildikdən sonra bu məsələ öz həllini tapmışdı [3]. Nəzərə çatdırmaq lazımdır ki, "Cənub Qaz Dəhlizi" özündə Türkiyənin şərq hissəsi ilə qərb hissəsini birləşdirən "TANAP" (Trans-Anadolu Təbii Qaz Boru Kəməri Layihəsi), Avropa ölkələrindən Yunanıstan, Albaniya və İtaliyanı birləşdirəcək TAP (Trans-Adriatik Boru Kəməri Layihəsi) kəmərlərini və Şahdəniz-2 layihəsini özündə ehtiva edir. Hüquqi infrastrukturu 2012-ci il 26 iyunda yaradılan Trans-Anadolu Təbii Qaz Boru Kəməri Layihəsi (TANAP) Cənub Qaz Dəhlizi layihəsinin ən böyük hissəsidir. Bu boru kəməri Azərbaycan, Gürcütsan və Türkiyədən keçməklə Yunanıstana qədər uzanır. TANAP-ın əsas məqsədi təhlükəsizlik və sağlamlığı təmin etmək, tədarük zəncirindəki ölkələri investisiyaya və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə təşviq etməkdir. İcrası BP, SOCAR və BOTAŞ şirkətləri tərəfindən həyata keçirilən "TANAP" layihəsinə Dünya Bankı 800 mln. dollar, Asiya İnfrastruktur İnvestisiya Bankı 600 mln. dollar kredit ayıraraq dəstəkləmişdir. Bu boru kəməri Qərbin Azərbaycana qarşı artan tənqid tendensiyasını azaltmağa yardım edə bilər [4, 69-71]. Trans-Adriatik Boru Kəməri Layihəsi (TAP) layihəsi "TANAP" layihəsinin davamı hesab olunur. Belə ki, kəmər Türkiyə və Yunanıstan sərhədində TANAP ilə birləşərək Yunanıstan, Albaniya və həmçinin, Adriatik dənizindən keçərək təbii qazı İtaliyaya nəql edir. Bu layihə Azərbaycan qazını Avropaya nəql edən ən qısa və birbaşa yoldur. 2019-cu ilin iyun ayında Tap layihəsinin demək olar ki, 88% işi tamamlanmışdır [4, 73-74].

İlk dəfə olaraq "Cənubi Qaz Dəhlizi" layihəsi çərçivəsində Türkiyəyə qazın nəqli 2018-ci ildə həyata keçirilmişdir. Azərbaycan qazının Avropaya nəqlinə isə 2020-ci il dekabrın 31-dən başlanmışdır. 2022-ci ildə isə qazın ixracı 18% artaraq 22,3 milyard kubmetrə çatmışdır. Bu artım xüsusilə, Rusiya-Ukrayna müharibəsindən sonra baş vermişdir [6].

"TANAP" və "TAP" layihələri Rusiyanın Türkiyə və Avropada təsirini azaltdığı üçün Rusiya bu vəziyyətin uzun müddət davam etməsini öz maraqlarına təhlükə kimi hesab edir. Bu səbəbdən Rusiya Azərbaycan enerji siyasətində Rusiya maraqlarının nəzərə alınması üçün erməni

kartından istifadə etmişdir. Belə ki, 2020-ci il iyul ayında Azərbaycanın Tovuz şəhəri erməni separatistləri tərəfindən atəşə məruz qalmış və bundan sonra sentyabr ayında II Qarabağ müharibəsi başlamışdır. Məhz Tovuz rayonunun atəşə məruz qalmasının səbəbləri təhlil olunarkən Tovuz şəhərinin "Cənub Qaz Dəhlizi", "Bakı-Supsa", "Bakı-Tbilisi-Qars" dəmir yolu kimi beynəlxalq layihələrin keçdiyi yollara yaxın olması əsas səbəb kimi müəyyən olunmuşdur [4, 75].

Rusiya-Ukrayna müharibəsi başlayan vaxtdan bəri Azərbaycanın Qərbə, ABŞ və Aİ-na töhfəsi daha da artmışdır. Belə ki, Rusiyanın Ukraynaya hücumundan sonra Aİ Rusiyanın enerji resurslarından asılılığını azaltmaq üçün enerji təchizatını genişləndirməyə başlamışdır. Əvvəllər Rusiya Avropanının əsas karbohidrogen ehtiyatı tədarükçüsü hesab olunurdusa, bu gün Rusiyanın payı dolayı yollarla çox cüzi təşkil edir. Yaxın Şərq və Mərkəzi Asiya ölkələri ilə tədarükün artmasıla bağlı danışıqlar getsə də, ÇXR ilə bu dövlətlərin müqavilələri olduğu üçün onlar Aİ-nın tam olaraq ehtiyacını ödəyə bilmir. Ona görə də Avropa üçün digər enerji tədarükçülərinə ehtiyac yaranmışdır. Avropanın yeni enerji tədarükçüləri içərisində Azərbaycanın da rolunu xüsusi vurğulamaq lazımdır. Azərbaycan Avropanın enerji ehtiyacını ödəməklə yanaşı, öz neft və qaz tədarükünü də genişləndirmək və "Orta Dəhliz" layihəsinin əsas oyunçusuna çevrilməyə çalışır [7].

## Ədəbiyyat


1. Heydər Əliyevin neft strategiyası. [Elektron resurs] //https://azerbaijan.az/relat ed-information/131
2. Həsənov Ə. "Xəzər Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti Xəzər". Bakı: "Zərdabi LTD" MMC, 2016, 295 s.
3. Nəsirov E. Azərbaycan Avropanın yeni və alternativ enerji mənbəyidir, İqtisadiyyat . [Elektron resurs] // https://az.trend.az/business/3302175.html
4. Najafalıyev T. "Bağımsızlık sonrası Azerbaycan'nın enerji politkası ve Türkiye etkisi" // Yüksek Lisans tezi. Konya: 2021, 92 s.
5. Политика США на Южном Кавказе: Армения, Грузия и Азербайджан. [ Электрнный ресурс] // https://carnegieendowment.org/research/2017/05/us-policy-toward-the-south-caucasus-take-three?lang=ru
6. В Еврокомиссии отметили рост поставок газа из Азербайджана в ЕС на 40% в 2022 году. [ Электронный ресурс] // https://www.interfax.ru/business/884614
7. Kara A. Azerbaijan is the key to Europe's energy security. [ Electron resource] // https://moderndiplomacy.eu/2023/02/22/azerbaijan-is-the-key-to-europes-energy-security/



**SUMMARY**

**"CONTRACT OF THE CENTURY" " INTERNATIONAL COOPERATION AND CONTRIBUTION TO ENERGY SECURITY**

***Zamanova G.Ch.***

***Keywords:*** *oil and gas pipeline, Baku-Tbilisi-Ceyhan, Southern Gas Corridor, Western*

One of the main contributions of the "Contract of the Century" was the transformation of Azerbaijan into a key player in international and regional energy projects. Today, what makes Azerbaijan important for the West is not only the country's contribution to Israel's energy security, but also the Transatlantic space. In particular, after the Russian-Ukrainian war, Azerbaijan occupies an important place among alternative energy import sources for the energy supply of European countries. Previously, Russia was considered the main supplier of hydrocarbon reserves to Europe, but today Russia's share is very small, indirectly.Today, projects such as the Baku-Tbilisi-Ceyhan (BTC) and the Southern Gas Corridor form the basis of economic relations between Azerbaijan and the West. n addition to meeting Europe's energy needs, Azerbaijan is trying to expand its oil and gas supply and become a key player in the "Middle Corridor" project.

**РЕЗЮМЕ**

**«КОНТРАКТ ВЕКА»: МЕЖДУНАРОДНОЕ СОТРУДНИЧЕСТВО И ВКЛАД В ЭНЕРГЕТИЧЕСКУЮ БЕЗОПАСНОСТЬ**

***Заманова Г.Ч.***

***Ключевые слова***: *нефтегазопровод, Баку-Тбилиси-Джейхан, Южный газовый коридор, Западный*

Одним из главных вкладов «Контракта века» стало превращение Азербайджана в ключевого игрока в международных и региональных энергетических проектах. Сегодня то, что делает Азербайджан важным для Запада, – это не только вклад страны в энергетическую безопасность Израиля, но и Трансатлантическое пространство. В частности, после российско-украинской войны Азербайджан занимает важное место среди альтернативных источников импорта энергии для энергоснабжения европейских стран. Раньше Россия считалась основным поставщиком запасов углеводородов в Европу, но сегодня доля России косвенно очень мала. Сегодня такие проекты, как Баку-Тбилиси-Джейхан (БТД) и Южный газовый коридор, составляют основу экономических отношений между Азербайджаном и Западом. Помимо удовлетворения энергетических потребностей Европы, Азербайджан пытается расширить поставки нефти и газа и стать ключевым игроком в проекте «Срединный коридор».

## AZƏRBAYCANIN NEFT STRATEGIYASI VƏ ALMANIYA

**Məhərrəmova Sona Səbəddin qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*
sona.maharramova@sdu.edu.az

***Açar sözlər:*** *neft strategiyası, Almaniya, karbohidrogen ehityatları, müqavilə, şirkət.*

***Xülasə.*** *Müstəqilliyin ilk illərində alman iş adamları Azərbaycana investisiya qoymaqdan çəkinmiş, seyrci mövqe tutmuşdular. Bunun bir neçə səbəbləri vardır ki, başlıcası ən böyük təhlükə hesab edilən daxili sabitsizlik idi. Bundan başqa alman iş adamlarını 3 əsas məsələ Azərbaycanda yerli və əcnəbi iş adamlarının birgə müəssisələr yaratması üçün hüquqi bazanın olması, əhalinin sosial-maddi vəziyyəti, yəni alıcılıq qabiliyyəti, Bakıda regional mərkəz açmaqla həm Cənubi Qafqazda, həm də Orta Asiyada fəaliyyət göstərməyin mümkünlüyü maraqlandırırdı ki, bu şərtlərin heç biri respublikada 1991-1994-cü illərdə Əsrin müqaviləsinin imzalanmasına kimi mövcud olmamışdır.*

SSRİ-nin süqutu bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da yeni ictimai, siyasi və iqtisadi münasibətlər sisteminin yaranmasına səbəb olmuşdur. Hər bir dövlətin və xalqın mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. Keçmiş SSRİ tərkibində sərt planlaşdırılmış təsərrüfat sistemindən sonra müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin formalaşdırılması, bazar iqtisadiyyatına keçid və dünya təsərrüfat sisteminə inteqrasiya günün vacib tələbi idi.

Məhz belə bir dövrdə, ağır sosial- iqtisadi böhran içində yaşayan Azərbaycanın Almaniya kimi güclü iqtisadiyyatı olan sənaye ölkəsilə iqtisadi əlaqələr qurması günün tələbi idi. Belə ki, Azərbaycanın iki fərqli iqtisadi sistemin transformasiyası və dünya təsərrüfat sisteminə az itkilərlə inteqrasiya təcrübəsinə malik Almaniyanın maliyyə vəsaitinə və yeni texnologiyalarına çox böyük ehtiyacı vardır.

Digər tərəfdən Azərbaycana alman kapitalının seyrci mövqeyi Almaniya hökumətinin özünün soyuq münasibətindən qaynaqlanırdı ki, bunun da obyektiv və subyektiv səbəbləri vardı. Belə ki, AFR –in başı öz daxili problemlərinə, birləşmədən irəli gələn sosial - iqtisadi məsələlərin həllinə qarışmışdır ki, nəticədə 1991-1994-ci illər arasında Almaniyada iqtisadi çətinliklər artmış, AFR Avropa rifah cədvəlində 2-ci yerdən 6-cı yerə düşmüşdür, qiymətlər artmış, infilyasiya yüksəlmişdir [11, s.250-274].

Qeyd olunan faktlardan da aydın olur ki, Azərbaycanda iqtisadi böhranın yaşandığı dövrdə AFR-in özünün də vəziyyəti heç ürəkaçan olmamışdır. Lakın müvəqqəti çətinlikləri nəzərə alıb əlverişli geostrateji mövqeyi və zəngin təbii sərvətləri olan Azərbaycana uzaqdan seyrci möqedə qalması, AFR-ə yaxşı imkanın əldən verilməsinə gətirib çıxaracaqdır ki, bunu neft kontraktlarının imzalanmasında və almanların sonrakı peşimançılığında aydın görmək olur.

Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb etmişdir. Neftin dünya iqtisadiyyatının

inkişafında oynadığı böyük rol onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm geosiyasi və geostrateji faktora çevirmişdir. Bəzi siyasətçilər XX əsri neft əsri adlandırırlar. Neftin bu əsrdə dünya siyasətində və iqtisadiyyatında oynadığı müstəsna rol danılmazdır. Bu əsrdə Azərbaycanın neft mərkəzlərindən birinə çevrilməsi bizə bir çox xalqların neçə-neçə əsr ərzində çatdığı zirvələri qısa müddətdə fəth etmək imkanı vermişdir. Neft mənbələri, neft kəmərləri, neft bazarları uğurunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına beynəlxalq siyasətin gedişinə öz güclü təsirini bu gün də göstərməkdədir.

Azərbaycanın iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Müəllifi Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü ilin sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə 6 xarici ölkəni təmsil edən 10 tanınmış neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki Azəri, Çıraq və Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. "Əsrin müqaviləsi" adını almış bu müqavilə, sonrakı illərdə neft strategiyası və konsepsiyasının, eləcə də iqtisadi inkiaf konsepsiyasının uğurla həyata keçirilməsinin əsasını qoymuşdur. Bu barədə Prezident Heydər Əliyev belə demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir" [7].

Azərbaycanda bütün kateqoriyalar üzrə karbohidrogen ehtiyatları 7 milyard barelə bərabərdir, ki bu da respublikanı dünyanın ən iri neft regionları sırasına daxil edir [12, s.30-44, 13, s.52-57]. Karbohidrogen ehtiyatlarının zənginliyi, əlverişli geostrateji mövqeyi və Avroasiya nəqliyyat dəhlizi üzərində yerləşməsi dünya ölkələrinin Azərbaycan neftinə marağını artırmışdır. Məhz buna görə də, indi müqavilələrin həyata keçirilməsində dünyanın ən iri ölkələrinin 30 neft şirkəti iştirak edir [2, s.149]. Prezident Heydər Əliyev deyirdi: "Neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrini inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişlı bir mənbədir" [7].

Tarixdən məlumdur ki, 1879-cu ildə Rusiya imperiyası və Transqafqazın neft sənayesində Berlin dairələrini təmsil edən "Nobel qardaşları yoldaşlığı" səhmdar cəmiyyəti fəaliyyət göstərmiş və bu cəmiyyət Xəzər dənizində ən böyük neftdaşıma donanmasının sahibi idi [8, s.101-107]. XX əsrin əvvəllərində isə Azərbaycan Almaniyaya böyük miqdarda neft və neft məhsulları göndərirdi və əldə olunan statistik malumata görə, o illərdə Almaniyanın neft məhsullarına, ağ neftə olan tələbatının 20%-i Azərbaycandan göndərilən məhsullar hesabına ödənilirdi.

AFR-in Bakıdakı səfiri M.Şmunku qəbul edərkən ölkənin təbii sərvətlərinin işlənməsində Almaniya şirkətlərinin Azərbaycanla əməkdaşlıqda hələlik gecikdiklərini təssüflə qeyd edən ölkə rəhbəri demişdir ki, yeraltı sərvətlərimizin işlənməsində bizimlə əməkdaşlıq etmək istəyənlərin sayından korluğumuz yoxdur. Sadəcə olaraq istəyirik ki, Avropanın böyük dövlətlərindən biri, dünya siyasətində sanballı yeri olan, Azərbaycanla əlaqələr baxımından ənənələrə malik Almaniya ilə əməkdaşlığımız fəal inkişaf etsin [4]. Der Spiegel jurnalında nəşr olunmuş "Pul səsi", "Qafqazda ən böyük neft savaşı" və "Xəzər neftinin bölüşdürülməsində Almaniya şirkətlərinin zəif iştirakı" məqalələrində də bu sahədə alman iş adamlarının gecikdiyi qeyd edilmişdir [1, s.40].

Sonralar AFR Hökumət rəhbərləri ölkələrinin nəhəng firmalarının neft sahəsində Azərbaycanda iş qurmaları üçün şirkətlərin rəhbərlərinə məktub verərək Prezident Heydər Əliyevdən onlara şərait yaratmağı xahiş etmişdilər. Belə şirkətlərdən biri Almaniyanın 3 böyük konsernini birləşdirən Deminex-Wintershall şirkəti 1997-ci il yanvar ayinin 13-də imzalanmış müqaviləyə əsasən "Lənkəran dəniz, Talış dəniz perespektiv strukturları" layihəsində 30% -lik payla Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənməsində yer almışdır [14].

Onu da qeyd edək ki, 1995-ci ildə neft sahəsində Almaniyadan Azərbaycanda fəaliyyət göstərən sadəcə "Qrünvald" şirkəti Ramanadakı 7-ci mədəndə "Azəralmneft" Azərbaycan-Almaniya birgə müəssisəsi ilə quruda neft çıxarılması ilə məşğul olurdu və Ramanadakı bu yataqlar hələ əsrin əvvəllərində Nobel şirkəti tərəfindən istismar edilmişdir [5]. Quruda neftçıxarmayla məşğul olan "AzGerneft" birgə müəssisəsi Sabunçu rayonunda fəliyyət göstərir. "Deutag Drilling" qazma şirkəti birinci konsorsium çərçivəsində "Azəri," "Çıraqlı" yataqlarında qazma işlərində iştirak etmişdi.

Sonrakı illərdə alman iş adamları çəkinmədən sərmayələrini neft, neftlə bağlı xidmətlərə qoymuşdur. İndi Azərbaycan nefti Batumi-Poti limanı vasitəsi ilə İtaliyanın Triyest limanına gətirilir və oradan isə emal üçün Cənubi Almaniyaya nəql edilir. Neftlə bağlı xidmətlərdə Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsinə ayrılmış 3 milyard dollar vəsaitin 1 milyardını BP təminatçı şirkətlərə ayırmışdır ki, bunun 250 milyon dolları alman şirkətlərinə verilmişdir. EUPEK şirkəti yüksək keyfiyyətli korroziyaya davamlı borular istehsal edir və 120 milyon dollarlıq sifariş yerinə yetirmişdir. Onuda qeyd edək ki, EUPEK-Azərbaycan birgə müəssisəsinin açılışı 2003-cü il oktyabrın 2-də olmuş. Bu borulardan "Azəri- Çıraq - Günəşli"dən Səngəçal terminalına kəmər çəkilişində istifadə edilmişdir. Bundan başqa 1 fevral 2005-ci ildə "Oyl and Qas ProServis MMC" ilə neft və qaz avadanlıqlarına, dəzgahlarına texniki xidmət fəaliyyəti sahəsində müqavilə imzalanmışdır. Bölgüyə əsasən Simens Turbomashineri İnternational Holdinq 25,0%, Target Petrolium Azerbaydcan 45,10%, ARDNŞ 29, 90% pay əldə edirdi [15].

Bakı-Supsa neft kəmərinin Səngəçal terminalı Almaniyanın "Gebeg" tikinti firması tərəfindən inşa edilmişdir. "Gebeg" şirkətinin keçmiş əməkdaşı German Tsisnits Almaniyanın məşhur "Der Shpigel" dərgisinə müsahibəsində demişdir ki, ...gələcəkdə Bakıdan pul səsi gələcək [1, s.39-40].

Neft və qaz ehtiyatlarının işlənməsi, həmçinin onların dünya bazarlarına ixracı üzrə nəhəng layihələrin həyata keçirilməsi sayəsində Xəzər regionu XXI əsrdə dünyanın əhəmiyyətli regionlarından birinə çevrilmişdir. 1994-cü ildən bu vaxta qədər ARDNŞ və xarici neft şirkətləri arasında karbohidrogen ehtiyatının kəşfiyyatı, hasilatı və məhsulun pay bölgüsü prinsipi üzrə 26 saziş imzalanmışdır və bu müqavilələr çərçivəsində Respublikaya qoyulacaq investisiyaların proqnozlaşdırılan həcmi 60 milyard ABŞ dolları təşkil eəcək [16, 13, s.30-44]. Əsrin müqaviləsinə əsasən 504 mln ton neft çıxarılması nəzərdə tutulmuşdur, onun da 244 milyon tonu mənfəət olaraq Azərbaycana çatacaq [9, s.53-60]. Bir barrel neftin qiyməti 35 ABŞ dolları olduğu təqdirdə, qarşıdakı 20 il ərzində Azərbaycanın əldə edəcəyi neft gəlirləri 140 milyard ABŞ dolları olacaq.

Dünyada, eləcə də Almaniyada getdikcə neft və qaz ehtiyatlarına olan tələbatın artması AFR hökumətinin neft hasil edən ölkələrlə, o cümlədən Azərbaycanla iqtisadi əlaqələrin gücləndirilməsinə gətirib çıxarmışdır.Belə ki, AFR hökumətinin başlıca məqsədlərindən biri ölkənin enerji asılılığının diferensiallaşdırılmasıdır.

1993-cı ildən 2006-cıilin sonuna qədər Almaniya hökuməti ölkəmizin iqtisadiyyatına 165 milyon dollar sərmayə yönəltmişdi ki, bu investisiyanın 30,7 faizi respublikanın neft-qaz sektoruna yönəldilmişdir [6]. AFR neft və neft məhsulları idxal edən ölkə kimi 2002- ci ildə Azərbaycandan 1,5% neft, 2004-cü ildə 139,3 min ton xam neft, 2,3 min ton ağ neft, 2005-ci ildə 0,9 milyon ton neft, 2006-cı ilə 1,7 milyon ton neft [3], 2007-ci ildə isə 3 milyon ton neft idxal etmişdir [10].

Əsası ümummilli lider H.Əliyev tərəfindən qoyulan neft strategiyası bu gün onun layiqli davamçısı Azərbaycan rəhbəri İ.Əliyev tərəfindən uğurla davam etdirilir. Bu sazişlərin bağlanmasının Azərbaycan Respublikasına və onun vətəndaşlarına nələrin vəd edildiyi barədə Prezident İlham Əliyev demişdir: "Son illərdə həyata keçirilən neft strategiyası bu yolun düzgün olduğunu bir daha sübut etmişdir. Amma bu o demək deyil ki, biz gələcəyimizi yalnız neftlə bağlamaq istəyirik. Neft faktoru bizim üçün məqsəd deyil, vasitədir. Nəticədə güclü iqtisadi potensial yaradılacaq və bu da ölkənin müstəqilliyini bundan sonra da qoruyub möhkəmləndirməyə imkan verəcəkdir" [16].

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etmişdir. Azərbaycanda neft bumu başlayıb, Dünyada isə neft-qaz sahəsində yeni

mənbələrə ehtiyac duyulur. Bu da Xəzərətrafı regiona beynəlxalq diqqəti getdikcə daha çox cəlb edir. BTC və BTƏ-nin çəkilməsi, gələcəkdə NABUKKO layihəsinin reallaşması Avropanın enerji təhlükəsizliyi üçün olduqca vacibdir. Almaniyanın ikinci böyük qaz şirkəti olan "RWE AG" NABUKKO layihəsinə qoşulmuşdur və əvvəllər investisiya qoymağa cəsarət etməyən Almaniya, 2008-ci ilin yanvarında AFR İqtisadiyyat və Texnologiyalar Naziri M.Qlosun adından Azərbaycan Prezidentinə ARDNŞ-in Baden Vürtenberq əyalətində nümayəndəliyini açması xahişi ilə müraciət etmişdir [17].

"Əsrin müqaviləsi" Azərbaycanın daxili və xarici siyasətinə böyük təsir göstərmişdir. Belə ki, "Əsrin müqaviləsi" ölkədə ictimai –siyasi sabitliyin yaradılmasına müsbət təsir göstərərək beynəlxalq aləmlə münasibətlərin daha səmərəli qurulmasına imkan yaratmışdır. Eyni zamanda müqaviləyə qoşulmuş iqtisadi partnyorlar avtomatik olaraq həm də siyasi tərəfdaşlar kimi çıxış etməyə başladılar. Azərbaycanın beynəlxalq nüfuzu artdı və o, regionun liderinə çevrildi. Azərbaycanda dayanıqlı iqtisadi münasibətlər sistemi yarandı ki, bu da yeni iqtisadi tərəfdaşların ölkəyə cəlb olunmasına təkan verdi. Beynəlxalq birlik regionun taleyi ilə bağlı bütün məsələlərdə ilk növbədə Azərbaycanın maraqlarını nəzərə almaq zərurəti ilə qarşılaşdı və Qərbin ölkəmizə külli miqdarda kapital qoyması təhlükəsizliyin bir növ təminatçısına çevrildi. Regiondakı iqtisadi və siyasi münasibətlərin xarakteri xeyli dərəcədə dəyişdi. Bu müqavilələr Azərbaycanın Qərbyönümlü siyasət yürütdüyünü ortaya qoydu və buna bütün dünyanı inandırdı. Bu isə ölkənin iqtisadi və siyasi müstəqilliyinin möhkəmləndirilməsi üçün həyati əhəmiyyət kəsb edirdi. Cəmiyyəti vahid bir ideologiya ətrafında birləşdirməyə və milli dövlətçilik ideologiyasının formalaşmasına stimul vermiş oldu. Azərbaycanda demokratik ənənələrin, bazar iqtisadiyyatı prinsiplərinin təşəkkül tapmasına ciddi təsir göstərdi. Müstəqilliyin dönməzliyinə əsaslı təminat yaratdı. Bu gün neft və qaz hasilatından əldə edilən gəlirlər Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə və Almaniya iqtisadiyyatının müxtəlif sahələri ilə əlaqələr yaradılmasına imkan verir.

## Ədəbiyyat


1. Abdullayev Ç.Ə. Almaniya-Azərbaycan əlaqələri. Bakı: "Azərbaycan Milli Ensklopediyası", 2000, 156 s.
2. Atakişiyev Müşfiq. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş. Bakı: Azərbaycan, 2004, 263 s.
3. Azərbaycan – Almaniya münasibətləri daha sürətlə inkişaf edəcəkdir Azərbaycan Prezidenti İlham Əliyev Almaniyaya rəsmi səfəri. Berlində Azərbaycan-Almaniya biznes formunda Prezident İlham Əliyevin nitqi. AzərTAc. "Azərbaycan" qəz.., Bakı. 2007, 21 fevral
4. Azərbaycan Prezidenti Heydər Əliyev Almaniya səfirini qəbul etmişdir. AzərTAc. "Azərbaycan" qəz.., Bakı. 1996, 18 iyun
5. Azərbaycanın Baş Naziri Fuad Quliyevin AFR Federal Xarici İşlər Naziri ilə görüşü. AzərTAc. "Azərbaycan" qəz.., Bakı. 1995, 23 dekabr
6. Cabbarlı Akif. Azərbaycan-Almaniya əməkdaşlığı ölkəmizin Avropa İttifaqı ilə əlaqələrində mühüm rol oynayır. "Azərbaycan" qəz.., Bakı. 2007, 16 fevral.
7. Heydər Əliyev. Azərbaycan XXI əsrin və Üçüncü Minilliyin ayrıcında. Yeni 2001-ci il, Yeni əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Azərbaycan" qəz.., Bakı. 2000, 30 dekabr
8. Əliyeva Sevinc. Azərbaycan-Almaniya münasibətlərinə dair // Dirçəliş XXI əsr, 1999, №19, s.101-107
9. Nağıyev Əli. Müstəqil Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev yolu / Heydər Əliyev və Müasir Azərbaycan. I Ümumrespublika Əliyevşünaslıq konfransının materiallarının materialları 6 may 2003-cü il. Bakı: Azərbaycan universiteti nəşriyatı, 2003, 53-60 s
10. Niftəliyev Elgün. Berlində "Azərbaycanda çoxsaylı dinlərin birgə yaşayışı: tolerantlıq və ictimai inkişaf" mövzusunda tədbirlər keçirilmişdir. "Azərbaycan" qəz.., Bakı. 2008, 7 iyun

11. Германия. Факты. Ведомство печати и информации федеративного правительство. Федеративной Республике Германия – 50 лет. Франкфурт-на-Майне: Изд-во «Societäts-Verlag». 1999. 512 с.
12. Nabiyev Rizvan. Erdölpolitik in Aserbaidschan Jahrbuch Aserbaidschanforschung / Beiträge aus Politik, Wirtschaft, Geschichte und Literatur. Band 1. Berlin: Verlag Dr.Köster, 2007, 30-44 p.
13. Safiyev Rail. Aserbaidschan und europäische energiesicherheit / Aghaev Mardan und Suleymanova Ruslana. Jahrbuch Aserbaidschanforschung. Beiträge aus Politik, Wirtschaft, Geschichte und Literatur. Band 1. Berlin: Verlag Dr.Köster, 2007, 52-57 p.
14. www.socar.az/5-projects-view-az.html
15. www.socar.az/16-combestablishments-view-az.html
16. www.SOCAR.gov.az. Neft strategiyası. Azərbaycanın yeni neft strategiyası.
17. www.mfa.gov.az/images/stories/Countries/Almaniya/01.pdf. Azərbaycan-Almaniya ikitərəfli münasibətləri. İkitərəfli münasibətlərə dair arayış.

**SUMMARY**
**GERMANY AND AZERBAIJAN'S OIL STRATEGY**
***Maharramova S.S.***

***Key words:*** *oil strategy, Germany, hydrocarbon reserves, contract, company*

In the first years of independence, apple businessmen refrained from investing in Azerbaijan and took a bystander position. There are several reasons for this, but the biggest threat to his administration was internal instability. In addition, the German people were interested in 3 main issues: the existence of a legal basis for the creation of joint enterprises in Azerbaijan and foreign businessmen, the socio-material situation of the population, i.e. purchasing power, and the possibility of operating in both the South Caucasus and Central Asia by opening a regional center in Baku. was not defined in a republic until the signing of the 1st century agreement of 1994-1994.

**РЕЗЮМЕ**
**ГЕРМАНИЯ И НЕФТЯНАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНА**
***Магеррамова С.С.***

***Ключевые слова***: *нефтяная стратегия, Германия, запасы углеводородов, контракт, компания*

В первые годы независимости яблочные бизнесмены воздерживались от инвестиций в Азербайджан и заняли позицию стороннего наблюдателя. Для этого есть несколько причин, но самой большой угрозой для его администрации была внутренняя нестабильность. Кроме того, немецкий народ интересовали 3 основных вопроса: наличие правовой основы для создания совместных предприятий в Азербайджане и иностранных бизнесменов, социально-материальное положение населения, т.е. покупательная способность, и возможность деятельности в как Южный Кавказ, так и Центральная Азия путем открытия регионального центра в Баку не были определены в качестве республики до подписания соглашения I века 1994-1994 годов.

# TANAP LAYİHƏSİNİN ƏHƏMİYYƏTİ

**Nəsirova Nərgiz Məhəmməd qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
Nasirova.nargiz@sdu.edu.az

***Açar sözlər:*** *Təbii qaz, layihə, geosiyasi, ixracatçı.*

***Xülasə.*** *Tədqiqat işi TANAP qaz layihəsindən, onun region üçün əhəmiyyətindən bəhs olunur. İki yüz ilə yaxındır ki, Azərbaycan neft-qaz sənayesində fəal iştirak edir və "qara qızıl"ın doğulduğu yerlərdən biri hesab olunur. 2016-cı ilin statistikasına görə, Azərbaycan gündə 800 min bareldən çox neft, hər il təxminən otuz milyard kubmetr təbii qaz hasil edir ki, bu da cəmi 10 milyon əhalisi olan kiçik Cənubi Qafqaz dövləti üçün əla göstəricidir. Lakin bu əsrin ikinci onilliyi irəlilədikcə Azərbaycan Respublikası qlobal neft-qaz sənayesində əsas statusunu geri qaytarmaq üçün ciddi cəhdlər göstərmişdir.*

Türkiyə və Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın ən mühüm göstəricilərindən biri olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) layihəsi Cənubi Qafqazı birləşdirən Qaz Dəhlizinin ən mühüm hissəsidir. TANAP Türkiyənin, Yaxın Şərqin və Avropanın ən uzun (1811 km) təbii qaz boru kəməri və ən böyük diametrə (56") malik olduğu iddia edə bilər və Azərbaycanın Şahdəniz bölgəsində hasil edilən təbii qazı ilk olaraq Türkiyəyə və sonra Avropaya nəql etmək üçün tikilmişdir.

TANAP Türkiyə-Gürcüstan sərhədində yerləşən Ərdahan vilayətinin Posof rayonunun Türkgözü kəndindən başlayır və Türkiyədən keçməklə 20 vilayətdən keçir səfərini Yunanıstan sərhədindəki Ədirnənin İpsala mahalında tamamlayır. Bu məqamda TANAP təbii qazı Avropa ölkələrinə daşıyan TAP Təbii Qaz Boru Kəmərinə qoşulur və bununla da ölkəmizə və Avropa İttifaqına təbii qaz təchizatının təhlükəsizliyi və müxtəlifliyi yaxşılaşır.

TANAP öz fəaliyyətini Azərbaycan təbii qazını nəql etmək məqsədi ilə keyfiyyət, əməyin mühafizəsi və təhlükəsizliyi üzrə beynəlxalq standartlara, sosial və ekoloji standartlara uyğun yüksək ötürmə qabiliyyətinə malik təbii qaz kəmərinin tikintisi və istismarı missiyası ilə Türkiyədə və Avropada alıcılara etibarlı və sərfəli şəkildə həyata keçirir. Bununla da TANAP alternativ qaz mənbəyi və Türkiyənin ikinci ən böyük qaz təchizatçısı kimi çıxış edən Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud siyasi və iqtisadi əməkdaşlığın daha da inkişafına töhfə verir. TANAP Türkiyə və Avropanın enerji təhlükəsizliyini artırmaqla Azərbaycan, Türkiyə və Aİ-ni bir-birinə yaxınlaşdırır, təklif etdiyi potensialla qlobal geosiyasi enerji mənzərəsini yenidən formalaşdırır. TANAP-ın bu geosiyasi xüsusiyyəti gələcək enerji layihələri üçün ilham mənbəyi rolunu oynayır. [2]

Azərbaycan qazını Şahdəniz (ŞD) Mərhələ 2-dən Türkiyə və Avropaya daşıyacaq Trans Anadolu Təbii Qaz Boru Kəmərinin (TANAP) enerji layihəsinin rəsmi açılış mərasimi 2018-ci ilin iyun ayında Türkiyənin Eskişehir şəhərində Azərbaycan Respublikasının Prezidenti – İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilmişdir.

Nəzərə almaq lazımdır ki, xalis qaz ixracatçısı kimi Azərbaycanın Avropa enerji bazarına təbii qaz ixrac etmək üçün lazımi tranzit infrastrukturuna ehtiyacı var idi, ona görə də infrastrukturun mövcudluğu ölkə üçün enerji resurslarının səmərəli idarə olunmasını şərtləndirən əsas amillərdən biridir.

Şahdəniz qaz-kondensat yatağının ("ŞD2"), Cənubi Qafqaz Boru Kəmərinin tam yatağının işlənilməsinin səmərəli həyata keçirilməsinə dövlət dəstəyi göstərməklə "Cənub Qaz Dəhlizi"nin (CQD) fəaliyyətini təmin etmək Azərbaycan üçün çox vacib idi. TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrinin həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin 29 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə Dövlət Komissiyası yaradılmışdır.[1]

Bu mühüm enerji layihələrindən biri də Xəzər qazını ilk növbədə Türkiyə və Avropa istehlakçılarına çatdıracaq 1850 km uzunluğunda TANAP boru kəməridir. Bu layihə CQC-nin mühüm seqmentidir və Azərbaycan qazını Avropanın enerji bazarına çatdırmaq üçün CQB-nin yekun hissəsi olan TAP layihəsi üçün möhkəm əsas yaratmışdır. Təxminən 8 milyard dollar investisiya dəyəri olan TANAP layihəsi Azərbaycan üçün strateji əhəmiyyətə malikdir, çünki Azərbaycanın payı 58%-dir, Avropa üçün də TAP layihəsi üçün "zəmin" təşkil etdiyi üçün vacibdir.

TANAP Gürcüstan-Türkiyə sərhədindən başlayaraq , Türkiyə ərazisindən keçərək Yunanıstan sərhədi yaxınlığındakı İpsala bölgəsində başa çatır və daha sonra təbii qazın Avropaya çatdırılması üçün TAP (SGC-nin Avropa ayağı) sisteminə qoşulur. TANAP vasitəsilə Türkiyənin enerji istehlakçılarına qaz nəqli artıq çox uğurla həyata keçirilir. Azərbaycan TANAP vasitəsilə Türkiyəyə 3 milyard kubmetrdən çox təbii qaz ixrac etmişdir. Türkiyə TANAP vasitəsilə ildə 6 milyard kubmetr Azərbaycan qazı alacaq.[1]

Göründüyü kimi, bu, əlaqəni və regional əməkdaşlığı dəstəkləyən regionlararası enerji layihəsidir. TANAP çox mühüm rol oynayır, çünki layihə həm iqtisadi, həm də geosiyasi əhəmiyyətə malikdir. Birincisi, Azərbaycan Rusiya qaz mənbələrindən yüksək dərəcədə asılı olan Avropa enerji bazarına xalis qaz ixracatçısı olmaq üçün iddialı istək nümayiş etdirdi və təchizatın və mənbələrin təhlükəsizliyi Aİ-nin enerji təhlükəsizliyi üçün həssas məsələdir. Xəzər dənizindən

yeni qaz mənbələrini Avropanın enerji istehlakçılarına çatdıran Azərbaycan Aİ-nin enerji təhlükəsizliyinə töhfə verəcək.[3]

İkincisi, kəmərin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və maksimum 31 milyard kubmetrlə Azərbaycan təkcə ŞD yatağından deyil, həm də digər qaz yataqlarından birbaşa Avropayan qaz nəql etməklə təbii qazın həcmini artıra biləcək. Avropa enerji bazarının təhlili göstərir ki, Aİ-də təbii qazdan asılılıq artıb. Aİ-yə təbii qaz ixrac edən bütün digər ölkələrin qlobal payı ticarət dəyəri baxımından 2018-ci ildə 4,8%, 2019-cu ildə isə 8,8% təşkil edib. Rusiya 40,5% payla 2018-ci ildə Aİ-nin ən böyük təbii qaz tədarükçüsü olub. Rusiyadan sonra ikinci ən böyük pay 35,1% ilə Norveç olub. Avropanın Rusiya qazından enerji asılılığı yüksəkdir və Aİ vahid təchizatçıdan yüksək asılılığını azaltmaqda maraqlıdır. Bu baxımdan, ixrac marşrutlarının və qaz tədarükünün şaxələndirilməsi Aİ üçün son dərəcə vacibdir. Qeyd etmək lazımdır ki, TANAP və TAP qaz kəmərləri Avropa Komissiyasının 2017-ci ildə "Ümumi Maraq Layihələri" / Üçüncü PCI siyahısına daxil edilib.[1]

Sonda TANAP Türkiyə üçün vacibdir, çünki Türkiyə həm artan təbii qaz tələbatını ödəyəcək, həm də tranzit ölkəyə çevriləcək. Enerji layihələri Türkiyəni regional enerji mərkəzinə çevirir və onun geosiyasi əhəmiyyətini artırır.

Azərbaycan üçün Cənub Qaz Dəhlizi ölkəni regionda aparıcı qaz ixracatçısına çevirir. Təbii qazın satışından əldə edilən enerji gəlirləri milli iqtisadiyyatın digər sahələrinin inkişafına dəstək verəcək. Bundan əlavə, Azərbaycan mühüm təbii qaz tranziti ölkəsinə çevrilə bilər. Gələcəkdə ehtimal olunan Transxəzər qaz kəmərinin reallaşdırılması ilə Türkmənistan təbii qazı da Azərbaycan üzərindən Avropanın enerji istehlakçılarına ixrac oluna bilər. Bütün enerji layihələri aydın şəkildə göstərir ki, Azərbaycan öz enerji siyasətini uğurla həyata keçirir, regional əməkdaşlığı və bağlantıları dəstəkləyir, eləcə də milli iqtisadiyyatı gücləndirir.

## Ədəbiyyat


1. Shahmar Hajiyev. Geopolitical and economic significance of TANAP.
2. https://aircenter.az/en/single/geopolitical-and-economic-significance-of-tanap-160
2. https://www.tanap.com/en/tanap-project
3. https://www.sgc.az/az/layihe/tanap


## SUMMARY
## IMPORTANCE OF TANAP PROJECT


***Nasirova N.M.***



***Keywords:*** *natural gas, project, geopolitical, exporter*



The research paper is about the TANAP gas project and its importance for the region. Azerbaijan has been actively involved in the oil and gas industry for nearly two hundred years and is considered one of the birthplaces of "black gold". According to 2016 statistics, Azerbaijan produces more than 800,000 barrels of oil per day and about thirty billion cubic meters of natural gas annually, which is an excellent indicator for a small South Caucasus country with a population of only 10 million. However, as the second decade of this century progressed, the Republic of Azerbaijan made serious efforts to regain its main status in the global oil and gas industry.


## РЕЗЮМЕ
## ВАЖНОСТЬ ПРОЕКТА TANAP


***Насирова Н.М.***



***Ключевые слова:*** *природный газ, проект, геополитика, экспортер*



Исследовательская работа посвящена газовому проекту ТАНАП, его значению для региона. На протяжении почти двухсот лет Азербайджан активно участвует в нефтегазовой промышленности и считается одним из мест рождения "черного золота". Согласно статистике 2016 года, Азербайджан добывает более 800 тысяч баррелей нефти в день, около тридцати миллиардов кубометров природного газа ежегодно, что является отличным показателем для небольшого Южнокавказского государства с населением всего 10 миллионов человек. Однако по мере развития второго десятилетия этого столетия Азербайджанская Республика предпринимала серьезные попытки вернуть себе ключевой статус в мировой нефтегазовой промышленности

# BAKI NEFTİ SOVET RUSİYASI, ALMANİYA VƏ BÖYÜK BRİTANİYA GEOSİYASİ RƏQABƏTİNDƏ (1917-1918-Cİ İLLƏR)

**Məmmədov Ənvər Fəttah oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, t.f.d., dosent*
mammadovanvar1969@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, bolşevik Rusiyası, Almaniya, Böyük Britaniya, Bakı nefti, geosiyasi rəqabət*

***Xülasə.*** *Tədqiq olunan dövrdə bu region, xüsusilə Azərbaycan beynəlxalq münasibətlərə qədəm qoymuşdur, baxmayaraq ki, müstəqil respublikamızın təşəkkülünə hələ çox vaxt qalmışdı. Döyüşən dövlətlərin Bakı neftinə olan kəskin ehtiyac onu bu dövlətlərin maraq dairəsinə saldı. Təqdim olunan məqalədə çar Rusiyasının sələfinin varisi olan, onun mahiyyətini qoruyub saxlayan və yalnız simasını dəyişdirən bolşevik Rusiyası, Almaniya və Böyük Britaniya arasında bu regionda Bakı nefti uğrunda mübarizə problemi araşdırılır*

Tədqiq olunan dövrdə imperialist dövlətlərinin planlarında neft Bakısı Cənubi Qafqaza sahib olmaq üçün əsas strateji baza kimi nəzərdə tutulurdu. Digər tərəfdən onlar üçün Bakı ən mühüm xammal bazası, bütövlükdə isə bütün Şərqə təsir edərək, ona sahib olmaq üçün bir açar rolunu oynayırdı. Əlbəttə, bolşevik Rusiyasına rəhbərlik edən V.İ.Lenin yeni Rusiyanın keçmiş Rusiya imperiyası sərhədlərində saxlamaq məqsədinə sadiq idi və bu plan beynəlmiləlçilik bayrağı altında yerinə yetirilməkdə davam edirdi. Azərbaycan neftinin gənc covet Rusiyası üçün hansı önəmə malik olduğunu qeyd edən rus müəllifi R.İ.Berzin özünün dünyada neft uğrunda mübarizə (Мировая борьба за нефть) probleminin araşdırılmasına həsr etdiyi əsərində yazırdı ki, neftin əldən veilməsi nəinki cinayətdir, bu həm də iqtisadi özünü qəsdə bərabərdir [4, s. 4].

Bakının itirilməsi bolşevik Rusiyası üçün hər şeydən öncə ağır iqtisadi itki olmaqla o, bununla barışmaq istəmirdi. Sovetləşdikdən sonra Almaniya ilə separat sülh bağlayaraq müharibədən çıxan, bununla belə son dərəcə iqtisadi çətinliklərlə üzləşən bolşevik Rusiyası üçün bəhs olunan dövrdə neftlə zəngin Bakı rayonunun ələ keçirilməsi həyati əhəmiyyətli məsələyə çevrilmişdi. 1918-ci ildə bu məqsədlə Almaniya ilə gizli danışıqlar aparan bolşevik Rusiyası ona Bakıdan əldə olunacaq neftin dörddə birini verməyi öhdəsinə götürmüşdü. Bunun müqabilində isə Almaniya müttəfiqi Osmanlı Türkiyəsinə Cənubi Qafqazın şərq hissəsinin Rusiyaya qaytarılması məqsədilə təzyiq göstərməli idi [5, s. 193]. Sonrakı hadisələr, daha doğrusu isə Almaniyanın Dünya müharibəsində məğlub olması tərəflər arasında Azərbaycan nefti ilə bağlı imzalanmış gizli protokola rəğmən bolşevik Rusiyasının bu planının kağız üzərində qalmasına səbəb olmuşdu.

Rusiyanın keçmiş sərhədlərinin bərpa olunması məsələsində bolşeviklərlə eyni mövqedən çıxış edən denikinçilərin də neftlə zəngin Azərbaycanla bağlı xüsusi mübhəm planları var idi. Bunu Rusiya Federasiyasının Dövlət Arxivindən əldə olunmuş bir sənəddə, denikinçi ağqvardiyaçı polkovnikin yaddaş kitabçasında qeyd olunanlar da açıq şəkildə göstərir.

Həmin sənəddə denikinçilərin Azərbaycanla bağlı planları barədə qeyd olunurdu ki, Rusiyanın gələcəkdə inkişafı üçün Bakının Rusiyanın tərkibinə qaytarılmasına məsələsinə xüsusi yer ayrılmalıdır. Onun yazdığına görə bu istiqamətdə işlərin aparılması zamanı yerli əhalidən rus hakimiyyətini müdafiə edənlər də bu işə cəlb edilməlidir. Azərbaycanda özləri üçün etibarlı sosial dayaq yaratmaq niyyəti ilə 1917-1918-ci illərdə Cənubi Qafqazda baş verən təlatümlü hadisələr zamanı bu bölgəni tərk etmək məcburiyyətində qalmış rus əhalinin əvvəlki yaşayış yerlərinə qaytarılması da denikinçilərin Azərbaycanla bağlı planlarına daxil idi. Bu məqsədlə denikinçilərin Azərbaycanda rus hakimiyyətinə qarşı çıxan müsəlman əhalini sürgün etməklə onların məskənlərində Don, Kuban və Terek vilayətlərindən kazakları köçürmək kimi planları var idi [2, v. 18-19].

Bakı nefti Osmanlı dövlətinin xarixi siyasətində də xüsusi yer tuturdu. 11 may 1918-ci ildə toplanmış Batum Konfransındakı diqqət çəkən cəhətlərdən biri də Bakı neft yataqlarına meyl edən

Almaniyanın da Konfransa qatılması idi. General Otto fon Lossovun başçılıq etdiyi heyətə Tiflisdə Almaniya baş konsulu olmuş Kont Fridrix fon der Şulemburq, diplomat Otto Günter fon Vetsendonk və polkovnik Kress fon Kressenştayn daxil idilər. Rusiya da bu müzakirələrə qoşulmaq istəsə də Osmanlı hökuməti Çiçerinin notasını gözardı edərək buna icazə verməmişdi.

Tədqiq olunan dövrdə İngiltərə Bakı neftinə sahib olmaq üçün bir neçə dəfə hərbi hissələrindən istifadə etmişdir. İranda olan İngilis hərbi hissəsinin rəhbəri general Denstervil erməni-daşnaklarınn dəvəti ilə İngiltərə höküməti üçün neft Bakısını zəbt etmək məqsədilə Xəzər dənizi vasitəsilə 16 avqustda (1918) bakıya gəlmişdi. Həmin ilin sentyabrın 15-də Bakı bu azad edildikdən sonra bu avantüraya son qoyulmuşdu.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xarixi dövlətlərin Azərbaycan nefti ilə bağlı mübhəm planlarının gerçəkləşməsinə imkan vermədi.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Yeddi cilddə. VI c (aprel 1920-iyun 1941). Bakı: Elm, 2000, 568 s.
2. Rusiya Federasiyasının Dövlət Arxivi, fond 446, siyahı 2, iş 41
3. Enis Şahin. Türkiye ve Maverâ-yı Kafkasya İlişkileri İçerisinde Trabzon ve Batum Konferansları ve Antlaşmaları (1917-1918). Ankara, Türk Tarih Kurumu, 2002
4. Берзин Р.И. Мировая борьба за нефть. Москва, 1922. 125 стр.
5. Волхонский М.А., Муханов В.М. По следам Азербайджанской Демократической Республики. Москва, издательство «Европа», 2007. 254 с.



**SUMMARY**

**BAKU OIL IN THE GEOPOLITICAL RIVALRY OF RUSSIA, GERMANY AND GREAT BRITAIN (1917-1918)**

***Mammadov A.F.***

***Key words**: Azerbaijan, Bolshevik Russia, Germany, Great Britain, Baku oil, geopolitical competition*

In the studied period, this region, especially Azerbaijan, entered into international relations, despite the fact that there was still a long time left for the establishment of our independent republic. The acute need for Baku oil by the belligerent states brought it into the sphere of interest of these states. In the presented article, the problem of the struggle for Baku oil in this region between Bolshevik Russia, Germany and Great Britain, which is the successor of the predecessor Tsarist Russia, which has kept its essence and changed only its appearance, is investigated.



**РЕЗЮМЕ**

**БАКИНСКАЯ НЕФТЬ В ГЕОПОЛИТИЧЕСКОМ СОПЕРНИЧЕСТВЕ РОССИИ, ГЕРМАНИИ И ВЕЛИКОБРИТАНИИ (1917-1918 ГГ.)**

***Мамедов А.Ф.***

***Ключевые слова**: Азербайджан, большевистская Россия, Германия, Великобритания, бакинская нефть, геополитическая конкуренция*

В исследуемый период этот регион, особенно Азербайджан, вступил в международные отношения несмотря на то, что до становления нашей независимой республики оставалось еще много времени. Острая потребность в бакинской нефти воюющих государств вывела ее в сферу интересов этих государств. В представленной статье исследуется проблема борьбы за бакинскую нефть в этом регионе между большевистской Россией, являющейся преемницей предшественницы царской России, сохранившей ее суть и изменившей лишь облик, Германией и Великобританией,

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI: AZƏRBAYCANIN QLOBAL LİDERLİYƏ YOL AÇAN TARİXİ SAZİŞİ

**Cəlalzadə Bənövşə Mehdi qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, müəllim*
Benovse.celalzade@sdu.edu.az

*"Bizim borcumuz Azərbaycanın simasını dəyişməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını bu hüriyyət yolu ilə, demokratiya yolu ilə təmin etməkdir."*
***Heydər Əliyev***

***Açar sözlər:*** *Azərbaycan, neft, müqavilə, şirkət, platforma.*
***Xülasə:*** *XX əsrin ən möhtəşəm qlobal enerji layihəsi olan "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür. 1994-cü il sentyabrın 20-də imzalanan bu müqavilə, Azərbaycanın enerji sektoru üçün mühüm dönüş nöqtəsi oldu. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən bu strateji layihə, ölkənin beynəlxalq enerji bazarına inteqrasiyasını və iqtisadi inkişafını təmin etdi. Azərbaycanın neft ehtiyatları beynəlxalq sərmayələr üçün cəlbedici hala gəldi və bu gün də dövlətin inkişafında əsas rol oynayır.*

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı, Azərbaycanın siyası tarixinə qurtuluş hərəkatı kimi daxil oldu. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkəmizi düşdüyü ağır iqtisadi və siyasi böhrandan xilas etmək, yaranmış qeyri-sabit vəziyyəti aradan qaldırmaq missiyasını öz üzərinə götürdü və bu çətin, mürəkkəb, lakin şərəfli işin öhdəsindən layiqincə gəldi. Ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu. Müstəqil Azərbaycan dövlətinin qurucusu və xilaskarı Heydər Əliyev ölkəmizin milli maraqlarını və xarici ölkələrin qarşılıqlı mənafelərini nəzərə almaqla, Azərbaycanın neft ehtiyatlarına maraq göstərən hər bir ölkə ilə faydalı əməkdaşlığa hazır olduğunu bəyan etdi. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft startegiyası və onun mərhələli şəkildə uğurla həyata keçirilməsi Azərbaycanı regionda lider dövlətə çevirmişdir.

Heydər Əliyevin sayəsində ölkəmizin dünya ölkələri ilə bağladığı müqavilələr Azərbaycanı dünya səviyyəsində tanıtmağa və ölkənin iqtisadi inkişafını təmin etməyə xidmət etmişdir. Bu müqavilənin əsasını 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsi təşkil edir.

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında Azərbaycanla Amerikanın "Amoko", "Yunokol", "Mak Dermot", "Penzoyl", Böyük Britaniyanın "Britiş Petroleum", "Remko", Norveçin "Statoyl", Rusiyanın "Lukoyl", Türkiyənin "Türk Petrol", Səudiyyə Ərəbistanın "Delta" şirkətlərinin yaratdığı konsorium arasında tarixə Əsrin müqaviləsi kimi daxil olan neft müqaviləsi imzalanadı. Sonradan müqaviləyə Yaponiyanın "İtoçu" və Amerikanın "Eksson", "Amerada Ness" şirkətləri də qoşuldular.

Əsrin müqaviləsinin əhatə etdiyi "Azəri", "Çıraq", "Günəşli" yataqlarında ilkin neft ehtiyatları 511 mln. ton səviyyəsində qiymətləndirilirdi. Qazma nəticəsində müəyyən olundu ki, neft ehtiyatları 640 mln. ton, səmt qaz ehtiyatları 5.100 mlrd. kub metr, sərbəst qaz ehtiyatları isə 100-150 mlrd. kub metr, ehtimal olunan sərmayə 10 mlrd. dollar həcmində nəzərdə tutulurdu. Əsrin müqaviləsini həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı.

1997-ci il noyabrın 12-də Heydər Əliyevin iştirakı ilə "Çıraq 1" platformasında ilk neft quyusunun istismara verilməsi münasibətilə təntənəli mərasim keçirildi. 1997-ci ilin noyabrından bu günə qədər bu sahədə böyük həcmdə işlər görülmüşdür. "Çırq 1" neft quyusundan 14 min tondan çox neft çıxarılmışdır. 1999-cu ilin aprelin 17-də müstəqil Azərbaycan tarixində fövqəladə əhəmiyyətli hadisə baş verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şvarnadze, Ukranya Prezidenti Leonid Kuçmanın iştirakı ilə Bakı-Supsa neft

kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Azərbaycan neftinin Novrossiysk limanından əlavə olaraq Supsa limanından dünya bazarına ixrac edilməsinə başlandı.

Bakı-Tiblisi-Ceyhan əsas ixrac neft kəmərinin ümumi uzunluğu 1730 km-dir. Kəmərin 468 km-i Azərbaycandan, 225 km-i Gürcüstandan, 1037 km-i Türkiyədən keçir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin apardığı uzaqgörən siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-də imzalanan birinci neft müqaviləsindən sonra Azərbaycan Dövlət Neft şirkəti ilə başqa dövlətlərin böyük neft şirkətləri arasında da yeni müqavilələr imzalandı. Belə ki, 1995-ci il noyabrın 10-da ARDNŞ ilə Penzoyl, Acip və Lukoyl şirkətləri ilə ikinci kontrakt imzalandı. 1996-cı ildə Xəzər neft şirkəti yaradıldı və "Qarabağ" strukturunda işlərə başlanıldı.

1996-cı ilin iyunun 4-də Lukoyl (Rusiya), BP (Böyük Britaniya), Statoyl (Norveç), Elf Agiten (Fransa) və İMANK (İran) şirkətləri ilə üç kontrakt imzalandı. Bu kontraktda "Şahdəniz" strukturunun birlikdə kəşf edilməsi və işlənilməsi nəzərdə tutulurdu. Dördüncü kontrakt 1996-cı il dekabrın 4-də "Əşrəfi" və "Dan ulduzu" strukturlarında ABŞ-ın "Yunokol", "Amoko", Yaponiyanın "İtoçu", Səudiyyə Ərəbistanın "Delta" şirkətləri ilə imzalandı. Beşinci kontrakt Fransanın "Elf Agiten", "Total" şirkətləri ilə "Lənkəran-dəniz" və "Talış-dəniz" strukturlarının birgə kəşf edilməsi və işlənilməsinə dair 1997-ci ilin yanvarın 14-də Parisin Yelisey sarayında Fransa Prezidenti Jak Şirak və Azərbayca Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə imzalanmışdır.

Neft müqavilələrinə əsasən Xəzər dənizində neftin çıxarılması və ixracının kompleks şəkildə həyata keçirilməsi nəzərdə tutulurdu. Neft konsoriumu 1994-cu il okytabrın 9-da "Əsrin müqaviləsi" üzrə çıxarılan ilkin neftin ixracı üçün iki marşurutla neft kəmərinin çəkilməsi haqqında qərar qəbul edildi.

Bir sözlə "Əsrin müqaviləsi" sahəsində Azərbaycan öz sərvətlərinin sahibi olduğunu bir daha nümayiş etdirdi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu siyasət, bu gün zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan, cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan öz inkişafının intibah dövründə yaşayır və inamla gələcəyə doğru irəliləyir.

## Ədəbiyyat


1. Aslanbəyli, B. Heydər Əliyev və "Əsrin müqaviləsi" //Azərbaycan . -2023.- 20 sentyabr.-S.9.
http://www.anl.az/down/meqale/azerbaycan/2023/sentyabr/866455(meqale).pdf
2. Bayramov, V. "Əsrin müqaviləsi"nin imzalanmasından 28 il ötür: "Əsrin müqaviləsi" ilə milli uğur strategiyasının əsası qoyulub. //Xalq qəzeti . -2022.- 20 sentyabr.- S.5.
http://www.anl.az/down/meqale/xalqqazeti/2022/sentyabr/814523(meqale).pdf
3. Seyidov, Ə. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: UniPrint, 2010, 323 s.
4. Rza, Z. Uğurlarımızın memarı: Ulu öndərin neft strategiyası.//İki sahil . -2022.- 7 may.- S.9.
http://www.anl.az/down/meqale/iki_sahil/2022/may/795773(meqale).pdf



**SUMMARY**

**HEYDAR ALIYEV'S OIL STRATEGY: THE HISTORIC AGREEMENT THAT PAVED THE WAY FOR AZERBAIJAN'S GLOBAL LEADERSHIP**

***Jalalzade B.M.***

***Keywords:*** *Azerbaijan, oil, contract, company, platform*

Thirty years have passed since the signing of the greatest global energy project of the 20th century — the "Contract of the Century." On September 20, 1994, this contract was signed, marking a significant milestone for Azerbaijan's energy sector. Under the leadership of Heydar Aliyev, this strategic project ensured the country's integration into the international energy market and contributed to its economic development. Azerbaijan's oil resources became attractive to international investments and continue to play a key role in the country's development today.

**РЕЗЮМЕ**
**НЕФТЯНАЯ СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА: ИСТОРИЧЕСКОЕ СОГЛАШЕНИЕ, ОТКРЫВАЮЩЕЕ ПУТЬ К ГЛОБАЛЬНОМУ ЛИДЕРСТВУ АЗЕРБАЙДЖАНА**
***Джалалзаде Б.М.***

***Ключевые слова:*** *Азербайджан, нефть, договор, компания, платформа.*

Прошло 30 лет с момента подписания крупнейшего глобального энергетического проекта XX века — "Контракта века". 20 сентября 1994 года был подписан этот контракт, ставший важной вехой для энергетического сектора Азербайджана. Под руководством Улугбека Гейдара Алиева, данный стратегический проект обеспечил интеграцию страны в международный энергетический рынок и способствовал её экономическому развитию. Нефтяные ресурсы Азербайджана стали привлекательными для международных инвестиций, и по сей день играют ключевую роль в развитии государства.

## AZƏRBAYCAN NEFT STRATEGİYASINDA XARİCİ ŞİRKƏTLƏRİN ROLU VƏ İŞTİRAKI HAQQINDA

**Baxşəliyev Samir Fazil oğlu**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
baxshaliev81@mail.ru

***Açar sözlər:*** *prezident, İlham Əliyev, neft, xarici kapital, Əsrin müqaviləsi*

***Xülasə.*** *Azərbaycan öz sərvətlərinin sahibi olduqdan sonra iqtisadiyyatının neft-qaz sektorunda yığılmış bütün problemlərin qarşılıqlı faydalı şərtlər əsasında həllində iştirak etmək üçün əhəmiyyətli maliyyə resurslarına malik iri xarici neft şirkətləri ölkəyə dəvət edildi. Belə xarici şirkətlər kapital, texnologiya, təcrübə və bazara çıxış təmin etməklə Azərbaycanın neft-qaz sektorunun inkişafına öz töhfələrini vermişlər. Onlar həmçinin iş yerləri yaradır, vergi ödəyir, ölkədə sosial və ekoloji layihələrə dəstək verirlər.*

1993-cü ildə Heydər Əliyevin dövlət başçısı seçilməsindən sonra Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsi və ölkə iqtisadiyyatının neft-qaz sektorunun inkişafı sahəsində dövlət siyasətinin birinci mərhələsi xarici dövlətlərin cəlb edilməsinə əsaslanmışdır.

